**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**İQTİSADİYYAT İNSTİTUTU**

**Yunus Sadıqov**

# Aqroemal siyasəti
# Dövlət tənzimləməsi və inkişaf strategiyaları

**Bakı 2025**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu Elmi Şurasının 29 oktyabr 2025-ci il tarixli iclasının qərarı ilə çapa tövsiyə olunmuşdur.

**Elmi redaktor:** AMEA-nin müxbir üzvü,
Əməkdar elm xadimi, i.e.d., prof. Şahbaz Muradov

**Rəyçilər:** AMEA-nin müxbir üzvü,
i.e.d., prof. Əli Nuriyev
i.e.d., prof. Tərbiz Əliyev
i.e.d., prof. Vahid Abbasov

**Yunus Musa oğlu Sadıqov. Aqroemal siyasəti: Dövlət tənzimləməsi və inkişaf strateqiyaları. Bakı**

Bu monoqrafiyada Azərbaycanda aqroemal sahəsinin formalaşması, inkişaf mərhələləri və müasir çağırışlar fonunda dövlət tənzimlənməsi məsələləri kompleks şəkildə təhlil olunur. Tədqiqatda aqrar-sənaye kompleksinin institusional əsasları, islahatların iqtisadi nəticələri və rəqabətqabiliyyətliliyin yüksəldilməsi yolları elmi əsaslarla şərh edilir. Müəllif həm nəzəri yanaşmalardan, həm də yerli və beynəlxalq statistik məlumatlardan istifadə edərək aqroemal sahəsinin mövcud vəziyyətini və perspektivlərini qiymətləndirir.

Monoqrafiya iqtisadiyyat və kənd təsərrüfatı sahəsində çalışan tədqiqatçılar, ali məktəb müəllimləri, magistrant və doktorantlar, sahə üzrə qərarverici qurumların mütəxəssisləri, həmçinin aqrar və emal sənayesi üzrə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

**DOI: https://doi.org/10.36719/0835/2025**

# MÜNDƏRİCAT

**GİRİŞ**..........................................................................................5

**I FƏSİL. Aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları**

1.1. Aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin mahiyyəti, nəzəri əsasları və inkişaf tarixi..............................................17

1.2. Aqroemal sahəsinin dövlət tənzimlənməsinin metodları və prinsipləri..........................................................................................40

1.3. Aqroemal sahəsinin dövlət tənzimlənməsində beynəlxalq modellər və Azərbaycana uyğunluq imkanları......................................52

**II FƏSİL. Azərbaycanın aqroemal sənayesinin mövcud vəziyyəti və struktur təhlili**

2.1. Aqroemal sənayesinin xammal bazasının (kənd təsərrüfatı sektorunun) resurs potensialı və təminat imkanları.................................70

2.2. Aqroemal müəssisələrinin fəaliyyət göstəriciləri və istehsal potensialının təhlili..........................................................................92

2.3. Aqroemal sənaye müəssisələrinin təchizatçılar və istehlakçılarla qarşılıqlı əlaqələrinin bazar mühitində transformasiyası.........................................................................146

2.4. Aqroemal sektorunun kənd təsərrüfatının inkişafına təsirinin riyazi-statistik modellərlə qiymətləndirilməsi......................................166

**III FƏSİL. Dövlət tənzimləməsinin iqtisadi mexanizmləri və institusional dəstək**

3.1. Azərbaycan iqtisadiyyatının diversifikasiyasında aqroemal sənayesinin rolu..........................................................................193

3.2. Rəqabət qabiliyyətinin artırılması vasitələri........................218

3.3. Maliyyə-kredit və subsidiya mexanizmləri.........................242

3.4. Aqroemal sahəsinin dayanıqlı inkişafında dövlət proqramları və institusional tənzimləmə mexanizmləri..........................................262

3.5. İnnovasiya və texnoloji modernləşmə alətləri....................278

**IV FƏSİL. Aqroemal sektorun inkişafında yeni çağırışlar və strateji hədəflər**

4.1. Yaşıl iqtisadiyyatla inteqrasiya imkanları..........................301
4.2. Rəqəmsallaşma və klaster modelləri.................................339
4.3. Aqrar emal sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi və dövlət müdaxiləsinin institusional əsasları..........................................354
4.4. Aqroemal sahəsində idarəetmənin səmərəliliyi və strateji modernləşmə...........................................................................371
**V FƏSİL. Azərbaycanın ÜTT-yə daxilolma perspektivləri və aqroemal sektora təsiri**
5.1. ÜTT-yə üzvlüyün strateji baxımdan qiymətləndirilməsi və Azərbaycan iqtisadiyyatı üçün çağırışlar.......................................399
5.2. Aqroemal sektorunda ÜTT-yə inteqrasiyanın gözlənilən təsirləri və adaptasiya prioritetləri..................................................412
**VI FƏSİL. Postmünaqişə ərazilərdə aqroemal sektorun yaradılması: çağırışlar və imkanlar**
6.1. İşğaldan əvvəl və sonrası: torpaq ehtiyatları və infrastruktur reallıqları.........................................................................................427
6.2. Qayıdış və yenidənqurma proseslərinin aqroemal sektoruna təsiri...............................................................................................442
**VII FƏSİL. Aqroemal Sektorunun Dövlət Tənzimlənməsi üzrə Nəticələr və Strateji Tövsiyələr**.......................................................471
7.1. Dövlətin institusional və normativ müdaxiləsinə dair təkliflər.............................................................................................472
7.2. Sahibkarlığın təşviqi və praktiki stimullaşdırma mexanizmləri üzrə təkliflər...............................................................................492
**ƏDƏBİYYAT SİYAHISI**.....................................................504
**ƏLAVƏLƏR**.....................................................................530
**QISALTMALAR VƏ ŞƏRTİ İŞARƏLƏR**...........................547

# GİRİŞ

Müasir dövrdə hər bir ölkənin sosial rifahı və siyasi sabitliyi ilə iqtisadi inkişaf səviyyəsi arasında sıx qarşılıqlı asılılıq formalaşmışdır. Qloballaşan dünyada güclü dövlət quruculuğunun əsas dayaqlarından biri şəffaf və çevik iqtisadi idarəetmə, açıq bazar prinsiplərinə əsaslanan sahibkarlıq mühiti və rəqabətqabiliyyətli istehsal sistemlərinin inkişafıdır. Bu kontekstdə iqtisadiyyatın əsas sahələrinin – o cümlədən sənaye, kənd təsərrüfatı və xidmət sektorlarının – effektiv və şəffaf şəkildə tənzimlənməsi dövlətin dayanıqlı inkişafına birbaşa təsir göstərir.

Xüsusilə aqrar-sənaye kompleksinin səmərəli fəaliyyət göstərməsi, yalnız kənd təsərrüfatı və sənaye sahələrinin bir-birinə inteqrasiyası ilə deyil, həm də bu prosesin düzgün tənzimlənməsi və iqtisadi əlaqələrin optimallaşdırılması ilə mümkündür. Kənd təsərrüfatı məhsullarının emalı sahəsi son yarım əsrdə yalnız iqtisadi strukturun texniki modernləşməsi baxımından deyil, həm də yeni istehsal və bazar əlaqələrinin yaranması baxımından strateji rol oynamışdır.

Azərbaycan Respublikasının müstəqillik qazandığı ilk illər isə iqtisadi baxımdan kifayət qədər mürəkkəb keçid dövrünə təsadüf etdi. 1990-cı illərin əvvəllərində yaşanan siyasi və iqtisadi qeyri-sabitlik, torpaq islahatları ilə müşayiət olunan keçid mərhələsi, sənaye və kənd təsərrüfatı sahələrində ciddi geriləmələrə səbəb olmuşdur. İstehsal həcminin kəskin azalması, gəlirlərin və alıcılıq qabiliyyətinin enməsi nəticəsində daxili tələbat zəifləyib, xüsusilə kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən istehsalçılar üçün motivasiya əhəmiyyətli dərəcədə azalmışdır.

Belə bir şəraitdə kənd təsərrüfatının və ona bağlı emal sənayesinin dövlət tərəfindən yenidən baxılması, tənzimləmə mexanizmlərinin gücləndirilməsi və yeni inkişaf istiqamətlərinin

müəyyənləşdirilməsi zərurətə çevrildi. Bazar iqtisadiyyatına keçid və özəlləşdirmə prosesləri ilk baxışdan sistemin liberallaşmasına imkan yaratsa da, praktika göstərdi ki, kənd təsərrüfatı kimi strateji sahələrin inkişafında dövlətin məqsədyönlü müdaxiləsi və tənzimləyici rolu həlledici əhəmiyyət daşıyır. Bu da aqroemal sahəsinin davamlı inkişafı və milli ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün yeni idarəetmə modellərinin tətbiqini gündəmə gətirdi.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi istənilən ölkədə yalnız makroiqtisadi sabitliyin təmin edilməsinə deyil, eyni zamanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, strateji sahələrdə dayanıqlığın qorunması və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə yönəlmiş vacib bir funksiyanı yerinə yetirir. Bu baxımdan, iqtisadiyyatın bütün seqmentlərində, xüsusilə də aqrar və ona bağlı emal sahələrində səmərəli dövlət siyasətinin qurulması uzunmüddətli sosial-iqtisadi məqsədlərin reallaşması baxımından həlledici əhəmiyyətə malikdir.

Azərbaycanın müstəqillik dövründə həyata keçirilən iqtisadi islahatlar fonunda iqtisadiyyatın əsas sahələrində struktur dəyişiklikləri baş vermiş, bazar münasibətləri tədricən formalaşmağa başlamışdır. Bu şəraitdə aqroemal sahəsi də öz inkişaf trayektoriyasını müəyyən etməyə çalışmış və dövlət tərəfindən həyata keçirilən tədbirlərlə tənzimlənməyə başlamışdır. Torpaq islahatları və müxtəlif profilli müəssisələrin özəlləşdirilməsi nəticəsində özəl sektor iqtisadiyyatda dominant mövqe tutmağa başlamış, lakin bu prosesin səmərəli və balanslı inkişafı üçün dövlətin müdaxiləsi qaçılmaz olmuşdur. Bu xüsusda, dövlətin normativ-hüquqi tənzimləmə və institusional təşviq alətləri getdikcə daha böyük aktuallıq kəsb etmişdir.

Əmək resurslarının böyük hissəsinin aqrar sahədə cəmləşdiyi inkişaf etməkdə olan ölkələr üçün aqrar-sənaye kompleksinin, xüsusən də aqroemal sahəsinin inkişafı olmadan yüksək texnoloji iqtisadi sistemə keçid mümkün deyil. Emal sahəsi sadəcə məhsulun dəyərini artırmaqla qalmır, eyni zamanda istehsal zəncirinin sabitliyini və ərzaq bazarında rəqabət qabiliyyətini də gücləndirir. Üstəlik, bu sahənin inkişafı təbii ehtiyatların daha səmərəli istifadəsi və ekoloji sabitliklə də sıx bağlıdır. Bu baxımdan, aqroemal sektorunun dövlət tərəfindən məqsədyönlü şəkildə tənzimlənməsi, yalnız iqtisadi deyil, həm də sosial və ekoloji əhəmiyyət daşıyan çoxşaxəli bir məsələdir.

Son illərdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması, daxili istehsalın gücləndirilməsi və idxaldan asılılığın azaldılması məsələləri dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə 2020-ci ildə işğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə cəlb olunması perspektivi bu sahədə yeni imkanlar və eyni zamanda ciddi çağırışlar doğurur. Həmin ərazilərdə aqroemal sahəsinin bərpası və müasir texnologiyalara əsaslanan yeni müəssisələrin yaradılması, regionun sosial-iqtisadi dirçəlişi ilə yanaşı, ölkənin ümumi ərzaq təminatı sisteminə də strateji töhfələr verə bilər. Emal müəssisələrinin bu regionlarda təşkili həm logistik zəncirləri qısaldacaq, həm də regional bərabərliyi təşviq edəcək.

Azərbaycanın iqtisadi düşüncəsində aqroemal sektorunun dövlət tərəfindən tənzimlənməsi məsələsi son illərdə həm nəzəri, həm də tətbiqi səviyyədə geniş araşdırılmağa başlanmışdır. Müasir dövrdə bu sahədə tədqiqatlar aparmış bir sıra iqtisadçı alimlər – Ə.X. Nuriyev, İ.H. Əliyev, A.İ. Məmmədov, V.H. Abbasov, İ.H. İbrahimov, B.X. Ataşov və başqaları – müxtəlif aspektlər üzrə dövlət müdaxiləsinin rolu və təsir mexanizmlərini öyrənmişlər.

Onların elmi töhfələri dövlət siyasətinin formalaşmasında nəzərəçarpacaq dərəcədə əhəmiyyət daşıyır.

Eyni zamanda, aqroemal sahəsinin dövlət tərəfindən tənzimlənməsi ilə bağlı nəzəri baza dünya iqtisadi fikir tarixində də geniş şəkildə işlənmişdir. Hələ XVIII əsrdə fiziokrat məktəbinin banisi F. Kene və klassik iqtisadiyyatın nümayəndələrindən A. Smit, sonrakı mərhələdə isə C. M. Keyns dövlətin iqtisadiyyata müdaxiləsinin mahiyyəti və zəruriliyinə dair müxtəlif baxışlar irəli sürmüşlər. Müasir dövrdə isə M. Porter, İ. Şumpeter, P. Druker, S. Qlazev, V. Medvedev, E. Yasin və digərləri dövlətin iqtisadi tənzimləmə alətlərinin effektivliyini, xüsusilə də sahəvi inkişaf strategiyalarındakı rolunu daha dərindən şərh etmişlər.

Son illərdə Azərbaycanın daxili ərzaq bazarında yerli mənşəli məhsullara olan tələbatın artması, eyni zamanda ərzaq idxalından asılılığın azaldılması istiqamətində həyata keçirilən iqtisadi strategiyalar, aqroemal sahəsini dövlət üçün prioritet istiqamətlərdən birinə çevirmişdir. Bu sahəyə olan davamlı və yüksək tələbat həm daxili bazarın tənzimlənməsi baxımından, həm də investisiya baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə şəraitdə dövlətin aqroemal sektoruna sistemli yanaşması və bu sahənin qarşısında duran spesifik vəzifələri düzgün qiymətləndirməsi inkişafın dayanıqlığını təmin etmək üçün əsas şərtlərdən biri kimi çıxış edir.

Aqroemal sahəsinin dövlət tənzimlənməsi isə dəyişən iqtisadi və sosial şəraitə uyğun olaraq daima təkmilləşdirilməyə ehtiyac duyur. Müasir dövrdə kənd təsərrüfatı məhsullarının emalı yalnız məhsulun son istehlak forması ilə məhdudlaşmır, həm də geniş istehsal zəncirində funksional və struktur transformasiyalara səbəb olur. Bu səbəbdən də sahənin tənzimlənməsi sahəsində yeni yanaşmaların işlənib hazırlanması, müasir institutların

formalaşdırılması və elmi əsaslara söykənən qərarların qəbul edilməsi zərurətə çevrilmişdir. Məhz bu zərurət də təqdim edilən tədqiqatın və bu monoqrafiyanın aktuallığını şərtləndirir.

Bu tədqiqatda diqqət mərkəzində olan əsas obyekt — Azərbaycan Respublikasında fəaliyyət göstərən aqroemal təsərrüfat subyektləridir. Bu subyektlər müxtəlif mülkiyyət formalarında təşkil olunmuşdur və həm xammal bazarları ilə, həm də satış istiqamətləri ilə bilavasitə qarşılıqlı əlaqədədir.

Monoqrafiyanın tədqiqat predmeti isə aqroemal sahəsinin inkişafında dövlətin rolunu təşkil edən təşkilati-iqtisadi və sosial münasibətlər sistemi, bu sistemin dinamikasında ortaya çıxan qanunauyğunluqlar, idarəetmə modelləri və elmi-praktik yanaşmalarla əsaslandırılmış tənzimləmə mexanizmləridir.

Bu monoqrafiyanın əsas məqsədi — kənd təsərrüfatı məhsullarının emalı sənayesinin formalaşması, inkişafı və səmərəliliyinin artırılması ilə bağlı nəzəri və tətbiqi məsələlərin sistemli şəkildə araşdırılması, mövcud vəziyyətin təhlil edilməsi və qarşıda duran problemlərin aradan qaldırılması üzrə elmi əsaslandırılmış prioritetlərin müəyyənləşdirilməsi, həmçinin dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin artırılması istiqamətində praktiki tövsiyələrin hazırlanmasıdır.

Məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

- Aqroemal sahəsində mövcud dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini zəruri edən əsas səbəblərin və institusional boşluqların müəyyənləşdirilməsi;
- Dövlət tənzimlənməsi prosesinin çevikliyinin və bazar konyunkturasına uyğunlaşdırılmasının vacibliyinin iqtisadi əsaslarla sübut edilməsi;

- Müxtəlif ölkələrdə aqroemal məhsullarının istehsal və tənzimləmə təcrübəsinin öyrənilməsi, qlobal inkişaf meyllərinin sistemləşdirilməsi;
- Azərbaycanda aqroemal məhsullarının istehsalı və marketinqi sahəsində mövcud vəziyyətin təhlili və sektorlararası əlaqələrin dərinləşdirilmə imkanlarının qiymətləndirilməsi;
- Aqroemal sektorunun inkişafında dövlət tənzimlənməsi mexanizmlərinin mövcud tətbiq praktikasının effektivliyinin qiymətləndirilməsi;
- Müasir bazar şəraitində aqroemal sektorunun strateji hədəflərinin və prioritet istiqamətlərinin formalaşdırılması;
- Aqroemal sahəsinin maliyyələşdirilməsi üzrə mövcud mexanizmlərin səmərəliliyinin artırılması məqsədilə dövlət dəstəyi alətlərinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması;
- Kənd təsərrüfatının spesifik altsektorları üzrə investisiya qoyuluşlarının aqroemal sahəsinə təsirinin kompleks qiymətləndirilməsi və səmərəli yönləndirilməsi yollarının müəyyən edilməsi;
- Dövlət tənzimlənməsi vasitələrinin institusional və funksional baxımdan yenilənməsi əsasında aqroemal sahəsinin davamlı inkişafını təmin edəcək elmi əsaslandırılmış tövsiyələrin formalaşdırılması.

Monoqrafiyada tədqiq olunan məsələlərin hərtərəfli elmi əsaslandırılması üçün bir sıra metodoloji yanaşmalar tətbiq edilmişdir. Tədqiqatın əsas metodoloji bazasını məntiqi ümumiləşdirmələr, sistemli və müqayisəli təhlil, qruplaşdırma, statistik analiz, sorğu və müşahidə, eləcə də iqtisadi-riyazi modelləşdirmə üsulları təşkil edir. Aqroemal sahəsindəki tendensiyaların və dövlət tənzimlənməsi alətlərinin effektivliyinin

qiymətləndirilməsi məqsədilə reqressiya və korrelyasiya analizləri kimi riyazi ölçmələrdən istifadə edilmişdir.

Tədqiqatın əsas informasiya bazasını isə həm milli, həm də beynəlxalq səviyyədə rəsmi və etibarlı mənbələr təşkil edir. Bu kontekstdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin çoxillik statistik göstəriciləri, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Vergi Xidməti, Gömrük Komitəsi və aidiyyəti qurumların hesabatları xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) kimi beynəlxalq təşkilatların müvafiq sənədləri, analitik materialları və illik hesabatları istifadə olunmuşdur.

Tədqiqat çərçivəsində həmçinin konkret aqroemal müəssisələrinin fəaliyyət göstəriciləri əsasında praktiki müşahidələr aparılmış, sahə üzrə əməliyyat məlumatları və internet resurslarından toplanmış faktiki materiallar geniş şəkildə elmi analizə cəlb olunmuşdur.

Araşdırmanın nəticəsi olaraq aşağıdakı əsas müddəalar irəli sürülür:

1. Aqroemal sahəsinin dayanıqlı inkişafını təmin etmək üçün dövlət tənzimlənməsi sistemində xammal və məhsul istehsalı üzrə strateji hədəflərin müəyyən olunması zərurəti elmi cəhətdən əsaslandırılır.

2. Ərzaq məhsullarının idxal asılılığı, daxili bazarın mühafizəsi və yerli istehsalın stimullaşdırılması məqsədilə dövlətin iqtisadi tənzimləmə alətlərindən məqsədyönlü istifadə etməsinin vacibliyini ortaya qoyur.

3. Aqroemal sektorunun davamlı inkişafı üçün rəqabət qabiliyyətinin və sahibkarlıq mühitinin gücləndirilməsi əsas strateji istiqamət kimi müəyyən edilir.

4. Kənd təsərrüfatı subsidiyalarının məhsul nəticələrinə əsaslanaraq verilməsi, məhsuldarlıq və keyfiyyət artımına təsirini gücləndirməklə yanaşı, xammal üzrə idxal asılılığını da azalda bilər. Bununla yanaşı, faktorinq və vençur maliyyələşdirmə modellərinin aqroemal müəssisələrində tətbiqi zəruridir.

5. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqroemal potensialı ilk dəfə sistemli şəkildə təhlil edilmiş və azad edilmiş ərazilərdə tənzimləyici tədbirlərin və torpaq islahatlarının aparılması zərurəti əsaslandırılmışdır.

6. Aqroemal sahəsində regional və sektorial klasterlərin formalaşdırılması üzrə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi zəruridir.

7. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü milli iqtisadiyyatın qlobal iqtisadi məkana inteqrasiyası baxımından vacibdir və aqroemal sektorunun beynəlxalq rəqabətə uyğunlaşdırılması üçün yeni imkanlar yaradır.

8. Aqroemal sahəsinin inkişafı üçün dövlət tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinə dair konkret təkliflər hazırlanmış və onların tətbiqi imkanları göstərilmişdir.

Aparılmış araşdırmalar nəticəsində aqroemal sahəsinin inkişafı və dövlət tənzimlənməsi üzrə bir sıra nəzəri və praktik əhəmiyyətli elmi yeniliklər əldə olunmuşdur:

1. Azərbaycanın aqroemal sahəsinin və bu sahədə fəaliyyət göstərən müəssisələrin cari vəziyyəti kompleks şəkildə təhlil olunmuş, istehsal həcmlərindəki azalmalar və bəzi alt sahələrdə müşahidə edilən durğunluğun səbəbləri müəyyənləşdirilmişdir. Eyni zamanda, müəssisələrin fəaliyyət səmərəliliyinin artırılması üzrə elmi-praktik yanaşmalar işlənmiş və inkişaf perspektivləri müəyyənləşdirilmişdir.

2. Aqroemal sənayesinin kənd təsərrüfatı ilə qarşılıqlı təsir sistemində rolu tədqiq olunmuş, dövlət dəstəyinə ehtiyac duyan yarımsahələr və onların inkişaf prioritetləri formalaşdırılmışdır.

3. Aqroemal məhsullarının daxili və xarici bazarlarda rəqabətqabiliyyətinin təmin edilməsinin zəruriliyi, qlobal iqtisadi trendlərə uyğun olaraq əsaslandırılmış, bu istiqamətdə mövcud problemlərin kompleks şəkildə həllinə dair elmi-praktik tövsiyələr verilmişdir.

4. Aqroemal müəssisələrinin innovativ-investisiya modelinə keçidinin zəruriliyi sübuta yetirilmiş, maddi-texniki bazanın modernləşdirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalı və innovasiya yönümlü inkişaf istiqamətində tədbirlər irəli sürülmüşdür.

5. Azərbaycanın aqrar sahəsində dominant olan xammal və yarımxammal yönümlü ixrac modelinin, aqroemal sektorunda yüksək əlavə dəyər yaradan, innovativ-investisiya əsaslı istehsal və ixrac modeli ilə əvəz olunmasının zəruriliyi elmi əsaslarla göstərilmişdir.

6. Aqroemal müəssisələrinin rəqabət mühitində üzləşdiyi əsas maneələr və struktur problemlər sistemləşdirilmiş, bu sahənin strateji inkişaf trayektoriyası müəyyənləşdirilmişdir.

7. Kənd təsərrüfatı məhsullarının istehsal həcminin aqroemal müəssisələrinin dayanıqlı fəaliyyəti ilə əlaqəsini ölçən riyazi-statistik model qurulmuş, korrelyasiya və reqressiya analizi vasitəsilə funksional əlaqələr empirik olaraq sübut edilmişdir.

8. Vençur kapitalı modellərinin, xüsusilə yüksək riskli və innovativ layihələrin maliyyələşdirilməsində səmərəliliyi və üstünlüyü sübuta yetirilmiş, aqroemal müəssisələrində bu mexanizmlərin tətbiqi imkanları təhlil olunmuşdur.

9. Faktorinq xidmətinin aqroemal müəssisələrinin dövriyyə kapitalının gücləndirilməsində effektiv maliyyə aləti kimi rolu müəyyənləşdirilmiş, xüsusilə maliyyə imkanları zəif olan müəssisələr üçün satışların artırılmasına təsiri elmi əsaslarla əsaslandırılmışdır.

10. Aqroemal sahəsində klasterlərin formalaşdırılması və inkişafının istehsal səmərəliliyi və ixrac qabiliyyətinə müsbət təsiri araşdırılmış, klaster yanaşmasının tətbiqinin institusional zəruriliyi və perspektivləri elmi şəkildə əsaslandırılmışdır.

11. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün aqroemal sektoruna mümkün təsirləri tədqiq olunmuş, bu üzvlüyün milli iqtisadiyyatın beynəlxalq bazarlara inteqrasiyası, xarici investisiya axını və ticarətin liberallaşdırılması baxımından strateji əhəmiyyəti elmi-praktik əsaslarla göstərilmişdir.

Nəticə etibarilə, bu monoqrafiyada təqdim olunan müddəalar və elmi yeniliklər aqroemal sahəsinin dayanıqlı inkişafına yönəlmiş dövlət siyasətinin elmi əsaslarla formalaşdırılmasına töhfə verir və iqtisadi idarəetmədə yeni strateji yanaşmaların tətbiqinə imkan yaradır.

Hazırkı tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti aqroemal sahəsinin dövlət tənzimlənməsi sisteminin əsas elementlərinin — idarəetmə, maliyyə-kredit və təşkilati-iqtisadi mexanizmlərin — təkmilləşdirilməsinə yönəlmiş elmi əsaslandırılmış yanaşmalar və konkret tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın nəzəri əhəmiyyəti, aqroemal sektorunun inkişafının dövlət tənzimlənməsinə olan ehtiyacını şərtləndirən amillərin sistemli şəkildə təsnif olunması, bu ehtiyacdan irəli gələn transformasiya yönümlü mexanizmlərin işlənməsi və bu mexanizmlərin elmi əsaslarla modelləşdirilməsi ilə ifadə olunur. Tədqiqat nəticəsində dövlətin iqtisadi rolu və onun aqroemal

sahəsində çevik müdaxilə imkanları kontekstində nəzəri çərçivələr dərinləşdirilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş nəticələr və təkliflər bir sıra sahələr üzrə tətbiq edilə bilər:

- Aqroemal sektorunun dövlət tənzimlənməsi sahəsində qərar qəbuletmədə və bu sahədə dövlət siyasətinin formalaşdırılmasında istifadə oluna biləcək strateji və institusional tövsiyələr hazırlanmışdır;
- İqtisadi islahatların konseptual əsaslandırılmasında, xüsusən də sahibkarlıq mühitinin yaxşılaşdırılması, rəqabətqabiliyyətliliyin artırılması və idxal əvəzləyici istehsal modellərinin formalaşdırılması baxımından praktik nəticələr təqdim olunmuşdur;
- İnnovativ-investisiya modelinə keçid üzrə tövsiyələrin işlənməsi — aqroemal müəssisələrinin inkişafında müasir maliyyə alətlərinin (vençur kapitalı, faktorinq xidmətləri və s.) tətbiqinin təşviqi məqsədilə konkret mexanizmlər təklif edilmişdir;
- Klaster yanaşmalarının modelləşdirilməsi — aqroemal sahəsinin inkişafı üzrə sektorial və regional klasterlərin formalaşdırılması istiqamətində konseptual yanaşmalar təqdim olunmuş və dövlət proqramlarında istifadə üçün tövsiyə edilmişdir;
- Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü kontekstində — aqroemal sektorunun transformasiya potensialı qiymətləndirilmiş, uzunmüddətli ssenarilər və uyğunlaşma strategiyaları formalaşdırılmışdır;
- Metodoloji baza olaraq — tədqiqatda irəli sürülmüş elmi müddəa və nəticələr aqroemal sahələrinin dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsinə yönəlmiş gələcək araşdırmalar və proqram sənədləri üçün etibarlı elmi dayaq kimi çıxış edə bilər.

Bu baxımdan, təqdim olunan tədqiqat materialları yalnız akademik deyil, həm də normativ-tətbiqi səviyyədə istifadə üçün uyğunluq nümayiş etdirir və iqtisadi siyasət istehsalçılarının, analitiklərin, eləcə də sahəvi idarəetmə institutlarının diqqət mərkəzində ola bilər.

Bu monoqrafiyada əksini tapan elmi nəticələr həm Azərbaycan Respublikasında, həm də xarici ölkələrdə keçirilmiş elmi konfranslarda dinlənilmiş, elmi ictimaiyyət tərəfindən müzakirəyə çıxarılmış və materiallar toplusunda dərc edilmişdir (bax əlavə 1).

Nəticə etibarilə, bu monoqrafiya Azərbaycanın aqroemal sahəsinin inkişafında dövlət tənzimlənməsinin nəzəri əsaslarını və institusional yanaşmalarını sistemli şəkildə təhlil edir, qarşıya qoyulan çağırışlara cavab verən elmi əsaslandırmalar və tətbiqi tövsiyələr təqdim edir.

Əldə edilən nəticələr aqroemal sektorunun davamlı inkişafı üçün dövlətin çevik və məqsədyönlü müdaxiləsinin zəruriliyini əsaslandırmaqla yanaşı, bu sahədə qərar qəbuletməyə töhfə verə biləcək konseptual çərçivə yaradır.

İnanırıq ki, təqdim olunan tədqiqat materialları aqroemal sahəsinin səmərəli təşkilinə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və ölkəmizin iqtisadi potensialının reallaşdırılmasına yönəlmiş strateji səylərə dəyərli elmi töhfə verəcəkdir.

# I FƏSİL. AQROEMAL SAHƏSİNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Aqroemal sahəsinin inkişafının dövlət tənzimlənməsinin mahiyyəti, nəzəri əsasları və inkişaf tarixi

Tarixən dövlət idarəçiliyinin təşəkkülü ilə bərabər, dövlətin iqtisadi proseslərə müdaxiləsi müxtəlif dərəcələrdə və formalarla həyata keçirilmişdir. İctimai rifahın təmin olunması və iqtisadi sabitliyin qorunması kimi məqsədlər dövlətin sosial-iqtisadi funksiyalarının mahiyyətini təşkil etmiş, bu da onun iqtisadiyyata təsir imkanlarını zəruri etmişdir. Bazar münasibətlərinin əsasını təşkil edən özünütənzimləmə prinsipləri müəyyən şəraitlərdə effektiv nəticələr versə də, praktika göstərir ki, xüsusilə böhran vəziyyətlərində və sistemli qeyri-sabitlik dövrlərində bu prinsiplər yetərli olmur və dövlətin aktiv müdaxiləsi qaçılmaz xarakter daşıyır.

İqtisadiyyatın yalnız bazar mexanizmləri vasitəsilə idarə olunması, makroiqtisadi tarazlıq və sosial bərabərliyin qorunması baxımından müəyyən məhdudiyyətlərə malikdir. Bu səbəbdən də dövlətin tənzimləyici roluna olan ehtiyac istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrin iqtisadi təcrübəsində mühüm yer tutur. Tarixi təcrübə bir daha sübut etmişdir ki, iqtisadi sarsıntılar, maliyyə böhranları və struktur deformasiyaların qarşısının alınmasında dövlətin normativ və institusional müdaxiləsi həlledici əhəmiyyətə malikdir. Belə hallarda dövlət müdaxiləsi sadəcə iqtisadi sabitliyi qorumağa deyil, həm də uzunmüddətli inkişafın əsaslarını formalaşdırmağa xidmət edir.

Dövlətin iqtisadiyyata təsir imkanlarının miqyası və dərinliyi konkret ölkənin sosial-iqtisadi modelindən və inkişaf mərhələsindən asılı olaraq dəyişə bilər. Bu müdaxilənin optimal səviyyəsinin müəyyənləşdirilməsi iqtisadi siyasətin ən mürəkkəb və mübahisəli məsələlərindən biri kimi çıxış edir. Dünya iqtisadçıları arasında "dövlətin iqtisadiyyata müdaxiləsi hansı həddə qədər olmalıdır?" sualı ətrafında vahid fikir formalaşmamış, müxtəlif nəzəri məktəblər bu məsələyə fərqli yanaşmalar irəli sürmüşlər.

Bununla belə, iqtisadiyyatın dövlət tənzimlənməsi müasir şəraitdə dinamik və çevik bir proses kimi dəyərləndirilməli, bazarın zəifliklərini və institusional boşluqları nəzərə alan sistemli yanaşmalarla həyata keçirilməlidir. Bütün iqtisadi modellərdə – liberal və ya müdaxiləçi fərq etmədən – dövlət az və ya çox dərəcədə iqtisadi fəaliyyətə təsir göstərməkdədir. Bu müdaxilənin əsas məqsədi isə bazar çatışmazlıqlarını aradan qaldırmaq, sosial ədaləti və makroiqtisadi sabitliyi təmin etməkdir. Xüsusilə strateji sektorlar, o cümlədən, aqroemal sahəsi bu baxımdan daha yüksək tənzimləmə həssaslığı tələb edir.

İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi ilə bağlı yanaşmalar iqtisad elminin inkişafı boyu müxtəlif nəzəri məktəblər çərçivəsində fərqli şəkildə izah olunmuşdur. Klasik liberalizmin banilərindən sayılan A. Smit dövlətin iqtisadi sistemdəki funksiyalarını minimum səviyyədə müəyyənləşdirərək, onun əsas vəzifəsini hüquqi nizamın qorunması, xüsusi mülkiyyətin müdafiəsi və sərbəst rəqabət mühitinin təmin edilməsi ilə məhdudlaşdırmışdır [141]. Smitin fikrincə, iqtisadi proseslərin effektivliyi məhz bazar qüvvələrinin sərbəst qarşılıqlı təsiri nəticəsində təmin olunur və dövlətin müdaxiləsi bu tarazlığı poza bilər.

Bu yanaşma sonrakı dövrlərdə bir çox iqtisadçılar tərəfindən dəstəklənmiş və daha da sistemləşdirilmişdir. Məsələn, V. Ouken

belə hesab edirdi ki, dövlətin mövcudluğu iqtisadi nizamın təminatı baxımından vacibdir, lakin bu iştirak planlaşdırma və birbaşa iqtisadi tənzimləmə ilə məhdudlaşdırılmamalıdır [136, s. 84]. Onun fikrincə, iqtisadi azadlıqların qorunması dövlətin passiv mövqeyini deyil, funksional və selektiv müdaxiləsini zəruri edir.

Neoliberal məktəbin əsas simalarından olan M. Fridman isə bu məsələdə daha radikal mövqe tutaraq, dövlətin iqtisadi proseslərə müdaxiləsini açıq şəkildə tənqid etmişdir. O, dövlətin iqtisadi alətləri sərbəst bazar üçün təhlükə kimi qiymətləndirmiş və bu müdaxilənin ləğv olunmasının vacibliyini vurğulamışdır. Onun "Kapitalizm və azadlıq" [147] və "Seçmək azadlığı: mövqeyimiz" [148] kimi əsərlərində bu mövqe aydın şəkildə əsaslandırılmışdır. Fridman və onun tərəfdarları üçün bazar sisteminin təbii özünü tənzimləmə qabiliyyəti dövlətin əvəzedici rolunu istisna edir.

Lakin, U. Çörçillin sarkastik, lakin reallığı əks etdirən fikrində də vurğulandığı kimi: *"Həyatda ideal bazar yoxdur və bazar iqtisadiyyatının çoxlu çatışmazlıqları var, lakin nə etmək olar, hələki bundan yaxşı bir şey fikirləşməyiblər"* [152, s. 56]. Bu baxımdan müasir dövrdə iqtisadiyyatın tamamilə bazarın öhdəsinə buraxılması ideyası artıq öz aktuallığını itirmiş və dövlətin çevik, rasional və adaptiv müdaxiləsinin vacibliyi iqtisadi elmdə konsensus halını almışdır.

İqtisadi tənzimləmə məsələlərində M. Feldşteyn, C. Qilder [164], A. Laffer [168] kimi neoklassik və neoliberallar da spesifik mövqelər ortaya qoymuşlar. Onlar vergi siyasətini sahibkarlığın stimullaşdırılması baxımından əsas tənzimləyici vasitə kimi dəyərləndirmiş, iqtisadi artımın dayanıqlılığı üçün dövlətin fiskal alətlərdən səmərəli istifadə etməsini vacib saymışlar. Bu yanaşmalarda dövlət müdaxiləsi tamamilə inkar olunmur, lakin

onun forması və dərəcəsi bazar azadlıqları ilə ziddiyyət təşkil etməyəcək şəkildə tərtib olunmalıdır.

Nobel mükafatı laureatı, tanınmış Amerika iqtisadçısı Ceyms Byukenən tərəfindən irəli sürülmüş ictimai seçim nəzəriyyəsi, dövlətin iqtisadiyyatdakı roluna daha skeptik yanaşma ilə seçilir. Bu yanaşmaya görə, dövlət aparatında çalışan məmurlar və siyasətçilər iqtisadi qərarların qəbulunda ictimai maraqlardan çox, şəxsi və korporativ maraqları üstün tutmağa meyllidirlər. Bu fərziyyə, dövlətin iqtisadi fəaliyyətə müdaxiləsinin obyektiv və ədalətli olması ilə bağlı ənənəvi yanaşmalara zidd olaraq, bürokratik davranışların mahiyyətini yenidən nəzərdən keçirməyi tələb edir.

Byukenən hesab edirdi ki, dövlət məmurları çox zaman cəmiyyətin rifahını artırmağa deyil, öz mövqelərinin möhkəmləndirilməsinə və şəxsi maraqlarının təmininə yönəlmiş qərarların qəbulunda iştirak edirlər. Bu prosesdə məmurlar adətən siyasi-bürokratik institutların genişləndirilməsi və resursların yenidən bölüşdürülməsi vasitəsilə iqtisadi güclərini möhkəmləndirirlər.

Nəticə etibarilə, bu davranış forması iqtisadi qərarların formalaşmasında lobbizm və loqrollinq kimi təzahürləri meydana çıxarır. Lobbizm — müəyyən maraq qruplarının öz mənafeyinə uyğun qərarların qəbuluna təsir göstərmək üçün dövlət strukturlarına təzyiq göstərməsidir. Loqrollinq isə qarşılıqlı dəstək prinsipi əsasında maraq qruplarının biri-birinin təşəbbüslərini dəstəkləməklə istədikləri qərarları təmin etmə üsuludur. Hər iki hal dövlət müdaxiləsinin effektivliyini zəiflədir və qərarların ictimai faydasını azaldır.

İctimai seçim nəzəriyyəsinin tərəfdarları bu səbəbdən çıxış yolunu bazar münasibətlərinin müstəqilliyində və minimum dövlət

müdaxiləsində görürlər. Onların fikrincə, məhz bazar mühitinin özünü tənzimləyən mexanizmləri ədalətli və səmərəli iqtisadi qərarların qəbuluna daha çox zəmin yaradır. Bu baxımdan, ictimai seçim yanaşması, iqtisadi düşüncə tarixində neoliberalizmin məntiqi davamı kimi də qiymətləndirilə bilər [155].

1929–1933-cü illəri əhatə edən dünya iqtisadi böhranı, klassik və neoklassik iqtisadi nəzəriyyələrin effektivliyinə ciddi şübhələr doğurmuşdur. Bazarın özünü tənzimləmə qabiliyyətinə əsaslanan bu yanaşmaların dərin iqtisadi tənəzzül qarşısında aciz qalması yeni iqtisadi düşüncə tərzinin formalaşmasını zəruri etdi. Məhz bu tarixi mərhələdə Con Meynard Keynsin təlimləri ön plana çıxdı və iqtisadiyyatın dövlət tərəfindən aktiv tənzimlənməsi zərurəti geniş elmi və praktiki dəstək qazandı.

Keyns məktəbinin əsas tezisləri ondan ibarət idi ki, sərbəst bazar sistemi makroiqtisadi sabitliyi təmin etmək üçün kifayət qədər effektiv mexanizmlərə malik deyil. Xüsusilə tənəzzül və durğunluq dövrlərində investisiya və istehlak səviyyələrinin kəskin azalması nəticəsində yaranan ümumi tələbin çatışmazlığı iqtisadiyyatda dərin və uzunmüddətli böhranlara səbəb olur. Bu halda dövlət iqtisadi fəallığın stimullaşdırılması məqsədilə fiskal və pul siyasəti vasitəsilə bazara müdaxilə etməlidir.

Keynsçilərin mövqeyinə görə, məhz dövlət büdcə xərcləri və vergi siyasəti ilə effektiv tələbi formalaşdırmalı, alıcılıq qabiliyyətinin süni şəkildə də olsa artırılmasına çalışmalıdır. Con Meynard Keynsin fikrincə, *“dövlət çatışmayan tələbi yaratmalı və onun iqtisadi dövriyyədə iştirakını təmin etməlidir”* [145]. Bu nəzəri yanaşma xüsusilə İkinci Dünya müharibəsindən sonrakı dövrlərdə Qərb ölkələrində geniş tətbiq edilmiş və uzun müddət sabit iqtisadi artımın təminatçısı olmuşdur.

Müasir iqtisadi düşüncədə azad bazar sistemi bir çox hallarda Keynsçi və monetarist yanaşmaların sintezindən ibarət olan qarışıq iqtisadi modellər üzərində qurulur. Bu kontekstdə R. Qrinberq və digər müasir iqtisadçılar dövlətin iqtisadiyyatda rolunu tamamilə inkar etmədən, lakin onun hüdudlarını optimal səviyyədə müəyyənləşdirən sosial yönümlü bazar iqtisadiyyatı modelinə üstünlük verirlər. R. Qrinberqin fikrincə, *"dövlət tənzimlənən və sosial yönümlü bazar iqtisadiyyatı əsasında real sektorun dinamik inkişafı təmin edilməlidir"* [125, s.16].

Beləliklə, iqtisadiyyatın effektiv və inklüziv inkişafı üçün nə yalnız sərbəst bazar, nə də yalnız inzibati tənzimləmə kifayət edir. Hər iki mexanizmin rasional şəkildə kombinasiyası müasir dövrün iqtisadi reallıqlarına daha adekvat cavabdır.

## Cədvəl 1.1.1 İqtisadiyyatın dövlət tənzimlənməsi haqqında fikirlər

| | |
|---|---|
| M.Blauq [121, c.34] | *"Dövlət idarəçiliyinin əsas funksiyası, sosial-iqtisadi sabitliyə nail olmağa istiqamətlənərək, milli rəqabət üstünlüklərinin təmin və müdafiə edilməsi, eyni zamanda, müdaxilə bazar mexanizminin real dəyişən təsərrüfat şəraitinə uyğunlaşdırılması olmalıdır".* |
| E.Quliyev [70, s.36] | *"Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi dedikdə dövlətin istehsal, təkrar emal və kənd təsərrüfatı məhsulları və ərzağın satışının təşkili, həmçinin istehsal texniki xidmətə və ASK*-nin *maddi-texniki təminatına iqtisadi təsiri başa düşülür".* |
| Abalkin L. İ. [118. s.605] | *"Dövlət orqanlarının birbaşa və ya dolayı təsirinin məqsədi makroiqtisadi tarazlığa nail olmaq və iqtisadiyyatın ümumi normal fəaliyyətini* |

| | |
|---|---|
| | *təmin etmək məqsədilə cəmiyyətdə iqtisadi proseslərin düzgün idarə edilməsidir”.* |
| I.H.Alıyev [1,s.288] | *“Aqrar sahənin dövlət tənzimlənməsi onu nəzərdə tutur ki, mühüm strateji əhəmiyyətli ərzaq və digər kənd təsərrüfatı məhsullarının istehsalında aqrar bölmə işçilərini maddi cəhətdən maraqlandırmalı, həmin məhsullar üzrə müəyyən olunmuş qaydada sifariş verməlidir”.* |
| Xarçenko E.V, Vertakova Ю.В. [151] | *“İqtisadiyyatın tənzimlənməsi Ictimai ehtiyac və maraqların, cəmiyyətin ümumi məqsəd və iradəsinin həyata keçirildiyi cəmiyyətin, onun ayrı-ayrı qruplarının fəaliyyətinə dövlət institutlarının şüurlu təsiridir”.* |
| M.A.Əhmədov A.C.Hüseyn [55, s.8] | *“Bazar iqtisadiyyatında dövlət tənzimləmə vasitələrinə üstünlük verərək ölkənin sosial iqtisadi inkişafını proqnozlaşdırır; iqtisadiyyatın strukturunun yenidən qurulmasını həyata keçirir; özəlləşdirmə yolu ilə mülkiyyətin çoxnövlülüyünü reallaşdırır; antiinhisar tənzimləmə tədbirlərini tədbiq edir; əlverişli investisiya mühiti formalaşdırır və bütün bu proseslərin hüquqi bazasını yaradaraq təkmilləşdirir”.* |
| Oktay Məmmədli Mürsəl İsmayılov Fazil İsmayılov [80, s. 29] | *“Beləliklə, bütün bunlar belə fikir söyləməyə əsas verir ki, cəmiyyətdə gedən iqtisadi və sosial proseslərə dövlətin müdaxiləsi zəruridir və bunun heç bir sübuta ehtiyacı yoxdur”.* |
| H.B.Allahverdiyev K.S.Qafarov Ə.M.Əhmədov [2, s.29] | *“Azad bazar iqtisadiyyatının inkişafı nə qədər özünün tənzimləmə mexanizminə malik olsa da, ona dövlətin müdaxiləsi zəruridir. Lakin dövlət öz funksiyasının sərhədini keçməməli, iqtisadiyyatda öz iştirakını minimuma endirməlidir”.* |

Mənbə: Müxtəlif iqtisadçıların fikirləri əsasında müəllif tərtibatı

Cədvəl 1.1.1-də göstərilən mənbələr əsasında iqtisadçı-alimlərin mülahizələri və yanaşmaları ümumiləşdirilərək göstərilmişdir.

Dövlətin iqtisadiyyata müdaxiləsi məsələsi müasir dövrdə yalnız inkişaf etməkdə olan ölkələr üçün deyil, eləcə də inkişaf etmiş dövlətlər üçün də iqtisadiyyatın effektiv idarə edilməsinin əsas komponentlərindən biri hesab olunur. Bu kontekstdə dövlət müdaxiləsinin məqbul səviyyəsinin müəyyənləşdirilməsi iqtisadi düşüncədə daim aktual olmuş və bu sahədə aparılan elmi tədqiqatlar bir sıra Nobel mükafatına layiq görülmüş alimlərin araşdırmalarının əsasını təşkil etmişdir. Belə ki, 1994-cü ildə Con Harsani, Con Neş və Raynhard Zelten [178], 1996-cı ildə Ceyms Mirrlis və Uilyam Vikri [179], 2001-ci ildə isə Corc Akerlof, Maykl Spens və Cozef Stiqlits [180] kimi iqtisadçılar bazar mexanizmlərinin çatışmazlıqlarını araşdırmaqla yanaşı, dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini və bu müdaxilənin optimal formasını müəyyən etməyə çalışmışlar.

Bu alimlərin tədqiqatları sübut edir ki, bazar iqtisadiyyatının sərbəst fəaliyyəti bəzən sosial ədalətsizlik, informasiya asimmetriyası, kənar təsirlər və digər neqativ hallarla müşayiət olunduğundan, dövlətin tənzimləyici funksiyası qaçılmaz olur. Onlar iqtisadi qərarların qəbulunda dövlətin rolu, stimullaşdırıcı və tənzimləyici alətlərin tətbiq imkanları və dövlət-bazar münasibətlərinin qarşılıqlı tarazlığı barədə yeni konseptual yanaşmalar formalaşdırmışlar.

İqtisadiyyatın idarə olunmasında xərclər və nəticələrin qarşılaşdırılması ideyası isə daha erkən dövrlərdə formalaşmışdır.

Bu sahədə neoklassik məktəbin banilərindən biri olan ingilis iqtisadçısı Alfred Marşall 1890-cı ildə nəşr etdirdiyi "Ekonomiksin prinsipləri" (Principles of Economics) əsərində iqtisadi qərarların səmərəliliyini qiymətləndirmək üçün xərc-mənfəət yanaşmasının vacibliyini vurğulamışdır. O qeyd edirdi ki:

*"Biznesmen öz kapital qoyuluşunu ehtiyatla istehsalın müxtəlif sahələri üzrə elə yönəltməlidir ki, bu investisiya müəyyən zaman ərzində gözlənilən mənfəət səviyyəsini təmin edə bilsin və hər bir əlavə vəsait qoyuluşu öz xərclərini kompensasiya edə biləcək səmərəliliyə malik olsun"* [132, s. 84].

Bu yanaşma sonrakı dövrlərdə həm mikroiqtisadi, həm də makroiqtisadi idarəetmə qərarlarında istifadə olunan əsas prinsiplərdən birinə çevrilmişdir. Beləliklə, həm tarixi, həm də müasir nəzəri yanaşmaların təhlili göstərir ki, iqtisadiyyatın optimal idarə olunması üçün dövlət müdaxiləsi ilə bazar mexanizmləri arasında rasional tarazlıq formalaşdırılmalıdır.

Beləliklə, yuxarıda adları qeyd olunan və eləcə də digər iqtisadçı alimlərin mövqeləri əsasında belə bir ümumiləşdirmə aparmaq mümkündür:

**İqtisadiyyatın dövlət tənzimlənməsi** – dövlətin iqtisadi subyektlərin fəaliyyətinə sistemli və məqsədyönlü müdaxiləsi vasitəsilə iqtisadi inkişafın təmin olunması, sosial rifahın artırılması və makroiqtisadi tarazlığın qorunmasına yönəlmiş kompleks institutlar, alətlər və tədbirlər məcmusudur.

Azərbaycanın aqroemal sektorunda formalaşmış mövcud vəziyyət bütövlükdə istehsal və istehlak zənciri üzrə dövlətin fəal və məqsədyönlü müdaxiləsini tələb edir. Bu zərurət bir tərəfdən kənd təsərrüfatı məhsullarının emal potensialının iqtisadi və sosial əhəmiyyətindən, digər tərəfdən isə bazar mexanizmlərinin tam və effektiv işləməməsindən qaynaqlanır. Qeyd etmək lazımdır ki,

iqtisadiyyata təsir edən amillər statik deyil, dinamik və dəyişkən xarakter daşıyır. Belə ki, ilkin mərhələdə kənd təsərrüfatının və aqroemal sənayesinin inkişafına stimul verən müəyyən faktorlar zaman keçdikcə əks təsir də göstərə bilər.

İqtisadi tənzimləmənin effektiv həyata keçirilməsi üçün dövlət müdaxiləsi konkret hədəf və prioritetlərə əsaslanmalıdır. Bu yanaşma bir sıra tədqiqatçı alimlərin, o cümlədən rusiyalı iqtisadçılar A.V. Aqıbalov və O.S. Kaptsovanın əsərlərində də vurğulanır. Müəlliflərin fikrincə, kənd təsərrüfatının və ona bağlı sahələrin inkişafı üçün dövlətin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- *İdxalı əvəz edən kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi və xarici təchizatçılardan asılılığın azaldılması;*

- *Məhsulun saxlanması, daşınması və satışı üçün müasir infrastrukturun yaradılması;*

- *Emal sənayesində əlavə dəyəri yüksək məhsulların payının artırılması və bu sektorun kapitallaşma səviyyəsinin yüksəldilməsi [119, s. 74].*

Azərbaycanın müstəqillik dövründə aqrar sektorun inkişafı şərti olaraq iki mərhələyə bölünə bilər:

1. İqtisadi keçid dövrünün başlanğıcında müşahidə olunan dərin tənəzzül və istehsal səviyyəsinin kəskin azalması;
2. Bazar iqtisadiyyatı institutlarının formalaşması və istehsalın bərpa olunaraq genişlənməsi.

Kənd təsərrüfatı ilə aqroemal sənaye bir-birini qarşılıqlı tamamlayan sahələrdir. Bu səbəbdən kənd təsərrüfatı məhsullarının istehsalında baş verən hər bir dəyişiklik emal sənayesinin inkişaf trayektoriyasına da bilavasitə təsir göstərir. Aqroemal sektor yalnız xammal təchizatçısından asılı olmayıb, eyni zamanda kənd

təsərrüfatı istehsalçılarının iqtisadi stimullaşdırılmasında və ərzaq təhlükəsizliyinin təminində həlledici rola malikdir.

*Aqrar-sənaye müəssisələri dedikdə, kənd təsərrüfatı məhsullarını emal edən sənaye bölmələrini özündə birləşdirən komplekslər nəzərdə tutulur. Bu cür müəssisələrin inteqrasiyası, xüsusilə, tez xarab olan, daşınması çətin meyvə, giləmeyvə, tərəvəz və süd məhsullarının emalında aktualdır. Digər tərəfdən, kənd təsərrüfatı sahəsində əldə olunan məhsulların mühüm hissəsi qeyri-standart olur. Məsələn, bağçılıq və tərəvəzçilikdə məhsulun təxminən 25%-i texniki normativlərə uyğun gəlmir. Bu səbəbdən, belə məhsulların səmərəli emalı üçün ixtisaslaşmış sex və zavodların yaradılması iqtisadi səmərəliliyi əhəmiyyətli dərəcədə artıra bilər* [25, s. 90].

Aqroemal sənaye struktur baxımından müxtəlif və mürəkkəbdir. Hesab edirik ki, bu struktur iki qrupa, ərzaq və qeyri-ərzaq qruplarına bölünməli və hər qrupa daxil olan konkret fəaliyyət növləri göstərilməlidir. Bunu aşağıda tərtib etdiyimiz cədvəl şəklində vermək olar:

**Cədvəl 1.1.2 Aqroemal sahəsinin əsas məhsullarının funksional təsnifatı**

| Aqroemal sahəsinin əsas məhsulları | |
|---|---|
| Ərzaq məhsulları | Qeyri-ərzaq məhsulları |
| **Qida məhsulları istehsalı** o cümlədən: | Tütün məmulatları istehsalı |
| Kolbasa məmulatları | Toxuculuq sənayesi üçün ilkin emal |
| Süd məmulatları | Geyim istehsalı üçün ilkin emal |
| Dondurma | Dəri və dəri məmulatları, ayaqqabı istehsalı üçün ilkin emal |
| Pendir və kəsmik | |
| Kərə yağı | |

| | |
|---|---|
| Balıq məhsulları (konservlə birlikdə) | |
| Meyvə və tərəvəz konservləri | |
| Makaron məmulatları | |
| Bitki yağları | |
| Marqarin yağları | |
| Şəkər və qənnadı məmulatları | |
| Çörək və un məmulatları | |
| Çay | |
| Qida duzu | |
| Yem | |
| **Alkoqollu və alkoqolsuz içki məhsulları** | |

Mənbə: müəllif tərəfindən tərtib edilib

Cədvəl 1.1.2-də göstərildiyi kimi, aqroemal müəssisələrinin istehsal etdiyi məhsullar mümkün qədər ümumiləşdirilərək təsnifləşdirilmişdir. Lakin praktiki baxımdan bu sahə əhalinin gündəlik tələbatını minlərlə müxtəlif çeşiddə istehlak məhsulu ilə təmin edən dinamik və kompleks bir sektoru əhatə edir. Aqroemal məhsulları yalnız növ və forma baxımından deyil, həm də istehlak keyfiyyətləri və texnoloji yeniliklər baxımından daima yenilənir və bazarın dəyişən tələblərinə uyğunlaşır.

Müxtəlif mənbələrə əsasən, aqroemal sənaye ildə minlərlə müxtəlif adda məhsul istehsal edir və bu məhsulların çeşidləri ilbəil artmaqda və dəyişməkdədir. Bu da istehlak bazarının diversifikasiyası və daxili bazarın sabitliyi baxımından strateji əhəmiyyət kəsb edir.

Qeyri-ərzaq məhsullarının istehsalı istiqamətində fəaliyyət göstərən aqroemal müəssisələrinin böyük əksəriyyəti yüngül sənaye üçün yarımfabrikatların hazırlanması ilə məhdudlaşır. Məsələn,

pambıqçılıq və yunçuluq sahəsində mahlıcın hazırlanması, iplik əyirilməsi, materialların boyanması və digər ilkin emal mərhələləri aqroemal sahənin səlahiyyətlərinə aiddir. Lakin bu yarımfabrikatlardan hazır geyim, ayaqqabı, xalça və digər istehlak mallarının hazırlanması isə artıq yüngül sənayenin funksional sahəsinə daxildir.

Müvafiq struktur bölgüsünü aparmaq bəzi hallarda çətinlik törədir. Dövlət Statistika Komitəsinin hesabatlarında bu fərqlər tam şəkildə ayrıd edilmədiyindən, bir çox hallarda bu istehsal seqmentləri “emal sənayesi” başlığı altında birləşmiş şəkildə təqdim olunur.

Aqroemal müəssisələri yalnız məhsul istehsal etməklə kifayətlənmir, eyni zamanda kiçik həcmli qablaşdırma, markalanma və etiketləmə işləri ilə də geniş şəkildə məşğul olur. Bu baxımdan, həmin müəssisələr şüşə, kağız, metal, polimer və poliqrafiya sənayesinin əsas istehlakçılarından birinə çevrilirlər. Onların fəaliyyəti qablaşdırma texnologiyalarına olan tələbatı artırır, bu isə öz növbəsində avtomatlaşdırılmış avadanlıqların, yüksək keyfiyyətli poliqrafiya məhsullarının və qablaşdırma dizaynı texnologiyalarının inkişafına təkan verir.

Bununla yanaşı, qablaşdırma və emal texnologiyalarında baş verən müasir yeniliklər aqroemal müəssisələrinin məhsul keyfiyyətini və bazar rəqabətini artırmış, eyni zamanda ixrac potensialını da genişləndirmişdir.

Beləliklə, aqroemal sahəsinin inkişafı yalnız kənd təsərrüfatı məhsullarının emal imkanlarını genişləndirmir, həm də multisektor təsir effekti ilə sənayenin digər alt sahələrinin inkişafına da mühüm töhfə verir.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, aqroemal sənayenin formalaşması və inkişafı təkcə bazar tələblərinin deyil,

həm də dövlətin kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi siyasətinin birbaşa nəticəsi olmuşdur. Məhz bu kontekstdə növbəti mərhələdə Azərbaycanda aqroemal sahəsinin tarixi inkişaf trayektoriyasına nəzər salmaq zərurəti ortaya çıxır.

### *1.1.1 Azərbaycanda aqroemal sahəsinin inkişaf tarixi*

Azərbaycanda aqroemal sahəsinin təşəkkül tapması və inkişafı kənd təsərrüfatı və sənaye arasında yaranan qarşılıqlı iqtisadi əlaqələrin təkamülü ilə sıx bağlıdır. Bu prosesin ilkin mərhələsi XIX əsrin ortalarına — sənayeləşmə prosesinin intensivləşdiyi dövrə təsadüf edir. Məhz həmin dövrdə sənaye istehsalının genişlənməsi kənd təsərrüfatı məhsullarının emalına olan tələbatı artırmış, bu da aqroemal sahəsinin formalaşmasına təkan vermişdir.

Sənaye inkişaf etdikcə, kənd təsərrüfatı məhsullarının yalnız xammal kimi deyil, həm də dəyər zəncirində əlavə dəyər yaradan emal məhsulları kimi istifadəsi aktuallaşmışdır. Bu baxımdan aqrar sektorda istehsal, emal, nəqliyyat-logistika, satış və xidmət funksiyalarının inteqrasiyası baş vermişdir ki, bu da aqroemal sahəsinin kompleks struktur kimi təşəkkül tapmasına səbəb olmuşdur. Belə strukturlaşdırma istehsal səmərəliliyinin artırılması, məhsulun keyfiyyətinin yüksəldilməsi və bazar rəqabətliliyinin təmin olunması baxımından həlledici rol oynamışdır.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı çox qədim tarixə malikdir. Arxeoloji və tarixi mənbələr göstərir ki, hələ Qafqaz Albaniyası dövründən başlayaraq əhali taxılın üyüdülməsi, üzümün şəraba çevrilməsi, yun və dərinin ilkin emalı ilə məşğul olmuşdur. Lakin aqroemal sahəsinin sənaye əsaslı və sistemli inkişafı XIX əsrin ortalarından etibarən, sənayeləşmənin sürətlənməsi və urbanizasiyanın genişlənməsi ilə daha qabarıq şəkildə müşahidə olunmağa başlamışdır. Bu dövrdə xüsusilə texniki bitkilərin (pambıq, tütün, barama, çay və s.) istehsalı ilə bağlı

olaraq, ilkin emal müəssisələrinin yaradılması zərurəti yaranmışdır. Belə məhsulların uzunmüddətli saxlanılması və istehlak bazarına çatdırılması yalnız emal prosesləri vasitəsilə mümkün olmuşdur. Bu səbəbdən, aqroemal müəssisələrinin təşkili kənd təsərrüfatının effektivliyinin təmin edilməsində və kənd yerlərində məşğulluğun artırılmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycanın aqroemal sahəsinin tarixi inkişaf mərhələlərinə nəzər saldıqda, sənaye yönümlü emal müəssisələrinin formalaşmasının XIX əsrin ortalarından sürətlənməyə başladığı müşahidə olunur. Xüsusilə pambıqçılıq sektorunda bu tendensiya daha qabarıq şəkildə nəzərə çarpır. Belə ki, T.Ə. Əzizovun "Azərbaycan XX əsrin əvvəllərində" əsərində qeyd olunduğu kimi, artıq 1912-ci ildə Yelizavetpol (indiki Gəncə) quberniyasında 28, Bakı quberniyasında isə 22 pambıq təmizləmə zavodu fəaliyyət göstərirdi.

Bu dövrdə Azərbaycanlı milyonçu-sənayeçi H.Z. Tağıyevin təşəbbüsü ilə Bakının Zığ kəndində Qafqazın ilk və ən iri pambıq-parça toxuculuq fabriki istifadəyə verilmişdi. Bu müəssisə təxminən 1400 nəfərin çalışdığı müasir avadanlıqlarla təchiz edilmiş böyük istehsal kompleksi kimi fəaliyyət göstərmişdir.

Tütünçülük də XIX əsrin ortalarında Azərbaycanda formalaşmağa başlayan yeni sahələrdən biri olmuşdur. Əsas plantasiyalar Zaqatala, Quba və Şəki bölgələrində yerləşdirilmiş və bu bölgələrin iqlim şəraiti tütünçülük üçün əlverişli hesab olunmuşdur. Yerli istehsalın inkişafına təkan verən əsas amillərdən biri isə xaricdən idxal olunan tütün məhsullarına tətbiq edilən yüksək gömrük rüsumları olmuşdur. Bu, yerlərdə tütün fermentasiya fabriklərinin qurulmasına da səbəb olmuş və o dövrdə ilk belə müəssisə Bakı şəhərində fəaliyyətə başlamışdır.

Baramaçılıq sahəsi də həmin dövrdə kənd təsərrüfatında xüsusi iqtisadi əhəmiyyət kəsb edən gəlirli fəaliyyət sahəsinə çevrilmişdir. Əsasən Şəki qəzasında cəmləşmiş barama istehsalı, bu bölgəni qısa müddət ərzində "Qafqazın Lionu"na çevirmişdir. Fransanın Lion şəhəri o dövrdə dünya ipəkçiliyinin əsas mərkəzlərindən biri hesab olunduğundan, belə bir müqayisə baramaçılığın Azərbaycanda tutduğu yeri və miqyası əyani şəkildə göstərir. İstehsal edilən xam ipəyin böyük hissəsi Rusiyaya, az bir qismi isə xarici ölkələrə ixrac olunurdu. Baramaçılığın inkişafına "Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti"nin fəaliyyəti də təkan vermiş, bu qurum Fransadan məhsuldar barama toxumlarını gətirərək yerli təsərrüfatlara təqdim etmişdir.

XIX əsrin əvvəllərində alman icmasının Azərbaycana köçürülməsi və Göygöl (keçmiş Helenendorf) ərazisində məskunlaşması ölkəmizdə üzümçülük və şərabçılıq sahəsində əhəmiyyətli bir dönüş nöqtəsi olmuşdur. Alman icması tərəfindən salınan müasir tipli üzüm bağları, qurulan şərab emalı müəssisələri (Vohrer və Hummel zavodları), məhsulun keyfiyyətli saxlanması və ixracı üzrə tətbiq olunan texnologiyalar Azərbaycan aqroemal sənayesinə Avropa təcrübəsini gətirmişdir. Helenendorf məhsulları bir müddət sonra regional brendə çevrilərək, Rusiya imperiyasının müxtəlif bölgələrinə ixrac olunmuş və yerli istehsalın modernləşməsində mühüm rol oynamışdır. XIX əsrin sonlarına doğru isə, xüsusilə Şamaxı, Göyçay və Yelizavetpol bölgələrində üzüm bağlarının salınması və emal müəssisələrinin yaradılması bu sahənin inkişaf dinamikasını daha da gücləndirmişdir. Emal olunmuş məhsullar təkcə daxili bazarlarda deyil, həm də Rusiyanın müxtəlif quberniyalarında geniş şəkildə tələbat doğurmuşdur.

Lakin bütün bu inkişaf meylləri Rusiyanın imperiya iqtisadiyyatının tələblərinə uyğun formalaşdırılmışdır. Həm Çar

Rusiyası, həm də sonradan SSRİ dövründə Azərbaycanda həyata keçirilən kənd təsərrüfatı siyasəti əsasən Rusiyanın mərkəzi sənaye mərkəzlərinin xammal tələbatının ödənilməsinə yönəlmişdir. Buna baxmayaraq, texniki bitkilərin (pambıq, tütün, barama və s.) istehsalının artması yerlərdə ilkin emal müəssisələrinin yaranmasına və emal zəncirinin formalaşmasına əlverişli mühit yaratmışdır.

Azərbaycanda aqroemal sahəsinin daha sistemli şəkildə inkişafı, əsasən, İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. XX əsrin ortalarından başlayaraq ölkənin iqtisadi dirçəlişi ilə paralel şəkildə kənd təsərrüfatı və sənaye sahələri arasında qarşılıqlı inteqrasiya prosesləri güclənməyə başlamışdır. Bu dövr, aqrar istehsalın sadəcə ərzaq təminatı funksiyasından çıxaraq, kompleks sənaye münasibətləri ilə vəhdət təşkil etdiyi bir mərhələ kimi səciyyələnir.

*"Aqrar-sənaye kompleksi (ASK) istehsal, emal, bölgü, mübadilə və kənd təsərrüfatı məhsullarının istehlakı ilə əlaqədar bir-biri ilə iqtisadi münasibətlərdə olan xalq təsərrüfatı sahələrinin məcmusudur. Buraya kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və satışının həyata keçirilməsi, ASK üçün istehsal vasitələri istehsal edən sahələr daxildir"* [70, s.32].

Beləliklə, kənd təsərrüfatı məhsulları istehsalının artması fonunda bu məhsulların son istehlakçıya çatmasından əvvəl daha dərin emal mərhələlərindən keçməsi tendensiyası güclənməkdədir. Paralel olaraq emal sənayesinin genişlənməsi, kənd təsərrüfatında emala getməyən məhsul hissəsinin nisbi azalmasına səbəb olmuş və bu da istehsalın səmərəliliyini artıran mühüm amillərdən birinə çevrilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi, aqroemal sahəsində də dərin iqtisadi böhran müşahidə

olunmağa başladı. Bu böhranın əsas səbəbləri sırasında SSRİ-nin dağılması ilə əlaqədar olaraq ənənəvi iqtisadi əlaqələrin qəfil pozulması, maddi-texniki təminat sisteminin çöküşü və illərlə formalaşmış istehlak bazarlarının itirilməsi dururdu. Nəticədə yerli istehsal güclü tənəzzülə uğradı və daxili bazarda analoji idxal məhsullarının üstünlüyü formalaşmağa başladı. (əlavə 2)

Müstəqillikdən sonra ölkədə iqtisadi sistem bazar münasibətləri əsasında yenidən qurulmağa başladı. Lakin keçid dövründə aqroemal sahəsinin zəif rəqabətqabiliyyətli olması islahatların ilkin mərhələsində ciddi bir problem kimi ortaya çıxdı. Bu dövrdə idxal olunan aqroemal məhsulları həm kəmiyyət, həm də bazar payı baxımından üstünlük təşkil edir, yerli məhsulları sıxışdırırdı. İdxal mallarının bu cür dominantlığı hökuməti yerli istehsal strukturuna yenidən baxmağa və yeni iqtisadi islahatlara başlamağa məcbur etdi.

Lakin paradoksal bir məqam da var idi: xarici mənşəli məhsulların çoxu keyfiyyət baxımından yerli istehsal məhsullarından geri qalırdı. Bu səbəbdən istehlakçılar arasında yerli aqroemal məhsullarına olan etimad və tələbat qorunub saxlanılırdı. Bu isə hökumətə və sahibkarlıq subyektlərinə yerli istehsalın canlandırılması üçün sosial və iqtisadi baza yaradırdı.

SSRİ dönəmində əsas ərzaq məhsullarının adambaşına orta istehlak səviyyəsi statistik hesabatlarda əksər hallarda reallığı tam əks etdirmirdi. Bu hal daha çox siyasi məqsədlərlə – sosialist təsərrüfat modelinin üstünlüklərini və "inkişaf etmiş sosialist cəmiyyətinin" uğurlarını nümayiş etdirmək məqsədilə – statistik manipulyasiyalarla bağlı idi. İdeoloji baxımdan Qərb ölkələri ilə rəqabətdə olan sovet sistemi üçün ərzaq istehlakı göstəriciləri həm də siyasi alətə çevrilmişdi. Lakin Sovet İttifaqının dağılmasından öncəki iqtisadi geriləmə və defisit reallıqları göstərdi ki, bu

normativlər faktiki istehlak imkanlarını deyil, daha çox planlaşdırma orqanlarının ideoloji yanaşmalarını əks etdirirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə bazar iqtisadiyyatı modelinə keçid istiqamətində əsaslı islahatlar həyata keçirildi. Xüsusilə torpaq islahatları, dövlət müəssisələrinin özəlləşdirilməsi və hüquqi-institusional çərçivələrin yenidən formalaşdırılması kənd təsərrüfatı və emal sahələrində tamamilə yeni idarəetmə prinsiplərinin tətbiqinə gətirib çıxardı. Kolxoz və sovxozların ləğv olunması, torpaqların özəlləşdirilərək fiziki şəxslərə paylanması, fərdi və fermer təsərrüfatlarının təşkili nəticəsində aqrar sektorda mülkiyyət formalarının və idarəetmə modellərinin diversifikasiyası baş verdi. Aqroemal müəssisələrinin özəlləşdirilməsi də bu prosesi tamamlayan əsas addımlardan biri oldu.

Bununla belə, keçid dövründə yerli bazarın qorunması məsələlərində strateji yanaşma çatışmazlığı müşahidə olunmuşdur. Tənzimləyici alətlərin effektiv tətbiq olunmaması, bəzi idxal məhsullarının məmur himayəsi ilə bazara daxil olması və yerli istehsalın dəstəksiz qalması nəticəsində daxili bazarda idxal məhsullarının payı sürətlə artdı. Yerli aqroemal məhsulları isə rəqabət imkanlarının zəifliyi səbəbindən bazarlardan sıxışdırıldı və onların istehsal səviyyəsi minimum həddə qədər enməyə başladı.

Müstəqilliyin ilk illərində, xüsusilə, 1990–1995-ci illərdə aqrar emal məhsullarının istehsalında kəskin azalma müşahidə olunmuşdur. Bu dövr ərzində aqrar istehsalın sürətlə enməsi, ölkənin aqrar-sənaye kompleksinin, o cümlədən, aqroemal müəssisələrinin maliyyə vəziyyətinə mənfi təsir göstərmişdir. 1997–1998-ci illərə qədər olan dövrdə emal müəssisələrinin maliyyə imkanları olduqca məhdud idi və mövcud gəlirlər texniki

yenidənqurma və genişləndirilmiş təkrar istehsalın həyata keçirilməsi üçün kifayət etmirdi. (əlavə 2)

Lakin bazar iqtisadiyyatına keçid prosesi fonunda, dövlət tənzimləməsinin transformasiyası və iqtisadi mühitdə liberallaşma nəticəsində, adambaşına real istehlak səviyyəsində tədrici artım müşahidə olunmağa başlamışdır. Bu artım, bir tərəfdən istehsala maneə yaradan sovet dövrünə məxsus ideoloji və inzibati baryerlərin aradan qalxması, digər tərəfdən isə sahibkarlığın təşəkkülü və iqtisadi fəallığın yüksəlməsi ilə izah oluna bilər. Yeni yaranmış sahibkarlar təbəqəsi, bazar imkanlarının reallaşdırılmasında və istehlakçı tələbatının ödənilməsində aktiv rol oynamışdır.

Ölkədə həyata keçirilən islahatlar nəticəsində aqroemal sahəsindəki iqtisadi göstəricilərdə müsbət dinamika müşahidə olunmağa başlanmışdır. Emal müəssisələrinin fəaliyyətində sabitlik yaranmış, istehsal həcmlərində və texniki imkanlarda artım baş vermişdir [4]. (əlavə 3)

Azərbaycan Respublikasında aqrar sahədə aparılan islahatların hüquqi əsasları "Aqrar islahatların əsasları haqqında" Qanunla müəyyən olunmuşdur [5]. Bu qanun, mülkiyyət münasibətlərinin köklü şəkildə dəyişdirilməsinə, istehsal əlaqələrinin yeni iqtisadi şərtlərə uyğunlaşdırılmasına və kənd təsərrüfatı istehsalının təşkili üzrə yeni idarəetmə formalarının formalaşmasına hüquqi zəmin yaratmışdır.

Bundan əlavə, "Torpaq islahatı haqqında" Qanunun qəbulu aqrar sektorda müasir bazar münasibətlərinin təşəkkülünə və yeni təşkilati–iqtisadi strukturların formalaşmasına mühüm təkan vermişdir. Nəticədə, kolxoz və sovxozlar ləğv edilmiş, onların mülkiyyət hüquqları yerli bələdiyyələrə və fiziki şəxslərə verilməklə paylanmış, kənd əhalisi arasında fərdi sahibkarlıq əsaslı

fəaliyyət formaları – fermer təsərrüfatları, kooperativ birliklər, aqroemal müəssisələri və digər müstəqil subyektlər yaradılmışdır [108].

Ölkənin aqrar sektorunda ən vacib normativ-hüquqi sənədlər "Aqrar islahatların əsasları haqqında"[5], "Sovxoz və kolxozların islahatı haqqında" [107] və "Torpaq islahatı"[108] haqqında qanunlardır. *Bu qanunlar aqrar bölmədə islahatın aparılmasının təşkilati-hüquqi və sosial-iqtisadi əsasını müəyyənləşdirmək, bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formaları yaratmaq, kənd yerlərində azad sahibkarlığı inkişaf etdirmək və torpaq üzərində yeni mülkiyyət münasibətlərini formalaşdırmaqdan ibarətdir. Həmin qanunların qəbul edilməsində məqsəd göründüyü kimi, aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir [64, s.98].*

*Aqrar-sənaye istehsalının dövlət tənzimlənməsi dedikdə dövlətin istehsal, təkrar emal və kənd təsərrüfatı məhsulları və ərzağın satışının təşkili, həmçinin, istehsal, texniki xidmət və ASK-nın maddi-texniki təminatına iqtisadi təsiri başa düşülür [70, s.36].*

Artıq aqroemal sahəsi iqtisadiyyatın çoxtərəfli və mürəkkəb quruluşa malik olan bir alt sistemi kimi formalaşmışdır. Bu sahənin dinamik inkişafı, ilk növbədə, onun daxilində yaranan heterogen iqtisadi münasibətlər sisteminin təşəkkülü ilə sıx bağlıdır. Bu münasibətlər sisteminə kənd təsərrüfatının, xüsusilə də əkinçilik bölməsinin aqroemal sənaye ilə qarşılıqlı əlaqəsi nümunə göstərilə bilər. Əkinçilik bölməsi emal sənayesinə əsas xammal mənbəyi olaraq çıxış edir və bu səbəbdən qarşılıqlı iqtisadi əlaqələrin böyük bir hissəsini təşkil edir.

Qeyd edilməlidir ki, aqrar-sənaye kompleksi iqtisadiyyatın digər sahələrindən öz spesifikliyi ilə fərqlənir. Burada formalaşan

iqtisadi münasibətlər sisteminin spesifikliyi onun istehsal, emal və istehlak mərhələlərinin sıx inteqrasiyasından irəli gəlir. İqtisadi münasibətlərin xarakteri və məzmunu bu sahədə fəaliyyət göstərən strukturların funksional xüsusiyyətlərindən asılı olaraq dəyişir. Aqrar-sənaye kompleksi daxilində formalaşan iqtisadi əlaqələrin bir qismi kənd təsərrüfatının daxili kommunikasiyaları hesabına yaranır və bu da istehlak mallarına olan real tələbat əsasında iqtisadi münasibətlərin təşəkkülünü şərtləndirir.

Keçmiş SSRİ-nin tərkibindən ayrılmış respublikalar arasında Azərbaycan torpaq islahatlarına başlayan ilk ölkələrdən biri olmuşdur. Həmin dövrdə bu addım həm siyasi, həm də sosial-iqtisadi baxımdan riskli və cəsarətli bir qərar kimi qiymətləndirilirdi. Lakin sonrakı dövrlərdə baş verən iqtisadi proseslər göstərdi ki, kolxoz və sovxozların ləğv olunması, torpaqların fərdi mülkiyyət formasında əhaliyə paylanması kənd təsərrüfatında köklü dəyişikliklərə və mühüm nailiyyətlərə səbəb olmuşdur.

Bu islahatlar nəticəsində kənd yerlərində iqtisadi münasibətlər sistemi tamamilə yeni əsaslar üzərində qurulmağa başlamışdır. Torpaq mülkiyyətinin və paralel olaraq aqroemal müəssisələrinin özəlləşdirilməsi kənd təsərrüfatı istehsalı ilə emal sahəsi arasında bazar iqtisadiyyatı çərçivəsində qarşılıqlı inteqrasiyanın zəruriliyini gündəmə gətirmişdir. Artıq bu inteqrasiya əvvəlki inzibati planlaşdırmadan fərqli olaraq, bazar qanunlarına uyğun, rəqabət yönümlü və təsərrüfat subyektlərinin iqtisadi maraqlarına əsaslanan yeni bir sistemin formalaşmasını tələb edirdi.

Azərbaycanda aqrar sahədə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində özəlləşdirmə prosesi ölkə üzrə başa çatdırılmış və bazar münasibətlərinə uyğun yeni idarəetmə

strukturları formalaşmağa başlamışdır. Bu dəyişikliklər kənd təsərrüfatı sektorunun müxtəlif alt sahələrinin inkişafı üçün əlverişli hüquqi və institusional şərait yaratmışdır. Aqroemal sektorunun inkişafına təkan verən mühüm qanunvericilik aktları qəbul edilmişdir. Bunlar arasında 2000-ci ildə qəbul olunmuş "Taxıl haqqında" [112], 2001-ci ildə "Tütün və tütün məmulatları haqqında" [113], 2002-ci ildə "Çayçılıq haqqında" [53], "Üzümçülük və şərabçılıq haqqında" [114], və 2010-cu ildə "Pambıqçılıq haqqında" [85] qanunları xüsusilə qeyd edilməlidir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2016-cı ildə qəbul edilmiş "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" aqrar sahənin, o cümlədən aqroemal sektorunun inkişafı üçün konkret prioritetləri və hədəf indikatorlarını müəyyən etmişdir [6, s.49]. Sənəddə göstərilən tədbirlər çərçivəsində məhsul istehsalından tutmuş, onun emalına və dəyər zəncirinin son mərhələlərinə qədər bütün mərhələlər üzrə effektivlik və rəqabətqabiliyyətliliyin artırılması nəzərdə tutulur.

[1]ASK-nin (Aqrar-sənaye kompleksi) inkişaf trayektoriyasına nəzər saldıqda belə qənaətə gəlmək olar ki, dövlətin iqtisadiyyata müdaxiləsinin tamamilə istisna edilməsi və tənzimləyici funksiyasından imtina edilməsi kənd təsərrüfatının və aqroemal

---

[1] Bəzi iqtisadçılar ASK anlayışını qəbul etmirlər və bunu ölkədə bu tip strukturun tam formalaşmaması ilə izah edirlər. Bu fikirlə razı deyilik. ASK konkret struktur yox, iqtisadi məfhumdur. O, mezo səviyyəli anlayış olub, makroiqtisadiyyatın bir yarımsistemi kimi qəbul edilir. ASK kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, xidmət, ticarət, daşınma, infrastruktur, elmi təminat və digər sahələrin qarşılıqlı əlaqəsinə əsaslanan kompleks bir sistemdir. Tədqiqatda bu məfhum dəfələrlə işlədilmişdir və aktuallığını qoruyur.

sektorunun dayanıqlı inkişafı üçün təhlükə yarada bilər. Belə bir halda, bazar mexanizmlərinin sərbəst fəaliyyətinə baxmayaraq, struktur böhranlarının yaranması riski yüksəlir və sosial-iqtisadi disbalanslar dərinləşə bilər.

Beləliklə, Azərbaycanda aqroemal sahəsinin formalaşması uzun və mürəkkəb inkişaf yolu keçmiş, müxtəlif dövrlərdə sosial-iqtisadi və siyasi dəyişikliklərdən təsirlənmişdir. İstər sovet dövründə, istərsə də müstəqillikdən sonra bu sahənin inkişafı üçün dövlət müdaxiləsi və institusional yanaşmalar həlledici rol oynamışdır. Müasir mərhələdə aqroemal sahəsi artıq kompleks bir sistem kimi fəaliyyət göstərməkdədir və ölkənin ərzaq təhlükəsizliyi, regional inkişafı və iqtisadi dayanıqlılığı baxımından strateji əhəmiyyət daşıyır.

## 1.2 Aqroemal sahəsinin dövlət tənzimlənməsinin metodları və prinsipləri

Kənd təsərrüfatı və emal sənayesində dövlət tənzimlənməsi mexanizmlərinin sistemli şəkildə öyrənilməsi və qiymətləndirilməsi aqrar-sənaye kompleksinin (ASK) davamlı inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, dövlətin tənzimləyici fəaliyyətində istifadə edilən metod və formaların elmi əsaslarla təhlili, effektiv idarəetmə mexanizmlərinin formalaşdırılması üçün zəruridir.

Dövlətin iqtisadi tənzimləmə funksiyasının əsas vəzifələrindən biri ölkə daxilində məcmu tələblə məcmu təklifin tarazlaşdırılmasıdır. Bu tarazlıq iqtisadi sabitlik, istehsalın səmərəliliyi və əhalinin rifahının qorunması üçün vacibdir. Məcmu tələb (ing. aggregate demand, AD) dedikdə, ev təsərrüfatlarının istehlak xərcləri, dövlət xərcləri, ümumi investisiyalar və xalis

ixracın (ixrac – idxal) cəmi başa düşülür. Fiziki olaraq bütün məhsul və xidmətlərin ölçülməsi mümkün olmadığından, bu komponentlər valyuta ifadəsində toplanaraq məcmu tələb göstəricisini təşkil edir.

Eyni qayda ilə, məcmu təklif (ing. aggregate supply) iqtisadiyyatda bir dövr ərzində istehsal olunan mal və xidmətlərin ümumi dəyərini (ÜDM), habelə idxalın məcmu dəyərini əhatə edir. Məcmu təklifin həcmi və dinamikası ölkədəki istehsal gücü, texnoloji səviyyə, resurs təminatı və biznes mühitindən asılı olaraq dəyişir.

Bu tarazlıq aqroemal sahəsinə də birbaşa təsir göstərir. Belə ki, kənd təsərrüfatı məhsullarının emalı sahəsində istehsal həcmləri ilə daxili və xarici bazar tələbi arasında uyğunluğun təmin olunması dövlət tənzimlənməsinin əsas hədəflərindən biridir. Dövlət bu balansı qorumaq üçün müxtəlif iqtisadi alətlərdən – vergi güzəştləri, subsidiyalar, kredit siyasəti, infrastruktur dəstəyi və tənzimləyici normativlər vasitəsilə istifadə edir.



**Qrafik 1.2.1 Məcmu təklif ilə məcmu tələbin illər üzrə hərəkət dinamikası mln.man.**

Mənbə: DSK "Azərbaycan rəqəmlərdə" 2024 s.103. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatlarından istifadə etməklə müəllif tərəfindən tərtib olunmuşdur.

Qrafik 1.2.1-dən də göründüyü kimi, ölkə üzrə 2020-ci ilədək məcmu tələb daim məcmu təklifi üstələmiş və 2022-2023-cü illər bu göstəricilər bərabərləşmişdir.

Qrafikdəki xəttlərin 2005-2020-ci illər ərzində kəsişdiyi nöqtə yoxdur və bu da onu göstərir ki, ölkədə məcmu təklif ilə məcmu tələb həmin illər ərzində heç vaxt tarazlaşmamışdır. 2005-2020-ci illərin orta göstəricisi ilə məcmu tələb ilə məcmu təklif göstəricilərini müqayisə etsək, məlum olar ki, 12% məcmu tələbin çatışmamazlığı mövcud olmuşdur. Nəhayət, 2021-ci ildən bu çatışmamazlıq aradan qalxmış və son iki ildə məcmu tələb ilə məcmu təklif tarazlaşmışdır.

Biz iqtisadi nəzəriyyələrdən, xüsusilə də Keynsçi yanaşmadan bilirik ki, məcmu tələb (AD) və məcmu təklif (AS) arasındakı tarazlıq bazar iqtisadiyyatının dayanıqlı inkişafının əsas şərtlərindən biridir. Bu iki makroiqtisadi dəyişənin bir-birindən əhəmiyyətli dərəcədə sapması sosial-iqtisadi sistemə mənfi təsir göstərir. Tarazlıq pozulduqda ya inflyasiya, ya da tənəzzül riski meydana çıxır.

Məcmu tələb təklifi üstələdikdə, xüsusilə ərzaq məhsulları və kənd təsərrüfatı məhsulları bazarında xərc inflyasiyasının sürətlənməsi müşahidə olunur. Bu hal istehsal xərclərinin artımına, satış qiymətlərinin yüksəlməsinə və nəticədə istehsalın rentabellik həddinin aşağı düşməsinə səbəb olur. Bu cür vəziyyət aqrar sektor

kimi həssas və mövsümi dəyişkənliklərə açıq olan sahələrdə daha kəskin təsir göstərir.

Dövlətin iqtisadi tənzimləmə funksiyasının əsas məqsədlərindən biri də bu tərs mütənasiblikləri optimal səviyyədə balanslaşdırmaq, bazarın stabilliyini təmin etmək və makroiqtisadi sabitliyi qorumaqdır. Bu, kənd təsərrüfatı və aqroemal sektorunda davamlı istehsal və ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

Dövlətin aqrar sektoru tənzimləməsində əsas metodoloji yanaşmalar iki böyük qrupa bölünür: inzibati-təşkilati və iqtisadi metodlar.

İnzibati metodlar birbaşa təsir mexanizminə malikdir və məcburi xarakter daşıyır. Bu metodlar dövlət orqanları tərəfindən hüquqi-normativ sənədlər vasitəsilə həyata keçirilir və aqrar sahədə fəaliyyət göstərən subyektlər üçün icrası zəruri olan göstərişləri ehtiva edir. Buraya, həmçinin, dövlət tərəfindən kənd təsərrüfatı subyektlərinə subsidiyaların ayrılması, güzəştli kreditlərin verilməsi, vergidən azadolmalar və digər institusional dəstək formaları da daxildir. Bu müdaxilələr aqrar sektorun strukturlaşmasında və prioritet istiqamətlərin formalaşmasında mühüm rol oynayır.

İqtisadi metodlar isə dolayı xarakter daşıyır və təsərrüfat subyektlərinin iqtisadi mühitə uyğun qərarvermәsini təşviq edir. Bu metodların məqsədi aqrar sektorda sərfəli iqtisadi şərait formalaşdırmaqla dövlət siyasətinə uyğun davranış modelləri yaratmaqdır. Məsələn, bazar qiymətlərinin tənzimlənməsi, gömrük tarifləri, vergi güzəştləri, ixracın stimullaşdırılması, dövlət satınalmaları bu qəbildən olan iqtisadi alətlərdir. Bu vasitələrlə dövlət, aqroemal məhsullarının istehsalı və dövriyyəsində tələb və

təklif balansına təsir göstərir, daxili bazarın tənzimlənməsini həyata keçirir. Bəzən iqtisadi metodları dolayı metodlar da adlandırırlar.

İnzibati metodların üstünlüyü onların daha operativ təsirə malik olmasıdır. Əksinə, iqtisadi metodların təsiri müəyyən vaxt keçdikdən sonra özünü göstərir, lakin onların davamlılıq və strukturlaşma baxımından effektliliyi daha yüksəkdir. Əlavə olaraq, inzibati mexanizmlər hüquqi çərçivə əsasında həyata keçirilir və antiinhisar, mülkiyyətin qorunması, rəqabət hüququ kimi sahələrdə tətbiq olunan qanunvericilik normalarına əsaslanır.

Dünya təcrübəsi göstərir ki, inzibati və iqtisadi tənzimlənmə üsulları liberal bazar iqtisadiyyatının inkişafından çox asılıdır. Belə ki, liberal bazar iqtisadiyyatı çox inkişaf etmiş ölkələrdə iqtisadi tənzimlənmələr daha hökmran mövqedə olur. Əksinə az inkişaf etmiş ölkələrdə isə qarışıq metodlara, bəzən isə inzibati təsir metodlarına daha çox üstünlük verilir. Ümumiyyətlə, inzibati üsullar ölkələrin iqtisadi böhran vəziyyətlərində daha çox istifadə edilir. Məlum olduğu kimi böhran vəziyyətlərdə iqtisadi ahəng pozulur, istehlak mallarının tələb-təklif tarazlıqlarında diskriminasiya baş verir. Belə hallarda iqtisadi metodların səmərəliliyi də əhəmiyyətli dərəcədə azalır.

Nəticə etibarilə, inzibati və iqtisadi metodlar bir-birini istisna etməyən, əksinə, qarşılıqlı tamamlayan mexanizmlərdir. Aqrar sektorun səmərəli dövlət tənzimlənməsi yalnız bu iki metodoloji yanaşmanın sintezinə əsaslanarsa effektiv nəticələr verə bilər.

*"Göstərmək lazımdır ki, aqrar sahənin tənzimlənməsində aqrar proteksionizm şərtlərinin səmərəli tətbiqi, əsasən dövlət tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi vasitəsilə baş verir. Aqrar proteksionizmin kompleks şəkildə həyata keçirilməsi bütövlükdə aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır*" [87, s.418].

Ölkəmiz müstəqillik qazanandan bu günədək keçən müddət göstərdi ki, inzibati-amirlik sisteminin bazar iqtisadiyyatına transmormasiyası prosesində kənd təsərrüfatının müəyyən spesifik xüsusiyyətləri nəzərə alınmamışdır. Hər şeydən öncə qeyd etməliyik ki, ölkə üzrə məşğul əhalinin kənd təsərrüfatında fəaliyyət göstərənlərin xüsusi çəkisi yüksəkdir, müxtəlif illər üzrə ortalama 36% təşkil edir ki, bu da məşğul əhalinin təxminən 1,7 mln. nəfərini təşkil edir. Bu səbəbdən əhalinin maddi rifah halının çox hissəsi bu sahənin inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında məhsul istehsalı təbii-iqlim şəraitindən asılıdır və istehsal mövsümi xarakter daşıyır, bir çox məhsullar tez xarab olandır. Aqrar istehsalın daha az mobil olması da bu sahənin spesifik xüsusiyyətlərindəndir ki, bu da bazar şəraitində öz təsirini çox göstərir. Mobilliyin az olması o deməkdir ki, bazar tələbatından asılı olaraq istehsal olunan məhsulun çeşidi qısa müddətdə dəyişdirilə bilmir. Bundan başqa, təbii iqlim şəraitindən asılı olaraq ölkənin ərazisində, xüsusilə də dağətəyi zonalarında qərarlaşmış əkinçilik strukturu mövcuddur ki, onları dəyişdirmək çox çətindir. Dövlətin həm inzibati və həm də iqtisadi tənzimlənmələrində bu xüsusiyyətlər nəzərə alınmalıdır.

Bu səbəbdən də hətta inkişaf etmiş ölkələrdə belə kənd təsərrüfatı, o cümlədən, aqroemal sektoru dövlətin xüsusi nəzarəti və müdafiəsi altında olan ayrıca bir sahədir.

Aqrar sektorun tənzimlənməsinin müxtəlif üsulları var ki, bunlar məhsulun istehsalına, daşınma, saxlanma əməliyyatlarına, emal edilməsinə və nəhayət bazar - satış mexanizminə tətbiq edilir.

Bazar tənzimlənməsi əsasən qiymət siyasəti vasitəsilə həyata keçirilir və düzgün qiymət siyasəti kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasında həlledici rol oynayır. Qiymətlərin tənzimlənməsi daxili bazarda məhsul qiymətlərinin nizama

salınması, idxal-ixrac rüsumları, kvotalar və tariflər vasitəsilə təmin edilir.

Son illərdə enerji tariflərinin artması kənd təsərrüfatının istehsal, emal, daşınma və saxlanma xərclərinin yüksəlməsinə səbəb olmuş, bu isə bazar tənzimləmə mexanizmlərinin yenidən nəzərdən keçirilməsini tələb edir.

Dövlət tənzimlənmələrini üç qrupa ayırmaq olar. Bu fikirlər rus alimlərindən Frolova, Bessonova və Petrovaya məxsusdur.

1.Birbaşa büdcə ödəmələri:

- material-texniki resurslara görə subsidiyalar;
- kredit faizlərinə görə verilən subsidiyalar;
- məhsulun sığortalanması üçün çəkilən xərclərin bir hissəsinin subsidiyalaşması;

2. Stimullaşdırıcı xarakterli büdcə vəsaitlərinin ayrılması:

- dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının satın alınması;
- məhsul və alış qiymətləri ilə ərzaq bazarının tənzimlənməsi;
- bazarda milli istehsalçıların mənafelərinin müdafiəsi;

3. Təşkilati-iqtisadi tədbirlər:

- kənd təsərrüfatı istehsalçılarının büdcə borclarının restruktrizasiyası
- kənd təsərrüfatı istehsalçıları üçün güzəştli vergi rejimi;
- "Aqrolizinq" SC-nin nizamnamə kapitalının dövlət hesabına formalaşdırılması; [149, s.31].

Kənd təsərrüfatının istehsalının və emalının tənzimlənməsini dövlət bir çox vasitələrlə həyata keçirir. Bunlar:

- kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən satın alınması;
- subsidiyalar və dotasiyalar;

- yerli və birbaşa xarici investisiyaların cəlb edilməsi üçün əlverişli iqtisadi mühitin yaradılması;
- güzəştli kreditlərin verilməsi;
- vergi güzəştlərinin və vergi tətillərinin tətbiq edilməsi;
- infrastruktur layihələrinin dövlət tərəfindən həyata keçirilməsi və s.

Əslində dövlətin aqrar sahənin tənzimlənməsi siyasəti bazar mühitinin formalaşmasına xidmət edən bir prosesdir. Ona görə də istənilən ölkədə formalaşan bazar özünə uyğun strukturun formalaşmasını təmin edir. Buna uyğun olaraq dövlətin tənzimlənmə siyasəti formalaşır.

Dünya təcrübəsi göstərir ki, bazar strukturunun formalaşmasında və inkişafında investisiyaların əhəmiyyəti çox yüksəkdir. Ona görə də investisiyalar mütəmadi və davamlı olmalıdır.

Elm və texnologiya inkişaf etdikcə, eyni zamanda istehlakçı tələbləri dəyişdikcə, bazarlar uğrunda rəqabət gücləndikcə aqroemal sahəsinin müəssisələrinin səmərəliliyini artırmaq məqsədilə yeni innovasiyalara, daha əlverişli və müasir texnologiyalara və daha məhsuldar avadanlıqlara investisiya qoymaq zərurətini hiss edilməsi daha kəskinliklə ortaya çıxır. Çünki, bu zərurət müəssisənin kompleks şəklində dayanıqlı və inklüziv inkişafını təmin edir, rentabelliyi artırır və məhsul bazarda daha rəqabətə davamlı olur. Ona görə də ölkənin aqroemal müəssisələrinin inkişafı və məhsullarının daha çox rəqabətə davamlı olmasını görmək istəyiriksə, o zaman, bu sahənin əsas strategiyası innovativ inkişaf və müasir texnologiyaların tətbiqi olmalıdır.

İctimai tələbat artdıqca daim istehsal məhsullarının həcm və keyfiyyəti dəyişir. Çox vaxt tələbatların kəmiyyət artımları resurs

və torpaqların hesabına olur ki, bu da təbii məhdudluq çərçivəsindən kənara çıxa bilmir, ancaq məhsuldarlıq, səmərəlilik, rəqabətqabiliyyətlilik və keyfiyyət artımı isə texnoloji bazanın keyfiyyət dəyişikliyi ilə, yəni yeni innovasiyaların tətbiqi ilə mümkündür.

Aqroemal müəssisələrinin fəaliyyətində səmərəlilik əsas şərtlərdəndir. Səmərəlilik iki amil ilə ölçülür:

1.Resurs səmərəliliyi

2. İstehsal səmərəliliyi.

Resurs səmərəliliyi istehsalın həcmini müəyyən edir. İstehsal səmərəliliyi isə bu həcmin daha az xərclə daha effektli istehsalının qurulmasını tələb edir.

Aqrar sahədə dövlətin tənzimlənmə siyasətində mühüm amil resurs səmərəliliyinin artırılmasıdır ki, bu da artan ictimai tələbatın təminatının formalaşmasına xidmət edir.

İstehsalın səmərəliliyində dövlət və özəl sektorun birlikdə iştirakı zəruridir. Burada dövlətin üzərinə düşən əsas vəzifə əlverişli iqtisadi mühitin yaradılmasıdır. Əlverişli iqtisadi mühit son nəticədə istehsal xərclərinin azaldaraq, istehsalın səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Azad rəqabət mühiti, tenologiyaların müasirləşdirilməsi üçün güzəştli kreditlərin verilməsi, xarici və yerli investisiyaların cəlb edilməsi üçün optimal mühitin yaradılması əlverişli iqtisadi mühitin əsas atributlarıdır. Bu cür əlverişli mühitin yaradılmasının qarşılığında, zaman-zaman artan tələbat və güclənən rəqabət şəraitində aqroemal sahəsinin sahibkarları öz məhsullarını daim təkmilləşdirməli, bazarda idxal məhsulları ilə rəqabətə davamlı olmalıdırlar. Burada dövlət isə müəssisələrdə yeni innovasiyaların tətbiqi və texnoloji modernləşdirilməsinə stimulyativ iqlim yaratmalıdır.

Aqroemal məhsulları bazarının dövlət tənzimlənməsinin müxtəlif üsullarından istifadə problemlərin ayrıca nəzərdən keçirilməsini tələb edir.

Aqroemal məhsullarının bazar qiymətlərinə müdaxilə dövlətin əsas tənzimlənmə üsullarından biridir. Səbəbi isə odur ki, bu məhsullarının bazarları daha rəqabətlidir və istehlakçıların gündəlik tələbat mallarıdır. Gündəlik tələbat malları olduğu üçün də təkliflərin həcmi daim çoxluq təşkil edir. Azərbaycanın yerli məhsullarının qiymətləri idxal məhsullarının qiymətləri ilə uyğunlaşaraq vahid milli valyuta ilə ifadə olunur. Bu da dövlətin bazarlara müdaxiləsi nəticəsində baş verir.

"Qiymət iqtisadiyyatda mütənasibliyin və tarazlığın qorunması üçün şərait yaradır. Əgər qiymət aşağı düşüb məhsul vahidinin maya dəyərinə yaxınlaşırsa, əmtəə istehsalçıları ya məsrəfləri azaltmaq üçün tədbirlər görür, ya da istehsal imkanlarından başqa mallar istehsal etmək üçün istifadə edir, və ya müəssisəni bağlayır" [146. s.9].

Bazar qiymətlərinin səviyyəsinə nəzarət daim dövlətin diqqətində olan əsas məsələlərdəndir. İstehlakçıların gəlirləri, alıcılıq qabiliyyəti, istehsal həcmləri, idxaldan asılılıq səviyyələri və sairələr nəzərə alınaraq qiymət tənzimlənmələri həyata keçirilir. Bu iqtiqamətdə gömrük tarifləri, müxtəlif mallar üzrə idxal və ixrac kvotaları, bəzən daxili bazar qiymətlərinə birbaşa müdaxilə və digər tənzimlənmə üsulları ilə daxili bazarda aqroemal məhsullarının optimal qiymətləri formalaşdırılır. Optimal qiymət dedikdə, əgər dövlət daxili bazarda qiymət artımını təmin edərsə, bu zaman aqrar istehsalçıların daha səmərəli istehsalına nail olar, ancaq qiymət artımı eyni zamanda istehlakçıların marağına cavab vermir və alıcılıq qabiliyyətinin azalmasına gətirib çıxara bilər. Əksinə qiymət tənzimlənmələri daxili bazarda qiymətlərin aşağı düşməsinə gətirib

çıxararsa, bu zaman istehsal olunan malların rentabelliyinin və istehsalın səmərəliliyinin azalmasına səbəb ola bilər ki, bu da son nəticədə məhsul istehsalına mane ola bilər. Qiymət tənzimlənmələri elə qurulmalıdır ki, istehsalçılar ilə istehlakçıların maraqları arasında ən uyğun və optimal variant seçilsin. Əksəriyyət hallarda qiymətlərin dövlət tənzimlənmələri zamanı istehlak mallarının qiymətləri müəyyən qədər qalxır ki, bu da nəticədə istehlakçılar və bəzən də vergi ödəyicilərinin əlavə xərclərin ödənilməsinə səbəb olur.

Bundan başqa kənd təsərrüfatının dövlət tənzimlənməsinin digər metodları da mühüm əhəmiyyətə malikdir: inandırma, icazələr, inam, birbaşa təlimat metodu, tövsiyə və s. kimi metodlar.

Dövlət tənzimlənmələrindən ən geniş yayılanı yüksək təşkilatçılıq və intizamın təmin edilməsi məqsədilə tərbiyə, izah və təşviqləndirmə vasitələri ilə ictimai münasibətlərə təsir göstərən inandırma metodudur. Bu metodun əsasını təsərrüfatların fəaliyyətində təkmilləşmə və müstəqillik, ixtisaslı kadrların əhəmiyyətli dərəcədə artırılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının əmək məhsuldarlığının yüksəldilməsi təşkil edir. Bu metodun əsas mahiyyəti ondan ibarətdir ki, dövlət orqanları kənd təsərrüfatı müəssisələrinə konkret məsələni həll etmək hüququnu özlərinə verirlər. Bunlara təsərrüfat-istehsalat fəaliyyətində subyektin rəhbərlik etdiyi, heç bir qanun və normativlərdən kənarlaşmaya yol verməyən konkret davranışı göstərən aktlar daxildir. İnandırma üsulu müəssisələrin rəhbər heyətinin, mütəxəssislərin, kənd təsərrüfatı işçilərinin fəal iştirakı ilə tətbiq edilir və imperativ xarakter daşıyır.

Dövlət tənzimləməsinin hüquqi metodunun mahiyyəti dövlətin aqrar siyasətinin, hüquqi normalarının konkret fəaliyyət şəraitində müxtəlif üsullardan istifadə etməklə, məcburi həyata

keçirilməsindən qaynaqlanır. Hüquqi tənzimlənmə metodları operativ və yaradıcıdır, konkret olaraq, iqtisadiyyatda baş verən bütün şəraiti nəzərə almaqla təşəbbüskarlıq, fəallıq, problemlərin həllində məqsədyönlülük tələb edir.

Bunlardan başqa dövlət tənzimləmələrinin təşkilati metodları da var ki, bu tədbirlərin məqsədi kənd təsərrüfatının və aqrar-sənaye kompleksinin bir-birinə yaxın əlaqəli sahələrinin aydın və səmərəli fəaliyyətini təmin etməkdir.

Aqrar-sənaye kompleksində dövlət tənzimlənməsi mexanizminin bütün formaları bir-birindən asılıdır, yalnız onlardan kompleks şəklində istifadə edildiyi zaman kənd təsərrüfatı məhsullarını emal edən müəssisələr qarşısında duran problemləri optimal həll etməyə, mövcud hüquqi üsullardan rasional istifadə etməyə imkan yaranır.

Bazarda qiymət tənzimlənmələrini daim nəzarətdə saxlamaq üçün dövlətin ehtiyat fondlardan istifadə etməsi təcrübəsi də mövcuddur. Məsələn, əgər hər hansı məhsul üzrə bazar qiyməti tənzimlənmiş qiymət həddindən yuxarı qalxarsa, bu zaman ehtiyat fondundan bazara həmin məhsul buraxılır, təklif artırılır və qiymət yenidən əvvəlki, tənzimlənmiş həddə düşür və ya əksinə.

Qeyd edilənlənlərdən belə qənaətə gəlmək olar ki, dövlətin iqtisadiyyata müdaxilə üsulları ölkənin inkişaf səviyyəsindən şox asılıdır. Belə ki, hər hansı bir ölkədə bazar münasibətləri və rifah yüksək inkişaf etmişdirsə, həmin ölkədə tənzimlənmənin iqtisadi metodları daha çox tətbiq edilir, inzibati üsullar isə sıxışdırılıb aradan qalxır. Bu hal əsasən inkişaf etmiş ölkələrə aiddir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə isə həm iqtisadi və həm də inzibati üsulların eyni vaxtda, qarışıq tətbiqi daha effektli olar.

Beləliklə, aqroemal sahəsinin dövlət tənzimlənməsi sistemli və məqsədyönlü yanaşma tələb edir. Həm inzibati, həm də iqtisadi metodların kombinasiyası bu sahənin inkişafını və davamlılığını təmin edən əsas mexanizmlərdən biridir. Azərbaycanın bu sahədəki təcrübəsi müəyyən uğurlara rəğmən, hələ də təkmilləşməyə açıqdır. Növbəti bölmədə inkişaf etmiş ölkələrin aqrar və aqroemal sahələrdə dövlət tənzimlənməsi üzrə təcrübəsi təhlil olunacaq və Azərbaycanın mövcud siyasəti üçün mümkün istiqamətlər müəyyənləşdiriləcəkdir.

### 1.3.Aqroemal sahəsinin dövlət tənzimlənməsində beynəlxalq modellər və Azərbaycana uyğunluq imkanları

Artıq üç onillikdən artıqdır ki, Azərbaycan iqtisadiyyatı, o cümlədən aqroemal sektoru bazar münasibətləri çərçivəsində fəaliyyət göstərir. Bu şəraitdə aqroemal sahəsinin davamlı inkişafı ilk növbədə dövlətin iqtisadi tənzimləmə mexanizmlərinin, xüsusilə, maliyyə, kredit və vergi siyasətinin səmərəli təşkilindən asılıdır. Qlobal təcrübə göstərir ki, müxtəlif inkişaf səviyyəsinə malik ölkələrdə aqrar sektorun dövlət tərəfindən tənzimlənməsi müxtəlif formalarda həyata keçirilir və yanaşmalar milli xüsusiyyətlərə uyğun olaraq fərqlənir.

Aqrar və aqroemal subyektləri ilə dövlət arasında formalaşan qarşılıqlı münasibətlər modeli ölkədən-ölkəyə dəyişir. Məsələn, Avropa İttifaqı (Aİ) ölkələri 1960-cı ildən etibarən vahid aqrar siyasət istiqamətində inteqrasiyaya başlamış olsa da, bu ölkələr arasında dövlət tənzimləmələri baxımından yanaşma fərqləri hələ də mövcuddur. Əsas məqsəd aqrar sahənin dayanıqlı inkişafını və ərzaq təhlükəsizliyinin təminini əsaslandıran milli strategiyaların həyata keçirilməsidir.

İnkişaf etmiş ölkələrin təcrübəsində inzibati təsir alətləri minimum səviyyədə istifadə olunur, əvəzində iqtisadi rıçaqlara – qiymət siyasətinə, fiskal və monetar təşviqlərə, subsidiyalara və güzəştli kredit mexanizmlərinə üstünlük verilir. Belə ölkələrdə aqrar sektorun dövlət tərəfindən tənzimlənməsi məhz iqtisadi metodlarla həyata keçirilir və bu yanaşma sosial-iqtisadi sabitliyi təmin etməyə yönəlib. Bununla belə, tarixi, mədəni, sosial və coğrafi fərqliliklər tənzimləmə formalarının hər bir ölkədə spesifik olmasına səbəb olur.

Məsələn, ABŞ-da kənd təsərrüfatı və emal sektorunda fəaliyyət göstərən istehsalçılara sabit gəlir səviyyəsi təmin etmək məqsədilə dövlət tərəfindən hədəf qiymətlər müəyyən edilir. Əmlak vergisi isə aşağı dəyər həddi əsasında hesablanır və bəlli bir limitin altında vergi ümumiyyətlə tətbiq olunmur. Fermerlərin maliyyə resurslarına çıxış imkanlarını artırmaq məqsədilə Fermer Kredit Sistemi Sığorta Korporasiyası kimi institusional mexanizmlər formalaşdırılıb [163].

Əlavə olaraq qeyd olunmalıdır ki, inkişaf etmiş ölkələrdə aqrar siyasət statik deyil. Dövlətin bu sahədə siyasəti bazar konyunkturasının dəyişikliklərinə uyğun olaraq vaxtaşırı yenilənir, mövcud proqramlara əlavələr və korrektələr edilir ki, bu da aqrar və aqroemal sektorun çevik və adaptiv inkişafı üçün zəruri şərtlərdəndir.

Eyni zamanda, aqrar-sənaye kompleksində dövlətin üzərinə götürdüyü və yalnız onun həyata keçirə biləcəyi strateji və kapital tutumlu sahələr də vardır. Bunlara seleksiya və damazlıq işləri, iri suvarma infrastrukturunun – su anbarlarının və kanalların inşası, torpaq eroziyası və səhralaşma ilə mübarizə tədbirləri, şoranlaşmanın qarşısının alınması, dağətəyi zonalarda torpaq mühafizə sistemlərinin qurulması və bəndlərin çəkilməsi daxildir.

Bu layihələr yalnız dövlət resursları ilə icra oluna biləcək ümummilli əhəmiyyətli tədbirlərdir və onların icrası ölkənin aqrar istehsal potensialının qorunmasında və inkişafında mühüm rol oynayır.

Əvvəlcə vurğulamaq lazımdır ki, ABŞ, Avropa İttifaqı ölkələri və Asiya qitəsinin bir sıra inkişaf etmiş dövlətlərində kənd təsərrüfatı və aqroemal sahəsində əldə olunmuş yüksək nailiyyətlərin əsasında bir sıra strateji faktorlar dayanır. Bu ölkələrdə aqrar istehsalın uğurlu inkişafı ilk növbədə yüksək məhsuldarlığa malik müasir texnika və texnologiyaların geniş tətbiqi, güclü maddi-texniki baza və sistemli innovasiya siyasətinin həyata keçirilməsi ilə şərtlənir. İnfrastruktur təminatı, aqrotexniki vasitələrə çıxış imkanlarının genişliyi, eləcə də torpaq və su resurslarından səmərəli istifadə texnologiyalarının tətbiqi bu ölkələrdə kənd təsərrüfatını yüksək səmərəlilik səviyyəsinə çatdırmışdır.

Aqrar və aqroemal sahələrdə müasir texnologiyaların tətbiqi yalnız texniki təminatla məhdudlaşmır. Bu proses həm də peşəkar və yüksək ixtisaslı insan kapitalının mövcudluğunu tələb edir. Belə ki, yeni texnoloji sistemlərin idarə olunması, aqrotexniki proseslərin avtomatlaşdırılması, rəqəmsal nəzarət vasitələrinin istifadəsi üçün kənd təsərrüfatı sahəsində çalışan kadrların geniş biliklərə, müasir elmi yanaşmalara və praktik bacarıqlara malik olması zəruridir. Bu isə öz növbəsində yalnız ali və orta ixtisas təhsili ilə deyil, həm də fasiləsiz təkmilləşdirmə proqramları və davamlı tədris mühiti ilə mümkündür.

Dövlət bu reallığı nəzərə alaraq, innovasiya yönümlü kənd təsərrüfatı siyasəti çərçivəsində fermerlərin və emal müəssisələrinin işçilərinin bilik və bacarıqlarının artırılmasını xüsusi ön plana çəkir. Bir çox inkişaf etmiş ölkələrdə dövlət aqrar sektora texnologiya

transferini sadəcə texnika satışı və ya subsidiyalarla deyil, həm də informasiya və maarifləndirmə vasitəsilə həyata keçirir. Bu məqsədlə fermerlər üçün xüsusi təlim kursları təşkil olunur, innovasiyaların tətbiqi ilə bağlı metodik vəsaitlər, tədris ədəbiyyatları, texnoloji təlimat kitabçaları hazırlanaraq geniş auditoriyaya təqdim edilir.

Belə yanaşmalar kənd təsərrüfatı sahəsindəki ənənəvi təsərrüfatçılıq anlayışlarını dəyişdirərək, onu biliklərə əsaslanan, çevik və müasir idarəetmə yanaşmaları ilə zənginləşdirilmiş bir sahəyə çevirir. Həmçinin, aqrar sahənin struktur səviyyəsində müasirləşdirilməsi, bilik və texnologiya əsaslı istehsal modellərinin tətbiqi kənd yerlərində iqtisadi fəallığın artmasına və aqroemal sahəsinin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə şərait yaradır.

Nəticə etibarilə qeyd olunmalıdır ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar sahədə uğurlu dövlət siyasətinin vacib komponentlərindən biri də texniki tərəqqiyə uyğunlaşma bacarığına malik kadr potensialının formalaşdırılması və bu potensialın dayanıqlı inkişafına yönəlmiş sistemli tədbirlərin həyata keçirilməsidir.

İnkişaf etmiş ölkələrdə aqrar istehsalın dəstəklənməsi siyasətində proteksionizm formaları mühüm yer tutur. Aİ ölkələrində fermer gəlirlərinin təqribən 20–24 %-i dövlət dəstəyi ilə təmin edilir. ABŞ-da bu göstərici 9–15 %, Kanadada 10–18 %, Yaponiya isə fermer gəlirlərinin təxminən yarısını (təqribən 47–51 %) subsidiyalara ayırır.

Aİ ölkələrində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dəstək məqsədilə bir çox tənzimlənmələr həyata keçirilir ki, bunlara yüksək daxili qiymətlərin sabit saxlanması, əhalinin tələbatından artıq məhsulların ixracının subsidiyalaşdırılması aiddir.

Bu məqsədlə Aİ ölkələrində aqrar sektor üzrə rəqabətin təmin edilməsi üçün iki əsas qayda müəyyən edilmişdir:

1. ölkəyə idxal olunan məhsulların yerli istehsalçıların istehsal etdiyi analoji məhsullardan, yəni ölkənin daxili bazarının qiymətindən aşağı qiymətə satılması qadağandır;

2. İttifaq ölkəsinə məhsul idxal edən ölkə marjinal qiymətlə dünya bazarındakı qiymət arasındakı fərqi gömrükdə Aİ büdcəsinə ödəməlidir. Bu fərq ticarət üzrə ödəniş adlanır.

*"Ümumiyyətlə, ABŞ-dakı kənd təsərrüfatı müəssisələri ilə müqayisə etsək görərik ki, Aİ-dəki müəssisələr orta hesabla daha kiçikdir və bu səbəbdən də daha az səmərəlidir. Buna görə də son nəticədə daha yüksək istehsal xərcləri olur və buna adekvat olaraq istehsal etdikləri məhsulların qiymətləri də daha yüksək olur. Burada kənd təsərrüfatı ilə məşğul olan müəssisəyə düşən orta torpaq sahəsi 2016-cı ilin göstəricilərinə görə 16,5 hektardır. Lakin ABŞ-da bu rəqəm 178,9 hektardır ki, bu da Aİ-dən 10 dəfə çoxdur. Türkiyədə kənd təsərrüfatı müəssisələrinin sahələrinin sahəsi təqribən 6,0 hektara, yəni Aİ-nin təxminən üçdə birinə bərabərdir. 2018-ci ildə Aİ-nin kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 365,5 mld. avro olmuşdur ki, bunun da 14.5%-ni süd, 8,7%-ni ət, 12%-ni dənli bitkilər təşkil etmişdir. Faktiki olaraq Aİ ölkələri yerli istehsalçıların xeyrinə süd, ət və taxıl bazarlarına ciddi şəkildə müdaxilə edirlər"* [117, s.85].

Bu ölkələrdə fermerlərə dəstək göstərilməsi bütün fermerlərə deyil, yalnız ölkə ərazisində həmin dəstəyin alınması üçün müəyyən şərtləri yerinə yetirənlərə aid edilir. Məlum məsələdir ki, hər bir ölkənin ərzaq məhsullarının istehsalı və ətraf mühitin qorunması ilə əlaqədar standartları mövcuddur. Aİ ölkələrində dövlət dəstəyini əldə etmək üçün fermerlər bu standartlara əməl etməlidirlər.

*"Aİ-də ölkələr istehsal olunan əsas məhsulların həcminə və məhsuldarlığına görə bir-birilərindən fərqlənirlər. 2017-ci ilin məlumatlarına görə, buğda istehsalında Aİ ölkələri arasında Fransa, Almaniya, İngiltərə və Polşa xüsusilə mühüm yer tutur və bu dörd ölkə Aİ-də buğda istehsalının 62%-ni istehsal edirlər. Digər tərəfdən hər inəkdən sağılan süd göstəricisinə görə 8717 kq. ilə İsveç, 8529 kq. ilə Danimarka və 8098 kq. ilə Finlandiyadır. Amma Avropa İttifaqında ən çox süd istehsal edən ölkələr Almaniya, Fransa, İngiltərə, Polşa, Hollandiya və İtaliyadır. 2017-ci ilin məlumatlarına görə, bu altı ölkə Aİ-də ümumi südün 69%-ni istehsal edir. İrlandiya və Lüksemburqda mal əti üzrə məhsuldarlıq ən yüksək olduğu halda, əsas mal əti istehsal edən ölkələr ümumi mal ətinin 60%-ni istehsal edən Almaniya, Fransa, İtaliya və İngiltərədir"* [117, s.76].

Almaniyada aqroemal sənayesi əsasən kiçik və orta müəssisələrin üstünlüyü ilə səciyyələnir. Bu sektorda fəaliyyət göstərən şirkətlərin əksəriyyəti 250-dən az işçiyə malikdir və onlar ölkədə ərzaq və kənd təsərrüfatı məhsullarının emalı sahəsində məşğulluğun mühüm hissəsini təmin edir. Bu müəssisələr ümumilikdə on minlərlə iş yerinin yaradılmasında iştirak edir və ümumi məşğul əhalinin əhəmiyyətli bir qismini özündə cəmləşdirir.

Aqroemal sənayesinin texnoloji inkişafında məhsul istehsalının avtomatlaşdırılma səviyyəsi mühüm rol oynayır. Bununla belə, avtomatlaşdırmanın emal sektorunun bütün sahələrinə tam şəkildə tətbiqi praktik baxımdan mümkün deyildir. Avtomatlaşdırmanın tətbiq səviyyəsi sahələr üzrə fərqlənir və bu fərqliliyin əsas səbəblərindən biri də xammalın fiziki-mexaniki xüsusiyyətləridir. Məsələn, süd məhsulları, içkilər və çörək məhsulları kimi sahələrdə maye və ya yarımmayə strukturlu xammalların emalı avtomatik sistemlər vasitəsilə daha rahat və effektiv şəkildə həyata keçirilə

bilir. Bu isə bu sahələrdə avtomatlaşdırma səviyyəsinin yüksək olmasını şərtləndirir.

Əksinə, ət və ət məhsullarının emalı sahəsində avtomatlaşdırma səviyyəsi daha aşağıdır. Bunun əsas səbəbi ət xammalının qeyri-standart formaya, sümük, əzələ, dəri və digər submәhsullara malik olmasıdır. Bu cür kompleks strukturların avtomatik emalı üçün tələb olunan texnologiyalar çox baha başa gəldiyindən, bu sahədə xüsusilə kiçik və orta gücə malik müəssisələr daha çox əl əməyindən istifadə etməyə məcbur olurlar. Nəticədə bu müəssisələrdə istehsal xərcləri artır, məhsulun maya dəyəri yüksəlir, səmərəlilik azalır və bu da investisiyaların cəlb olunmasında ciddi problemlər yaradır.

Aqroemal sahəsində əsas texnoloji çağırışlardan biri də standartlaşdırılmamış xammalın itkisiz və minimal enerji sərfi ilə emalını təmin edən sistemlərin hazırlanmasıdır. Bu məqsədlə toxunma ilə idarəetmə texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Lakin bu texnologiyalar yüksək dəyəri səbəbilə daha çox iri istehsal müəssisələri üçün əlverişlidir. Kiçik müəssisələr üçün isə optimal gücdə və səmərəli avtomatik sistemlərin hazırlanması gələcək inkişaf prioritetlərindən biri olmalıdır. Belə texnologiyaların tətbiqi həm məhsuldarlığın artırılmasına, həm də istehsal xərclərinin azaldılmasına səbəb ola bilər.

Bununla yanaşı, Almaniyanın qida və içki sənayesində aparıcı sektorlar arasında pivə və şərab istehsalı xüsusi yer tutur. Bu sahədə yüksək texnoloji səviyyə və ənənəvi istehsal mədəniyyəti bir-birini tamamlayır. Hazırda Almaniyada təqribən 1 300–1 400 pivə emalı müəssisəsi fəaliyyət göstərir və bu şirkətlər 5 000-ə qədər fərqli pivə növü istehsal edir. İstehsal olunan pivənin təxminən üçdə biri ixrac edilir. Bu səbəbdən Almaniya tez-tez “pivə ölkəsi” kimi

xarakterizə edilir. Lakin statistik məlumatlar göstərir ki, ölkədə faktiki olaraq şərab istehlakı pivədən daha yüksəkdir.

"Alman Şərab İnstitutu"nun məlumatına əsasən, 2015-ci ildə Almaniyada 18 milyon hektolitr həcmində şərab istehlak edilmişdir. Bu göstərici ölkənin daxili bazarında şərabın mühüm yer tutduğunu göstərir. İstehlak olunan şərabın təqribən 40%-i yerli istehsalın, 13%-i Fransadan idxal edilən şərabların, qalan hissəsi isə İspaniya və digər ölkələrin məhsullarının payına düşür. Şərabçılıq daha çox Reyn vadisində cəmlənmişdir və bu regionda keçən əsrin əvvəllərindən başlayaraq həyata keçirilən investisiya siyasəti şərab istehsalının keyfiyyət və kəmiyyət göstəricilərinin artımına səbəb olmuşdur. Xüsusilə son 40 ildə qırmızı şərab istehsalına marağın artması müşahidə edilir [176].

İnkişaf etmiş ölkələrdə aqrar-sənaye kompleksi sferasında istehsalçıların normal fəaliyyətlərini təmin etmək üçün ölkə daxilində bazarların qorunması mexanizmləri yaradılır və həyata keçirilir. Bu mexanizm yerli istehsalçı və istehlakçıların qorunması məqsədini daşıyır və vahid kənd təsərrüfatı siyasətinin formalaşmasının əsasını təşkil edir. Məlumdur ki, kənd təsərrüfatı məhsullarının istehlak qiymətləri dünyanın müxtəlif ölkələrində müxtəlifdir. Bu səbəbdən də inkişaf etmiş ölkələr yerli istehsalçıların xeyrinə daxili bazarları qorumaq üçün, daha dəqiq desək yüksək daxili və aşağı dünya qiymətləri arasında fərqi bərabərləşdirmək üçün gömrük rüsumları və kompensasiya ödənişlərindən istifadə edərək tənzimlənmələr aparırlar. Burada əsas məqsəd yerli sahibkarlara məxsus müəssisələrin gəlirliyini təmin etməkdir. Bəzi məhsullar üzrə idxal tarifləri o qədər yüksək olur ki, həmin ölkəyə məhsul idxal etmək çox çətinləşir. Məsələn Avropa İttifaqı üzrə mal ətinin idxal tarifi 213%, ərzaq buğdası üzrə

isə 168%-dir. [177]. ABŞ-da da bu rəqəmlər çox yüksəkdir. Məsələn, süd üçün idxal tarifi 83%, şəkər üçün isə 244%-dir.

Postsovet ölkələrində bu rəqəmlər çox aşağıdır. Azərbaycanda bütün növ ətlərin idxal tarifləri-15%, süd-15%, buğda-5%, çay-15% və s. təşkil edir. İdxal tariflərinin aşağı olması daxili istehsalın çatışmazlığı, əhalinin alıcılıq qabiliyyəti, ərzaq qiymətlərində sabitliyin qorunması və beynəlxalq ticarət öhdəlikləri ilə izah olunur.

İnkişaf etmiş ölkələrdə, xüsusilə də, Aİ ölkələrində kənd təsərrüfatına dövlət dəstəyi yüksək səviyyədə həyata keçirilir. Qeyd etdiyimiz kimi, ölkənin daxili bazarının ucuz kənd təsərrüfatı məhsullarından qorumaq üçün idxal vergisi tətbiq edilir, ixrac olunan məhsullara görə isə müxtəlif təşviqləndirici tədbirlər görülür, o cümlədən, subsidiyalar ödənilir.

ABŞ-da kənd təsərrüfatı sahəsində dövlətin tənzimləyici rolu tarixi baxımdan mərhələli şəkildə formalaşmış və ilkin olaraq torpaq siyasəti çərçivəsində özünü göstərmişdir. Hələ 18–19-cu əsrlərdə, xüsusilə də immiqrasiyanın intensivləşdiyi dövrlərdə torpaq resurslarının bölüşdürülməsi və istifadəsi ilə bağlı mühüm qərarlar qəbul olunmuşdur. O dövrdə ABŞ ərazisinin təqribən 607 milyon hektarlıq torpaq fondunun 93%-ə qədəri — yəni 567 milyon hektarı — federal mülkiyyətdə idi (USDA, 2023). Bu torpaqların əkin üçün istifadəyə verilməsi, həm də kənd təsərrüfatının təşviqində dövlətin ilk aktiv müdaxilələrindən biri hesab olunur.

Daha sonrakı dövrdə, xüsusilə 20-ci əsrin əvvəllərində kənd təsərrüfatı sektorunun hüquqi və maliyyə əsasları formalaşdırılmağa başlanmışdır. 1916-cı ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş Federal Farm Loan Act (Federal Fermer Kreditləri Qanunu) kənd təsərrüfatının kreditləşdirilməsində əsaslı dönüş nöqtəsi olmuşdur. Bu qanun çərçivəsində Federal Land Bank

sistemi təsis edilmiş və fermerlərin uzunmüddətli, aşağı faizli kreditlərə çıxışı təmin edilmişdir. Qanun kreditə çıxışı genişləndirməklə yanaşı, kənd təsərrüfatı sektorunun institusional maliyyələşməsini və rəqabətliliyini də artırmışdır.

Böyük Depressiya dövrü (1930-cu illər) isə ABŞ-da aqrar sektorda dövlət tənzimləmələrinin intensivləşməsi ilə yadda qalmışdır. 1933-cü ildə qəbul edilmiş Agricultural Adjustment Act (Kənd Təsərrüfatının Tənzimlənməsi Qanunu) məhsul bolluğunun qarşısını almaq, qiymətləri sabitləşdirmək və fermer gəlirlərini artırmaq məqsədi daşıyırdı. Bu çərçivədə fermerlərə məhsul istehsalını məhdudlaşdırmaları üçün birbaşa subsidiyalar ödənilməyə başlandı. Eyni zamanda məhsulların keyfiyyətinə nəzarət, texniki yardım proqramları və istehsal texnologiyalarının müasirləşdirilməsi kimi təşəbbüslər də dəstəklənirdi.

Kənd təsərrüfatı məhsullarının bazarlara çıxışını asanlaşdırmaq məqsədilə Market Access Program (MAP) və Foreign Market Development Program kimi proqramlar tətbiq olunmuş, federal büdcədən ixracın stimullaşdırılması üçün vəsait ayrılmışdır. Bu proqramlar çərçivəsində beynəlxalq sertifikatlaşdırma, marketinq və ixrac dəstəyi təmin edilmişdir.

Mövcud mərhələdə ABŞ kənd təsərrüfatı subsidiyalarına görə dünyada lider ölkələrdən biri olaraq qalır. 2022-ci il göstəricilərinə əsasən, ABŞ kənd təsərrüfatına birbaşa və dolayı yollarla təxminən 180 milyard ABŞ dolları həcmində dəstək ayırmışdır (OECD Agricultural Policy Monitoring, 2023). Subsidiyalar, vergi güzəştləri, sığorta proqramları və texniki yardım formalarından istifadə olunmaqla aqrar sektorun davamlılığı və beynəlxalq rəqabətliliyi təmin olunur.

ABŞ təcrübəsi göstərir ki, dövlət müdaxilələri düzgün iqtisadi rıçaqlarla həyata keçirildikdə kənd təsərrüfatı və aqroemal sahəsi

dayanıqlı və innovativ inkişaf trayektoriyasına yönəldilə bilər. Bu model aqrar-sənaye kompleksinin strukturlaşması və tənzimlənməsi baxımından dünya üzrə nümunəvi mexanizm kimi qiymətləndirilir.

**Cədvəl 1.3.1 ABŞ-ın kənd təsərrüfatı proqramları və büdcə ayırmaları (2014-2018)**

| | Proqramlar | Büdcə (mld.$) | Cəmi (%-lə) |
|---|---|---|---|
| 1. | Əlavə ərzaq dəstəyi proqramı | 760 | 77% |
| 2. | Bitkiçilik məhsullarının sığortalanmasına dəstək | 87 | 9% |
| 3. | Məhsul üçün dəstək proqramları | 68 | 7% |
| 4. | Mühafizə proqramları | 64 | 6% |
| 5. | Digər proqramlar | 10 | 1% |
| | Cəmi | 989 | 100% |

Mənbə: BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı https://www.fao.org/documents/card/ru/c/cb4477en/ məlumatlarından istifadə etməklə müəllif tərtibatı

Cədvəl 1.3.1-dən göründüyü kimi, ərzaq dəstəyi və məhsul sığortası ABŞ-ın kənd təsərrüfatına dəstək siyasətində ən mühüm iki istiqamətdir. Kənd Təsərrüfatının İnkişafı Aktı 20 dekabr 2018-ci ildə Konqres tərəfindən qəbul edilib [154] və qanun qüvvəyə minib. Bu, ümumiyyətlə, əvvəlki 2014-cü il Kənd Təsərrüfatı Qanununun yeni və daha mütərəqqi forması idi. Bu qanunda büdcə paylarının 76%-i ərzaq, 9%-i məhsul sığortası, 7%-i dəstək, 7%-i mühafizə, 1%-i isə digərləri üçün ayrılıb. [160]

ABŞ-da kənd təsərrüfatının dövlət müdaxiləsi və kənd təsərrüfatı siyasətinin tarixini nəzərdən keçirəndə zaman-zaman məqsədlərin dəyişdiyinin şahidi oluruq.

*"Məqsədlərdəki bu dəyişikliyi bu ardıcıllıqla göstərə bilərik: 1.Ailə biznesinin qorunması; 2.Təchizat nəzarəti; 3.Torpağın mühafizəsi; 4.Ərzaq təminatı; 5.Daxili tələbat; 6.Qida, yem və lif tədarükü"*

*"Tarixi prosesdə növbəti kənd təsərrüfatı qanununda ehtiyatların qorunması, ətraf mühitin mühafizəsi və ətraf mühitin keyfiyyətinin yüksəldilməsi siyasəti daha qabarıq şəkildə özünü büruzə verdi".* [160, s.106.]

Müasir dövrdə ABŞ kənd təsərrüfatı və ərzaq istehsalı sahəsində dünyada aparıcı mövqelərdən birini tutmaqla, daxili bazarın tam təmin olunmasını və ixrac potensialının reallaşdırılmasını yüksək səviyyədə həyata keçirir. Hal-hazırda ABŞ əhalisinin sayı təxminən 335 milyon nəfərə yaxındır (U.S. Census Bureau, 2024), və bu əhalinin ərzaqla dayanıqlı təminatı əsasən yerli kənd təsərrüfatı istehsalı hesabına qarşılanır.

Orta statistik hesablamalara görə, ABŞ-da bir nəfər il ərzində təqribən 115–125 kq ət və ət məhsulları, 250–270 kq süd və süd məhsulları, 260–280 ədəd yumurta, 55–65 kq kartof, 120–130 kq tərəvəz, 100–110 kq meyvə və 95–105 kq çörək və çörək məhsulları istehlak edir (USDA, ERS, 2023; FAO, 2023). Bu göstəricilər Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən tövsiyə olunan minimum ərzaq istehlakı normalarını əhəmiyyətli dərəcədə üstələyir. Məsələn, ÜST-ün normativinə əsasən, ət və ət məhsulları üzrə illik minimum istehlak 70–75 kq civarındadır.

Müqayisə üçün qeyd etmək lazımdır ki, Azərbaycanda bir nəfərin illik ət və ət məhsulları istehlakı təqribən 42–45 kq civarındadır (AzStat, 2023), yəni bu göstərici ABŞ-la müqayisədə təxminən 2.5–3 dəfə aşağıdır. Bu fərq həm kənd təsərrüfatında texnoloji səviyyənin, həm də dövlət dəstəyi mexanizmlərinin effektivliyindəki fərqlərlə izah olunur.

ABŞ-da kənd təsərrüfatının bu cür yüksək istehsal göstəricilərinə nail olması, ilk növbədə, dövlət siyasətinin məqsədyönlü və davamlı tətbiqi ilə bağlıdır. Qanunvericilik səviyyəsində təsbit edilmiş aqrar dəstək alətləri — subsidiyalar, vergi güzəştləri, sığorta proqramları, bazar tənzimləmə mexanizmləri və ixrac təşviqi proqramları — fermerlərin fəaliyyətinin stimullaşdırılmasında və ərzaq təhlükəsizliyinin təmin olunmasında həlledici rol oynayır.

Nəticə etibarilə, ABŞ-ın aqrar-sənaye kompleksi nəinki öz daxili bazarını yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edir, həm də beynəlxalq miqyasda rəqabət qabiliyyətli istehsal gücünə malikdir. Bu model aqrar sahədə institusional yanaşmanın, dövlət tənzimləməsinin və innovativ istehsal texnologiyalarının sinerjisini nümayiş etdirən uğurlu nümunədir.

Fransa Respublikasında aqroemal sənayesi həm struktur baxımından, həm də dövlətin bu sahəyə münasibəti kontekstində inkişaf etmiş ölkələr üçün səciyyəvi olan unikal xüsusiyyətlərə malikdir. Aqroemal sahəsi Fransada kənd təsərrüfatı ilə əlaqəli dəyər zəncirinin mərkəzi halqası olmaqla yanaşı, həm də ölkənin iqtisadi, sosial və ixrac siyasətində mühüm rol oynayır.

Statistik göstəricilərə əsasən, Fransada aqroemal sahəsində fəaliyyət göstərən müəssisələrin təxminən 97–98%-i kiçik və orta sahibkarlıq subyektləridir (INSEE, 2023). Bu müəssisələrin 75%-dən çoxu isə işçi heyətinin sayına görə mikro müəssisə (10 nəfərdən az) kateqoriyasına daxildir. Xüsusilə çörəkbişirmə və qənnadı məmulatlarının istehsalı üzrə ailəvi sexlər və regional səviyyədə fəaliyyət göstərən kiçik bizneslər üstünlük təşkil edir. Belə bir struktur bölgüsü ölkədə regionlararası iqtisadi balansın və ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Fransada aqroemal sənayesinin məhsul xətti genişdir və istehsal profili üzrə aşağıdakı əsas sahələri əhatə edir: ət və süd məhsulları, alkoqollu və alkoqolsuz içkilər (xüsusilə şərab və spirtli içkilər), heyvan yemi, çörək və un məmulatları, emal olunmuş meyvə-tərəvəz məhsulları, bitki və heyvan mənşəli yağlar, daxili bazar və ixrac üçün nəzərdə tutulan souslar, konservlər, ədviyyatlar və dəniz məhsulları. Qeyd olunan sahələrin hamısı üzrə yüksək texnologiyaların və avtomatlaşdırılmış istehsal proseslərinin tətbiqi son illərdə əhəmiyyətli dərəcədə genişlənmişdir.

Xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, Fransada ərzaq məhsullarının keyfiyyəti və onların xammal mənbəyi üzərində ciddi dövlət nəzarəti həyata keçirilir. Əsas diqqət orqanik və ekoloji cəhətdən təmiz məhsulların istehsalına yönəldilir. Bu yanaşma yalnız daxili bazar tələblərinin ödənilməsi məqsədi daşımır, həm də ölkənin ixrac imkanlarını genişləndirmək üçün strateji rol oynayır. Fransanın şərab, pendir və digər keyfiyyətli ərzaq məhsulları dünya miqyasında tanınan və yüksək tələbə malik ixrac brendlərinə çevrilmişdir.

Aqroemal sahənin davamlı inkişafı məqsədilə Fransa hökuməti texnoloji platformaların və innovasiya klasterlərinin təşviqi siyasətini uğurla həyata keçirməkdədir. Bu siyasət çərçivəsində dövlət–biznes–elmi institutlar arasında qarşılıqlı fəaliyyətin qurulması üçün şərait yaradılır. Dövlət tənzimləmələrinin bu formada qurulması strateji layihələrin effektiv həyata keçirilməsinə, istehsalın rəqabətqabiliyyətinin artırılmasına və ixrac potensialının genişləndirilməsinə xidmət edir.

Fransada aqrar sektor ən çox dövlət nəzarətində olan sahələrdən biridir. Aqrar istehsalın Avropa İttifaqı üzrə ümumi həcminin 25%-i məhz Fransanın payına düşür ki, bu da ölkəni Qərbi Avropanın lider ölkəsi səviyyəsinə yüksəldir (Eurostat, 2023). Eyni zamanda,

Fransa kənd təsərrüfatı və aqroemal məhsullarının ixrac həcmində daxili istehlakı üstələyən azsaylı ölkələrdəndir. Bu isə o deməkdir ki, ölkə yalnız öz bazarını təmin etməklə kifayətlənmir, həm də qlobal ərzaq bazarında mühüm ixracatçı kimi çıxış edir.

Nəticə etibarilə, Fransa modeli aqroemal sahəsində kiçik və orta müəssisələrin fəal iştirakı, dövlətin institusional dəstəyi, innovasiya əsaslı inkişaf strategiyaları və orqanik məhsul siyasəti ilə seçilərək, digər ölkələr üçün nümunəvi yanaşma təqdim edir.

Qlobal miqyasda ərzaq məhsullarının istehsalı və emalı prosesi yalnız əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması ilə məhdudlaşmır, həm də iqtisadi dayanıqlığın, sənaye inkişafının və texnoloji tərəqqinin mühüm komponentlərindən biri kimi çıxış edir. Ət, süd, şəkər və digər əsas məhsullar üzrə aparılan statistik təhlillər göstərir ki, müxtəlif regionlar bu sahədə spesifik üstünlüklərə və fərqli inkişaf meyillərinə malikdir.

Dünya üzrə ət istehsalının coğrafi bölgüsünə nəzər saldıqda aydın olur ki, bu sahənin aparıcı regionu Asiyadır. 2020-ci ilə dair FAO-nun təqdim etdiyi məlumatlara əsasən, dünya üzrə ümumi ət istehsalı 337 milyon ton təşkil etmişdir. Bunun 40%-ə qədəri Asiyanın, 21%-i Amerikanın, 15%-i isə Avropa ölkələrinin payına düşür. İstehsal strukturuna görə əsas ət növləri üzrə bölgü belədir:

- Donuz əti – 36.3%
- Quş əti – 35.1%
- Mal əti – 20.2%
- Qoyun əti və digər – 8.4%

Ət istehsalında lider ölkələr sırasında Çin, ABŞ və Braziliya aparıcı mövqeləri tutur. Xüsusilə Çin təkbaşına dünya üzrə donuz əti istehsalının yarıdan çoxuna sahibdir.

Avropa regionunda son illərdə ət istehsalında müəyyən azalmalar müşahidə olunur. Bu tendensiya əsasən əhalinin sağlam həyat tərzinə üstünlük verməsi, heyvan rifahı məsələlərinin aktuallaşması və ekoloji faktorlarla izah olunur.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) məlumatlarına əsasən, 2022-ci ildə dünya üzrə süd istehsalı təxminən 930 milyon ton olmuşdur. İstehsal həcminə görə ilk beşlik aşağıdakı kimidir:

Hindistan, ABŞ, Çin, Pakistan, Braziliya

Burada qeyd edilməlidir ki, Hindistan süd istehsalında lider olsa da, adambaşına düşən istehsal və sənaye emalı baxımından ABŞ və Avropa ölkələri daha üstün mövqedədirlər. Süd məhsullarına daxil olan pendir, kərə yağı, qatıq və digər fermentləşdirilmiş məhsullar dünya ərzaq sənayesində strateji əhəmiyyət daşıyır.

Pendir istehsalı üzrə 2022-ci il məlumatlarına görə illik istehsal həcmi təxminən 22 milyon ton olmuşdur. Ən çox pendir istehsal edən ölkələr:

ABŞ, Almaniya, Fransa, İtaliya, Niderland

Heyvan mənşəli yağlar (kərə yağı daxil olmaqla) üzrə isə liderlik aşağıdakı ölkələrə məxsusdur:

ABŞ, Yeni Zelandiya, Fransa, Almaniya, İrlandiya

Dünya üzrə şəkər istehsalı 2023-cü ildə təxminən 179 milyon ton təşkil etmişdir. Bu göstəricinin təxminən 75%-i şəkər qamışından, qalan hissəsi isə şəkər çuğundurundan alınır. Avropa ölkələri daha çox şəkər çuğunduruna üstünlük verir, çünki bu üsulla əldə edilən şəkərin təmizliyi yüksək (99.7%-ə qədər) olur.

Ən çox şəkər istehsal edən ölkələr:

Braziliya, Hindistan, Tailand, Çin, ABŞ

Emal sənayesi sadəcə ərzaq istehsalçısı deyil, həm də texnoloji inkişafın lokomotivi və iqtisadi dayanıqlığın sütunudur. Dünya üzrə

elmi-tədqiqat və innovasiya sahəsinə yönəldilən vəsaitlərin 90%-ə qədəri məhz emal sənayesinin payına düşür. Eyni zamanda, qlobal ticarətin 70%-ni bu sektor təşkil edir (OECD, 2023).

Çinin, Hindistanın və digər yeni sənayeləşmiş ölkələrin yüksəlişi emal sənayesində güclü qlobal rəqabət mühitinin formalaşmasına gətirib çıxarmışdır. Çin artıq aşağı, orta və yüksək texnologiyalı məhsullar üzrə dünya üzrə ilk beşlikdə mövqeyə sahibdir. Avropa ölkələrinin dünya emal sənayesi istehsalında ümumi payı isə təxminən 30% təşkil edir.

Azərbaycan kənd təsərrüfatı və aqroemal sahəsi üzrə potensiala malik olsa da, inkişaf etmiş ölkələrlə müqayisədə müəyyən geriliklər mövcuddur. Bunun əsas səbəbləri aşağıdakı istiqamətlərdə cəmləşir:

Dövlət subsidiyalarının məhdudluğu və zəif institusional mexanizmlər

İdxalın effektiv tənzimlənməməsi və yerli istehsalın qorunmaması

Texnoloji səviyyənin və innovativ yanaşmaların zəif inkişafı

Fermerlərin və emal müəssisələrinin maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu

Bu çətinliklərin aradan qaldırılması üçün Azərbaycan dünya təcrübəsindən sistemli şəkildə yararlanmalı, hədəfli dövlət proqramları, bazarın intellektual tənzimlənməsi, lokal innovasiya ekosistemlərinin qurulması kimi istiqamətləri prioritet seçməlidir. Beləliklə, həm məhsuldarlıq, həm də beynəlxalq rəqabət qabiliyyəti baxımından daha səmərəli bir aqrar və emal sənayesi sistemi qurmaq mümkün olar.

İnkişaf etmiş ölkələrin aqrar və aqroemal sahələrin tənzimlənməsi üzrə tətbiq etdiyi modellər Azərbaycan üçün birbaşa tətbiq oluna bilməz, lakin bu təcrübələrdən çıxarılan əsas prinsip və mexanizmlər milli şəraitə uyğunlaşdırılaraq faydalı alətlərə çevrilə bilər. Belə ki, ABŞ, Avropa İttifaqı və Yaponiya kimi ölkələrdə

yüksək dövlət subsidiyaları, effektiv bazar tənzimləmələri, ixracın təşviqi və innovativ texnologiyaların geniş tətbiqi öz müsbət nəticələrini vermişdir. Azərbaycanın iqtisadi, fiskal və institusional imkanları bu modellərin bütün komponentlərini tam şəkildə mənimsəməyə kifayət etməsə də, xüsusilə məqsədyönlü subsidiya siyasəti, məhsulun satış bazarının təminatı, yerli istehsalçının qorunması, texnologiyaların adaptasiyası və aqrar təhsilin gücləndirilməsi sahəsində bu təcrübələrin adaptasiyası mümkündür və zəruridir. Əsas məsələ, bu modellərin kor-koranə köçürülməsi deyil, milli spesifikaya – yəni büdcə məhdudiyyətləri, torpaq resurslarının struktur xüsusiyyətləri, aqrar məşğulluğun səviyyəsi və institusional mühitə – uyğun gələn bir hibrid sistemin yaradılmasıdır. Bu yanaşma Azərbaycanda kənd təsərrüfatı və aqroemal sektorunun davamlı və rəqabətədavamlı inkişafına real zəmin yarada bilər.

# II FƏSİL. Azərbaycanın aqroemal sənayesinin mövcud vəziyyəti və struktur təhlili

## 2.1.Aqroemal sənayesinin xammal bazasının resurs potensialı və təminat imkanları

Kənd təsərrüfatı sektoru iqtisadi fəaliyyət sahələri arasında ən çox risk daşıyan, iqlim və bazar dalğalanmalarına qarşı yüksək həssaslıq göstərən sahələrdən biri olmaqla yanaşı, eyni zamanda ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında strateji rola malikdir. Bu sahə yalnız qida məhsulları ilə təminat baxımından deyil, həm də aqroemal sənayesinin xammal bazasının formalaşmasında əsas təminatçı seqment kimi çıxış edir. Eyni zamanda milli iqtisadiyyatın dayanıqlı inkişafı üçün zəruri olan daxili bazar sabitliyi, idxalın əvəzlənməsi, əlavə dəyər zəncirinin təşkili və milli gəlirin artırılması kimi iqtisadi funksiyaların icrasında kənd təsərrüfatı həlledici əhəmiyyət daşıyır.

*"Hər bir ölkədə ərzaq təhlükəsizliyi probleminin həlli ölkədə yoxsulluğun azaldılmasına, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin yüksəlməsi ilə bağlıdır"* [92, s.72].

Bu sektor həm də ölkənin təbii resurs ehtiyatlarının – torpaq, su, günəş, bioloji müxtəliflik kimi fundamental amillərin – əsas istifadəçisidir. Eləcə də, kənd təsərrüfatı sahəsi regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması baxımından mühüm rol oynayır. Tarix boyu bu sahə dövlətlərin iqtisadi dayanıqlığını və ərzaq təminatını qorumaq üçün prioritet istiqamətlərdən biri olmuşdur və bu tendensiya XXI əsrdə də aktuallığını itirmir.

Azərbaycan Respublikasının ərazi strukturu da kənd təsərrüfatının strateji rolunu daha da aktuallaşdırır. Paytaxt Bakı və sənaye şəhərləri olan Sumqayıt, Gəncə və Mingəçevir istisna olmaqla, ölkənin demək olar ki, bütün digər inzibati bölgələri aqrar-coğrafi xarakter daşıyır. Bu bölgələrdə kənd təsərrüfatı iqtisadi və sosial strukturun əsas dayağını təşkil etsə də, kənd yerlərində hələ də infrastruktur, texniki təchizat, xidmətlərə çıxış və sosial təminatla bağlı bir sıra sistemli problemlər qalmaqdadır. Nəticədə, kənd əhalisinin yaşayış səviyyəsi və həyat keyfiyyəti şəhər əhalisinə nisbətən nəzərəçarpacaq dərəcədə aşağı səviyyədə qalır.

Azərbaycan Respublikasının torpaq resursları kənd təsərrüfatı baxımından yüksək potensiala malikdir. Ölkənin müxtəlif iqlim qurşaqlarında yerləşməsi kənd təsərrüfatı məhsullarının müxtəlifliyi və coğrafi spesifikliyini təmin edir. Bu kontekstdə kənd təsərrüfatı sektoru yalnız iqtisadi inkişafın komponenti yox, həm də sosial sabitliyin, regionların balanslı inkişafının və emal sənayesinin dayanıqlığının əsas təminatçısı rolunda çıxış edir. Ölkədə məşğul əhalinin ən böyük hissəsini təşkil edən – təqribən 36%-ə yaxın məşğul əhali bu sahədə fəaliyyət göstərir ki, bu da sektora həm iqtisadi, həm də sosial baxımdan strateji status verir.

Nəticə etibarilə, kənd təsərrüfatının davamlı inkişafı yalnız ərzaq və iqtisadi təhlükəsizlik üçün deyil, həm də aqroemal sənayesinin xammal təminatının dayanıqlılığı, regionlarda həyat səviyyəsinin yüksəldilməsi və ümumi iqtisadi artımın stabilliyi baxımından fundamental əhəmiyyət kəsb edir.

Azərbaycanda kənd təsərrüfatının ümumi istehsal həcmi 2022-ci ildə cari qiymətlərlə 13,0 mld. manat təşkil edib. Kənd təsərrüfatı sektoru məşğul əhalinin sayına görə ölkədə birinci yerdədir. Burada 1,75 mln. nəfər adam çalışır ki, bu da

məşğulluğun 35,5%-i deməkdir, bununla bərabər, kənd təsərrüfatı ÜDM-in 5.5 %-ni təşkil edir.

Göründüyü kimi, işçi payı yüksək, iqtisadi pay isə aşağıdır – bu, aqrar sektorda əmək məhsuldarlığının az olduğunu göstərir. Mövcud göstəricilər bu sektorda daha dinamik inkişaf üçün dövlət tədbirlərinin əhəmiyyətini vurğulayır.

Azərbaycanın müasir kənd təsərrüfatı sektorunu düzgün təhlil etmək üçün onun keçdiyi tarixi mərhələləri, xüsusilə də 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra baş verən sistem dəyişikliklərini nəzərə almaq zəruridir. Məhz bu dövrdən etibarən ölkənin iqtisadi inkişaf trayektoriyası planlı-sosialist modelindən bazar yönümlü iqtisadi modelə transformasiya olundu. Sözügedən keçid yalnız iqtisadi strukturların deyil, eyni zamanda dövlətin iqtisadiyyatda iştirak səviyyəsinin və funksional mexanizmlərinin də əsaslı şəkildə dəyişməsinə səbəb oldu.

Müstəqilliyin ilk illərində həyata keçirilən sistemli islahatlar – torpaq islahatı, qiymətlərin liberallaşdırılması, ticarətin azadlaşdırılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, kənd təsərrüfatı istehsal fondlarının fərdi mülkiyyətə verilməsi və s. tədbirlər – kənd təsərrüfatı sektorunun tamamilə yeni institusional mühitdə fəaliyyət göstərməsini şərtləndirdi. SSRİ dövründə mərkəzləşdirilmiş planlı idarəetmə mexanizmlərinin hökm sürdüyü, istehsal və resurs bölgüsünün inzibati əsaslarla tənzimləndiyi, qiymətlərin bazar prinsipləri əsasında deyil, dövlət tərəfindən müəyyənləşdirildiyi şəraitdə kənd təsərrüfatı subyektləri iqtisadi subyekt kimi deyil, inzibati struktur kimi çıxış edirdi.

Post-sovet dövründə isə bu vəziyyət köklü şəkildə dəyişdi. Dövlətin kənd təsərrüfatı sektorunda rolu tədricən tənzimləyici və dəstəkləyici funksiyalarla məhdudlaşdırıldı, bazar münasibətlərinə əsaslanan iqtisadi mexanizmlər tədricən formalaşdı və təsərrüfat

subyektlərinin müstəqil qərarvermə səlahiyyətləri genişləndirildi. Bu dövr ərzində həyata keçirilən islahatların nəticələrinin qiymətləndirilməsi məqsədilə, 1990-cı il müvafiq statistik baza kimi qəbul edilə bilər. Belə bir yanaşma kənd təsərrüfatında transformasiya prosesinin istiqamətini, sürətini və səmərəliliyini müəyyən etmək baxımından faydalı analitik baza yaradır.

Azərbaycanın aqrar sektoru təbii resurs potensialı baxımından kifayət qədər imkanlara malikdir. Respublikada əkinəyararlı torpaq sahələrinin mövcudluğu ərzaq təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Bununla belə, müstəqillikdən sonrakı dövrdə kənd təsərrüfatı məhsullarının strukturunda mühüm dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, texniki bitkilərin, xüsusilə də, pambıq, üzüm, tütünün əkin sahələri azalmış, əvəzində dənli və dənli-paxlalı bitkilərin payı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu dəyişikliklər həm daxili tələbatın strukturunda baş verən dəyişikliklərin, həm də bazar yönümlü iqtisadi siyasətin nəticəsi kimi qiymətləndirilə bilər.

Eyni zamanda qeyd edilməlidir ki, Azərbaycanın kənd təsərrüfatı sektoru yalnız ərzaq təhlükəsizliyinin təminatçısı deyil, həm də milli iqtisadiyyatın sabitliyində, bölgələrin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin edilməsində və kənd əhalisinin rifahının yüksəldilməsində mühüm rol oynamağa davam edir. Respublikada kənd təsərrüfatı ilə məşğul olan əhalinin payı hazırda 35–36 % təşkil edir və bu göstərici sektoru həm sosial, həm də iqtisadi baxımdan strateji əhəmiyyətə malik edir.

Kənd təsərrüfatı bitkilərinin sahələri 2023-cü ildə 1990-cı ilə nisbətən 72,5 min hektar, yəni 5% artmışdır. Ancaq 2000-ci ildə vəziyyət daha pis olmuşdur. Belə ki, həmin ildə 1990-cı ilə nisbətən 421 min hektar az, yəni 29% az əkin sahəsi əkilmişdir. 2000-ci ildən sonra kənd təsərrüfatının əvvəlki əkin sahələri bərpa edilmiş

və nəhayət 2022-ci ildə ölkənin kənd təsərrüfatı tarixində ən yüksək göstəricisinə nail olunmuşdur. 2023-cü ildə isə yenidən 96 min ha. azalaraq 1535 min ha-ya düşmüşdür. Ümumilikdə isə 1990-cı ilə nisbətən artım var. Bu artım əsasən dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin genişlənməsi hesabına əldə edilmişdir. 2023-cü ildə taxıl sahəsi 1990-cı ilə nisbətən 364,9 min hektar artmışdır ki, bu da 63% artım deməkdir. (əlavə 4)

Təəssüf ki, bu artım gəlirliyi daha çox olan texniki bitkilərin əkin sahələrinin azaldılması hesabına baş vermişdir. 2023-cü ildə əkilən pambıq sahələri 1990-cı ildən 170,2 min hektar, yəni 2,8 dəfə az olmuşdur. 2015-ci ildə pambıq üzrə vəziyyət daha acınacaqlı olmuşdur, belə ki, həmin ildə 1990-cı ilə nisbətən pambığın əkin sahələri 15,2 dəfə azalaraq, cəmi 18,7 min hektara düşmüşdür. Son 5 ildə bu bitki altında olan sahə artırılaraq, 2023-cü ildə 93,7 min hektara çatdırılmışdır.

Eyni vəziyyəti tütün sahələrinə də aid etmək olar. Vaxtilə, 1990-cı ildə ölkədə 14,8 min hektar tütün əkilirdi. Sonradan, tütünün satışı ilə əlaqədar yaranmış problemlərə görə bu sahəyə maraq azalmış, bu səbəbdən də əkin sahələri azalmağa başlamışdır. 2015-ci ildə əkin sahəsi 1990-cı ilə nisbətən 10,2 dəfə azalaraq 1,4 min hektara çatdı. 2015-ci ildən sonra bu sahə inkişaf etməyə başlamış və 2020-ci ildə əkilən sahə 3,1 min hektara çatdırılmış, ancaq 2023-cü ildə yenidən azalaraq 2,7 min hektar olmuşdur.

Üzümçülükdə və çayçılıqda da vəziyyət ürəkaçan deyil. Üzüm sahələri 2022-cü ildə 1990-cı ilə nisbətən 12,1 dəfə azalaraq 15,0 min hektar olmuşdur. Onu da qeyd etməliyik ki, üzüm plantasiyaları 2020-ci ilə nisbətən də 2023-cü ildə 1100 ha. azalmışdır. Nəzərə alsaq ki, 1984-cü ildə Azərbaycanda üzüm əkini sahələri daha çox, yəni 284 min hektar olmuşdur, onda ölkənin potensialı haqqında təsəvvür etmək olar. Qeyd etməliyik ki,

Ermənistan tərəfindən Dağlıq Qarabağ və ətrafındakı rayonların işğal edilməsi nəticəsində həmin ərazilərdə mövcud olan 40 min hektar üzüm plantasiyaları məhv olaraq əkin dövriyyəsindən çıxmışdır. Adekvat olaraq ölkədə şərab istehsalı da dəfələrlə azalmışdır. Hal-hazırda əkilən üzüm sahələrinin mütləq əksəriyyəti süfrə sortudur və birbaşa istehlaka yönəldilir. Şərabçılıq üçün əkilən texniki sort üzüm plantasiyaları isə çox azdır. Onu da qeyd etməliyik ki, səmərəliliyinə görə bir hektar üzüm sahəsinin məhsulunun gəlirliliyi digər kənd təsərrüfatı məhsullarını, o cümlədən, taxıl məhsullarını dəfələrlə üstələyir.

Çay plantasiyaları 2023-cü ildə 1990-cı ilə nisbətən 13,3 dəfə azalmış, 1,0 min hektara çatmışdır. Bu məhsul da çox gəlirlidir. Ancaq əkiləndən 8 il sonra məhsul verməyə başlaması bu sahəni fermerlər üçün maraqsız etmişdir. Ona görə də fermerlərin məhsul istehsalına çatmaları üçün olan dövrdə, mütləq dövlət dəstəyi olmalıdır.

Buradan aydın olur ki, 1990-2023-cü illər dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin artımı əsasən texniki bitkilərin, o cümlədən, üzüm, tütün və çay plantasiyalarının azalması hesabına baş vermişdir. (əlavə 4)

Azərbaycanda 1990-2023-cü illər ərzində kənd təsərrüfatı məhsullarının istehsal həcmini və adambaşına düşən məhsulun dinamikasına nəzər yetirək. (bax əlavə 5) Həmin cədvəldən göründüyü kimi, müstəqilliyin ilk illərində baş vermiş istehsal həcmlərinin azalması sonralar əksər məhsul növlərinin istehsal həcmlərinin artması ilə əvəz olunmağa başlanmışdır. 2023-cü ildə 1990-cı ilə nisbətən taxıl istehsalı 2,3 dəfə, buğda istehsalı 2 dəfə, kartof istehsalı 5,5 dəfə, ət istehsalı 2,2 dəfə, süd istehsalı 2,3 dəfə, yumurta istehsalı 2,2 dəfə artmışdır. Şəkər çuğunduru ölkədə yeni sahə kimi 2005-ci ildən yetişdirilməyə başlanmış, 2023-cü ildə illik

istehsal 206 min tona çatdırılmışdır. Qeyd etməliyik ki, son illər kənd təsərrüfatı məhsullarının istehsalının artım səviyyəsi qeyri-sabitdir. Taxıl istehsalı 2023-cü ildə 2019-cu ilə nisbətən 290 min ton, buğda istehsalı isə 344 min ton azalmışdır. Şəkər çuğunduru istehsalı 2017-ci ildə daha yüksək 410 min ton olmuşdur. 2022-ci ildə isə bu məhsul 2017-ci ilə nisbətən 1,9 dəfə azalaraq 206 min ton olmuşdur.( əlavə 5)

Heyvandarlıq məhsullarının istehsalında artım dinamikası demək olar ki, sabitdir. 1995-ci ildən sonra hər il mütəmadi olaraq bu məhsulların istehsalı artır. Bunun əsas səbəbi həm ekstensiv inkişaf, yəni heyvandarlıq sürülərinin baş sayının artırılması, eyni zamanda, intensiv inkişaf, yəni sürü tərkibinin daha məhsuldar cins mal-qaranın xeyrinə dəyişdirilməsi olmuşdur. Ölkədə heyvandarlıq sürülərinin cins tərkibinin yaxşılaşdırılması prosesi son vaxtlar daha böyük vüsət almışdır. Bu məsələni dövlət daim diqqət mərkəzində saxlayır, müxtəlif təşviqləndirici və stimullaşdırıcı tədbirlər həyata keçirir. Məsələn, süni mayalanmadan doğulan hər baş buzov üçün dövlət 100 manat subsidiya ödəyir. Bu da maldarlıqla məşğul olan kənd əhalisini və fermerləri çox maraqlandırmış və süni mayalanmanın intensiv olaraq həyata keçirilməsini təmin etmişdir. Nəticədə, həm ət istehsalı və həm də süd istehsalında ilbəil artım dinamikasına nail olunur.

Meyvə istehsalında da vəziyyət yaxşıdır, belə ki, 1995-ci ildən etibarən meyvə istehsalı artan dinamika ilə inkişaf edir. Ölkədə fəaliyyətdə olan meyvə emalı və şirə zavodları bu artımda böyük rol oynayır. Meyvəçiliklə məşğul olan fermerlər məhsullarının daimi alıcısı olan şirə zavodlarının tələbatı olduğu üçün bu sahəyə maraqları artmışdır. Həm şirə zavodları və həm də fındıq zavodlarının olması fermerlər üçün bazar problemini demək olar ki, həll etmişdir. Eyni zamanda, ölkənin şəhərlərinin əhalisinin,

yəni, istehlakçıların yerli ənənəvi meyvə sortlarına daha çox üstünlük verməsi, ölkəyə idxal olunan geni dəyişdirilmiş meyvə məhsullarına daha könülsüz yanaşması da yerli meyvə istehsalının artımında müsbət rol oynayır.

Bostan-tərəvəz məhsullarında da artım dinamikası mövcuddur. Ən çox artım 1995-ci il ilə 2000-ci illər arasında qeydə alınmışdır, belə ki, bu illər ərzində bostan məhsullarının istehsal həcmi 3,7 dəfə artmışdır. Ancaq, 2016-cı ildən istehsalda azalmalar müşahidə olunur.

Ölkə üzrə 2023-cü ildə 2015-cı ilə nisbətən bostan məhsullarının istehsalında 9% azalma qeydə alınmışdır. Bunun əsas səbəblərindən biri dövlət tərəfindən təbii qazın satış qiymətlərinin artırılması və nəticədə istixana təsərrüfatlarında məhsul istehsalının maya dəyərinin artması və satışının çətinləşməsi ilə əlaqələndirmək olar. Təbii ki, digər səbəblər də vardır, xüsusilə də, ənənəvi Rusiya bazarlarına bostan məhsullarının daşınmasında yaradılan süni əngəllər, ölkəyə idxal olunan daha ucuz bostan məhsullarının rəqabətdə üstün olması və s.

Təəssüf ki, son 33 illik dövr ərzində kənd təsərrüfatının digər sahələrində olan artım dinamikasını texniki bitkilərə şamil etmək olmur. Belə ki, 2023-cü ildə 1990-cı ilə nisbətən pambıq istehsalı 2 dəfə, üzüm istehsalı 5,3 dəfə, tütün istehsalı 8,4 dəfə, çay istehsalı isə 28 dəfə azalmışdır. Onu da qeyd etməliyik ki, adlarını çəkdiyimiz məhsullar daha gəlirlidir və bu nöqteyi nəzərdən onların istehsalı artırılmalı və 1990-cı il səviyyəsinə çatdırılmalıdır.

Qeyd etməliyik ki, görülən tədbirlər nəticəsində son 10 ildə bu məhsulların istehsalı sürətlə artmağa başlamışdır. 2010-cu ilə nisbətən 2023-cü ildə pambıq istehsalı 7,2 dəfə, üzüm istehsalı 1,7 dəfə, tütün istehsalı 2 dəfə, çay istehsalı isə 2,3 dəfə artmışdır. Son 10 ilin dinamikası onu deməyə əsas verir ki, artıq həm dövlətin və

həm də sahibkarların bu sahəyə marağı ciddi sürətdə artmışdır. Ancaq bu göstəricilər ölkənin potensialı müqabilində çox azdır. [21]

Qeyd etdiyimiz kimi, pambıqçılıq üzrə son 33 ilin rəqəmlərinə diqqət etsək görərik ki, müstəqillikdən sonra pambıq istehsalı sürətlə azalmışdır. Hansı ki, bu məhsulun ölkə iqtisadiyyatında rolu böyükdür. Əməktutumluğuna görə, yüngül sənayenin xammal bazası olduğuna görə və ölkəyə valyuta gətirən mühüm sahə olduğu üçün əhəmiyyəti çox böyükdür.

*“Pambıqçılıq rayonlarının torpaqlarının mövcud vəziyyəti, təbii iqlim şəraiti, su ehtiyatları, əmək resursları və aqrotexniki servis xidmətinin səviyyəsi bir sıra bölgələrdə pambıq əkininin həyata keçirilməsinə imkan verir”* [93, s.82].

Məlum olduğu kimi, tütün bitkisi yüksək selektivliyə malikdir və hər iqlim şəraitində becərilməsi mümkün deyil. Onun məhsuldar inkişafı üçün mülayim iqlim, xüsusi torpaq növləri (yüngül mexaniki tərkibli, yaxşı isinən və hava keçirən torpaqlar), eyni zamanda, optimal rütubət və günəş işığı balansı tələb olunur. Bu baxımdan, Azərbaycanın bəzi təbii-coğrafi zonaları – xüsusilə, Şəki-Zaqatala, Qax, Balakən, Tovuz və digər bölgələr tütünçülük üçün əlverişli aqroiqlim potensialına malikdir. Bu amillər sözügedən sahənin ölkədə geniş yayılmasına və bir dövr üçün strateji əhəmiyyət kəsb etməsinə zəmin yaratmışdır.

Tütün, aqrar sektorun digər texniki bitkiləri ilə müqayisədə daha yüksək gəlir gətirən və emal imkanları geniş olan məhsullardan biri sayılır. Tütünçülük sahəsində istehsal olunan məhsullar həm daxili bazarda emal sənayesini təmin etmək, həm də xarici bazara çıxmaq baxımından əlverişlidir. Onun iqtisadi rentabelliyi, yəni, eyni əkin sahəsindən əldə edilən xalis gəlirin

yüksək olması fermerlər və təsərrüfatlar üçün bu sahəni cəlbedici etmişdir.

Tarixi inkişaf mərhələlərinə baxdıqda aydın görünür ki, Azərbaycanda tütünçülük kənd təsərrüfatının vacib istiqamətlərindən biri olub. Müəyyən dövrlərdə ölkədə 21 rayonda tütün əkini həyata keçirilmiş, bu sahə kənd yerlərində məşğulluğun artırılması və yerli əhalinin gəlir imkanlarının genişləndirilməsi baxımından xüsusi rol oynamışdır. Tütün, pambıqçılıqdan sonra ölkənin ikinci ən mühüm texniki bitkisi kimi qəbul olunurdu və bu təsnifat onun kənd təsərrüfatında və aqroemal sənayesindəki rolu ilə birbaşa bağlı idi.

Hazırda tütünçülük sahəsində müəyyən tənəzzül müşahidə edilsə də, bu istiqamətdə potensial hələ də mövcuddur və dövlət dəstəyi ilə tütün istehsalının və emalının bərpası və genişləndirilməsi mümkün ola bilər. Bu isə həm daxili bazarın xammal təminatına töhfə verə bilər, həm də ixrac portfelinin şaxələndirilməsinə dəstək ola bilər.

**Cədvəl 2.1.1 Azərbaycanda tütün istehsalı və idxal-ixrac dinamikası. min tonla**

| Göstəricilər | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2023artım 2015-ə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|
| Tütün istehsalı | 3,5 | 6,3 | 6,0 | 6,9 | 6,4 | 5,1 | 6,3 | 1,8 dəfə |
| Tütün xammalının ixracı | 1,9 | 4,2 | 6,5 | 4,8 | 5,3 | 6,9 | 3,0 | 1,6 dəfə |
| Tütün xammalının idxalı | 3,1 | 3,5 | 6,3 | 5,8 | 5,9 | 6,4 | 7,2 | 2,3 dəfə |

Mənbə: DSK: "Azərbaycanın kənd təsərrüfatı", "Azərbaycanın xarici ticarəti" 2024 https://www.stat.gov.az/source/trade/, https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [27]

Cədvəl 2.1.1 vasitəsilə son 8 ilin dinamikasına baxsaq görərik ki, ölkədə istehsal olunan tütün, əsasən, xammal şəklində ixrac olunur, ancaq yerli siqaret istehsalı üçün lazım olan tütün xammalı isə idxal olunur.

Ölkədə üzüm istehsalı 2023-cü ildə 1990-cı ilə nisbətən 5,3 dəfə azalmışdır. 1990-cı ildə 1196,4 min ton üzüm istehsal olunmuşdur ki, bunun da 95%-i şərab sortlu üzüm idi və mövcud şərab zavodlarına təhvil verilirdi. 1985-ci ildə bu rəqəm daha yüksək idi, yəni 1790 min ton. Üzüm istehsalının 1985-1990-cı illər arasında kəskin azalmasının əsas səbəbi 1985-ci ildə, o vaxtki SSRİ rəhbərliyinin "Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri" adlı bədnam qərarı nəticəsində ölkəmizdə üzüm bağlarının kütləvi sürətdə ləğv edilməsi olmuşdur [135]. Nəticədə, minlərlə hektar üzümçülük üçün çox əlverişli plantasiyalar ləğv edilərək, taxıl və digər kənd təsərrüfatı məhsullarının əkini ilə əvəz edilməyə başladı. Nəticədə xammalsız qalan şərab zavodları sıradan çıxmağa başladı. Azərbaycanda üzüm istehsalının və şərabçılığın böhranı həmin illərdən başlanmışdır və sonradan müstəqillik qazanılandan sonra da davam edir. Eyni zamanda təxminən 40 min hektar üzüm plantasiyaları Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə məhv oldu. Hələlik ənənəvi Rusiyanın şərab bazarının itirilməsi, mövcud yerli şərab zavodlarının köhnələrək sıradan çıxması, ümumi iqtisadi vəziyyətin gərginliyi və s. üzümçülüyün və şərabçılığın əvvəlki şöhrətinə qayıtmasına imkan vermir. Ona görə

də yerli mövcud şərab zavodları demək olar ki, yerli bazarla kifayətlənmişdirlər. Hal-hazırda istehsal olunan üzümün əsas hissəsi süfrə sortudur və emal edilmədən, qablaşdırılaraq birbaşa istehlaka göndərilir.

*“Həqiqətən də, ölkənin ənənəvi üzümçülük və şərabçılıq sahəsində gələcəkdə istifadə edə biləcəyimiz böyük potensial mövcuddur. Üzümçülük aqrar sektorda gəlirinə görə əsas sahələrdən biridir. Tarixən bu ərazidə xalq seleksiyası yolu ilə yaradılan 300-dən çox yerli, 200-ə qədər ayrı-ayrı ölkələrdən gətirilən üzüm sortları artıq bizim milli sərvətlərimizə çevrilmişdir. Ölkənin meşələrində, dağ ətəklərində yayılan yabanı üzümün mövcudluğu da sübut edir ki, bizim ərazilər dünyada üzümün yaranma mərkəzlərindən biri olmuşdur. Nəticədə, ölkənin Dağ Şirvan, Qarabağ-Mil, Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax, Qarabağın dağlıq hissəsi, Lənkəran və Naxçıvan bölgələrində, həmin iqlimlərə məxsus üzüm sortlarının zəngin genofondu yaranmışdır. Ona görə də üzümçülüyün əkin sahələrini artırmaqla bu sahənin həcmini 1985-ci il səviyyəsinə, yəni 220 min hektara çatdırmaq olar. Bu potensial ölkədə mövcuddur”* [94, s.172].

Çayçılıq üçün Azərbaycanda olduqca əlverişli şərait var və xüsusilə də cənub bölgəsində yetişən çay yarpaqları öz tərkibindəki göstəricilərə görə dünyanın ən keyfiyyətli çayları ilə müqaisə oluna biləcək səviyyədədir.

Təəssüf ki, bu sahədə son 33 ildə yaranmış böhran hələ də aradan qaldırılmayıb. Çay plantasiyalarının sahəsi 2023-cü ildə 1990-cı ilə nisbətən 13,3 dəfə azalaraq 1,0 min hektar, istehsalı isə 28 dəfə azalaraq 1,1 min ton olmuşdur. Bu rəqəmlərdən məlum olur ki, çayın məhsuldarlığı da əhəmiyyətli sürətdə azalmışdır. Nəticədə ölkə əhalisinin çay təminatı əsasən idxal hesabına ödənilir.

*“Çaycılıqda böhran vəziyyətindən çıxmaq üşün çay plantasiyalarının sahəsi artırılmalı və bununla əlaqədar dövlətin təşviqləndirmə siyasəti olmalıdır. Çay əkildikdən 7-8 il sonra məhsul verməyini nəzərə alaraq, dövlət həmin müddət ərzində fermerlərə yaşayış minimumu həcmində kompensasiya ödəməlidir”* [95].

Azərbaycanda şəkər çuğunduru istehsalı yeni sahə sayılır, yəni 2005-ci ildən başlayaraq istehsal edilməyə başlamışdır və 2006-cı ildə İmişli şəkər zavodunun istifadəyə verilməsi bu sahənin inkişafına təkan olmuşdur. Şəkər çuğunduru gəlirli sahədir və istehsalını artırmaq üçün ölkədə, xüsusilə də, aran rayonlarında iqlim şəraiti çox əlverişlidir. Ancaq bu sahədə də imkanlardan tam istifadə edilmir. Bu məhsulun istehsalı 2017-ci ildə 410 min tona çatdırılmışdır, ancaq sonradan istehsal azalmağa başlamış 2023-cü ildə 2017-ci ilə nisbətən 2 dəfə azalaraq 206,1 min tona düşmüşdür. İmişli şəkər zavodunda şəkər istehsalında yerli xammalın çəkisi çox aşağıdır və zavod əsasən hər il ortalama 200 mln. dollar vəsait sərf edərək xaricdən aldığı xammal hesabına fəaliyyət göstərir.

Ölkədə son 33 (1990-2023) ildə buğda istehsalında da inkişaf qeydə alınmışdır. Belə ki, bu sahədə 2023-cü ildə 1990-cı ilə nisbətən 2 dəfə, 2000-ci ilə nisbətən 1,5 dəfə, 2010-cu ilə nisbətən 1,4 dəfə artım əldə edilmiş və illik istehsal 2023-cü ildə 1827,3 min. tona çatmışdır. Ölkə əhalisinin ərzaq buğdasına tələbatı təxminən 1,6 mln. tondur. Ancaq təəssüflə demək lazımdır ki, ölkəyə ərzaq buğdasının idxalı da yüksək səviyyədədir. Hər il orta hesabla buğda idxalı üçün 350 mln. dollar valyuta sərf edilir.




**Qrafik 2.1.1 Azərbaycanda buğda istehsalı və idxalının dinamikası**

Mənbə: DSK "Azərbaycanın ərzaq balansları" 2024 1.3. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı.

Qrafik 2.1.1-in təhlilinə əsasən aydın olur ki, Azərbaycanda ərzaq buğdasının idxalı 1995-ci illə müqayisədə kəskin şəkildə artmışdır. Halbuki həmin dövr ərzində buğda istehsalında da nəzərəçarpacaq artım müşahidə olunmuşdur. Lakin istehsal artımı tələbatın strukturuna adekvat cavab verə bilməmiş və idxal asılılığı dərinləşmişdir. Belə ki, son altı il ərzində ərzaq buğdası idxalının orta illik həcmi bu məhsula olan ümumi daxili tələbatın təqribən 82%-ni təşkil etmişdir. Bu isə faktiki olaraq ölkənin ərzaq buğdasına olan ehtiyacının əsasən xarici mənbələr hesabına ödənildiyini göstərir.

Mövcud vəziyyətin formalaşmasında bir sıra amillər mühüm rol oynamışdır. Əvvəla, ölkə daxilində istehsal olunan buğdanın keyfiyyət göstəriciləri, xüsusilə də sort xüsusiyyətləri, onun ərzaq məqsədilə istifadəsini məhdudlaşdırır. Belə ki, Azərbaycanda əsasən bərk sortlu buğdaların istehsalı üstünlük təşkil edir. Bu cür buğda növləri müasir unüyütmə texnologiyaları ilə uyğun gəlmir,

dəyirman emalında texniki çətinliklər yaradır. Nəticədə, un istehsalı sahəsində əsas xammal olaraq yumşaq sortlu idxal buğdasına üstünlük verilir. Mütəxəssislərin qənaətinə görə, yerli bərk buğda yalnız idxal edilən yumşaq sortlu buğdalarla müəyyən nisbətdə – adətən 10%-dən çox olmamaq şərtilə – qarışdırılmaqla dəyirman prosesinə cəlb oluna bilir.

Son 25 illik statistik dinamika göstərir ki, ərzaq buğdası idxalının həcmi təqribən 16 dəfə artmışdır. Eyni dövrdə ümumi buğda istehsalı 3 dəfə artmış olsa da, əhalinin say artımı və tələbatın struktur dəyişiklikləri bu artımın effektiv istifadəsini məhdudlaşdırmışdır. Beləliklə, yerli istehsal əsasən toxum fondunun formalaşdırılmasına, heyvandarlıqda yem bazasının təmin olunmasına və texniki məhsul istehsalına yönəldilmişdir.

Mövcud struktur problem ondan ibarətdir ki, ölkədə ərzaq buğdasının tələbatına cavab verə biləcək sortların əkini zəif inkişaf etmişdir. Əgər mövcud torpaq və iqlim şəraiti nəzərə alınaraq sort seleksiyası düzgün aparılsa və yumşaq buğda sortlarının əkin sahələri genişləndirilsə, bu sahədə idxaldan asılılığın azaldılması və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi mümkün ola bilər.

Maliyyə aspektindən baxdıqda da bu tendensiya əhəmiyyətlidir: hər il ölkəyə idxal olunan ərzaq buğdasının alınmasına orta hesabla 350 milyon ABŞ dollarına yaxın vəsait xərclənir ki, bu da həm tədiyə balansına mənfi təsir göstərir, həm də kənd təsərrüfatının daxili inkişaf potensialından tam istifadə olunmamasını göstərir. Əhalinin artması və istehlak meyllərinin dəyişməsi isə bu sahədə strateji yanaşma tələb edir. Ərzaq buğdası ilə bağlı idxal və istehsal göstəriciləri arasındakı disbalansın aradan qaldırılması məqsədilə yerli istehsalın strukturunun optimallaşdırılması vacibdir.

Ümumilikdə götürsək kənd təsərrüfatında əldə edilmiş gəlirlilik aşağı olduğu üçün aqrar biznesin intensiv inkişafına maraq azalır və

son nəticədə davamlı istehsal funksiyaları tam yerinə yetirilə bilmir. Bütövlükdə, Azərbaycanda kənd təsərrüfatının gəlirliliyi 2003-2023-cü illərdə 132 dəfə artaraq, 2023-cü ildə rentabellik 26,4%-ə çatmışdır. Onu da qeyd etməliyik ki, 2023-cü ildə əvvəlki ilə nisbətən rentabellik 30% azalmışdır. Baxmayaraq ki, son 20 ildə rentabellik bu qədər artmış, ancaq onu da nəzərə almalıyıq ki, kənd təsərrüfatı ildə bir dəfə məhsul verir.




**Qrafik 2.1.2 Kənd təsərrüfatında ümumi rentabellik səviyyəsi. %-lə**

Mənbə: DSK. İqtisadi statistika “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” 2024 1.53. https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Qrafik 2.1.2-dən göründüyü kimi, 2023-cü ildə kənd təsərrüfatında ümumi rentabellik səviyyəsi 2003-cü ilə nisbətən 132 dəfə artmışdır. 2003-cü ildə ümumi rentabellik səviyyəsi cəmi 0,2%, yəni sıfıra yaxın olmuşdur. Eyni zamanda, qrafikdən aydın olur ki, 2013-cü ildən sonra da rentabellik səviyyəsi stabil deyildir, qrafikdəki göstərici xətti ziqzaq formasında gah enir, gah da qalxır. Bu da onu göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalı müəyyən stress hallarına qarşı dayanıqlı və stabil deyil, belə vəziyyətlərdə məhsulların səmərəliliyi də müxtəlif olur. Bu rəqəm son üç ildə

əhəmiyyətli sürətdə dəyişmişdir. Belə ki, kənd təsərrüfatında ümumi rentabellik 2023-cü ildə 2020-ci ilə nisbətən təxminən 36% artmış, 2022-ci ilə nisbətən isə 30% azalmışdır.

Onu da qeyd etməliyik ki, kənd təsərrüfatında işləyən muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 2010-2023-cü illər ərzində 2,5 dəfə artaraq, 850 manat olmuşdur.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı sektorunda dayanıqlı inkişafa nail olmaq, son nəticəyə hesablanan işgüzar mühitin yaradılması, aqrar biznesin, sahibkarlığın formalaşması və s. inkişaf məsələlərinin təmin edilməsi investisiya qoyuluşlarından və onun həcmindən çox asılıdır. Ölkəmiz müstəqillik qazanandan sonra torpaqlar özəlləşdirilmiş və ona görə də investisiya qoyuluşların məzmunu dəyişmişdir. Artıq aqrar sektora investisiya qoyuluşlarında əsasən torpaq sahibləri, sahibkarlar və özəl biznes subyektləri iştirak edirlər.




**Şəkil 2.1.1 Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyaların dinamikası. mln. manat**

Mənbə:DSK. İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2024 1.7., 1.8.

https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.1.1-dən göründüyü kimi, kənd təsərrüfatında əsas vəsaitə qoyulan investisiya dinamikası 2003-cü ildən etibarən hər il artmışdır. 2019-cu ildə bu sektora ən çox investisiya qoyulmuşdur ki, bu da 2003-cü ildən 21 dəfə çoxdur. Ancaq 2020-ci ildən sonra bu rəqəm azalmağa doğru meyllənmişdir. 2020-ci ildə 2019-cu ilə nisbətən 32%, 2021-ci ildə 2,3 dəfə, 2022-ci ildə 47%, 2023-cü ildə isə 25% azalmışdır. 2020-ci ildən başlayaraq 2022-ci ilədək investisiyanın azalmasının əsas səbəbi bütün dünyanı, o cümlədən, Azərbaycanı bürümüş pandemiya ilə əlaqədar olmuşdur ki, nəticədə, dünyanın bütün ölkələrinin iqtisadiyyatlarında əhəmiyyətli sürətdə geriləmələr müşahidə edilmişdir. 2023-cü ildən isə investisiyaların artımı müşahidə olunur.

*"Apardığımız hərtərəfli kompleks araşdırmalar göstərir ki, istehlak malları istehsal edən qeyri-neft sənaye sahələrinin və aqrar sektorun investisiya üçün özlərinin resursları çox məhduddur. Belə şəraitdə ümid dövlət investisiyalarına qalır. Onların hesabına sənayenin qeyri-neft sahələri və aqrar sektorun maddi-texniki bazası möhkəmləndirilməli və yeni texnologiyalar tətbiq edilməlidir"* [59. s.414].

İnvestisiya qoyuluşlarının müsbət dinamikası aqrar sektorun əsas fondlarının artmasına gətirib çıxarmışdır ki, bu da ən əhəmiyyətli göstəricilərdən biridir. 2023-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə əsas fondların dəyəri 2003-cü ilə nisbətən 41 dəfə artmışdır [31].

Əsas fondların müsbət dinamika ilə artımı təbii ki, son nəticədə də öz sözünü deməli idi. Aşağıdakı şəkildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının son 20 ildə faktiki dəyərinin dinamikası göstərilmişdir.




**Şəkil 2.1.2 Kənd təsərrüfatında ümumi məhsul faktiki qiymətlərlə. mln. manatla**

Mənbə:DSK. İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2024 1.9. https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.1.2-dən göründüyü kimi, son 20 ildə qoyulmuş investisiyanın müsbət nəticəsi olmuşdur, belə ki, məhsul istehsalı pul ifadəsində stabil artan dinamika ilə inkişaf etmiş, 2023-cü ildə 2003-cü ilə nisbətən 8,4 dəfə artım qeydə alınmışdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, qeyd olunan əhəmiyyətli artım istehsal həcmlərindəki artımla bərabər, bu müddət ərzində baş vermiş inflyasiya amili hesabına da təmin edilmişdir. Təkcə 2015-ci ildə Azərbaycanda bir dollar 0,78 manatdan 1,70 manata sıçrayış etmiş və bazarda kənd təsərrüfatı məhsullarının faktiki satış qiymətləri də adekvat olaraq qalxmışdır.

Azərbaycanda kənd təsərrüfatı sektorunun müstəqillikdən sonrakı inkişaf trayektoriyası göstərir ki, son 25 il ərzində müşahidə olunan artım daha çox ekstensiv inkişaf amilləri — torpaq və əmək resurslarının miqdarca genişləndirilməsi, ənənəvi istehsal üsullarının qorunub saxlanması və inzibati dəstək mexanizmlərinin

tətbiqi hesabına təmin olunmuşdur. Lakin bu ekstensiv resurslar artıq öz potensial həddinə çatmış və məhsuldarlıq artımı zəifləməyə başlamışdır. Mövcud mərhələdə kənd təsərrüfatı sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı üçün intensiv modellərə keçid zərurəti meydana çıxır. Bu isə yalnız innovasiya-investisiya modelinin tətbiqi ilə mümkün ola bilər.

Həmin model çərçivəsində texnoloji modernizasiya, yüksək məhsuldarlıq verən bitki və heyvan sortlarının tətbiqi, rəqəmsal kənd təsərrüfatı həlləri, ağıllı idarəetmə sistemləri və emal sahəsində qabaqcıl infrastrukturun qurulması kimi komponentlər həlledici rol oynayır. Bununla yanaşı, kapital axınının stimullaşdırılması, investisiya risklərinin azaldılması, institusional mühitin yaxşılaşdırılması və aqrar sahəyə yönəlik dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi də bu modelin effektiv tətbiqi üçün əsas şərtlərdir. Beləliklə, hazırkı mərhələdə innovasiya-investisiya modelinin prioritetə çevrilməsi kənd təsərrüfatında keyfiyyət transformasiyasının mühüm şərti kimi çıxış edir.

Təəssüf ki, bu sahədə müşahidə edilən bəzi texniki göstəricilər mövcud çağırışlara cavab verə bilmədiyimizi göstərir. Məsələn, pambıqçılıq sektorunda texnoloji təminatın zəifliyi, xüsusilə pambıqyığan kombaynların sayındakı ciddi azalma diqqət çəkir. Belə ki, 2023-cü ildə pambıqyığan kombaynların sayı 1990-cı illə müqayisədə 6,8 dəfə azalmışdır. Bu göstərici bir tərəfdən pambıq əkin sahələrinin azalması ilə bağlı olsa da, digər tərəfdən hər 1000 hektara düşən texnika vahidlərinin sayında baş verən 2,6 dəfəlik azalma göstərir ki, bu sahədə texniki geriləmə daha dərin struktur xarakteri daşıyır. Nəticədə, hazırda pambıqçılıqda əməktutumlu istehsal prosesi üstünlük təşkil edir – əl əməyinin payı əvvəlki dövrlə müqayisədə təxminən 3 dəfə artmışdır. Bu isə istehsalın maya dəyərinin yüksəlməsinə, rentabellik səviyyəsinin azalmasına

və ümumilikdə sahənin iqtisadi cazibədarlığının zəifləməsinə səbəb olur.

Şəkər çuğunduru istehsalında çuğunduryığan kombaynların əhəmiyyəti çox böyükdür. 2020-ci ildə bu kombaynların sayı 1990-cı ilə nisbətən 23 dəfə artmasına baxmayaraq, məhsulun yığılması problem idi və əl əməyindən geniş istifadə edilirdi. Çünki həmin ildə ölkədə hər 6800 ha. çuğundur sahəsinə bir çuğunduryığan kombayn düşürdü. Artıq bu problem müəyyən qədər həllini tapmış, son 2 ildə ölkəyə 107 ədəd çuğunduryığan kombayn gətirilərək, sayı 142 ədədə çatdırılmışdır. Hər hektardan 60-90 ton çuğundurun əl ilə yığılması, nəqliyyata yüklənməsi ağır fiziki əmək tələb edirdi. Ölkədə çuğundur əkini sahələrin azalmasının əsas səbəblərindən biri də kombaynların çatışmaması, ağır əl əməyindən istifadə edilməsi olmuşdur. Bu problem artıq həllini tapmaq üzrədir.

*"Kənd təsərrüfatı istehsalının bir çox sahələrində məhsuldarlıq səviyyəsi hələ də aşağı olaraq bütövlükdə aqrar sahədə əmək məhsuldarlığının yüksəldilməsinə imkan vermir ki, bu da bir sıra vacib bitkiçilik və heyvandarlıq məhsullarının emalolunma səviyyəsinin zəifləməsi ilə nəticələnərək emal müəssisələrinin istehsal güclərindən istifadənin aşağı düşməsinə səbəb olmuşdur"* [26. s.130].

*"Beləliklə, aparılmış tədqiqatın nəticələrini ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, Azərbaycanda istehsal edilmiş aqrar məhsullarının kiçik bir hissəsi emal müəssisələrində son məhsula çevrilmişdir. Şübhəsiz ki, bunun əsas səbəblərindən biri aqrar-sənaye inteqrasiyasının dünya təcrübəsində uğurla tətbiq olunan mexanizmləri kimi kooperativlərin, müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalının, aqrar-sənaye müəssisələrinin ölkəmizdə lazımi səviyyədə inkişaf etməməsidir"* [60. s.196].

Azərbaycanın aqrar sektorunda mövcud enerji istehlakının artım səviyyəsi məhsul istehsalının artımına adekvat deyildir.

*“Azərbaycan Respublikasının kənd təsərrüfatında ilkin enerji resurslarının istehlakının artması uzunmüddətli dövrdə məhsul istehsalının adekvat artımı ilə müşayiət olunmamışdır. Nəticədə aqrar sektorda enerji tutumluğunun nisbətən yüksək səviyyəsi qərarlaşıb. Bu, əkinçilik və heyvandarlıq məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsini ləngidən amillərdən birinə çevrilmişdir” [62, s.68].*

Ümumiyyətlə, 1990–2023-cü illər ərzində Azərbaycanın kənd təsərrüfatı sektorunun inkişaf trayektoriyasını təhlil edərkən belə qənaətə gəlmək mümkündür ki, bu dövrdə aqrar istehsal strukturunda müəyyən müsbət dəyişikliklər müşahidə olunsa da, sektorun səmərəli və balanslı inkişafı baxımından hələ də ciddi çağırışlar mövcuddur. Əsasən ərzaq təyinatlı məhsullarda nisbi artımlar qeydə alınsa da, pambıqçılıq, üzümçülük, tütünçülük, şəkər çuğunduruçuluğu kimi iqtisadi cəhətdən yüksək rentabellik potensialına malik olan texniki bitkilərin istehsalında uzunmüddətli və davamlı azalma tendensiyası müşahidə olunmaqdadır.

Bununla yanaşı, xammal bazasının zəifliyi, torpaq resurslarının qeyri-bərabər bölgüsü, texniki təminatın müasir tələblərə uyğun olmaması, aqrar sahədə texnoloji modernləşmənin ləng aparılması və institusional dəstək mexanizmlərinin qeyri-kafi olması kənd təsərrüfatının dayanıqlı inkişafını məhdudlaşdıran başlıca amillər kimi çıxış edir. Bu problemlər aqrar sahənin qlobal tendensiyalara inteqrasiyasında və rəqabətqabiliyyətli mövqelərinin formalaşmasında əngəllər yaratmaqda davam edir.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə kənd təsərrüfatının, xüsusilə də texniki bitkiçilik istiqamətinin yenidən dirçəldilməsi, yerli xammal potensialının genişləndirilməsi və

aqroemal sənayesinin dayanıqlı təchizatı baxımından strateji əhəmiyyət daşıyır. Nəticə etibarilə, kənd təsərrüfatının xammal bazası sahəsində transformasiya və modernləşmə tədbirləri daha çevik, elmi əsaslı və innovasiya-investisiya yönümlü yanaşmalarla aparılmalı, bu sahənin rəqabət qabiliyyətini artırmaq üçün kompleks tədbirlər sisteminə ehtiyac duyulur. Beləliklə, xammal bazasının və texniki resursların optimallaşdırılması aqroemal sənayesinin inkişafı üçün zəruri ilkin şərt olmaqla, həm də növbəti yarımfəsildə təhlil ediləcək istehsal meyllərinin formalaşmasına təsir edən əsas faktorlardan biri kimi çıxış edir.

## 2.2. Aqroemal müəssisələrinin fəaliyyət göstəriciləri və istehsal potensialının təhlili

Qeyd etdiyimiz kimi, aqroemal sektoru Azərbaycan iqtisadiyyatının, o cümlədən, kənd təsərrüfatının inkişafında aparıcı sahələrdən biridir. Ona görə də bu sahənin inkişafı ilə əlaqədar dövlət tərəfindən daim müəyyən tədbirlər görülür və görülməkdədir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri" adlı sənəd Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Sənəddə növbəti (2021-2030) onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritetin reallaşdırılması qarşıya qoyulmuşdur:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi [44].

Bu hədəflərin hər birinin alt hədəfləri müəyyən edilmişdir. Bu hədəflərə uyğun olaraq qarşıda gələn on il ərzində ölkənin davamlı və inklüziv inkişafının təmin edilməsi üçün möhkəm iqtisadi baza yaradılması nəzərdə tutulmuşdur. Rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı, idxaldan asılılığın azaldılması, qeyri-neft sektorunda ixracın artırılması, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi, ölkədə yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi əsas məqsədlər kimi nəzərdə tutulur. Aqroemal sahəsi həm kənd təsərrüfatının inkişafındakı roluna görə və həm də əmək tutumluğu yüksək olduğu üçün bu məqsədlərin həyata keçirilməsində əsas həlqələrdən sayılır.

Eyni zamanda "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı aqroemal sahəsinin inkişafı üçün yeni üfüqlər açır. Fərmanda deyilir: *"Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir*" [43].

Milli iqtisadiyyatın hər hansı bir sahəsinin ən mühüm xarakteristikası həmin sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin mövcud vəziyyətidir. Bu vəziyyət iki parametrlə ifadə olunur: müstəqil qurumların sayı və onların təşkilati-hüquqi xüsusiyyəti. Aqroemal sahəsində mövcud müəssisələrin dinamikasına baxaq.

**Cədvəl 2.2.1 Aqroemal sahəsi üzrə müəssisələrin göstəriciləri**

| Göstəricilər. | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Qida məhsulları istehsalı ilə məşğul olan müəssisələr əd. | 409 | 382 | 487 | 540 | 587 | 641 |
| O cümlədən: dövlət | 14 | 18 | 9 | 9 | 7 | 6 |
| qeyri-dövlət | 395 | 364 | 478 | 531 | 580 | 635 |
| Fərdi sahibkarların sayı nəfər | 2431 | 4079 | 6042 | 6623 | 6924 | 7456 |
| İçki istehsalı ilə məşğul olan müəssisələr | 110 | 120 | 131 | 146 | 165 | 182 |
| O cümlədən: dövlət | 4 | 3 | 1 | 1 | 1 | 1 |
| qeyri-dövlət | 130 | 117 | 130 | 145 | 164 | 181 |
| Fərdi sahibkarların sayı nəfər | 189 | 224 | 260 | 255 | 241 | 239 |
| Tütün məmulatları ilə məşğul olan müəssisələr | 12 | 7 | 13 | 17 | 18 | 21 |
| O cümlədən: dövlət | - | - | - | - | - | - |
| qeyri-dövlət | 8 | 7 | 13 | 17 | 18 | 21 |
| Fərdi sahibkarların sayı nəfər | 2 | 1 | 3 | 5 | 6 | 5 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2024. s.37 https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.1-dən göründüyü kimi, aqroemal sahəsinin aparıcı sektorlarında, xüsusilə də, qida məhsulları istehsal edən müəssisələrin sayı artan dinamika ilə inkişaf edir. Eyni zamanda bu sahə ilə məşğul olan fərdi sahibkarların da sayında artım müşahidə edilir. Aqroemal sahəsi üzrə fəaliyyətdə olan müəssisələrin böyük əksəriyyəti özəl sektora aiddir, belə ki, qida məhsulları istehsal

edən müəssisələrin 98%-i, içki istehsalı ilə məşğul olan müəssisələrin 99%-i, tütün məmulatları istehsalı ilə məşğul olan müəssisələrin isə 100%-i, yəni hamısı qeyri-dövlət sektoruna aiddir [28].

Aqroemal sənayesi müəssisələrinin fəaliyyətinin inkişafının ən mühüm parametri ərzaq ehtiyatlarının və çeşidlərinin artması ilə yanaşı, həm də yeni iş yerlərinin artması, işsizliyin azalmasıdır. Bu parametr həm də sənayenin səmərəliliyinin meyarı və ya göstəricisi kimi çıxış edə bilər.

Ölkədə aqrar sektorun sənayeləşdirilməsi, o cümlədən, yeni innovasiya və texnologiyalarla təmin edilməsi çoxlu miqdarda investisiya tələb edir. Ümumiyyətlə, investisiyalar ölkənin aqroemal sahəsinin rəqabət qabiliyyətinin artırılmasında, emal sektoru iqtisadiyyatının modernləşdirilməsi və kənd təsərrüfatı məhsullarının bazar, satış problemlərinin həllində həlledici rol oynayır. Cəlb edilmiş investisiyaların həcmi aqroemal sahəsinin investisiya cəlbediciliyi və təsərrüfat subyektlərinin investisiya fəallığı ilə sıx əlaqələndirilir. Ona görə də dövlət aqroemal sahəsinin inkişafı üçün qanunvericilik və icra hakimiyyəti səviyyəsində ölkədə əlverişli investisiya mühitinin yaradılmasında maraqlı olmalıdır.

**Cədvəl 2.2.2 Aqroemal sahəsində əsas kapitala yönəldilən investisiyalar mln. man.**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Qida məhsulları istehsalı üzrə | 27,1 | 87,9 | 225,1 | 197,8 | 206,5 | 132,2 |
| o cümlədən: | | | | | | |
| xarici investisiyalar | 1,1 | - | 18,8 | - | - | - |
| daxili investisiyalar | 26,0 | 87,9 | 206,3 | 197,8 | 206,5 | 132,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İçki istehsalı üzrə<br>o cümlədən:<br>xarici investisiyalar<br>daxili investisiyalar | 12,1<br>-<br>12,1 | 23,7<br>-<br>23,7 | 39,4<br>-<br>39,4 | 39,1<br>-<br>39,1 | 45,4<br>3,7<br>41,7 | 16,7<br>-<br>16,7 |
| Tütün məmulatları istehsalı üzrə<br>o cümlədən:<br>xarici investisiyalar<br>daxili investisiyalar | 32,5<br>-<br>32,5 | -<br>-<br>- | 4,3<br>-<br>4,3 | 2,2<br>-<br>2,2 | 1,1<br>-<br>1.1 | 2,6<br>-<br>2,6 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2016, 2021, 2023 s.37. https://www.stat.gov.az/source/industry/ əsasında müəllif tərtibatı

Cədvəl 2.2.2-də əks olunan statistik məlumatlar göstərir ki, Azərbaycanda qida sənayesi üzrə əsas kapitala yönəlmiş investisiyalarda müəyyən müsbət dinamika müşahidə edilsə də, bu tendensiya ardıcıl və dayanıqlı olmamış, xüsusilə son illərdə əhəmiyyətli eniş baş vermişdir. Belə ki, 2023-cü ildə qida məhsullarının istehsalı sahəsinə yönəlmiş investisiya həcmi əvvəlki illə müqayisədə 1,6 dəfə azalmışdır. Bu, təkcə daxili investisiya mühitinin zəifləməsi ilə deyil, həm də xarici sərmayənin bu sektora demək olar ki, cəlb edilməməsi ilə izah olunur. Mövcud göstəricilərə əsasən, son 12 il ərzində qida sənayesinə cəmi 49,4 milyon manat məbləğində xarici investisiya cəlb olunmuşdur ki, bu da sahənin beynəlxalq kapital üçün hələ də yetərincə cəlbedici olmadığını göstərir [28]. İnvestisiya axınındakı bu geriləməni 2020-ci ildən sonra qlobal pandemiyanın yaratdığı makroiqtisadi qeyri-müəyyənliklərlə də əlaqələndirmək mümkündür.

İçki istehsalı sənayesində də oxşar dinamikaya rast gəlinir. Son 12 il ərzində bu sahəyə yönələn investisiyalar 3,7 dəfə artaraq 2022-ci ildə 41,7 milyon manata çatmışdır. Lakin 2023-cü ildə bu göstərici 2,5 dəfə azalaraq cəmi 16,7 milyon manat təşkil etmişdir. Əldə olunan məlumatlara əsasən, bu istiqamət üzrə də xarici investisiyaların tamamilə yoxluğu müşahidə olunur ki, bu da həm

texnoloji yeniliklərin tətbiqi imkanlarını məhdudlaşdırır, həm də sektorda rəqabət qabiliyyətinin zəifləməsinə səbəb ola bilər.

Tütün emalı sahəsində isə fərqli mənzərə müşahidə edilir. Xarici investisiyaların olmamasına baxmayaraq, bu sahədə daxili investisiya həcmi nisbətən sabit və məqbul səviyyədədir. Belə ki, son 13 il ərzində tütün emalı sənayesinə 42,7 milyon manat vəsait yönəldilmişdir. Tütün sənayesinin inkişafında bir neçə strateji investisiya layihəsinin xüsusi rolu olmuşdur. 2000-ci ildə "European Tobacco" şirkəti tərəfindən Bakı tütün fabrikinin yenidən qurulması, 2006-cı ildə Naxçıvanda "Cahan Tobacco" şirkətinin yaradılması və nəhayət, 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətə başlaması bu istiqamətdə mühüm mərhələləri təşkil edir. Bu investisiya təşəbbüsləri sahənin texnoloji modernləşməsini təmin etməklə yanaşı, həm də məhsul müxtəlifliyinin və istehsal gücünün artırılmasına şərait yaratmışdır.

Ümumilikdə, qida, içki və tütün məhsulları sənayesində müşahidə olunan investisiya tendensiyaları göstərir ki, Azərbaycanın aqroemal sektorunda davamlı inkişafın təmin olunması üçün daha məqsədyönlü, xüsusilə xarici investisiyaları stimullaşdıran təşviq mexanizmlərinin tətbiqinə ehtiyac vardır. Bu sektorun inkişafı yalnız daxili vəsaitlər hesabına deyil, eyni zamanda beynəlxalq sərmayə mühitinin aktivləşdirilməsi yolu ilə mümkün olacaqdır.

Azərbaycanda aqroemal sənayesinə dair statistik məlumatların sistemləşdirilməsi və təhlili zamanı bir sıra metodoloji uyğunsuzluqlara və kateqorial qeyri-müəyyənliklərə rast gəlinir. Xüsusilə, Dövlət Statistika Komitəsinin rəsmi hesabatlarında bəzi məhsul qrupları üzrə ilkin emal mərhələsində fəaliyyət göstərən müəssisələrin və onların iqtisadi göstəricilərinin (işçilərin sayı,

müəssisələrin sayı, əsas vəsaitlərə yönəlmiş investisiyalar, istehsal dəyəri və s.) aid olduğu sənaye sahəsinə deyil, həmin məhsulun son istifadə təyinatına əsasən digər emal sənayesi bölmələrinə daxil edilməsi müşahidə olunur. Məsələn, gön-dərinin ilkin emalı üzrə müəssisələr faktiki olaraq kənd təsərrüfatı mənşəli xammalla işləyən aqroemal sektoru çərçivəsində fəaliyyət göstərsə də, rəsmi statistikada bu göstəricilər ayaqqabı və dəri məmulatları sənayesinin tərkibinə daxil edilir. Eyni qaydada, pambığın ilkin emalına dair göstəricilər də trikotaj və toxuculuq sənayesinin strukturunda göstərilir. Bu yanaşma aqroemal sektorunun iqtisadi həcmini və funksional gücünü obyektiv qiymətləndirməyə əngəl törədir.

Nəticə etibarilə, bu metodoloji məhdudiyyətlər səbəbindən qeyd olunan sahələrdə fəaliyyət göstərən müəssisələrin ümumi sayı, onların istehsal potensialı, texniki təminatı, əmək bazarı göstəriciləri, investisiya cəlbetmə imkanları və rentabellik dərəcəsi barədə tam və dəqiq informasiyanın əldə edilməsi mümkün olmur. Belə olan halda yalnız konkret təsərrüfat subyektlərinin praktikasına əsaslanan seçmə yanaşmalar və ayrı-ayrı müəssisə nümunələri əsasında qiymətləndirmələr aparmaq mümkündür. Bu kimi hallara və onların təhlilinə növbəti fəsillərdə ayrıca toxunulacaqdır.

Azərbaycan Respublikasında emal sənayesinin struktur baxımından aparıcı seqmentlərindən biri olan "Qida məhsullarının istehsalı" sahəsi isə statistik hesabatlarda ayrıca bölmə kimi təqdim edilir və daxili təsnifata uyğun olaraq bir neçə alt kateqoriyaya bölünür. Rəsmi statistik təsnifata əsasən bu sahəyə aşağıdakı istiqamətlər daxildir [92, s.9]:

- Ət və ət məhsullarının emalı və istehsalı
- Süd və süd məhsullarının istehsalı

- Çay emalı
- Şəkər istehsalı
- Un, çörək və makaron məmulatlarının istehsalı
- Şirniyyat məhsullarının istehsalı
- Balıq və digər su məhsullarının emalı
- Meyvə-tərəvəz konservlərinin istehsalı
- Duz istehsalı

Qeyd olunan alt-seqmentlərin hər biri öz növbəsində müxtəlif çeşidli məhsullar üzrə ixtisaslaşmış istehsal sahələrini əhatə edir. Bu, aqroemal sənayesinin daxilində daxili ixtisaslaşmanın və şaquli istehsal zəncirinin formalaşdığını göstərir.

Qida sənayesində, xüsusən də əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət daşıyan sahələrdən biri ət və ət məhsullarının istehsalıdır. Bu sahə təkcə istehlak bazarının tələblərini qarşılamır, həm də ölkənin sosial rifah səviyyəsinin, əhalinin sağlam qidalanma göstəricilərinin və eyni zamanda ümumi ərzaq təhlükəsizliyi indeksinin formalaşmasında mühüm rol oynayır. Tədqiqatlar və praktik müşahidələr göstərir ki, insan orqanizminin normal fəaliyyət göstərməsi üçün onun gündəlik rasionunda kifayət qədər protein, yağ və karbohidrat balansının olması vacibdir. Beynəlxalq qidalanma normalarına əsasən, bir insanın bədən çəkisinin hər kiloqramı üçün gündəlik 0.8–1.2 qram zülal (protein) qəbul etməsi tövsiyə edilir. Bu baxımdan, heyvan mənşəli zülalların əsas mənbəyi olan ət və ət məhsulları istehlakı xüsusi əhəmiyyət kəsb edir.

Lakin digər qida məhsulları ilə müqayisədə ət istehsalının texnoloji baxımdan daha mürəkkəb olması, yüksək istehsal xərcləri və məhsulun bazarda satış qiymətlərinin nisbətən yüksək olması bu sahənin iqtisadi dayanıqlılığına və genişlənmə imkanlarına təsir

göstərir. Bu səbəbdən ət istehsalı və emalı sahəsi daha çox kapital və resurs tələb edən, eyni zamanda yüksək keyfiyyətli texnoloji təminat və peşəkar işçi qüvvəsi ilə işləməyi zəruri edən bir sahədir.

**Cədvəl 2.2.3 Bütün növ ət və ət məhsullarının istehsal dinamikası.**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsullarının istehsalı min ton. | 108,7 | 198,0 | 244,9 | 298,6 | 346,0 | 357,6 | 368,2 | 379,7 |
| O cümlədən: | | | | | | | | |
| mal əti | 54,0 | 95,9 | 112,4 | 129,8 | 143,1 | 145,0 | 148,6 | 152,7 |
| qoyun keçi əti | 36,1 | 53,7 | 70,0 | 70,1 | 87,1 | 87,7 | 89,0 | 88,9 |
| quş əti | 17,0 | 46,3 | 61,7 | 97,2 | 115,4 | 124,4 | 130,1 | 137,5 |
| donuz əti | 1,6 | 2,1 | 0,8 | 0,7 | 0,5 | 0,5 | 0,5 | 0,5 |
| Bütün növ ət və ət məhsullarının idxalı min ton. | 33,0 | 31,4 | 36,0 | 17,6 | 63,6 | 56,9 | 61,5 | 66,7 |
| O cümlədən: | | | | | | | | |
| mal əti | 0,8 | 4,3 | 3,9 | 12,4 | 20,7 | 12,8 | 11,3 | 20,2 |
| qoyun keçi əti | - | - | - | 0,5 | 2,4 | 1,6 | 2,7 | 4,8 |
| quş əti | 23,3 | 26,7 | 13,5 | 1,4 | 30,8 | 32,6 | 37,1 | 31,8 |
| donuz əti | - | - | - | 3,3 | 9,7 | 9,9 | 10,3 | 10,0 |
| Ərzaq məhsulu kimi istifadə edilib min ton | 138,9 | 204,3 | 277,3 | 314,2 | 406,7 | 413,2 | 424,6 | 441,5 |
| Ondan: Ərzaq məhsullarının istehsalına istifadə edilmişdir. | 1,6 | 2,8 | 3,7 | 11,9 | 27,9 | 24,7 | 29,3 | 33,7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kolbasa məmulatlarının istehsalı min ton | 2,3 | 1,9 | 2,1 | 5,0 | 25,8 | 26,7 | 30,0 | 30,2 |
| Kolbasa məmulatlarının idxalı min ton | 2,3 | 2,4 | 1,2 | 1,1 | 4,7 | 5,6 | 5,2 | 6,1 |
| Adambaşına düşən ət istehsalı kq. | 13,7 | 15,8 | 26,9 | 30,8 | 34,3 | 36,0 | 36,0 | 38,0 |
| Adambaşına düşən ət istehlakı kq. | 17,4 | 29,4 | 31,5 | 33,5 | 40,8 | 41,0 | 42,0 | 43,5 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın ərzaq balansı" 2016, 2021, 2024 https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.3-dən göründüyü kimi, ət və ət məhsullarının istehsalı son 23 ildə əhəmiyyətli dərəcədə, yəni 3,5 dəfə artmışdır. Quş əti istehsalı xüsusilə fərqlənir, belə ki, bu məhsulun istehsalı 2023-ci ildə 2000-ci ilə nisbətən 8,1 dəfə artmışdır. Kolbasa məmulatlarının istehsalı da bu dövr ərzində 13,1 dəfə artmışdır. İstehsalın artması ilə paralel olaraq anoloji məhsulların idxalı da artmışdır, belə ki, son 23 ildə ət və ət məhsullarının idxalı 2 dəfə, kolbasa məmulatlarının idxalı da 2,7 dəfə artmışdır. Eyni zamanda, bu illər ərzində adambaşına düşən ət və ət məhsulları istehsalı 2,8 dəfə artaraq 38 kq.-a çatmışdır. Ət və ət məhsullarının istehlakında da artım böyükdür, belə ki, 2000-ci ildə bir Azərbaycan vətəndaşı orta hesabla bir ildə 17,4 kq. ət istehlak edirdisə, 2023-ci ildə bu rəqəm 2,5 dəfə artaraq 43,5 kq. səviyyəsinə qalxmışdır [29].

Ət və ət məhsullarının hər üç mövqeyi üzrə idxal rəqəmləri sabit olaraq artmışdır. Xüsusilə də quş əti idxalında bu rəqəm daha

böyükdür. Belə ki, 2015-ci ilə nisbətən 2023-cü ildə quş əti idxalı 22,7 dəfə artmışdır. Başqa sözlə, 2015-ci ildə 6,2 mln. dollar məbləğində quş əti idxal edirdiksə, 2022-ci ildə bu rəqəm 7,4 dəfə artaraq 46,1 mln. dollara çatmışdır. Bu həm də onunla müşayət olunur ki, idxal olunan quş ətinin məhsul vahidinə ödənilən məbləğ 39% artmışdır. İsxal olunan məhsul vahidinə ödənilən məbləğ artımı mal və donuz ətində də müşahidə olunur.

*"2019-cu ildə ət və ət məhsullarının idxalı üçün ümumilikdə 83 mln. dollar vəsait ödənilmişdir. Ümumiyyətlə, dünyada təkcə ət və ət məhsullarının deyil, ərzaq mallarının qiymət artımı müşahidə edilir və proqnozlara görə bu qiymət artımları 2021-2022-ci illərdə də davam edəcəkdir"* [96, s.20].

Onu da qeyd etməliyik ki, 2023-cü ildə ölkəyə idxal olunan iribuynuzlu diri heyvanların gətirildikləri ölkələri və idxal qiymətlərini analiz edərkən məlum olur ki, bu heyvanların əksəriyyəti damazlıq məqsədi ilə deyil, bir müddət saxlanıb ət kəsimində istifadə edilmək üçün gətirilmişdir. DSK-nın məlumatına əsasən, hələ 2022-cu ildə ölkəyə 49,9 min baş, 2023-cü ildə isə 94,3 min baş iribuynuzlu diri heyvan idxal olunmuşdur. Bu rəqəm əvvəlki illərdə, orta hesabla, 100 min başdan yüksək olub. İdxalın təxminən 3-4%-i damazlıq məqsədilə gətirilmiş, qalan heyvanlar isə müəyyən müddət bəslənilərək ət kəsimində istifadə edilmişdir. Son 6 ildə (2018-2023) ölkəyə 494,5 min baş diri iribuynuzlu mal-qara idxal olunmuşdur. Diri mal-qara idxalında Gürcüstan əsas tərəfdaşımız rolunu oynayır. (bax əlavə 20)

Azərbaycanda adambaşına düşən ət və ət məhsullarının istehsalı qənaətbəxş deyil, belə ki, başqa ölkələrlə müqayisə ediləndə bu mənzərə tam üzə çıxır.

**Cədvəl 2.2.4 MDB ölkələri üzrə ət istehsalı göstəriciləri (2022-ci il)**

| | Ölkələr | Cəmi ət istehsalı min tonla | Adambaşına düşən ət istehsalı kq.-la |
|---|---|---|---|
| | **Azərbaycan** | **368** | **36** |
| | Ukrayna | 2438 | 59 |
| | Özbəkistan | 1753 | 77 |
| | Qazaxıstan | 1241 | 63 |
| | Moldova | 120 | 47 |
| | Qırğızıstan | 242 | 39 |
| | Ermənistan | 103 | 35 |
| | Rusiya | 11743 | 80 |
| | Tacikistan | 191 | 19 |
| | Belarus | 1221 | 132 |

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" 2023 cədvəl 3.9.

https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.4-dən göründüyü kimi, MDB ölkələri arasında Azərbaycan hər nəfərə düşən ət istehsalına görə təkcə, Ermənistan və Tacikistandan irəlidədir. 2023-ci ildə də bu rəqəm dəyişməmişdir. Ölkədə adambaşına ət istehsalının az olmasının əsas səbəbi mövcud sürüdə az məhsuldar olan yerli cinsdən olan heyvanların üstünlük təşkil etməsidir [140, s.119].




**Şəkil 2.2.1 Bəzi MDB ölkələrində adambaşına illik ət və ət məhsulları istehlakı. kq.-la 2021-ci il**

Mənbə: DSK "Azərbaycanın kənd təsərrüfatı" 2023 s.690. https://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.1-dən göründüyü kimi, ət və ət məhsulları istehlakı üzrə Azərbaycanın MDB ölkələri arasında tutduğu mövqeyi heç də ürəkaçan deyil. Belarusiya və Rusiya vətəndaşları Azərbaycan əhalisindən təxminən 2 dəfə çox ət və ət məhsulları istehlak edirlər. MDB ölkələri arasında bu göstərici üzrə yeganə Tacikistandan irəlidəyik.

Qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş minimum istehlak səbəti üzrə ərzaq normalarına əsasən əhali üzrə orta hesabla bir nəfər üçün ət və ət məhsullarının minimum istehlak norması 31,5 kq səviyyəsində hesablanmışdır [19].

Ümumdünya Səhiyyə Təşkilatı bir nəfərə ət və ət məhsullarının istehlak normasını 72 kq səviyyəsində bəyan etmişdir. Əgər Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ət və ət məhsulları rasionu üzrə illik istehlak normativini (72 kq.) əsas götürsək, bu gün Azərbaycanda 720 min ton ət istehlak edilməlidir.

2021-ci ildə ət və ət məhsullarının istehlakı bu normativdən 1,7 dəfə az olmuşdur [126]. (bax əlavə 18)

Hal-hazırda ölkəmizdə ət və ət məhsullarının istehsalı və emalı ilə əlaqədar irili-xırdalı 20-dək firma fəaliyyət göstərir. Onların 4-ü Naxçıvan MR-da yerləşir.

Azərbaycanda kolbasa və kolbasa məmulatları istehsalı sektorunda fəaliyyət göstərən firmalar əsasən aşağıdakılardır:

1. ”M&T” LTD firması (Hacı Turqay şirkəti) - 100-dək çeşiddə kolbasa və kolbasa məmulatları istehsal edir. Məhsulları əsasən Bakı şəhərində və ölkənin digər bölgələrində “Sevimli Dad” brendi adı ilə realizə edilir. Bakı şəhərində yerləşir.

2. “Ovçular ət və ət məhsulları” MMC - 1992-ci ildən ət məhsullarının emalı üzrə ixtisaslaşmış müəssisə kimi fəaliyyət göstərir. Bakı şəhərində yerləşir.

3. "Hakan Foods Azerbaijan Trading Co Ltd" MMC - 2001-ci ildən "Kral" brendi altında kolbasa və digər kolbasa məmulatları istehsal edir. Bakı şəhərində yerləşir.

4. "Orxan-SS" müəssisəsi ("C.F.-Kristal" kolbasa istehsalı). Kolbasa və kolbasa məmulatları istehsal edir. Bakı şəhərində yerləşir.

5. “AL-SANA” MMC - 2014-cü ildən fəaliyyət göstərir. Məhsulları “Payım” brendi ilə satılır. Bakı şəhərində yerləşir.

6. “Səhliyalı” kiçik müəssisəsi - 1996-cı ildən fəaliyyət göstərir. “1000 bərəkət, halal nemət” ət və ət məhsullarını, o cümlədən, kolbasa məmulatlarını istehsal edir. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

7. “Halal Dad” MMC - 2010-cu ildən fəaliyyət göstərir. Ət və ət məhsulları, o cümlədən, kolbasa istehsalı ilə məşğuldur. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

8. “Zəhmət-Ruzi” MMC-nin “Sab” brendi altında kolbasa və kolbasa məhsulları və həm də süd məhsullarının istehsalı ilə məşğuldur. Abşeron rayonunda yerləşir.

9. "Ay-Min" MMC - "Flaqman" brendi ilə ət məhsulları istehsal edir. Abşeron rayonunun Xırdalan qəsəbəsində yerləşir.

10. “Elba” MMC - 1999-cu ildən fəaliyyət göstərir. Ət və ət məhsullarının istehsalı ilə məşğul olur. Şirkətin bir neçə rayonda filialları, o cümlədən, Daşkəsəndə kəsim sexi var. Gəncə şəhərində yerləşir.

11. “Halal Qida” MMC - 2008-ci ildə yaradılıb. Ət və ət məhsullarının istehsalı üzrə ixtisaslaşıb. Gəncə şəhərində yerləşir.

12. “Hilal” ət və ət məhsulları istehsalı müəssisəsi. Ət və ət məhsullarının emalı üzrə ixtisaslaşıb. Naxçıvan bölgəsində yerləşir və məhsulları, əsasən, Naxçıvan MR-nın ərazisində satılır.

13. “Bərəkət Ət Məhsulları Kompleksi” “Gəmiqaya Holdinq” Şirkətlər qrupuna daxildir. Ət və ət məhsullarının emalı, o cümlədən, kolbasa istehsalı üzrə ixtisaslaşıb. Naxçıvan MR-da fəaliyyət göstərir.

14. “M/M” kolbasa məmulatları müəssisəsi - Fiziki şəxsə məxsus müəssisədir. Naxçıvan bölgəsində yerləşir.

Bu firmaların istehsal həcmləri, bazar payları haqqında məlumatları əldə etmək mümkün olmadı. Ona görə də ölkənin kolbasa və kolbasa məhsulları bazarındakı firmalararası rəqabətin real vəziyyətini qiymətləndirmək mümkün olmur. [96]

Ölkənin ət və ət məhsulları bazarında qiymətlərin tənzimlənməsi məqsədilə dövlət müəyyən güzəştlər tətbiq edir. Belə ki, 2019-cu ildə Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən 2020-ci ilin yanvarından etibarən Azərbaycanda heyvan ətinin satış dövriyyəsi 4 il müddətində ƏDV-dən azad olunub. Bu dəyişikliklər

kəsilmiş və dondurulmuş ətlər istisna olmaqla, emal edilən qalan ət məhsullarına aid deyil [32].

Süd emalı məhsulları Dövlət Statistika Komitəsinin hesabatlarında yağlılıq dərəcəsi 1-3% olan süd, yağlılıq dərəcəsi 6-29% olan süd, pendir və kəsmik, xama, kərə yağı və s. kimi istehlak malları qrupları şəklində göstərilmişdir. DSK-nin məlumatlarını əsas götürsək süd və süd məhsulları əhalinin özünütəminetmə səviyyəsi 2023-cü ildə 83,3% olmuşdur və onun dinamikasına nəzər salsaq məlum olar ki, son illər bu rəqəm azalmağa doğru meyllənmişdir.

**Cədvəl 2.2.5 Süd emalı məhsullarının istehsalının əsas göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Kərə yağı min t. | 5,0 | 14,2 | 20,9 | 23,9 | 25,8 | 27,0 | 25,9 | 27,0 |
| Pendir və kəsmik min t. | 29,8 | 33,5 | 43,3 | 48,5 | 53,5 | 59,3 | 57,9 | 55,1 |
| Yağlılığı 1-3% olan süd min t. | 172,7 | 494,0 | 812,8 | 857,4 | 946,4 | 965,1 | 929,1 | 897,7 |
| Yağlılığı 6-29% olan qaymaq t. | 675,9 | 1608,0 | 4230,0 | 5132,0 | 7742,2 | 8981 | 8192 | 9047 |

Mənbə: DSK. İqtisadi statistika "Sənaye" 2024. 17. https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.5-dən göründüyü kimi, son 23 ildə bu məhsulların istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2020-ci ildə kərə yağı istehsalı 5,2 dəfə, pendir və kəsmik istehsalı 1,9 dəfə, yağlılıq

dərəcəsi 1-3% olan süd 5,4 dəfə, yağlılıq dərəcəsi 6-29% olan qaymaq istehsalı isə 12,1 dəfə artmışdır. Ancaq son 4 ili götürsək məlum olar ki, həm kərə yağı istehsalında və həm də pendir və kəsmik istehsalında ciddi bir artım olmamışdır. Nəzərə almalıyıq ki, bu məhsulların içərisində kərə yağı insan orqanizmi üçün ən lazımlı və qiymətli qida məhsuludur.




**Şəkil 2.2.2 Adambaşına süd məhsullarının istehlakı. kq-la**

Mənbə: DSK. İqtisadi statistika "Ərzaq balansları" 2024 5.4 https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.2-dən göründüyü kimi, süd və süd məhsullarının istehlakı son 11 ildə müəyyən dəyişikliklərə məruz qalıb. Belə ki, yağlılığı 1-6% olan süd və qaymaq məhsulunun adambaşına istehlakı 2012-ci ildə 89,6 kq. təşkil edirdisə, bu rəqəm 2023-cü ildə demək olar ki, dəyişməz qalmışdır, ancaq 2020-ci ilə nisbətən ildən 8% azalmışdır. Bu dövr ərzində yağlılığı 6%-dən çox olan qaymaq 2,4 dəfə artaraq adambaşına 1,2 kq., bütün növ pendir 16% artaraq adambaşına 6,4 kq. istehlak edilmişdir. Ölkədə 2012-

ci ildə adambaşına illik kərə yağı istehlakı 4,7 kiloqram təşkil etmiş, ancaq bu rəqəm 2023-cü ildə 3,9 kiloqrama düşmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi minimum istehlak səbətinin tərkibində bir ildə minimum istehlak norması kərə yağı üzrə 6,5 kq. qəbul edilmişdir [19]. Deməli, 2023-cü ildə adambaşına faktiki kərə yağı istehlakı minimum istehlak normasından da 1,7 dəfə azdır. Eyni zamanda qeyd etməliyik ki, ÜST-nın tərtib etdiyi qida normasına görə, sağlam inkişafı təmin etmək üçün bir nəfər il ərzində 7,2 kiloqram kərə yağı istehlak etməlidir. Bu isə o deməkdir ki, Azərbaycan əhalisi ÜST-nın normasından 1,8 dəfə az kərə yağı istehlak edir. Bu illər ərzində ölkədə süd istehsalının və idxalının artması fonunda adambaşına kərə yağının istehlakının aşağı düşməsi başa düşülən deyil.

Ölkədə 50-yə yaxın süd emalı müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələr əsasən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan, Şamaxı, Salyan, Siyəzən, Qəbələ, Bərdə, Zərdabda yerləşir. “Atena”, “Palsüd”, “Milla”, “Azərsüd” və s. süd və süd məhsulları istehsalında artıq ölkədə tanınmış brendlər sayılırlar.

Ölkəmizdə süd və süd məhsullarının istehsalının və paralel olaraq südün məhsuldarlığının aşağı səviyyədə olmasının əsas səbəbi mal-qara sürüsündə aşağı məhsuldarlığa malik yerli cinsdən olan mal-qaranın xüsusi çəkisinin çox olmasıdır. Müşahidələr də göstərir ki, şəxsi təsərrüfatlarda mövcud olan mal-qara sürüsünün mütləq əksəriyyətini yerli cinsdən olan inəklər təşkil edir [97].

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının (FAO) 2020-ci il hesabatına görə İspaniyada cəmi 844,8 min baş inək mövcud olmuş, illik süd istehsalı isə 8,7 mln.ton olmuşdur. Azərbaycanda isə sürüdə inək və camışların sayı 1278 min baş, süd istehsalı isə 2,2 mln. ton olmuşdur. Yüksək məhsuldarlığa malik

inəklərin iqtisadi cəhətdən nə qədər səmərəli olduğunu və ölkədə istifadə olunmayan böyük potensialı bu misaldan aydın görmək olar [162. s.184].

Azərbaycanda heyvandarlıq üzrə mal-qaranın sürü tərkibində yerli və az məhsuldar heyvanların əksəriyyət təşkil etməsi bu vəziyyətin yaranmasının əsas səbəblərindən biridir və sürünün cins tərkibinin yaxşılaşdırılması dövlətin qarşısında duran təxirəsalınmaz məsələlərdən biridir.

Azərbaycanda iqlim şəraitinə görə çayçılıq üçün olduqca münbit şərait vardır. Ələlxüsus də, ölkənin cənub bölgəsində yetişən çay tərkibindəki göstəricilərə görə dünyanın keyfiyyətli çayları ilə müqaisə oluna bilər. *“Azərbaycan çayının tərkibində 28-30 % çayda əsas keyfiyyət göstəricisi olan tanin, 5-6 % kofein, 46-50 % ekstratlı maddələr var ki, bunlar yüksək keyfiyyət göstəriciləri sayılır”* [86, s.36].

**Cədvəl 2.2.6 Çay istehsalı, idxal və ixracının dinamikası. min t.**

| Göstəricilər | 1990 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 30,7 | 1,1 | 0,7 | 0,540 | 0,580 | 0,930 | 1,18 | 1,0 | 1,1 |
| İxrac | x | 1,2 | 5,2 | 8,1 | 4,3 | 1,4 | 1,1 | 1,8 | 0,7 |
| İdxal | x | 2,7 | 7,7 | 8,5 | 7,5 | 14,0 | 14,0 | 14,4 | 13,7 |

Mənbə: DSK İqtisadi statistika “Sənaye” və “Ticarət” 2024 https://www.stat.gov.az/source/industry/, https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.6-dan göründüyü kimi, 2023-cü ildə çay istehsalı 1990-cı ilə nisbətən 28 dəfə azalmışdır. Ölkə əhalisinin çaya olan

tələbatının, ortalama, 93%-i idxal hesabına təmin edilir. Əhalini quru çay məhsulu ilə təmin etmək üçün hər il 15000 ton quru çaya tələbat var. Bu tələbat idxal hesabına təmin edildiyi üçün hər il ortalama 50-52 mln.dollar vəsait sərf edilir, hansı ki, bu tələbatı ödəmək üçün ölkənin potensial imkanları böyükdür. 1990-cı ildə ölkədə 30,7 min ton çay istehsal edilməsi bunu təsdiqləyir və həmin illər ölkədə istehsal edilmiş çay nəinki əhalinin tələbatını ödəmiş, eyni zamanda, böyük həcmdə ixrac edilmişdir.

Azərbaycanda "Azərsun Holdinq" ən böyük çay istehsalçılarından biridir. Onun ilk investisiya layihəsi 1994-cü ildə Bakıda fəaliyyətə başlamış "Sun Tea" çay fabriki olmuşdur. "Sun Tea" hazırda Azərbaycanda satılan məşhur çay markalarının istehsalçısıdır və qara, yaşıl və meyvəli çayların istehsalı ilə məşğuldur. Müəssisə illik ortalama 15000 ton istehsal gücünə malikdir. Şirkətlər qrupunun Lənkəran və Astarada paketləmə müəssisələri də fəaliyyət göstərir. Azərbaycanın ən seçilmiş keyfiyyətli çay yarpaqlarını emal edərək "Azerçay" brendi ilə dünya bazarına təqdim edir [175].

"Astaraçay" MMC 2010-cu ildə təsis edilmişdir. Bu MMC-də quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur [66].

Bunlardan başqa, “Yaşıl çay” MMC, "Gilan" çay fabriki, Astarada "İlyasçay" MMC çay istehsalı ilə məşğuldur.

Ancaq görülən işlər Azərbaycanda çayçılığın əvvəlki şöhrətini bərpa etmək müqabilində çox azdır.

Çay uzun ömürlü bitki olduğuna görə, onun gəlir gətirməsinə də çox vaxt tələb edilir. Çay bitkisi əkildikdən 7-8 il sonra məhsul verir. “*Sahibkarın 8-9 ildən sonra əldə edəcəyi çayı satıb, krediti ödəyəcəyi vədi banklar tərəfindən ciddi qarşılanmır. Ona görə də*

*bu sahənin bərpası üçün dövlətin dəstəyi lazımdır. Çayçılıq uzun müddətli investisiya tələb edən sahədir. Kiçik fermerlərin maliyyə vəziyyəti imkan vermədiyi üçün bu sahəyə investisiya qoya bilmirlər, çünki investisiya qoyub 7-8 il gözləmək mümkün deyil. Bu sahəyə yalnız maliyyə vəziyyti buna imkan verə bilən, iri şirkətlər investisiya qoya bilirlər. Gec məhsul verməsinə baxmayaraq, çay bitkisi 50 il durmadan məhsul verə bilir"* [95, s.50].

Ölkəmizdə şəkər çuğunduru sahəsi əsasən 2006-cı ildə İmişli şəkər zavodu istifadəyə veriləndən sonra inkişaf etməyə başlamışdır. Bu zavodun istifadəyə verilməsi fermerlər üçün yeni bazar imkanlarını təmin etmiş, bu sahəyə maraq artmağa başlamışdır. Məhz həmin ildən də şəkər çuğundurunun əkin sahəsi ilbəil artmağa başlamışdır.




**Şəkil 2.2.3 Şəkərin istehsal, idxal və ixrac dinamikası. min tonla**

Mənbə: DSK. İqtisadi statistika "Ərzaq balansları" 2023 3.19, 3.20. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.3-dən göründüyü kimi, ölkədə şəkər istehsalında qeyri-sabitlik var və istehsal 2019, 2020-ci illər azalmış, 2021-

2022-ci illər artmış, 2023-cü ildə yenidən azalmışdır. Son 13 ildə bu məhsulun istehsalı 13% azalmışdır. İdxal olunan xam şəkərin həcmində də qeyri sabitlik hökm sürür və bu göstəricidə 2019-2020-ci illər azalma müşahidə edilmiş, sonrakı illər yenidən əvvəlki səviyyəyə qalxmış, 2023-cü il yenidən azalmışdır. Xam şəkər idxalında 2023-cü ildə 2010-cu ilə nisbətən 20% azalma qeydə alınmışdır. Qeyd etməliyik ki, şəkər çuğundurunun istehsalı da bu illər ərzində əhəmiyyətli sürətdə azalmışdır.

Paralel olaraq şəkər ixracı da azalmışdır, belə ki, 2023-cü ildə şəkər ixracı 2010-cu ilə nisbətən 5,5 dəfə azalaraq 40,7 min ton olmuşdur.

Bütün bu azalmaların müqabilində adambaşına şəkər istehlakı artmışdır. Bunu aşağıdakı şəkildən görmək olar.




**Şəkil 2.2.4 Adambaşına şəkər istehlakı. kq-la**

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 5.4. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2.2.4-dən göründüyü kimi, şəkər istehlakı son 11 ildə adambaşına 19% artaraq 25,3 kq. olmuşdur. Bu dövr ərzində şəkər ixracının təxminən 5,5 dəfə azalması və istehlakın isə artması onu göstərir ki, şəkər istehsalçısı daxili bazara daha çox üstünlük verir.

İmişli şəkər zavodu şəkər istehsalı ilə məşğul olan yeganə istehsalçıdır və məhsulları "Azərşəkər" markası ilə buraxılır [30].

Hər il İmişli şəkər zavodu, ortalama, 120-130 mln. dollar ödəyərək xaricdən xam şəkər alır, hansı ki, ölkədə zavodun xammal tələbatını təmin etmək üçün imkanlar vardır. Son illərdə şəkər istehsalının azalma səbəblərini təhlil edəndə məlum olur ki, problem İmişli şəkər zavodunun fəaliyyətindədir. Görünür burada həm fermerlərlə və həm də xarici xammal təchizatçıları ilə münasibətlər düzgün qurulmamışdır.

*"Azərbaycanda şəkər çuğunduru istehsalı ən rentabelli aqrar fəaliyyət növlərindəndir.2020-ci ildə Azərbaycanda hər hektardan 51 ton şəkər çuğunduru yığılmışdır. Zavod həmin məhsulun hər tonunu 60-70 manata təhvil alır ki, bu da hər hektardan 3500 manatdan çox gəlir deməkdir. Bu göstərici pambıqdan təxminən 3 dəfə, taxıldan isə 6-7 dəfə yüksək mənfəət deməkdir. Üstəlik, hazır məhsulu satmaqda problem olmamalıdır, emalçı zavod İmişli rayonunda yerləşir və heç bir maneə yaratmadan hazır məhsulu satın ala bilər"* [92, s.24].

Un üyütmə-yarma müəssisələri taxıl məhsullarının emalını həyata keçirir. Çörəkbişirmə və makaron istehsalı sahələri isə ilkin emaldan keçirilmiş yarımfabrikatları son məhsula çevirir. Taxıl, un, çörək strateji məhsullar sayılır və əhalinin qida rasionunun əsasını təşkil edir.

**Cədvəl 2.2.7 Un, çörək və makaron istehsalının əsas göstəriciləri. min tonla**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Buğda unu | 1157 | 1374,0 | 1320,2 | 1507,4 | 1855,3 | 1498,2 | 1365,1 | 1328,1 |
| Buğda unu idxalı | 22,9 | 3,8 | 8,3 | 5,8 | 2,9 | 3,5 | 27,7 | 71,9 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Un ixracı | x | x | 6,3 | 3,0 | 7,0 | 5,9 | 9,3 | 12,1 |
| Makaron istehsalı | 0,4 | 3,5 | 13,0 | 9,2 | 11,3 | 20,0 | 26,3 | 25,8 |
| Makaron idxalı | 14,9 | 7,4 | 4,1 | 9,1 | 17,3 | 16,0 | 16,9 | 15,0 |
| Makaron ixracı | x | x | x | 0,9 | 1,8 | 1,2 | 2,3 | 5,6 |
| Çörək və çörək bulka məmulatı | 675,5 | 985,5 | 1162,0 | 1197,6 | 1294,6 | 1278,1 | 1245,9 | 1195,8 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2016, 2021, 2024 https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.7-dən göründüyü kimi, buğda unu istehsalı mütəmadi olaraq artmış, paralel olaraq ölkəyə un idxalı da artmışdır. Buğda unu istehsalı 2023-cü ildə 2010-cu ilə nisbətən, yəni son 13 ildə 15% artmışdır.

Makaron istehsalı son 13 ildə 65 dəfə artmışdır. Paralel olaraq ixracın da artımı müşahidə olunur. 2023-cü ildə isə əvvəlki ilə nisbətən azalma hiss olunur.

Azərbaycanda makaron istehsalı ilə məşğul olan 10-a yaxın şirkət vardır. Onlar da istehsalda nədənsə yerli xammala yox, idxal xammalına üstünlük verirlər. Makaron istehsalı üçün lazım olan bərk buğda, əsasən, Qazaxıstandan gətirilir.

Çörək və çörək məmulatlarının istehsalı 2023-cü ildə 2000-ci ilə nisbətən 77% artmışdır. Bu məhsul 2023-cü ildə əvvəlki ilə nisbətən 50 min ton azalmışdır.

Makaron istehsalının 65%-ə qədəri idxal olunur, başqa sözlə ümumi istehlakın 40%-i idxal hesabına ödənilir.




**Şəkil 2.2.5 Adambaşına un və un məmulatlarının istehlakı kq-la**

Mənbə: DSK. İqtisadi statistika "Ərzaq balansları" 2024 5.4. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Şəkil 2.2.5-dən məlum olur ki, son 11 ildə makaron məmulatları üzrə adambaşına istehlak artmış, un və təzə çörək məhsulları üzrə isə azalmışdır. Belə ki, 2023-cü ildə 2012-ci ilə nisbətən adambaşına un istehlakı 8%, təzə çörək istehlakı 7% azalmış, makaron və makaron məmulatının istehlakı isə 2.1 dəfə artmışdır. Təzə çörək və un məhsulunun adambaşına istehlakında azalma 2020-ci ildən müşahidə olunmağa başlanmışdır, belə ki, adambaşına un istehlakı 2023-cü ildə 2020-ci ilə nisbətən 17%, təzə çörək istehlakı isə 7% azalmışdır.

İstehsal edilmiş buğda unu əsasən idxal buğdası hesabına istehsal edilmişdir. Son beş ildə idxal olunan ərzaq buğdasından asılılıq, ortalama 85% civarındadır.

DSK-nin məlumatına əsasən 1996-cı ildə ölkəyə 143 min ton ərzaq buğdası idxal olunmuşdur, ancaq 24 il sonra, yəni 2020-ci ildə bu rəqəm təxminən 10 dəfə artaraq 1365 min ton, 2022-ci ildə isə 1293 min ton olmuşdur. Nəzərə alsaq ki, buğda istehsalı da

dəfələrlə artmışdır, onda buğda istehsalı statistikasına şübhə ilə yanaşmaq olar.

Çörəkbişirmə sənayesində əsasən yüksək şüşəvariliyə, kifayət qədər zülali maddələrə və keyfiyyətli kleykovinaya (yapışqanlıq) malik olan yumşaq buğda sortlarından istifadə edilir. Hal-hazırda Azərbaycanda yalnız bir neçə rayonda yetişdirilən taxılın yüksək keyfiyyəti var. Cəlilabad, Bərdə və Şəkidə istehsal olunan taxılın əksəriyyətinin yapışqanlılıq qabiliyyəti (kleykovina) normal səviyyədədir. Digər bölgələrdə istehsal olunan taxılın əksəriyyəti çörəkçilik üçün yaramır. Belə ki, bu taxıldan hazırlanan çörək məhsullarında bir-iki gündən sonra kif göbələyi yaranır. Həmin məhsul makaron sənayesində istifadə üçün də yaramır. Ona görə də Dövlət Taxıl Fondu ancaq saxlanma qabiliyyətinə malik olan taxılları qəbul edir.

*"Ümumilikdə aparılan araşdırmalar onu deməyə əsas verir ki, hazırda yerli taxıldan hazırlanan una tələbat olduqca aşağı səviyyədədir, çünki yerli taxıldan hazırlanan undan istifadə zamanı sahibkarlar bir sıra problemlərlə üzləşirlər. Nəticədə istehlakçıların yerli undan hazırlanan çörəyə tələbatı azalır. Ona görə də çörəkbişirmə sexləri olan sahibkarlar əsasən xarici markalı undan istifadəyə üstünlük verirlər"* [98,s.102].

Ölkədə fəaliyyət göstərən "Gəncə Taxıl Elevatoru", "Səngəçal Taxıl Elevatoru", "Abşeron Taxıl" MMC, "Dəvəçi-Dəyirman MMC", "Karat-Holdinq" Xırdalan, "Karat-Holdinq" MMC-nin Şəki bölməsi, "Karmen" MMC, "Gəncə-Dəyirman" MMC, "N.Quliyev adına Bakı-Taxıl" ASC, "Muğan" ASC, "Aveta" MMC, "Xaçmaz-Taxıl" MMC, "Xırman" MMC, "SAF Ekspress Aqro" MMC müasir keyfiyyətlərə cavab verən un istehsalı ilə məşğuldurlar. Bu dəyirmanların məhsulları birbaşa

çörək və çörək məhsullarının istehsalı ilə məşğul olan müəssisələrə daşınır [98, s.98].

Azərbaycanda şirniyyat biznesi kiçik və orta sahibkarlığın geniş yayıldığı sektorlardan biridir. Rəsmi informasiyalar təsdiq edir ki, şirniyyat məmulatlarının coğrafiyası geniş deyil və əsasən ölkənin iri şəhərlərində təmərküzləşib. Ona görə ki, bu məmulatları istehsal edən müəssisələrin əsasən istehlakçıların sıx yaşadığı şəhərlərdə qurulması daha səmərəlidir. Bu baxımdan ölkənin qənnadı fabrikləri əsasən Bakı, Gəncə və Sumqayıt şəhərlərində fəaliyyət göstərir. Bu məhsulların bəzi göstəricilərinə diqqət yetirək.




**Qrafik 2.2.1 Qənnadı məmulatlarının istehsalı və idxalı. min t.**

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 3.7. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Qrafik 2.2.1-in təhlilindən aydın görünür ki, son 23 illik dövrdə qənnadı sənayesində həm istehsal həcmləri, həm də bazar genişlənməsi baxımından dinamik artım müşahidə olunmaqdadır. Belə ki, 2000–2023-cü illər ərzində qənnadı məhsullarının istehsalında təqribən 3,9 dəfə artım qeydə alınmışdır. Bu artım

tendensiyası ölkədə şirniyyat istehsalına yönəlmiş investisiya mühitinin tədricən formalaşması, istehlakçı tələbatının çoxşaxəli xarakter alması və texnoloji modernləşmə prosesləri ilə sıx bağlıdır.

Bununla yanaşı, eyni dövrdə qənnadı məhsullarının idxal həcmlərində də nəzərəçarpacaq dərəcədə artım müşahidə olunur. Belə ki, 2023-cü ildə bu məhsullar üzrə idxal həcmi 2000-ci illə müqayisədə 7,4 dəfə artmışdır. İdxalın bu dərəcədə yüksəlməsi bir tərəfdən istehlakçı seçimlərinin genişlənməsi və rəqabət mühitinin formalaşması ilə əlaqəlidirsə, digər tərəfdən daxili istehsalın hələ də bəzi seqmentlərdə tələbatı tam ödəyə bilməməsi ilə izah oluna bilər.

Bununla belə, qənnadı məhsulları bazarında yerli istehsal məhsulları hələ də üstünlük təşkil edir. Bu üstünlük həm məhsulların dad və keyfiyyət xüsusiyyətlərinə görə əhalinin istehlak vərdişlərinə uyğun olması, həm də milli istehsalçıların logistika və qiymət üstünlükləri ilə əlaqədardır.

Qənnadı sənayesi seqmentində milli istehsalla yanaşı, analoji xarici məhsullar da bazarda müəyyən çəkidə mövcuddur. Bu isə, öz növbəsində, daxili istehsalın rəqabət qabiliyyətini artırmaq üçün hələ də geniş inkişaf ehtiyatlarının mövcud olduğunu göstərir. Yəni idxalın yüksəkliyi təkcə yerli məhsulun əvəzsizliyini deyil, həm də bu sahədə texnoloji və məhsul çeşidliyi baxımından yeni imkanların inkişaf etdirilməsinin zəruriliyini ortaya qoyur.

Xammal və istehsal texnologiyasından asılı olaraq qənnadı məmulatlarını 2 əsas qrupa, şəkərli qənnadı məmulatları və unlu qənnadı məmulatlarına bölmək olar. Bu sahədə mövcud mənzərənin aydınlaşması üçün ayrı-ayrı qruplar üzrə baxmalıyıq.

Əvvəlki illərin təhlili əsasında müəyyən etmək mümkündür ki, suxarı, peçenye və uzun müddət saxlanıla bilən qənnadı məmulatları üzrə istehsal göstəricilərində ciddi artım dinamikası müşahidə edilir. Belə ki, 2010–2023-cü illər ərzində bu məhsul

növü üzrə istehsal həcmi 5 dəfə artmışdır. Bu artım ölkə daxilində müvafiq sənaye müəssisələrinin fəaliyyətində baş verən modernləşmənin, bazar tələblərinə uyğun məhsul çeşidlərinin genişlənməsinin və istehlak strukturundakı dəyişikliklərin nəticəsidir. Lakin bu müsbət tendensiyaya baxmayaraq, daxili bazarda idxaldan asılılıq hələ də kifayət qədər yüksək olaraq qalır. Belə ki, 2023-cü ildə əhalinin bu məhsul qrupuna olan ümumi tələbatının 77%-i məhz idxal məhsulları ilə ödənilmişdir. Bu fakt onu göstərir ki, yerli istehsal potensialı hələ tam şəkildə reallaşdırılmayıb və bu istiqamətdə istehsal həcmlərinin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi və istehsal səmərəliliyinin artırılması zərurəti qalmaqdadır. Qeyd edilən məhsul qrupunda ixracın həcmi də artmış, 13 il ərzində 2,7 dəfə yüksəlmişdir. Lakin bu göstərici ümumi istehsal və tələbat kontekstində hələlik simvolik xarakter daşıyır və ixrac bazarlarında daha fəal iştirak üçün əlavə stimullaşdırıcı mexanizmlərə ehtiyac duyulur (bax Əlavə 6).

Tortlar, şirniyyat məmulatları və şirinləşdirici maddələr əlavə edilmiş çörək-bulka məmulatları üzrə istehsal göstəriciləri də son illərdə müsbət dinamikaya malikdir. 2010–2023-cü illər ərzində bu məhsul qrupu üzrə istehsal həcmi 64% artmışdır. Bu artım daxili bazarda məhsula olan tələbatın yüksəlməsi, sənaye müəssisələrinin istehsal güclərinin genişlənməsi və məhsul çeşidlərinin zənginləşməsi ilə izah edilə bilər. İdxalın dinamikası isə qeyri-sabit olsa da, ümumilikdə artım meylindədir və 2023-cü ildə ümumi istehlakın təxminən 26%-ni təşkil etmişdir. Əhalinin bu məhsul qrupuna olan tələbatı son 13 ildə 50%-ə yaxın artmışdır ki, bu da həm əhalinin alıcılıq qabiliyyətində, həm də qida rasionunda dəyişikliklərin baş verməsi ilə izah oluna bilər. Qeyd etmək lazımdır ki, ixrac həcmləri də 2023-cü ildə nəzərəçarpacaq şəkildə

artmış və əvvəlki illərə nisbətən 3,8 dəfə yüksəlmişdir. Bu artım tendensiyası göstərir ki, daxili istehsal yalnız yerli tələbatı deyil, müəyyən dərəcədə xarici bazarları da hədəfləmək potensialına malikdir. Lakin ixracın davamlı və dayanıqlı artımı üçün istehsal prosesinin texnoloji əsaslarının möhkəmləndirilməsi və keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması vacibdir (bax Əlavə 7).

Kakao, şokolad və şəkərli-unlu qənnadı məmulatları qrupunda isə istehsal göstəricilərində 2010–2023-cü illər ərzində 2,3 dəfə artım qeydə alınmışdır. Bu artım qismən müsbət dinamika kimi qiymətləndirilə bilər. Lakin paralel olaraq idxal məhsullarında da çox yüksək artım müşahidə edilir. Belə ki, son 13 ildə bu məhsul qrupunda idxal həcmi 82% artmış və 2023-cü ildə ümumi istehlakın təxminən 83%-ni təşkil etmişdir. Bu fakt göstərir ki, ölkə daxili bazarda bu məhsullara olan tələbatın çox böyük bir hissəsi hələ də xarici mənbələr hesabına ödənilir. İdxaldan bu səviyyədə asılılıq milli ərzaq təhlükəsizliyi və istehsal səmərəliliyi baxımından narahatlıq doğurur. Belə olan halda, daxili bazarın tələblərinə uyğun olaraq istehsal güclərinin artırılması və yerli məhsulların keyfiyyətinin yüksəldilməsi aktuallaşır. İxrac göstəriciləri isə nisbətən zəif artım meyli göstərir; 2010–2023-cü illər ərzində cəmi 2 dəfə artaraq 3,5 min ton səviyyəsinə çatmışdır. Bu isə o deməkdir ki, bu məhsul qrupunda ölkənin ixrac potensialı demək olar ki, hələ tam reallaşmayıb və böyük ölçüdə daxili istehlak yönümlü fəaliyyət aparılır. İdxaldan yüksək asılılıq və ixracın zəifliyi bu sahənin modernizasiyasını və texnologiya əsaslı istehsal modelinə keçidi zəruri edir (bax: Əlavə 8).

*"Hər üç kateqoriya məhsullarını təhlil edəndə məlum olur ki, istehsalın artımında müsbət dinamika olmasına baxmayaraq, əhalinin tələbatı əsasən idxal hesabına ödənilir. Tələbatın idxaldan*

*asılılığını azaltmaq üçün dövlət tərəfindən milli istehsalı artırmaq məqsədi ilə müəyyən stimullaşdırıcı tənzimlənmələr aparılmalı, tədbirlər görülməlidir”* [92, s.44].

Azərbaycanda balıqçılıq təsərrüfatı əsasən Xəzər dənizi, Kür və Araz çayları, eləcə də ölkənin süni su hövzələri üzərində formalaşmışdır. Xəzər dənizi, öz hidro-bioloji zənginliyi və xüsusilə nərə cinsli balıq növlərinin təbii yayılma arealı olması baxımından region üçün strateji əhəmiyyətə malik qapalı su hövzəsidir. Bu amil ölkənin balıqçılıq potensialının yüksək olduğunu göstərsə də, mövcud göstəricilər bu potensialın tam reallaşmadığını ortaya qoyur.

**Cədvəl 2.2.8 Balıq və balıq məhsullarının əsas göstəriciləri. min t.**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 202 | 2022 | 2023 | 2023 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|
| Balıq və balıq məhsullarının istehsalı min t. | 45,3 | 51,2 | 61,2 | 59,5 | 59,9 | 62,7 | 38% |
| İdxal min t. | 14,1 | 14,8 | 14,5 | 17,2 | 18,9 | 21,1 | 50% |
| İstehlak edilib min t. | 58,9 | 67,1 | 73,2 | 74,5 | 76,5 | 81,4 | 38% |
| İxrac ton | x | x | 779 | 669 | 716 | 651 | x |
| Balıq və balıq məhsullarının adambaşına istehlakı kq. | 5,7 | 7,0 | 7,3 | 7,4 | 7,5 | 8,0 | 40% |

Mənbə: DSK İqtisadi statistika “Ərzaq balansları” 2024 2.8. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.8-in məlumatlarına əsasən, 2010–2023-cü illər ərzində balıq və balıq məhsullarının istehsalında ümumilikdə 38%-lik artım qeydə alınmışdır. Bu dövrdə idxal həcmi isə 50% artaraq tələbatın əhəmiyyətli bir hissəsini qarşılamağa başlamışdır. Əhalinin faktiki istehlakında da artım müşahidə olunur — 2023-cü ildə əvvəlki illə müqayisədə bu göstərici 81,4 min ton səviyyəsində olmuş və 2010-cu ilə nisbətdə 38% artmışdır. Adambaşına düşən istehlak isə 8 kq səviyyəsinə çatmışdır ki, bu da 2010-cu ilin göstəricisindən 40% çoxdur. Bununla belə, Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi illik 21 kq-lıq istehlak norması ilə müqayisədə, Azərbaycanın göstəricisi 2,6 dəfə aşağıdır. Bu fakt, ölkədə balıq və dəniz məhsullarına olan real tələbatın yetərincə ödənilmədiyini təsdiq edir.

Məsələ yalnız istehsal və idxalın miqdar göstəricilərilə məhdudlaşmır. Əsas problem qiymət və əlçatanlıq məsələsində cəmlənir. Hazırda daxili bazarda balıq məhsullarının qiymətləri əhalinin orta gəlir səviyyəsinə uyğun gəlmir. Bu səbəbdən də balıq məhsulları geniş istehlak kütlələri üçün lüks ərzaq kateqoriyasına daxildir və sağlam qidalanma prinsiplərinə uyğun qida rasionunun formalaşdırılmasında müəyyən boşluqlar yaradır.

Mövcud tədqiqat və beynəlxalq müşahidələr balıq məhsullarının insan sağlamlığı üçün əvəzsiz olduğunu göstərir. Belə ki, dəniz məhsulları ilə zəngin qidalanan şəxslərin, bu məhsulları nadir hallarda istehlak edənlərə nisbətən 5–10 il daha uzun ömür sürdüyü qeyd olunur. Bu fakt əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılması baxımından balıqçılıq məhsullarının əhəmiyyətini bir daha önə çıxarır.

Azərbaycanın balıqçılıq potensialını qiymətləndirərkən təbii su resurslarının genişliyi də nəzərə alınmalıdır. Xəzər dənizi ilə 850 kilometrdən artıq sahil xətti, ölkə ərazisindən axan iri çaylar (Kür,

Araz), eləcə də Mingəçevir, Şəmkir, Sarıgöl kimi süni su anbarları balıqçılığın inkişafı üçün əlverişli təbii şərait formalaşdırır. Lakin təəssüf doğuran haldır ki, son illərdə balıq ehtiyatlarının bərpası məqsədilə həyata keçirilən bioloji reabilitasiya tədbirləri, xüsusilə körpə balıqların yetişdirilib təbii su hövzələrinə buraxılması prosesi ciddi şəkildə zəifləyib.




**Şəkil 2.2.6 Vətəgə əhəmiyyətli balıq körpələrinin təbii su hövzələrinə və anbarlarına buraxılması. mln. ədədlə**

Mənbə: DSK "Azərbaycanın kənd təsərrüfatı" 2024 s.116 https://www.stat.gov.az/source/agriculture/ əsasında müəllif tərtibatı

Şəkil 2.2.6-da bu azalma aydın şəkildə əks olunmuşdur — 2023-cü ildə körpə balıqların buraxılması 2015-ci illə müqayisədə 44 dəfə, 2000-ci illə müqayisədə isə 60 dəfə azalmışdır. Bu faktın uzunmüddətli nəticələri ölkənin balıq təminatında mənfi təsirini göstərəcəkdir.

Qeyd edilməlidir ki, Azərbaycanda fəaliyyət göstərən iri balıqçılıq və emal müəssisələri mövcuddur. "Caspian Fish Co. Azerbaijan" şirkəti bu sahədə ən böyük istehsalçı və ixracatçıdır. Bununla yanaşı, Banka, Mingəçevir, Hacıqabul, Xıllı balıq zavodları, Lənkəran və Xudat balıq kombinatları, Hövsan və

H.Z.Tağıyev qəsəbəsindəki müəssisələr balıqçılıq sənayesinin strukturunu təşkil edir. Eyni zamanda Neftçala rayonu ərazisində də Kür çayının mənsəbində yerləşən balıqçılıq müəssisələri xüsusi yer tutur.

Azərbaycanın balıqçılıq sektoru həm təbii resurslar, həm də infrastruktur baxımından kifayət qədər potensiala malik olsa da, bu imkanların tam səfərbər edilməsi üçün vahid strateji yanaşma, dövlət dəstəyi və ekosistem yönümlü idarəetmə mexanizmlərinin tətbiqinə ehtiyac vardır.

Azərbaycanın kənd təsərrüfatı strukturu daxilində meyvə və tərəvəzçilik sahəsi yüksək ixtisaslaşma səviyyəsinə və ixrac yönümlü potensiala malik sektorlardan biri kimi çıxış edir. Xüsusilə Quba-Xaçmaz iqtisadi zonası bu sahədə ölkənin əsas istehsal mərkəzinə çevrilmişdir və respublikada istehsal olunan meyvələrin üçdə ikisi məhz bu regionun payına düşür [92, s.35]. Lakin yalnız təzə meyvə və tərəvəz istehsalı ilə məhdudlaşmaq düzgün olmazdı. Bu sahənin davamlı və yüksək əlavə dəyər yaradan istiqaməti emal sənayesidir ki, burada həm konservləşdirmə, həm də meyvə şirəsi istehsalı aparıcı rol oynayır.

Rəsmi statistik məlumatlara əsasən demək olar ki, meyvə-tərəvəz konservləri və şirələri üzrə istehsal və ixrac dinamikasında son onilliklər ərzində əhəmiyyətli müsbət dəyişikliklər baş vermişdir. Belə ki, 2000–2023-cü illər ərzində meyvə-tərəvəz konservlərinin ixracı 3,6 dəfə, meyvə və tərəvəz şirələrinin ixracı isə 8,5 dəfə artmışdır. Eyni dövrdə konserv məhsullarının idxalı 14,6 dəfə, şirələrin idxalı isə 1,8 dəfə yüksəlmişdir. Bu göstəricilər həm daxili tələbatın artdığını, həm də sənaye istehsalının genişləndiyini nümayiş etdirir (bax əlavə 9).

Şirə və konserv məhsullarının adambaşına istehlak səviyyəsi də nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Bu artım, xüsusilə şirə

istehlakında özünü daha aydın göstərir — son 11 ildə bu göstərici 39% artaraq, əhalinin qida rasionunda meyvə mənşəli məhsulların çəkisinin yüksəldiyini göstərir. Konserv istehlakında isə eyni dövrdə 10%-lik artım qeydə alınmışdır (bax əlavə 10). Bu proses, həm də əhalinin istehlak mədəniyyətində baş verən keyfiyyət dəyişiklikləri ilə izah edilə bilər.

Onu da qeyd etməliyik ki, ölkədə istehsal edilən meyvənin təxminən 65%-i üç meyvənin – alma, xurma və narın payına düşüb. Digər meyvələr isə meyvə şirəsi, mürəbbə, kompot və meyvə qurusu istehsalında daha çox istifadə edilir ki, bunlara ərik, şaftalı, heyva, gilas, armud, albalı, gavalı, alça və sairəni göstərmək olar. Bu meyvələr birlikdə ölkə əhalisinin rasionunda hər bir insana cəmi 14 kq. təşkil edir ki, bu da çox azdır. Az olduğu üçün də sənaye sektoru meyvə şirəsi və nektarı üçün püre və konsentrantının müəyyən hissəsini xaricdən idxal etməyə məcbur qalır.

Ölkədə fəaliyyət göstərən iri istehsal müəssisələri bu sahənin strukturlaşdırılmasında və inkişafında əsas rol oynayır. “Azərsun Holdinq”in tərkibində fəaliyyət göstərən “Qafqaz” konserv zavodu, “Gilan Holdinq”ə məxsus Qəbələ konserv zavodu kimi istehsalat sahələri geniş çeşiddə məhsullar təqdim etməklə yanaşı, həm də bir sıra xarici ölkələrə ixrac imkanlarını reallaşdırır. Xüsusilə “Jalə”, “Bağdan”, “Zolotoy sad”, “Aycan” kimi brendlər ölkə daxilində tanınmaqla yanaşı, xarici bazarlarda da Azərbaycan mənşəli məhsulların nüfuzunu artırır.

Bundan əlavə, regionlarda – Xaçmaz, Quba, Qusar, Ordubad, Qax, Lənkəran, Göyçay kimi meyvəçilik ənənələri olan ərazilərdə də müasir konserv və şirə istehsalı müəssisələrinin mövcudluğu regional iqtisadi inkişafın təşviqində və kənd təsərrüfatı məhsullarının dəyər zəncirinin tamamlanmasında mühüm yer tutur.

Ümumilikdə, meyvə və tərəvəz məhsullarının emalı sahəsində formalaşmış bu müsbət dinamikanın daha da sürətlənməsi üçün, xammal bazasının genişləndirilməsi, yerli meyvə növlərinin müxtəlifləşdirilməsi, eləcə də emal prosesində innovativ texnologiyaların tətbiqi vacib vəzifə kimi qarşıda durur.

Azərbaycanda duz istehsalı 2010-cu ildə "Azərsun" holdinq tərəfindən Abşeron rayonunun ərazisində duz zavodu açılandan sonra artmağa başlamışdır. Bu inkişafı statistik məlumatlardan da görmək mümkündür.

**Cədvəl 2.2.9 Duz istehsalı, idxalı, ixracı. min tonla**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2005 nisbət |
|---|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4,2 | 8,5 | 36,5 | 74,3 | 69,5 | 75,5 | 71,3 | 17 dəfə |
| İdxal | 17,8 | 25,9 | 13,6 | 16,0 | 15,2 | 11,9 | 9,6 | -46% |
| İxrac | x | x | 2,7 | 23,6 | 18,3 | 23,0 | 10,8 | + |

Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2024 s.84 https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 2.2.9-dan göründüyü kimi, duz istehsalı son 18 ildə 17 dəfə artaraq 71,3 min tona çatmışdır. İstehsal ilə paralel olaraq bu məhsulun ixracı da əhəmiyyətli sürətdə artmışdır. Yodlaşdırılmış duz istehsalının həcmi ümumi duz istehsalı həcmi ilə təxminən eynidir və eyni dinamika ilə artmışdır.

Nəticə etibarilə, bu inkişaf əhalinin duz məhsulları ilə özünütəminetmə səviyyəsinin tam təmin olunmasına gətirib çıxarmışdır.

Qeyd edək ki, hal-hazırda duz istehsalı ilə Masazır duz rafinasiya zavodu ("Azərsun" holdinq), "Naxçıvan duz istehsalı" MMC və fiziki şəxs (Tehran Rəşidov) məşğul olurlar.

Bitki yağları əhalinin gündəlik qidalanmasında mühüm yer tutmaqla yanaşı, həm də ərzaq təhlükəsizliyi baxımından strateji məhsullar sırasına daxildir. Müasir dövrdə bir çox ölkələrdə, o cümlədən, Azərbaycanda bitki mənşəli yağların istifadəsi heyvan mənşəli yağlara nisbətən daha çox yayılmışdır. Bu tendensiyanın əsas səbəbləri sırasında həm iqtisadi səmərəlilik, həm də sağlam qidalanma prinsipləri dayanır. Avropa ölkələri və Türkiyədə bitki yağlarının kərə yağı ilə müqayisədə daha geniş yayılması da məhz bu faktorlarla izah olunur. Tədqiqatlar göstərir ki, bu məhsullar həm sağlamlıq, həm də ekoloji cəhətdən daha üstün hesab edilir.

Azərbaycanda bitki yağlarının istehsalı üzrə göstəricilər uzunmüddətli perspektivdə artım tendensiyası göstərsə də, bu artım əsasən 2000–2015-ci illər dövründə baş vermişdir. Belə ki, istehsal həcmi 2000-ci ildəki 11,2 min tondan 2015-ci ildə 106,7 min tona qədər yüksəlmiş, lakin daha sonrakı dövrdə azalma tendensiyası müşahidə olunmuşdur. 2023-cü ildə istehsal həcmi 56,4 min ton təşkil etmiş, bu da 2015-ci illə müqayisədə 1,9 dəfə azalma deməkdir. Paralel olaraq, idxalın həcmi 2000-ci ildən 2023-cü ilə qədər 8,2 dəfə artaraq 121,2 min tona çatmışdır. Eyni zamanda ixrac göstəricisi də 5,3 min tondan 9,3 min tona qədər artsa da, son iki ildə ixracda 40%-lik azalma müşahidə edilmişdir. Ümumilikdə bu sektorda idxaldan asılılıq 65% səviyyəsində qalır ki, bu da ciddi iqtisadi və strateji çağırışlar doğurur (bax əlavə 11).

Əhalinin adambaşına istehlak göstəricilərinə nəzər yetirdikdə də bəzi narahatedici meyllər ortaya çıxır. Belə ki, 2023-cü ildə adambaşına istehlak göstəricisi əvvəlki dövrlərlə müqayisədə xeyli azalmışdır. Müvafiq olaraq, 2019-cu ildə ölkə vətəndaşları

adambaşına 16,1 kq bitki yağı istehlak etdiyi halda, bu göstərici 2023-cü ildə iki dəfə azalma ilə müşahidə olunur. Bu cür azalma həm ümumi istehlak həcmlərinin azalması, həm də əhalinin alıcılıq qabiliyyətinin zəifləməsi ilə bağlıdır. Nəticədə, marqarin kimi daha ucuz alternativ məhsulların adambaşına istehlakı son 4 ildə 2 dəfə artmışdır. Bu vəziyyət bir tərəfdən istehlak strukturunda dəyişiklikləri, digər tərəfdən isə sağlam qidalanma standartlarından uzaqlaşmanı əks etdirir. (bax əlavə 12)

Ümumilikdə, ölkədə bu məhsul üzrə idxaldan asılılığı azaltmaq üçün həm aqrotexniki, həm də institusional imkanlar mövcuddur. Xüsusilə də işğaldan azad edilmiş ərazilərin əkin dövriyyəsinə cəlb edilməsi, yağlı bitkilərin becərilməsi üçün yeni aqroparkların yaradılması və müasir emal texnologiyalarının tətbiqi ilə yerli istehsalın dayanıqlığı və rentabelliyi artırıla bilər. Bu istiqamətdə strateji tədbirlərin görülməsi həm yerli istehsalçıların mövqeyinin möhkəmlənməsinə, həm də ərzaq idxalının həcminin azalmasına səbəb olacaqdır.

Alkoqollu içkilər qida sənayesinin həm tarixi baxımdan, həm də iqtisadi səmərəlilik nöqteyi-nəzərindən diqqətəlayiq istiqamətlərindən biridir. Bu məhsul qrupuna üzüm şərabı, pivə, araq, viski, konyak, şampan və texniki spirt kimi altqruplar daxildir. Onların istehsal və ixrac potensialı bir çox hallarda kənd təsərrüfatı və aqroemal sənayesi ilə sıx bağlı şəkildə inkişaf edir. Xüsusilə şərabçılıq sektoru Azərbaycanda ənənəvi və yüksək rentabelli sahə kimi seçilir. Müasir dövrdə bu sahədə bir sıra müsbət dinamika ilə yanaşı, eyni zamanda istehsalın zəiflədiyi və ya tamamilə tənəzzülə uğradığı altsektorlar da mövcuddur (bax əlavə 13).

Statistik dinamika göstərir ki, üzüm şərabının istehsalı 2000-ci illə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Müsbət tendensiya həm istehsal, həm də ixrac göstəricilərində özünü

büruzə verir. Bununla yanaşı, bu məhsul üzrə idxalın da artması, yerli istehsalın hələ tam tələbatı qarşılamadığını göstərir. Araq sektoru da diqqətəlayiq artım tempi ilə seçilir. Son 23 il ərzində araq istehsalı 3,2 dəfə artmış, lakin 2023-cü ildə əvvəlki illə müqayisədə 11% azalmışdır ki, bu da sektorda qeyri-sabitliyin göstəricisidir.

Pivə istehsalı son dövrdə xüsusilə sürətli artım nümayiş etdirmişdir. 2023-cü ildə bu məhsul üzrə istehsal səviyyəsi 2000-ci illə müqayisədə 7,4 dəfə çox olmuşdur. Eyni zamanda, pivə idxalı azalmış və bu məhsul üzrə daxili istehsalın bazar tələbatını əhəmiyyətli dərəcədə qarşıladığı müşahidə olunmuşdur. Bu isə daxili istehsalın güclənməsi və idxaldan asılılığın azalması baxımından mühüm irəliləyişdir.

Digər tərəfdən, viski və konyak istehsalı son illərdə dirçəlməyə başlasa da, uzunmüddətli müqayisədə əvvəlki dövrlərin göstəricilərinə hələ çatmamışdır. 2023-cü ildə viski və konyak istehsalı 2015-ci ilə nisbətən 87 dəfə artsa da, bu göstərici 2000-ci illə müqayisədə 14% aşağıdır. Bu fərq göstərir ki, bu altsektorun tam bərpası üçün əlavə iqtisadi və institusional stimullar zəruridir.

Ən problematik istiqamət isə şampan şərabının istehsalı sahəsində müşahidə olunur. Statistik məlumatlara əsasən, 2023-cü ildə cəmi 400 dekalitr şampan istehsal olunmuşdur ki, bu da 2005-ci ildəki istehsalla müqayisədə təxminən 155 dəfə azalma deməkdir. Belə ciddi tənəzzül texnoloji baza, bazar tələbatı və istehsalın iqtisadi cəhətdən rentabelli olmaması ilə izah edilə bilər. (bax əlavə 13)

Məhsulun daxili istehlak strukturunu təhlil etmək üçün adambaşına düşən istehlak səviyyəsi vacib göstəricidir. Rəsmi statistik hesabatlarda alkoqollu içkilərin adambaşına istehlakı ilə bağlı ayrıntılı məlumatlar yer almadığı üçün, alternativ metodla,

yəni istehsal və idxal göstəricilərinin əhali sayına bölünməsi ilə hesablamalar aparılmışdır. Bu üsulla aparılan hesablamalar göstərir ki, 2023-cü ildə adambaşına üzüm şərabı istehlakı 2005-ci ilə nisbətən 1,9 dəfə, araq istehlakı 1,5 dəfə, pivə istehlakı isə 84% artmışdır (bax əlavə 14).

Bununla belə, qeyd olunmalıdır ki, 1990-cı illərlə müqayisədə alkoqollu içkilər istehsalında nəzərəçarpacaq geriləmə var. Məsələn, 1990-cı ildə üzüm şərabı istehsalı 6 milyon dekalitrə çatdığı halda, bu göstərici 2023-cü ildə beş dəfə aşağı olmuşdur. Konyak və şampan şərabının istehsalında da eyni tendensiya mövcuddur. Halbuki həmin dövrdə alkoqollu içkilərin ixrac potensialı yüksək idi və böyük həcmdə valyuta gəliri əldə edilirdi.

Hazırda üzümçülük sahəsində istehsal olunan məhsulun yalnız 44%-i emala yönəldilir. Qalan hissə birbaşa əhali istehlakına sərf olunur. Bu isə istehsalın sənayeləşdirilməsi səviyyəsinin hələ də istənilən miqyasda olmadığını göstərir. Digər tərəfdən, daxili istehsalın potensialı olmasına baxmayaraq, hər il orta hesabla 24 min ton süfrə üzümünün idxal edilməsi bu sahədə institusional boşluqları da ortaya qoyur.

Tarixi göstəricilər onu deməyə əsas verir ki, əgər alkoqollu içkilər sektorunda əvvəlki dövrlərdə əldə edilmiş istehsal gücü qorunub saxlanılsaydı, hazırda bu sahə ölkə üçün yüksək gəlir mənbəyinə çevrilə bilərdi. Bunun üçün istehsal zəncirinin müasirləşdirilməsi, bazarların diversifikasiyası və beynəlxalq brend formalaşdırılması zəruridir.

Alkoqolsuz içkilər sektoru qida və içki sənayesinin sürətlə inkişaf edən və geniş istehlak bazasına sahib sahələrindən biridir. Bu kateqoriyaya limonadlar, şərbətlər, müxtəlif qazlı və qazsız sular, həmçinin müalicəvi əhəmiyyət daşıyan mineral sular daxildir. Müasir dövrdə bu məhsul qrupuna olan tələbat həm urbanizasiya,

həm də sağlam həyat tərzinə marağın artması nəticəsində davamlı olaraq genişlənməkdədir.

İstehsal dinamikasına dair statistik göstəricilər alkoqolsuz içkilərin ümumi istehsalında və xüsusilə də mineral və qazlı suların istehsalında son illərdə ardıcıl artım meylinin müşahidə olunduğunu göstərir (bax əlavə 15). Bununla yanaşı, bu artım prosesi fasiləsiz deyil. 2022-ci ildə mineral və qazlı suların istehsalında əvvəlki illə müqayisədə ciddi, yəni təxminən 2,4 dəfəlik azalma qeydə alınmış, lakin 2023-cü ildə yenidən artım tendensiyası müşahidə edilmişdir. Bu enişin səbəbləri sırasında pandemiya sonrası logistika pozuntuları, istehsal müəssisələrinin xammal və enerji resurslarına çıxışındakı çətinliklər, həmçinin daxili bazarda tələbatın müvəqqəti azalması kimi faktorlar ola bilər.

Xüsusilə mineral sular seqmenti sağlamlıq baxımından böyük əhəmiyyətə malikdir və yerli bazarda özünəməxsus yer tutur. Bu sahədə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Badamlı" və "Sirab" kimi müəssisələr xüsusi yer tutur. Hər iki müəssisənin uzunmüddətli fəaliyyət tarixi və brend dəyəri bu məhsulların istehlakçılar tərəfindən yüksək etibar görməsinə səbəb olmuşdur. “Badamlı” zavodu 1949-cu ildə, “Sirab” isə 1976-cı ildə fəaliyyətə başlamışdır və bu gün də öz fəaliyyətlərini davam etdirirlər. Onların bazar payı təkcə regional deyil, həm də milli səviyyədə möhkəmlənmişdir.

Ölkənin digər regionlarında da kiçik miqyaslı sudoldurma müəssisələri fəaliyyət göstərməkdədir. Bu müəssisələrin çoxu yerli ehtiyacları qarşılayır, bəziləri isə xüsusi çeşid və fərqli dad xüsusiyyətlərinə görə regional səviyyədə rəqabət aparmaq iqtidarındadır.

Xüsusi qeyd olunmalı hadisələrdən biri isə, işğaldan azad olunmuş ərazilərdə, xüsusilə, Kəlbəcərdə yerləşən “İstisu” mineral

su mənbəyinin yenidən istehsala cəlb olunmasıdır. "İstisu" təkcə mineral tərkibi ilə deyil, həm də tarixi və mədəni dəyəri baxımından ölkə əhalisi arasında tanınmış və sevilən bir brend olmuşdur. Onun bazara yenidən daxil olması həm istehlak baxımından, həm də simvolik əhəmiyyət baxımından milli iqtisadiyyat üçün əlamətdar hadisə hesab oluna bilər.

Nəticə etibarilə, alkoqolsuz içkilər sənayesinin inkişafı bir tərəfdən əhalinin istehlak zövqlərinin dəyişməsi, digər tərəfdən isə sağlamlıq yönümlü məhsullara olan tələbatla formalaşır. Bu sahənin gələcəkdə daha da inkişaf etdirilməsi üçün yerli brendlərin dəstəklənməsi, ixrac potensialının artırılması və istehsalda texnoloji modernləşmənin həyata keçirilməsi zəruridir.

Pambıqçılıq Azərbaycanın aqrar sektorunda strateji əhəmiyyətə malik olan, yüksək əməktutumluğu ilə seçilən və ixrac potensialı sayəsində ölkəyə valyuta gətirən aparıcı sahələrdən biridir. Bu sahə xüsusilə kənd ərazilərində məşğulluğun təmin olunması, xam maddənin emalı və ixracı baxımından böyük iqtisadi rol oynayır. Torpaq resurslarının mövcud vəziyyəti, təbii iqlim şəraiti, su təminatı, əmək ehtiyatları və aqroservis xidmətlərinin səviyyəsi bir sıra regionlarda pambıqçılığın genişlənməsinə imkan verir. Azərbaycanın əsas pambıqçılıq bölgələrində bu resurs üstünlükləri sahənin inkişafı üçün əlverişli şərait formalaşdırır.

**Cədvəl 2.2.10 Pambıq emalı məhsullarının əsas göstəriciləri**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Pambıq (lif) mahlıcının istehsalı min t. | 37,7 | 56,0 | 11,4 | 6,6 | 71,6 | 92,5 | 91,0 | 87,9 |
| Pambıq iplik istehsalı min t. | x | 17,7 | 7,6 | 9,1 | 11,7 | 22,5 | 14,7 | 13,0 |
| Pambıq(lif) mahlıcının ixracı | 40,6 | 47,1 | 3,3 | 4,6 | 97,6 | 123,0 | 75,1 | 69,4 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| min t. | | | | | | | | |
| Pambıq ipliyinin ixracı min t. | x | 3,3 | 6,5 | 8,4 | 9,0 | 18,4 | 8,6 | 11,2 |

Mənbə: DSK Iqtisadi statistika "Sənaye" "Ticarət" 2024 https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.10-da təqdim edilən məlumatlardan aydın olur ki, 2000–2023-cü illər ərzində pambıq mahlıcının, pambıq ipliyinin istehsalı və onların ixracının dinamikası dəyişkən olmuşdur. 2021-ci ildən sonra pambıq mahlıcının və ipliyinin istehsalında ardıcıl azalma müşahidə edilir. Belə ki, pambıq iplik istehsalı 2023-cü ildə 2021-ci illə müqayisədə 41% azalmışdır. Pambıq mahlıcının ixracı isə 2023-cü ildə 2000-ci ilə nisbətən 71% artsa da, 2021-ci ildən bu yana 44% azalmışdır. Pambıq ipliyinin ixracı ilə bağlı qeyd etmək lazımdır ki, 2000-ci ildə statistik qeydlərdə bu məhsul yer almamış, lakin 2023-cü ildə ixrac 11,2 min ton olmuşdur ki, bu da 2021-ci illə müqayisədə 39% azalma deməkdir.

Müqayisəli baxış göstərir ki, 1990-cı illə müqayisədə hazırkı dövrdə pambıqçılıq sahəsində istehsal və emal göstəriciləri xeyli geriləyib. 1990-cı ildə ölkədə 543 min ton pambıq istehsal olunmuşdu ki, bu da 2023-cü il istehsal səviyyəsini iki dəfə üstələyir. Pambıq mahlıcının həmin dövrdəki illik istehsalı 178 min ton təşkil edirdi. Bu isə 2023-cü il nəticəsindən iki dəfədən çoxdur. Eyni zamanda, 1981–1985-ci illərdə pambıq istehsalının illik orta həcmi 700 min tonu ötürdü. Bu faktlar göstərir ki, pambıqçılığın potensialı tarixi presedenti baxımından kifayət qədər geniş olub və bu gün bu imkanlardan tam istifadə edilmir.

Məhsulun emal mərhələsində yaradılan əlavə dəyərin bölgüsü məsələsinə gəldikdə isə, burada ciddi ədalətsizliklər mövcuddur. Təxmini hesablamalara görə, 2.5 ton xam pambıqdan 1 ton mahlıc və 1.2 ton çiyid alınır. Bu həcmin emalı müəssisəyə orta hesabla 170–180 manat xərc tələb edir, fermerə isə bu həcmdə pambığa görə 1500–1600 manat ödənilir. Bu xammalın emalı nəticəsində təxminən 4300 manatlıq əmtəəlik məhsul əldə olunur. Nəticədə, emal müəssisəsi çəkdiyi hər 100 manat xərcə qarşılıq 250 manat gəlir əldə edir. Fermer isə bu göstəricidə yalnız 112 manat gəlir götürə bilir. Belə gəlir bölgüsü kənd təsərrüfatında səmərəli və ədalətli əmək münasibətlərinin formalaşmasına ciddi maneədir. (bax əlavə 18)

Məhsul alış qiymətlərinin də beynəlxalq standartlara uyğun olmaması bu disbalansı daha da gücləndirir. Hazırda Azərbaycanda pambığın hər kiloqramı üçün təklif edilən 60–65 qəpik satış qiyməti nəinki region ölkələri ilə, hətta fermerin çəkdiyi xərc və zəhmətlə də uyğunlaşmır. Müqayisə üçün: Türkiyədə və İranda bu göstərici 0,90 dollar (təxminən 1,45–1,50 manat) civarındadır. Bu səbəbdən bir çox fermerlər pambıqçılıqdan imtina edərək bostan, tərəvəz və digər daha gəlirli məhsullara üstünlük verirlər.

Bununla yanaşı, fermer maraqlarının müdafiəsi baxımından institusional boşluqlar da mövcuddur. Fermerlərin hüquq və iqtisadi maraqlarını təmsil edən qurumların yoxluğu nəticəsində qiymətlərin müəyyənləşdirilməsi prosesi qeyri-şəffafdır və əsasən emal zavodlarının diqtəsi ilə həyata keçirilir. Halbuki, Türkiyədə Milli Pambıq Şurası, kooperativlər birliyi, ticarət birjaları və tekstil sənayeçilərinin sinfi birlikləri qiymətlərin formalaşmasında iştirak edir. Bu, bazarda maraqlar balansının qorunmasını və şəffaflıq mühitinin formalaşmasını təmin edir.

Azərbaycanda isə pambıq sənayesi faktiki olaraq üç böyük inhisarçı qurumun nəzarətindədir:

"MKT İstehsalat Kommersiya" MMC – 20 rayonda 13 pambıq zavodu, 11 qəbul məntəqəsi və 5 innovasiya təsərrüfatı ilə fəaliyyət göstərir;

"CTS AGRO" MMC – 6 pambıq emalı zavodu və 10-dan çox tədarük məntəqəsinə sahibdir;

"Azərpambıq ASK" MMC – pambıq tədarükü, emalı və emal məhsullarının satışını həyata keçirir.

Bu şirkətlər yalnız pambıq tədarükü ilə deyil, həm də fermerlərlə öncədən bağladıqları müqavilələr əsasında birbaşa əkinçilik fəaliyyəti ilə məşğuldurlar. Nəticədə, müstəqil kiçik və orta fermerlər sistem xarici mövqedə qalır və qiymət formalaşmasına təsir imkanından məhrum olurlar.

Nəticə olaraq, pambıqçılıqda mövcud struktur problemləri – resurs bölgüsündə ədalətsizlik, qiymətlərin qeyri-rentabelli olması və fermerlərin institusional müdafiəsinin olmaması – bu sahənin dayanıqlı inkişafına ciddi əngəl yaradır. Gələcəkdə bu sahədə həm iqtisadi, həm də institusional islahatlara ehtiyac olduğu açıq-aydın görünür.

*"Ölkədə pambıq sənayesi ilə məşğul olan bu üç əsas şirkətdən əlavə "Aqro-Az MMC", "P-Agro" MMC və Kənd Təsərrüfatı Nazirliyinin yerli idarələrinin təsis etdiyi MMC-lər də (Məsələn, "Yevlax kənd təsrrüfatı" MMC, "Salyan kənd təsrrüfatı" MMC və s.) pambıq tədarükü ilə məşğul olurlar"* [93, s.89].

Aqrar sektorun texniki bitkilər üzrə ixtisaslaşmış sahələrindən biri olan tütünçülük, iqtisadi rentabelliyi baxımından pambıqçılıqdan sonra ikinci yerdə qərarlaşır. Bu sahənin tarixi inkişaf trayektoriyası göstərir ki, tütünçülük yalnız kənd təsərrüfatı sektoru üçün deyil, həm də emal və ixrac yönümlü sənaye

baxımından mühüm əhəmiyyətə malikdir. Tütünün iqtisadi dəyəri isə əsasən onun son məhsulu – siqaret istehsalı ilə müəyyən olunur. Vaxtilə tütünçülük Azərbaycanın 21 rayonunda geniş yayılmış və xüsusilə Şəki-Zaqatala zonasından başlayaraq Lerik-Yardımlıya, daha sonra isə qərb bölgələrinə qədər inkişaf etmişdir.

**Cədvəl 2.2.11 Tütünçülüyün əsas iqtisadi göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 2000 ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tütün istehsalı (yaş) min t. | 17,3 | 7,1 | 3,2 | 3,5 | 6,9 | 6,4 | 5,1 | 6,3 | -2,7 dəfə |
| Tütün ixracı min t. | 10,0 | 7,6 | 2,1 | 1,9 | 4,8 | 5,3 | 6,9 | 3,0 | -3,3dəfə |
| Tütün idxalı min t. | 2,9 | 6,6 | 2,5 | 3,1 | 5,8 | 5,9 | 6,4 | 7,2 | 2,4dəfə |
| Tütün istehsalı (fermentləşdirilmiş) min t. | 5,9 | 2,6 | 2,0 | 1,7 | 4,4 | 4,3 | 4,2 | 2,3 | -2,6 dəfə |
| Siqaret mld. əd.<br>İstehsal<br>İxrac<br>İdxal | 2,3<br>0,3<br>x | 5,0<br>0,3<br>5,7 | 2,2<br>0,1<br>11,3 | 2,0<br>0,2<br>11,5 | 11,2<br>0,5<br>1,2 | 15,3<br>0,3<br>0,7 | 13,3<br>0,6<br>0,2 | 16,0<br>1,1<br>0,4 | 7 dəfə<br>3,6 dəfə<br>x |

Mənbə: DSK Iqtisadi statistika "Sənaye" "Ticarət" 2024 https://www.stat.gov.az/source/industry/ və https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

Cədvəl 2.2.11-də əks olunmuş statistik göstəricilər göstərir ki, tütünçülük sahəsi son 23 ildə kəskin tənəzzülə uğramışdır. Belə ki, 2000-ci illə müqayisədə 2023-cü ildə yaş tütün istehsalı 2,7 dəfə azalmışdır. Bu geriləmə 1990-cı illə müqayisədə daha kəskindir: həmin il Azərbaycanda 52,9 min ton tütün istehsal olunmuşdusa, bu

göstərici 2023-cü ildə cəmi 6,3 min ton təşkil etmişdir ki, bu da 8,4 dəfə azalma deməkdir. Fermentləşdirilmiş tütün istehsalı da eyni şəkildə azalmış və 2000-ci ildəki səviyyədən 2,6 dəfə geridə qalmışdır.

Tütün ixracında da eyni tendensiya müşahidə olunur. 2000-ci ildə 10 min ton ixrac həcmi mövcud olmuşsa, 2023-cü ildə bu göstərici cəmi 3 min tona qədər enmişdir. Digər tərəfdən, tütün xammalının idxalı eyni dövrdə 2,5 dəfə artmışdır. Bu vəziyyət daxili istehsalın zəiflədiyini və ölkənin tütünə olan tələbatının getdikcə daha çox xarici bazardan təmin edildiyini göstərir.

Ən diqqətçəkən tendensiyalardan biri isə siqaret istehsalı sahəsində baş verən struktur dəyişikliyidir. 2000-ci ildə 2,3 milyard ədəd olan siqaret istehsalı, 2023-cü ildə 16 milyard ədədə qədər yüksəlmiş və beləliklə 7 dəfə artmışdır. Bu artım əsasən 2018-ci ildə fəaliyyətə başlayan Sumqayıt siqaret fabrikinin fəaliyyəti ilə əlaqədardır. Həmin zavodun işə düşməsi ilə ölkədə siqaret idxalına olan tələbat kəskin şəkildə azalmışdır. Məsələn, 2015-ci illə müqayisədə 2023-cü ildə siqaret idxalı 29 dəfə azalaraq 0,4 milyard ədəd olmuşdur.

Lakin bu pozitiv istehsal artımına baxmayaraq, siqaret sənayesində istifadə edilən xammalın böyük hissəsi idxal hesabına təmin olunur. Tütün idxalında davamlı artım mövcuddur: 2000-ci ildə 2,9 min ton olan idxal həcmi, 2023-cü ildə 7,2 min tona çatmışdır. Əlavə olaraq, 2015–2018-ci illər arasında idxal olunan tütünün hər tonuna ödənilən məbləğ 2500–3700 ABŞ dolları aralığında dəyişirdisə, bu məbləğ 2022-ci ildə 13035 ABŞ dollarına qədər yüksəlmişdir. Bu isə dörd dəfədən artıq artım deməkdir və əsaslı iqtisadi izaha ehtiyac yaradır. Qiymətlərin bu cür kəskin artımı daxili istehsal imkanlarının genişləndirilməsi əvəzinə idxala üstünlük verilməsi siyasətinin mənfi nəticəsidir.

Əslində, Sumqayıt siqaret zavodunun fəaliyyətə başlaması ölkədə tütün əkinçiliyinin inkişafına təkan verməli idi. Ancaq bu müəssisə istehsalda əsasən xaricdən alınan tütün və onun sənaye əvəzedicilərinə üstünlük vermişdir. Bu yanaşma isə yerli fermerlərin istehsal maraqlarını sarsıdır və tütünçülüyün milli səviyyədə bərpasını əngəlləyir.

Tütünçülük üçün Azərbaycanın iqlim və torpaq şəraiti kifayət qədər əlverişlidir. Bu üstünlüklər beynəlxalq investorların da diqqətini cəlb etmişdir. Nümunə olaraq, Yaponiyanın "Tet International Development" korporasiyası Zaqatala rayonunda iri həcmli fermentasiya zavodu inşa etmiş və bu sahəyə 7 milyon manatdan çox investisiya yatırmışdır. Şirkət həm tütün becərilməsi, həm də emalı ilə məşğul olur və hazır məhsulu xarici bazarlara ixrac edir. Bu təcrübə göstərir ki, əgər uyğun dövlət dəstəyi və təşviq mexanizmləri mövcud olsa, tütünçülük sahəsi yenidən yüksək iqtisadi dəyər yarada bilər.

Tütünçülüyün hazırkı vəziyyəti istehsal imkanları ilə sənaye tələbatı arasında ziddiyyətin mövcud olduğunu, daxili potensialdan tam istifadə edilmədiyini göstərir. Əgər bu sektor üzrə inteqrasiya olunmuş inkişaf strategiyası işlənib tətbiq olunarsa – o cümlədən yerli istehsalın stimullaşdırılması, idxal asılılığının azaldılması və emal müəssisələrinin yerli xammala keçidi təmin olunarsa – tütünçülük Azərbaycan üçün strateji və ixracyönlü sahələrdən birinə çevrilə bilər.

*"Hazırda Zaqatalanın Tala kəndində Azərbaycanın "Inter Tobacco" şirkəti tütün istehsalı və emalı ilə məşğul olur. Şirkət kənddə 50 tütün qurutma kamerası və 7 istixana quraşdırıb. Burada artıq 50% əl əməyindən istifadə edilmir. Burada, dünyada ən keyfiyyətli tütün növü sayılan "Vircinya" sortu yetişdirilir. Şirkət tütün şitillərini fermentləşdirilmiş halda becərir və fermerlərə*

*pulsuz verir. Fermerlər də daha sonra yaş tütünün hər kiloqramını şirkətə 14-18 qəpiyə satır"* [99, s.62].

Ayaqqabı istehsalı sənayesi üçün əsas xammal mənbəyi olan gön-dəri istehsalı, kənd təsərrüfatı ilə sənaye arasında mühüm bir keçid sahəsi rolunu oynayır. İribuynuzlu mal-qara, qoyun və quzuların ət üçün kəsilməsi nəticəsində əldə edilən dərilər, düzgün emal olunmaqla hazır dəriyə çevrilir və müxtəlif sənaye sahələrində, xüsusilə ayaqqabı istehsalında istifadə olunur. Lakin Azərbaycanın gön-dəri sahəsində xammal mövcudluğu ilə emal və istehsal imkanları arasında nəzərəçarpacaq uyğunsuzluq mövcuddur.

Azərbaycanda gön-dəri və ayaqqabı sənayesi yerli heyvandarlıq məhsullarına əsaslanan emal sahələrindən biri kimi mövcuddur. İribuynuzlu və xırdabuynuzlu heyvanların kəsimi nəticəsində əldə olunan dərilər bu sənayenin əsas xammalı sayılır. Mövcud statistikaya əsasən, 2023-cü ildə ölkədə ət üçün 1006,5 min baş iribuynuzlu mal-qara və 4049,8 min baş qoyun-quzu kəsilmişdir. Bu göstəricilər nəzərə alındıqda, həmin il ən azı 1 milyon ədəd iribuynuzlu və 4 milyon ədəd qoyun-quzu dərisi əldə olunmalı idi.

Lakin istehsal və ixrac məlumatları göstərir ki, 2023-cü ildə yalnız 351,3 min ədəd iribuynuzlu heyvan dərisi və 912,2 min ədəd qoyun-quzu dərisi sənaye dövriyyəsinə daxil olaraq emal və ya ixrac olunmuşdur. Bu da o deməkdir ki, kəsilmiş iribuynuzlu heyvan dərilərinin yalnız təxminən 35%, xırdabuynuzlu heyvan dərilərinin isə 22,5%-i rəsmi statistikada əksini tapmışdır. Beləliklə, xırdabuynuzlu heyvanların təxminən 3,1 milyon dərisi və iribuynuzlu heyvanların isə təxminən 650 min dərisi ya itkiyə gedir, ya da statistik uçotdan kənarda qalır. (bax əlavə 16)

Son beş ilin məlumatları əsasında aparılmış hesablamalara əsasən, Azərbaycan bu dövrdə ümumi dəyəri 57 milyon ABŞ dolları olan iribuynuzlu və qoyun-quzu dəriləri ixrac etmişdir. Bununla paralel olaraq, həmin müddətdə ölkəyə 366 milyon ABŞ dolları dəyərində ayaqqabı idxal olunmuşdur. Bu da illik orta hesabla 73 milyon ABŞ dolları həcmində valyuta vəsaitinin ölkədən ayaqqabı idxalı üçün çıxarıldığını göstərir.

Hazır dəri istehsalının həcmi də son 20 il ərzində kəskin şəkildə azalmışdır. Əgər 2000-ci ildə hazır dəri istehsalı 405,6 min kvadrat metr idisə, 2023-cü ildə bu göstərici 64,1 min kvadrat metr təşkil etmişdir. Bu isə 6,3 dəfə azalma deməkdir. Eyni dövrdə ayaqqabı istehsalında da qeyri-sabit dinamika müşahidə olunur. Məsələn, 2022-ci ildə ölkədə 1405 min cüt ayaqqabı istehsal olunduğu halda, 2023-cü ildə bu göstərici 749,7 min cütə düşmüşdür. Eyni zamanda, 2023-cü ildə ölkəyə idxal olunmuş ayaqqabıların həcmi 40399 min cüt olmuşdur ki, bu da daxili tələbatın təxminən 99%-nin idxal məhsulları hesabına ödənildiyini göstərir. (bax: əlavə 16).

Bu statistika onu deməyə əsas verir ki, ölkədə mövcud xammal bazasına baxmayaraq, həm gön-dəri emalı, həm də ayaqqabı istehsalı sahəsində ciddi qeyri-effektivlik mövcuddur. Emala cəlb olunmayan milyonlarla dərinin itkisi ilə yanaşı, yerli istehsalın ölkədaxili tələbatı ödəmək imkanları məhduddur. Hazırda fəaliyyət göstərən azsaylı müəssisələr arasında yalnız Yevlaxda yerləşən “Gilan Dəri” zavodu nəzərəçarpacaq gücə malikdir ki, onun illik istehsal gücü 1250 ton hazır dəri ilə məhdudlaşır.

Rəqəmlər göstərir ki, ölkədə həm xammal mövcuddur, həm də bu xammalın itkiyə getməsi ciddi iqtisadi və sənaye struktur problemi yaradır. Gön-dəri və ayaqqabı sənayesi mövcud potensiala baxmayaraq, hazırda yalnız məhdud istehsal imkanları

ilə fəaliyyət göstərir və faktiki olaraq, ölkə bu sahədə idxaldan asılı vəziyyətdə qalır.

Yun emalı birbaşa qoyunçuluqla bağlı sahədir. Azərbaycanda 2023-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə 7751,7 min baş qoyun qeydə alınmışdır. Bildiyimiz kimi, yunun keyfiyyətinə görə qoyun cinsləri zərif, qaba və yarımqaba növlərə bölünür. "*Azərbaycanda əsasən qaba yunlu qoyun cinsləri üstünlük təşkil edirlər. Bu yun növü daha çox xalçaçılıq sahəsində istifadə olunur. Xalçaçılıq kompleks anlayış olduğundan, bura xalçanın toxunuşu ilə yanaşı, onun xammalının hazırlanması, emalı, ticarəti də daxildir*" [100,s.51].

**Cədvəl 2.2.12 Yun və xalça istehsalının dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2000 nisbət |
|---|---|---|---|---|---|---|---|---|---|
| Yun istehsalı min t. | 10,9 | 13,1 | 15,6 | 17,0 | 16,1 | 16,1 | 15,8 | 15,1 | 39% |
| Xalça istehsalı min kv.m. | 15,8 | 630,0* | 3,3 | 0,4 | 1,3 | 13,0 | 5,6 | 3,5 | -4,5 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Sənaye" 2024.
https://www.stat.gov.az/source/agriculture/,
https://www.stat.gov.az/source/industry/, məlumatları əsasında müəllif tərtibatı

*DSK 2005-ci il xalça istehsalı hesabatına fiziki şəxsləri də fəaliyyətini daxil etmiş, sonrakı illərdə isə daxil etməmişlər. Ona görə də 2005-ci ildə digər illərlə müqayisədə böyük fərq alınır.

Cədvəl 2.2.12-dən göründüyü kimi, yun istehsalında sabit artım tempi müşahidə olunur. Son 23 ildə yun istehsalı 39% dəfə artaraq 2023-cü ildə 15,1 min tona çatmışdır. Ancaq istehsal olunan yun məhsullarının satış bazarı olmadığı üçün şəxsi istifadələrə sərf olunur və ya sıradan çıxır. Xalça istehsalı isə cədvəldən göründüyü kimi, 2023-cü ildə 2000-ci ilə nisbətən 4,5 dəfə azalmışdır. Bu rəqəm, təkcə, son iki ildə 3,7 dəfə azalmışdır. Bunun müqabilində isə hər il ölkəyə ortalama 15 mln. dollar valyuta sərf edilərək xalça və xalça məmulatları idxal olunur.

İsmayıllı rayonun Cülyan kənd sakini, qoyunçuluqla məşğul olan fiziki şəxs, fermer Ağaməmməd Ağayevin dediklərindən: *"Uzun illərdir ki, qoyunçuluqla məşğulam. 400 başdan çox qoyunum var. Hər il 1-2 ton arası yun istehsal edirəm. Heç bir alıcı təşkilat olmadığı üçün yunu sata bilmirəm. Mənim kimi qoyunçuluqla məşğul olan bütün fermerlər eyni problemi yaşayırlar. Bazarda da kiloqramla bu qədər yunu satmaq mümkün deyil, böyük həcmdə yun alan müştəri yoxdur. Ona görə də illərlə anbarlarımızda yığılan yun zay olur və atmağa məcbur oluruq. Hər baş qoyunun qırxılması üçün 0,80 manat pul ödəyirəm və bu qədər yundan həmin pulu da çıxartmaq olmur".*

Fermerin dediklərindən göründüyü kimi, istehsal olunan yunun emalı müəssisələri olmadığı üçün məhsul satılmır. Ona görə də bu problemin çözülməsi üçün və ölkədə xalçaçılığın əvvəlki şöhrətini qaytarmaq üçün dövlətin güclü dəstəyinə ehtiyac vardır.

2006-cı ildə Ağcabədi rayonunun Ağabəyli kəndində yun emalı fabriki fəaliyyətə başlamışdır. İstehsal gücü sutkada 14 ton olan bu fabrik istehsal etdiyi məhsulun satışında problemlərlə üzləşdiyi üçün fəaliyyətinin əhatəsini nəinki genişləndirə bilmədi, müəssisənin fəaliyyətini dayandırmağa məcbur oldu.

Ölkənin bir çox rayonlarında “Azərxalça” ASC-nın istehsal müəssisələrinin fəaliyyətə başlamasına baxmayaraq bu sahədə inkişaf hələlik yoxdur.

Azərbaycanda qədimdən, 5-ci əsrdən baramaçılıqla məşğul olurlar. Əlverişli coğrafi mövqeyi və İpək yolunun üstündə yerləşməsi hələ XII əsrdə bu məhsulun Avropa və Asiya ölkələrinə ixrac etməyə münbit şərait yaratmışdır.




**Qrafik 2.2.2 Barama istehsalının dinamikası. ton.**
Mənbə: DSK “Azərbaycanın kənd təsərrüfatı” 2024 s.172.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
əsasında müəllif tərtibatı

Qrafik 2.2.2-dən göründüyü kimi, 2015-ci ildən sonra barama istehsalında güclü təkan olmuşdur. Barama istehsalı cəmi 2 il müddətində 200 kq. illik istehsal həcmindən, 2019-cu ildə 643,7 ton həddində istehsal həcminə yüksəlmişdir. Ancaq 2021-ci ildən başlayaraq barama istehsalı azalmağa başlamışdır. 2023-cü ildə istehsal əvvəlki iki ilə nisbətən 28% azalmışdır.

2015-ci ildən sonra bu sahəyə diqqət yetirilməyə başlanmışdır. 2017-ci ildə “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət proqramı” təsdiq edilmişdir [24]. Baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə 2016-cı ilin dekabr

ayında Çindən 1,5 milyon tut (çəkil) tingi gətirilmişdir. Bu tinglər respublikanın 37 rayonuna paylanmış, ümumilikdə 150 ha. yeni tut bağları salınmışdır. Qax Rayon Barama Damazlıq Stansiyası yenidən qurulmuş, yeni daha məhsuldar, rayonlaşdırılmış barama toxumları yetişdirilmiş və kümçülərin istifadəsinə verilmişdir. Eyni zamanda, Şəki İpək kombinatı da fəaliyyətini gücləndirmişdir.

İstehsal olunmuş ipək ipliklərin satış dinamikası haqqında təəssüf ki, DSK-nin hesabatlarında heç bir məlumata rast gəlinmir. Dövlət Gömrük Komitəsinin məlumatından aydın olur ki, 2020-ci ildə 1.1 mln. dollar dəyərində 163,7 ton ipək ixrac olunmuşdur.

"*Vaxtı ilə Azərbaycan sənayesində yüksək xüsusi çəkiyə malik olan yüngül və yeyinti sənayesinin xüsusi çəkisi azalmağa meyillidir. 2014-cü ildə Azərbaycanda istehsal olunan sənaye məhsulunun cəmi 0,5%-i yüngül sənayenin, 3,01%-i yeyinti sənayesinin payına düşmüşdür. Əsasən bu səbəblərdən sənayenin təmiz mənfəəti 2012-ci ildən azalmağa başlamışdır*" [83. s.194].

Bu gün ölkədə emal sənayesi müəssisələrinin sayının kənd təsərrüfatı məhsullarının istehsalı ilə uzlaşmaması, daha doğrusu, yetərincə olmaması bu sahənin böyük miqdarda investisiyaya ehtiyacı olmasından xəbər verir. Etiraf edək ki, Azərbaycanda aqroemal müəssisələrinin yetərincə olmaması və bəzilərinin də texnoloji cəhətdən müasir tələbatdan geri qalması mövcud məhsul istehsalının həcminin artım səviyyəsinin ləngiməsinə, məhsulun keyfiyyətinin lazımi səviyyədə olmamasına və məhsulların müəyyən hissəsinin itkisinə səbəb olur ki, bu da sonda istehlakçıların yerli məhsullarla təminatına mənfi təsir göstərir, anoloji idxal məhsullarına bazarda üstünlük qazandırır. Üzümçülüyün və tütünçülüyün əkin sahələrinin bərpası, bu məhsullara uyğun emal müəssisələrinin yaradılması və, nəhayət, şərab və tütün məhsulları üçün ənənəvi Rusiya bazarının yenidən

ələ alınması səmərəliliyin qat-qat artırılmasına gətirib çıxarardı [101, s.187].

Ölkədə müasir texnologiyalara malik emal müəssisələrinin sayının əhəmiyyətli sürətdə artırılması aqroemal sahəsinin inkişafı üçün böyük təkan olardı və bu dövlət qarşısında prioritet məsələlərdən biri kimi durmalıdır.

### 2.3. Aqroemal sənaye müəssisələrinin təchizatçılar və istehlakçılarla qarşılıqlı əlaqələrinin bazar mühitində transformasiyası

Transformasiya iqtisadiyyatının şəraitində istehlak davranışı ənənəvi yanaşmalardan fərqlənərək, məhsulun yalnız fiziki xüsusiyyətlərinə deyil, həm də onun funksional dəyərinə və problemin həlli qabiliyyətinə yönəlir. Müasir istehlakçı məhsulu sadəcə əmtəə kimi deyil, fərdi inkişafına, həyat keyfiyyətinə və sosial statusuna töhfə verən vasitə kimi qəbul edir. Beləliklə, iqtisadi dəyər artıq obyektiv texniki xüsusiyyətlərdən çox, subyektiv təcrübə və gözləntilərlə müəyyən olunur. Bu baxımdan, istehsalçının və bütövlükdə biznes subyektlərinin uzunmüddətli bazar uğuru getdikcə daha çox istehlakçının inkişaf ehtiyaclarını anlamaq və qarşılamaq qabiliyyətindən asılı olur.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşması və onun institusional strukturunun təkmilləşməsi istiqamətində son otuz ilə yaxın dövr ərzində mühüm irəliləyişlər əldə edilsə də, bu zaman kəsiyi bazar idarəetmə texnologiyalarının beynəlxalq səviyyəyə uyğunlaşdırılması və optimal bazar mexanizmlərinin təşkili baxımından yetərli olmamışdır. Xüsusilə aqrar-sənaye sahəsində rəqabət qabiliyyətli bazar münasibətlərinin formalaşdırılması üçün bazarın aktual konyunkturasının sistemli şəkildə öyrənilməsi, baş

verən dəyişikliklərin və transformasiya meyillərinin davamlı olaraq təhlil edilməsi zəruridir.

İqtisadi nəzəriyyədə və praktik təsərrüfat münasibətlərində "bazar" anlayışı universal və çoxaspektli kateqoriya kimi çıxış edir. Lakin onun tək bir, dəyişməz tərifi yoxdur – bu anlayış ictimai istehsalın inkişaf mərhələlərinə uyğun olaraq dəyişir və zənginləşir. Bazar yalnız ticarət məkanı deyil, istehsal, bölüşdürmə və istehlak prosesləri arasında qarşılıqlı əlaqənin və resurs bölgüsünün baş verdiyi kompleks sosial-iqtisadi mühitdir. İctimai əmək bölgüsünün dərinləşməsi, istehsalın ixtisaslaşması və məhsul çeşidlərinin genişlənməsi bazar proseslərinin mahiyyətini dəyişərək, onu daha mürəkkəb və dinamik iqtisadi institut halına gətirmişdir.

Azərbaycanda aqroemal sənayenin inkişafı kontekstində məhsul istehsalının əsas artım mənbələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

*Aqroemal müəssisələrinin əsas resurs bazası olan kənd təsərrüfatı sektorunda sabit və mütərəqqi istehsal artımının təmin olunması;

* Əhalinin pul gəlirlərində müşahidə olunan davamlı artım fonunda daxili bazarda istehlak potensialının genişlənməsi;

*Aqroemal sahəsində fəaliyyət göstərən müəssisələrin maliyyə dayanıqlığının gücləndirilməsi və investisiya imkanlarının artırılması.

Qeyd olunan faktorlar yalnız aqroemal sənaye üçün deyil, iqtisadiyyatın digər sahələri üçün də sistemli inkişafın əsaslarını təşkil edir. Bu amillər, eyni zamanda, ölkədə aqrar-sənaye kompleksində fəaliyyət göstərən təsərrüfat subyektləri arasında bazar münasibətlərinin tətbiqi və dərinləşməsi üçün obyektiv əsas kimi çıxış edir.

Milli iqtisadiyyatın tərkibində aqrar-sənaye məhsulları bazarı xüsusi çəkiyə malikdir. Buraya kənd təsərrüfatı mənşəli xammallar, onların emal məhsulları, ərzaq məhsulları, yüngül sənaye sahələrinin məhsulları (dəri, trikotaj, geyim, ayaqqabı, tütün məmulatları və s.) daxildir. Bu bazarlar istehlakçı yönümlülüyü, məhsul çeşidinin çoxluğu, tələb olunan keyfiyyət səviyyələri, qısa dövriyyə müddəti və tez dəyişən istifadə dövrləri ilə xarakterizə olunur. Bu cür struktur və funksional özəlliklər aqroemal sənayenin təchizat zəncirindəki rolunu və bazar münasibətlərindəki təsir gücünü artırır.

Ölkədə aqroemal sahəsinin son altı ildəki göstəricilərinin dinamikası bunu deməyə imkan verir.

### Cədvəl 2.3.1 Aqrar-sənaye sektorunun əsas göstəriciləri

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2018 ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|
| Müəssisələrin sayı: | | | | | | | |
| Qida məhsulları istehsalı | 393 | 449 | 487 | 540 | 587 | 641 | 63% |
| İçki istehsalı | 120 | 126 | 131 | 146 | 165 | 182 | 52% |
| Tütün məmulatları istehsalı | 10 | 11 | 13 | 17 | 18 | 21 | 2,1 dəfə |
| Toxuculuq sənayesi | 74 | 80 | 89 | 93 | 95 | 102 | 38% |
| Geyim istehsalı | 77 | 99 | 112 | 120 | 132 | 162 | 2,1 dəfə |
| Dəri və dəri məmulatları, ayaqqabı istehsalı | | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 29 | 29 | 30 | 32 | 32 | 33 | 13% |
| İstehsal: mln.man | | | | | | | |
| Qida məhsulları istehsalı | 3051 | 3585 | 3884 | 4496 | 4891 | 4548 | 49% |
| İçki istehsalı | 295,0 | 433,1 | 427,6 | 490,9 | 563,0 | 703,1 | 2,4 dəfə |
| Tütün məmulatları istehsalı | 56,1 | 248,9 | 436,0 | 677,9 | 768,9 | 949,3 | 17 dəfə |
| Toxuculuq sənayesi | 248,3 | 304,3 | 240,9 | 369,5 | 388,6 | 372,3 | 50% |
| Geyim istehsalı | 103,6 | 111,7 | 112,8 | 130,0 | 162,3 | 125,2 | 21% |
| Dəri və dəri məmulatları, ayaqqabı istehsalı | 26,1 | 21,8 | 25,8 | 22,3 | 25,3 | 24,8 | -5% |

Mənbə: DSK "Azərbaycanın sənayesi" 2024 s.37. https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllifin tərtibatı

Cədvəl 2.3.1-dən göründüyü kimi, aqrar-sənaye müəssisələrinin say vahidləri və həm də istehsal olunan məhsulların dəyəri son 6 ildə müsbət dinamikaya malik olmuşdur. Elə məhsullar (tütün məmulatları, toxuculuq sənayesi məhsulları, dəri və dəri məmulatları, ayaqqabı istehsalı ) var ki, onların istehsalı

2018-ci ilə nisbətən dəfələrlə yüksəlmişdir. Tütün məmulatlarını istehsal edən müəssisələrin sayı son 6 ildə 52% artaraq, 10-dan 21 vahidə çatmışdır. Eyni zamanda istehsal etdiyi məhsulun dəyəri 17 dəfə artmışdır. Bu artım tək tütün məmulatlarının istehsalında deyil, digər məhsul qruplarının istehsalında da əhəmiyyətli sürətdə özünü göstərir. Təkcə qida məhsulları istehsalı son 6 ildə təxminən 1,5 mld. manat artmışdır. Burada qiymət amili də böyük rol oynayır. Belə ki, son 6 ildə cədvəldə göstərilən məhsul qrupları üzrə qiymətlər də çox artmışdır. Onu da qeyd edək ki, bu müddət ərzində dövlətin təbii inhisarında olan enerji daşıyıcılarının və suyun qiyməti bir neçə dəfə artırılmışdır ki, bu da istehlak mallarının qiymətlərinə təsir edən əsas amillərdən biridir.

DSK-nin hesabatlarına əsasən, 2018-ci ili baza ili kimi götürsək 2023-cü ildə ölkədə istehsal qiymət indeksləri qida məhsulları üzrə 149%, içki məhsulları üzrə 240%, toxuculuq məhsulları üzrə 150%, geyim məhsulları üzrə 121% olmuşdur. Bu müddət ərzində tütün məmulatlarının istehsalı isə 13,7 dəfə artmışdır. [76].

Bütün bu qiymət artımlarına baxmayaraq, istehsalın artımında müəssisələrin modernləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiqi, xərclərin optimallaşdırılması, bazar payının artırılmasına nail olmaq və s. kimi amillər də böyük rol oynamışdır.

MDB ölkələri istisna olmaqla, Azərbaycana idxal edilən bütün aqroemal məhsulları, o cümlədən, qida məhsulları öz ölkələrində dövlət dəstəyindən yararlanırlar və istehsal etdikləri məhsullara görə subsidiyalar alırlar. Məhz bu dövlət dəstəyi onları praktik olaraq heç bir subsidiya almayan, qida məhsulları istehsal edən yerli müəssisələrlə rəqabət aparmağını çox asanlaşdırır və onları bazardan rahatlıqla sıxışdırıb çıxara bilirlər. Nəticədə, ölkə

bir çox məhsullar üzrə idxaldan asılı vəziyyətə düşür ki, bu da gələcəkdə bazarda dominantlıq edən idxal məhsullarının qiymət artımı ilə nəticələnə bilər.

İstehsal prosesində istifadə olunan xammalın mənşəyi və davamlılığı, məhsulun keyfiyyəti, istehsalın sabitliyi və iqtisadi səmərəlilik baxımından həlledici əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, yerli xammalın istifadəsi daha dayanıqlı təchizat zənciri yaradır və uzunmüddətli perspektivdə həm keyfiyyət, həm də həcmi etibarlı şəkildə artırmaq imkanı verir. Digər tərəfdən, idxal olunan xammal – xüsusilə ucuz bazarlardan təmin edilənlər – ilkin mərhələdə istehsalçılar üçün cəlbedici görünsə də, bu yanaşma uzunmüddətli strateji davamlılıq və təhlükəsizlik baxımından ciddi risklər yaradır.

Bu halı Azərbaycan şəkər sənayesində baş verən transformasiya xüsusunda aydın müşahidə etmək mümkündür. Ölkədə şəkər istehsalı üzrə yeganə iri müəssisə olan İmişli şəkər zavodu uzun müddət yerli şəkər çuğunduru istehsalına kifayət qədər önəm verməmiş və istehsalı əsasən idxal olunan xam şəkər üzərində qurmuşdur. Bu yanaşma nəticəsində fermerlərin şəkər çuğunduru istehsalına marağı tədricən azalmış, 2023-cü ildə onun istehsal həcmi 2017-ci illə müqayisədə təxminən 2 dəfə aşağı düşmüşdür.

Əldə edilən statistik göstəricilər bu asılılığın artdığını təsdiqləyir: 2023-cü ildə xam şəkər idxalı 2017-ci illə müqayisədə 1,7 dəfə artmışdır. Bu isə yerli xammal bazasının zəifləməsi fonunda şəkər istehsalında kəskin dalğalanmalar yaratmışdır. Belə ki, idxalda yaranan hər hansı fasilə və ya qlobal qiymət artımları zavodun fəaliyyətinə birbaşa təsir göstərməkdədir.

Bununla belə, son illərdə müəyyən müsbət dinamika da müşahidə olunmuşdur. Belə ki, şəkər zavodu yerli xammal

mənbələrinə olan marağını artırmağa başlamış və bu istiqamətdə konkret addımlar atılmışdır. 2022-ci ildə yerli şəkər çuğundurunun istehsalda payı əvvəlki ilə nisbətən 11,6 dəfə artmış, bu göstərici 2021-ci ildə 6% olduğu halda, 2022-ci ildə 40%-ə, 2023-cü ildə isə artıq 57%-ə çatmışdır. Bu artımla paralel olaraq şəkər istehsalının ümumi həcmlərində də yüksəlmə qeydə alınmışdır. Bu tendensiya yerli xammal bazasının potensialını və onun iqtisadi baxımdan daha dayanıqlı olduğunu bir daha təsdiqləyir.

Bənzər vəziyyət tütün və siqaret sənayesində də müşahidə edilir. Azərbaycanda fəaliyyət göstərən siqaret istehsal müəssisələri demək olar ki, tamamilə idxal xammalından asılı vəziyyətdədirlər. Bu isə həm yerli tütünçülük sektorunun zəifləməsinə, həm də daxili bazarda strateji asılılıq yaranmasına gətirib çıxarmışdır.

Məlumatlara əsasən, 2023-cü ildə ölkədə cəmi 6,3 min ton yaş tütün istehsal olunmuşdur. İstehsal edilən tütün əsasən qurudularaq ixrac olunmuş, eyni ildə 7,2 min ton tütün və sənaye əvəzediciləri xaricdən idxal edilmişdir. Beləliklə, siqaret istehsalında istifadə edilən xammalın böyük hissəsi xarici mənbələrdən təmin olunmuşdur. Bunun nəticəsində tütün əkin sahələri son 23 ildə 6,2 dəfə, istehsal həcmi isə 10,4 dəfə azalmışdır. Əmək resursları da bu azalma ilə paralel getmiş, tütünçülükdə məşğul əhalinin sayı ciddi şəkildə azalmışdır. Əvəzində, siqaret xammalı idxalı 2,3 dəfədən çox artmışdır.

Ən önəmli məqamlardan biri isə Azərbaycanda yetişdirilən tütün sortlarının, xüsusilə də "Vircinya" sortunun dünya bazarında yüksək keyfiyyət göstəricilərinə malik olmasıdır. Xarici siqaret istehsalçılarının bu tütünə marağı və müəyyən həcmdə ixracın həyata keçirilməsi bunu bir daha təsdiq edir. Lakin yerli siqaret istehsalçılarının ucuz idxal xammalına üstünlük verməsi və bazarda dövlət tənzimləməsinin yetərsizliyi nəticəsində tütünçülük sektoru

ciddi tənəzzülə uğramışdır. Əgər bu tendensiya davam edərsə, yerli tütünçülük ənənələrinin tamamilə sıradan çıxması və ölkənin bu sahədə həm iqtisadi, həm də sosial itkilərlə üzləşməsi qaçılmaz olacaqdır.

Aqroemal məhsulları üzrə mövcud təchizat strukturunun təhlili göstərir ki, ölkənin ərzaq təhlükəsizliyi baxımından bir sıra strateji məhsullar üzrə idxaldan asılılıq olduqca yüksək səviyyədədir. 2023-cü ilin statistik məlumatlarına əsasən, unüyütmə sənayesi, bitki yağları, şəkər və şəkər xammalı, çay, düyü, makaron kimi əsas istehlak məhsullarının təchizatı əhəmiyyətli dərəcədə xarici bazarlardan asılı vəziyyətdədir.

**Cədvəl 2.3.2 2023-cü ildə aqroemal məhsulları üzrə idxaldan asılılıq. min t.**

| Göstəricilər | Cəmi istehlak | İdxal | İdxaldan asılılıq %-lə |
|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 441,5 | 66,7* | 15% |
| Kərə yağı | 41,6 | 16,0 | 38% |
| Şəkər xammalı | 470,7 | 264,3 | 56% |
| Şəkər | 256,7 | 94,2 | 37% |
| Buğda | 1815,0 | 1175,3 | 65% |
| Çay | 13,6** | 13,4*** | 100% |
| Düyü | 65,1 | 54,6 | 84% |
| Makaron | 33,6 | 15,0 | 45% |
| Bitki yağları | 83,5 | 55,7 | 67% |
| **Saflaşdırılmamış xam bitki yağları** | | **96,4** | |
| Balıq və balıq məhsulları | 81,4 | 21,1 | 26% |

Mənbə: https://www.stat.gov.az/source/food_balances/ 2024 və

https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/en-cox-idxal-olunan-mallar 2024 məlumatları əsasında müəllifin tərtibatı

*2022-ci ildə digər ölkələrdən 49,8 min baş iribuynuzlu mal-qara alınmışdır. Bu mal-qaranın 88%-i (əsasən Gürcüstandan alınan 39,8 min baş) bir müddət saxlanılıb ət üçün kəsilir. Əvvəlki illərdə bu rəqəm 2 dəfədən çox idi.

** Bura ixrac da daxildir.

*** Buraya fermentləşdirilmiş və qismən fermentləşdirilmiş, emal üçün idxal olunmuş qara çay da daxildir.

Cədvəl 2.3.2-dən də göründüyü kimi, ölkədə qida məhsulları üzrə idxaldan asılılıq kifayət qədər böyükdür. Bu asılılıq kərə yağı, şəkər xammalı, ərzaq buğdası, makaron, düyü, çay, bitki yağlarında daha çoxdur. DSK-nın bəzi məlumatlarında qarışıqlıq var, belə ki, buğda məhsulu üzrə istehlak edilmiş məhsulun tərkibində un və yarma istehsalı birlikdə göstərilir və ona görə də idxal olunan buğdanın həcmində un istehsalına sərf olunan hissəsini ayırd etmək olmur. Əslində isə idxal olunan ərzaq buğdasının demək olar ki, hamısı un istehsalına sərf edilir. 2023-cü ildə ölkədə 1328 min ton un istehsal edilmişdir. İdxal ərzaq buğdasının un istehsalına istifadə edildiyini nəzərə alsaq, deməli, unüyütmə sənayemiz həmin ildə 74% idxaldan asılı olmuşdur. Bu göstərici son illərdə 70-85% aralığında dəyişməkdədir ki, bu da strateji məhsullar üzrə daxili təminatın zəifliyini nümayiş etdirir.

Oxşar vəziyyət bitki yağları bazarında da müşahidə edilir. 2023-cü ildə istehlak olunan 83,5 min ton bitki yağının 55,7 min tonu idxal olunmuş və idxaldan asılılıq 67% təşkil etmişdir. Bundan əlavə, daxili istehsalda istifadə olunan saflaşdırılmamış xam bitki yağlarının tamamı xarici mənbələrdən alınır. Ölkədə fəaliyyət göstərən və əsasən "Azərsun Holdinq"ə məxsus yağ emalı

müəssisələri bu xammala əsaslanaraq istehsal həyata keçirirlər ki, bu da daxili bitki yağı sənayesinin struktur baxımından tamamilə xarici tədarüklərə bağlı olduğunu göstərir.

Şəkər və şəkər xammalı üzrə göstəricilər də kifayət qədər narahatedicidir. 2023-cü ildə 470,7 min ton şəkər xammalı və 256,7 min ton hazır şəkər istehlak olunmuşdur. Bunun müvafiq olaraq 264,3 min tonu (56%) və 94,2 min tonu (37%) idxal edilmişdir. Beləliklə, şəkər sənayesi həm xammal, həm də hazır məhsul səviyyəsində xarici bazarlara güclü şəkildə inteqrasiya olunmuş vəziyyətdədir.

Kərə yağı üzrə idxaldan asılılıq 38%, makaron üzrə 45%, düyü üzrə isə 84% olmuşdur. Xüsusilə çay bazarında vəziyyət daha kəskindir – 2023-cü ildə istehlak olunan 13,6 min ton çayın 13,4 min tonu (təxminən 100%) idxal hesabına təmin olunmuşdur. Bu rəqəmlərə ixrac və sənaye üçün nəzərdə tutulmuş çay növləri də daxildir. Ölkədəki mövcud çay fabrikləri idxal olunan fermentləşdirilmiş və qismən fermentləşdirilmiş qara çay (yarımxammal) məhsullarını emal edirlər.

Ət və ət məhsulları üzrə nisbi asılılıq nisbətən aşağı olsa da (15%), bu sahədə də struktur xarakterli asılılıq müşahidə olunur. Belə ki, 2023-cü ildə ölkəyə 94,3 min baş iribuynuzlu mal-qara gətirilmiş, onların 88%-i (xüsusilə Gürcüstandan alınan 39,8 min baş) ət məqsədilə kəsilmiş, ancaq bu rəqəm idxal həcminə yox, istehsala daxil edilmişdir.

Qeyd olunan bütün faktlar təsdiqləyir ki, Azərbaycanın ərzaq istehsalı üzrə təchizat sistemində idxal komponenti dominant mövqedədir. Ərzaq məhsullarının geniş spektri üzrə xarici bazarlardan asılılığın bu qədər yüksək olması, daxili istehsal potensialının tam reallaşmamasını və ölkədə aqroemal sənayesində struktur balanssızlığın mövcudluğunu göstərir. İdxaldan yüksək

asılılıq iqtisadi təhlükəsizlik, inflyasiya riski və ərzaq suverenliyi baxımından strateji təhdid hesab oluna bilər.

Qida məhsullarının idxalına yüksək dərəcədə bağlılıq yalnız ərzaq təminatını deyil, eyni zamanda ölkənin iqtisadi müstəqilliyini də zəiflədən əsas amillərdən biridir. Halbuki, Azərbaycanın aqrar-sənaye potensialı bu asılılığın aradan qaldırılması üçün kifayət qədər əlverişli imkanlar təqdim edir. Bu imkanlardan səmərəli istifadə olunması üçün isə dövlətin iqtisadi tənzimləmə alətləri daha səmərəli şəkildə tətbiq olunmalı, daxili istehsalın stimullaşdırılması və yerli bazarın qorunması istiqamətində kompleks və məqsədyönlü tədbirlər sistemli şəkildə həyata keçirilməlidir.

Azərbaycanın siqaret istehsalı sahəsində müşahidə olunan əsas tendensiyalardan biri yerli xammaldan, xüsusilə də keyfiyyəti ilə beynəlxalq bazarda tanınan "Virciniya" sortlu Azərbaycan tütünündən imtina edilməsi və onun əvəzində ucuz idxal olunan tütün və tütünün sənaye əvəzedicilərinə üstünlük verilməsidir. Ölkədə fəaliyyət göstərən siqaret istehsalı müəssisələri faktiki olaraq xammal baxımından demək olar ki, tam şəkildə xarici mənbələrdən asılı vəziyyətdədirlər.

Məhsul qiymətlərinin formalaşması da bu sahədə ciddi uyğunsuzluqları üzə çıxarır. Belə ki, 2022-ci ilin rəsmi məlumatlarına əsasən, idxal olunan hər bir 20 ədədlik siqaret qutusuna 0,41 ABŞ dolları (təxminən 0,70 AZN), ixrac edilən eyni həcmdə siqaretə isə yalnız 0,15 dollar (təqribən 0,26 AZN) dəyərində vəsait sərf olunmuşdur. Bununla belə, Dövlət Statistika Komitəsinin məlumatlarına görə həmin ildə ölkə daxilində bir qutu siqaretin orta pərakəndə satış qiyməti 2,55 manat təşkil etmişdir ki, bu da ixrac qiyməti ilə müqayisədə 10 dəfəyə qədər yüksəkdir. Bu qeyri-proporsional fərq siqaret bazarında qiymətlərin sərbəst bazar mexanizmləri əsasında deyil, monopolistik struktur və inzibati

təsirlərlə formalaşdığını göstərir. 2022-ci ildə ölkədə siqaretlərin ümumi pərakəndə satış dövriyyəsi 1,6 milyard manata çatmışdır ki, bu da sahənin iqtisadi çəkisini və bazar konsentrasiyasını bir daha təsdiq edir.

Tütün sektorunun ümumi vəziyyəti də narahatlıq doğurur. Son 23 il ərzində tütünçülükdə əkin sahələri 6,1 dəfə azalaraq 14,8 min hektardan 2,4 min hektara, istehsal həcmi isə 10,4 dəfə azalaraq 53 min tondan 5,1 min tona enmişdir. Bu proses ölkənin dağətəyi rayonlarında tütünçülüklə məşğul olan minlərlə ailənin bu fəaliyyət sahəsini tərk etməsi ilə müşayiət olunmuşdur.

Bundan əlavə, yalnız siqaret məhsullarında deyil, aqroemal sahəsinə aid olan digər bir sıra ərzaq və qeyri-ərzaq məhsullarında da idxal dəyəri ilə daxili bazarda formalaşan satış qiymətləri arasında kəskin fərqlər müşahidə olunur. Bu fərqlər isə həm bazar tənzimlənməsinin zəifliyindən, həm də istehsal və ticarət strukturunun qeyri-rəqabətli olmasından xəbər verir.

**Cədvəl 2.3.3 Bəzi aqrar-sənaye məhsullarının idxal və satış qiymətləri 2022-ci il**

| Göstəricilər | İdxal qiyməti man. | Orta pərakəndə satış qiyməti man. | Müqayisə + - |
|---|---|---|---|
| Mal əti kq. | 7,66 | 12,91 | + 1,69 dəfə |
| Quş əti kq. | 2,67 | 5,54 | +2,1 dəfə |
| Təzə və dondurulmuş balıq kq. | 4,09 | 7,75 | +1,9 dəfə |
| Kərə yağı və digər süd yağları kq. | 9,91 | 19,07 | +1,9 dəfə |
| Çay kq. | 8,90 | 22,46 | +2,5 dəfə |
| Buğda unu kq. | 0,60 | 1,43 | +2,4 dəfə |

| | | | |
|---|---|---|---|
| Bitki yağları 1 litr. | 2,85 | Zeytun yağı- 14,14 Günəbaxan yağı- 5,27 Qarğıdalı yağı- 6,79 | Orta rəqəmlə +3,1 dəfə |
| Siqaret 1 qutu (20 əd.) | 0,71 | 2,55 | +3,6 dəfə |
| Pambıq parçalar 1kv.m. | 0,66 | 3,75 | +5,7 dəfə |
| Ayaqqabı 1 cüt | 4,72 | 25,80 (orta) | +5,5 dəfə |
| Kolbasa | 5,26 | 14,75 (orta) | 2,8dəfə |

Mənbə: DSK "Azərbaycanda qiymətlər" 2023 s.39 və DGK "Gömrük statistikası" 2022

https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/en-çox-idxal-olunan-mallar məlumatları əsasında müəllifin tərtibatı

Cədvəl 2.3.3-dən göründüyü kimi, bir çox qida və yüngül sənaye məhsullarında idxal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərq həddindən artıq böyükdür. Bu idxal olunan məhsullarda sağlam rəqabətin olmaması, müəyyən qədər idxal inhisarçılığı və idxal malları üzərində lobbiçilik hallarının olması ilə əlaqədardır. Məsələn, cədvəldən aydın olur ki, çay məhsulları ölkəyə hər kiloqramı 8,90 manata idxal olunur, ancaq onun satış qiyməti təxminən 2,5 dəfə çoxdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, ölkədə çay sənayesi ilə əsasən (idxalı, qablaşdırılması və satışı ilə) bir şirkət məşğul olur. Ölkədə digər sahibkarlar bu məhsulun biznesi ilə məşğul olmurlar və ya bu imkandan məhrumdurlar. Ona görə də çayın yerli bazarda istehlak qiyməti bazar qanunları ilə, yəni tələb və təklif əsasında deyil, inhisarçı şirkətin diqtəsi əsasında formalaşır. Nəzərə alsaq ki, 2022-ci ildə ölkəyə 14,4 min ton çay idxal edilmiş və bundan ötəri 75,5 milyon dollar və ya 128,3 milyon manat vəsait ödənilmişdir. Həmin

məhsulun ölkə daxilində satışından isə, ümumilikdə, 323,4 mln. manat vəsait əldə edilmişdir. Fikrimizcə, ölkədə yerli çay sənayesinin inkişaf etməməsinin, coğrafi iqlim şəraitinin imkan verdiyi halda çay plantasiyalarının əvvəlki səviyyəyə (1990-cı il səviyyəsi) qaldırılmamasının bir səbəbi də, məhz rəqabət mühitinin düzgün tənzimlənməməsinin nəticəsidir.

Eyni vəziyyət kərə və bitki yağlarının idxalında da mövcuddur. Kərə yağlarının yerli bazarda satış qiyməti 2022-ci ildə idxal qiymətlərindən təxminən 2 dəfə, bitki yağlarının (zeytun, günəbaxan və qarğıdalı yağlarının orta qiyməti 6,70 man.) orta qiyməti isə 3,1 dəfə çox olmuşdur. Nəticədə, 2022-ci ildə kərə yağı üzrə 140,4 milyon manat, bitki yağları üzrə isə 704,5 milyon manat ümumi gəlir götürülmüşdür. Onu da qeyd etməliyik ki, zeytun yağının 2020-ci ildə dünya üzrə orta satış qiyməti kiloqramı 2,6 dollar və ya 4,42 manat olmuşdur.

Ayaqqabı sənayesində vəziyyət daha acınacaqlıdır. Ölkədə ayaqqabı istehsalı üçün əsas xammal olan gön-dəri sektorunun çox güclü dövlət dəstəyinə ehtiyacı vardır. Ölkədə bir ildə ixrac istisna olmaqla, kəsilən mal-qara gönlərinin 35%-i, qoyun-quzu dərilərinin isə 16%-i emala verilir. Emal olunmuş həmin gön və dərilərin də əksəriyyət hissəsi xammal kimi ixrac olunur. Ölkədə ayaqqabı istehsal edən müasir tipli, əhalinin tələbatını ödəyə biləcək ayaqqabı fabriki yoxdur. Nəticədə ölkənin ayaqqabı bazarı tamamilə, daha dəqiq desək, 98% idxaldan asılı vəziyyətə düşmüşdür. Fikrimizcə, ayaqqabı sənayesinin bu vəziyyətə düşməsinin səbəbini idxal və pərakəndə satış qiymətləri arasında olan çox böyük fərqdə axtarmaq lazımdır. Belə ki, DSK-nin məlumatlarından aydın olur ki, 2022-ci ildə ölkəyə idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 4,72 manat ödənilmişdir. Həmin ildə yerli pərakəndə satış bazarının araşdırmalarından

məlum olur ki, bütün qrup ayaqqabılar üzrə orta pərakəndə satış qiyməti, ortalama, 25,80 manat təşkil etmişdir. Bu o deməkdir ki, yerli bazarda satış qiymətləri idxal qiymətlərindən 5,5 dəfə çoxdur. Ölkəyə 2022-ci ildə 155,5 milyon manatlıq ayaqqabı idxal olunmuş və yerli bazarda təxminən 826 milyon manata satılmışdır. Göründüyü kimi, fərq həddindən artıq böyükdür.

Tənzimlənən qiymətlər haqqında 30 may 2003-cü ildə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Həmin Qanunun bəzi müddəalarını qeyd etmək yerinə düşər:

"-*inhisarçılıq hallarının məhdudlaşdırılması və qarşısının alınması, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması;*

-*yerli istehsalın intensiv inkişafına əlverişli şərait yaratmaq və daxili bazarın qorunmasını təmin etmək;*

-*yüksək mənfəət əldə etmək məqsədilə qiymətlərin səviyyəsinin əsassız olaraq artırılmasının qarşısını almaq və dövlətin iqtisadi maraqlarını təmin etmək;"* [109].

Azərbaycanın aqrar-sənaye sektorunda idxalı əvəz edən istehsalın səmərəli şəkildə inkişafı, ilk növbədə, daxili bazarda yerli istehsal məhsullarına formalaşmış və sabit artım meyli göstərən tələbatın təmin olunmasından asılıdır. İdxalı əvəzləmə prosesi yalnız hazır məhsul istehsalının genişləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda həmin məhsulların istehsalında istifadə olunan xammal və köməkçi resursların da yerli mənbələrlə təmin edilməsi məsələsini ön plana çıxarır. Müşahidələr göstərir ki, bəzi emal sahələrində xammal və materialların idxala olan asılılıq səviyyəsi 80–90% həddində dəyişir. Bu isə həmin sahələrin struktur dayanıqlılığı və ərzaq təhlükəsizliyi baxımından ciddi strateji risk yaradır.

Xüsusilə qida və aqroemal sənayesində istifadə olunan əsas və yardımçı komponentlərin əhəmiyyətli hissəsinin xarici mənşəli olması idxaldan asılılıq dərəcəsini artırır. Belə bir şəraitdə, bu sahədə istifadə edilən komponentlərin yerli istehsalının təşkili – o cümlədən qablaşdırma materialları, konservantlar, fermentlər, texnoloji əlavələr və s. – idxalın əvəzlənməsi strategiyasının mühüm elementi kimi qiymətləndirilməlidir. Bu baxımdan, sənaye istehsalının, xüsusən də yeyinti sənayesi üçün avadanlıq və texnoloji vasitələrin istehsalını təmin edən maşınqayırma komplekslərinin inkişaf səviyyəsi həlledici rol oynayır.

İdxalın əvəzlənməsi kontekstində dövlət siyasətinin digər prioritet istiqamətlərindən biri dövlət satınalmaları sistemində yerli ərzaq məhsullarına üstünlük verilməsi prinsipinin institusional şəkildə tətbiqidir. Hazırkı mərhələdə dövlət sifarişləri çərçivəsində əldə olunan ərzaq məhsullarının əhəmiyyətli hissəsi idxal malları ilə təmin olunur. Halbuki dövlət sifariş mexanizmləri daxili istehsalın genişləndirilməsi və yerli istehsalçıların bazara çıxış imkanlarının artırılması üçün mühüm alət ola bilər.

Aqroemal sahəsində müşahidə olunan ən ciddi struktur maneələrdən biri isə iri həcmli investisiya layihələrinin maliyyələşdirilməsi istiqamətində mövcud olan çətinliklərdir. Kiçik və orta investisiya həcmləri ilə yerli emal müəssisələrinin fəaliyyətini qismən də olsa genişləndirmək mümkündür, lakin bu, sistemli dönüş yaratmaq üçün kifayət deyil. Bank-maliyyə sektorunun uzunmüddətli kreditlərə yanaşması ehtiyatlı və qismən qeyri-fəal xarakter daşıyır. Üstəlik, belə kreditlərin yüksək faiz dərəcələri istehsal proseslərinə maliyyə əlçatanlığını azaldır və sahibkarlıq aktivliyini zəiflədir.

Nəticədə, regionlarda dövlət investisiyaları hesabına yaradılan infrastruktur potensialı yerli istehsal gücləri ilə adekvat

səviyyədə qarşılıqlı əlaqədə olmur. İnfrastruktur layihələrinə yönəldilmiş investisiyalar məhsul istehsalının artımı ilə mütənasib getmədiyindən, bu sahədəki kapital qoyuluşları arzu olunan iqtisadi effektləri vermir. Beləliklə, kənd təsərrüfatı məhsullarının emalı istiqamətində iri həcmli investisiya layihələrinin reallaşdırılması üçün dövlətin əlavə dəstək mexanizmlərinin formalaşdırılması və tətbiqi mühüm əhəmiyyət daşıyır.

İdxalı əvəzləmə siyasətinin həyata keçirilməsində qarşıya çıxan əsas çətinliklərdən biri də yerli istehsalın beynəlxalq keyfiyyət tələblərinə uyğunlaşdırılmasıdır. Müasir dövrdə aqroemal məhsullarının qlobal bazarlarda rəqabətə davamlı olması, yalnız onların istehsal həcmi ilə deyil, həm də keyfiyyət, təhlükəsizlik və uyğunluq sertifikatları ilə müəyyən olunur. Bu baxımdan, qida məhsullarının beynəlxalq təhlükəsizlik standartlarına və ekoloji norma tələblərinə uyğunluğunun təmin olunması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, yerli istehsalçıların ixracyönümlü fəaliyyətə həvəsləndirilməsi və bazar tələblərinə uyğun məhsul çeşidlərinin genişləndirilməsi istiqamətində də kompleks dəstək tədbirləri həyata keçirilməlidir.

İstehsal prosesində keyfiyyətin artırılması isə birbaşa şəkildə aqroemal müəssisələrinin texniki və texnoloji səviyyəsindən asılıdır. Hazırda sektorda fəaliyyət göstərən bir çox müəssisələrdə istifadə olunan texnologiyalar köhnəlmiş, istismar dövrünü başa vurmuş və müasir istehsal tələblərinə cavab verməyən vəziyyətdədir. Bu da həm məhsulun keyfiyyətini, həm də rəqabət qabiliyyətini ciddi şəkildə məhdudlaşdırır. Belə şəraitdə bazarda uğur qazanmaq və xüsusilə ixrac yönümlü məhsullar təqdim etmək mümkün olmur. Ona görə də sektorda yeni texnoloji həllərin tətbiqi, yüksək əlavə dəyərli məhsulların istehsalı və rəqabətqabiliyyətli modelə keçid strateji zərurətə çevrilmişdir.

Bu məqsədlərə çatmaq üçün aqroemal sənayesində fəaliyyət göstərən müəssisələrin modernləşdirilməsi və innovativ texnologiyaların tətbiqi üzrə investisiya layihələrinin reallaşdırılması vacibdir. Belə layihələrin həyata keçirilməsi isə ilk növbədə uzunmüddətli və güzəştli şərtlərlə maliyyələşmə mexanizmlərinin mövcudluğu ilə şərtlənir. Xüsusilə, aqrar və aqroemal sahələrdə risklərin yüksəkliyi fonunda investisiya mühitinin cəlbedici olması üçün dövlətin institusional dəstəyi və kredit zəmanət mexanizmlərinin təşkili əhəmiyyət kəsb edir.

Digər tərəfdən, qida məhsulları insanların əsas yaşam təminatı funksiyasını daşıdığından, bu məhsullara olan tələbatın xarakteri digər istehlak mallarından ciddi şəkildə fərqlənir. Belə ki, ərzaq məhsullarına tələbat əhalinin gəlir səviyyəsi ilə daha az əlaqəlidir və əsasən bioloji və sosial zərurət kontekstində formalaşır. Bu səbəbdən də bazar mexanizmləri çərçivəsində tələb və təklif balansının təmin olunması, ərzaq təhlükəsizliyinin qorunması və regionlar üzrə qida təminatında sabitliyin saxlanılması hər zaman mümkün olmur.

Nəzərə alınmalıdır ki, bəzi qida məhsulları üzrə regional disbalansların və qiymət dalğalanmalarının qarşısının alınması yalnız sərbəst bazar qüvvələrinin deyil, eyni zamanda dövlətin tənzimləyici müdaxilələrinin də mövcudluğunu tələb edir. Bu xüsusda, strateji ərzaq məhsulları üzrə qiymətlərin tənzimlənməsi, logistik dəstəyin təşkili, ehtiyat fondlarının yaradılması və yerli istehsalın gücləndirilməsi kimi tədbirlər ölkənin ərzaq təhlükəsizliyinin təminatı baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın qida sənayesində mövcud olan qeyri-kafi iqtisadi durumun əsas səbəblərindən biri kimi sahədə fəaliyyət göstərən istehsalçıların investisiya qoyuluşlarını təşviq edən vergi güzəştləri və fiskal stimullaşdırıcıların praktikada yetərincə tətbiq

edilməməsi göstərilə bilər. Xüsusilə, aqroemal sahəsinə daxil olan müəssisələr üçün müəssisənin tam rentabelli fəaliyyət mərhələsinə keçidədək olan dövrdə vergi tətillərinin və ya aşağı dərəcəli vergilərin tətbiq edilməməsi, istehsalın genişlənməsi və modernləşdirilməsi prosesini ləngidir.

Məlum olduğu kimi, verginin fundamental funksiyası yalnız dövlət büdcəsinin formalaşdırılması deyil, həm də iqtisadi proseslərin tənzimlənməsi və strateji sahələrin inkişafına yönəlik resursların yönləndirilməsi funksiyasıdır. Lakin qida sənayesi sahəsində müşahidə edilən sərt və stimullaşdırıcı xarakter daşımayan vergi siyasəti bu funksiyanın icrasını zəiflədir, nəticə etibarilə isə iqtisadi strukturda gözlənilən müsbət transformasiyalar baş vermir. Belə bir şəraitdə verginin tənzimləyici rolunu itirməsi, sahibkarlığın təşəkkülündə və aqroemal sektorunun dayanıqlı inkişafında ciddi əngəllər yaradır.

Bu səbəbdən, fiskal tənzimləmədə mövcud olan sərt vergi çərçivəsinin yenidən nəzərdən keçirilməsi və qida sənayesi üçün daha mülayim vergi rejiminin tətbiqi aktuallaşır. Bu zərurət həm istehlak yönümlü məhsulların əhəmiyyətindən, həm də sektorun hazırkı iqtisadi mövqeyindən irəli gəlir. Belə bir vergi mühiti yalnız sənaye subyektlərinin fəaliyyət səmərəliliyini artırmaqla kifayətlənməyəcək, eyni zamanda ərzaq təhlükəsizliyinin qorunmasına da töhfə verəcəkdir.

Dövlət tənzimləmələrinin digər mühüm istiqaməti aqrar sahə, emal sənayesi və istehlak zənciri arasında mübadilə paritetinin təmin olunmasıdır. Bu zəncirin hər bir halqasında qiymət bərabərsizliyi mövcud olduqda, xüsusilə, ilkin mərhələdə yerləşən kənd təsərrüfatı istehsalçıları daha çox zərər görür. Regionlarda fəaliyyət göstərən kənd təsərrüfatı istehsalçılarının və emal müəssisələrinin maliyyə dayanıqlığı, məhz bu bərabərsizlik

səbəbindən ciddi təzyiq altına düşür. Dövlət bu disbalansı nəzərə almalı və qiymət tənzimlənmələrini yalnız ticarət şəbəkələrinin deyil, eyni zamanda istehsalçıların və emalçıların da iqtisadi maraqlarını nəzərə alacaq şəkildə həyata keçirməlidir.

Qlobal təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə qida sənayesi şaquli inteqrasiya modelləri üzərində qurulmuşdur. Məsələn, ABŞ-da XX əsrin sonlarında broyler istehsalının 90%-dən çoxu bu üsulla təşkil olunmuşdur. Belə struktur modelində istehsal zəncirinin təmərküzləşməsi və onun idarə olunması planlı, koordinasiyalı və proqnozlaşdırıla bilən şəkildə həyata keçirilir. Kortəbii bazar mexanizmləri yerini kompleks logistika və idarəetmə sistemlərinə verir. Bu, təkcə məhsulun keyfiyyətinə deyil, həm də bazara sabit və çevik şəkildə çıxarılmasına şərait yaradır.

Azərbaycan üçün bu model praktiki olaraq məqbul nümunədir. Qida sənayesinin dayanıqlı inkişafı məqsədilə şaquli inteqrasiya yanaşmalarından istifadə olunmalı, emal müəssisələrinin çevik və adaptiv istehsal modellərinə keçidi stimullaşdırılmalıdır. Bu isə yalnız müasir texnologiyalar, aşağı əməliyyat xərcləri və yüksək məhsuldarlığa əsaslanan istehsal mühitinin formalaşdırılması ilə mümkündür. Dövlət siyasətinin bu istiqamətdə prioritetləşdirilməsi iqtisadi sabitlik və ərzaq təhlükəsizliyi üçün vacib şərtlərdəndir.

Aparılmış təhlillər göstərir ki, Azərbaycanda aqroemal sənayesinin inkişafı bir sıra struktur, institusional və fiskal çağırışlarla qarşı-qarşıyadır. Xüsusilə idxaldan yüksək asılılıq, zəif texnoloji təminat, qeyri-effektiv vergi və tənzimləmə mexanizmləri bu sahənin davamlı və rəqabətqabiliyyətli şəkildə inkişafını ləngidir. Mövcud problemlərin sistemli şəkildə həll olunması, dövlət siyasətində məqsədyönlü transformasiyalar və yerli

istehsalın dəstəklənməsi vasitəsilə mümkündür. Bu yanaşma həm ərzaq təhlükəsizliyinin təminatında, həm də aqrar sahənin ümumi iqtisadiyyatda rolunun artırılmasında mühüm əhəmiyyət kəsb edir.

## 2.4. Aqroemal sektorunun kənd təsərrüfatının inkişafına təsirinin riyazi-statistik modellərlə qiymətləndirilməsi

Səmərəlilik dedikdə, iqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı mövcud resurslardan, o cümlədən, xammal, əmək qüvvəsi, kapital, zaman və investisiyalardan minimum sərf etməklə maksimum nəticə əldə olunması başa düşülür. Bu anlayış, mahiyyət etibarilə, eyni məhsul və ya xidmətin daha az xərclə, daha qısa müddətdə və daha az əmək sərf olunmaqla istehsalını hədəfləyir. Səmərəlilik yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır, həm də təşkilati idarəetmədə düzgün qərarların verilməsi, əmək bölgüsünün optimallaşdırılması və texnologiyalardan səmərəli istifadənin təmin edilməsi ilə sıx bağlıdır. Bu yanaşma ilk dəfə olaraq elmi əsasda XX əsrin əvvəllərində amerikalı mühəndis və menecer Harrington Emerson tərəfindən sistemləşdirilmişdir. O, 1911-ci ildə nəşr etdirdiyi "Səmərəliliyin 12 prinsipi" (The Twelve Principles of Efficiency) adlı əsərində istənilən iqtisadi və ya istehsal fəaliyyətinin uğurlu olması üçün onun məqsəd və prioritetlərinin əvvəlcədən aydın şəkildə müəyyənləşdirilməsinin vacibliyini əsas prinsip kimi irəli sürmüşdür. Emersonun bu fikri müasir menecment nəzəriyyələrində də aktual olaraq qalır və məhsuldarlığın artırılması istiqamətində aparılan islahatların nəzəri əsasını təşkil edir. [57]

Müasir dövrdə qlobal iqtisadi sistemdə fəaliyyət göstərən müəssisələr üçün əsas strateji hədəflərdən biri resurslardan maksimum səmərə ilə istifadə etməklə istehsalın effektivliyini və

rentabelliyini artırmaq, məhsulun maya dəyərini optimallaşdırmaq və nəticə etibarilə gəlirliliyi yüksəltməkdir. Təsadüfi deyil ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadi siyasətində istehsalın böyüməsi və davamlı inkişafın təmin olunması prioritet məsələlərdən biri kimi dəyərləndirilir. Xüsusilə, aqrar və aqroemal sektorlarında fəaliyyət göstərən iqtisadi subyektlər üçün səmərəlilik göstəricilərinin düzgün müəyyənləşdirilməsi və təhlil olunması onların rəqabətqabiliyyətliliyinin artırılması baxımından həlledici əhəmiyyət daşıyır.

Səmərəli fəaliyyətin təmin olunması üçün ilk növbədə məhsulların istehsalına çəkilən xərclərin strukturu, həmin məhsulların satış qiymətləri və əldə olunan gəlirlilik səviyyəsi arasında optimal tarazlığın formalaşdırılması zəruridir. Başqa sözlə, məhsulların rentabellik səviyyəsinin dəqiq ölçülməsi və bu göstəricilərin təhlili səmərəli idarəetmə qərarlarının qəbuluna bilavasitə təsir göstərir. Aqroemal sektorunda fəaliyyət göstərən müəssisələrin səmərəlilik səviyyəsinin qiymətləndirilməsi üçün isə kompleks statistik və iqtisadi göstəricilər toplusundan istifadə olunur. Bu göstəricilər həm sektoral strukturun təhlili, həm də proseslərin məhsuldarlıq səviyyəsinin müəyyən olunması baxımından önəmlidir.

Aqroemal sənayesinin səmərəlilik göstəricilərinə aşağıdakılar aid edilə bilər:

*Aqroemal sahəsində emal olunan ümumi məhsulların fiziki və dəyər ifadəsindəki həcmi;

*Kənd təsərrüfatı sektorunda istehsal olunan məhsulların ümumi həcmi içərisində emala yönələn hissənin xüsusi çəkisi (%);

*Aqroemal sektorunda formalaşan ümumi gəlir və onun dinamikası;

*Aqroemal sənayesinin Ümumi Daxili Məhsul (ÜDM) strukturundakı payı və zamanla dəyişmə meylləri;

*Aqroemal müəssisələrinin dövlət büdcəsinə vergi və qeyri-vergi daxilolmalarındakı rolu;

*Aqroemal sahəsində məşğulluğun səviyyəsi və bu sahədə çalışanların ümumi məşğul əhali içərisindəki payı.

Yuxarıda sadalanan göstəricilər aqroemal sənayesinin struktur xüsusiyyətlərini və onun kənd təsərrüfatı sektoru ilə əlaqəli fəaliyyət mexanizmini kompleks şəkildə əks etdirmək qabiliyyətinə malikdir. Xüsusilə, kənd təsərrüfatı məhsullarının ilkin xammal formasında deyil, dəyər artırıcı emal proseslərindən keçərək bazara təqdim olunması bu sahədə səmərəliliyin əsas indikatorlarından biri hesab edilir. Emal səviyyəsinin yüksəldilməsi yalnız məhsulun bazar dəyərini artırmaqla kifayətlənmir, eyni zamanda əlavə dəyər yaradılması vasitəsilə iqtisadi artımı stimullaşdırır.

Bundan əlavə, aqroemal sənayesinin davamlı inkişafı və səmərəliliyin yüksəldilməsi üçün kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal müəssisələri arasında qarşılıqlı əlaqələrin – yəni vertikal inteqrasiyanın – mövcudluğu və dərinliyi xüsusi önəm daşıyır. Belə inteqrasiya modelləri həm təchizat zəncirinin effektivliyini artırır, həm də xammal təchizatında stabillik, keyfiyyətə nəzarət və risklərin minimuma endirilməsi kimi üstünlüklər təmin edir.

Qeyd etmək lazımdır ki, qlobal səviyyədə milli iqtisadiyyatların qarşısında duran əsas çağırışlardan biri də xammal ixracatına fokuslanmış iqtisadi modeldən dəyər zənciri üzrə dərinləşmiş istehsal və ixracyönümlü emal strukturuna keçid etməkdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, məhsulların daxili bazarda emal olunaraq yüksək əlavə dəyərə malik hazır məhsul formasında ixracı həm ölkənin tədiyyə balansına müsbət təsir göstərir, həm də

daxili sənaye potensialının stimullaşdırılmasına xidmət edir. Bu kontekstdə aqroemal sənayesinin strateji əhəmiyyəti daha da artır.

Müasir dövrdə aqrar emal sənayesinin inkişafına təsir göstərən əhəmiyyətli məqamlardan biri kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal sənaye müəssisələri arasında mövcud inteqrasiya əlaqələridir. *"Ümumiyyətlə, inteqrasiya əlaqələri istehsal zəncirində qarşılıqlı əlaqədə olan mərhələlərin birləşməsi, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və istehlakçılara çatdırılmasını təmin edən mürəkkəb bir prosesdir. İnteqrasiya əlaqələri məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dərinləşməsini əks etdirən və onlarla qarşılıqlı əlaqəyə malik proses olmaqla bərabər, eyni zamanda istehsalın son nəticələrinə təsir göstərən bir amilidir"* [71, s.74].

Azərbaycanda aqrar sektorun inkişafı kontekstində kənd təsərrüfatı məhsullarının emal səviyyəsi milli iqtisadiyyatın dəyər zənciri üzrə dərinləşməsi baxımından mühüm göstəricilərdən biridir. Müxtəlif növ kənd təsərrüfatı xammalının emal dərəcələri aqroemal sənayesinin potensialını və resurslardan istifadənin effektivliyini əks etdirir. Aşağıdakı cədvəldə emal sənayesi müəssisələri tərəfindən kənd təsərrüfatı mənşəli məhsulların əsas növləri üzrə emal səviyyələri təqdim olunur ki, bu da sahə üzrə struktur təhlilin aparılmasına və inkişaf boşluqlarının müəyyənləşdirilməsinə imkan verir.

**Cədvəl 2.4.1 Emal sənayesi müəssisələri tərəfindən kənd təsərrüfatı xammalının ayrı-ayrı növlərinin emal dərəcəsi. %-lə (bitkiçilik üzrə)**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2010 nisbəti |
|---|---|---|---|---|---|---|---|

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Taxıl | 70 | 72 | 87 | 74 | 73 | 65 | -7% |
| Qarğıdalı | 77 | 81 | 52 | 53 | 59 | 56 | -27% |
| Kartof | - | - | 0,6 | 0,7 | 0,7 | 0,8 | - |
| Meyvə və giləmeyvə | 8 | 7 | 7 | 12 | 16 | 17 | 2 dəfə |
| Qoz-fındıq | 1 | 5 | 24 | 7 | 7 | 6 | 6 dəfə |
| Nar | 7 | 5 | 11 | 8 | 8 | 8 | 14% |
| Üzüm | 47 | 45 | 45 | 48 | 22 | 21 | -55% |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəl 2.4.1-də emal sənayesi müəssisələri tərəfindən kənd təsərrüfatı mənşəli ayrı-ayrı xammal növlərinin emal dərəcələri üzrə illik dinamika əks olunmuşdur. Təhlil göstərir ki, ölkədə kənd təsərrüfatı məhsullarının emala yönələn hissəsi məhsuldan-məhsula və illər üzrə dəyişkən dinamika nümayiş etdirir. Bu dəyişikliklər həm kənd təsərrüfatı istehsalının həcmi, həm emal sənayesinin texnoloji imkanları, həm də bazar tələbatı ilə şərtlənir.

Cədvəldən göründüyü kimi, yerli taxıl istehsalının yalnız bir hissəsi emala yönəldilir və bu emal prosesi əsasən yem sənayesinə – yəni qarışıq yemlərin istehsalına xidmət edir. Bunun başlıca səbəbi yerli buğdanın çörəkbişirmə standartlarına tam cavab verməməsidir. Nəticədə un istehsalında əsasən idxal olunan ərzaqlıq buğdadan istifadə edilir. 2023-cü ildə taxılın emal dərəcəsi 65%-ə enmiş və bu, 2010-cu ilə nisbətən 7% azalma deməkdir ki, bu da emal sahəsində dayanıqlı inkişafın təmin olunmadığını göstərir.

Qarğıdalı üzrə statistik göstəricilər daha fərqli tendensiya ortaya qoyur. 2010-cu ildə emal dərəcəsi 77% olduğu halda, bu göstərici 2023-cü ildə 56%-ə enmişdir. Nisbətdə 27% azalma qeydə

alınsa da, istehsalın fiziki həcmindəki artım nəzərə alınmaqla emal olunan ümumi miqdarda artım müşahidə olunur. Burada da emala yönəlməyən hissə əsasən yemlik məqsədlərlə istifadə edilir.

Kartof üzrə emal prosesinin yalnız 2018-ci ildən etibarən təşkil olunmağa başlaması, bu istiqamətdə sənaye strukturunun kifayət qədər zəif olduğunu göstərir. Emal dərəcəsi 0,6–0,8% intervalında dəyişir ki, bu da sektorun bu sahəyə hələ ilkin mərhələdə yanaşdığını göstərir. Bu sahədəki fəaliyyət əsasən "Gilan" holdinqin çipsi istehsalı üzrə açdığı müəssisə ilə məhdudlaşır və genişlənmə potensialı mövcuddur.

Meyvə və giləmeyvə emalı sahəsində isə rəqəmsal olaraq 2 dəfəlik nisbətən artım qeydə alınsa da (8%-dən 17%-ə qədər), bu göstərici ümumi istehsalla müqayisədə kifayət qədər aşağı səviyyədə qalmaqdadır. Meyvə istehsalında 365 min tonluq artım fonunda, emal olunan məhsul həcminin cəmi 169 min ton artması bu sahədə də dərinləşmiş sənaye inteqrasiyasının zəif olduğunu göstərir. Halbuki bu məhsullar əsasən meyvə şirələri, konservlər və qurudulmuş meyvə məhsulları şəklində yüksək əlavə dəyər yarada bilər. Müəyyən artım dinamikasına baxmayaraq, yerli məhsuldan istifadə səviyyəsi emal sənayesində hələ də məhdud xarakter daşıyır.

Qoz-fındıq istehsalı üzrə müşahidə olunan emal artımı xüsusilə diqqətəlayiqdir. Son 13 ildə bu məhsulun emal dərəcəsi 1%-dən 6%-ə qədər yüksəlmiş, lakin 2020-ci ildən sonra geriləmə müşahidə olunmuşdur. Qeydə alınan azalma bu sahədə istehsal-emal əlaqələrinin möhkəmləndirilməsinin zəruriliyini göstərir. Emal müəssisələrinin əsas hissəsi Zaqatala, Xaçmaz və Qəbələ rayonlarında yerləşir və Avropa bazarlarına ixrac yönümlü fəaliyyət göstərir. Bununla belə, məhsulun böyük hissəsi hələ də emal

olunmadan satışa çıxarılır ki, bu da ölkənin valyuta gəlirlərinə mənfi təsir edə bilər.

Nar məhsulu üzrə emal göstəriciləri artım dinamikası göstərsə də, bu artım qeyri-sabit olmuşdur. 2023-cü ildə emal miqdarında əvvəlki illərə nisbətən 25–35% azalma qeydə alınmışdır. Bu məhsul üzrə əsas emal müəssisəsi olan “AZNAR” QSC-nin fəaliyyəti sahədəki irəliləyişə töhfə versə də, emal dərəcəsinin yüksək dəyişkənliyi mövcud potensialdan tam istifadə olunmadığını göstərir.

Üzüm məhsulu üzrə emal göstəricilərində isə kəskin azalma müşahidə olunur. Belə ki, 2010-cu ildə 47% olan emal dərəcəsi 2023-cü ildə 21%-ə düşmüşdür. Halbuki eyni dövrdə ümumi üzüm istehsalı 64% artmışdır. Bu vəziyyət şərabçılıq sənayesinin inkişaf tempinin xammal istehsalına adekvat cavab vermədiyini göstərir. Şərabçılığın və üzüm emalının inkişafı üçün texnoloji, institusional və bazar yönümlü tədbirlərin gücləndirilməsi zəruridir.

Beləliklə, cədvəldə təqdim olunan məlumatlar əsasında demək olar ki, Azərbaycan aqroemal sənayesi müxtəlif məhsul növləri üzrə qeyri-bərabər inkişaf səviyyəsinə malikdir. İstehsal və emal arasında kəsilməz inteqrasiyanın zəif olması, yerli məhsulların yüksək əlavə dəyər yaradan formada emal edilməməsi və idxaldan asılılıq bu sahədə institusional islahatlar və investisiya təşviqi zərurətini ortaya qoyur. Bütün bunlar ölkənin ərzaq təhlükəsizliyi və ixrac potensialı baxımından strateji əhəmiyyət daşıyan məsələlərdir.

**Cədvəl 2.4.2 Emal sənayesi müəssisələri tərəfindən heyvandarlıq məhsullarının emalı dərəcələri (%-lə)**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2000 ilə |
|---|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | nisbətən |
| Ət | 1 | - | 2 | 2 | 8 | 7 | 8 | 9 | 9 dəfə |
| Süd | 2 | 2 | 89 | 100 | 98 | 93 | 89 | 90 | 45 dəfə |

Mənbə: DSK İqtisadi statistika “Ərzaq balansları” 2024 2.2., 2.6. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəl 2.4.2-dən göründüyü kimi, ölkədə istehsal olunan ət məhsullarının çox az hissəsi emal edilir, əsasən ət birbaşa emal olunmadan istehlak edilir. İstehsal olunmuş ət məhsulunun emal sənayesində payının artım dinamikası kolbasa istehsalının artım dinamikası ilə bağlıdır.

Süd məhsullarının emala gedən hissəsi demək olar ki, bütün kənd təsərrüfatı məhsulları içərisində ən yüksək göstəriciyə malikdir. 2000-ci ildə istehsal olunan südün cəmi 2%-i emala yönəldilirdisə, bu rəqəm 23 ildən sonra, 2023-cü ildə 90%-ə çatmışdır. Onu da qeyd etməliyik ki, 2015 və 2017-ci illər idxal edilmiş süd məhsulunun da müəyyən hissəsi emala yönəldilmişdir. Bu əsasən idxal olunan süd tozudur ki, emal sənayesində geniş istifadə edilir. Südün emala gedən hissəsinin xüsusi çəkisi 2015-20-ci illər daha yüksək idi. Ancaq 2021-ci ildən bu rəqəm azalmağa doğru meyllənmişdir. Belə ki, 2023-ci ildə əvvəlki ilə nisbətən südün emala gedən hissəsinin xüsusi çəkisi 3%, 2021-ci ilə nisbətən isə 9% azalmışdır.

Cədvəl 2.4.2-də yun məhsulunun adı yoxdur. DSK-nin heç bir hesabatında yunun emalı ilə əlaqədar məlumatlara rast gəlinmir. Həm rəsmi hesabatlardan və həm də tədqiqat işi ilə əlaqədar görüşdüyümüz qoyunçuluq üzrə fermerlərin dediklərindən belə

məlum olmuşdur ki, ölkədə istehsal olunan yun emal olunmur, əksəriyyət hissəsi sadəcə atılır. Hər il istehsal olunan, təxminən, 16 min ton yunun sonrakı taleyi məlum deyil.

Cədvəl 2.4.2-də Azərbaycan Respublikasında emal sənayesi müəssisələri tərəfindən əsas heyvandarlıq məhsullarının, ət və südün emal dərəcələrinin illər üzrə dəyişmə dinamikası əks etdirilmişdir. Təhlil göstərir ki, heyvandarlıq məhsullarının emala cəlb olunma səviyyəsi məhsulun növünə görə kəskin fərqlənir və bu fərqlər sənaye infrastrukturunun inkişaf səviyyəsi, daxili bazarın tələbat strukturu, həmçinin məhsulun saxlanma və logistik xüsusiyyətləri ilə izah olunur.

Ət məhsulları üzrə emal dərəcəsinin 2000-ci ildə cəmi 1% təşkil etməsi, bu sahədə emal sənayesinin o dövrdə demək olar ki, mövcud olmadığını göstərir. 2023-cü ildə bu göstərici 9%-ə çatmaqla, 23 il ərzində 9 dəfə artım nümayiş etdirmişdir. Lakin bu artımın özündə nisbətən müsbət dinamika ehtiva etməsinə baxmayaraq, ümumi istehsal həcmi fonunda emala yönələn ətin payı hələ də çox aşağıdır. Bu da göstərir ki, ölkədə ət məhsullarının böyük hissəsi birbaşa satışa çıxarılır və əhalinin şəxsi istehlakına yönəldilir, halbuki yüksək əlavə dəyər yaradan məhsullar – kolbasa məmulatları, konservləşdirilmiş ət məhsulları və digər çeşidli ət emalı məhsulları üzrə sənaye istehsalı hələ lazımi səviyyəyə çatmayıb. Ət emalının strukturunda daha çox kolbasa və sosiska məhsullarının istehsalına yönəlik artım müşahidə olunur ki, bu da tələbatın artması və şəhərləşmə ilə bağlıdır.

Ən diqqətəlayiq göstəricilərdən biri süd məhsullarının emal dərəcəsinə aiddir. 2000-ci ildə cəmi 2% olan emal payı 2010-cu ildə kəskin artaraq 89%-ə, 2015-ci ildən etibarən isə 100%-ə çatmışdır. Belə yüksək göstərici yalnız yerli istehsalın deyil, həm də müəyyən dövrlərdə idxal olunmuş xammalın, xüsusilə süd

tozunun emala cəlb olunması ilə izah olunur. Süd tozu əsasən uşaq qidaları, qatıq, kəsmik və digər süd məhsullarının istehsalında geniş istifadə olunur. 2015–2020-ci illərdə südün emala yönəlmə səviyyəsi 98–100% arasında dəyişmiş, lakin 2021-ci ildən başlayaraq müəyyən eniş tendensiyası müşahidə edilmişdir. Belə ki, 2023-cü ildə südün emala cəlb olunma dərəcəsi 90%-ə enmiş, bu da 2021-ci illə müqayisədə 9%, 2022-ci illə müqayisədə isə 3% azalma deməkdir. Bu azalma həm emal müəssisələrinin texniki-təchizat problemləri, həm də süd istehsalının bölgələr üzrə qeyri-bərabər paylanması ilə əlaqələndirilə bilər.

Maraqlıdır ki, cədvəldə heyvandarlığın digər vacib məhsulu – yun haqqında heç bir statistika əks etdirilməyib. Bu həm Dövlət Statistika Komitəsinin hesabatlarında, həm də müvafiq sahə üzrə sahəvi monitorinq sistemində məlumat boşluğunun mövcudluğunu göstərir. Müstəqil tədqiqat və fermerlərlə aparılan sorğular əsasında məlum olmuşdur ki, Azərbaycanda istehsal olunan, təxminən, 16 min ton yun hər il ya istifadəsiz qalır, ya da tullantı kimi kənarlaşdırılır. Bu, ölkə üzrə yun emal sənayesinin ya mövcud olmadığını, ya da çox zəif və qeyri-rəsmi formada fəaliyyət göstərdiyini göstərir. Halbuki yun, sənaye məqsədli tekstil və tikinti sahələri üçün vacib xammal sayılır və bu resursun istifadəyə cəlb olunmaması ciddi iqtisadi itkilərə səbəb olur.

Ümumilikdə cədvəl 2.4.2 göstərir ki, heyvandarlıq məhsullarının emal potensialı yüksək olsa da, bu potensialdan istifadə səviyyəsi məhsul qrupları üzrə qeyri-bərabərdir. Süd üzrə yüksək göstəricilər olsa da, bu tendensiyanın davamlılığı son illərdə sual altına düşmüşdür. Ət üzrə göstəricilər isə hələ də struktur problemlər və emal müəssisələrinin çatışmazlıqları səbəbilə aşağı səviyyədə qalır. Yun kimi mühüm xammal üzrə isə tam bir sənaye boşluğu mövcuddur. Nəticə etibarilə, heyvandarlıq məhsullarının

dəyər zəncirində dərinləşmiş emalın təşviq olunması, texnoloji modernizasiya və regional emal müəssisələrinin təşkili bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri olmalıdır.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarının məzmun və struktur xüsusiyyətləri kənd təsərrüfatı məhsullarının emal proseslərində səmərəlilik göstəricilərinin tam və obyektiv qiymətləndirilməsini müəyyən qədər çətinləşdirir. Belə ki, statistika formalarında emal və istehsal göstəriciləri arasında birbaşa inteqrasiyanı əks etdirən vahid indikatorlar mövcud deyil və bu, analitik qiymətləndirməni məhdudlaşdırır. Bu çətinliyi aradan qaldırmaq və daha obyektiv nəticələr əldə etmək məqsədilə, tədqiqat çərçivəsində xüsusi metodoloji yanaşmadan istifadə olunmuşdur.

Bu yanaşma çərçivəsində bir tərəfdən ölkədə kənd təsərrüfatı məhsullarının istehsal həcmləri, digər tərəfdən isə həmin məhsullar əsasında emal müəssisələrində istehsal olunmuş məhsul həcmləri müqayisəli şəkildə təhlil edilmişdir. Beləliklə, ümumi xammal həcmi nəzərə alınmaqla, emala yönəldilmiş hissə, yəni birbaşa istehlaka gedən, sahə və texniki itkilərlə itirilən hissələr çıxıldıqdan sonra emal müəssisələrinin istifadəsinə verilən məhsul hesablanmış və bunun əsasında nisbi emal göstəriciləri müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, bu təhlildə yalnız yerli mənşəli xammalın emalı əsas götürülmüş, idxal məhsulları ayrı saxlanılmışdır.

Aparılmış təhlil bir neçə mühüm nəticənin əldə edilməsinə imkan vermişdir:

Birinci olaraq, müşahidə olunur ki, aqrar emal sənayesinin ümumi istehsal həcmi 1990-cı illərin sonlarında və 2000-ci illərin əvvəllərindəki iqtisadi tənəzzül dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Məsələn, əvvəllər ölkədə şəkər istehsalı demək olar ki, yox səviyyəsində idisə, 2006-cı ildən etibarən İmişli şəkər

zavodunun fəaliyyətə başlaması ilə bu məhsulun daxili istehsalı formalaşmışdır. Bundan əlavə, son iki onillikdə bir sıra digər məhsullar üzrə də nəzərəçarpacaq istehsal artımları qeydə alınmışdır: çörək və un məmulatlarının istehsalı 2 dəfə, makaron məhsullarının istehsalı 28 dəfə, meyvə-tərəvəz konservləri 7 dəfə, meyvə şirələri 30 dəfə, bitki yağları 7 dəfə, qazlı və mineral sular 200 dəfə, alkoqolsuz içkilər 6 dəfə, duz məhsulları 18 dəfə, kolbasa 11 dəfə, kərə yağı 5 dəfə, az yağlı süd məhsulları (1–3% yağlılıq) 6 dəfə, daha yüksək yağlılıq dərəcəsinə malik süd məhsulları isə 11 dəfə artmışdır. Bununla yanaşı, bəzi ənənəvi emal sahələrində (pambıq, tütün, çay və şərab istehsalı) əksinə, istehsal həcmlərinin azaldığı müşahidə olunmaqdadır ki, bu da struktur dəyişikliklərinin qeyri-bərabər xarakter daşıdığını göstərir.

İkinci nəticə ondan ibarətdir ki, keçmiş böhran dövrlərində (1990-cı illərin ortaları və sonu) emal müəssisələrinə təhvil verilən xammal həcmləri olduqca aşağı olmuş, əksinə, məhsulların əksər hissəsi ya birbaşa istehlak olunmuş, ya da qeyri-rəsmi satışa yönəlmişdir. Məsələn, südün əksər hissəsi həmin dövrdə emal sənayesinə cəlb edilmədən birbaşa istehlak üçün istifadə olunurdu. Bənzər hal ət istehsalı üçün də səciyyəvidir. Bu vəziyyət həm emal sənayesinin texniki və logistik imkanlarının məhdudluğu, həm də kənd təsərrüfatı istehsalçılarının sənaye ilə zəif inteqrasiyası ilə izah olunur.

Üçüncü və daha spesifik nəticə, emal dərəcələrinin məhsul növləri üzrə ciddi şəkildə fərqləndiyini ortaya qoyur. Belə ki, süd istehsalının 89–90%-ə qədəri emal sənayesinə yönəldiyi halda, ət məhsullarında bu göstərici 7–9%-dən yuxarı qalxmır. Meyvə və giləmeyvələr üzrə emal səviyyəsi 16%, çuğundurda 39%, qoz-fındıqda 7%, narda 8%, üzümdə 22% təşkil edir. Yunun emalına dair isə statistik məlumatların olmaması və mövcud faktiki vəziyyət

göstərir ki, bu məhsul qrupunda emal fəaliyyəti ya mövcud deyil, ya da sistemsiz və qeyri-rəsmi xarakter daşıyır. Müxtəlif məhsullar üzrə bu cür fərqlilik emal dərinliyinin qeyri-bərabər paylanmasını və potensial resurslardan səmərəli istifadənin məhdudluğunu əks etdirir.

Aydın şəkildə görünür ki, kənd təsərrüfatı məhsullarının bir çox növləri üzrə emal səviyyəsi hələ də qənaətbəxş deyil. Xüsusilə texniki bitkilər, heyvandarlıq məhsulları (xüsusilə ət və yun) kimi sahələrdə emal dərəcəsinin aşağı olması, istehsal-emal-bazar zəncirində əlavə dəyərin yaranmasını məhdudlaşdırır və nəticə etibarilə iqtisadi sistem üçün əhəmiyyətli maliyyə itkilərinə yol açır. Eyni zamanda bu vəziyyət göstərir ki, həmin sahələrdə emal potensialı mövcuddur, bazar tutumu yetərlidir, rəqabət isə aşağı səviyyədədir. Belə olan halda, aqroemal sənayesinə, xüsusilə də az inkişaf etmiş məhsul qrupları üzrə, investisiya yatırımları olduqca perspektivli və iqtisadi baxımdan cəlbedici hesab edilə bilər.

Aqroemal sahəsinin ölkənin kənd təsərrüfatının inkişafında rolu böyükdür və bunlar bir-biriləri ilə çox sıx bağlıdırlar. Aqroemal məhsullarının istehsalına təsir edən əsas amilləri nəzərdən keçirsək, bu amillərin asılılıq dərəcələrini müəyyən edə bilərik.

Aqroemal sahəsində məhsul istehsalının həcminə təsir göstərən amillərin müəyyənləşdirilməsi məqsədi ilə LS-reqressiya modeli qurulmuşdur. Modelin izahedici dəyişənləri - prediktorları kimi:

X1 - Aqroemal sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmi (milyon manatla),

X2 - Aqroemal sahəsində yaranmış əlavə dəyərin miqdarı (milyon manatla),

X3- Kənd təsərrüfatı məhsulları istehsalının həcmi (milyon manatla),

X4 - Kənd təsərrüfatına qoyulan investisiyaların həcmi (milyon manatla),

X5 - Kənd təsərrüfatında əsas fondların həcmi (milyon manatla),

X6 - Əhalinin pul gəlirlərinin miqdarı (milyon manatla) götürülmüşdür. (bax əlavə 20)

Modelin izahedici dəyişənlərinin korrelyasiya analizinin nəticələri cədvəl 2.4.3-də verilmişdir:

**Cədvəl 2.4.3 X1-X6 izahedici dəyişənlərinin karrelyasiya analizi**

| | X1 | X2 | X3 | X4 | X5 | X6 |
|---|---|---|---|---|---|---|
| X1 | 1 | | | | | |
| X2 | 0,7675 | 1 | | | | |
| X3 | 0,8148 | 0,9677 | 1 | | | |
| X4 | 0,5653 | 0,1145 | 0.2286 | 1 | | |
| X5 | 0.7887 | 0,9572 | 0.9911 | 0,2340 | 1 | |
| X6 | 0,8042 | 0,8959 | 0,9637 | 0,3561 | 0,9762 | 1 |

Mənbə: Müəllif tərəfindən Əlavə 9-un göstəriciləri əsasında EvieWs-10-da aparılmış hesablamalar

Cədvəl 2.4.3.-dən göründüyü kimi, X1-lə X2, X3, X5 və X6 dəyişənləri arasında güclü; X2 dəyişəni ilə X3 və X5 arasında çox güclü, X2 və X6 arasında güclü; X3 ilə X5 və X6 arasında çox güclü; X5 və X6 arasında çox güclü müsbət korrelyasiya əlaqəsi vardır.

*Çoxölçülü reqressiya modelində iki və daha çox eksogen-izahedici (sərbəst) dəyişənin yüksək dərəcəli korrelyasiyası multikollinearlıq adlanır [54. s.20].*

X1-X6 giriş dəyişənləri arasındakı multikollinearlıq şərtini MatLab 2021 paketində Belsley testi vasitəsi ilə müəyyən etmək olar:

**Cədvəl 2.4.4 X1-X6 dəyişənləri üçün Belsley testinin nəticəsi**

| Variance Decomposition | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| sValue | condIdx | X1 | X2 | X3 | X4 | X5 | X6 |
| 2.4073 | 1 | 0.0008 | 0.0002 | 0.0000 | 0.0009 | 0.0001 | 0.0001 |
| 0.3697 | 6.5108 | 0.0008 | 0.0147 | 0.0004 | 0.1722 | 0.0001 | 0.0002 |
| 0.2363 | 10.1866 | 0.3897 | 0.0004 | 0.0005 | 0.0094 | 0.0087 | 0.0044 |
| 0.0878 | 27.4313 | 0.1989 | 0.5331 | 0.0020 | 0.5288 | 0.0093 | 0.1638 |
| 0.0602 | **39.9982** | 0.2012 | 0.0976 | 0.0035 | 0.1386 | 0.4291 | 0.4963 |
| 0.0294 | **81.8389** | 0.2086 | 0.3539 | **0.9935** | 0.1500 | **0.5527** | 0.3351 |

Mənbə: MatWorks MatLab 2021 paketində aparılmış hesablamalar

Cədvəl 2.4.4.-dən görünür ki, condIx=39.9982 olduqda multikollinear dəyişənlər aşkar edilməsə də, condIx=81.8389 olduqda X3 dəyişəninin daha çox multikollinear olduğu (0.9935), o cümlədən, X5 dəyişəninin isə 0.5527 nisbətən kiçik olsa da, multikollinear olduğu aşkar edilir.

*Belsley diaqnostikasına görə, ikinci sütunda verilmiş şərti indeksin (condIdx) 30-dan böyük qiymətinə uyğun sətirdəki dispersiya payının 0.5-dən böyük olduğu dəyişənlərin multikollinear olduğu qəbul edilir [54. s.24].*




**Qrafik 2.4.1. Belsley multikollinearlıq testinin nəticəsi**

Mənbə: Cədvəl 2.4.4. əsasında multikollinearlıq testinin qrafiki

Aydındır ki, modelin giriş dəyişənləri arasında kollinearlığın müşahidə olunduğu halda məlum üsulla qurulan reqressiya modelinin adekvatlığından danışmaq olmur. Belə hallardan çıxış yolu kimi, baş elementlər üsulundan-PCA (Principial Component Analysis (ing.) – Əsas komponent metodu istifadə edilir. (Cədvəl 2.4.10.) Burada PCA EvieWs-10 paketində reallaşdırılmışdır və modelin X1, X2, X3, X4, X5 və X6 giriş dəyişənləri əsasında PC baş elementi qurulmuşdur:

$$PC = a_1X1 + a_2X2 + a_3X3 + a_4X4 + a_5X5 + a_6X6. \quad (1)$$

Burada $a_1 = 0{,}1689$; $a_2 = 0{,}1892$; $a_3 = 0{,}2055$; $a_4 = 0{,}031$; $a_5 = 0{,}2038$ *və* $a_6 = 0{,}2016$

kimidir. Bundan sonra modelləşdirmə Y və PC dəyişənlərinin loqarifmlənmiş qiymətləri arasında aparılmışdır:

**Cədvəl 2.4.5. L_Y və L_PC arasında reqressiya modeli**

Dependent Variable: L_Y

Method: Least Squares
Date: 04/30/24 Time: 15:23
Sample: 2008 2022
Included observations: 15

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| L_PC | 1.140224 | 0.091644 | 12.44191 | **0.0000** |
| C | -3.497145 | 0.925515 | -3.778594 | **0.0023** |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.922527 | Mean dependent var | 8.011778 |
| Adjusted R-squared | 0.916568 | S.D. dependent var | 0.408768 |
| S.E. of regression | 0.118071 | Akaike info criterion | -1.311492 |
| Sum squared resid | 0.181230 | Schwarz criterion | -1.217085 |
| Log likelihood | 11.83619 | Hannan-Quinn criter. | -1.312498 |
| F-statistic | 154.8011 | Durbin-Watson stat | 0.885606 |
| Prob(F-statistic) | 0.000000 | | |

Mənbə: EVieWs 10 ekonometrik paketində aparılmış hesablamalar

Cədvəl 2.4.5-dən göründüyü kimi, L_Y çıxış dəyişəninə L_PC giriş dəyişəninin təsiri

$$L_Y = 1.140224 * L_PC - 3.497145 \quad (2)$$

şəklindədir.

L_Y cıxış dəyişəninin müşahidə qiymətləri, model qiymətləri və bunlar arasındakı yayınmanı göstərən qalıq qiymətlərinin qrafik təsviri aşağıda verilmişdir:




**Qrafik 2.4.2. Müşahidə, model və qalıq qiymətləri**

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Qrafik 2.4.2-dən L_Y cıxış dəyişəninin müşahidə və model qiymətləri, modelin qalıqları 2-ci düsturdakı münasibətdən aşkar etmək çətin deyil. Buradan aydın olur ki, PC baş elementinin 1% artımı aqroemal sahəsində məhsul istehsalının ≈1.14% artımına səbəb olur. Aqroemal sahəsində məhsul istehsalının Y həcminə X1, X2, X3, X4, X5 və X6 giriş dəyişənlərinin ayrı-ayrılıqda təsirlərini araşdırmaq üçün 1-ci düsturdakı münasibətdən istifadə edə bilərik. Hesablamalar nəticəsində bu təsirlərin

$$L_Y = 0.1926 \cdot L_X1 + 0.2158 \cdot L_X2 + 0.2343 \cdot L_X + 0.0354 \cdot L_X4 + 0.2323 \cdot L_X5 + 0.2299 \cdot L_X6 - 3.497145 \quad (3)$$

kimi olduğunu alırıq. 3-cü düsturdan X1, X2, X3, X4, X5 və X6 dəyişənlərinin 1%-lik dəyişməsinin aqroemal sahəsində məhsul istehsalının həcmini, uyğun olaraq, 0.1926%, 0.2158%, 0.2343%, 0.0354%, 0.2323% və 0.2299% artırdığı nəticəsinə gəlirik. Daha

doğrusu, aqroemal sektorunda əsas kapitala yönləndirilən investisiyalar 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,19%, aqroemal sahəsində yaranmış əlavə dəyər 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,22%, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,23%, kənd təsərrüfatına qoyulan investisiyalar 1% artarsa, aqroemal məhsullarının istehsal həcmi 0,04%, kənd təsərrüfatının əsas fondları 1% artarsa, aqroemal məhsullarının həcmi 0,23%, əhalinin pul gəlirləri 1% artarsa, aqroemal məhsullarının həcmi 0,23% artar.

### Modelin təhlili:

#### *A_1) Modelin əmsallarının əhəmiyyətliliyi*

Cədvəl 2.4.5-dən modelin determinasiya əmsalının $R^2 = 0{,}9225\ və\ ya\ R^2 = 92{,}25\%$ -ə bərabər olduğu görünür. Bu modelin giriş dəyişənlərinin çıxış dəyişənini $92{,}25\%$ ifadə etdiyi anlamını verir.

Cədvəl 2.4.5 əsasında həm L_PC izahedici dəyişəninin əmsalının, həm də C sabitinin əhəmiyyətli olduğu görünür. Belə ki, reqressiya modelinin əmsallarının əhəmiyyətsiz olması haqqında irəli sürülmüş sıfır hipotez t-Student statistikası əsasında rədd edilir, belə ki, burada L_PC izahedici dəyişəninin əmsalı və C sabitinə uyğun ehtimallar

$$Prob_{L_PC} = 0.0000 < 0.05\ və\ Prob_C = 0.0023 < 0.05 \qquad (4)$$

şərtini ödəyir.

#### *A_2) Modelin statistik əhəmiyyətliliyi*

Cədvəl 2.4.5-in son sətirləri əsasında deyə bilərik ki, F-statistic=154.8011 və Prob(F-statistic)=0.00000<0.05 olması göstərir ki, modelə daxil edilmiş sərbəst PC giriş dəyişəninin

modelin Y-Aqroemal sahəsində məhsul istehsalının həcmi çıxış dəyişəni ilə statistik cəhətdən əhəmiyyətli əlaqəsi vardır.

### *A_3) Modelin qalıqlarının təhlili*

Qauss-Markov şərtlərinə görə, parametrləri ən yaxşı qiymətləndirilmiş reqressiya tənliyinin çıxış dəyişəninin müşahidə və model qiymətləri arasındakı fərqdən ibarət olan model qalıqları normal paylanmaya malik olmalı, onlar arasında avtokorrelyasiya olmamalı və qalıqlar homoskedastiklik xüsusiyyətli olmalıdır. Bu xüsusiyyətlərin hər biri özünəməxsus testlər vasitəsi ilə yoxlanılır.

### *A_3_1) Qalıqların normal paylanmalı olması*

Bu məqsədlə Jarque-Bera -JB testindən istifadə edilir. Testin HO sıfır hipotezi ”Qalıqlar normal paylanmaya malikdir” şəklindədir. (2) modeli üçün aparılmış bu testin nəticəsi aşağıda verilmişdir:




| | |
|---|---|
| Series: Residuals | |
| Sample 2008 2022 | |
| Observations 15 | |
| Mean | 2.91e-15 |
| Median | 0.017620 |
| Maximum | 0.214325 |
| Minimum | -0.192825 |
| Std. Dev. | 0.113776 |
| Skewness | 0.014982 |
| Kurtosis | 2.250428 |
| Jarque-Bera | 0.351723 |
| Probability | 0.838734 |

**Şəkil 2.4.1 (3) modelinin qalıqlarının normallığının yoxlanılması üçün Jarque-Bera testinin nəticəsi**

**Mənbə**: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Şəkil 2.4.1-dən göründüyü kimi, ehtimal qiymətinin $Prob_{JB} = 0.8387 > 0.05$ olması qalıqların normal paylanmaya malik olduğunu göstərir.

***A_3_2) Qalıqların avtokorrelyasiyası***

Qalıqların avtokorrelyasiyaya münasibətini Breusch-Godfrey Serial Correlation LM Test ilə yoxlayaq. Testin HO-sıfır hipotezi "Qalıqlar avtokorrelyasiyaya malik deyildir." şəklindədir. Testin nəticələri aşağıda verilmişdir:

**Cədvəl 2.4.6 (3) modelinin qalıqlarının-xətasının avtokorrelyasiya testinin nəticəsi**

Breusch-Godfrey Serial Correlation LM Test:

| | | | |
|---|---|---|---|
| F-statistic | 2.337110 | Prob. F(2,11) | **0.1426** |
| Obs*R-squared | 4.473161 | Prob.Chi-Square(2) | **0.1068** |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Həm F, həm də $\chi2$-statistikasına görə, uyğun ehtimalın 0.05-dən böyük olması (Prob. F(2,11)= 0.1426>0.05 və Prob. Chi-Square(2)=0.1068>0.05 ) HO hipotezinin qəbul olunduğunu,yəni, qalıqların avtokorrelyasiyaya malik olmadığını göstərir.

***A_3_3) Qalıqların heteroskedastikliyi***

Qalıqların heteroskedastikliyə münasibəti Breusch-Pagan-Godfrey testi ilə yoxlanmışdır. Testin HO sıfır hipotezi "Qalıqlar heteroskedastik deyildir", (başqa sözlə, homoskedastikdir); alternativ H1 hipotezi isə "Qalıqlar heteroskedastikdir" şəklindədir. Aparılmış testin nəticələri aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 2.4.7 (3) modelinin qalıqlarının heteroskedastiklik testinin nəticəsi**

Heteroskedasticity Test: Breusch-Pagan-Godfrey

| | | | |
|---|---|---|---|
| F-statistic | 2.105706 | Prob. F(1,13) | 0.1705 |
| Obs*R-squared | 2.090971 | Prob. Chi-Square(1) | 0.1482 |
| Scaled explained SS | 0.981931 | Prob. Chi-Square(1) | 0.3217 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

Uyğun ehtimalın Prob. F(1,13)=0.1705 > 0.05 olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə qalıqların homoskedastik olduğunu göstərir.

***A_4) Modelin stabillik şərtləri***

Modelin stabilliyinin yoxlanılması məqsədi ilə burada iki testdən istifadə edilmişdir:

***A_4_1) RAMSEY Reset Test***

Bu test modeli ifadə edən funksiyanın düzgün seçildiyinin yoxlanılması məqsədinə xidmət edir. Testin HO-sıfır hipotezi "Modelin funksional forması doğrudur." şəklindədir. (2) modeli üçün aparılmış Ramsey RESET testinin nəticələri aşağıda verilmişdir:

**Cədvəl 2.4.8 (3) modelinin funksional formasının düzgün seçilməsinin yoxlanması üçün Ramsey RESET testinin nəticəsi**

Ramsey RESET Test

Equation: EQ_LS_LY_LPC_1
Specification: L_Y L_PC_1 C
Omitted Variables: Powers of fitted values from 2 to 3

| | Value | df | Probability |
|---|---|---|---|
| F-statistic | 3.225039 | (2, 11) | **0.0790** |
| Likelihood ratio | 6.921733 | 2 | 0.0314 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

$Prob_{RR} = 0.079 > 0.05$ olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə modelin funksional formasnını doğru seçildiyini göstərir.

A_4_2) CUSUM test

Bu testin məqsədi modelin parametrlərinin bütün tədqiqat dövrü üçün stabil olduğunun yoxlanmasıdır. Testin HO-sıfır hipotezi “Modelin əmsalları stabildir.” şəklindədir. Qurulmuş (2) modeli üçün bu testin nəticələri aşağıda verilmişdir:




**Qrafik 2.4.3 (3) modelinin əmsallarının sabit olmasının CUSUM testinin nəticəsi**

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

CUSUM əyrisinin yol verilən 5%-lik oblastı aşmaması modelin əmsallarının bütün tədqiqat dövrü üçün stabil olduğunu göstərir.

### *A_4_3) Çou (Chow) testi*

Bu test model parametrlərinin struktur sürüşmə və kəsilmələrə malik olub-olmadığını müəyyənləşdirməyə xidmət edir. Testin HO-sıfır hipotezi "Modelin parametrlərinin struktur baxımından stabildir." şəklindədir.

Azərbaycan iqtisadiyyatında 2015-ci ildə iki dəfə baş verən devalvasiya amilinin (2) modelinin cıxış dəyişəninə –aqroemal sahəsində məhsul istehsalının həcminə təsirinin olub-olmadığını Çou testi vasitəsi ilə müəyyənləşdirə bilərik. Nəticələr aşağıda verilmişdir:

**Cədvəl 2.4.9 2015-ci ildə baş vermiş devalvasiyaların təsirlərinə nəzərən (3) modelinin əmsallarının sabitliyinin yoxlanılması üçün Çou testinin nəticəsi**

2015-ci il üçün

Chow Forecast Test
Equation: EQ_LS_LY_LPC_1
Specification: L_Y L_PC_1 C
Test predictions for observations from 2015 to 2022

| | Value | df | Probability |
|---|---|---|---|
| F-statistic | 3.409020 | (8, 5) | **0.0963** |
| Likelihood ratio | 27.97150 | 8 | 0.0005 |

Mənbə: Müəllif tərəfindən EvieWs 10 paketində aparılmış hesablamalar

$Prob_{RChow}^{2015} = 0.0963 > 0.05$ və $Prob_{RChow}^{2016} = 0.1263 > 0.05$ olması HO hipotezinin qəbul edildiyini, başqa sözlə 2015-ci ildə baş vermiş devalvasiyaların aqroemal sahəsində məhsul istehsalının həcminin (2) modelinin parametrlərinə təsir göstərmədiyini ifadə edir.

**Cədvəl 2.4.10 X1, X2, X3, X4, X5 və X6 dəyişənlərinin PC analizinin nəticəsi**

Principal Components Analysis

Date: 04/30/24 Time: 13:31

Sample (adjusted): 2008 2022

Included observations: 15 after adjustments

Balanced sample (listwise missing value deletion)

Computed using: Ordinary correlations

Extracting 6 of 6 possible components

Eigenvalues: (Sum = 6, Average = 1)

| | | | | Cumulative | Cumulative |
|---|---|---|---|---|---|
| Number | Value | Difference | Proportion | Value | Proportion |
| 1 | 4.698020 | 3.644894 | 0.7830 | 4.698020 | 0.7830 |
| 2 | 1.053126 | 0.875260 | 0.1755 | 5.751146 | 0.9585 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3 | 0.177866 | 0.122435 | 0.0296 | 5.929012 | 0.9882 |
| 4 | 0.055431 | 0.045451 | 0.0092 | 5.984443 | 0.9974 |
| 5 | 0.009980 | 0.004403 | 0.0017 | 5.994423 | 0.9991 |
| 6 | 0.005577 | --- | 0.0009 | 6.000000 | 1.0000 |

Eigenvectors (loadings):

| Variable | PC 1 | PC 2 | PC 3 | PC 4 | PC 5 | PC 6 |
|---|---|---|---|---|---|---|
| X1 | 0.410995 | 0.289137 | -0.794629 | -0.329480 | -0.058340 | 0.063926 |
| X2 | 0.434997 | -0.266406 | -0.155728 | 0.739618 | -0.402143 | -0.082459 |
| X3 | 0.453274 | -0.160922 | 0.073635 | 0.022526 | 0.713183 | -0.504070 |
| X4 | 0.176121 | 0.890250 | 0.285185 | 0.304315 | 0.049978 | 0.000135 |
| X5 | 0.451413 | -0.161293 | 0.247804 | -0.058922 | 0.224892 | 0.809170 |
| X6 | 0.449012 | -0.031153 | 0.442892 | -0.497816 | -0.522659 | -0.283322 |

Yuxarıda təqdim olunan iqtisadi-statistik modelləşdirmə nəticələri göstərir ki, aqroemal sahəsinin məhsul istehsalı kifayət qədər kompleks və çoxamilli təsirlər altındadır. LS-reqressiya modelinin parametrləri və onların statistik əhəmiyyətlilik göstəriciləri bu sahədə istehsalın əsasən kənd təsərrüfatı istehsalı, əlavə dəyər formalaşması, əhali gəlirləri və maddi-texniki baza ilə sıx bağlı olduğunu təsdiqləyir. Modelin yüksək determinasiya

əmsalı ($R^2 \approx 92,3\%$) aqroemal sektorunun inkişafının sadalanan faktorlarla izaholunma gücünün yüksək olduğunu göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, aqroemal məhsullarının istehsal həcminin artırılması yalnız sahə daxilindəki investisiya yönlü qərarlardan deyil, eyni zamanda kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi, əsas fondların gücləndirilməsi və əhali gəlirlərinin artımı kimi daha geniş struktur islahatları ilə də sıx bağlıdır. Bu baxımdan, sektoral siyasətin koordinasiyalı şəkildə həyata keçirilməsi, kənd təsərrüfatı və emal sənayesi arasında institusional sinxronluğun yaradılması strateji əhəmiyyət daşıyır.

# III FƏSİL. Dövlət tənzimləməsinin iqtisadi mexanizmləri və institusional dəstək

## 3.1. Azərbaycan iqtisadiyyatının diversifikasiyasında aqroemal sənayesinin rolu

İqtisadi diversifikasiya müasir dövrdə qlobal iqtisadi təhlükəsizlik, davamlı inkişaf və rəqabətqabiliyyət çağırışları fonunda ölkələrin uzunmüddətli sabit artım modelinə keçidini müəyyən edən əsas strateji göstəricilərdən biri hesab olunur. XX əsrin sonlarından etibarən beynəlxalq maliyyə böhranları, enerji bazarlarında qiymət dalğalanmaları və ticarət müharibələri göstərmişdir ki, yalnız məhdud sayda məhsul və ya resurs üzərində qurulmuş iqtisadi modellər xarici şoklara qarşı son dərəcə həssasdır. Belə şəraitdə iqtisadiyyatın struktur baxımından şaxələndirilməsi təkcə fiskal dayanıqlığın deyil, həm də sosial rifahın təmin olunmasının əsas şərtinə çevrilmişdir.

Xüsusilə təbii sərvətlərə əsaslanan iqtisadi sistemlərdə bir və ya bir neçə sektordan yüksək asılılıq bir tərəfdən dövlət büdcəsinin gəlirlərini beynəlxalq qiymət konyunkturasından asılı hala gətirir, digər tərəfdən isə ixrac strukturunu məhdudlaşdıraraq xarici bazarlarda rəqabət imkanlarını zəiflədir. Bu, uzunmüddətli perspektivdə makroiqtisadi dəyişkənliyə qarşı müqaviməti azaldır, həmçinin innovasiya və insan kapitalının inkişafını ləngidir. Davamlı inkişaf nəzəriyyələrində vurğulandığı kimi, iqtisadi artımın dayanıqlılığı yalnız resurs bolluğu ilə deyil, həm də həmin resursların səmərəli emalı, yeni texnologiyaların tətbiqi və istehsal sahələrinin genişlənməsi ilə ölçülür.

Azərbaycan kimi neft və qaz gəlirlərinə yüksək dərəcədə bağlı ölkələr üçün diversifikasiya siyasəti strateji seçim deyil, zəruri

tarixi imperativ kimi qiymətləndirilə bilər. Çünki resurs asılılığının azaldılması həm fiskal sabitliyin qorunmasına, həm də qeyri-neft sektorlarının, xüsusilə, kənd təsərrüfatı və aqroemal sənayesinin inkişafı hesabına ixrac bazarlarının genişlənməsinə imkan verir. Beləliklə, diversifikasiya yalnız iqtisadi bir termin deyil, həm də milli təhlükəsizlik və sosial-iqtisadi sabitlik konsepsiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bu kontekstdə Qlobal İqtisadi Diversifikasiya İndeksi (Global Economic Diversification Index – EDI) xüsusi əhəmiyyət kəsb edir. İndeks ilk dəfə Global Policy Journal və bir sıra beynəlxalq tədqiqat institutlarının əməkdaşlığı ilə hazırlanaraq 2022-ci ildən etibarən müntəzəm nəşr olunmağa başlanmışdır. Onun metodoloji bazası beynəlxalq təşkilatların – BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və ÜTT – statistik məlumatlarına əsaslanır və məqsədi ölkələrin iqtisadi struktur balansını obyektiv müqayisəli göstəricilər əsasında ölçməkdir. Bu, EDI-ni yalnız elmi tədqiqat aləti deyil, həm də siyasət formalaşdırıcıları üçün praktiki yol xəritəsi xarakterli qlobal göstəriciyə çevirir.

EDI, Mohammed Bin Rashid School of Government (MBRSG) tərəfindən yaradılıb. MBRSG (Məhəmməd Bin Rəşid Dövlət İdarəçiliyi Məktəbi) Dubayda (Birləşmiş Ərəb Əmirlikləri) yerləşir və hökumət siyasəti, dövlət idarəçiliyi və ictimai idarəçilik sahəsində tədqiqat və tədris müəssisəsidir.

EDI 2024 hesabatı 112 ölkəni əhatə etməklə, onların iqtisadi struktur balansını üç əsas subindeks üzrə qiymətləndirir:

- istehsalın diversifikasiyası (output diversification),
- ixrac strukturunun diversifikasiyası (export diversification),
- dövlət gəlirlərinin diversifikasiyası (revenue diversification).

Hər subindeks daxilində müxtəlif indikatorlar ölkələrin sektoral asılılıq dərəcəsini, məhsul və bazar çeşidini, eləcə də fiskal dayanıqlığını əks etdirir. Azərbaycanın EDI 2024 üzrə ümumi göstəricisi 81,4 bal təşkil edərək, 112 ölkə arasında 111-ci pillədə qərarlaşır. Bu nəticə ölkə iqtisadiyyatının hələ də yüksək dərəcədə xammal yönümlü olduğunu və xüsusilə neft-qaz ixracatına bağlılığın davam etdiyini təsdiqləyir. Əlavə olaraq, Azərbaycanın istesal və dövlət gəlirlərinin diversifikasiyası subindeksləri üzrə aşağı nəticələri qeyri-neft sektorunun, xüsusilə, aqroemal istehsalının və texnoloji sahələrin zəif inkişaf səviyyəsini göstərir.

Məhz bu zəifliklər iqtisadiyyatın bir neçə iri sahə üzərində mərkəzləşməsinə, sektorlararası balansın pozulmasına və qeyri-neft ixracının məhdud həcmlərdə qalmasına gətirib çıxarır. Ənənəvi olaraq kənd təsərrüfatı potensialı geniş olan Azərbaycan üçün aqroemal sənayesinin inkişafı diversifikasiya siyasətində strateji həlqə rolunu oynaya bilər. Çünki aqroemal müəssisələrinin məhsuldarlığının və ixrac payının artırılması həm ixrac strukturunun, həm də dövlət gəlirlərinin diversifikasiyasına birbaşa təsir göstərir.

İqtisadi diversifikasiyanın makro səviyyədə təhlili aqroemal sənayesinin də daxil olduğu qeyri-neft sektorunun gücləndirilməsini zəruri edir. Bu istiqamətdə tətbiq olunacaq dövlət tənzimləmə mexanizmləri – subsidiya, vergi güzəştləri, maliyyə-kredit dəstəyi və innovativ texnologiyaların tətbiqi – həm aqroemal müəssisələrinin inkişafını, həm də Azərbaycanın iqtisadi strukturunda daha balanslı və dayanıqlı modelin formalaşmasını təmin edə bilər.

Burada əsas məqsədi EDI 2024 göstəriciləri və Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında ölkənin iqtisadi diversifikasiya səviyyəsini qiymətləndirmək, mövcud struktur

zəiflikləri aşkara çıxarmaq və həmin zəifliklərin aradan qaldırılmasında aqroemal sənayesinin potensial rolunu müəyyən etməkdir. Bu təhlil, həm akademik mühit, həm də iqtisadi siyasət formalaşdıran qurumlar üçün tövsiyə xarakteri daşımaqla yanaşı, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna əsaslanan uzunmüddətli inkişaf modelinə keçidində metodoloji baza yaradır.

Qlobal iqtisadi dəyişikliklər fonunda iqtisadi diversifikasiya ölkələrin dayanıqlı inkişafı və risklərə qarşı davamlılığını təmin edən əsas strateji amilə çevrilmişdir. Diversifikasiya siyasəti yalnız bir və ya bir neçə sənaye sahəsi və ya məhsul kateqoriyasından asılılığın azaldılmasına yönəlməklə yanaşı, iqtisadi sabitliyin möhkəmlənməsi, yeni bazarların açılması və uzunmüddətli inkişafın təmin olunmasında mühüm rol oynayır. Bu baxımdan Global Economic Diversification Index (EDI) ölkələrin istehsal, ixrac və fiskal gəlir strukturunun şaxələndirilmə dərəcəsini ölçən beynəlxalq göstərici kimi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın zəif mövqeyinin səbəblərini daha aydın anlamaq üçün aparılan təhlillər postsovet məkanı ölkələri ilə müqayisədə əhəmiyyətli nəticələr ortaya qoyur. Eyni tarixi kontekstdə – 1991-ci ildə müstəqillik əldə etmiş Baltikyanı, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında diversifikasiya səviyyələri son 30 ildə kəskin şəkildə fərqlənmişdir. Baltik ölkələri Avropa İttifaqına inteqrasiya və institusional islahatlar vasitəsilə iqtisadi strukturlarını şaxələndirə bilmiş, Mərkəzi Asiya ölkələrinin bir qismi isə hələ də təbii resurslara əsaslanan iqtisadi modeldən çıxmaqda çətinlik çəkir. Azərbaycan isə, baxmayaraq ki, qeyri-neft sektorunun inkişafı üzrə bir sıra dövlət proqramları qəbul edib, hələ də resurs asılılığını tam aradan qaldıra bilməmişdir.

**Şəkil 3.1.1 Postsovet ölkələri üzrə EDİ 2024 üzrə reytinq cədvəli**[2]




Mənbə: EDİ 2024 əsasında müəllif tərtibatı

Şəkil 3.1.1-də göründüyü kimi, Estoniya (103,8), Litva (103,1), Latviya (101,5) və Belarusiya (100,7) yüksək diversifikasiya səviyyəsi ilə fərqlənirlər. Bu ölkələr iqtisadiyyatlarını zamanla texnologiya, istehsal və xidmət sektorları ilə zənginləşdirərək daha balanslı struktur formalaşdırmışlar. Əvəzində Azərbaycan (81,4) kimi ölkələr enerji resurslarından asılı qalmış, sektoral və fiskal şaxələnmə baxımından daha zəif mövqe tutmuşlar.

Qlobal İqtisadi Diversifikasiya İndeksi (EDI) üç əsas alt göstəricidən ibarətdir:

- istehsalın sektoral müxtəlifliyi (output diversification),

[2] Qlobal İqtisadi Diversifikasiya İndeksi 2024. https://economicdiversification.com/wp-content/uploads/2024/02/Global-Economic-Diversification-Index-2024_Full-report.pdf

- ixracın struktur və coğrafi şaxələndirilməsi (export diversification),
- dövlət gəlirlərinin mənbə müxtəlifliyi (revenue diversification).

**Cədvəl 3.1.1 Postsovet ölkələri üzrə EDİ 2024 altindeks göstəriciləri**

| Sıra | Ölkələr | Reytinqdə tutduğu yer (112 ölkə arasında) | İstehsalın diversifikasiyası | İxracın diversifikasiyası | Gəlirlərin diversifikasiyası |
|---|---|---|---|---|---|
| 1 | Estoniya | 37 | 104,4 | 101,68 | 107,41 |
| 2 | Litva | 39 | 102,93 | 101,00 | 107,27 |
| 3 | Latviya | 46 | 100,15 | 101,09 | 103,94 |
| 4 | Belarus | 49 | 98,53 | 100,95 | 103,17 |
| 5 | Ukraina | 51 | 97,11 | 101,67 | 102,69 |
| 6 | Russiya | 55 | 104,40 | 100,21 | 99,74 |
| 7 | Gürcüstan | 61 | 92,09 | 100,62 | 100,00 |
| 8 | Moldova | 65 | 92,96 | 101,04 | 98,76 |
| 9 | Ermənistan | 73 | 92,80 | 99,64 | 95,31 |
| 10 | Qırğızıstan | 74 | 87,24 | 99,73 | 89,44 |
| 11 | Qazağıstan | 93 | 89,71 | 99,62 | 90,14 |
| 12 | Azərbaycan | 111 | 83,04 | 99,41 | 74,25 |

**Mənbə:** Global Economic Diversification Index (GEDI) – The Index hesabatına əsasən müəllif tərtibatı

Cədvəl 3.1.1-dən göründüyü kimi, birinci yerləri tutan ölkələr (Estoniya, Litva, Latviya) sektor və fiskal diversifikasiyanın ən yüksək səviyyəsinə malik ölkələrdir. Bu ölkələr sürətli institusional islahatlar, Avropa İttifaqı ilə inteqrasiya, texnologiya yönümlü iqtisadi strukturlar və güclü fiskal intizam vasitəsilə həm istehsalın,

həm də gəlir mənbələrinin şaxələndirilməsində mühüm uğurlar əldə ediblər. Onların iqtisadiyyatları daha balanslı və davamlıdır.

Bu müqayisə göstərir ki, postsovet ölkələrinin diversifikasiya səviyyələrinə təkcə iqtisadi resursların mövcudluğu deyil, həm də bilavasitə institusional idarəetmə, strateji planlaşdırma və beynəlxalq inteqrasiyanın miqyası təsir göstərir.

Azərbaycanın iqtisadi diversifikasiyası sahəsində əldə etdiyi nəticələr göstərir ki, ölkədə istehsal strukturunda müəyyən şaxələnmə baş versə də (83.04 bal), əsasən enerji sektoruna əsaslanan iqtisadi model hələ də qalmaqdadır. İxrac diversifikasiyası üzrə yüksək göstərici (99.41 bal) ölkənin bir sıra yeni bazarlara çıxış imkanları əldə etdiyini göstərsə də, ixrac strukturunda xam neft və təbii qazın dominantlığı reallıqda bu göstəricinin dayanıqlılığını azaldır. Ən zəif nəticə isə gəlir diversifikasiyası sahəsində müşahidə olunur (74.25 bal) ki, bu da dövlət büdcəsinin neft gəlirlərinə yüksək asılılığını və fiskal dayanıqlılığın zəif olduğunu təsdiqləyir. Ümumilikdə, Azərbaycanın EDI üzrə nəticələri iqtisadi strukturlaşma səylərinin davam etdiyini göstərsə də, dayanıqlı və inklüziv inkişaf üçün daha dərin institusional və sektorlararası islahatlara ehtiyac olduğunu ortaya qoyur.

İlk olaraq istehsal diversifikasiyasını nəticələrini özündə göstərən makroiqtisadi göstəricilərini dinamikasını nəzərdən keçirək.




**Qrafik 3.1.1 Azərbaycanda ÜDM-in formalaşmasında iştirak edən əsas gostəricilərin dinamikası**

Mənbə: Azərbaycan DSK-nin (2022) məlumatları əsasında müəllif tərtibatı.

Qrafik 3.1.1-dən göründüyü kimi, 2000–2022-ci illər ərzində Azərbaycanın ÜDM-i əsasən təbii resurslara, xüsusilə mədənçıxarma sənayesinə əsaslanmağa davam etmişdir. Strukturda nəzərəçarpacaq diversifikasiya istiqamətində ciddi irəliləyiş müşahidə olunmur. Xidmətlər sektoru 48%-lik payla lider mövqedə olsa da, yüksək əlavə dəyər yaradan sahələrin bu strukturda zəif təmsil olunması dayanıqlı diversifikasiyanı təmin etmir. Emal sənayesinin ümumi ÜDM-də cəmi 9.8%-lik paya malik olması ölkədə istehsal dərinliyinin aşağı olduğunu və rəqabətqabiliyyətin məhdudluğunu göstərir.

Bu kontekstdə aqroemal sənayesi xüsusi diqqət tələb edən sahədir. Kənd təsərrüfatı sektoru ÜDM-də 5.6% təşkil etsə də, əhalinin məşğulluğunda mühüm paya sahibdir. Lakin məhsuldarlığın aşağı səviyyəsi səbəbindən onun iqtisadi çəkiyə çevrilməsi zəif qalır. Aqroemal sənayesinin inkişaf etdirilməsi kənd təsərrüfatı xammalının daha dərin emalı, əlavə dəyərin artırılması və ixrac strukturunun şaxələndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Belə ki, kənd təsərrüfatı ilə emal sənayesi arasında yaradılacaq sinerji Azərbaycanın iqtisadi diversifikasiya səviyyəsini yüksəldə, qeyri-neft ixracını gücləndirə və regionlarda iqtisadi fəallığı artıraraq məşğulluğun strukturunu optimallaşdıra bilər.

Son 20 ildə neftdən asılılığın azaldılması məqsədilə qəbul edilən strateji sənədlərə baxmayaraq, rəsmi statistikalar real struktur dəyişikliklərinin zəifliyini təsdiqləyir. Bu vəziyyət EDI 2024-də Azərbaycanın istehsal diversifikasiyası (Output Diversification) göstəricisinin aşağı nəticə göstərməsini əsaslandırır və xüsusən emal sənayesinin, onun daxilində isə aqroemal sektorunun inkişafını strateji prioritetə çevirir.

Əgər biz Azərbaycanın müstəqilliyinin ilk illərindən 2023-cü ilədək (1992–2023-cü illər) məşğul əhalinin sektoral strukturunun dinamikasına nəzərdən keçirsək, o zaman ölkənin iqtisadi diversifikasiya potensialının dəyişməsi baxımından mühüm nəticələr ortaya qoya bilərik.

**Cədvəl 3.1.2 Məşğul əhalinin sektorlar üzrə dinamikası %-lə**

| Sektorlar | 1992 | 2000 | 2010 | 2023 |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 38,5 | 42,0 | 37,8 | 35,8 |

| | | | | |
|---|---|---|---|---|
| Ümumi sənaye | 15,0 | 12,5 | 11,0 | 10,5 |
| O cümlədən: | | | | |
| neft qaz sənayesi | 5,0 | 6,0 | 6,5 | 7,0 |
| Qeyri-neft sənayesi | 10,0 | 6,5 | 4,5 | 3,5 |
| Tikinti | 4,0 | 5,0 | 6,0 | 7,8 |
| Ticarət və xidmətlər | 18,0 | 20,0 | 22,5 | 24,0 |
| Təhsil və səhiyyə | 10,0 | 9,5 | 9,0 | 8,5 |
| Dövlət idarəçiliyi və müdafiə | 8,0 | 6,0 | 5,0 | 4,6 |
| Digər sektorlar | 6,5 | 5,0 | 8,7 | 8,8 |

Mənbə: Azərbaycan DSK-nin müxtəlif illər üzrə rəsmi hesabatlar əsasında müəllif tərtibatı

Cədvəl 3.1.2-dən göründüyü kimi1992–2023-cü illər üzrə məşğul əhalinin sektoral strukturunun dinamikası Azərbaycanın iqtisadi diversifikasiya potensialının dəyişməsi baxımından mühüm nəticələr ortaya qoyur. 1992-ci ildə kənd təsərrüfatı sektoru məşğulluğun ən böyük hissəsini (38.5%) təşkil edirdi. Sonrakı illərdə bu göstəricidə nisbətən azalma baş versə də (2023-cü ildə 35.8%), bu proses yalnız sektorun zəifləməsi ilə deyil, həm də texniki tərəqqinin təsiri ilə izah olunur. Müasir texnologiyaların, mexanikləşmənin və avtomatlaşdırmanın kənd təsərrüfatında geniş tətbiqi nəticəsində məhsuldarlıq yüksəlmiş və az sayda işçi ilə daha çox məhsul istehsal etmək mümkün olmuşdur.

Sənaye sektorunda daha diqqətəlayiq dəyişiklik qeydə alınmışdır. Qeyri-neft sənayesində məşğulluq 1992-ci ildə 10% olduğu halda, 2022-ci ildə 3.5%-ə qədər azalmışdır. Əvəzində, neft-qaz sənayesinin sənaye sektorundakı xüsusi çəkisi artmışdır. Bu dəyişiklik Azərbaycan iqtisadiyyatının resurs yönümlü modelə doğru meylləndiyini, qeyri-neft sahələrinin zəiflədiyini və diversifikasiya səylərinin zəiflədiyini təsdiq edir.

Tikinti və ticarət-xidmət sahələrinin payı isə artmışdır. Tikinti sektorunda məşğulluğun 4%-dən 7.8%-ə, ticarət və xidmət sahələrində isə 18%-dən 24%-ə qədər yüksəlməsi, iqtisadi strukturda xidmət yönümlü modelə keçidin göstəricisidir.

Dövlət idarəetməsi və müdafiə sahəsində məşğulluğun nisbi azalması isə faktiki iş yerlərinin artmasına baxmayaraq, ümumi məşğulluğun sürətli artım tempinə nisbətən daha ləng böyüməsi ilə izah olunur.

Ən əhəmiyyətlisi isə sahələrarası balansın pozulmasıdır. Kənd təsərrüfatından azalan işçi qüvvəsi yüksək əlavə dəyər yaradan sənaye və texnologiya sahələrinə deyil, əsasən aşağı məhsuldarlığa malik tikinti və xidmət sahələrinə yönəlmişdir. Bu, iqtisadi strukturun şaxələndirilməsi əvəzinə, dayanıqsız sektorlar üzərində cəmləşməsinə gətirib çıxarmışdır və Azərbaycanın EDI 2024 üzrə zəif mövqeyinin əsas səbəblərindən birini təşkil edir.

Azərbaycanda yüngül sənaye üzrə bəzi məhsulların istehsal dinamikasında diversifikasiya imkanlarının əldən buraxıldığını aydın görmək olar. Ölkə müstəqillik qazanandan sonrakı illərin dinamikası iqtisadiyyatın şaxələnməsi prosesinin necə ləng getdiyini göstəricisidir.

**Cədvəl 3.1.3 Yüngül sənaye üzrə bəzi məhsulların istehsal dinamikası**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ parçalar mln.kv.m. | 150,9 | 59,5 | 0,7 | 3,5 | 1,8 | 9,9 | 30,0 | 28,6 |
| İpək parçalar min kv. m. | 33500 | 801,0 | 7,8 | 437,2 | 735,8 | 272,4 | 0 | 322,8 |
| Corab məmulatı mln. ədəd | 37,8 | 0,3 | 0,7 | 3,0 | 2,0 | 3,7 | 3,0 | 4,2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Xalça və xalçaçılıq məmulatı min.kv.m. | 2243 | 77 | 15,8 | 11,8 | 3,3 | 0,4 | 1,3 | 3,5 |
| Ayaqqabı mln. cüt | 15,2 | 0,8 | - | 0,3 | 0,3 | 0,1 | 0,5 | 0,7 |

Mənbə: Azərbaycan DSK-nin hesabatları (2023) əsasında müəllif tərtibatı.

Cədvəldə 3.1.3-də qeyd olunan yüngül sənayenin əsas məhsullarının istehsalının dinamikası onu göstərir ki, 1990-1995-ci illərin böhranından sonra bu sahə hələ də özünə gəlməmiş və ona görə də idxal məhsulları yerli bazarda dominant mövqe sərgiləyirlər. Belə ki, 1990-cı illər bütün növ parçalar istehsalı 150,9 mln. kv. metr təşkil edirdisə, 2023-cü ildə bu rəqəm 5,3 dəfə az, 28.6 mln. kv. metr təşkil edir. 2000-ci ildə parça istehsalı demək olar ki, tamamilə tənəzzülə uğramışdır və həmin ildən də başlayaraq istehsal 1990-cı il səviyyəsinə çatmasa da, qismən bərpa olunmağa başlamışdır.

İpək parça istehsalı 1990-cı ilə nisbətən 104 dəfə azalmışdır.

Corab məmulatlarının istehsalında da eyni mənzərə ilə rastlaşırıq. 2023-cü ildə corab istehsalı 1990-cı ilə nisbətən 9 dəfə azalmış və bu sahə əsasən idxaldan asılı vəziyyətə düşmüşdür. Onu da qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi minimum istehlak səbətinin tərkibində adambaşına corab istehlakının norması il ərzində 5 cüt qəbul edilmişdir (Cabinet of Ministers of the Republic of Azerbaijan, 2014). Deməli, yerli corab istehsalı il ərzində minimum istehlak səbətində göstərilən normanın 0,7%-ni təmin edə bilir. Müasir istehlakçı tələbatına uyğun çorab istehsal etmək və idxaldan asılılığı azaltmaq üçün ölkənin potensialı böyükdür və bununla əlaqədar fəaliyyətin olmaması, daxili bazarda idxal məhsullarının dominantlıq etmələri başa düşülən deyil.

Yüngül sənaye məhsulları içərisində xalça və xalçaçılıq məmulatlarının istehsalı öz ağır günlərini yaşayır. Bir vaxtlar – 1990-cı ildə 2243 min kvadrat metr xalça istehsal olunurdu. 2023-cü ildə xalça istehsalı 1990-cı ilə nisbətən 641 dəfə azalaraq 3,5 min kvadrat metr olmuşdur.

Eyni vəziyyəti ayaqqabı sənayesinə də aid etmək olar. Belə ki, ayaqqabı istehsalı 2023-cü ildə 1990-cı ilə nisbətən 22 dəfə azalmışdır. 1990-cı ildə 15,2 mln.cüt ayaqqabı istehsal olunurdu, 2023-cü ildə bu rəqəm 0,7 mln. cütə düşmüşdür. Bu sahə də tamamilə idxaldan asılı vəziyyətə düşmüşdür. 2023-cü ildə 32 mln. cüt ayaqqabı istehlak olunmuşdur ki, bunun da cəmisi 0,7 mln. cütü yerli istehsaldır. Bu o deməkdir ki, ölkənin ayaqqabı bazarı tamamilə idxaldan asılı vəziyyətə düşüb.

Onu da qeyd etməliyik ki, 2023-cü ildə Azərbaycanda ət və ət məhsullarının istehsalı və satışı məqsədilə bir milyon başdan çox iribuynuzlu mal-qara, 4,1 mln. baş xırda buynuzlu heyvan kəsilmişdir. Bu hesabla bir milyon ədəd iribuynuzlu heyvan, 4,1 mln. ədəd isə xırdabuynuzlu heyvan dərisi olmalı idi. Kəsilmiş mal-qara dəriləri emal olunaraq ixrac olunur. Xırda buynuzlu heyvanların cəmi 16%-dən istifadə olunur, qalan dərilər isə yığılmır və sadəcə tullantıya gedir.

Bu rəqəmlər bir daha sübut edir ki, yerli ayaqqabı istehsalının həcmini və keyfiyyətini artırmaq üçün potensialımız var və bundan səmərəli istifadə etmək üçün dövlətin müdaxiləsinə böyük ehtiyac vardır. Hər şeydən öncə ölkədə müasir avadanlıqlar və texnologiyalar əsasında işləyən dəri emalı zavodlarının sayı artırılmalıdır.

Müasir innovativ texnologiyalara əsaslanan ayaqqabı fabriklərinin qurulması istiqamətində dövlətin həvəsləndirici tədbirlərinin həyata keçirməsi tamamilə böhran vəziyyətdə olan bu

sahənin dirçəldilməsi üçün güclü təkan olardı. Qeyd etməliyik ki, hökümət böhran vəziyyətində olan ayaqqabı sənayesinin dirçəldilməsi və inkişaf etdirilməsi üçün ciddi tədbirlər görməli, bütün kəsilmiş mal-qara və qoyun-quzunun dərilərinin emala cəlb edilməsi, yerli bazarda yerli məhsulların mövqelərinin yaxşılaşdırılması istiqamətində və ayaqqabı sənayesini inkişaf etdirilməsi və, nəhayət, idxaldan asılılığa son qoymaq üçün təsirli tənzimlənmə rıçaqlarından istifadə edilməlidir.

Azərbaycanda 2023-cü ilin sonunda 7,0 mln. baş qoyun-keçi mövcud olmuşdur. Bu rəqəm xalçaçılığın inkişafı üçün əsas amillərdən biridir. 2023-cü ildə 15,1 min ton yun istehsal olunmuşdur. Təəssüf ki, ölkədə bu potensialdan lazımi səviyyədə istifadə edilmir, istehsal olunmuş yun sadəcə olaraq tullantıya gedir. Azərbaycanda yüngül sənayedə 1990-1995-ci illərdə başlamış böhran vəziyyət hələ də davam edir. Ölkə ümumilikdə yüngül sənaye məhsulları üzrə idxaldan asılı vəziyyətdədir. Belə ki, 2023-cü ildə, orta hesabla, 157 mln. dollar dəyərində xam pambıq ixrac edirik, əvəzində isə bu sahəyə aid 474,2 mln. dollarlıq hazır məhsul və yarımxammal idxal edirik.

Azərbaycan ixrac strukturunun və bazarlarının şaxələndirilməsi (Export Diversification) altindeksi üzrə ölkə 99,41bal yığmışdır. Ümumiyyətlə, ixracın strukturu ölkə iqtisadiyyatının diversifikasiya dərəcəsini ölçən ən dolğun göstəricilərdən biridir. Ona görə də 2022-ci ildə Azərbaycanın ixrac strukturuna nəzər salsaq, problemə daha çox aydınlıq gətirmiş olarıq.

**Şəkil 3.1.2 Azərbaycanın ixrac strukturu**







Mənbə: Azərbaycan DSK-nin (2023) hesabatları əsasında müəllif tərtibatı

Şəkil 3.1.2-dən göründüyü kimi Azərbaycan iqtisadiyyatının 2022-ci il üzrə ixrac strukturu vizual və analitik baxımdan iki hissəli şəkildə təqdim edilmişdir:

1. Sol tərəfdə – ümumi ixrac strukturu,
2. Sağda isə – qeyri-neft və qaz məhsullarının daxilindəki tərkib.

Bu təqdimat forma yalnız strukturun izahını asanlaşdırmır, eyni zamanda iqtisadi modelin dayanıqlılığı və səmərəliliyi ilə bağlı strateji boşluqları da ortaya çıxarır.

Ümumi ixracın təqribən 87%-i enerji resursları ilə birbaşa bağlıdır. Bu, ölkənin qlobal qiymət dəyişkənliklərindən yüksək asılı olduğunu, iqtisadi təhlükəsizliyin isə bir neçə bazar və məhsul üzərində qurulduğunu göstərir.

Kiçik (sağdakı) diaqramda "qeyri-neft, qaz məhsulları" bölməsinin tərkibi dərinləşdirilərək göstərilmişdir. Bu hissənin

ümumi ixracdakı payı, cəmi 10.7%-dir, lakin onun öz daxilində struktur daha da problematikdir.

Bu bölgü göstərir ki, Azərbaycanın qeyri-neft ixracı əsasən aşağı dəyər zəncirinə malikdir. Başqa sözlə, ölkə pambıq lifi, barama, gön-dəri kimi xammal ixrac edir, halbuki bunların emalı nəticəsində daha yüksək əlavə dəyərli məhsullar – tekstil, geyim, ayaqqabı, qida məhsulları və konservləşdirilmiş kənd təsərrüfatı malları – istehsal edilə bilərdi. Bu, yerli sənaye ilə xammal ixracı arasında koordinasiyanın zəif olduğunu və nəticədə iqtisadi səmərəsizliyin yarandığını göstərir.

Azərbaycan iqtisadiyyatında ixracın diversifikasiyası, xüsusilə qeyri-neft sektorunun inkişafı strateji prioritetlərdən biridir. Neft və qaz gəlirlərinin üstünlük təşkil etdiyi ixrac strukturunda qeyri-neft məhsullarının payının artırılması, həm iqtisadi dayanıqlığın güclənməsi, həm də yeni bazarlara çıxış baxımından xüsusi əhəmiyyət kəsb edir. Aşağıdakı cədvəldə son 5 ildə qeyri-neft qaz ixracının həcmi, onun ümumi ixracdakı xüsusi çəkisi, həmçinin idxalın dinamikası və əsas məhsul qrupları üzrə göstəricilər təqdim olunmuşdur. Bu məlumatlar Azərbaycanın xarici ticarətində diversifikasiya prosesinin gedişini izləməyə imkan verir.

**Cədvəl 3.1.4 Azərbaycanın xarici ticarətində qeyri-neft sektorunun rolu (2020–2024)**

| Göstəricilər/ illər | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| Qeyri-neft qaz ixraçı mld. dollar | 1,8 | 2,7 | 3.0 | 3,3 | 3.4 |
| Ümumi ixracda qeyri-neft qaz ixracının payı %-lə | 13,5 | 12,2 | 7.9 | 9.9 | 12,6 |
| Cəmi idxal mld. dollar | 10,7 | 11,7 | 14.5 | 17,3 | 21,1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| O cümlədən: | | | | | |
| Yeyinti məhsulları mld. dollar | 1,6 | 1,9 | 2,4 | 2,2 | 2,4 |
| Geyim malları mln. dollar | 206 | 261 | 290 | 415 | 416 |

Mənbə: DGK-nin 2020-2024-cü illər statistikası əsasında müəllif tərtibatı https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda

Cədvəl 3.1.4-dən göründüyü kimi Azərbaycanın qeyri-neft ixracı artsa da, idxal tempi daha sürətlidir. Qeyri-neft ixracının ümumi ixracda payı sabit yüksək səviyyəyə qalxmayıb. İdxalda isə yeyinti və geyim mallarının artması daxili istehsalın idxalı tam əvəz etmədiyini göstərir.

Azərbaycanın ixrac strukturunun təhlili göstərir ki, 2022–2024-cü illər ərzində ixrac olunan malların çeşidində azalma tendensiyası müşahidə olunmuşdur. Belə ki, 2022-ci ildə ixrac olunan malların çeşidi 3737 adda, 2023-cü ildə 3524 adda, 2024-cü ildə isə 3444 adda olmuşdur. 2024-cü ildə 2022-ci ilə nisbətən 8% və ya 293 adda mal çeşidinin ixracı azalmışdır. İxrac məhsullarının çeşidinin daralması iqtisadiyyatın məhsul müxtəlifliyi baxımından zəifliyini və ixracın struktur dayanıqlılığında müəyyən risklərin mövcudluğunu əks etdirir.

Belə nəticəyə gəlmək olar ki, ixrac çeşidinin azalması Azərbaycanın qlobal bazarlarda rəqabət mövqeyini zəiflədir, çünki məhsul növlərinin çoxluğu yalnız statistik göstərici deyil, həm də iqtisadi diversifikasiyanın keyfiyyət indikatoru kimi çıxış edir. Əgər ixrac çeşidlərinin sayı azalırsa, bu, ölkənin ixrac potensialının daha çox məhdud məhsul qrupları üzərində cəmləşdiyini, nəticədə xarici bazarlarda şoklara qarşı həssaslığın artdığını göstərir.

İxrac çeşidlərinin son üç ildə davamlı azalması Azərbaycanın qeyri-neft sektorunda, xüsusilə də aqroemal sənayesində dəyər

zəncirlərinin tam istifadə olunmamasına işarədir. Əgər xammal ixracı hazır məhsul ixracı ilə əvəz olunmasa, məhsul müxtəlifliyinin azalması ixracın keyfiyyətcə zəifləməsi və iqtisadi təhlükəsizlik üçün əlavə risklər yaradacaqdır.

Azərbaycanın ixrac bazarlarının şaxələndirilməsi sahəsində vəziyyət narahatedicidir. Belə ki, 2023-cü ildə 193 ticarət partnyorları arasında ilk 5 ölkə ixracın 72,4%-ni təşkil edir.




**Şəkil 3.1.3 Azərbaycanın ixrac bazarlarının ilk 5 əsas tərəfdaşlarının xüsusi çəkisi %-lə. 2023-cü il**

Mənbə: Azərbaycan DSK hesabatı (2023) əsasında müəllif tərtibatı

Şəkil 3.1.3-dən göründüyü kimi Azərbaycanın 2023-cü ildəki ixrac strukturu çox yüksək dərəcədə konsentrasiya olunmuş şəkildə bir neçə əsas ölkəyə yönəlib. Bu isə ölkənin ixrac siyasətində geosiyasi və iqtisadi asılılıqların formalaşmasına səbəb ola bilər. Azərbaycanın ümumi ixracının 60,7%-i təkcə İtaliya və Türkiyəyə yönəlir. Bu göstərici əsasən xam neft və təbii qazın ixracı ilə bağlıdır, çünki İtaliya və Türkiyə Azərbaycan neft və qazının əsas idxalçılarıdırlar.

Azərbaycanın ixrac strukturunun dar olması ciddi risklər yaradır. Geosiyasi dəyişikliklər, ticarət məhdudiyyətləri və ya neft qiymətlərinin enməsi iqtisadi sabitliyi təhdid edə bilər. 2014 və 2020-ci illərdə neftin ucuzlaşması ilə bağlı yaranan büdcə və valyuta ehtiyatı itkisi bu risklərin reallığını göstərmişdir.

Qeyri-neft ixracının strukturunda da əsasən emal olunmamış kənd təsərrüfatı və xammal məhsulları üstünlük təşkil edir. Hazır sənaye məhsullarının payının azlığı əlavə dəyərin məhdudluğu ilə nəticələnir və Azərbaycanın qlobal dəyər zəncirlərinə inteqrasiya imkanlarını zəiflədir. Nəticədə ölkənin ixracı neftin dünya qiymətlərinə həssas olur, bu isə manatın dəyər itirməsi, idxal inflyasiyası və sosial sabitlik baxımından təhlükə yaradır.

Bazar və məhsul şaxələndirilməsinin zəifliyi Azərbaycanın ticarət siyasətində müstəqil qərarvermə imkanlarını məhdudlaşdırmaqla yanaşı, milli iqtisadi təhlükəsizlik baxımından da sistemli risklər formalaşdırır. Bu kontekstdə hazır məhsul əsaslı ixracın təşviqi, yeni və perspektivli xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi, eləcə də sənayeləşmə yönümlü struktur islahatlarının həyata keçirilməsi Azərbaycanın iqtisadi inkişaf strategiyasında prioritet istiqamətlər kimi müəyyənləşdirilməlidir. Mövcud şərait, həmçinin sənaye siyasətinin yenidən qurulmasını, qeyri-neft sektorunda dəyər zəncirinin bütövləşdirilməsini və ixrac strukturunun mərhələli şəkildə yüksək əlavə dəyərli və texnoloji hazır məhsullar əsasında formalaşdırılmasını zəruri edir.

Azərbaycanın qeyri-neft sektorunda ixrac imkanlarının məhdud qalmasının səbəblərindən biri də ölkənin hələ də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tamhüquqlu üzv olmamasıdır. ÜTT üzvlüyü olmayan ölkələr beynəlxalq bazarlarda tarif və qeyri-tarif maneələrlə daha çox qarşılaşır, bu isə qeyri-neft məhsullarının

ixracında əlavə xərclər və texniki çətinliklər yaradır. Bundan əlavə, ÜTT prinsiplərinə əsaslanan ticarət güzəştlərinə çıxışın məhdudluğu qeyri-neft sektorunun məhsullarının rəqabət qabiliyyətini azaldır və yeni bazarlara çıxışı çətinləşdirir. ÜTT-yə üzvlüyün olmaması həmçinin xarici sərmayələrin cəlb edilməsində hüquqi sabitlik siqnalının zəif olmasına gətirib çıxarır ki, bu da qeyri-neft sektorunun inkişafını dolayısı ilə ləngidir.

Dəyər zəncirindən tam istifadə olunmaması, xüsusilə, aqroemal sənayesi nümunəsində daha aydın görünür. Azərbaycan zəngin kənd təsərrüfatı xammal bazasına malik olsa da, ixracın böyük hissəsi ilkin formada – emal olunmadan xaricə göndərilir. Halbuki aqroemal sənayesinin inkişafı pambıq lifinin ipliyə və tekstilə, baramanın ipək parçaya, xammal meyvə-tərəvəzin şirəyə, konservə və digər yüksək dəyərli məhsullara çevrilməsinə imkan verə bilər. Bu istiqamətdə institusional dəstəyin gücləndirilməsi həm ixracın dəyər zəncirini uzadacaq, həm də qeyri-neft sektorunun diversifikasiyasını real məzmunla dolduracaqdır.

Bu şəkillər əsasında belə nəticə çıxarmaq olar ki, Azərbaycan yalnız sektoral deyil, struktur daxilində də diversifikasiya boşluqları ilə üz-üzədir. Qeyri-neft sektoru mövcud olsa da, onun özü də xammal yönümlü xarakter daşıyır. Ən təhlükəli cəhət isə ondan ibarətdir ki, yerli emal və aqroemal sənaye inkişaf etdirilmədən ixrac artımı yalnız "xammal çıxışı" formasında reallaşır.

Büdcə gəlirlərinin sektoral tərkibi və asılılıq dərəcəsi (Revenue Diversification) altindeksi üzrə Azərbaycan Rusiya, Qazaxıstan, Ermənistandan irəlidədir. Bu altindeks dövlətin maliyyə dayanıqlığını müəyyən edən əsas parametrlərdən biridir. Büdcə gəlirlərinin nə qədər sektoral olaraq şaxələndiyini, hansı dərəcədə resurslardan (xüsusilə neftdən) asılı olduğunu və alternativ mənbələrin gücünü qiymətləndirir. Burada mənzərəni

aydınlatmaq üçün ölkənin büdcə gəlirlərinin strukturunu göstərməliyik.

**Şəkil 3.1.4 Azərbaycanın 2023-cü ildə dövlət büdcəsinin sektorial tərkibi**




Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2023-cü il dövlət büdcəsinin icrasına dair hesabatı əsasında müəllif tərtibatı

Şəkil 3.1.4-dən göründüyü kimi 2023-cü ildə Azərbaycanın dövlət büdcəsinin gəlir strukturunda ən böyük pay (təxminən 51,5%) Dövlət Neft Fondundan (ARDNF) transfertlərə və neft sektorundan gələn gəlirlərə məxsusdur. Bu, büdcə gəlirlərinin demək olar ki, yarısından bir qədər çoxunun birbaşa neft resurslarına bağlı olduğunu təsdiqləyir.

İkinci ən iri gəlir mənbəyi – qeyri-neft sektorundan toplanan vergi gəlirləri (27,6%) – hələ də kifayət qədər balanslaşdırılmış

büdcə üçün yetərli deyil. Yəni ölkənin real sektorunda istehsal və dövriyyə üzrə fiskal baza zəif olaraq qalır.

Büdcənin neft amilindən yüksək asılılığı, dünya neft bazarında qiymət dəyişiklikləri, hasilat həcmi və geosiyasi risklər qarşısında fiskal dayanıqlılığı zəiflədir. Neftin qiymətində 20–30% azalma büdcə gəlirlərində milyard manatlarla azalma yarada bilər.

Azərbaycanın büdcə gəlirlərinin bu cür strukturlaşdırılması onu göstərir ki:

- Fiskal dayanıqlıq hələ də enerji resurslarına dirənir,
- Alternativ gəlir mənbələrinin payı artırılmayıb,

Bütün bunlar struktur gəlirlərin diversifikasiyası altindeksində zəif mövqe ilə nəticələnir

Azərbaycan iqtisadiyyatında diversifikasiyanın zəifliyi həm struktur, həm də institusional amillərlə bağlıdır. Ən mühüm səbəb iqtisadi strukturun neft-qaz sektoruna artan asılılığıdır. İstehsalın və ixracın böyük hissəsinin enerji resurslarına yönəlməsi iqtisadiyyatın şaxələndirilməsini zəiflədir və resurs yönümlü modelin davam etməsinə şərait yaradır. Məşğulluq strukturunun təhlili göstərir ki, qeyri-neft sənayesində işçi qüvvəsinin payı azalmış, sənaye sahəsində isə neft və qaz hasilatı üstün mövqe qazanmışdır.

Əmək bazarında da balanssızlıq müşahidə olunur. Kənd təsərrüfatından azalan işçi qüvvəsi yüksək əlavə dəyər yaradan sənaye və texnologiya sahələrinə deyil, əsasən aşağı məhsuldarlığa malik tikinti və xidmət sahələrinə yönəlmişdir. Bu proses iqtisadi strukturun keyfiyyətli transformasiyasını əngəlləmiş, qeyri-neft sektorunun, o cümlədən aqroemal sənayesinin inkişaf potensialını məhdudlaşdırmışdır.

Diversifikasiyanın zəifliyinə təsir edən amillərdən biri də qeyri-neft emal sənayesinin, xüsusilə aqroemal sahəsinin zəif inkişafıdır. Bu sahəyə investisiya cəlbinin məhdudluğu, innovasiya və texnoloji

modernləşmənin ləngliyi, dəstək mexanizmlərinin yetərsizliyi istehsal zəncirinin dərinləşməsinə mane olmuşdur. Nəticədə ixrac strukturunda yüksək əlavə dəyər yaradan məhsulların payı aşağı səviyyədə qalmış, kənd təsərrüfatı xammalı əsasən ilkin formada ixrac edilmişdir. Halbuki aqroemal sənayesinin gücləndirilməsi bu xammalı yüksək dəyərli emal olunmuş məhsula çevirməklə həm ixracın, həm də ÜDM-in şaxələndirilməsinə mühüm töhfə verə bilərdi.

İnstitusional və idarəetmə məhdudiyyətləri də mühüm rol oynamışdır. İqtisadi fəaliyyət mühitində şəffaflığın yetərsizliyi, inzibati maneələrin mövcudluğu və islahatların gecikməsi biznes mühitini zəiflətmiş, qeyri-neft sektorunun genişlənməsinə, o cümlədən aqroemal müəssisələrinin ixrac imkanlarına əngəl törətmişdir. İdarəetmədə effektivliyin aşağı olması diversifikasiya siyasətinin nəticəliliyini ləngitmişdir.

Geosiyasi faktorlar da nəzərəçarpacaq təsir göstərmişdir. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20%-nin uzun illər işğalı və ardıcıl müharibələr iqtisadi resursların bərpa və hərbi məqsədlərə yönəldilməsinə səbəb olmuşdur. 2020-ci ildən sonra işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa işlərinin aparılması da bir müddət iqtisadi prioritetləri dəyişdirmiş, diversifikasiya siyasətinin icrasını ikinci plana keçirmişdir.

Bundan əlavə, Azərbaycanın hələ də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tam üzv olmaması ixracın və bazar şaxələndirilməsinin məhdudlaşmasına səbəb olur. Ticarət rejiminin tam liberallaşdırılmaması qeyri-neft, xüsusilə aqroemal məhsullarının dünya bazarlarına inteqrasiyasını ləngitmiş və rəqabətqabiliyyətli məhsulların inkişaf potensialını zəiflətmişdir.

Yuxarıda qeyd olunan amillərin birgə təsiri Azərbaycanın iqtisadi diversifikasiya səviyyəsini məhdudlaşdırmış və EDI 2024

göstəricilərində ölkənin zəif mövqeyini formalaşdırmışdır. Bu səbəbdən diversifikasiyanın gücləndirilməsi üçün aqroemal sənayesinin inkişafına strateji yanaşma tələb olunur.

Aparılan təhlillər göstərir ki, Azərbaycanın iqtisadi strukturu hələ də xammal yönümlü model üzərində qurulmuşdur. Bu, EDI 2024 reytinqində ölkənin 112 dövlət arasında 111-ci pillədə qərarlaşmasında da özünü əks etdirir. İstehsalın sektoral müxtəlifliyi, ixrac portfelinin şaxələndirilməsi və büdcə gəlirlərinin mənbə müxtəlifliyi sahələrində zəif nəticələr mövcuddur. Məşğulluq strukturunun dəyişməsi də qeyri-neft sənayesində işçi qüvvəsinin azalması və aşağı əlavə dəyər yaradan sahələrin artması ilə müşayiət olunur ki, bu da iqtisadiyyatın keyfiyyətli diversifikasiyasını zəiflədir.

ÜDM-in və ixrac strukturunun göstəriciləri təsdiqləyir ki, iqtisadiyyat hələ də neft və qaz sektoruna əsaslı şəkildə bağlıdır. Qeyri-neft ixracının ümumi payı 10–12% civarında qalır və əsasən xammal yönümlü xarakter daşıyır. Bu vəziyyət Azərbaycanın beynəlxalq ticarət zəncirlərinə zəif inteqrasiyasına səbəb olur. Aqroemal sənayesində əlavə dəyər yaradan məhsulların artırılması isə ixrac strukturunun şaxələndirilməsi və məşğulluq balansının yaxşılaşdırılması baxımından strateji imkanlar açır.

Büdcə gəlirlərinin yarısının Dövlət Neft Fondundan transfertlər və neft sektorundan daxil olan vergi tutulmaları hesabına formalaşması fiskal dayanıqlığı zəiflədir və enerji bazarlarındakı dəyişikliklərə qarşı həssaslığı artırır. Bu kontekstdə qeyri-neft sektorunun, xüsusilə aqroemal sənayesinin inkişafı iqtisadi təhlükəsizliyin təminatında mühüm rol oynaya bilər.

Diversifikasiya prosesini ləngidən amillər arasında geosiyasi məhdudiyyətlər, institusional idarəetmədəki səmərəsizliklər və Azərbaycanın hələ də ÜTT-yə üzv olmaması xüsusi əhəmiyyət

kəsb edir. Bu amillərin mövcudluğu qeyri-neft sahələrinin, o cümlədən aqroemal müəssisələrinin inkişaf imkanlarını məhdudlaşdırır.

Ümumilikdə, iqtisadi diversifikasiya səyləri parçalanmış xarakter daşıyır və qlobal trendlər fonunda dayanıqlı rəqabətqabiliyyətin formalaşması üçün kifayət etmir. Bununla yanaşı, aparılan tədqiqat göstərir ki, bir neçə istiqamət xüsusi əhəmiyyət daşıyır:

- Emal, yüngül sənaye və aqroemal sahələrinin dövlət proqramları və investisiya təşviqləri vasitəsilə gücləndirilməsi xammal yönümlü ixracın azalmasına və yerli dəyər zəncirinin dərinləşməsinə şərait yaradır.
- Kənd təsərrüfatı xammalının dərin emalı və hazır məhsula çevrilməsi regionlarda məşğulluğun artmasına və ixrac strukturunun şaxələndirilməsinə imkan verir.
- İxrac bazarlarının ənənəvi istiqamətlərlə məhdudlaşmaması, yeni coğrafiyalara inteqrasiyanın gücləndirilməsi Azərbaycanın beynəlxalq ticarətdə mövqeyini gücləndirə bilər.
- ÜTT-yə üzvlük prosesinin başa çatdırılması beynəlxalq bazarlara rəqabətli çıxış imkanlarını genişləndirəcək və ixracın institusional bazasını möhkəmləndirəcəkdir.
- İşğaldan azad olunmuş ərazilərdə aqroemal müəssisələrinin və logistika infrastrukturunun inkişafı diversifikasiyanın regional əsasını möhkəmləndirə bilər.
- Büdcə dayanıqlığının təmin edilməsi qeyri-neft gəlirlərinin artırılması və qeyri-formal sektorun leqallaşdırılması ilə sıx bağlıdır.
- Əmək bazarında tarazlığın bərpası kənd təsərrüfatından azalan işçi qüvvəsinin emal sənayesinə yönləndirilməsi ilə mümkün ola bilər.

Nəticə olaraq, Azərbaycanın iqtisadi diversifikasiya strategiyası yalnız çoxölçülü və koordinasiyalı tədbirlər paketinə əsaslandığı halda dayanıqlı nəticələr verə bilər. Bu prosesdə aqroemal sənayesi əsas strateji həlqə kimi çıxış edir və iqtisadi inkişafın uzunmüddətli təminatında aparıcı rol oynayır.

## 3.2. Rəqabət qabiliyyətinin artırılması vasitələri

Rəqabətqabiliyyətlilik anlayışı iqtisadi ədəbiyyatda geniş təhlil olunan və çoxşaxəli mənaya malik bir kateqoriyadır. Bu anlayış, əsas etibarilə, hər hansı bir məhsulun, xidmətin, müəssisənin və ya bütövlükdə bir iqtisadi subyektin müəyyən bazar mühitində rəqiblərinə nisbətən üstünlük əldə etmək və bu üstünlüyü qoruyub saxlamaq bacarığını ifadə edir. Rəqabət qabiliyyəti yalnız məhsulun keyfiyyəti və qiymət göstəriciləri ilə məhdudlaşmır; o, eyni zamanda həmin subyektin innovativ yanaşmalar tətbiq etmək, bazar ehtiyaclarına çevik uyğunlaşmaq, istehsal və idarəetmədə səmərəlilik yaratmaq kimi daxili potensialını da əhatə edir.

Bu kontekstdə, rəqabətqabiliyyətlilik həm davamlı inkişafın təmin olunmasında, həm də iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində əsas alət kimi çıxış edir. Rəqabət qabiliyyəti olan məhsul və xidmətlər bazarda öz mövqeyini itirmir, əksinə, alıcının tələbatını daha yüksək səviyyədə qarşılayaraq bazar payını genişləndirə bilir. Əgər məhsul və ya xidmət bu şərtlərə cavab vermirsə, o zaman onun rəqabətə davamlılığı zəifləyir və bazar iştirakçısı kimi funksionallığı azalır. Bu səbəbdən də, rəqabətqabiliyyətlilik təsərrüfat subyektləri üçün strateji əhəmiyyət daşıyan hədəf kimi qiymətləndirilməlidir.

*“Rəqabət qabiliyyəti, obyekti olan subyektin lider olmaq, müəyyən bazarda eyni məqsədə nail olmaq üçün müəyyən vaxtda öz*

*rəqibləri ilə uğurla rəqabət aparmaq vəziyyəti (statikada) və ya qabiliyyətidir (dinamikada)"* [150, s.102].

Rəqabətliliyin şamil olunduğu obyektləri dörd kateqoriyaya bölmək olar:

-məhsullar və ya xidmətlər

-müəssisələr, yəni istehsalçılar və ya xidmət sahələri

-iqtisadiyyatın sahələri (mal və ya xidmətlər təklif edən müəssisələrin məcmusu kimi, məsələn emal sahəsi);

-milli səviyyədə, yəni ölkənin milli rəqabət qabiliyyətliliyi.

Müəssisənin rəqabət qabiliyyəti, onun konkret bazar şəraitində müştəri tələbatını rəqib subyektlərdən daha optimal və çevik şəkildə ödəmək bacarığı ilə xarakterizə olunur. Bu qabiliyyət müəssisənin yalnız texnoloji və istehsal potensialını deyil, eyni zamanda strateji idarəetmə və innovasiya imkanlarını da əhatə edir. Rəqabət üstünlüyünə nail olmaq üçün müəssisə oxşar məhsul və xidmət təklif edən digər iştirakçılar fonunda fərqlilik yarada bilməli, təklif etdiyi məhsulun qiymət-keyfiyyət nisbətini bazar meyarlarına və istehlakçı prioritetlərinə uyğunlaşdırmağı bacarmalıdır. Bu baxımdan, rəqabət qabiliyyəti müəssisənin bazarda davamlılığı, gəlirliliyinin yüksəldilməsi və istehlakçı davranışına təsir imkanlarının genişləndirilməsi üçün fundamental şərtdir.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən hər bir subyekt üçün rəqabətqabiliyyətlilik strateji uğurun müəyyənedici faktoru kimi çıxış edir. Bu faktor, müəssisənin uzunmüddətli inkişaf trayektoriyasının müəyyənləşdirilməsində, eləcə də kapital axınlarının idarə olunmasında əsas meyar hesab edilir. Rəqabət qabiliyyətinin formalaşdırılması müəssisə səviyyəsində yalnız əməliyyat qərarları ilə deyil, həm də strateji planlaşdırma mərhələsində baş verən seçimlərlə sıx bağlıdır.

Qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq bazarların daim yenidən qurulması və tələbat strukturunun mürəkkəbləşməsi milli məhsulların rəqabətqabiliyyətliliyinə ciddi təsirlər göstərməkdədir. Xüsusilə inkişaf etməkdə olan ölkələr, o cümlədən, Azərbaycan üçün bu tendensiyalar həm çağırış, həm də imkan xarakteri daşıyır. Azərbaycanın liberal iqtisadi sistemə keçidi və bunun nəticəsi olaraq xarici iqtisadi əlaqələrin liberallaşması, daxili istehsal sektoruna, xüsusən də aqroemal müəssisələrinə bir sıra yeni tələblər irəli sürmüşdür. Yerli müəssisələrin maliyyə sabitliyinin zəif olması, texnoloji geridəqalma və idarəetmədə institusional çatışmazlıqlar məhsul çeşidinin və keyfiyyətinin artırılması zərurətini ön plana çıxarmışdır. Bu da öz növbəsində, ölkə məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemini daha da aktuallaşdırmışdır.

Digər tərəfdən, Azərbaycanın qlobal iqtisadi münasibətlər sisteminə inteqrasiyası prosesi milli iqtisadi təhlükəsizlik məsələlərinin yenidən nəzərdən keçirilməsini şərtləndirir. Bu təhlükəsizlik xüsusilə aqrar-ərzaq məhsulları üzrə daxili bazarın qorunması və həmin məhsulların rəqabətqabiliyyətinin gücləndirilməsi ilə birbaşa bağlıdır. Ölkənin yaxın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olacağı gözləntisi fonunda milli iqtisadiyyatın açıqlıq dərəcəsinin yüksəlməsi labüddür. Bu isə, öz növbəsində, aqroemal məhsulların rəqabət mühitinə davamlı şəkildə daxil ola bilməsi üçün institusional və iqtisadi mexanizmlərin yenidən qurulmasını tələb edir.

"*Dünya bazarına inteqrasiyanın ilk mərhələsindən iqtisadiyyatın ayrı-ayrı sahələrinin iflic vəziyyətə düşməsi tələb edirdi ki, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının səmərəliliyinin artırılması sahəsində gələcəkdə görüləcək bütün*

*tədbirlər beynəlxalq rəqabətin şərtləri nəzərə alınmaqla həyata keçirilsin”* [102, s.272]

Qeyd edildiyi kimi, müəssisələrin uzunmüddətli və dayanıqlı fəaliyyətinin əsas strateji göstəricisi onların rəqabətqabiliyyətlilik səviyyəsidir. Rəqabətqabiliyyətlilik, yalnız bazarda qalmaq üçün deyil, həm də mövcud bazar payını genişləndirmək və yeni bazarlara çıxış əldə etmək baxımından həlledici əhəmiyyət daşıyır. Xüsusilə aqroemal sektorunda fəaliyyət göstərən müəssisələr üçün bu amil, onların spesifik istehsal strukturuna, mövsümi asılılıqlara və resurs təminatındakı qeyri-sabitliyə görə daha kritik xarakter daşıyır.

Praktiki müşahidələr göstərir ki, bu kateqoriyaya aid müəssisələrin rəqabətqabiliyyətliyinin artırılması istiqamətində bir sıra obyektiv və subyektiv xarakterli maneələr mövcuddur. Subyektiv çətinliklər sırasında ilk növbədə müəssisələrin dəqiq və realist strateji planlaşdırma sənədlərinin olmaması, maliyyə-iqtisadi və sosial məqsədlərin qeyri-müəyyənliyi, eləcə də bazar konyunkturasının qeyri-dəqiq təhlili və nəticə etibarilə kortəbii idarəetmə mexanizmləri xüsusi qeyd olunmalıdır. Belə yanaşma rəqabət mühitində çevik və adekvat qərarlar qəbul edilməsinə ciddi maneələr yaradır.

Digər tərəfdən, sahibkarların fəaliyyətindən asılı olmayan obyektiv xarakterli problemlər də nəzərəçarpacaqdır. Bunlara, ilk növbədə, inzibati-bürokratik maneələr, nəzarət orqanlarının normadan artıq və qeyri-məqsədli yoxlamaları, eləcə də məmur sahibkarlığı təzahürlərinin mövcudluğu daxildir. Bu cür institusional və hüquqi qeyri-müəyyənliklər biznes mühitinin şəffaflığını və proqnozlaşdırıla bilməsini zəiflədir, bu da bilavasitə rəqabət qabiliyyətinə mənfi təsir göstərir.

Müasir rəqabət mühitində məhsulun yalnız istehsal həcminin artırılması kifayət etmir. Rəqabətqabiliyyətli məhsul anlayışı təkcə texniki parametrlərlə deyil, eyni zamanda istehlakçı məmnuniyyətinə yönəlik funksionallıqla müəyyən olunur. Qlobal bazarların strukturuna daxil olmaq istəyən müəssisələr üçün istehsal və xidmət proseslərinin son istehlakçının ehtiyac və gözləntiləri ilə uzlaşdırılması əsas prioritetlərdən biri olmalıdır. Belə yanaşma, yalnız daxili bazarda deyil, həm də beynəlxalq bazarlarda rəqabətə davamlı məhsulların formalaşmasını təmin edir.

Nəticə etibarilə, məhsul və xidmətlərin dünya bazarına çıxış imkanlarının genişləndirilməsi, müəssisələrin rəqabət üstünlüyünü qoruyub saxlamaq və inkişaf etdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, ixrac yönümlü istehsal və alıcı yönümlü keyfiyyət standartlarına uyğunlaşma müəssisələrin strateji inkişafının əsas istiqamətlərindən biri kimi çıxış etməlidir.

*"Monopoliya ilə çox ciddi mübarizə aparmaq, yüksək vəzifəli məmurların himayə etdikləri biznesləri dayandırmaq, aqrar sənaye müəssisələrinin yaradılması və inkişafında sağlam rəqabət mühiti yaratmaq lazımdır. Emal müəssisələri öz məhsullarını xarici bazarlara çıxara bilən peşəkar sahibkarlar tərəfindən idarə olunmalıdır"* [142, s.4].

Ölkədə movcud aqroemal müəssisələrin rəqabət qabiliyyətliliyinin əsas göstəricilərindən biri bu məhsulların ixrac qabiliyyəti ilə bağlıdır. Son 22 ildə ölkənin ixrac dinamikası bu fikrə aydınlıq gətirə bilər.




**Şəkil 3.2.1 Azərbaycanın ixrac dinamikası. mln. dollar**

Mənbə: DSK İqtisadi statistika "Xarici Ticarət" 2024 https://www.stat.gov.az/source/trade/ və DGK https://customs.gov.az/uploads/foreign/2022/2022_12.pdf?v=1674644815 məlumatları əsasında müəllif tərtibatı

Şəkil 3.2.1-dən göründüyü kimi, ölkədən ixrac olunan məhsulların əmtəə tərkibi əsasən xam neftdən ibarətdir. Doğrudur, qeyri-neft məhsullarının ixracı 2020-ci ildə 2000-ci ilə nisbətən 11 dəfə artmışdır, ancaq 23 il öncə, yəni 2000-ci ildə ixrac olunan qeyri-neft məhsullarının xüsusi çəkisi ümumi ixracın 15%-ni təşkil edirdisə, bu rəqəm 2023-cü ildə 8,4%-ə düşmüşdür. Ümumiyyətlə, ölkənin qeyri-neft sektorunun potensial imkanları qarşısında 2,9 mld. dollar həcmində ixrac çox aşağı göstəricidir.

Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac potensialının qiymətləndirilməsi zamanı bu sahənin inkişaf səviyyəsini və rəqabətqabiliyyətlilik dərəcəsini daha obyektiv şəkildə müəyyən etmək üçün uyğun müqayisəli təhlil yanaşmalarına ehtiyac duyulur. Bu baxımdan, neft hasilatı ilə xarakterizə olunmayan ölkələrlə – xüsusilə Gürcüstan və bəzi Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri ilə müqayisə aparmaq xüsusi əhəmiyyət kəsb edir. Belə müqayisə yalnız sadə statistik fərqlərin müəyyən edilməsi ilə

kifayətlənməyib, həm də ölkələr arasında struktur, siyasət və iqtisadi fəaliyyət fərqlərinin aşkarlanmasına imkan yaradır.

Qeyri-neft məhsullarının ixracı, fərqli olaraq, birbaşa olaraq milli istehsal bazasının gücünü, sənaye və kənd təsərrüfatı sahələrinin məhsuldarlığını, daxili innovasiya imkanlarını və müəssisələrin beynəlxalq bazarlarda iştirak səviyyəsini əks etdirir. Bu səbəbdən qeyri-neft ixracının həcmi ölkənin ümumi iqtisadi inkişaf səviyyəsinin, istehsal sektorlarının rəqabət qabiliyyətinin və ixrac yönümlü siyasətlərin effektivliyinin indikatoru kimi çıxış edir.




**Şəkil 3.2.2 2022-ci ildə neft istehsalı olmayan Gürcüstan və MDB ölkələri ilə Azərbaycanın qeyri-neft ixracının müqayisəsi. mld. dollar**

Mənbə: DSK İqtisadi statistika "Ticarət" 2024 16. https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibi

*Ukraynanın göstəricisi 2021-ci ilə aiddir.

Şəkil 3.2.2-də təqdim olunan məlumatlara əsasən, 2022-ci ildə xam neft istehsalı ilə məşğul olmayan bəzi ölkələr – o cümlədən Gürcüstan, Ermənistan və Moldova – Azərbaycanın qeyri-neft ixrac həcmini əhəmiyyətli dərəcədə üstələyirlər. Bu

ölkələrin hər biri ərazi baxımından daha kiçik, əhali sayı baxımından isə daha məhdud resurs bazasına malik olsalar da, qeyri-neft sektorları üzrə ixrac göstəricilərində Azərbaycanla müqayisədə üstün nəticələr nümayiş etdirmişlər. Bu xüsusda yalnız Tacikistan müəyyən istisna təşkil edir.

Bu müqayisənin aparılması metodoloji cəhətdən zəruridir, çünki burada söhbət yalnız neft və qaz resurslarının satışından əldə olunan gəlirlərdən deyil, daha çox ölkədaxili istehsal imkanlarının səfərbər olunması, əlavə dəyər zəncirlərinin qurulması və beynəlxalq bazara çıxış imkanlarının qiymətləndirilməsindən gedir. Belə yanaşma bizə Azərbaycanın qeyri-neft sektorunun, xüsusən də aqrar emal sahəsinin mövcud vəziyyəti və perspektivləri barədə daha aydın təsəvvür formalaşdırmağa kömək edir. Eyni zamanda bu müqayisə rəqabətqabiliyyətlilik indikatorlarının daha real iqtisadi baza ilə ölçülməsi üçün alternativ bir baxış bucağı təqdim edir.

Nəticə etibarilə, Azərbaycanın qeyri-neft ixrac göstəricilərinin digər resurslardan məhrum, lakin struktur islahatlara və ixrac yönümlü iqtisadi modellərə üstünlük verən ölkələrlə müqayisəli şəkildə təhlili, ölkəmizin real potensialı ilə bağlı mühüm sualları gündəmə gətirir. Bu da dövlətin və xüsusi sektorun rəqabətə davamlı məhsul istehsalı, ixrac qabiliyyətinin gücləndirilməsi və iqtisadi diversifikasiya sahəsində həyata keçirdiyi siyasətlərin daha dərindən qiymətləndirilməsini tələb edir.

Azərbaycan Respublikasında aqroemal sənayesi müəssisələrinin demək olar ki, tamamilə özəl sektorun nəzarətində fəaliyyət göstərməsi bu sahənin inkişafında bazar yönümlü yanaşmaların və təşəbbüslərin üstünlük təşkil etməsinə şərait yaratmışdır. Bu isə, öz növbəsində, istehsalın təşkili, keyfiyyətə nəzarət, məhsulun qablaşdırılması və brendləşməsi kimi amillərin

bilavasitə rəqabətqabiliyyətlilik göstəricilərinə təsir etməsi ilə nəticələnir. Rəqabətqabiliyyətli məhsul yalnız daxili bazarda deyil, həm də beynəlxalq bazarlarda uğurla təqdim oluna bilər ki, bu da ixracın stimullaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Lakin rəsmi statistik məlumatlar aqroemal məhsullarının ixrac dinamikasında bir sıra ziddiyyətli və qeyri-sabit tendensiyaların müşahidə olunduğunu göstərir.

**Cədvəl 3.2.1 Aqroemal sahəsində ayrı-ayrı məhsulların ixrac dinamikası**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2010 müqayisə |
|---|---|---|---|---|---|---|---|
| Çay. ton | 8126 | 4287 | 1357 | 1116 | 1780 | 731 | -11,1dəfə |
| Bitki yağları. ton | 27934 | 23469 | 14043 | 11889 | 7903 | 5492 | -5,1dəfə |
| Şəkər. min ton | 204 | 221 | 61 | 59 | 55 | 32 | -6,4dəfə |
| Meyvə və tərəvəz konservləri. min ton | 4,7 | 2,9 | 7,2 | 8,5 | 8,5 | 9,9 | +2,1dəfə |
| Meyvə və tərəvəz şirələri. min ton | 18,7 | 6,7 | 11,9 | 12,7 | 11,2 | 16,1 | -14% |
| Təbii üzüm şərabları. min dkl. | 224 | 195 | 227 | 263 | 301 | 317 | +42% |
| Tünd spirtli içkilər. min dkl. | 323 | 370 | 160 | 259 | 289 | 475 | +47% |
| Siqaret. mln.ədəd | 116 | 158 | 461 | 316 | 634 | 1135 | 9,8dəfə |

Mənbə: DSK İqtisadi statistika “Ticarət” 2024 16.
https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibi

Cədvəl 3.2.1 əsasında aparılmış təhlil göstərir ki, bəzi məhsullar üzrə ixrac həcmlərində nəzərəçarpacaq azalmalar mövcud olmuş, yalnız məhdud sayda məhsul üzrə müsbət dinamika qeydə alınmışdır.

Məsələn, çay məhsullarının ixracı 2010–2023-cü illər ərzində 11,1 dəfə azalaraq 731 tona düşmüşdür. Bu məhsul əsasən Gürcüstan, Ukrayna və Rusiyaya ixrac olunur. Azalma tendensiyası həm istehsalın azalması, həm də məhsulun rəqabətqabiliyyətliliyinin zəifləməsi ilə izah olunur. Çay istehsalında əkin sahələrinin ixtisarı, məhsuldarlığın aşağı olması və dünya bazarında daha güclü rəqiblərin varlığı Azərbaycan məhsulunun mövqeyini zəiflətmişdir.

Eyni hal şəkər ixracı üçün də xarakterikdir. 2006-cı ildən fəaliyyət göstərən İmişli şəkər zavodu əvvəlki illərdə daxili tələbatı ödəməklə yanaşı, ixrac yönümlü fəaliyyət də göstərirdi. 2010-cu ildə 204 min ton şəkər ixrac edilərək ölkəyə 146 milyon ABŞ dolları valyuta daxil olmuşdur. Lakin 2023-cü ildə bu göstərici 6,4 dəfə azalaraq, ixrac cəmi 32 min tona enmişdir. Şəkər ixracı əsasən Türkmənistan, Qırğızıstan və Tacikistana yönəlmişdir.

Bitki yağlarının ixracında da oxşar azalma müşahidə olunmuşdur. 2010-cu ildəki 27,9 min ton göstəricisi 2023-cü ildə 5,5 min tona qədər enmiş, yəni 5,1 dəfə azalmışdır. Bu da, bir tərəfdən, xammal bazasının qeyri-sabitliyi ilə, digər tərəfdən isə rəqabətli qiymət və keyfiyyət göstəricilərinin təmin olunmaması ilə bağlıdır.

Bununla yanaşı, bəzi məhsullar üzrə müsbət dinamika qeydə alınmışdır. Məsələn, meyvə və tərəvəz konservləri üzrə ixrac 2023-cü ildə 2010-cu illə müqayisədə 2,1 dəfə artaraq 9,9 min tona çatmışdır. Bu artım həmin məhsulların texnoloji baxımdan

təkmilləşdirilməsi, qablaşdırma və saxlanma şərtlərinin yaxşılaşdırılması ilə əlaqələndirilə bilər. İxrac əsasən Rusiya, Gürcüstan, İraq və ABŞ kimi ölkələrə yönəldilmişdir.

Meyvə və tərəvəz şirələri üzrə ixracda isə qeyri-sabitlik müşahidə olunmuşdur. 2023-cü ildə ixrac əvvəlki illə müqayisədə 45% artmış olsa da, 2010-cu illə müqayisədə 14% azalmışdır. Bu məhsulların ixrac coğrafiyası daha genişdir – ABŞ, Kanada, Almaniya, Avstraliya kimi yüksək tələbatlı bazarları da əhatə edir ki, bu da məhsulların potensial rəqabət imkanlarını göstərir.

Təbii üzüm şərabları və tünd spirtli içkilər üzrə ixracda da nisbi artımlar müşahidə olunsa da, bu artım stabillik nümayiş etdirmir. Təbii üzüm şərabı üzrə ixrac 2023-cü ildə 2010-cu illə müqayisədə 42% artsa da, 2018-ci illə müqayisədə 2,1 dəfə azalmışdır. Əlavə olaraq, 1995-ci ildə bu məhsul üzrə ixracın həcmi 2,6 milyon dekalitr olmuşdur ki, bu da 2023-cü ilin göstəricisindən 8,2 dəfə çoxdur. Bu fakt göstərir ki, şərabçılıq sahəsi keçmişdə daha güclü ixrac potensialına malik olmuş, lakin son illərdə bu üstünlüyünü əhəmiyyətli dərəcədə itirmişdir.

Ən kəskin artım siqaret ixracı üzrə qeydə alınmışdır. 2010-cu ildə 116 milyon ədəd olan ixrac həcmi, 2023-cü ildə 1135 milyon ədədə yüksəlmişdir. Bu, 9,8 dəfə artım deməkdir. Bu artım, əsasən, Sumqayıt şəhərində yeni siqaret zavodunun fəaliyyətə başlaması ilə bağlıdır və göstərir ki, lokal istehsal bazalarının yaradılması ixracda ciddi yüksəlişə səbəb ola bilər.

Ümumilikdə, Cədvəl 3.1.1-in analizi göstərir ki, aqroemal sahəsində bəzi məhsullar üzrə pozitiv inkişaf olsa da, əksər məhsullar üzrə ixrac həcmləri ya sabit qalmış, ya da azalma meyli nümayiş etdirmişdir. Bunun başlıca səbəbləri kimi aşağıdakılar qeyd edilə bilər:

- yerli istehsalın həcminin azalması,

- məhsul keyfiyyətinin beynəlxalq standartlara cavab verməməsi,
- innovativ texnologiyaların tətbiqində gerilik,
- markalaşma və marketinq sahəsində zəiflik,
- beynəlxalq bazarlara çıxış mexanizmlərinin yetərsizliyi.

Bu səbəblər bir daha təsdiqləyir ki, rəqabətqabiliyyətlilik yalnız məhsulun fiziki mövcudluğu ilə deyil, onun qlobal bazarda tanıdılması, təşviqi və keyfiyyət göstəriciləri ilə bilavasitə bağlıdır. Bu baxımdan, Azərbaycan aqroemal məhsullarının ixrac potensialının artırılması üçün kompleks və sistemli yanaşmaya, eləcə də dövlət dəstəyi ilə xüsusi proqramların həyata keçirilməsinə ehtiyac duyulur.

Azərbaycanın aqroemal sənayesi müəssisələrinin dayanıqlı inkişafını və rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsini təmin etmək üçün yalnız mövcud resursların istifadəsi ilə kifayətlənmək kifayət deyil. Müasir dövrdə bazar iqtisadiyyatı şəraitində bu sahədə fəaliyyət göstərən subyektlərin səmərəli fəaliyyət göstərə bilməsi üçün strateji idarəetmə yanaşmalarına əsaslanan yeni və kompleks yanaşmalar tələb olunur. Bu isə müəssisələrin təkcə istehsal texnologiyalarını deyil, eyni zamanda idarəetmə strukturlarını, innovasiya strategiyalarını, resursların bölüşdürülməsi mexanizmlərini və bazar analizini özündə birləşdirən çevik və çoxşaxəli yanaşmalar formalaşdırmasını zəruri edir.

Mövcud vəziyyət göstərir ki, aqroemal müəssisələrinin səmərəli və rəqabətədavamlı fəaliyyəti üçün onların hər biri öz inkişaf trayektoriyasını müəyyən etməli, spesifik xüsusiyyətlərinə uyğun strateji hədəflər formalaşdırmalı və bu məqsədlərə çatmaq üçün fərdi inkişaf modelləri qurmalıdır. Rəqabət mühitində davamlı mövqe tutmaq üçün müəssisələrin rəqabətqabiliyyətlilik səviyyəsi

kəmiyyətcə qiymətləndirilməli, bu göstərici əsasında resurs potensialının optimal şəkildə formalaşdırılması və istifadəsi təmin olunmalıdır. Bu, müəssisənin məhsul və xidmətlərini bazar tələblərinə uyğunlaşdırmaq və müvafiq rəqabət üstünlükləri əldə etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın aqroemal müəssisələrinin beynəlxalq bazarlarda daha güclü iştirakçıya çevrilməsi üçün ilk növbədə təşkilati və texnoloji ehtiyatlar səfərbər edilməlidir. Bu baxımdan funksional innovasiyaların rolu xüsusilə vurğulanmalıdır. İdarəetmə proseslərinin optimallaşdırılması, yeni texnoloji xətlərin tətbiqi, məhsulun keyfiyyət parametrlərinin sistemli ölçülməsi və təkmilləşdirilməsi, həmçinin qərarların qəbulunda informasiya texnologiyalarının istifadəsi müəssisənin səmərəliliyini və bazarda rəqabət gücünü artırmağa xidmət edir. Belə sistemli yeniliklərin həyata keçirilməsi şübhəsiz ki, maliyyə və zaman baxımından əlavə yük yaratsa da, uzunmüddətli perspektivdə daha yüksək rentabellik və davamlı inkişaf üçün vacib əsaslardan biridir.

Ayrıca, müəssisənin bazardakı mövqeyinin dəyərləndirilməsi və strateji qərarların qəbulunda istifadə olunacaq məlumatların dəqiqliyi mühüm rol oynayır. Rəqabətqabiliyyətliliyin düzgün qiymətləndirilməsi üçün elə metodologiyadan istifadə edilməlidir ki, bu proses həm çevik, həm də obyektiv məlumat bazasına əsaslansın. Ənənəvi yanaşmalarda tez-tez qarşılaşılan problem ondan ibarətdir ki, rəqabətə təsir edən amillərin seçilməsi və onların çəkisinin müəyyənləşdirilməsi subyektiv meyarlara əsaslanır. Halbuki müasir metodoloji yanaşmalar bu problemi aradan qaldırmaq üçün riyazi modelləşdirmə və göstəricilərarası funksional asılılıqların qurulması kimi alətlərdən istifadəni zəruri edir.

Bu məqsədlə, rəqabətqabiliyyətlilik göstəricilərinin formalaşdırılması prosesində aşağıdakı əsas mərhələlərin həyata keçirilməsi məqsədəuyğundur:

Hədəf bazarların coğrafiyasının və məhsul kateqoriyasının dəqiq müəyyənləşdirilməsi;

Əsas rəqiblərin və onların mövqelərinin analizi;

Müəssisənin daxili imkanlarının – insan kapitalı, texniki baza, maliyyə sabitliyi və logistika infrastrukturunun təhlili;

Rəqabət üstünlüyü verə biləcək fərqləndirici xüsusiyyətlərin və potensialın müəyyənləşdirilməsi;

Və nəhayət, bütün bu informasiyaların vahid sistemdə inteqrasiyası əsasında müəssisənin rəqabət qabiliyyətinin kəmiyyət göstəriciləri ilə modelləşdirilməsi.

Beləliklə, rəqabətqabiliyyətlilik göstəricilərinin kəmiyyətcə ölçülməsi müəssisəyə yalnız retrospektiv deyil, eyni zamanda proqnostik baxış qazandırır. Bu isə strateji idarəetmənin əsas tələbi olan qabaqlayıcı qərarların qəbulunu mümkün edir. Nəticə etibarilə, aqroemal müəssisələrinin dünya bazarında yer tutması və möhkəmlənməsi üçün rəqabətə əsaslanan inkişaf modellərinin qurulması, funksional və struktur innovasiyaların optimal vəhdətində reallaşdırılması və riyazi əsaslandırılmış qiymətləndirmə mexanizmlərinin tətbiqi zəruri şərtlərdən hesab edilməlidir.

Rəqabətqabiliyyətliliyin qiymətləndirilməsinin bir neçə üsulları vardır.

İlk növbədə, **matris üsuludur.** Bu üsul, matrislərin tərtib edilməsi və strategiyasının əvvəlcədən seçilməsi ilə həyata keçirilir və əsasən istehsalçının və istehsal etdiyi məhsulun marketinq qiymətləndirilməsinə əsaslanır. Matris qiymətləndirmə üsulları olduqca sadədir və vizual məlumat verir. Bundan əlavə, onlar

istehsalın inkişafında rəqabət prosesinin əsas tutulmasına əsaslanır və məlumatlar düzgün olduqda, məhsulun rəqabətlilik səviyyəsi haqqında kifayət qədər yüksək keyfiyyətli təhlil aparmağa imkan verir. Bu metodun mahiyyəti məhsulların həyatda olduğu dövr müddətini nəzərə almaqla müəssisənin rəqabət qabiliyyətinin analizindən ibarətdir. Tədqiqatın 2.3. paraqrafında bu üsuldan istifadə edilərək müəyyən nəticələr alınmışdır.

**İstehsal olunan məhsulların və ya xidmətlərin rəqabət qabiliyyətinin qiymətləndirilməsinə və səmərəliliyinə əsaslanan üsullar.** Bu üsul müəssisənin istehsal etdiyi məhsulun rəqabətqabiliyyətliliyi ilə müəssisənin rəqabətqabiliyyətliliyinin düz mütənasib olmasına əsaslanır, yəni müəssisənin rəqabət qabiliyyətini və məhsulun rəqabət qabiliyyətini "səmərəli istehlak" anlayışı vasitəsilə əlaqələndirir. Burada əsasən belə hesab olunur ki, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsi nə qədər yüksək olarsa, məhsulun keyfiyyəti də bir o qədər yüksək olar və maya dəyəri isə bir o qədər aşağı olar. Bu metodun sadəliyi və aydınlığı onun pozitiv amillərindəndir. Ancaq bununla yanaşı bu üsul müəssisənin fəaliyyətində güclü və zəif tərəfləri tam üzə çıxara bilmir. Burada əsasən kvalimetrik və marketinq metodlarından istifadə olunur ki, onların da əksəriyyəti qiymət və keyfiyyət nisbətlərini üzə çıxarır.

**Effektiv rəqabət və effektiv nəticə nəzəriyyəsinə əsaslanan üsullar.** Bu üsullar müəssisənin rəqabət qabiliyyətini təmin etmək qabiliyyətinin qiymətləndirilməsinə əsaslanır. Belə nəticə çıxır ki, bütün istehsal, idarəetmə strukturu və xidmət fəaliyyətini mükəmməl şəkildə qurmuş müəssisələr daha rəqabətqabiliyyətlidir. Hər hansı bir müəssisənin fəaliyyətinin qiymətləndirilməsi onun resurslardan necə istifadə etməsinin səmərəliliyinin qiymətləndirilməsini ehtiva edir. Bu qiymətləndirmə üsulu ən çox

sənaye və emal müəssisələrinin qiymətləndirilməsində istifadə olunur və təsərrüfat fəaliyyətinin bütün ən vacib qiymətləndirmələrini özündə cəmləşdirir. Bu üsullar təhlil olunan subyektin daxili və xarici bazarlarda rəqabətqabiliyyətli mövqeyinin ümumi mənzərəsini ortaya qoya bilir.

**Kompleks üsullar.** Müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün kompleks üsulların tətbiqi inteqral qiymətləndirmə metodundan istifadə etməklə həyata keçirilir. Burada qiymətləndirmə potensial və cari rəqabət qabiliyyətinin müəyyən edilməsi əsasında aparılır. Daha doğrusu, bu üsula iki komponent daxildir: birincisi, istehlakçıların tələbatının ödənilmə dərəcəsini xarakterizə edən meyar, ikincisi, istehsalın səmərəliliyi meyarı. Bu metodun müsbət xüsusiyyəti hesablamaların sadəliyi və nəticələri birmənalı şərh etmək qabiliyyətidir [124].

Müəssisələrin rəqabət qabiliyyətinin artırılması üçün bir neçə yol vardır.

1. Məhsulların satış həcminin artırılması
2. Məhsulun keyfiyyətinin yüksəldilməsi
3. Məhsulun maya dəyərinin aşağı salınması
4. Bencmarkinq (müqayisəli təhlil)

Məhsulun, işin və ya xidmətin həcminin artırılması rəqabət qabiliyyətini artırmaq üçün əsas amillərdən biridir. Təbii ki, istehsal və satış həcminin artırılması özlüyündə heç nəyi həll etmir. Çünki burada müəssisənin xərclərinin miqdarı, keyfiyyəti, mənfəəti və s. kimi mühüm göstəriciləri nəzərə alınmır. Müəssisədə istehsal həcmlərini planlaşdırarkən bir sıra problemləri həll etmək lazımdır ki, bunlardan da ən vacibi zərərsiz istehsal fəaliyyətini təmin edəcək məhsul satışının həcminin müəyyən edilməsidir, daha doğrusu, rentabellik təmin edilməlidir. Müəssisənin idarəedilməsində prioritet məsələ istehsalın səmərəliliyinin

artırılmasıdır ki, bu da bazara çıxarılan məhsulların rəqabət şəraitində müəssisənin gəlirliliyinin artırılmasının hesabına əldə edilir. Müəssisənin uzunmüddətli perspektivdə səmərəli işləməsi məhsuldarlıq amili ilə çox bağlıdır ki, bu da istehsala yeni innovativ texnilogiyaların tətbiqi, müəssisənin bütün strukturlarında innovativ dəyişikliklər hesabına xərclərin azaldılması hesabına baş verməlidir.

Müəssisənin səmərəlilik potensialı çox vaxt xarici faktorlardan asılı olur, yəni əmək bazarının vəziyyəti, xammal təminatının vəziyyəti, enerji resurslarının təminatı və s. Bu zaman innovativ inkişafın ümumi səviyyəsində əsas ağırlıq, əsasən, istehsalın idarə olunması və təşkili məsələlərinin üzərinə düşür.

Bencmarkinq qiymətləndirmədə tipik olaraq, digər oxşar sahələrdə birbaşa rəqiblər və müəssisələr tərəfindən istifadə edilən "ən yaxşı" məhsul və marketinq prosesi müəssisənin öz məhsullarını və təcrübələrini təkmilləşdirmək yollarını müəyyən etmək üçün model kimi götürülür. Rəqabət qabiliyyətinin artırılmasına təsir edən amillərin biri də istehsal olunan məhsulların strukturunun daim təkmilləşdirilməsi, yenilənməsi və istehsalda istifadə olunan resursların strukturunun optimallaşdırılması və genişləndirilməsidir.

*“Müəssisənin rəqabət qabiliyyətinin artmasının daha bir amili istehsalın konsentrasiyası, miqyas iqtisadiyyatı ola bilər, yəni müəssisənin istehsal həcminin böyüdülməsi. Ancaq bunu həyata keçirmək üçün müəssisələr innovativ inkişafa investisiyaları artırmalı, əmək resurslarını optimallaşdırmalıdır. Hal-hazırda müəssisələrin məhsuldarlığının artırılması rəqabət qabiliyyətinin artırılması üçün ən əsas amillərdən hesab olunur”* [128, s.77].

Həm məhsulların, həm müəssisələrin, həm regionların və, nəhayət, ölkələrin dünya bazarında rəqabət apara bilməsi üçün bu göstəricilər çox əhəmiyyət daşıyır.

Müasir qlobal iqtisadi sistemdə ölkələrin rəqabətqabiliyyətlilik səviyyəsinin müəyyənləşdirilməsi və beynəlxalq müqayisəli analizlərin aparılması üçün müxtəlif nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən hər il sistemləşdirilmiş məlumat bazaları formalaşdırılır və reytinq cədvəlləri hazırlanır. Bu təşkilatlar müxtəlif indikatorlar və altgöstəricilər əsasında dövlətlərin iqtisadi potensialını, institusional çevikliyini, biznes mühitini və innovativ inkişaf səviyyəsini kompleks şəkildə qiymətləndirməyə çalışırlar. Bu qiymətləndirmələr yalnız statistik göstəricilərə deyil, həm də subyektiv qiymətləndirmə metodlarına — xüsusilə sorğu-anket texnologiyalarına əsaslanır və bu da reytinqlərə həm kvantitativ, həm də keyfiyyət müstəvisində ölçülə bilən yanaşma gətirir.

Bu sahədə ən geniş yayılan və nüfuzlu qiymətləndirmə mexanizmlərindən biri Dünya İqtisadi Forumunun (World Economic Forum – WEF) hazırladığı Qlobal Rəqabətqabiliyyətlilik İndeksidir (Global Competitiveness Index – GCI). Sözügedən indeks ilk dəfə olaraq 2004-cü ildən etibarən sistematik şəkildə hazırlanmağa başlanmış və o vaxtdan bəri dünya ölkələrinin iqtisadi inkişaf meyillərinin qiymətləndirilməsində əsas alətlərdən birinə çevrilmişdir. GCI təkcə iqtisadi parametrləri deyil, eyni zamanda institusional inkişaf səviyyəsi, təhsil infrastrukturu, texnoloji hazırlıq, innovasiya potensialı, əmək bazarının səmərəliliyi və makroiqtisadi sabitlik kimi çoxsaylı faktorları da özündə birləşdirən kompleks metodologiyaya əsaslanır.

İndeksin hesablanmasında 100-dən çox göstərici və 12 əsas sütun (pillars) istifadə edilir. Bu göstəricilər iki əsas mənbədən

formalaşır: birincisi, müxtəlif beynəlxalq təşkilatlar və dövlət qurumları tərəfindən toplanmış rəsmi statistik məlumatlar; ikincisi isə Dünya İqtisadi Forumunun “Executive Opinion Survey” adlı qlobal sorğusu vasitəsilə toplanan ekspert dəyərləndirmələridir. Bu metodoloji yanaşma, ölkələrin rəqabət mühitinin həm obyektiv, həm də subyektiv prizmadan qiymətləndirilməsinə şərait yaradır.

Qlobal Rəqabətqabiliyyətlilik İndeksinin dünya ölkələri tərəfindən bu qədər ciddi qəbul edilməsinin əsas səbəblərindən biri də onun iqtisadi siyasətə birbaşa təsir etməsi və strateji qərarların formalaşdırılmasında istinad mənbəyi rolunu oynamasıdır. Bir çox ölkələr bu indeksin nəticələrinə əsaslanaraq islahat tədbirləri həyata keçirir, investisiya mühitini yaxşılaşdırmaq üçün yeni təşəbbüslər planlaşdırır və iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək məqsədilə institusional strukturlaşmanı gücləndirməyə çalışırlar. Bu baxımdan, GCI yalnız analitik alət deyil, həm də iqtisadi idarəetmə və dövlət siyasətinin formalaşdırılmasında strateji yönverici rol oynayan bir göstəricidir.

Qeyd edilməlidir ki, Dünya İqtisadi Forumu yalnız Qlobal Rəqabətqabiliyyətlilik İndeksi ilə kifayətlənmir. Paralel olaraq Biznesin Rəqabətqabiliyyətlilik İndeksi (Business Competitiveness Index – BCI) də hazırlanır. Bu indeks daha çox şirkət və korporativ səviyyədə rəqabət qabiliyyətinin qiymətləndirilməsi məqsədini daşıyır. Lakin dövlət siyasəti və milli iqtisadi inkişaf strategiyalarının hazırlanması baxımından ən geniş qəbul edilən və tətbiq olunan indeks məhz Qlobal Rəqabətqabiliyyətlilik İndeksidir. Bu səbəbdən də bir çox beynəlxalq maliyyə qurumları, reytinq agentlikləri, sərmayə fondları və beynəlxalq investorlar məhz GCI göstəricilərinə əsaslanaraq ölkələrdə biznes risklərini dəyərləndirir və investisiya qərarları qəbul edirlər.

Beləliklə, rəqabətqabiliyyətlilik reytinqlərinin hazırlanması və ölkələrarası müqayisəli təhlillərin aparılması müasir iqtisadi idarəetmədə zəruri və strateji əhəmiyyət kəsb edən bir fəaliyyət sahəsinə çevrilmişdir. Bu reytinqlər həm də milli iqtisadiyyatların dünya bazarına inteqrasiyası səviyyəsini, islahatların effektivliyini və ölkənin innovativ inkişaf potensialını nümayiş etdirən vacib indikator rolunu oynayır.

Azərbaycan 2019-cu ildə Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə tətqiq olunan 141 ölkə arasında reytinq cədvəlində 58,5 bal ilə 49-cu yerdə qərarlaşmışdır. Bu inkişaf etməkdə olan ölkələr üçün çox yaxşı mövqedir.

**Cədvəl 3.2.2 Qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə dünya ölkələrinin reytinqi 2019-cu il***

| Reytinq | Ölkələr | İndeks |
|---|---|---|
| 1. | Sinqapur | 84,8 |
| 2. | ABŞ | 83,7 |
| 3. | Honkonq | 83,1 |
| 4. | Niderland | 82,4 |
| 5. | İsveçrə | 82,3 |
| | | |
| 55. | Qazaxıstan | 62,9 |
| 56. | Bruney | 62,8 |
| 57. | Kolumbiya | 67,7 |
| **58.** | **Azərbaycan** | **62,7** |
| 59. | Yunanıstan | 62,6 |
| 60. | Cənubi Afrika Respublikası | 62,4 |
| 61. | Türkiyə | 61,1 |
| | | |
| 137. | Mozambik | 38,1 |
| 138. | Haiti | 36,3 |

| | | |
|---|---|---|
| 139. | Konqo Demokratik Respublikası | 36,1 |
| 140. | Yəmən | 35,5 |
| 141. | Çad | 35,1 |

Mənbə: Dünya İqtisadi Forumu https://www.weforum.org/ əsasən müəllif tərtibatı

* Pandemiya dövründə iqtisadi göstəricilər və sorğular sabit deyildi, ona görə GCI-nin rəsmi reytinqi 2019-cu ildən sonra müvəqqəti olaraq dayandırılıb.

Cədvəl 3.2.2-də Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (QRİ) əsasında hazırlanmış reytinq cədvəlinin seçilmiş hissəsi təqdim olunmuşdur. Cədvəldə bir tərəfdən ilk beşlikdə yer alan lider ölkələrin, digər tərəfdən isə son beşlikdə qərarlaşmış iqtisadi cəhətdən zəif ölkələrin, eləcə də Azərbaycanın və ona yaxın mövqedə qərarlaşmış region dövlətlərinin rəqabətqabiliyyətlilik üzrə mövqeləri əks etdirilmişdir. Bütün ölkələrin siyahısının verilməsi yer məhdudiyyəti baxımından məqsədəuyğun olmadığından yalnız analitik baxımdan əhəmiyyət kəsb edən dövlətlərin mövqeyi təqdim edilmişdir.

Bu cür strukturlaşdırılmış təqdimat formatı oxucuda Qlobal Rəqabətqabiliyyətlilik İndeksi çərçivəsində Azərbaycanın ümumi mövqeyi haqqında konkret təsəvvür formalaşdırmağa imkan verir. Reytinq cədvəlindən göründüyü kimi, ən yüksək göstəricilər əsasən inkişaf etmiş və yüksək texnologiyalarla təchiz olunmuş iqtisadiyyatlara sahib ölkələrə, Sinqapur, ABŞ, Honq-Konq, Niderland və İsveçrə kimi dövlətlərə məxsusdur. Bu ölkələrin ümumi iqtisadi performansı, innovasiya tutumu, biznes mühitinin əlverişliliyi və institusional sabitlik səviyyəsi qlobal rəqabət mübarizəsində onların liderliyini təmin etmişdir.

Qeyd etmək lazımdır ki, bu ölkələrdə yalnız makroiqtisadi sabitlik deyil, həm də müəssisə səviyyəsində strateji idarəetmə,

texnoloji yeniliklərə adaptasiya, əmək bazarının çevikliyi və effektiv infrastruktur siyasəti yüksək səviyyədə inkişaf etmişdir. Eyni zamanda, bu dövlətlərdə rifah səviyyəsinin yüksək olması, məhz onların qlobal rəqabətə dayanıqlı iqtisadi struktura malik olması ilə sıx bağlıdır. Yəni, QRI göstəriciləri təkcə iqtisadi “ölçüləri” deyil, sosial rifahın və iqtisadi dayanıqlığın fundamental əsaslarını da özündə əks etdirir.

Cədvəldə Azərbaycanın mövqeyi də aydın şəkildə izlənilə bilər. Ölkəmizin reytinqdə qərarlaşdığı mövqe onun bir sıra sahələrdə, xüsusilə, innovasiya, əmək bazarı səmərəliliyi, məhsuldarlıq və institusional islahatlar sahələrində qarşısında duran çağırışlara işarə edir. Azərbaycanın yaxınlığında qərarlaşan ölkələr, məsələn, Gürcüstan, Ermənistan və Qazaxıstan kimi dövlətlərlə müqayisə aparmaq həm regional inteqrasiya, həm də sahibkarlıq mühitinin transformasiyası baxımından əhəmiyyətlidir.

Nəticə etibarilə, cədvəldə əks etdirilən məlumatlar göstərir ki, rəqabətqabiliyyətlilik qlobal iqtisadi sistemdə sadəcə nominal dəyər deyil, həm də iqtisadi idarəetmənin effektivliyinin, biznes mühitinin dayanıqlığının və strateji islahatların dərinliyinin bir göstəricisi kimi çıxış edir. Bu səbəbdən, Azərbaycanın QRİ üzrə mövqeyinin daha da yaxşılaşdırılması üçün struktur islahatlarının dərinləşdirilməsi, innovasiya yönümlü iqtisadiyyatın təşviqi və insan kapitalının inkişaf etdirilməsi kimi prioritetlər reallaşdırılmalıdır[183].

Son illərdə Azərbaycanın milli iqtisadiyyatında müşahidə olunan struktur dəyişikliklər və institusional islahatlar kontekstində bir sıra beynəlxalq reytinq cədvəllərində ölkənin mövqeyində müsbət dinamika qeydə alınmışdır. Bu istiqamətdə xüsusilə 2016-cı ilin iyulunda qəbul edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə

ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam [39] və həmin ilin dekabrında təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri" [6] bu sahədə strateji və sistemli yanaşmanın təməlini təşkil etmişdir. Hər iki sənəd milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik indikatorları üzrə irəliləməsi və beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması baxımından hədəflənmiş addımların hüquqi bazasını formalaşdırmışdır.

Bu baxımdan, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (QRİ) çərçivəsində Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun bir qrup tədqiqatçıları tərəfindən aparılmış araşdırmalarda bir sıra praktiki əhəmiyyətə malik elmi-metodoloji nəticələr və konseptual tövsiyələr hazırlanmışdır. Həmin təkliflər sırasında aşağıdakı müddəalar xüsusi vurğulanmağa layiqdir:

- *"Bazar hökmranlığına qarşı mübarizədə qanunverici normativ aktların daha da effektli işləməsi üçün ictimai maarifləndirməni artırmaq və şəffaflığı təmin etmək lazımdır.*
- *Bazara daxilolma maneələrinin minimuma endirilməsi məqsədilə yerli istehsalçıların təşviqi və stimullaşdırılması mexanizmi işlənilməlidir. Bu sahədə beynəlxalq təcrübəyə əsaslanmaq olar.*
- *Qeyri-tarif maneələrinin artmasına yol açan əsas cəhət rəqabət mühitinin kifayət qədər dinamik olmamasıdır. Bu mənada əsas tələb olunan şərt rəqabət mühitinin dinamik olmasıdır"* [72, s.196].

Dünya təcrübəsi sübut edir ki, rəqabət mexanizmi yalnız bazarın fəaliyyətini tənzimləyən alət deyil, eyni zamanda iqtisadi

inkişafın lokomotivi rolunu oynayan sistemli təsiredici faktordur. Rəqabət yalnız məhsulun keyfiyyətinin yüksəldilməsini və qiymətin aşağı salınmasını təşviq etmir, eyni zamanda müəssisələri innovativ texnologiyalara, daha çevik idarəetməyə və istehsalın optimallaşdırılmasına yönəldir. Bu mənada rəqabət bazarın daxilində fəaliyyət göstərən bütün iqtisadi subyektlər üçün davamlı təşviq və nəzarət mexanizmi rolunu oynayır.

Aqroemal sənayesində fəaliyyət göstərən müəssisələrin rəqabətqabiliyyətliliyi isə ilk növbədə istehsal olunan məhsulların keyfiyyət və texnoloji üstünlüyü, maliyyə dayanıqlığı, effektiv satış və reklam strategiyası, xarici bazarlara çıxış imkanları və innovativ idarəetmə metodlarının tətbiqi ilə müəyyən olunur. Bu xüsusiyyətlər təkcə konkret müəssisənin uğur göstəricisi deyil, ümumilikdə ölkənin aqrar sənaye kompleksinin rəqabətqabiliyyətlilik səviyyəsinin bariz ifadəsidir.

Bütün qeyd olunanları ümumiləşdirərək, aqroemal müəssisələrinin rəqabət qabiliyyətinin artırılması üçün aşağıdakı əsas vasitələr xüsusilə fərqləndirilə bilər: innovativ texnologiyaların tətbiqi, məhsul keyfiyyətinin yüksəldilməsi, səmərəli idarəetmə modellərinin qurulması, ixrac yönümlü istehsalın təşviqi, maliyyə və vergi güzəştlərinin genişləndirilməsi, bazara daxilolma imkanlarının asanlaşdırılması, şəffaf və çevik tənzimləmə mühitinin yaradılması. Bu vasitələr kompleks şəkildə tətbiq olunduqda, aqroemal sektorunun rəqabətqabiliyyətliliyi həm milli, həm də beynəlxalq səviyyədə əhəmiyyətli dərəcədə güclənə bilər.

Nəticə etibarilə, Azərbaycanda milli rəqabətqabiliyyətliliyin yüksəldilməsi yalnız makroiqtisadi siyasətlə deyil, sektorlararası koordinasiyanın, texnologiyaya əsaslanan istehsalın, müasir insan kapitalının inkişafı və bazar institutlarının gücləndirilməsi ilə sıx bağlıdır. Bu istiqamətdə atılan hər bir addım ölkə əhalisinin yaşayış

səviyyəsinin yüksəldilməsi, ərzaq və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi, eləcə də sosial-iqtisadi sabitliyin təmin olunması baxımından strateji əhəmiyyətə malikdir.

## 3.3. Maliyyə-kredit və subsidiya mexanizmləri

Aqroemal sektorunun inkişafında maliyyə-kredit siyasəti həlledici funksiyaya malikdir və bu sahədə həyata keçirilən tədbirlər uzunmüddətli maliyyələşmənin təmin edilməsi, investisiya resurslarının optimal istiqamətləndirilməsi və kənd təsərrüfatı məhsullarının dəyər zəncirinin funksional bütövlüyünün qorunması baxımından strateji əhəmiyyət daşıyır. Maliyyə-kredit siyasəti dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, milli inkişaf prioritetlərinə uyğun olaraq pul-kredit və büdcə siyasətləri vasitəsilə iqtisadi proseslərə təsir göstərən tədbirlər toplusudur.

Ərzaq təhlükəsizliyinin və iqtisadi sabitliyin təmin olunması baxımından kənd təsərrüfatı məhsullarının təkcə istehsal həcminin deyil, eyni zamanda onların dərin emalının da inkişaf etdirilməsi zəruridir. Azərbaycanda aqroemal sənayesinin inkişafı üçün həm əlverişli təbii-iqtisadi resurslar mövcuddur, həm də bu sahə yüksək modernizasiya potensialı ilə seçilir. Xüsusilə, bu sektorun davamı olaraq formalaşan yüngül və yeyinti sənayesi həm iqtisadi artım, həm də sosial rifah baxımından dövlət siyasətinin prioritet istiqamətləri sırasına daxil edilməlidir. Bu sahələrin inkişafı əhalinin məşğulluğunun artırılması, büdcə daxilolmalarının genişləndirilməsi və istehsalın texnoloji səviyyəsinin yüksəldilməsi ilə nəticələnə bilər.

Tədqiqatların göstərdiyi kimi, hazırkı mərhələdə aqroemal sahəsində məhsul istehsalı və emal prosesləri qeyri-sabit xarakter daşıyır. Bu qeyri-sabitlik, bir tərəfdən, emal müəssisələrinin

maraqlarının dəyərlər zəncirində lazımi şəkildə təmsil olunmaması, digər tərəfdən isə dövlətin bu sahəyə yönəltdiyi tənzimləyici təsirlərin zəifliyi ilə bağlıdır. Nəticə etibarilə, yerli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət üstünlüyü azalır, idxal mallarının bazar payı artmaqda davam edir. Aqroemal məhsullarının ixracı isə əsasən xammal formasında həyata keçirilir ki, bu da əlavə dəyərin ölkə daxilində formalaşmasına mane olur və yerli sənayenin struktur dayanıqlığını zəiflədir.

Bununla əlaqədar olaraq, aqroemal sənayesinin kompleks şəkildə inkişaf etdirilməsi, onun struktur komponentlərinin (xüsusilə yüngül və yeyinti sənayesinin) müasir tələblərə uyğun yenidən qurulması və xüsusilə ixracyönümlü seqmentlərin təşviqi, dövlətin iqtisadi siyasətində xüsusi yer tutmalıdır. Dövlətin bu istiqamətdə məqsədyönlü tənzimləmə və stimullaşdırıcı mexanizmlər tətbiq etməsi, bir tərəfdən, bu sahənin davamlı səmərəliliyini təmin edəcək, digər tərəfdən isə onun rəqabətqabiliyyətliliyini gücləndirəcəkdir.

Aqroemal sektorunun inkişaf trayektoriyası onun maliyyə təminatının yetərli olması ilə birbaşa bağlıdır. Bu təminat yalnız sadə kapital axınları ilə deyil, həm də texnoloji modernləşmə, maddi-texniki təchizatın gücləndirilməsi və istehsal sabitliyinin təmin olunması baxımından fundamental əhəmiyyət kəsb edir. Beləliklə, maliyyə resurslarının məqsədyönlü yönləndirilməsi nəticə etibarilə aqroemal məhsullarının rəqabətqabiliyyətliliyinin artmasına, bu isə öz növbəsində idxaldan asılılığın azaldılmasına və milli istehsalın güclənməsinə gətirib çıxaracaqdır.

Aqroemal sahəsinin dövlət tənzimlənmələri mexanizminin təkmilləşdirilmələri aşağıdakı əsas istiqamətləri əhatə etməlidir:

### Cədvəl 3.3.1 Aqroemal sahəsində dövlət tənzimlənmələrinin

**əsas istiqamətləri**

| Müəssisənin fəaliyyətində əsas proseslər | Dövlət tənzimlənmə vasitələrinin təkmilləşdirilməsinin əsas istiqamətləri |
|---|---|
| Xammal təminatında | - yerli kənd təsərrüfatı istehsalının həcminin və keyfiyyətinin artırılması;<br>- yerli kənd təsərrüfatı xammalı bazarında qiymətlərin sabitləşməsi və optimallaşdırılması siyasəti |
| İstehsal | -aqroemal müəssisələrinin əsas istehsal fondlarının yenilənməsinin stimullaşdırılması;<br>innovativ texnologiyalardan istifadənin stimullaşdırılması; |
| Satış | - təkmilləşdirmə:<br>• yerli aqroemal məhsulları bazarının tənzimlənməsi;<br>• antiinhisar tənzimlənmə alətləri;<br>• yerli istehsalşıların maraqlarının müdafiəsi məqsədi ilə gömrük-tarif siyasətinin tənzimlənməsi;<br>- ixracyönlü məhsul istehsalı məqsədi ilə effektiv həvəsləndirmə vasitələrinin yaradılması |
| Loqistika | -yanacağın qiymətlərini sabitləşdirməklə nəqliyyat xidmətlərinin qiymətlərinin optimallaşdırılması;<br>- yeni logistik texnologiyaların tətbiqi ilə saxlama anbarlarının effektliliyinin artırılması;<br>- nəqliyyat infrastrukturunun inkişafı; |
| Marketinq | - aqroemal məhsulları bazarında qiymətlərin optimallaşdırılması və sabitləşdirilməsi; |
| Maliyyə təminatı | - kreditlərin, o cümlədən, uzunmüddətli kreditlərin əlçatanlığının təmin edilməsi;<br>- faktorinq xidmətinin yaradılması və inkişaf etdirilməsi;<br>- aqroemal sahəsinin az rentabelli və iqtisadi cəhətdən geridə qalmış alt sahələrinə maliyyə dəstəyi;<br>- özəl kapitalın aqroemal sahəsinə daha aktiv cəlb edilməsi; |

Mənbə: müəllifin tərtibatı

Cədvəl 3.3.1-dən göründüyü kimi, tənzimlənmə aləti kimi subsidiyalaşma, subvensiya və dotasiya verilməsi göstərilməmişdir. Bildiyimiz kimi, hər üç alət qeyri-bazar metodudur ki, dünya ölkələri bu üsullardan tədricən imtina edir və yerini tənzimlənmənin bazar alətlərinə verir. Fikrimizcə, bu daha düzgündür, yəni "ehtiyacı olana balıq vermə, balıq tutmağı öyrət" prinsipi daha effektli, daha davamlı və rəqabətqabiliyyətli olur.

Aqroemal sektorunun inkişafında dövlət tənzimlənməsi mexanizmləri içərisində dövlət dəstəyi öz effektivliyinə və məqsədyönlü təsirinə görə aparıcı alət kimi çıxış edir. Dövlət müdaxiləsinin institusional əsasları iqtisadiyyatın strukturunda strateji rol oynayan, lakin bazar mexanizmlərinin yetərsiz olduğu sahələrdə xüsusi aktuallıq kəsb edir. Aqroemal müəssisələri də bu baxımdan istisna təşkil etmir və onların mövcud resurs imkanlarına, fəaliyyət nəticələrinə və inkişaf potensialına əsaslanaraq dövlət dəstəyinə olan tələbat müxtəlif səviyyələrdə formalaşır. Təhlillərə əsaslanaraq bu müəssisələri şərti olaraq üç funksional qrupa ayırmaq mümkündür:

1. Zərərlə fəaliyyət göstərən, lakin yüksək sosial-iqtisadi əhəmiyyət daşıyan müəssisələr;
2. Dövriyyə kapitalı məhdud, aşağı gəlirlə fəaliyyət göstərən və əsasən kiçik təsərrüfat subyektləri;
3. İnkişaf potensialına malik, lakin istehsal gücünü genişləndirmək üçün investisiyaya ehtiyac duyan gəlirli müəssisələr.

Birinci qrup müəssisələr sosial və regional iqtisadi sabitliyin qorunmasında mühüm rol oynayır. Belə müəssisələr fəaliyyətlərinin iqtisadi rentabellik baxımından zəif olsa da, məşğulluğun təminatı, ərzaq təhlükəsizliyi və regionların inkişafında vacib mövqeyə sahibdir. Bu səbəbdən onların

fəaliyyətdə saxlanması və transformasiyası məqsədilə dövlətin qoruyucu müdaxilə alətləri – güzəştli kreditlər, subsidiya mexanizmləri, vergi imtiyazları və texniki dəstək proqramları – sistemli şəkildə tətbiq edilməlidir.

Digər tərəfdən, dövlət dəstəyi siyasəti yalnız mövcud vəziyyəti stabil saxlamaqla məhdudlaşmamalı, eyni zamanda iqtisadi strukturun transformasiyasına və strateji məqsədlərə yönəlməlidir. Bu baxımdan, aqroemal sahəsində tətbiq olunan dövlət dəstəyinin əsas vektorları idxalı əvəzləyən məhsul istehsalının təşviqi, yüksək əlavə dəyər yaradan sahələrin prioritetləşdirilməsi, resurs təminatının optimallaşdırılması və geniş təkrar istehsalın stimullaşdırılması olmalıdır.

Lakin mövcud subsidiyalaşdırma siyasətinin effektivliyini təhlil etdikdə müəyyən uyğunsuzluqlar və struktur problemlər ortaya çıxır. Araşdırmalar göstərir ki, kənd təsərrüfatında subsidiya mexanizmləri məhsuldarlığı və keyfiyyəti təşviq etmə baxımından yetərincə təsirli deyil. Hazırda tətbiq edilən model əkin sahəsinin həcminə əsaslanaraq əkinçiliyi stimullaşdırır ki, bu da əksər hallarda ekstensiv inkişaf formalarının dərinləşməsinə gətirib çıxarır. Yəni, fermer daha çox sahə əkərək subsidiya almağa çalışır, lakin məhsuldarlıq və keyfiyyət kimi fundamental göstəricilər diqqətdən kənarda qalır.

Bu vəziyyətin nəticəsi kimi, taxılçılıq sahəsində böyük torpaq ehtiyatlarına malik ölkəmizdə hələ də ərzaqlıq buğdanın əsas hissəsi idxal hesabına təmin edilir. Əldə olunan statistik məlumatlara əsasən, 2023-cü il ərzində dövlət büdcəsindən kənd təsərrüfatı sahəsinə 156,5 milyon manat subsidiya ayrılmasına baxmayaraq, məhsuldarlıqda və keyfiyyət göstəricilərində nəzərəçarpacaq dəyişiklik qeydə alınmayıb. Bu, subsidiya

siyasətinin təyinat və ölçmə mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Kənd təsərrüfatında və onun davamı olan aqroemal sektorunda dövlət dəstəyi yalnız maliyyə axınlarının yönləndirilməsi deyil, eyni zamanda istehsalın texnoloji səviyyəsinin, struktur effektivliyinin və rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət edən kompleks və hədəfyönlü siyasət kimi qurulmalıdır.

Döğrudur, 2019-cu ildə "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı olmuşdur. Bu Fərmana əsasən bitkiçilik sahəsində verilən subsidiyalarda müəyyən dəyişikliklər edilmiş, tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər kiloqramına görə əkin subsidiyasına əlavələr verilməyə başlanmışdır [42]. Bundan əlavə 19 iyul 2022-ci il tarixdə Ölkə Prezidenti "Ərzaq buğdası ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərman imzalamışdır. Fərmanda ərzaqlıq buğda istehsal edilərək Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətinə məhsul subsidiyası veriləcəkdir. Fermerlər bu subsidiyanı almaq üçün müəyyən şərtləri yerinə yetirməlidirlər. Burada əsas tələb ərzaq buğdasının əkin sahəsində müasir innovativ suvarma sistemlərinin quraşdırılmasıdır. Onu da qeyd etməliyik ki, bu cür suvarma qurğuları fermerlərə baha başa gəlir və bu şərtlərin sadələşdirilməsi zərurəti ortaya çıxır. Fikrimizcə, satılan buğdaya veriləcək məhsul subsidiyalarında yeganə sənəd emal müəssisələrinin qayimələrinin olması kifayət edər. Məlum məsələdir ki, emal müəssisələri keyfiyyətsiz və çörək istehsalı üçün yaramayan buğdanı fermerlərdən satın almazlar.

Azərbaycanda kənd təsərrüfatı subsidiyalarının mövcud mexanizmi məhsul istehsalında keyfiyyət və məhsuldarlıq göstəricilərini təşviq etmə baxımından ciddi struktur islahatlarına ehtiyac olduğunu göstərir. Hazırkı subsidiyalaşdırma modeli əsasən əkin sahəsinin həcminə və ya heyvandarlıqda alınan buzovların sayına əsaslanır ki, bu da resursların səmərəsiz istifadəsinə və ekstensiv inkişaf formasının təşviqinə səbəb olur. Halbuki, subsidiyaların iqtisadi və sosial məqsədlərinə nail olunması üçün onların son nəticəyə – yəni bazara çıxarılan əmtəəlik məhsulun həcmi və keyfiyyətinə əsasən verilməsi daha məqsədəuyğun olardı. Bu yanaşma yalnız məhsuldarlığı deyil, eyni zamanda torpaq və resurslardan istifadənin effektivliyini də stimullaşdırar, fermerləri məhsulun keyfiyyətinə yönəlik qərarlar qəbul etməyə sövq edərdi.

Belə bir yanaşma subsidiyaların iqtisadi funksiya və təsir dairəsini daha dəqiq hədəfləyər, kənd təsərrüfatı fəaliyyətinin bazar yönümlü modernləşdirilməsinə töhfə verərdi. Məsələn, bitkiçilikdə sahəyə görə deyil, əldə edilən əmtəəlik məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinə görə, heyvandarlıqda isə istehsal olunan ət və süd məhsullarının real dövriyyəsinə əsasən subsidiyaların verilməsi, təchizat-zəncirinin daha rasional və dinamik şəkildə qurulmasına zəmin yaradar.

Digər tərəfdən, aqroemal sahəsində vəziyyət daha da diqqətçəkicidir. Hal-hazırda Azərbaycanda aqroemal müəssisələrinə birbaşa dövlət subsidiyaları və sistemli dəstək mexanizmləri mövcud deyil. Halbuki bu müəssisələr kənd təsərrüfatının dəyər zəncirində lokomotiv rolunu oynayır və istehsal olunan ilkin məhsulun emal yolu ilə yüksək əlavə dəyərli əmtəəyə çevrilməsini təmin edərək ərzaq təhlükəsizliyi, məşğulluq və ixrac potensialının artırılmasında mühüm funksiyalar yerinə yetirir. Buna görə də, dövlət siyasəti aqroemal sahəsinin spesifik sektorlarında

istehsal xərclərinin bir hissəsinin subsidiyalaşdırılması istiqamətində yenidən formatlaşdırılmalıdır.

Xüsusilə, istehsal prosesinin texnoloji modernləşdirilməsi, ekoloji standartlara cavab verən təmiz məhsul istehsalı, müasir təmizləyici və emal avadanlıqlarının alınması, əmtəəlik məhsulun sertifikatlaşdırılması və bazara çıxarılması kimi mərhələlərdə dövlətin birdəfəlik və ya mərhələli dəstək alətləri tətbiq edilməlidir. Bu yanaşma, yalnız istehsalın artırılmasını deyil, həm də onun rəqabətqabiliyyətinin və ixrac yönümlü transformasiyasının reallaşdırılmasını təmin edə bilər.

Beynəlxalq təcrübə də göstərir ki, kənd təsərrüfatında dövlət dəstəyi mexanizmlərinin forması və miqyası dəyişməkdədir. Məsələn, Kanada, Yeni Zelandiya, Avstraliya və bir sıra Latın Amerikası ölkələrində subsidiyaların mərhələli şəkildə ləğv edilməsi və kənd təsərrüfatı sektorunun ticarət və bazar mexanizmləri ilə tənzimlənməsi prioritetə çevrilmişdir. Bu ölkələrdə fermerlər subsidiyalara arxalanmaq əvəzinə, məhsuldarlığı artırmaq, istehsal xərclərini azaltmaq və keyfiyyət göstəricilərini optimallaşdırmaq kimi strategiyalar tətbiq etməyə məcbur olmuş və nəticədə sektorun ümumi səmərəliliyi artmışdır.

Bu səbəbdən, Azərbaycanda da subsidiyalaşdırma siyasəti yalnız ənənəvi dəstək formaları ilə deyil, ölçülə bilən nəticələrə əsaslanan və bazar tələblərini nəzərə alan müasir yanaşmalarla təkmilləşdirilməlidir. Bu islahatlar aqrar sektorun dayanıqlı inkişafı və onun rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Aqroemal sektorunda fəaliyyət göstərən müəssisələrdən bir hissəsi də dövriyyə kapitalının çatışmazlığı ilə üzləşən, lakin az da olsa rentabelli fəaliyyət göstərən subyektlərdir. Bu tip müəssisələr üçün əsas maneə maliyyə resurslarına çıxış imkanlarının məhdud

olmasıdır. Onların qarşılaşdığı əsas problem, yəni dövriyyə vəsaitlərinin çatışmazlığı, yalnız güzəştli və uzunmüddətli kreditləşmə mexanizmlərinin tətbiqi ilə aradan qaldırıla bilər. Lakin Azərbaycanda kommersiya bankları tərəfindən təklif edilən kredit məhsullarının yüksək faizli və qısa müddətli olması, xüsusən də aqroemal sektorunun rentabellik səviyyəsini aşması bu maliyyə alətinin praktik əlçatanlığını xeyli məhdudlaşdırır. Belə şəraitdə kiçik və orta müəssisələr kredit bazarından faktiki olaraq təcrid olunmuş vəziyyətdədirlər.

Bu problemin alternativ həlli kimi faktorinq mexanizminin tətbiqi təklif edilə bilər. Faktorinq – dövriyyə kapitalına olan tələbatın operativ maliyyələşdirilməsi və satışların stimullaşdırılması məqsədilə geniş tətbiq olunan bir maliyyə alətidir. Xüsusilə regionlarda fəaliyyət göstərən kiçik və orta aqroemal müəssisələrinin likvidlik ehtiyaclarını qarşılamaq üçün regional Aqrar Faktorinq Agentliklərinin yaradılması məqsədəuyğun olardı. Bu agentliklərə faktorinq əməliyyatlarının təşkili və monitorinqi funksiyası həvalə edilməli və onların fəaliyyəti mövcud bank infrastrukturuna inteqrasiya edilməlidir. Eyni zamanda, faktorinq xidmətlərinin göstərilməsi üçün regionlarda filial şəbəkəsinə malik olan banklar və maliyyə qurumları ilə əməkdaşlıq formatı formalaşdırılmalıdır.

Qeyd etmək yerinə düşər ki, XX əsrin sonlarından etibarən faktorinq əməliyyatları Avropa İttifaqı ölkələrində geniş vüsət almış və bəzi hallarda kommersiya kreditlərini sıxışdıraraq onların yerini tutmağa başlamışdır. Faktorinqin ən mühüm üstünlüklərindən biri onun gələcək gəlirə əsaslanmasıdır, yəni müəssisənin mövcud maliyyə sabitliyi deyil, proqnozlaşdırılan satış və gəlir həcmi nəzərə alınır. Bu, xüsusilə maliyyə hesabatlarında zəif görünən, lakin bazar potensialı olan müəssisələr üçün mühüm

imkanlar yaradır. Ənənəvi bank kreditləşməsi isə əsasən müəssisənin tarixi maliyyə göstəricilərinə, mövcud aktivlərinə və kredit tarixçəsinə əsaslanır ki, bu da bir çox kənd təsərrüfatı və aqroemal təsərrüfatlarını formal şəkildə kreditləşmədən kənarda saxlayır.

Faktorinq maliyyələşməsi yalnız dövriyyə vəsaitlərinə çıxış imkanı yaratmaqla kifayətlənmir, o həm də satış həcmini genişləndirmək, müştəri bazasını artırmaq və istehsal miqyasını böyütmək üçün effektiv vasitə rolunu oynayır. Nəticədə bu proses məhsulun maya dəyərinin azalmasına, rəqabətqabiliyyətliliyin yüksəlməsinə və daxili bazarda mövqelərin möhkəmləndirilməsinə şərait yaradır. Bununla belə, faktorinq sisteminin geniş tətbiqi yalnız o zaman mümkün və səmərəli olar ki, güzəştli şərtlər, şəffaflıq prinsipi və mərkəzləşdirilmiş tənzimləmə mexanizmləri təmin edilsin.

Azərbaycanda aqrar və emal sektorlarının maliyyələşdirilməsində güzəştli kreditlər mühüm rol oynayır və bu vəsaitlərin verilməsi əsasən İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu (SİF) və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatının Kreditləşməsi üzrə Dövlət Agentliyi (KTKDA) vasitəsilə həyata keçirilir. Hər iki qurumun fəaliyyət istiqaməti aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin investisiya potensialını artırmaq və sosial-iqtisadi prioritetlərə uyğun layihələrin reallaşdırılmasını dəstəkləməyə yönəlmişdir.

Güzəştli kreditlərin əsas xüsusiyyətləri layihənin mahiyyətindən və ehtiyac həcmindən asılı olaraq 3–5% aralığında dəyişən faiz dərəcələri və 3–10 il arası geri ödəniş müddətidir. Bu vəsaitlərin verilməsi müvəkkil banklar və bank olmayan kredit təşkilatları (BOKT-lar) vasitəsilə həyata keçirilir ki, bu da maliyyə

infrastrukturunun genişləndirilməsinə və regionlarda əlçatanlığın təmin edilməsinə xidmət edir.

Bu kreditlər arasında Sahibkarlığın İnkişafı Fondunun portfeli daha genişdir. Fondun əsas funksiyaları sırasında yalnız maliyyələşmə deyil, həm də maarifləndirmə fəaliyyəti, məsləhət xidmətləri, bazar araşdırmaları, beynəlxalq təcrübələrin ötürülməsi və sahibkarların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi də yer alır. 01 yanvar 2023-cü il tarixinədək fond tərəfindən 3 milyard manatdan artıq güzəştli kredit verilmişdir və bu vəsaitdən təxminən 45,6 min sahibkarlıq subyekti faydalanmışdır. Həmin dövr ərzində maliyyələşdirilən layihələrin ümumi dəyəri 6,7 milyard manat təşkil etmiş və bu da təqdim olunan layihələrin təxminən 45%-nin güzəştli maliyyə dəstəyi ilə reallaşdığını göstərir [13].

Lakin təhlillər göstərir ki, 2014–2022-ci illər ərzində kredit portfelində ciddi azalma müşahidə olunur: 2014-cü ildə 295 milyon manat, 2022-ci ildə isə cəmi 131 milyon manat kredit verilmişdir. Bu geriləmə fonun strateji imkanlarını və iqtisadiyyatın şaxələndirilməsində oynadığı rolu nəzərə aldıqda, narahatlıq doğuran bir tendensiyadır. Hazırkı şəraitdə bu azalmanın qarşısının alınması və kredit portfelinin əvvəlki səviyyəyə qaytarılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının ehtiyat imkanları və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitləri potensial maliyyə mənbələri kimi nəzərdən keçirilə bilər.

Digər tərəfdən, hazırda avadanlıq alınması üçün nəzərdə tutulan güzəştli kreditlərin faiz dərəcəsi 9% təşkil edir ki, bu da kənd təsərrüfatı məhsullarının istehsalı üçün tətbiq olunan güzəştli kredit faizləri ilə müqayisədə daha yüksəkdir. Bu fərq aqroemal sahəsinin texnoloji modernləşməsi prosesini zəiflədir, çünki müasir texnologiyalara keçid üçün investisiya qoyuluşları daha yüksək

həcm və daha uzunmüddətli maliyyə tələb edir. Beləliklə, güzəştli kredit siyasətinin sektorlar üzrə vahid və balanslaşdırılmış yanaşma əsasında yenidən nəzərdən keçirilməsi zərurəti yaranır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və Inkişaf Agentliyi tərəfindən müvəkkil banklar və kredit təşkilatları vasitəsilə 2022-ci ildə 4 minədək hüquqi və fiziki şəxslərə 47 mln. manat güzəştli kreditlər verilmişdir. Kreditlər əsasən heyvandarlıq, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatlarının inkişafı sahələrinə yönəldilmişdir [15].

Bununla bərabər kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığının, suvarma sistemləri avadanlıqlarının güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi məqsədilə 37,3 mln. manat kredit və 73,6 mln manat güzəşt məbləği, damazlıq heyvanların güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi məqsədilə 136 min manat kredit və 16644 min manat güzəşt məbləği ayrılmışdır [15].

***Qeyd:** 2023-cü il üzrə AKİA-nın illik maliyyə hesabatı və konkret statistik göstəriciləri rəsmi internet resurslarında (akia.gov.az) açıqlanmadığı üçün bu bölmədə yalnız 2022-ci ilə dair məlum rəqəmlərdən istifadə olunmuşdur. Rəhbərlik çıxışlarına əsaslanan bəzi təxmini məlumatlar olsa da, onların dəqiqliyini və struktur bölgüsünü təsdiqləyəcək rəsmi sənəd təqdim olunmamışdır.

Azərbaycanda aqroemal sənayesinin hazırkı vəziyyəti göstərir ki, bu sahə, xüsusilə də yüngül sənaye sektorları, o cümlədən, trikotaj və geyim istehsalı, investisiya baxımından ən çox dəstəyə ehtiyac duyan sahələrdən biridir. Bu sahənin strukturunda müşahidə olunan texnoloji gerilik, infrastruktur çatışmazlığı və zəif kapital təminatı onun dayanıqlı inkişafına əngəl törədən əsas amillərdəndir. Bu baxımdan, aqroemal sektoru

metaforik şəkildə "investisiya üçün xam torpaq" kimi xarakterizə oluna bilər – yəni özündə yüksək potensialı ehtiva etsə də, həmin potensialın reallaşdırılması üçün ciddi maliyyə resurslarına və institusional dəstəyə ehtiyac duyur.

Beynəlxalq qiymətləndirmələr də bu istiqamətdə qlobal çağırışların ciddiliyini əks etdirir. Belə ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən yayımlanan məlumatlara əsasən, 2050-ci ilə qədər dünya əhalisinin 9,1 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Bu isə 2020-ci illə müqayisədə təqribən 17 faizlik artım deməkdir. Sözügedən artımın ərzaq təminatı sahəsində yaratdığı təzyiqi qarşılamaq üçün qlobal ərzaq istehsalının orta hesabla 60% artırılması tələb olunur [182]. Təbii ki, bu qlobal artım zərurəti Azərbaycandan da yan keçmir və ölkənin ərzaq təhlükəsizliyi strategiyasında həm kənd təsərrüfatı istehsalının, həm də onun emal imkanlarının gücləndirilməsi prioritet məsələlərdən biri kimi önə çıxır.

Belə bir şəraitdə aqroemal sektoruna investisiyaların cəlb edilməsi dövlət siyasətinin mərkəzi komponentinə çevrilməlidir. Əmək bazarında əlavə dəyər yaradan, regional inkişafı stimullaşdıran və yerli məhsulların ixrac potensialını artıran bu sahəyə yatırımların təşviqi yalnız özəl təşəbbüsə buraxıla bilməz. Sahibkarlar, investorlar və digər təsərrüfat subyektləri adətən o zaman bu sahəyə investisiya yatırmağa maraqlı olurlar ki, sərmayənin geri dönüşü müəyyən olunmuş dövr ərzində təmin olunsun və kommersiya riskləri minimuma endirilsin. İnvestisiya dövriyyəsinin sürətlənməsi isə yalnız səmərəli və proqnozlaşdırıla bilən maliyyə-kredit tənzimlənməsi ilə mümkündür. Xüsusilə, ilkin mərhələlərdə investisiyaların riski daha yüksək olduğu üçün dövlətin birbaşa dəstəyi, həm maliyyə, həm də institusional baxımdan, zəruri amil kimi çıxış edir.

Aqroemal sektoruna investisiyaların cəlbi üçün ilk növbədə əlverişli investisiya mühiti formalaşdırılmalı, sərbəst və ədalətli rəqabət şəraiti təmin olunmalı, məmur sahibkarlığı kimi neqativ təzahürlər aradan qaldırılmalıdır. Güclü tənzimləyici baza və optimal vergitutma mexanizmləri isə investorlar üçün proqnozlaşdırıla bilən və cəlbedici iqtisadi mühitin təminatçısı kimi çıxış edir. Əgər bu fundamental şərtlər yerinə yetirilməzsə, hətta iri həcmli investisiya axınları da gözlənilən iqtisadi nəticələri verməyəcək. Bu xüsusda inkişaf etməkdə olan ölkələrə xas olan, xüsusilə də Azərbaycanda geniş yayılmış, orta və kiçik sahibkarların, fermerlərin və fərdi investorların üzləşdiyi riskləri minimuma endirmək, onların maliyyə resurslarına çıxış imkanlarını asanlaşdırmaq strateji əhəmiyyət kəsb edir.

Mövcud vəziyyət onu da göstərir ki, bank sektorunun aqrar və emal sənayesinə uzunmüddətli kredit verməyə marağı zəifdir. Bu isə alternativ maliyyələşmə mexanizmlərinin, məsələn, dövlət dəstəyi ilə formalaşdırılan özəl aqrar investisiya fondlarının yaradılmasını aktuallaşdırır. Belə fondlar vasitəsilə xüsusilə kiçik və orta sahibkarların investisiya resurslarına çıxışı genişlənə, onların assosiasiyaları isə kollektiv investisiya toplama aləti kimi çıxış edə bilər.

İnvestisiya cəlbediciliyini artırmaq üçün yalnız maliyyə mexanizmləri ilə kifayətlənmək olmaz. Aqroemal sahəsində elmi-tədqiqat fəaliyyətlərinə dövlət sərmayəsinin artırılması, innovativ texnologiyaların transferi və praktik tətbiq imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, birbaşa xarici investisiyaların bu sektora cəlbi üçün hüquqi və inzibati təminatların gücləndirilməsi, məsələn, torpaq və daşınmaz əmlak hüquqları, gömrük və vergi güzəştləri vacib alətlərdən biridir.

İnvestorlar sərmayələrini əsasən səmərəli fəaliyyət göstərən, yüksək gəlir gətirə biləcək və bazar riski aşağı olan təsərrüfat sahələrinə yönəltməyə meyillidirlər. Buna görə də aqroemal sektoruna investisiyaların yönləndirilməsi məqsədilə hazırlanacaq layihələr sahənin bütün aspektlərini – texniki infrastruktur, istehsal planlaması, məhsul satışı şəbəkəsi, istehlak tələbatı və rentabellik potensialını əhatə edən kompleks təhlilə əsaslanmalıdır. Yalnız bu halda investor inamı və sərmayə axını təmin oluna bilər.

Vençur investisiyalarını da aqroemal sahəsinə qoyulan ən əhəmiyyətli sərmayələr kimi göstərmək olar. Bu investisiya forması birbaşa innovasiya ilə bağlıdır və istehsalatda əlavə dəyər yaratmaq üçün riskli innovativ yüksək gəlirli layihələrin və ya sürətlə inkişaf edən sənayelərdə orta hesabla üç ildən beş, bəzən yeddi ilədək olan layihələrin maliyyələşdirilməsinə yönəldilir. Ənənəvi klassik investisiyalardan fərqli olaraq vençur investisiya modeli hər bir konkret şirkətdə investisiyaların yüksək ehtimal olunan itkisini ehtiva edir. İnvestisiya itkisi burada təxminən 50%-dən çoxdur. Mənfəətlilik isə ən uğurlu investisiyaların yüksək gəliri sayəsində əldə edilir.

İlk dəfə vençur kapitalının yaranması və tətbiqi 1946-cı ildə Amerika Tədqiqat və İnkişaf Korporasiyasının (American Research & Development Corporation) yaradılması ilə hesab olunur. Bu korporasiyanın yaradılması ideyasını Boston Federal Ehtiyat Bankının sədri Ralf Flanders irəli sürmüşdür. Flanders bu qurumun yaradılmasını belə izah etmişdir: "*Bizə aşağıdan yeni güc, enerji və qabiliyyət lazımdır. Biz nəhəng etimad resurslarımızın kiçik bir hissəsini dəstək axtaran yeni ideyalarla birləşdirməyə* borcluyuq" [171].

1960-cı illərdən sonra vençur biznesinin dinamik inkişafı digər ölkələrin maliyyə qurumlarının diqqətini cəlb etdi və onun

dünyanın iqtisadi həyata tətbiqi genişlənməyə başladı. 1973-cü ildə ABŞ-da Milli Vençur Kapitalı Assosiasiyası (National Venture Capital Association – NVCA) yarandı. Bu təşkilatın fəaliyyəti əsasən vençur sərmayədarlarının və inkişaf etməkdə olan şirkətlərin maraqlarının qorunmasına yönəldildi. Ona görə də ABŞ həmişə vençur kapitalı sahəsində lider olub [153].

Avropada vençur biznesi də ABŞ-dan xeyli az olsa da, fəal şəkildə inkişaf edir. Böyük Britaniya vençur kapitalının tətbiqinə görə Avropada liderdir. İsrail dünyada vençur kapitalı müəssisələrinin inkişafına görə xüsusi yer tutur.

Rusiyada Vençur İnnovasiya Fondu yaradılmışdır ki, bunun da əsas məqsədi ölkənin yüksək texnologiyalı müəssisələrinə investisiya qoymaq, vençur fondlarına kapital qoyuluşlarını dəstəkləməkdir.

Azərbaycanda vençur kapitalı ilə əlaqədar konkret hüquqi baza olmasa da, bu məsələlər dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi olan innovasiya siyasəti ilə tənzimlənir. Bu məqsədlə də "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya" Dövlət Proqramının qəbul olunmuşdur ki, bu da yeni iqtisadi modellərin, innovasiyaların, texnoloji biznes-inkubatorları dəstəkləmək və yeni texnoparkların yaradılmasını əhatə edən innovasiya infrastrukturunun formalaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur [106].

*"Aqrar sahənin torpaq vergisindən başqa digər vergilərdən azad olunması, kənd təsərrüfatı və qida sənayesində istifadə olunmaq məqsədilə ölkəyə idxal olunan müəyyənləşdirilmiş məhsul və avadanlıqlar üçün gömrük rüsumu və ƏDV-nin aradan qaldırılması və aqrar sektora verilən subsidiyalar vençur kapitalın bu sahəyə cəlb olunması üçün imkanlar yaradır"* [73, s.208].

Bütün bunlara baxmayaraq, Azərbaycanda vençur investisiyaları geniş vüsət ala bilməmişdir. Bunun səbəbini ölkədə bir çox, bir-biri ilə bağlı olan amillərlə izah etmək olar:

- ölkə sahibkarları daha çox ənənəvi məhsul istehsalına üstünlük verirlər, çünki bu biznesdə risk səviyyəsi çox aşağıdır. Ölkədə yerli sərmayə kapitalı çox aşağı səviyyədədir. Buna görə də investorlar riskli sahələrə sərmayə qoymaqdan çəkinərlər. Biz yuxarıda qeyd etmişdik ki, vençur layihələri çox yüksək risklidir.
- vençur sərmayələri üçün əlverişli mühitin olmasının əsas atributlarından biri yerli fond birjası və qiymətli kağızlar bazarının olmasıdır. Təəssüf ki, bizim ölkədə bu sahədə ciddi durğunluq hökm sürür.
- intellektual mülkiyyət bazarının aşagı səviyyədə olması, vençur kapitalı ilə innovasiya biznesi arasında əlaqənin zəif olması, vençur biznesi haqqında informasiyanın zəif olması, real iqtisadiyyat subyektləri ilə elmi müəssisələr arasında əlaqənin çox zəif olması, vençur layihələri həyata keçirə biləcək ixtisaslı menecerlərin az olması və, nəhayət, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi bazanın olmaması.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vençur biznesinin uğurlu inkişafı üçün, xüsusilə də, onun ilkin mərhələsində aktiv dövlət dəstəyi lazımdır. Məhz dövlət dəstəyi nəticəsində vençur investisiyası inkişaf edə bilər.

Hər şeydən öncə, vençur fəaliyyətini tənzimləyən normativ – hüquqi baza yaradılmalıdır.

Aqroemal sahəsində innovativ maliyyələşmə alətlərinin tətbiqi baxımından vençur kapitalının inteqrasiyasını təşviq edən pilot layihə modeli çərçivəsində Mingəçevir Sənaye Parkında aqrotexnologiya yönümlü startapların cəlb olunduğu və vençur

investisiyaları ilə dəstəkləndiyi xüsusi zonanın yaradılması məqsədəuyğun təklif kimi irəli sürülə bilər.

Eyni zamanda ölkədə vençur biznesini inkişaf etdirmək üçün maliyyə mənbəələri araşdırılmalıdır. Fikrimizcə, vençur kapitalı üçün ən önəmli mənbəələrdən biri ölkənin Dövlət Pensiya Fondu olardı. Bu təcrübə bir çox ölkələrdə, o cümlədən, ABŞ-da uğurla tətbiq edilir.

Böyük həcmli aktivlərə malik təsərrüfathesablı dövlət qurumlarını, daha doğrusu, Dövlət Neft Şirkəti-Socarı, Dövlət Neft fondunu vençur kapitalının mümkün mənbələrinə aid etmək olar. Bu strukturlar geniş investisiya imkanlarının olması səbəbindən vençur kapitalının əsas mənbələrindən birinə çevrilə bilərlər.

Ölkədə son illər fəaliyyət göstərməyə başlamış sənaye parkları da investisiya üçün çox cəlbedicidir. Bu cür qabaqcıl inkişaf ərazilərində iqtisadi fəaliyyətə üstünlük verilməsi bu cəlbediciliyi daha da artırır. Belə ki, ilk illərdə sənaye parkları rezidentlərinə vergi və ƏDV güzəştləri verilir, inzibati maneələr azdır və s. bu kimi dəstəkləyici tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı [35], Bakı şəhər Balaxanı Sənaye Parkı [46], Mingəçevir Sənaye Parkı [82] ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı baxımından təqdirəlayiq nümunələr hesab olunur.

Ölkə başçısı hələ 2013-cü ildə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"ni təsdiqləyən fərman imzalamışdır. Bu sənəd sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm baza sənədidir [90].

Bu sənaye parklarının rezidenti olan şirkətlər 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən və parkda istifadə məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azad ediliblər. Bütün bu güzəştlər texnoparklarda hər hansı bir biznesə daha rahat başlamaq üçün təşkil olunur. Burada sahibkarların rahat şəkildə istifadə edə biləcəyi avadanlıqlar quraşdırılır. Texnoparklar həmçinin bir və ya bir neçə universitetin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya dolayısı ilə əlaqədar olub yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulmasına şərait yaradır.

Azərbaycanda kənd təsərrüfatı sahəsində ipoteka kreditləşməsi mexanizmləri hələ tam formalaşmamışdır və bu səbəbdən özəl mülkiyyətdə olan torpaqlar iqtisadi dövriyyəyə əsas istehsal resursu kimi geniş şəkildə daxil edilmir. Torpaqların kreditin təminatı qismində istifadə edilə bilməməsi, kənd təsərrüfatı ilə məşğul olan sahibkarların maliyyə resurslarına çıxışını məhdudlaşdırır və nəticədə investisiya imkanlarının zəifləməsinə, sahənin müasir texnologiyalarla təchiz olunmasında ciddi ləngimələrə səbəb olur. Halbuki inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında kreditləşmənin dayanıqlılığı torpaq və daşınmaz əmlak ipotekasının geniş tətbiqindən keçir. Azərbaycanda bu mexanizmin formalaşmaması aqrar sektorun, xüsusilə aqroemal sahəsinin institusional zəifliyinin və maliyyə izolyasiyasının əsas göstəricilərindən biridir.

Bu baxımdan, aqrar-sənaye kompleksində (ASK) investisiya mühitinin formalaşdırılması strateji əhəmiyyət daşıyır və hər şeydən əvvəl bu mühitin institutlaşması və sabit maliyyə sistemləri ilə dəstəklənməsi tələb olunur. Hal-hazırda kənd təsərrüfatı müəssisələrinin böyük əksəriyyəti investisiya baxımından cəlbedici deyil, çünki həmin subyektlər dayanıqlı gəlirlilik səviyyəsinə və

risklərin idarəedilməsi sistemlərinə malik deyillər. Bu da öz növbəsində investorların marağını zəiflədir. İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatının modernləşdirilməsi və kapital cəlbediciliyinin artırılması üçün ilkin mərhələdə dövlətin aktiv rolu həlledici əhəmiyyət daşıyır. Dövlət maliyyə təşviqləri, zəmanət fondları, vergi güzəştləri və hüquqi təminatlar vasitəsilə aqrar sahəni daha cazibədar edə bilər. Bu cür tədbirlər nəticəsində kənd təsərrüfatı sektorunda istehsal texnologiyalarının yenilənməsi, risklərin azalması və investisiyaların geri dönüş müddətinin qısaldılması təmin oluna bilər.

Aqroemal sahəsinin dayanıqlı inkişafı innovasiyaların tətbiqini və kapital axınının artırılmasını özündə birləşdirən innovasiya-investisiya modeli üzərində qurulmalıdır. Belə bir model aqroemal müəssisələrinin texnoloji səviyyəsini yüksəldərək onların məhsuldarlığını və bazarda rəqabətə davamlılığını artırmaqla yanaşı, idxal məhsullarının yerli bazarda hegemonluğunu zəiflədə bilər. Bu baxımdan, investisiyanın yönləndirilməsi yalnız texniki modernləşməyə deyil, həm də dəyər zəncirinin bütün mərhələlərinin gücləndirilməsinə, o cümlədən, logistika, qablaşdırma, keyfiyyətə nəzarət və marketinq sistemlərinin formalaşdırılmasına yönəlməlidir.

Eyni zamanda, aqroemal sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri (KOS-lar) iri aqroholdinqlərlə eyni şərtlərlə rəqabət aparmaq imkanlarından məhrumdurlar. Bu müəssisələr üçün rəqabətdə qalmağın əsas şərti ixtisaslaşma, çeviklik və bazar boşluqlarından istifadədir. Rəqabətədavamlılığın artırılması məqsədilə bu KOS-lar üçün dövlət dəstəyi mexanizmləri daha hədəfli şəkildə planlaşdırılmalı və istehsalın spesifikliyinə uyğunlaşdırılmalıdır. Məsələn, diferensial subsidiyalaşdırma,

ixtisaslaşmış təlim proqramları, texnoloji yeniliklərə çıxış və satış kanallarının diversifikasiyası bu müəssisələrin dayanıqlı fəaliyyətini təmin edə bilər.

Dövlətin kənd təsərrüfatı və onun emalı sahəsində oynadığı rol müasir bazar iqtisadiyyatında təkcə tənzimləyici deyil, həm də stimullaşdırıcı və yönəldici xarakter daşıyır. Qlobal inteqrasiya prosesləri və miqyas iqtisadiyyatının güclənməsi fonunda dövlətin bu sahələrdə aktiv və davamlı iştirakı, həm milli ərzaq təhlükəsizliyinin təmin olunması, həm də kənd regionlarının sosial-iqtisadi inkişafı baxımından həyati əhəmiyyət kəsb edir.

Əldə olunan nəticələr göstərir ki, aqroemal sektorunda məqsədyönlü maliyyə-kredit tənzimlənməsi vasitəsilə maliyyə resurslarının istehsala yönləndirilməsi, texnoloji yenilənməni və istehsalın modernləşdirilməsini stimullaşdırır. Bu isə son nəticədə yerli məhsulların rəqabətqabiliyyətini artırır, daxili bazarda xarici məhsullarla effektiv rəqabətə imkan yaradır və idxaldan asılılığın azaldılmasına gətirib çıxarır. Beləliklə, düzgün qurulmuş maliyyə-kredit siyasəti yalnız aqroemal sektorunun inkişafına deyil, ümumilikdə ölkənin ərzaq təhlükəsizliyinə və iqtisadi dayanıqlılığına xidmət edən mühüm strateji alətə çevrilir.

## 3.4. Aqroemal sahəsinin dayanıqlı inkişafında dövlət proqramları və institusional tənzimləmə mexanizmləri

Aqroemal sahəsinin dayanıqlı inkişafı kənd təsərrüfatı məhsullarının dəyər zəncirində əlavə dəyər yaradan əsas mərhələ kimi strateji əhəmiyyətə malikdir. Bu sahə yalnız kənd təsərrüfatı sektorunu tamamlamır, həm də ərzaq təhlükəsizliyinin təmin olunması, məşğulluğun artırılması və regionların iqtisadi aktivliyinin stimullaşdırılması baxımından mühüm funksiyalar

yerinə yetirir. Lakin aqroemal müəssisələrinin institusional zəifliklər, infrastruktur çatışmazlıqları və maliyyə resurslarına çıxışdakı məhdudiyyətlər səbəbilə bazar iqtisadiyyatının tamhüquqlu iştirakçılarına çevrilməsi problem olaraq qalır. Bu reallıqlar göstərir ki, sahənin inkişafı təkcə sahibkarlıq təşəbbüsləri ilə deyil, dövlətin məqsədyönlü proqram və tənzimləyici institutlar vasitəsilə dəstəklənməlidir.

Bir çox məhsullar üzrə, xüsusilə də, yüngül sənaye məhsulları üzrə idxaldan asılılıq böyükdür və hökümət burada balanslaşdırılmış və dayanıqlı inkişafa nail olmaq üçün dövlət tənzimləmə mexanizminin əsas istiqamətini idxalın əvəzlənməsi prosesinə yönləndirməlidir.

*"Dövlət tənzimlənmələri sisteminin effektiv işləməsi üçün dövlət-özəl tərəfdaşlığının əhəmiyyəti böyükdür və bununla bağlı ölkədə hüquqi-normativ baza formalaşdırılmalıdır. Bu normativ hüquqi baza ilk növbədə "Dövlət-özəl sektor əməkdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunundan, tenderlərin keçirilməsi qaydalarından, dövlət-biznes əməkdaşlığına dair müqavilələrdən və digər normativ sənədlərin qəbulundan ibarət olmalıdır"* [143, s.5].

Müstəqillik dövründə Azərbaycanda aqrar sahənin inkişafı istiqamətində bir sıra dövlət proqramları qəbul olunmuş, həmin proqramların tərkib hissəsi olaraq aqroemal sektorunun da dəstəklənməsi nəzərdə tutulmuşdur. Lakin bu proqramların icrası və effektivliyi sahənin real problemlərinin həllinə tam adekvat olmamış, aqroemal müəssisələrinin struktur problemləri və rəqabət qabiliyyəti məsələlərində ciddi irəliləyişlərə gətirib çıxarmamışdır. Belə şəraitdə, sahənin davamlı inkişafını təmin edən tənzimləyici institutların səmərəli fəaliyyəti, dövlət proqramlarının məqsədyönlü

və çevik icrası, subsidiya və güzəşt mexanizmlərinin məqsədli təşkili daha böyük aktuallıq qazanmışdır.

Azərbaycan Respublikasında aqrar və aqroemal sahələrin inkişafına yönəlmiş dövlət proqramları ölkənin ərzaq təhlükəsizliyi strategiyasının tərkib hissəsi olmaqla, kənd təsərrüfatının sənaye istehsalına inteqrasiyasını təmin etməyə xidmət edir. Dövlət proqramlarının əsas məqsədi kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması, ilkin emalı və bazara çıxarılması zəncirinin effektiv şəkildə formalaşdırılmasıdır. Bu proqramlar eyni zamanda regionların iqtisadi aktivliyini artırmaq, məşğulluğu təmin etmək və ixrac potensialını gücləndirmək kimi hədəfləri də əhatə edir.

Müstəqillik dövründə qəbul edilmiş və aqroemal sektoruna dolayı və ya birbaşa təsir göstərən proqramlar içərisində "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları" (2004–2008, 2009–2013, 2014–2018 və 2019–2023-cü illər üçün nəzərdə tutulmuş dörd mərhələli sənədlər) xüsusi əhəmiyyət daşıyır. Hər mərhələdə regionlarda fəaliyyət göstərən kənd təsərrüfatı və emal müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastrukturların yaxşılaşdırılması və sahibkarlıq mühitinin dəstəklənməsi məqsədilə müxtəlif layihələr reallaşdırılmışdır. Lakin bu proqramlar, daha çox infrastruktur və inzibati tədbirlərə yönəlmiş, texnoloji modernizasiya və rəqabət mühitinin inkişafı sahəsində istənilən sistemli irəliləyişləri təmin edə bilməmişdir.

Bundan əlavə, "Azərbaycan Respublikasında kənd təsərrüfatının dayanıqlı inkişafı üzrə Dövlət Strategiyası (2015–2020)" sənədində ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatı məhsullarının dəyər zəncirində emal mərhələsinin gücləndirilməsi məsələləri hədəf kimi müəyyənləşdirilmişdir. Strategiyada kənd təsərrüfatı məhsullarının satışa qədərki mərhələsində texniki dəstək,

logistika, emal və qablaşdırma kimi istiqamətlərin inkişaf etdirilməsi vacib amil kimi vurğulanırdı. Lakin strategiyanın tətbiqində aqroemal sahəsinə yönəlmiş konkret təşviq mexanizmləri və ya hədəf proqramların olmaması nəticəsində sənayeləşmə prosesində bu sahə arxa planda qalmışdır.

2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Strateji Yol Xəritələri" ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas sənədi kimi qəbul edilir. Bu sənəd ölkənin sosial-iqtisadi inkişafının müxtəlif sahələrini, o cümlədən kənd təsərrüfatı və aqroemal sənayesini əhatə edən kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Strateji Yol Xəritələrində aqroemal sektorun inkişafı kənd təsərrüfatı məhsullarının yüksək əlavə dəyər yaratmaq potensialı kimi dəyərləndirilir. Bu sahədə prioritetlərdən biri innovativ texnologiyaların tətbiqi ilə istehsal və emal proseslərinin modernləşdirilməsi, həmçinin idxaldan asılılığın azaldılmasıdır. Yol xəritəsində qeyd olunur ki, aqroemal məhsulların dünya bazarına çıxış imkanlarının genişləndirilməsi üçün ixrac potensialının artırılması, brendləşmə və keyfiyyət standartlarının tətbiqi əsas vəzifələrdən biridir.

Strateji sənəd kənd təsərrüfatının emal mərhələsində fəaliyyət göstərən müəssisələrin maddi-texniki bazasının gücləndirilməsini, logistika və marketinq infrastrukturunun inkişafını vacib amil kimi qiymətləndirir. Bu məqsədlə dövlət və özəl sektorun əməkdaşlığı, həmçinin beynəlxalq təcrübənin tətbiqi vurğulanır. Yol xəritəsində xüsusilə iri aqroholdinqlərin inkişafı və onların bazar mövqeyinin möhkəmləndirilməsi prioritet kimi qeyd edilir, kiçik və orta sahibkarlığın inkişafı isə ayrıca proqramlarla dəstəklənməsi nəzərdə tutulur.

Həmçinin, sənəddə əks olunmuşdur ki, aqroemal sahənin inkişafı üçün xüsusi investisiya mühitinin yaradılması, əlverişli maliyyə mexanizmlərinin tətbiqi zəruridir. Bu məqsədlə dövlət kredit zəmanət sistemləri, subsidiyalar və güzəştli kreditlər vasitəsilə sektora investisiyaların cəlb edilməsi nəzərdə tutulur. Strateji Yol Xəritələri çərçivəsində aqroemal sektor üçün prioritet sahələr müəyyən edilərək, investisiya layihələrinin hazırlanması və maliyyələşdirilməsi üçün şərait yaradılmışdır.

2016-cı il Yol Xəritələrinin tətbiqi dövründə aqroemal sahədə müəyyən irəliləyişlər müşahidə olunmuşdur, xüsusilə böyük müəssisələrdə istehsal güclərinin artırılması, texnoloji yeniliklərin tətbiqi və ixrac potensialının genişləndirilməsi sahəsində. Lakin, ümumi qiymətləndirmədə kiçik və orta sahibkarlığın vəziyyəti və dayanıqlı inkişaf üçün institusional dəstəyin hələ də zəif olması problemləri qalmaqdadır. Bu da dövlət siyasətinin daha çevik, bazar reallıqlarına uyğunlaşdırılması ehtiyacını göstərir.

2016-cı il Strateji Yol Xəritələri Azərbaycan aqroemal sektorunun inkişafı üçün mühüm istiqamətləri müəyyən etmiş və strateji əsaslar yaratmışdır. Lakin onların uğurlu icrası üçün daha genişmiqyaslı institusional islahatlar, maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və xüsusilə kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıracaq əlavə tədbirlər zəruridir.

"Azərbaycan Respublikasının 2020–2030-cu illər üçün sosial-iqtisadi inkişaf Strategiyası" ölkənin uzunmüddətli inkişafını təmin etmək məqsədilə hazırlanmış əsas dövlət sənədidir. Bu Strategiya çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi, innovasiyaların tətbiqi və rəqabətqabiliyyətli bazarın formalaşdırılması prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Kənd təsərrüfatı və aqroemal sektorun davamlı inkişafı, məhsuldarlığın artırılması və ixrac potensialının genişləndirilməsi də Strategiyanın əsas hədəflərindən

biridir. Sosial rifahın yüksəldilməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə investisiya mühitinin təkmilləşdirilməsi, dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi və regionların sosial-iqtisadi inkişafının balanslaşdırılması tədbirləri Strategiyada xüsusi yer alır. Bu, ölkənin dayanıqlı iqtisadi inkişafına, eləcə də kənd təsərrüfatı sektorunun modernləşməsinə mühüm təkan vermək üçün əsas platforma rolunu oynayır.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyinin artırılması haqqında" müxtəlif qərar və fərmanlar çərçivəsində isə subsidiyaların verilməsi mexanizmləri təsbit olunmuşdur. Lakin bu subsidiyalar əsasən istehsal mərhələsini hədəflədiyindən, emal mərhələsi demək olar ki, dövlət dəstəyindən kənarda qalmışdır. Bu isə, nəticə etibarilə, kənd təsərrüfatı məhsullarının dəyər zəncirində əlavə dəyərin ölkə daxilində formalaşdırılmasına mənfi təsir göstərmiş və xammalın emalsız şəkildə ixracı ilə nəticələnmişdir.

Emal sahəsinin birbaşa dəstəklənməsi istiqamətində isə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə aqroparkların yaradılması haqqında Dövlət Proqramı" (2012–2022) xüsusi qeyd olunmalıdır. Bu proqram çərçivəsində müxtəlif regionlarda 50-dən artıq aqroparkın yaradılması planlaşdırılmış və bəzi bölgələrdə artıq fəaliyyətə başlamışdır. Aqroparklar, kənd təsərrüfatının emal, saxlama və logistik imkanlarını bir mərkəzdə birləşdirmək baxımından uğurlu institusional model kimi qiymətləndirilə bilər. Lakin bu struktur daha çox iri təsərrüfat subyektlərini əhatə edir və kiçik sahibkarların inteqrasiyası zəifdir. Bu isə emal sahəsində iştirakın məhdud çevrə ilə məhdudlaşdırılması və sektorda rəqabət mühitinin zəifləməsi ilə nəticələnir.

2021-ci ildən etibarən həyata keçirilən "2021–2025-ci illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası" sənədində isə rəqəmsallaşma, klasterləşmə və dəyər zənciri üzrə səmərəli tənzimləmə modellərinin tətbiqi ilə bağlı daha müasir yanaşmalar öz əksini tapmışdır. Bu sənəd artıq aqroemal sahəsini sistemli şəkildə dəyərləndirir və emal mərhələsində innovasiya texnologiyalarının tətbiqi, ixrac yönümlü məhsul istehsalının təşviqi, o cümlədən sertifikatlaşdırma, brendləşmə və xarici bazarlara çıxış üçün dəstək mexanizmlərini nəzərdə tutur. Lakin bu proqramın icra vəziyyəti və nəticələri hələ tam qiymətləndirilə bilməz, çünki real tətbiq dövrü qısa olmuşdur və çoxsaylı göstəricilər üzrə hesabatlılıq zəifdir.

Ümumilikdə götürüldükdə, dövlət proqramlarının aqroemal sektoruna təsiri selektiv xarakter daşıyır və sistemli transformasiya hələlik müşahidə olunmur. Proqramlar ya aqrar istehsalın ilkin mərhələsini, ya da aqrar infrastrukturun inkişafını hədəfləyir, emal mərhələsinin özünəməxsus xüsusiyyətləri isə nadir hallarda prioritet kimi qəbul olunur. Bu isə aqroemal sektorunun dayanıqlı inkişafı üçün strateji konsepsiyanın olmaması ilə izah oluna bilər.

Baxmayaraq ki, son onilliklərdə Azərbaycanda aqrar sektorun müxtəlif sahələrini, o cümlədən aqroemal və kənd təsərrüfatı fəaliyyətlərini tənzimləmək və inkişaf etdirmək məqsədilə bir sıra strateji sənədlər, dövlət proqramları, qanunlar və fərmanlar qəbul olunmuşdur, bir çox hallarda bu sənədlər yalnız normativ-hüquqi çərçivədə qalaraq real sektorun strukturunda və istehsal göstəricilərində ciddi keyfiyyət dəyişikliklərinə səbəb olmamışdır. Bunun bariz nümunələrindən biri "Çayçılıq haqqında" 2002-ci il tarixli Azərbaycan Respublikasının Qanunudur. Sözügedən qanunda çayçılıq sahəsinin inkişaf perspektivləri, hüquqi və iqtisadi əsasları müəyyən edilsə də, sonrakı illərdə bu sənədin implementasiyası üzrə sistemli tədbirlərin həyata keçirilməməsi

sahənin geriləməsinə gətirib çıxarmışdır. Əgər 2002-ci ildə ölkədə çay plantasiyalarının ümumi sahəsi 3 700 hektar idisə, 2023-cü ildə bu göstərici 1 000 hektaradək azalmışdır. Bu kəskin geriləmə bir tərəfdən hüquqi çərçivə ilə praktiki tətbiq arasındakı boşluğu, digər tərəfdən isə qəbul edilən normativ sənədlərin institusional icra mexanizmlərinin zəifliyini göstərir. Beləliklə, aqrar sahədə strateji istiqamətlərin sadəcə qəbul edilməsi kifayət etmir, onların həyata keçirilməsi üçün institusional dayanıqlılığın, adekvat maliyyələşmənin və monitorinq mexanizmlərinin mövcudluğu əsas şərtlərdən biri kimi çıxış edir.

"Üzümçülük və şərabçılıq haqqında" Qanun 2001-ci ildə qəbul olunaraq bu sahənin inkişafı üçün hüquqi baza formalaşdırılmışdır. Uzunmüddətli dinamika göstərir ki, qanunun tətbiqi faktiki nəticələrdə ciddi keyfiyyət dəyişikliyi yaratmamışdır. Belə ki, rəsmi statistikaya əsasən, 2000-ci ildə üzüm əkini sahəsi 14,2 min hektar təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici cəmi 15 min hektara çatmışdır. Bu isə 23 illik dövrdə cəmi 800 hektarlıq artım deməkdir ki, bu da illik orta hesabla təxminən 35 hektarlıq genişlənməyə uyğundur. Sözügedən artım tempi nə sosial tələbatla, nə də ixrac potensialının reallaşdırılması ilə uzlaşmır.

Azərbaycan Respublikasında pambıqçılıq və tütünçülük sahələrinin tənzimlənməsi məqsədilə müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Pambıqçılıq sahəsində əsas normativ aktlardan biri olan "Pambıqçılıq haqqında" qanun isə ölkənin kənd təsərrüfatında bu sahənin inkişafına istiqamətlənmiş əsas hüquqi sənədlərdən sayılır. Statistik məlumatlar göstərir ki, 2000-ci ildə pambıq əkini sahəsi 101,2 min hektar təşkil etmişdir. Lakin 2023-cü ildə bu rəqəm 93,7 min hektara qədər azalmışdır ki, bu da sahənin inkişaf tempində müəyyən zəifləməni əks etdirir.

Tütünçülük sahəsində isə "Tütün və tütün məmulatları haqqında" Azərbaycan Respublikasının Qanunu 2001-ci ildə qəbul edilmiş və 2002-ci ildən qüvvəyə minmişdir. Bu qanunun qəbuluna baxmayaraq, tütün əkini sahəsində əhəmiyyətli azalma müşahidə olunmuşdur. Belə ki, 2000-ci ildə tütün əkini 8,1 min hektar təşkil etdiyi halda, 2023-cü ildə bu rəqəm 2,7 min hektara qədər enmişdir. Bu göstəricilər qanunvericilik tədbirlərinin sahədə gözlənilən təsiri yaratmadığını və mövcud problemlərin hələ də tam həll edilmədiyini göstərir.

Təəssüf ki, qəbul edilən qanun və normativ hüquqi aktların əksəriyyəti praktikada gözlənilən təsiri göstərməmişdir. Məlumatlar göstərir ki, qanunların qüvvəyə minməsindən sonra da sahələrin inkişafında geriləmə müşahidə olunur ki, bu da onların real tətbiqində ciddi çatışmazlıqların olduğunu nümayiş etdirir. Bu vəziyyət təkcə qanunların məzmunundakı uyğunsuzluqlarla deyil, həm də tətbiq mexanizmlərinin zəifliyi, maliyyə dəstəyinin yetərsizliyi, institutlararası koordinasiyanın olmaması və yerli icra hakimiyyətlərinin təsir gücünün zəifliyi ilə əlaqədardır. Nəticədə, qanunların kağız üzərində qalması aqro-sənaye sektorunun dayanıqlı inkişafına mane olur və sektorda mövcud problemlərin həllinə ciddi əngəl törədir.

Mövcud proqramların effektivliyinin artırılması üçün yalnız maliyyə dəstəyi deyil, həm də institusional koordinasiya, fəaliyyətin monitorinqi, məqsədyönlü nəticəyönlü göstəricilərin müəyyən edilməsi və yerli icra strukturları ilə biznes subyektləri arasında çevik kommunikasiya təmin edilməlidir. Yalnız bu halda dövlət proqramlarının aqroemal sektorunda real dəyişikliklər yaratması mümkün olacaqdır.

Aqroemal sektorunun inkişafında tənzimləyici institutların rolu əvəzsizdir. Bu institutlar yalnız normativ-hüquqi çərçivəni

müəyyənləşdirməklə kifayətlənmir, həm də iqtisadi stimullaşdırma, nəzarət, monitorinq və sektorlararası koordinasiya funksiyalarını yerinə yetirirlər. Azərbaycanda aqrar və aqroemal sahənin tənzimlənməsi əsasən bir neçə əsas dövlət qurumu tərəfindən həyata keçirilir ki, onların hər biri spesifik funksiyalara malikdir və fərqli istiqamətlər üzrə fəaliyyət göstərir.

Kənd Təsərrüfatı Nazirliyi (KTN) ölkənin aqrar siyasətini formalaşdıran və həyata keçirən əsas icraedici qurumdur. Nazirlik aqroemal müəssisələrinin xammal bazasının formalaşması, kənd təsərrüfatı məhsullarının emal üçün keyfiyyətli və davamlı şəkildə təmin olunması, innovasiyaların tətbiqi, həmçinin fermerlərə təlim və konsaltinq xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət göstərir. KTN həmçinin dövlət proqramlarının icrasına nəzarət etməklə yanaşı, subsidiyaların bölgüsünü, kənd təsərrüfatı sığortasının təşkili və aqrar xidmətlərin koordinasiyasını həyata keçirir.

Digər mühüm qurum Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA)-dır. AKİA-nın fəaliyyət istiqaməti əsasən güzəştli kreditlərin və subsidiyaların verilməsi, kənd yerlərində maliyyə əlçatanlığının artırılması və investisiya təşviqlərinin təşkili ilə bağlıdır. Agentlik bir tərəfdən özəl sektorla – xüsusən kiçik və orta sahibkarlarla əməkdaşlıq edir, digər tərəfdən isə dövlətin maliyyə dəstəyinin ünvanlı və səmərəli şəkildə bölgüsünə cavabdehdir. AKİA-nın fəaliyyəti aqroemal müəssisələrinin maliyyə resurslarına çıxış imkanlarını artırmağa yönəlmişdir. Lakin agentliyin fəaliyyətində institusional çeviklik, bölgü meyarlarının şəffaflığı və nəzarət mexanizmlərinin gücləndirilməsi sahəsində hələ də ciddi təkmilləşdirməyə ehtiyac qalır.

İqtisadiyyat Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən qurumlar (xüsusilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi -

KOBİA) aqroemal sahəsindəki kiçik və orta sahibkarların fəaliyyətini tənzimləyən, onları hüquqi, texniki və təlim baxımından dəstəkləyən əsas strukturlardan biridir. KOBİA, eyni zamanda, regionlarda aqroemal potensialın inkişafı üçün biznes inkubatorları, sərmayə təşviqi və klaster yanaşmalarına əsaslanan layihələr hazırlayır. Lakin bu institutların fəaliyyətində aqroemal sahəsinə xüsusi prioritet verilməməsi, aqrar istiqamətdə ixtisaslaşmış texniki bacarıqların məhdudluğu və kooperativ strukturun zəif dəstəklənməsi müəyyən boşluqlara yol açır.

Eyni zamanda, Əmlak Məsələləri Dövlət Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Xidməti kimi qurumların da aqroemal sektorunun tənzimlənməsində dolayı və ya birbaşa rolu vardır. Məsələn, məhsulların keyfiyyət standartlarının tənzimlənməsi, torpaq fondlarının uçotu və istifadəsi, emal müəssisələrində sanitariya və ekoloji standartlara əməl olunmasına nəzarət məhz bu qurumların funksiyaları sırasındadır.

Azərbaycan Respublikasında tənzimləyici institutların say çoxluğu onların funksiyalarının bir-birini tamamlaması baxımından müsbət görünsə də, praktiki müstəvidə institutlararası koordinasiya və vahid idarəetmə sisteminin olmaması bəzi hallarda təkrarlanan funksiyalar və resurs israfına səbəb olur. Bu da normativ-hüquqi bazanın icrasının zəifləməsinə, dövlət proqramlarının koordinasiyasının çətinləşməsinə və aqroemal sektorunun kompleks inkişafına maneə yaradır.

Aqroemal sahəsində dövlət tənzimləyici institutlarının fəaliyyətini daha səmərəli etmək üçün onların funksional bölgüsü dəqiqləşdirilməli, idarəetmədə şəffaflıq, hesabatlılıq və nəticəyönümlü göstəricilər əsas götürülməlidir. Bundan əlavə,

regionlarda fəaliyyət göstərən institutların lokal reallıqlara uyğunlaşması və sahə üzrə ixtisaslaşması təmin olunmalı, aqroemal sektoruna dair qərarların qəbulunda maraqlı tərəflərlə məsləhətləşmələr sistemli şəkildə təşkil edilməlidir.

Əvvəlki mülahizələrin davamı olaraq qeyd edilməlidir ki, aqroemal sektorunun dinamik inkişafını təmin etmək üçün mövcud maliyyələşdirmə və subsidiya mexanizmləri ciddi şəkildə təhlil edilməli və onların effektivliyi artırılmalıdır. Hazırda aparılan tədqiqatlar göstərir ki, ayrılan subsidiyalar və güzəştli kreditləşmə proqramları sektorun struktur problemlərini həll etmək gücündə deyil. Bu mexanizmlər, əsasən, istehsal prosesində xərclərin qismən kompensasiyasını təmin etsə də, nə infrastrukturun inkişafına, nə də texnoloji modernləşməyə real təsir göstərə bilir. Bu şəraitdə dövlətin tənzimləyici rolu təkcə maliyyə vəsaiti ayırmaqla məhdudlaşmamalı, həm də institusional çevikliyin təmin olunmasına, idarəetmə çərçivəsinin optimallaşdırılmasına və biznes mühitinin liberallaşdırılmasına yönəlməlidir.

Aqroemal sektorunun davamlı inkişafı üçün çevik və inklüziv iqtisadi mühitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Kiçik və orta sahibkarlıq subyektlərinin bazarda mövcudluğunu təmin edən, onların rəqabət qabiliyyətini artıran mexanizmlərin tətbiqi bu istiqamətdə əsas prioritetlərdən biri olmalıdır. Bu isə yalnız iqtisadi təşviqlərlə deyil, həm də normativ-hüquqi çərçivənin təkmilləşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması və sektoral idarəetmə strukturunun rasionallaşdırılması ilə mümkündür. Xüsusilə aqroemal müəssisələrinin digər iqtisadi institutlarla funksional inteqrasiyası, məsələn, logistika, ticarət, bank və sığorta qurumları ilə əlaqələrinin gücləndirilməsi, bu sahədə effektivlik baxımından mühüm rol oynayır.

Bundan əlavə, istehsal olunan məhsulların rəqabətə davamlılığının artırılması məqsədilə regional və milli səviyyədə brendləşdirmə siyasəti həyata keçirilməlidir. Azərbaycanda fəaliyyət göstərən bəzi iri müəssisələr bu sahədə artıq uğurlu nümunələr ortaya qoymuşdur. Azərbaycanın özəl sektorunda fəaliyyət göstərən "Paşa" holdinq, "Azərsun" holdinq və s. kimi iri həcmli aqroemal məhsulları istehsalçıları bu məsələnin öhdəsindən layiqincə gəlirlər və brendlərini dünya bazarında təbliğ edə bilirlər. Lakin yerli brendlərin beynəlxalq bazarlarda tanınması üçün dövlət tərəfindən sistemli təşviq mexanizmlərinin formalaşdırılmasına ehtiyac vardır. Bu baxımdan, aqroemal sahəsində brendləşmə yalnız istehsalçı subyektlərin təşəbbüsü ilə deyil, həm də regional identiklik və məhsulun mənşə göstəricilərinə əsaslanan dövlət dəstəyi ilə həyata keçirilməlidir. Bu, "mənşəyə görə fərqləndirmə" mexanizminin tətbiqi və "coğrafi göstərici" statuslarının verilməsi ilə əlaqələndirilə bilər.

Tənzimləyici siyasətin digər strateji istiqaməti isə iqtisadi resurslardan səmərəli istifadə edən sahibkarlıq formalarının dəstəklənməsi olmalıdır. Dövlət dəstəyi yalnız təsərrüfat subyektlərinin ölçüsünə görə deyil, onların fəaliyyət nəticələrinə və innovasiya yönümlü idarəetmə modellərinə görə formalaşdırılmalıdır. Bu kontekstdə iri təsərrüfatların daha az maya dəyəri ilə yüksək həcmli məhsul istehsal etməsi və onların rəqabət üstünlüyü inkar olunmamalıdır. Lakin bu üstünlüklər kiçik və orta sahibkarlığın potensial imkanlarının kölgəsində qalmasına səbəb olmamalıdır. Kiçik təsərrüfatların çevikliyi, istehlakçı zövqünə tez reaksiya vermək bacarığı və innovativ texnologiyaları daha tez mənimsəməsi, onları ərzaq təhlükəsizliyinin təminatında və kənd yerlərinin sosial-iqtisadi inkişafında mühüm aktora çevirir.

Aqroemal sektorunun dövlət tənzimlənməsi mexanizmləri balanslaşdırılmış və selektiv yanaşmaya əsaslanmalıdır. İstər iri təsərrüfatlar, istərsə də kiçik fermer subyektləri arasında resursların bölgüsü effektivlik və davamlılıq meyarları ilə ölçülməlidir. Qlobal təcrübə göstərir ki, aqrar siyasətlərin uğurlu həyata keçirilməsi təkcə maddi dəstək mexanizmləri ilə deyil, həm də sektorlararası koordinasiyanın gücləndirilməsi, müasir idarəetmə texnologiyalarının tətbiqi və hüquqi çərçivənin çevikliyi ilə bilavasitə bağlıdır. Azərbaycanda da bu istiqamətdə strateji yanaşmaların tətbiqi, aqroemal sahəsinin dövlət tənzimləməsində yeni mərhələyə keçidi üçün vacibdir.

"*Azərbaycanın aqrar sektorunda fəaliyyət göstərən təşkilatların əksəriyyətinin kiçik iqtisadi və fiziki ölçüləri və bir sıra marketinq funksiyalarını yerinə yetirərkən üzləşdikləri çətinliklər bu təsərrüfatlar arasında əməkdaşlığı qaçılmaz edir. Bu funksiyaların təkcə kiçik təsərrüfatlar tərəfindən həyata keçirilməsi onların xərclərinin artmasına və beləliklə, istehsal, satış və marketinq fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb olur*" [173, s.520].

Kooperasiya modellərinin funksional mexanizmlərinin uğurlu tətbiqi həm kənd təsərrüfatı, həm də aqroemal sektorunun strukturlaşmasında çevik və səmərəli idarəetmə formalarının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə də "tarladan süfrəyə" prinsipinə əsaslanan dəyər zəncirinin birbaşa təşkili, fermerlərin və emalçıların vahid struktur daxilində kooperativ əsaslarla fəaliyyət göstərməsi, həm məhsulun keyfiyyətinə, həm də logistika xərclərinin optimallaşdırılmasına müsbət təsir göstərir. Bu cür inteqrasiyalı yanaşma eyni zamanda məhsulun əlavə dəyər zəncirində iştirak edən bütün iştirakçılar üçün iqtisadi faydanın ədalətli bölüşdürülməsinə imkan yaradır.

Nəticədə, bu sistem yalnız iqtisadi deyil, həm də sosial cəhətdən inklüziv bir modelə çevrilir.

Kooperativlərin institusional struktur daxilində möhkəmləndirilməsi, onların hüquqi statusunun gücləndirilməsi, güzəştli vergi və kredit mexanizmləri ilə təmin olunması müasir aqrar siyasətin əsas komponentlərindən biri kimi çıxış etməlidir. Beynəlxalq təcrübədə, xüsusilə, Avropa İttifaqı, Kanada və Yaponiyada kooperativlərin dəstəklənməsi məqsədilə çoxşaxəli dövlət proqramları icra olunur; bu proqramlar həm kooperativlərin infrastruktur təminatını yaxşılaşdırır, həm də onlar üçün ayrılmış subsidiyaların istifadəsini daha şəffaf və məqsədyönlü edir. Azərbaycanda da belə yanaşmaların tətbiqi, xüsusilə kənd yerlərində aqroemal yönümlü kooperativlərin yaradılması ilə bağlı təşviq paketlərinin genişləndirilməsi bu sahədə institusional dayanıqlığın təmininə xidmət edə bilər.

Bununla yanaşı, kooperasiyaların effektiv fəaliyyət göstərməsi üçün yalnız dövlət tərəfindən inzibati və maliyyə dəstəyi kifayət etmir. Bu sahədə maarifləndirmə və texniki məsləhət xidmətləri də paralel şəkildə genişləndirilməlidir. Ənənəvi sahibkarlıq formalarında kooperativ düşüncə tərzinin oturuşmaması bir sıra hallarda bu modellərin uğursuzluğuna səbəb olur. Ona görə də kənd yerlərində, xüsusilə aqroemal potensialı olan regionlarda kooperativlərin iqtisadi üstünlüklərini izah edən təlim proqramları, yerli liderlərin hazırlanması, normativ çərçivənin sadələşdirilməsi və hüquqi dəstək xidmətlərinin gücləndirilməsi aktual və zəruri məsələlərdən biri olaraq qalır.

Aqroemal sektorunun institusional dayanıqlığının və resurslardan daha optimal istifadə imkanlarının genişlənməsi, çox vaxt fərdi fermerlərin və kiçik istehsalçıların kooperasiya əsasında birləşməsi ilə daha real hala gəlir. Bu isə yalnız istehsal prosesinin

deyil, həm də məhsulun satış və ixrac imkanlarının genişləndirilməsində əsaslı struktur dəyişikliyinə səbəb ola bilər. Bu baxımdan, kooperativlərin hüquqi, maliyyə və institusional baxımdan gücləndirilməsi Azərbaycan aqroemal sektorunun səmərəli və rəqabətqabiliyyətli inkişafı baxımından strateji zərurətə çevrilməkdədir.

"*Azərbaycanda aqrar sektorun inkişafında aqroparklarla yanaşı, təşkilati-hüquqi forma kimi kooperativlər də böyük rol oynaya bilər. Lakin ölkədə nədənsə kooperativ hərəkatı zəif inkişaf edir. Halbuki inkişaf etmiş ölkələrdə kooperativlər kənd təsərrüfatının inkişafında ən güclü vasitə hesab edilir. Kooperativləşməni stimullaşdırmaq məqsədilə Kanadada, Yaponiyada və Avropa İttifaqı ölkələrində kooperativlərə güzəştli kreditlər verilir, əlverişli vergilər tətbiq edilir, fermerlərə məxsus geniş emal və ticarət müəssisələri yaradılır*" [61, s.9].

Ölkədə kooperativləşməni sürətləndirmək üçün fermerlər arasında təbliğat-təşviqat işləri genişlənməli və dövlətin bu istiqamətdə təşviqləndirici və stimullaşdırıcı tədbirləri həyata keçirilməlidir.

Beləliklə, aqroemal sahəsinin dayanıqlı inkişafı istiqamətində qəbul olunmuş strateji sənədlər, normativ-hüquqi aktlar və dövlət proqramları bu sahənin tənzimlənməsi üçün müəyyən institusional bazanı formalaşdırsa da, onların icrasında səmərəlilik baxımından ciddi çatışmazlıqlar müşahidə olunur. Qanunların və proqramların real təsir gücünün zəifliyi, qəbul olunan qərarların sahə üzrə sistemli transformasiyaya çevrilməməsi sektorun inkişafını ləngidən əsas amillərdəndir. Bütün bunlar göstərir ki, dövlət tənzimləməsinin yalnız formal çərçivədə deyil, həm də funksional məzmunla təmin olunması zəruridir. Bu isə qəbul edilmiş hüquqi və institusional sənədlərin icra mexanizmlərinin təkmilləşdirilməsi,

monitorinq və nəticəyönümlü qiymətləndirmə sistemlərinin tətbiqi ilə mümkün ola bilər. Nəticə etibarilə, aqroemal sektorunun inkişafında səmərəliliyin təmin olunması üçün normativ təşəbbüslərlə yanaşı, onların icrasına dair idarəetmə modelləri də gücləndirilməlidir.

## 3.5. İnnovasiya və texnoloji modernləşmə alətləri

Müasir dövrdə aqrar sahənin inkişafında innovasiya amili həlledici əhəmiyyət kəsb edir. Xüsusilə aqroemal sənayesi müəssisələrinin innovativ fəaliyyəti onların dayanıqlı inkişafını və bazar rəqabətliliyini təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Bu fəaliyyətin mahiyyəti tətbiq edilən innovasiyaların effektivliyi, onların reallaşdırılma ardıcıllığı və ümumilikdə innovasiya prosesinin dinamikası ilə müəyyən olunur.

Elmi tədqiqatlar göstərir ki, müəssisənin innovativ fəaliyyət səviyyəsi ilə onun ümumi innovativ aktivliyi arasında birbaşa funksional asılılıq mövcuddur. Belə ki, innovasiya fəaliyyətinin intensivliyi yüksəldikcə müəssisənin texnoloji və təşkilati çevikliyi artır, bu isə sonda onun iqtisadi nəticələrinin və səmərəliliyinin artmasına gətirib çıxarır. Bu kontekstdə innovativ fəaliyyət yalnız texniki yeniliklərlə deyil, həm də təşkilati, sosial və menecment dəyişiklikləri ilə müşayiət olunan kompleks bir proses kimi qiymətləndirilməlidir.

İnnovasiya fəaliyyətinin əhatə dairəsi geniş olmaqla, ixtiraların və yeni texnologiyaların tətbiqi ilə yanaşı, müəssisənin daxili iş rejimindəki sosial münasibətlərin transformasiyası, kadr resurslarının səmərəli istifadəsi, mütərəqqi idarəetmə sistemlərinin tətbiqi və bazara çıxış strategiyalarının yenilənməsi kimi komponentləri də əhatə edir. Bu baxımdan, innovativ baxımdan

aktiv müəssisələr adətən həm texnoloji, həm də sosial-təşkilati dəyişikliklərə açıq olan və onları praktiki fəaliyyətə uğurla inteqrasiya edən strukturlar kimi səciyyələnirlər.

Xüsusilə təşkilati innovasiyalar müasir aqroemal müəssisələrinin transformasiyasında mühüm rol oynayır. Belə yeniliklər özünü idarəetmə strukturlarının yenidən qurulmasında, iş proseslərinin optimallaşdırılmasında, həmçinin müəssisənin xarici əlaqələrinin və strateji tərəfdaşlıqlarının yenidən formalaşdırılmasında göstərir. Təşkilati innovasiyaların əsas məqsədi inzibati və əməliyyat xərclərinin azaldılması, maddi-texniki resurslardan daha səmərəli istifadə və daşınmaz aktivlərin iqtisadi dövriyyəyə cəlb edilməsidir. Nəticə etibarilə, bu cür yeniliklər müəssisənin ümumi performansına və bazar mövqeyinə əhəmiyyətli təsir göstərir.

Əlavə olaraq qeyd olunmalıdır ki, təşkilati və idarəetmə sahəsindəki innovasiyalar bir çox hallarda texnoloji yeniliklərlə müqayisədə daha əlçatan və yüksək rentabelli ola bilər. Həmçinin, bu tip innovasiyalar müəssisənin bazar payını artırmaq, müştəri məmnuniyyətini yüksəltmək və rəqiblər üzərində üstünlük qazanmaq baxımından strateji əhəmiyyət kəsb edir.

Aqroemal sənaye müəssisələrinin davamlı inkişafının təmin olunması və rəqabətqabiliyyətliliyinin artırılması baxımından onların innovasiya yönümlü fəaliyyət modelinə keçidi mühüm zərurət kimi çıxış edir. Bu isə yalnız texnoloji modernizasiya ilə deyil, həm də təşkilati adaptasiya və sosial-institusional transformasiya ilə müşayiət olunmalıdır.

*"İnnovasiyaların yayılması və onların təmin etdiyi məhsuldarlığın artmasında iqtisadi və insan inkişafı həlledici rol oynayır. Yəni hər hansı inkişafın əsasını bilik təşkil edir, lakin inkişafın özü üçün onların mövcudluğu və yayılması kifayət deyil.*

*Məcburi bir şərt tələb olunur: biliklər əsasında yaradılmış yeni məhsullar, texnologiyalar və xidmətlər istehlakçıya çatdırılmalıdır, yəni bazara çıxarılmalıdır"* [123, s.105].

Son illərdə dünya miqyasında müşahidə olunan iqtisadi şoklar, xüsusilə də qlobal maliyyə və enerji böhranları bir daha sübut etdi ki, Azərbaycan iqtisadiyyatı hələ də enerji daşıyıcılarının dünya bazarındakı qiymət volatilliyinə yüksək həssaslıq nümayiş etdirir. Bu reallıq, neft və qaz kimi xammal resurslarına əsaslanan iqtisadi modelin davamlı və inklüziv inkişaf üçün yetərli olmadığını açıq şəkildə ortaya qoyur. Praktika göstərdi ki, belə "xammal yönlü" iqtisadi sistemlər struktur sabitliyə malik olmayıb, xarici iqtisadi təsirlərə qarşı həddindən artıq həssasdırlar.

Bu kontekstdə Azərbaycan iqtisadiyyatının uzunmüddətli sabitliyi və rəqabətqabiliyyətliliyi yalnız ən inkişaf etmiş ölkələrin keçdiyi innovativ inkişaf modelinə inteqrasiya yolu ilə mümkündür. İnkişafın keyfiyyətcə yeni mərhələsi, texnoloji yeniliklərin geniş tətbiqi, rəqəmsal transformasiya və insan kapitalının kompleks inkişafı ilə şərtlənən innovativ iqtisadiyyatın formalaşdırılmasını tələb edir. Hazırkı qlobal tendensiyalar göstərir ki, yeni iqtisadi model yalnız ənənəvi istehsal faktorlarına deyil, həm də biliklərə, intellektual resurslara və yaradıcılığa əsaslanmalıdır. Məhz bu səbəbdən də "innovasiya" və "innovativ iqtisadiyyat" anlayışları müasir iqtisadi leksikonda ön cərgəyə çıxmışdır.

İnnovasiyaya əsaslanan iqtisadiyyatın əsas dayağı insan kapitalıdır. Tədqiqatlar göstərir ki, ölkələrin innovasiya səviyyəsi ilə onların insan potensialının inkişaf səviyyəsi arasında birbaşa qarşılıqlı əlaqə mövcuddur. Başqa sözlə, yüksək innovasiya göstəricilərinə malik ölkələr, adətən, inkişaf etmiş təhsil sisteminə, elmi-tədqiqat infrastrukturuna və yaradıcılıq mühitinə malik olurlar. Əksinə, insan kapitalının zəif olduğu ölkələrdə innovasiya

fəaliyyəti də zəif inkişaf edir və struktur dəyişikliklər baş verə bilmir.

İnsan kapitalı yalnız yeni texnologiyaların mənimsənilməsi və tətbiqi üçün deyil, eyni zamanda sosial institutların modernləşdirilməsi, idarəetmə proseslərinin yenilənməsi və iqtisadi münasibətlərin çevikləşdirilməsi baxımından da həlledici rola malikdir. Bu səbəbdən də iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi təhsil, elmi tədqiqatlar, peşə hazırlığı və innovasiya yönümlü bacarıqların inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan iqtisadiyyatının transformasiyası və uzunmüddətli davamlı inkişafı üçün əsaslı şərtlərdən biri kimi innovativ inkişaf modelinə keçid və insan kapitalının hərtərəfli inkişafı çıxış edir. Bu yanaşma yalnız iqtisadi diversifikasiyanı təmin etməklə kifayətlənmir, eyni zamanda ölkənin qlobal iqtisadi sistemdə mövqeyinin möhkəmləndirilməsi və rəqabət üstünlüklərinin formalaşdırılması baxımından da strateji əhəmiyyət daşıyır.

*“Aqrar sahədə rəqəmsallaşmanın təcrübədə real səmərə verməsi üçün bu proses bazar iştirakçılarının iqtisadi davranışının yeni modellərinin yaradılmasına yönəlməlidir. Bu məqsədlə ilk növbədə rəqəmsal texnologiyalar barədə zəruri detallaşdırmada (ərazi, əhali qrupları) verilənlər bazası tamamlanmalı, xırda təsərrüfatçıların rəqəmsal mühitə cəlb edilməsinə imkan verən dayanıqlı biznesmodellər yaradılmalı, rəqəmsal qərarın əsaslandırılması və qəbulunu nəzərdə tutan transformasiyaların alqoritminin reallığın tələblərinə uyğun çevik təshih edilməsi imkanı olmalıdır”* [45, s.98].

1990-cı ildən başlayaraq hər il Birləşmiş Millətlər Təşkilatının (BMT) dünya ölkələri üzrə İnsan İnkişafının İndeksi

(İİİ) adlı hesabatları nəşr olunur. Bu hesabat BMT-nin hesabladığı əsas göstəricilərdən biridir. İİİ dünya ölkələri və regionları üzrə yaşayış səviyyəsinin ümumi müqayisəsini aparmaq üçün standart bir alətdir. Azərbaycan 2021-ci ilin hesabatında 191 ölkə arasında 0,745 bal ilə 91-ci yerdə qərarlaşmışdır. Bu bal yüksək insan inkişafı kateqoriyasına daxildir. Bu reytinq cədvəlində MDB ölkələrindən Qazaxıstanın (56), Rusiyanın (52), Belarusiyanın (60), Gürcüstanın (63) və Ermənistanın (81) mövqeləri daha güclüdür. Bu reytinq cədvəlində ilk yerlərdə mövqe tutan ölkələr iqtisadiyyatı ən çox inkişaf etmiş və innovasiyanın səviyyəsinə görə də ən qabaqcıl ölkələrdir [181].

*Ərzaq təhlükəsizliyi probleminə insanın inkişafı nöqteyi-nəzərindən yanaşma ona qarşı təhdidlərin geniş təhlilini və təsnifatını şərtləndirir. Burada bazarın deyil, məhz insanın maraqları ön öplana keçir* [78 s. 261].

Müasir iqtisadi sistemlərin çevikliyi və davamlılığı getdikcə daha çox institusional mühitin yetkinliyi ilə müəyyən edilir. Azərbaycan iqtisadiyyatında, xüsusilə də aqrar-sənaye kompleksinin tərkib hissəsi olan aqroemal müəssisələrində innovativ transformasiya proseslərinin səmərəliliyi yalnız texnoloji amillərlə deyil, həm də bu sahədə mövcud olan institusional mexanizmlərin funksionallığı ilə sıx bağlıdır.

İnnovasiyaların real sektorda tətbiqi, yalnız maddi-texniki resurslara və insan kapitalına deyil, eyni zamanda normativ-hüquqi bazanın çevikliyinə, dövlət dəstəyinin effektivliyinə, təşviq mexanizmlərinin adekvatlığına və kooperativ əlaqələrin möhkəmliyinə əsaslanır. Beləliklə, innovativ inkişafın institusional əsasları dedikdə, innovasiya təşəbbüslərinin təşviqi və qorunması, investisiya risklərinin paylaşılması, eləcə də intellektual

mülkiyyətin müdafiəsi üçün yaradılmış normativ və təşkilati çərçivələr nəzərdə tutulur.

Aqroemal sektorunun spesifikliyi, yəni, kənd təsərrüfatı xammalının mövsümilik və tez xarabolma kimi xüsusiyyətlərindən irəli gələn operativlik tələbləri innovativ həllərə keçidi daha da aktuallaşdırır. Bu kontekstdə texnologiyaların sürətli mənimsənilməsi, məhsulun keyfiyyət və saxlanma müddətinin artırılması, istehsalın avtomatlaşdırılması və rəqəmsallaşdırılması əsas hədəflər kimi önə çıxır. Bütün bu transformasiyalar yalnız sahibkarlıq təşəbbüsü ilə deyil, həm də dövlət-institutlarının koordinasiyaedici funksiyası vasitəsilə mümkün olur.

Təcrübə göstərir ki, innovasiya fəaliyyətində uğur qazanan müəssisələr təkcə daxili resurslara əsaslanmır, həm də müxtəlif institutlar, o cümlədən, innovasiya mərkəzləri, texnoparklar, universitetlər və tədqiqat institutları ilə əməkdaşlıq zəmnində açıq innovasiya modelini tətbiq edirlər. Bu yanaşma aqroemal sektorunda da effektiv nəticələrə səbəb ola bilər. Lakin bu məqsədlə institusional əlaqələrin stimullaşdırılması və bu sahədə infrastruktural təminatın gücləndirilməsi vacibdir.

Digər tərəfdən, innovasiyaların tətbiqi prosesi yalnız texnoloji yenilənmə ilə məhdudlaşmamalı, eyni zamanda istehsalat mədəniyyətində dəyişikliklərə, idarəetmədə qərarların qəbuluna yanaşmanın dəyişməsinə səbəb olmalıdır. Bu mənada, innovativ fəaliyyətin genişlənməsi üçün təşkilati mədəniyyətin – riskə açıq, təşəbbüskar və bilik əsaslı qərarvermə modelinə uyğunlaşdırılması, aqroemal müəssisələrində davamlı innovasiya mühitinin yaradılmasına şərait yaradır.

İnnovativ inkişafın davamlı xarakter alması üçün dövlət siyasəti ilə bazar mexanizmləri arasında sinxronluq təmin olunmalıdır. Aqroemal sektorunda bu sinxronluq, xüsusilə

vergitutma güzəştləri, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və ixracyönümlü məhsullar üçün texniki tənzimləmələrin liberallaşdırılması fonunda mümkün ola bilər. Bu yanaşmalar innovasiya təşəbbüslərinin praktik nəticələrə çevrilməsini sürətləndirə və Azərbaycanın qeyri-neft iqtisadiyyatında struktur dəyişikliyinə töhfə verə bilər.

"*Aqrar sahənin innovasiyalı inkişafı prosesi iki əsas tərkib elementi – elmi araşdırmalar və onların istehsalatda mənimsənilməsi yolu ilə müəyyən olunduğundan bu sahənin innovasiyalı inkişafını təmin edən sistem də bu məzmuna uyğun olmalıdır"* [16, s.474].

Dünya iqtisad elmi müxtəlif ölkələrin və regionların innovativ inkişaf səviyyəsini qiymətləndirməyə imkan verən xeyli sayda müxtəlif göstəricilər, indekslər və indiqatorlar sistemlərini işləyib hazırlamışdır.

2007-ci ildən ölkələrin və regionların innovativ səviyyələrini müəyyənləşdirmək üçün Fransanın İNSEAD (Institut Européen D'administration Des Affaires) beynəlxalq biznes məktəbi Qlobal İnnovasiya İndeksini (Qİİ) hesablamaq üçün öz metodologiyasını təklif etmişdiir. Bu metodologiya əsasında ölkələrin innovasiya xərcləri və effektliyini ölçən 80 indiqatordan istifadə edilməyə başlandı. Təhlil edilən indikatorlar ölkələrin çox geniş göstəricilərini – qanuvericilik, elm və təhsildən başlamış, bazarın, biznesin, infrastrukturun inkişafı məsələlərinədək və sairəni əhatə edirdi. Qİİ-nin dərc olunmasında əsas məqsəd innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin qiymətləndirilməsi imkanlarının yaradılmasıdır. Bu indeksin ölçülməsi tezliklə dünyanın əksər ölkələrini əhatə etdi və hər il ölkələr və regionların innovasiya səviyyələrinə görə sıralamalar nəşr edilməyə başladı [166].

2023-cü ildə INSEAD Biznes məktəbinin (Fransa), sonradan bu hesablamalarda iştirak edən Kornell Universitetinin (ABŞ), və BMT-nin ixtisaslaşmış qurumu olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-WIPO) birgə nəşri olan və 132 ölkəni əhatə edən (əvvəlki illər reytinqə 129 ölkə daxil idi) "Qlobal İnnovasiya İndeksi-2023" (Qİİ-2023) hesabatı nəşr edilmişdir. Qİİ-2023 bu qurumların artıq 16-cı hesabatıdır.

Qlobal İnnovasiya İndeksi (Qİİ) tərəfindən dünya ölkələri innovasiya imkanlarına görə 1-100 bal arası qiymətlə sıralanır. 1 - ən yaxşı, 100 - ən pisdir. Təxminən 80 indikatordan ibarət olan, innovasiya resursları və innovasiya nəticəsi üzrə qruplaşdırılan Qİİ innovasiyanın çoxölçülü göstəricilərini əhatə etməyi hədəfləyir.

**Cədvəl 3.5.1 Ölkələr üzrə Qlobal İnnovasiya İndeksinin reytinq cədvəli 2023**

| Ölkələr | İndeks üzrə reytinq sırası | İnnovasiya resursu reytinq sırası | İnnovasiya nəticəsi reytinq sırası | Bal |
|---|---|---|---|---|
| İsveçrə | 1 | 1 | 3 | 67,6 |
| İsveç | 2 | 5 | 2 | 64,2 |
| ABŞ | 3 | 2 | 4 | 63,5 |
| Böyük Britaniya | 4 | 3 | 7 | 62,4 |
| Sinqapur | 5 | 6 | 10 | 61,5 |
| Finlandiya | 6 | 4 | 16 | 61,2 |
| Niderland | 7 | 14 | 1 | 60,4 |
| Almaniya | 8 | 7 | 12 | 58,8 |
| Danimarka | 9 | 9 | 6 | 58,7 |
| Cənubi Koreya | 10 | 10 | 8 | 58,6 |
| **Post Sovet ölkələri** | | | | |
| Estoniya | 16 | 22 | 15 | 53,4 |

| | | | | |
|---|---|---|---|---|
| Litva | 34 | 42 | 39 | 42,0 |
| Latviya | 37 | 47 | 34 | 39,7 |
| Rusiya | 51 | 48 | 75 | 33,3 |
| Ukrayna | 55 | 50 | 46 | 32,8 |
| Moldova | 60 | 46 | 78 | 30,3 |
| Gürcüstan | 65 | 73 | 82 | 29,9 |
| Ermənistan | 72 | 82 | 61 | 28,0 |
| Belarusiya | 80 | 63 | 86 | 26,8 |
| Qazaxıstan | 81 | 97 | 65 | 26,7 |
| Özbəkistan | 82 | 79 | 110 | 26,2 |
| **Azərbaycan** | **89** | **76** | **104** | **23,3** |
| Qırğızıstan | 106 | 108 | 85 | 20,2 |
| Tacikistan | 111 | 101 | 104 | 18,3 |

Mənbə: QİI 2023-cü il hesabatı əsasında müəllif tərtibatı.

Cədvəl 3.5.1-dən göründüyü kimi, QİI reytinqinə başçılıq edən və birinci onluqda yer alan ölkələr iqtisadiyyatı ən güclü inkişaf etmiş ölkələrdir. Reytinq cədvəlinə İsveçrə başçılıq edir, ondan sonra İsveç, ABŞ, Böyük Britaniya və Sinqapur gəlir.

Azərbaycan 2023-cü il reytinq cədvəlində 23,3 bal ilə 89-cu yerdə qərarlaşmışdır. Müqayisənin daha dolğun olması üçün keçmiş Sovet ölkələrinin reytinq səviyyələrini göstərmişik. Bu ölkələrdən Pribaltika ölkələri birinci üçlükdə qərarlaşmışlar. Rusiya, Ukrayna, Moldova, Gürcüstan, Ermənistan, Belarusiya, Qazaxıstan və Özbəkistanın mövqeləri Azərbaycandan irəlidədir. Azərbaycan isə MDB ölkələri içərisində Qırğızıstan və Tacikistanın mövqelərindən irəlidədir. Azərbaycan region üzrə, yəni Şimali Afrika və Qərbi Asiya regionu üzrə, 19 ölkə arasında 16-cı yerdədir. [165].

QİI-nin hesabatlarına görə Azərbaycan dünya ölkələri arasında iqtisadiyyatının səviyyəsinə görə yuxarı orta gəlir qrupu

ölkələri sırasına aid edilmişdir və təbii ki, burada əsas rol neft ixracının üzərinə düşür. Yuxarıda göstərdiyimiz 7 qrup göstəricilər arasında ölkəmiz "institutlar" və "biznesin inkişafı" göstəricilərində yüksək bal toplamışdır. Bu göstəricilər yuxarı orta gəlirli ölkələrin orta göstəricisindən də yaxşıdır. Ancaq "insan kapitalı və elm", "infrastruktur", "daxili bazarın inkişafı", "bilik və texnologiyaların inkişafı", "kreativ fəaliyyətin nəticələri" göstəricilərində orta göstəricilərdən aşağı nəticələr göstərmişdir. Bu göstəriciləri ardıcıllıqla aşağıdakı şəkildə göstərək.




**Şəkil 3.5.1 QİI-2023 subindeks göstəriciləri**
Mənbə: QİI-2023 hesabatı əsasında müəllif tərtibatı

Şəkil 3.5.1-dən aydın olur ki, iki altindeks üzrə - "institutlar" və "biznesin inkişafı" göstəricilərində ölkənin vəziyyəti yaxşı qiymətləndirilmişdir. Ancaq "insan kapitalı və elm", "kreativ fəaliyyətin nəticələri", "infrastruktura", "biliklər və texnoloji inkişaf" üzrə alt indekslərdə göstəricilər qənaətbəxş deyildir. Ən yaxşı vəziyyət "institutlar" altindeksi 42-ci yerdə, ən pis vəziyyət "biliklər və texnoloji inkişaf" 114-cü yerdə qərarlaşmışıq.

Qİİ-2020 hesabatlarında Azərbaycanın güclü və zəif tərəflərini müəyyənləşdirərərk ortaya qoymuşdur.

**Güclü tərəflər:**

- Siyasi və əməliyyat sabitliyi...................................53-cü yer
- İşdən çıxarılma xərcləri.........................................51-ci yer
- Biznesin aparılması qaydaları.................................21-ci yer
- Elm və mühəndislik üzrə məzunlar, %....................42-ci yer
- Tədqiqatçılar, FTE/mn pop.....................................43-cü yer
- İxtisas dərəcəsi ilə işləyən qadınlar, %....................57-ci yer
- Müəllim-şagird (tələbə) nisbəti...............................9-cu yer
- Universitet-sənaye tədqiqat əməkdaşlığı................23-cü yer
- Klasterlərin inkişafı vəziyyəti.................................25-ci yer
- BXİ (birbaşa xarici investisiyalar) axınları.............61-cı yer

**Zəif tərəflər:**

- Təhsilə xərclər, % ÜDM........................................114-cu yer
- Biliyin mənimsənilməsi.........................................119-cu yer
- Yüksək texnologiyaların idxalı................................121-ci yer
- Xaricdən maliyyələşdirilən GERD[3]..........................97-ci yer
- Əqli mülkiyyət daxilolmaları..................................122-ci yer
- İstehsal və ixracın mürəkkəbliyi.............................114-cü yer
- Yaradıcı məhsulların ixracı....................................120-ci yer

İnnovasiyalar iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Ona görə də Qİİ ölkələrin məlumatlarına istinad edərək innovasiya reytinqini tərtib edilib. Bu indeks reytinqdə iştirak edən ölkələrin innovasiya imkanlarının və innovasiya nəticələrinin reytinqidir. Qİİ

---

[3] *R&D (tədqiqat və inkişaf-GERD) üzrə ümumi daxili xərclərə biznes müəssisələri, ali təhsil müəssisələri, habelə dövlət və özəl qeyri-*kommersiya *təşkilatları tərəfindən tədqiqat və təkmilləşdirmə xərcləri daxildir.*

ölkələr üzrə institutlar, insan kapitalı və tədqiqatlar, infrastruktur, kredit əlçatanlığı, investisiyalar, biliyin yaradılması, mənimsənilməsi və yayılması və yaradıcı nəticələri ortaya qoyur. Bununla da ölkələr üçün innovativ inkişafın fəaliyyət proqramının prioritetlərini göstərir [165].

Azərbaycanın strateji dövlət sənədlərində də innovasiya siyasəti və innovativ iqtisadiyyatın qurulması prioritet məsələlərdəndir. 6 dekabr 2016-cı ildə Azərbaycan Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiqlənən strateji sənədlərdə innovasiyalara geniş yer verilir. Həmin sənədin 3.1.4. bölməsi "Ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi" adlanır və qeyd edir: "Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdıracaq, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksələcəkdir". Sənədin 3.1.5.-ci bölməsində deyilir: *"Elmin inkişafı təşviq ediləcək, özəl sektor tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiya qoyuluşunu təmin etmək üçün stimullaşdırıcı tədbirlər görüləcək"*. "İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi" adlanan 3.2.3-cü bölməsində qeyd edilir: *"Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən bu fəaliyyət nəzərə alınacaq. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmaq sahəsində bir çox imkanlara malikdir*". "İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi" adlanan 3.1.7-ci bölməsində qeyd edilir: "*Elm,*

*təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması, elmi tədqiqatların aparılması, sınaqdan keçirilməsi və tətbiqini, "elm-istehsal-bazar" əlaqələrinin optimallaşmasını təmin edəcək, köməkçi qurumların yaradılması təşviq ediləcək"* [77].

Azərbaycanda müasir dövr üçün dövlət innovasiya siyasətini müəyyən edən digər əsas sənədlər 10 yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Prezidentin sərəncamı [41] və 11 oktyabr 2021-ci il tarixli "Azərbaycan Respulikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Prezidentin fərmanı [17] sayılır. Bu fərmana əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi yaradılmışdır. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkilini, əlaqələndirilməsini, həyata keçirilməsini (o cümlədən, nəzarət və tənzimləməni) təmin edən, yüksək texnologiyalar, nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirləri, elmi, elmi texniki, innovasiya fəaliyyətini və müvafiq sınaq təcrübələrini həyata keçirən, fiziki və hüquqi şəxslərə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına yardım göstərən, innovasiya yönümlü elmi tədqiqatları və innovativ layihələri (o cümlədən, startapları) təşviq edən, onlara maliyyə dəstəyi verən və innovasiya təşəbbüskarlığını təbliğ edən publik hüquqi şəxsdir [68].

Müasir dövrdə hər bir dövlətin qlobal iqtisadi sistemə inteqrasiyası səviyyəsi, onun beynəlxalq əmək bölgüsündə tutduğu mövqe və qlobal rəqabət qabiliyyəti, ilk növbədə, elmi-tədqiqatlara əsaslanan, texnoloji baxımdan inkişaf etmiş və innovativ əmtəə və

xidmətlərin istehsalı və ixracı ilə müəyyən olunur. Bu baxımdan, milli iqtisadiyyatın keyfiyyət göstəricilərindən biri kimi yüksək texnoloji məhsulların (YTP) istehsalı və ixracının miqyası mühüm əhəmiyyət kəsb edir.

Qlobal iqtisadi rəqabət mühitində ölkələrin innovasiya potensialını müəyyənləşdirən əsas meyarlardan biri, məhz orta və yüksək texnologiyaların tətbiqi nəticəsində formalaşan əlavə dəyərin səviyyəsidir. Bu əlavə dəyər, xüsusilə emal sənayesində yarandıqda, yalnız texnoloji deyil, eyni zamanda iqtisadi və institusional yeniliklərin də göstəricisi kimi çıxış edir. Bununla yanaşı, orta və yüksək texnoloji məhsulların ixracı ölkənin innovasiya səviyyəsinin kəmiyyət ifadəsi kimi beynəlxalq təhlillərdə mühüm rol oynayır.

Lakin təəssüf doğuran məqamlardan biri odur ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi hesabatlarında orta və yüksək texnologiyalı məhsulların ixracına dair konkret və sistemli statistik göstəricilər yer almır. Halbuki bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin statistik praktikasında bu göstərici iqtisadi siyasətin əsas analitik elementlərindən biri kimi qəbul edilir. Belə məhsullar yalnız texnoloji üstünlüyü deyil, həm də yüksək elmtutumlu dəyəri özündə ehtiva etdiyindən, ölkənin elmi-tədqiqat və innovasiya fəaliyyətinin real göstəricisi funksiyasını daşıyır.

Bu səbəbdən, aşağıdakı qrafikdə texnologiyaların tətbiqi nəticəsində emal sahəsində yaranmış əlavə dəyərin ümumi əlavə dəyərdəki xüsusi çəkisinə əsaslanaraq ölkənin texnoloji səviyyəsi və innovativ inkişaf istiqamətləri haqqında ümumi təsəvvür formalaşdırmaqla kifayətlənirik.




**Qrafik 3.5.1 Orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi. %-lə**

Mənbə: DSK "Azərbaycanın milli hesabları" 2024 s.41 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasən müəllif tərtibatı

Qrafik 3.5.1-dən məlum göründüyü kimi, ölkədə orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdəki xüsusi payı 2015-ci ildən mütəmadi olaraq azalmış, ancaq 2023-cü ildə artmışdır. 2023-cü ildə bu rəqəm 2010-cu ilə nisbətən, təxminən, 2 dəfə artmışdır.

Qeyd etməliyik ki, Azərbaycanda elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərclər ÜDM-in 0,2%-ni təşkil edir və bu rəqəm son 10 ildə sabit qalmışdır. Bu göstərici dünya üzrə orta göstəricidən (2,4%) çox aşağıdır. Müqayisə üçün deyə bilərik ki, MDB ölkələrində bu rəqəm son 10 ildə ortalama Rusiyada 1,0%, Belarusiyada 0,6%, Ukraynada 0,5%, Moldovada 0,3%, Ermənistanda 0,2% olmuşdur. İnkişaf etmiş ölkələrdə bu göstərici daha yüksəkdir.

Ölkəmizdə neft satışından gələn gəlirləri nəzərə alsaq, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ayrılan vəsaitin dəfələrlə artırılması üçün potensialın olduğunu görərik. Məhz elmi-tədqiqat işlərinə çəkilən xərclərin az olmasının səbəbidir ki, ölkədə son 5 ildə hər 1 milyon əhaliyə düşən tədqiqatçıların sayında azalmalar

müşahidə olunur. Belə ki, tədqiqatçıların sayı 2022-ci ildə 2015-ci ilə nisbətən 11% azalmışdır.

Həm emal sənayesinin əlavə dəyərinin ÜDM-ə faiz nisbəti (qrafik 3.3.1.) və həm də orta və yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə payı (qrafik 3.3.2.-də) qrafiklərində əks olunan göstəricilər ölkədə innovasiyalara çəkilən xərclərdən birbaşa asılıdır. Bura həm təsərrüfat subyektlərinin öz maliyyə hesablarına və həm də dövlətin innovasiya xərcləri üçün sahibkarlara göstərdikləri maliyyə dəstəkləri aiddir. Aqroemal sahəsində innovasiyalara çəkilən xərclər, təyinatları və maliyyə mənbəələrinin təhlili ümumi mənzərəni ortaya qoya bilər.

**Cədvəl 3.5.2 İnnovasiyalara çəkilən xərclər. min man-la**

| | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| **Qida məhsullarının istehsalı** | 690,6 | x | 8667,0 | 98,1 | 195,1 | 544,0 |
| Məhsul innovasiyaları | 690,6 | x | 8667,0 | 34,5 | 129,9 | 450,0 |
| Proses innovasiyaları | x | x | x | 63,6 | 65,2 | 94,0 |
| Müəssisənin öz vəsaiti hesabına | 263,3 | x | x | 96,6 | 127,2 | 544,0 |
| Texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 648,1 | x | x | x | x | x |
| **İçki istehsalı** | x | 12792 | x | x | 1754,0 | 592,0 |
| Məhsul innovasiyaları | x | x | x | x | 1754,0 | 592,0 |
| Proses innovasiyaları | x | 12792 | x | x | x | x |
| Müəssisənin öz və vəsaitləri hesabına | x | 12792.0 | x | x | 1754,0 | x |
| Texnoloji innovasiyalar ilə | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| əlaqədar maşın və avadanlığın alınması | x | 12708,0 | x | x | x | 591,0 |
| Yeni texnologiyaların alınması | x | 16,0 | x | x | x | x |
| Proqram vəsaitlərinin alınması | x | 68,0 | x | x | x | x |
| Yeni marketinq tədqiqatları | x | x | x | x | x | x |
| **Tütün məmulatlarının istehsalı** | 166,9 | x | x | x | x | x |
| Məhsul innovasiyaları | 1669 | x | x | x | x | x |
| Proses innovasiyaları | x | x | x | x | x | x |
| Müəssisənin öz vəsaitləri hesabına | 166,9 | x | x | x | x | x |

Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2024 19.2. https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı

Cədvəl 3.5.2-dən aydın olur ki, aqroemal sahəsində innovasiyaya çəkilən xərclər heç də ürəkaçan səviyyədə deyil. Belə ki, son on üç ildə qida məhsulları istehsalı sektorunda, cəmi 7 ildə innovasiyalara vəsait xərclənmişdir. 2010-cu ildə 690,6 min manat, 2017-ci ildə 81,5 min manat, 2019-cu ildə 208,7 min manat və 2020-ci ildə 8667,0 min manat, 2021-ci ildə 98,1 min manat, 2022-ci ildə 195,1 min manat, 2023-cü ildə isə 544,0 min manat - cəmi son 13 ildə 10485 min manat innovasiyaya vəsait xərclənmişdir.

Onu da qeyd etməliyik ki, bu vəsaitin hamısı məhsul innovasiyalarına xərclənmişdir, yəni bu o deməkdir ki, hər hansı bir təsərrüfat subyekti bu vəsaiti müəssisəsində istehsal etdiyi məhsulun və ya xidmətin həcmini artırmaq və ya yeni məhsulun, xidmətin bazara təqdim edilməsi məqsədi ilə yenidənqurma

aparmışdır. Bu sektorda həmin dövr ərzində proses innovasiyalarına heç bir investisiya qoyulmamışdır. Proses innovasiyası – xammalın tədarükü, istehsalı və bazar şəbəkələrinə paylanma, məhsuldarlıq və əlavə dəyərin artırılması üçün mövcud sistemin tamamilə dəyişdirilməsi və ya mövcud sistemdə müəyyən dəyişikliklər və düzəlişlər edilməsi kimi başa düşülməlidir. Qida məhsulları istehsalında innovasiyalara çəkilən xərclər müəssisənin öz vəsaiti hesabına olmuş, dövlətin heç bir maliyyə dəstəyi olmamışdır. Qida məhsulları istehsalı sektoru aqroemal sahəsinin ən böyük və çoxçeşidli sahəsidir və son 13 ildə bu sektorda innovativ məhsul və proseslərə qoyulan vəsait həddindən artıq azdır.

İçki istehsalında innovasiyalara xərclənən vəsaitləri təhlil etsək təxminən eyni mənzərə ilə rastlaşarıq. Belə ki, son 13 ildə, 2010-cu və 2020-ci və 2021-ci illər istisna olmaqla bu sahədə innovasiyalara 18180 min manat pul xərclənmişdir. Bu vəsaitin 3344 min manatı məhsul innovasiyalarına, qalanı isə proses innovasiyalarına xərclənmişdir. İnnovasiyalara qoyulmuş investisiyanın 16608 min manatı müəssisələrin öz hesabına, qalan vəsaitin mənbəyi isə göstərilməmişdir. Bu sektorda da dövlət tərəfindən heç bir maliyyə dəstəyi olmamışdır. Xərclənmiş vəsaitin əsas hissəsi, yəni, 94%-i texnoloji innovasiyalarla əlaqədar maşın və avadanlığın alınmasına, 5%-i yeni marketinq tədqiqatlarına, 1%-i proqram vəsaitlərinin alınmasına sərf edilmişdir. Təəccüblüdür ki, 2017-ci ildə innovasiyaya çəkilən bütün xərclər (151 min manat) son 12 ildə yeganə olan yeni marketinq tədqiqatlarına sərf edilmişdir.

Tütün məmulatları istehsalında da innovasiyaya çəkilən xərclər çox aşağı səviyyədədir. Son 13 ildə cəmi iki dəfə, 2010-cu ildə 166,9 min manat, 2019-cu ildə 26994,1 min manat

innovasiyaya vəsait xərclənmişdir. Çəkilən bu xərclər məhsul innovasiyalarına aiddir, yəni, bu vəsait məhsul çeşidlərinin artırılması və yeni məhsulların istehsalına qoyulmuşdur. Onu da qeyd etməliyik ki, bu sektorda innovasiya xərclərinin hamısı müəssisə tərəfindən qoyulmuşdur və digər aqroemal sahələrində olduğu kimi dövlətin heç bir maliyyə dəstəyi olmamışdır.

Cədvəl 3.3.2-dən o da məlum olur ki, son 13 ildə innovasiyaya çəkilən xərclər illər üzrə pərakəndə şəklindədir, yəni mütəmadi deyil. Belə ki, qida məhsulları sektorunda 2015, 2016 və 2018-ci illər innovasiyaya vəsait qoyulmamışdır. İçki istehsalında 2010, 2020, 2021-ci illər, tütün məmulatları istehsalında isə 2015, 2016, 2017, 2018, 2020, 2021, 2022 və 2023-cü illər heç bir investisiya qoyulmamışdır.

Məlum olduğu kimi, müasir dövrdə bütün ölkələrin iqtisadi inkişaf strategiyalarının mərkəzində əhalinin rifah səviyyəsinin yüksəldilməsi dayanır. Sosial-iqtisadi rifahın dayanıqlı şəkildə təmin olunması isə birbaşa olaraq iqtisadi artımın intensivliyi ilə bağlıdır. Öz növbəsində, iqtisadi artımın davamlılığı yalnız innovasiyaların geniş miqyasda tətbiqi və bu innovasiyaların iqtisadiyyatın müxtəlif sahələrinə effektiv inteqrasiyası ilə mümkündür. Burada söhbət təkcə yüksək texnologiyalı sektorlar deyil, eyni zamanda aşağı və orta texnologiyalı sahələr, o cümlədən aqroemal sənayesi kimi ənənəvi sahələrdə də innovasiya yanaşmalarının tətbiqindən gedir.

Xüsusilə, aşağı texnologiyalı sahə kimi xarakterizə edilən aqroemal müəssisələrində məhsul və proses innovasiyalarının tətbiqi məhsuldarlığın yüksəldilməsində, istehsalın optimallaşdırılmasında və biznes effektivliyinin artırılmasında mühüm rol oynayır. Bu cür müəssisələrdə mütərəqqi texnoloji və

təşkilati yeniliklərin tətbiqi, onların innovativ inkişaf səviyyəsinin yüksəlməsinə və rəqabət qabiliyyətinin artmasına şərait yaradır.

Digər tərəfdən, xidmət sektoru, inkişaf etmiş ölkələrin iqtisadiyyatında dominant mövqe tutan bu sahə, öz struktur və məzmununa görə innovasiyalara daha həssas və açıqdır. Burada texnologiya, rəqəmsallaşma və istifadəçi yönümlü yanaşmaların sürətli tətbiqi xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, yeni bazar imkanlarının da meydana çıxmasına səbəb olur.

İnnovasiya proseslərinin uğurla gerçəkləşməsi üçün dövlətin stimullaşdırıcı və dəstəkləyici rolu xüsusi əhəmiyyət daşıyır. Texnoloji avadanlıqların və biliklərin əlçatanlığının artırılması, vergi güzəştlərinin tətbiqi, əqli mülkiyyət hüquqlarının çevik və liberallaşdırılmış şəkildə transferi - bütün bunlar innovasiya təşəbbüslərinin genişlənməsinə, xüsusən də özəl sektorun innovasiya proseslərinə daha fəal şəkildə cəlb olunmasına imkan verir.

Bununla belə, aqroemal sahəsində innovasiyaların tətbiq səviyyəsi hələ də məhduddur. Bu sahədə innovasiya xərclərinin aşağı olması və həm institusional, həm də texnoloji baryerlərin mövcudluğu nəticəsində bir çox müəssisələr mütərəqqi texnoloji həllərə keçməkdə tərəddüd edirlər. Bu maneələrin aradan qaldırılması üçün sistemli dəstək mexanizmlərinin hazırlanması və tətbiqi zəruridir.

Dövlət Statistika Komitəsi bu səbəblərlə əlaqədar 2023-cü ildə araşdırma apararaq aşağıdakı şəkildə verilmiş qaydada qruplaşdırmışdır.




**Şəkil 3.5.2 İnnovasiyalara mane olan amilləri dəyərləndirən müəssisələrin sayı**

Mənbə: Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2024 19.5. https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı

Şəkil 3.5.2-də təqdim olunan məlumatlar təsərrüfat subyektlərinin innovasiyalara investisiya qoymaqda üzləşdikləri əsas çətinlikləri əks etdirir. Məlum olur ki, müəssisələrin əksəriyyəti maliyyə çatışmazlığını bu sahəyə sərmayə yatırmamaq üçün başlıca maneə kimi qiymətləndirmişdir. Belə ki, 42 müəssisə (24-ü əhəmiyyətli, 18-i isə əsas və həlledici) öz vəsaitlərinin kifayət etmədiyini ön plana çıxarıb. Dövlətin maliyyə dəstəyinin zəifliyindən şikayətlənənlərin sayı isə az olmuş, bu amili əsas səbəb sayanlar cəmi 2 müəssisə ilə təmsil olunmuşdur.

Yeni məhsullara olan ödəniş qabiliyyətli tələbatın aşağı səviyyəsi, yeniliklərin yüksək maya dəyəri və tətbiq zamanı risklərin artması da digər ciddi əngəllər kimi qeyd olunmuşdur. Bundan əlavə,

innovasiya potensialının zəifliyi, ixtisaslı kadrların çatışmazlığı və informasiya çatışmazlığı da subyektlərin bu sahədəki passivliyini izah edən mühüm amillər sırasındadır. Xüsusilə, innovasiya potensialının aşağı olması və kadr çatışmazlığı ən çox vurğulanan səbəblərdən olmuşdur.

Qeyd olunmalıdır ki, "yeni məhsullara ehtiyacın olmaması" ən az qeyd edilən maneələrdən biri kimi çıxış etmiş, heç bir müəssisə bu faktoru əsas səbəb olaraq göstərməmişdir. Bu isə göstərir ki, əksər müəssisələr bazar ehtiyaclarının fərqindədir, lakin institusional və maliyyə çətinlikləri onları innovasiyalardan kənarda saxlayır.

Azərbaycan Respublikasında innovasiya fəaliyyəti üzrə mövcud vəziyyətin təhlili göstərir ki, ölkədə elmi potensialın sənaye və istehsalatla inteqrasiyası zəif inkişaf etmişdir. Bu zəncirvari əlaqənin yetərincə qurulmaması innovasiya səviyyəsinin arzuolunan səviyyədə olmamasının başlıca səbəblərindən biri kimi çıxış edir. İstehsal müəssisələrinin maliyyə imkanlarının məhdudluğu, texnoloji modernləşməyə yönəlik kapital qoyuluşlarının aşağı səviyyədə olması nəticəsində tədqiqat və inkişaf (R&D) fəaliyyətləri demək olar ki, əsasən dövlət büdcəsi hesabına həyata keçirilir. Belə olan halda isə özəl sektorun təşəbbüskarlığı zəifləyir və elmi yeniliklərin tətbiqi əhəmiyyətli dərəcədə ləngiyir.

Bundan başqa, iş adamlarının innovativ fəaliyyətə marağının aşağı olması bir neçə amillə izah oluna bilər. Əvvəla, innovasiya investisiyalarının yüksək riskli xarakter daşıması və kapitalın gec qaytarılması ehtimalı investorları tərəddüddə qoyur. İkincisi, sahibkarların elmi-tədqiqat nəticələrinin praktiki potensialı, onların kommersiya dəyəri və tətbiq imkanları barədə bilik və məlumatları çox zaman məhdud olur. Nəticə etibarilə, elmlə biznes sektoru arasında qarşılıqlı əlaqə mexanizmləri zəif işləyir və sinerji effekti əldə olunmur.

Mövcud vəziyyəti nəzərə alaraq, milli innovasiya sisteminin transformasiyası və onun effektiv fəaliyyətinin təmin olunması istiqamətində dövlətin üzərinə uzunmüddətli və strateji xarakter daşıyan bir sıra vacib funksiyalar düşür. Bu funksiyalar aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

- İlk növbədə, innovasiya fəaliyyətinin normativ-hüquqi bazası təkmilləşdirilməli, hüquqi mexanizmlər beynəlxalq praktikaya uyğun şəkildə modernləşdirilməlidir;
- Dövlət tərəfindən innovasiya təşəbbüslərinin stimullaşdırılması məqsədilə vergi, subsidiyalar və kredit güzəştləri formasında dəstək alətləri formalaşdırılmalı və ardıcıl tətbiq edilməlidir;
- Elm tutumlu və yüksək texnologiyalı məhsulların ixracına yönəlik fəaliyyətlər sistemli şəkildə təşviq olunmalı, bu sahədə dövlət dəstəyi gücləndirilməlidir.

Eyni zamanda, Azərbaycanda innovasiya yönümlü iqtisadi inkişafın təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və qeyri-neft sektorunun şaxələndirilməsi üçün innovasiya mühitinin köklü şəkildə yaxşılaşdırılması zəruridir. Bu məqsədlə texnologiya transferinin səmərəli təşkili, innovativ ideyaların kommersiyalaşdırılması mexanizmlərinin inkişafı, habelə kiçik və orta sahibkarlığın (KOB) innovativ fəaliyyətə cəlb olunması ön plana çəkilməlidir.

Nəhayət, innovasiya sahəsindəki bu problemlərin kompleks şəkildə və ardıcıl həlli Azərbaycanı qlobal innovasiya sistemində daha yüksək mövqeyə çıxarmağa, beynəlxalq reytinqlərdə layiqli yer tutmasına və rəqabətqabiliyyətli iqtisadi modelin formalaşmasına töhfə verə bilər.

# IV FƏSİL. Aqroemal sektorun inkişafında yeni çağırışlar və strateji hədəflər

## 4.1. Yaşıl iqtisadiyyatla inteqrasiya imkanları

Müasir dövrdə qlobal iqtisadi inkişaf modelləri ətraf mühitin mühafizəsi və təbii ehtiyatların davamlı istifadəsi baxımından ciddi təftişə məruz qalmaqdadır. Sürətli sənayeləşmə və urbanizasiya fonunda baş verən ekoloji deqradasiya, iqlim dəyişiklikləri və biosferin tarazlığının pozulması dünya ölkələrini yeni iqtisadi inkişaf strategiyaları formalaşdırmağa vadar etmişdir. Bu kontekstdə yaşıl iqtisadiyyat konsepsiyası təkcə ekoloji sabitliyə deyil, eyni zamanda sosial inklüzivliyə və iqtisadi səmərəliliyə əsaslanan alternativ inkişaf modeli kimi aktuallaşmışdır.

Birləşmiş Millətlər Təşkilatının Tədqiqatlar və Statistika Departamenti tərəfindən təqdim edilən yanaşmalara görə yaşıl iqtisadiyyat "aşağı karbon emissiyalı, resursların səmərəli istifadəsinə əsaslanan və ətraf mühitin qorunmasını iqtisadi və sosial siyasətin əsas komponenti kimi nəzərdə tutan bir iqtisadiyyatdır". Bu konsepsiya təkcə ekoloji məqsədlər üçün deyil, həm də yeni texnologiyaların tətbiqi, təmiz enerji mənbələrinin inkişafı, innovativ istehsal və əmək bazarında yeni iş yerlərinin yaradılması üçün yeni imkanlar yaradır.

Bu tendensiyalar fonunda Azərbaycanın milli iqtisadi inkişaf strategiyalarında yaşıl iqtisadiyyat prinsiplərinə keçid zərurəti getdikcə daha aydın hiss olunur. Xüsusilə qeyri-neft sektorunun prioritet sahələri sırasında yer alan aqroemal sənayesi yaşıl iqtisadiyyatla inteqrasiyanın başlıca vektorlarından biri kimi çıxış edə bilər. Çünki bu sahədə həm təbii resurslara çıxış var, həm də

məhsul istehsalında bioloji xammaldan istifadə olunur ki, bu da onu ekoloji baxımdan həssas sahəyə çevirir.

Aqroemal sektorunda yaşıl iqtisadiyyatın əsas prioritetləri arasında səmərəli su və enerji istifadəsi, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi, üzvi tullantıların yenidən istifadəsi və bioməhsulların istehsalı kimi istiqamətlər mühüm yer tutur. Əlavə olaraq, aqroemal sahənin yaşıl texnologiyalarla modernləşdirilməsi kənd yerlərində yeni iş yerlərinin açılmasına və sosial rifahın yüksəlməsinə dəstək verir. Bu həm də ərzaq təhlükəsizliyi, sağlam qida istehsalı və ixrac potensialının genişlənməsi baxımından strateji əhəmiyyət daşıyır.

Yüngül və yeyinti sənayesi isə yaşıl iqtisadiyyat modelinin tətbiqi baxımından daha da spesifik imkanlara malikdir. Bu sahələrdə enerji və suya tələbat yüksək olduğu üçün enerji-effektiv texnologiyaların tətbiqi, karbon izinin azaldılması, təkrar emal imkanlarının genişləndirilməsi və bioloji parçalana bilən qablaşdırma məhsullarına keçid yaşıl iqtisadiyyat prinsiplərinə uyğun olaraq sistemli şəkildə tətbiq oluna bilər. Xüsusilə tekstil və geyim sektorunda boyama, yuyulma və emal proseslərinin ekoloji standartlara uyğunlaşdırılması, yemək sənayesində isə yerli, orqanik və təkrar istifadə edilə bilən resursların tətbiqi ekoloji baxımdan üstünlüklər yaradır.

Ölkənin aqroemal sektorunda, o cümlədən, yüngül və yeyinti sənayesinin yaşıl iqtisadiyyata inteqrasiyası yalnız ekoloji dayanıqlığın təmin olunmasına deyil, eyni zamanda rəqabətqabiliyyətliliyin yüksəldilməsi, innovasiya və investisiya cəlbediciliyinin artırılması, yeni ixrac bazarlarına çıxış və beynəlxalq ekoloji sertifikatlara uyğunluğun təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında əldə olunan xammalın mühüm bir hissəsi emal üçün yüngül və yeyinti sənayesi müəssisələrinə yönəldilir ki, bu da aqrar sahə ilə sənaye sektoru arasında qarşılıqlı funksional əlaqəni təsdiqləyir. Xüsusilə də kənd təsərrüfatı məhsullarının ilkin emalının səmərəli təşkili ölkənin daxili sənaye tələbatının ödənilməsi, istehsal zəncirinin dərinləşdirilməsi və idxaldan asılılığın azaldılması baxımından strateji əhəmiyyət kəsb edir.

Tarixi baxımdan, həm yüngül, həm də yeyinti sənayesi sənaye inqilabları dövründə formalaşaraq "ənənəvi sənaye sahələri" və ya "birinci nəsil sənaye" kimi tanınır. Bu sahələr yüksək texnologiyalı və ya innovasiya yönümlü sahələrlə müqayisədə texnoloji baxımdan daha az mürəkkəb olsa da, həm məşğulluq imkanlarının genişliyi, həm də iqtisadi dövriyyənin çevikliyi baxımından milli iqtisadiyyatlar üçün hələ də böyük əhəmiyyət daşıyır.

Yüngül sənaye struktur baxımından olduqca mürəkkəb və çoxşaxəlidir. Bu sahəyə toxuculuq, tikiş, xəz-dəri, gön-dəri, ayaqqabı, trikotaj və xalçaçılıq kimi sahələr daxildir. Sənaye istehsal strukturuna əsasən yüngül sənaye aşağıdakı üç əsas mərhələdən ibarət olur:

- Xammalın ilkin emalı mərhələsi – pambıq, yun, dəri, xəz, kətan kimi təbii resursların ilkin texnoloji emalından ibarətdir;
- Yarımfabrikatların hazırlanması mərhələsi – iplik əyirmə, toxuculuq, boyama, dəri və xəz emalı proseslərini əhatə edir;
- Hazır məhsul istehsalı mərhələsi – geyim, ayaqqabı, trikotaj, xalça və digər son məhsulların istehsalını əhatə edir.

Yüngül sənaye, xüsusilə toxuculuq, geyim və ayaqqabı altsektorları ilə aparıcı mövqe tutur və bu istiqamətlərdə sənaye məhsulunun istehsal dinamikası həm daxili bazar tələbatı, həm də

ixrac imkanları baxımından mühüm rol oynayır. Müasir dövrdə bu sahələr ixracyönümlü strategiyaların tətbiq olunduğu ölkələrdə xüsusilə rəqabətqabiliyyətli və valyuta gətirən sektorlardan biri hesab olunur.

Yeyinti sənayesi isə aqrar xammalın emalı və yüksək istehlak dəyərinə malik qida məhsullarının istehsalı ilə məşğul olan sənaye sahəsidir. Bu sahə həm ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, həm də ərzaq ixracı üçün baza rolunu oynayır. Yeyinti sənayesinin əsas istiqamətləri – ət və süd məhsulları, meyvə-tərəvəz konservləşdirmə, taxıl və un məmulatları, içki və şirniyyat sənayesi – kənd təsərrüfatı məhsullarının emalında mühüm yer tutur.

Hazırkı bölmədə əsas məqsəd kənd təsərrüfatı məhsullarının emalının yüngül və yeyinti sənayelərində necə dəyər zəncirinə çevrildiyini, bu sahələrin milli iqtisadiyyatın inkişafına və struktur dəyişikliklərinə necə təsir göstərdiyini sistemli şəkildə təhlil etməkdir.

Yüngül sənaye həm ilkin xammalın emalı, həm də yüksək əlavə dəyərli son məhsulların istehsalı ilə iqtisadiyyatın çevik və kapital dövriyyəsi sürətli olan sahələrindən biridir. Sahibkarlar üçün bu sahənin cəlbedici olması onunla izah olunur ki, qoyulan investisiyanın geri dönüş müddəti nisbətən qısadır və dövriyyə kapitalı daha çevik hərəkət edir. Bu xüsusiyyət onu həm dövlət, həm də özəl investisiyalar üçün cəlbedici sahəyə çevirir və regional inkişaf, məşğulluq və ixracın artırılmasında mühüm rol oynayır.

"*Yüngül sənaye dünya iqtisadiyyatının aparıcı sahələrindən biridir. Onun xüsusiyyəti məhsullarına tələbatın davamlı artması səbəbindən daimi artandır. Buna görə də yüngül sənaye inkişaf etmiş ölkələrdə iqtisadiyyatın xammal sektoruna, inkişaf etməkdə olan ölkələrdə isə prioritet sahəyə çevrilmişdir. Bu sənaye bir çox ölkələrdə dövlət büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir,*

*əhalinin məşğulluğuna, həyat səviyyəsinin yaxşılaşmasına və sosial gərginliyin azalmasına töhfə verir”* [130, s.107].

Azərbaycanda yüngül sənaye müəssisələri əsasən özəl sektorda fəaliyyət göstərir. Ölkədə müəssisələrin istehsal həcminə görə 2023-cü ildə toxuculuq sektorunda 29 iri və orta müəssisə, 13 kiçik müəssisə, 60 mikro müəssisə, geyim sektoru üzrə 14 iri və orta müəssisə, 31 kiçik müəssisə, 116 mikro müəssisə, dəri, dəri məmulatları və ayaqqabı üzrə 5 iri və orta müəssisə, 9 kiçik müəssisə, 19 mikro müəssisə fəaliyyət göstərir.

Toxuculuq sənayesi dünya sənaye tarixi baxımından ən qədim istehsal sahələrindən biri hesab olunur. Bu sənaye sahəsi ilk olaraq xammalın – pambıq, yun, ipək və sonrakı mərhələdə kimyəvi liflərin emalına əsaslanaraq formalaşmış və sənayeləşmənin ilkin mərhələlərində əsas inkişaf vektoru olmuşdur. Toxuculuq sənayesinin təşəkkülü və erkən inkişafı əsasən Qərbi Avropa ölkələrində müşahidə olunmuşdur. Lakin XX əsrin ortalarından, xüsusilə də, 1950-ci illərdən başlayaraq bu regionda istehsal payında tədricən azalma müşahidə edilmiş və sənayenin ağırlıq mərkəzi digər dünya regionlarına transfer olunmağa başlamışdır.

Hazırkı mərhələdə toxuculuq sənayesinin qlobal məkan üzrə dislokasiyası beş əsas mərkəzdə cəmləşmişdir: Avropa, Şərqi Asiya, Cənubi Asiya, MDB ölkələri və ABŞ. Bu dəyişikliklərdə əsas determinant faktor aşağı istehsal xərcləri və xüsusilə ucuz əmək resurslarının mövcudluğu olmuşdur. İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən, Çin, Hindistan, Banqladeş, Pakistan və digər Asiya ölkələrində bu sahənin yüksək templə inkişafı qeyd olunur. Müasir dövrdə toxuculuq sənayesinin məhsul istehsal strukturunda pambıq məmulatları 67%-lik payla üstünlük təşkil edir, onu

kimyəvi liflər (20%), yun (10%), kətan (1,6%) və digər materiallar (1,4%) izləyir.

Toxuculuq sənayesinin ayrılmaz tərkib hissəsi olan geyim sənayesi öz növbəsində yüksək əmək intensivliyi, geniş çeşidli məhsul xətti və məhsullara olan böyük bazar tələbi ilə seçilir. Bu sahə həm texnoloji baxımdan sadə, həm də çevik istehsal strukturuna malik olduğundan, sənaye miqyaslı məhsul istehsalında mühüm yer tutur. Toxuculuq sənayesinin Asiya və Latın Amerikası kimi ucuz işçi qüvvəsi olan regionlara yönəlməsi, geyim sənayesinin də bu ölkələrdə sürətli inkişafına şərait yaratmışdır. Bu ölkələr dünya bazarlarında həm kütləvi istehsal, həm də ucuz məhsul seqmentində yüksək rəqabət üstünlüyü əldə etmişlər.

Ayaqqabı sənayesi isə məhsul çeşidinin müxtəlifliyi ilə fərqlənsə də, geyim sənayesinə nisbətən nisbətən daha dar ixtisaslaşma sahəsini əhatə edir. Ayaqqabı istehsalında istifadə olunan xammal spektri kifayət qədər genişdir və həm təbii (dəri, xəz və s.), həm də süni və sintetik materialları əhatə edir. Trikotaj və geyim sahələrində olduğu kimi, ayaqqabı istehsalı da ilkin mərhələlərdə, əsasən, Avropa ölkələrində cəmləşmişdi. Lakin istehsal xərclərinin yüksəlməsi və əməkhaqqı səviyyəsinin artması bu sənayenin də tədricən Asiya ölkələrinə keçməsinə səbəb olmuşdur. Hal-hazırda Çin, Vyetnam, Tailand və İndoneziya ayaqqabı istehsalında və ixracında lider mövqe tuturlar. Bununla yanaşı, yüksək keyfiyyətli və təbii dəridən hazırlanan brend məhsulların istehsalında Avropa, xüsusilə də İtaliya, hələ də üstün mövqeyini qoruyub saxlayır.

Ümumiyyətlə, Avropa regionu trikotaj, geyim və ayaqqabı sənayesində sadə texnologiyalı və kütləvi istehsal sahələrində əvvəlki mövqelərini qismən itirmiş olsa da, yüksək keyfiyyətli, fərdi dizaynlı və dəbli məhsulların istehsalında aparıcı rolunu

saxlayır. Bu vəziyyət bir tərəfdən sənaye strukturunun diferensiallaşması, digər tərəfdən isə texnologiya və dizayn yönümlü innovasiya fəaliyyətinin güclənməsi ilə izah olunur. Beləliklə, qlobal toxuculuq və geyim sənayesi, hazırkı mərhələdə həm istehsal coğrafiyası, həm də texnoloji və struktur xüsusiyyətlər baxımından dərin transformasiya mərhələsinə qədəm qoymuşdur.

Yeyinti sənayesi — aqrar mənşəli xammal əsasında insan qidalanması üçün nəzərdə tutulmuş hazır və ya yarımfabrikat məhsulların istehsalını həyata keçirən sənaye kompleksi olmaqla, yaşıl iqtisadiyyata keçidin mühüm həlqələrindən birini təşkil edir. Bu sənaye sahəsi həm kənd təsərrüfatı sektoru ilə sıx inteqrasiya olunmuş, həm də ətraf mühitə birbaşa təsir göstərən istehsal sferası kimi diqqət mərkəzində saxlanılmalıdır.

Ərzaq təhlükəsizliyi və sağlam qidalanma ilə birbaşa bağlı olan yeyinti sənayesinin texnoloji yenilənməsi, tullantıların azaldılması, xammalın səmərəli istifadəsi və ekoloji təmiz istehsal mexanizmlərinin tətbiqi, yaşıl iqtisadiyyatın fundamental prinsiplərinə uyğun olaraq həyata keçirilməlidir. Bu sahənin əsas strateji funksiyası əhalinin dayanıqlı ərzaq təminatını yüksək texnoloji və ekoloji standartlara cavab verən üsullarla reallaşdırmaqdan ibarətdir.

Yeyinti sənayesinin daxili strukturu olduqca genişdir və aşağıdakı sahələri əhatə edir:

- ət və ət məhsulları;
- süd və süd məhsulları;
- un, şəkər, duz, qənnadı və çörək məmulatları;
- konserv, şirə və içki sənayesi;
- balıqçılıq və dəniz məhsullarının emalı və s.

Xammalın emal səviyyəsinə görə bu sahə iki əsas qrupa ayrılır:

İlkin xammal emalı üzrə fəaliyyət göstərən sahələr – burada kənd təsərrüfatı məhsulları birbaşa istehsalda istifadə olunur (məsələn, balıq, un, bitki yağı, konserv məhsulları və s.).

İkinci mərhələli emala əsaslanan sahələr – emal edilmiş xammaldan istifadə etməklə dəyər zəncirini dərinləşdirən sahələrdir (məsələn, makaron, qənnadı, çörəkbişirmə və s.).

Yaşıl iqtisadiyyata keçid kontekstində yeyinti sənayesinin əsas transformasiya istiqamətləri bunlardır:

- enerji səmərəliliyi və bərpa olunan enerji mənbələrinin tətbiqi;
- ekoloji cəhətdən zərərsiz qablaşdırma texnologiyalarının inkişafı;
- bioloji əsaslı və tullantısız istehsal sistemlərinin qurulması;
- su və torpaq resurslarının qorunması ilə bağlı texnoloji innovasiyaların tətbiqi.

Müasir yeyinti sənayesi müəssisələri artıq yalnız ərzaq istehsalı ilə kifayətlənməyərək, paralel şəkildə bioyanacaq, texniki yağlar, qliserin, sabun və digər yan məhsulların istehsalına yönəlmiş kompleks yanaşma tətbiq edirlər. Bu yanaşma həm istehsalın dəyərini artırır, həm də yaşıl iqtisadiyyatın əsas tələblərinə cavab verərək tullantıların minimallaşdırılmasına xidmət edir.

Ölkənin iri şəhərləri yeyinti məhsullarının əsas istehlak bazasını təşkil etdiyindən, bu sənaye obyektlərinin şəhərlərə yaxın yerləşməsi logistik səmərəlilik baxımından vacibdir. Lakin yaşıl şəhərsalma prinsipləri əsasında bu müəssisələrin fəaliyyəti zamanı karbon emissiyalarının və su-enerji sərfiyyatının azaldılması da ön planda saxlanılmalıdır.

Yeyinti sənayesinin ekoloji cəhətdən dayanıqlı əsaslarla yenidən qurulması, ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasında

əhəmiyyətli yer tutur. Bu sahədə elmi-tədqiqatların genişləndirilməsi, texnologiya transferi və KOB subyektlərinin innovasiyalara cəlb olunması, Azərbaycanın qlobal rəqabətə davamlı, ekoloji cəhətdən tarazlı sənaye modelinə keçidini sürətləndirə bilər.

Yüngül sənaye sektoru istənilən ölkənin iqtisadiyyatında strateji əhəmiyyət daşıyan və həm daxili tələbatı təmin edən, həm də sosial rifahın yüksəldilməsinə töhfə verən əsas sahələrdən biri kimi çıxış edir. Bu sahənin strukturunda mövcud olan geniş istehsal spektri — toxuculuq, geyim, trikotaj, ayaqqabı, xalçaçılıq, gön-dəri emalı və sair alt-sektorlar — onu həm kənd təsərrüfatı ilə, həm də sənayenin digər sahələri ilə qarşılıqlı asılılıq şəraitində fəaliyyət göstərən kompleks bir sistemə çevirir.

Azərbaycanda yüngül sənaye yalnız istehsal funksiyasını deyil, eyni zamanda məşğulluğun təmin olunmasında, əhalinin gündəlik istehlak malları ilə təchizatında və ölkənin qeyri-neft sektorunun struktur baxımından diversifikasiyasında mühüm rol oynayır. Bu sahənin davamlı inkişafı, ilk növbədə, yerli kənd təsərrüfatı məhsullarının emalı ilə birbaşa bağlıdır. Başqa sözlə, pambıqçılıq, baramaçılıq, yunçuluq, dəri və xəz istehsalı kimi aqrar sektora aid sahələrin inkişafı olmadan yüngül sənayenin dayanıqlı inkişafı mümkünsüzdür. Bu qarşılıqlı asılılıq, eyni zamanda yaşıl iqtisadiyyat prinsipləri baxımından da aktualdır: çünki yerli və ekoloji cəhətdən dayanıqlı xammalın istifadəsi sənaye proseslərinin ekoloji yükünü azaltmaqla, daha çevik və resurslara qənaətli istehsal modelinin formalaşmasına şərait yaradır.

Azərbaycanın müstəqillik əldə etməsindən sonra baş verən geosiyasi və iqtisadi transformasiyalar fonunda yüngül sənaye də ciddi itkilərə məruz qaldı. 1990-cı illərin əvvəllərində postsovet məkanında yaranmış iqtisadi boşluqlar, regional əməkdaşlıq

zəncirinin qırılması və maliyyə axınlarının dayanması bu sektorda istehsalın sürətlə zəifləməsinə səbəb oldu. 1993–1995-ci illərdə sənaye məhsullarının istehsal həcmi kəskin azaldı, nəticədə daxili bazarın tələbatı idxal məhsulları hesabına qarşılanmağa başladı.

Xüsusilə Çin, Türkiyə, İran və digər ölkələrin istehsal etdiyi ucuz tekstil və geyim mallarının kütləvi şəkildə Azərbaycana daxil olması yerli istehsalçıların bazar payını demək olar ki, sıfırladı. Bu prosesin nəticəsi olaraq yüngül sənayenin ölkənin Ümumi Daxili Məhsulunda (ÜDM) payı əhəmiyyətli dərəcədə azaldı. Bu tendensiya, təəssüf ki, uzunmüddətli xarakter daşıyaraq bu günədək davam edir.

Azərbaycanda yüngül sənaye istehsalının əsas məhsullarının istehsalının son 33 ildə, yəni ölkəmiz müstəqillik qazanandan sonrakı dövrdə olan istehsal dinamikası ümumi mənzərəyə aydınlıq gətirə bilər.

**Cədvəl 4.1.1 Yüngül sənaye üzrə bəzi məhsulların istehsal dinamikası**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün növ parçalar mln.kv.m. | 150,9 | 59,5 | 0,7 | 3,5 | 1,8 | 9,9 | 30,0 | 28,6 |
| İpək parçalar min kv. m. | | 801,0 | 7,8 | 437,2 | 735,8 | 272,4 | 0 | 322,8 |
| Corab məmulatı mln. ədəd | 37,8 | 0,3 | 0,7 | 3,0 | 2,0 | 3,7 | 3,0 | 4,2 |
| Xalça və xalçaçılıq məmulatı min.kv.m. | 2243 | 77 | 15,8 | 630[1] | 3,3 | 0,4 | 1,3 | 3,5 |
| Ayaqqabı mln. cüt | 15,2 | 0,8 | - | 0,3 | 0,3 | 0,1 | 0,5 | 0,7 |

Mənbə:DSK İqtisadi statistika “Sənaye” 2024 17. https://www.stat.gov.az/source/industry/ əsasən müəllif tərtibatı.

*1-fiziki şəxslərin fəaliyyəti daxil olmaqla*

Cədvəl 4.1.1-də Azərbaycanda bəzi yüngül sənaye məhsullarının son 33 ildəki istehsal dinamikası göstərilmişdir. DSK-da bu sahənin bütün istehsal olunmuş məhsulları haqqında məlumatlar çox məhduddur. Cədvəldə qeyd olunan yüngül sənayenin əsas məhsullarının istehsalının dinamikası onu göstərir ki, 1990-1995-ci illərin böhranından sonra bu sahə hələ də özünə gəlməmiş və ona görə də idxal məhsulları yerli bazarda dominant mövqe sərgiləyirlər. Belə ki, 1990-cı illər bütün növ parçalar istehsalı 150,9 mln. kv. metr təşkil edirdisə, 2023-cü ildə bu rəqəm 5,3 dəfə az, 28.6 mln. kv. metr təşkil edir. 2000-ci ildə parça istehsalı demək olar ki, tamamilə tənəzzülə uğramışdır və həmin ildən də istehsal 1990-cı il səviyyəsinə çatmasa da, qismən bərpa olunmağa başlamışdır. Son 3 ildə bu məhsulun istehsalında azalma müşahidə edilir.

İpək parçalar istehsalında eyni vəziyyətdir. 1990-cı ilin göstəricisi tapılmadı, ancaq 2023-cü ildə istehsal 1995-ci ilə nisbətən, təxminən 2 dəfə azalmışdır. 1980-1990-cı illərdə isə hər il 10000 min kv. m. ipək parça istehsal olunurdu.

Corab məmulatlarının istehsalında da eyni mənzərə ilə rastlaşırıq. 2023-cü ildə corab istehsalı 1990-cı ilə nisbətən 9 dəfə azalmış və bu sahə əsasən idxaldan asılı vəziyyətə düşmüşdür. Onu da qeyd etməliyik ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi minimum istehlak səbətinin tərkibində adambaşına corab istehlakının norması il ərzində 5 cüt qəbul edilmişdir [19]. Deməli, yerli istehsal il ərzində minimum norma ilə istehlak edilən corabın 0,8%-ni təmin edə bilir. Müasir istehlakçı

tələbatına uyğun çorab istehsal etmək və idxaldan asılılığı azaltmaq üçün ölkənin potensialı böyükdür və bununla əlaqədar fəaliyyətin olmaması, daxili bazarda idxal məhsullarının dominantlıq etmələri başa düşülən deyil.

Azərbaycanda geyim bazarının bir hissəsini də korporativ geyimlər, yəni müəssisələrə məxsus formalar, uniformalar, xüsusi geyimlər təşkil edir. Korporativ geyimlər müəssisələrin sifarişi əsasında hazır parçadan məhsulların tikişindən və bu geyimlərin üzərinə logoların vurulmasından ibarətdir. Bu məhsullara tələbatı olan sahələr kimi dövlət qurumları (səhiyyə sahəsi, hüquq-mühafizə sahəsi, hərbi sahə və s.), xidmət sektoru (restoran, otel, və s.), bank, sığorta və s digər sektorlar, elektronika, market mağazaları və s. aid etmək olar. Azərbaycanda bu fəaliyyəti həyata keçirən çoxsaylı özəl müəssisələr mövcuddur. İqtisadiyyatın daima böyüməsi və yenilənməsi səbəbilə, bu sahə potensialı da həmişə yüksək sahə olaraq qalır. Korporativ sahədə yerli bazara “Debet” və “Vostok” müəssisələrinin istehsal etdiyi məhsullar daha yüksək paya malikdir.

Azərbaycanda geyim məhsulları ilə məşğul olan əsas müəssisələr aşağıdakılardır: “Gilan Tekstil Parkı”, “Bakı Tekstil Fabriki”, “Bakı Tikiş Evi”, “Alyans tekstil”, “Mingəçevir Tekstil Parkı”, “MKT” şirkəti, “Azani Tekstil”, “Evim Tekstil”. Bu müəssisələr müxtəlif geyim, o cümlədən, uşaq paltarları istehsal edirlər.

Yüngül sənaye məhsulları içərisində xalça və xalçaçılıq məmulatlarının istehsalı öz ağır günlərini yaşayır. Bir vaxtlar – 1990-cı ildə 2243 min kvadrat metr xalça istehsal olunurdu. Həmin illər Gəncə xalça fabriki fabrik üsulu ilə (konveyer üsulu) xalça istehsal edirdi. Təəssüf ki, bu fabrik 1995-ci ildən sonra öz fəaliyyətini dayandırmağa məcbur oldu. 2023-cü ildə xalça istehsalı

1990-cı ilə nisbətən 641 dəfə azalaraq 3,5 min kvadrat metr olmuşdur.

Son illər ölkədə “Azərxalça” ASC-nin tərkibində 21 xalça fabriki tikilmiş və ya yenidən quraşdırılaraq istifadəyə verilmişdir. Bunlar Bakı, Nardaran, Qobu, Qobustan, Şabran, Xaçmaz, Quba, İsmayıllı, Qəbələ, Kürdəmir, Beləsuvar, Lənkəran, Fizuli, Ağdam, Tərtər, Goranboy, Şəmkir, Tovuz, Ağstafa, Qazax və Naxçıvan xalça fabrikləridir. Adı çəkilən bu fabriklərdə xalçalar, əsasən, əl əməyi ilə toxunur ki, bu da xalçanın maya dəyərinin yüksək olmasına səbəb olur. Ona görə də baha başa gəldiyi üçün rəqabətdə yerli məhsullar Çindən, İrandan, Türkiyədən və sairə ölkələrdən idxal olunan anoloji məhsullara uduzur.

Tədqiqat ilə əlaqədar “Azərxalça”nın filialı olan İsmayıllı xalça fabrikində olduq. Fabrikin direktoru Dilşad Hüseynova məlumat verdi ki, fabrik “Azərxalça” ASC-nin filiallarından biridir. ASC-nin səhmləri 100% dövlətə məxsusdur. Fabrikin layihə gücü ildə 1800 kvadrat metr xalça istehsalıdır. Hal-hazırda fabrikdə 100 nəfər işçi çalışır. İşçilərin hamısı qadındır.



Mənbə: Foto İsmayıllı xalça fabrikində müəllif tərəfindən 2022-ci ildə çəkilmişdir.

Fabrik ildə 1200 kvadrat metr, yəni layihə gücünün 66%-i həcmində istehsal gücündə işləyir. Burada xalça istehsalı tamamilə əl əməyi vasitəsilə toxunur. Tam layihə gücündə işləməməsinin səbəbi xalça toxumağı bacaran mütəxəssislərin çatışmaması və əmək haqqının aşağı səviyyədə (ayda orta hesabla 300-350 manat) olmasıdır. Fabrik xammal ilə (hazır iplik) mərkəzləşmiş formada baş idarə tərəfindən təmin edilir. İstifadə olunan xammal (iplik) həm yerli və həm də idxal hesabına daxil olan (Türkiyə, İran, Çin) məhsullardır. Son illər fabrik ipək xalçaların istehsalına başlamışdır ki, bunun da xammalı, yəni ipək iplikər yerli istehsal olan Şəki ipək fabrikinin istehsalıdır. İpək xalçaların istehsalı da əl əməyinə əsaslanır, yəni əl ilə toxunur. Fabrikin məhsul satışı ilə əlaqədar problemləri çoxdur. Əsas problem xalça istehsalında əl əməyindən geniş istifadə edilməsi nəticəsində maya dəyərinin yüksək olmasıdır. Bu səbəbdən də yerli qiymət amilində xalçalar rəqabətdə Çin, Türkiyə, İran və s. ölkələrdən idxal olunan anoloji məhsullara uduzur. Buna baxmayaraq yerli xalçalar hər kvadrat santimetrə düşən ilmələrin sıxlığına görə daha keyfiyyətlidir. Bu səbəbdən də müəyyən sifarişləri olur və bu sifarişlər hesabına fabrik fəaliyyət göstərir.

Onu da qeyd etməliyik ki, yuxarıda göstərdiyimiz səbəbə görə respublikada yeni açılmış həmin fabriklərin bir neçəsi məhsullarını sata bilmədiyi üçün artıq bağlanmışdır.




**Şəkil 4.1.1 Xalça və xalça məmulatlarının idxal-ixrac dinamikası. min dollar**

Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" 2024 s.76, 85 https://www.stat.gov.az/source/trade/ məlumatlarına əsasən müəllif tərtibatı

Şəkil 4.1.1-dən göründüyü kimi, xalça və xalça məmulatlarının ölkəyə idxalı mütəmadi olaraq artmışdır. Belə ki, 2023-cü ildə 1995-ci ilə nisbətən idxal 110 dəfə artaraq 22822,9 min dollara çatmışdır. Bunun müqabilində isə ixrac həmin dövr ərzində 4 dəfə azalaraq 290 min dollar olmuşdur. Qeyd etdiyimiz kimi son 33 ildə xalça istehsalı 641 dəfə azalmışdır. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, ölkədə xalça istehsalı yaxşı durumda deyil və 30 il əvvəlki vəziyyətə çatmaq üçün çox işlər görülməlidir. Ölkənin xalça bazarı demək olar ki, tamamilə idxal mallarının əlindədir. Onu da qeyd etməliyik ki, 1995-2022-ci illər ərzində yun istehsalı təxminən 2 dəfə artaraq 8,9 min tondan 16,1 min tona çatmışdır. Dövlət Statistika Komitəsinin hesabatlarından belə məlum olur ki, istehsal olunmuş yunun mütləq əksəriyyəti fermerlərin şəxsi istifadəsində qalmışdır. Əslində isə ölkədə xalçaçılıq sahəsi düzgün tənzimlənmədiyi üçün istehsal olunmuş

yun qoyunçuluqla məşğul olan fermerlərin əlində qalır, sata bilmirlər və bu qiymətli məhsul zay olub tullantıya gedir.

Ölkədə xalça istehsalı yüksək inkişaf potensialı olan ən önəmli və perspektivli sahələrdən biridir. Qeyd etdiyimiz kimi ölkə əhalisinin tələbatı əsasən idxal hesabına ödənilir. İdxal məhsullarında Çin və Türkiyə malları daha üstünlük təşkil edirlər. Ölkədə mövcud xalça fabriklərində əl ilə xalça toxunması üstünlük təşkil edir və bu səbəbdən yerli xalçalar baha başa gəlir. Azərbaycanda fabrik (sənaye) üsulu ilə xalça istehsalı yeganə olaraq «Dadaş-N» MMC–yə məxsus xalça fabriki fəaliyyət göstərir və yerli xalça bazarında çox kiçik paya malikdir.

Eyni vəziyyəti ayaqqabı sənayesinə də aid etmək olar. Belə ki, ayaqqabı istehsalı 2023-cü ildə 1990-cı ilə nisbətən 21 dəfə azalmışdır. 1990-cı ildə 15,2 mln.cüt ayaqqabı istehsal olunurdu, 2023-cü ildə bu rəqəm 730 min cüt olmuşdur. Bu sahə də tamamilə idxaldan asılı vəziyyətə düşmüşdür.

İsmayıllı rayonunda 1995-ci ildən ayaqqabı istehsalı ilə məşğul olan fiziki şəxs Rüstəm Əhmədov ilə görüşdük. İstehsal etdiyi ayaqqabı brendi "Sandal" adlanır. İl ərzində 2000 cüt ayaqqabı istehsal edir. Hal-hazırda istehsalı azalıb və istehsalın azalması ilə əlaqədar işçilərin sayı da azalaraq cəmi 9 nəfər qalıblar. Ayaqqabı istehsalı üçün xammalı əsasən Yevlax rayonunda yerləşən "Gilan" dəri zavodundan alır. Bu zavodun məhsulları daha ucuz başa gəlir. Bundan əlavə Türkiyə və İrandan gələn xammaldan da istifadə edilir. Bu mallar daha keyfiyyətlidir və təbii ki, daha bahadır. Sahibkarın dediklərindən məlum olur ki, ölkədə ayaqqabı sənayesinin acınacaqlı duruma düşməsinin əsas səbəbi Çin və İranın ucuz ayaqqabılarının ölkənin ayaqqabı bazarını tamamilə zəbt etməsidir. Çox ucuz olduğu üçün yerli ayaqqabı istehsalçıları onlarla rəqabətə girə bilmirlər. Ölkənin

ayaqqabı bazarı tənzimlənmir, yerli istehsalçıların maraqları qorunmur. İkinci əsas səbəb isə ayaqqabı tikən mütəxəssislərin çatışmamasıdır. İxtisaslı kadr ölkə ayaqqabı istehsalında ən böyük problemlərdən biridir. R.Əhmədovun dediklərindən: - *"Biz Çin və İran kimi güclü rəqiblərlə üz-üzəyik, rəqabətdə uduzuruq, nəticədə istehsalımız zəifləyir, gəlirlərimiz azalır və yüksək əmək haqqı verə bilmirik ki, bu da son nəticədə kadr potensialına mənfi təsir göstərir. Əl əməyindən daha çox istifadə edirik. Ayaqqabı istehsalı üçün lazım olan müasir avadanlıqları almağa risk edə bilmirik, çünki dövlətin bu cür riskləri tənzimləyən tədbirləri yoxdur. Bazar tənzimlənmələri ilə yerli sahibkarların maraqları qorunmalıdır və təəssüf ki, bu istiqamətdə əməli tədbirlər görülmür".*

Azərbaycanda İsmayıllı rayonunda yerləşən "Sandal"dan başqa Mingəçevir, Gəncə, Şəki, Sumqayıt şəhərlərində də ayaqqabı istehsalı ilə məşğul olan müəssisələr fəaliyyət göstərir ki, bunlar da eyni problemi yaşayırlar. Bakı şəhərində yerləşən və nisbətən istehsal həcmi daha böyük olan "Mazonello", "Bəyoğlu", "Marxal" və başqa yerli brendləri də misal göstərmək olar.

2023-cü ildə Çin və İrandan idxal olan ayaqqabı həcmi və qiymətlərinə baxsaq, yerli ayaqqabı istehsalçısı Rüstəm Əhmədovun sözlərini təsdiqləmiş oluruq.




**Şəkil 4.1.2 Çin və İrandan idxal olunan ayaqqabı.**

**(ABŞ dolları ilə) 2022-ci il**

Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" 2024 s.183. https://www.stat.gov.az/source/trade/ əsasən müəllif tərtibatı

Şəkil 4.1.2-dən göründüyü kimi, Azərbaycanda ayaqqabıya olan tələbatın əhəmiyyətli hissəsi bu iki ölkə tərəfindən ödənilir. Çindən idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 3,2 dollar və ya 5,44 manat, İran İslam Respublikasından daxil olan ayaqqabıların hər cütünə isə, orta hesabla 0,81 dollar və ya 1,38 manat ödənilir. İİR-dan idxal olan ayaqqabıların qiymətinin bu qədər ucuz olması təəccüb və şübhə oyadır və bu vəziyyəti qiymətlərin təhrif edilməsi qənaətinə də yozmaq olar. Ancaq göründüyü kimi həqiqətən də ölkə bazarına daxil olan bu məhsullar çox ucuzdur və yerli sahibkarların bu qiymətlərlə rəqabət aparması həddindən artıq çətindir. Nəzərə alsaq ki, minimum istehlak norması ilə adambaşına bir ildə 3 cüt ayaqqabı istifadə olunmalıdır, onda ölkə əhalisinin ayaqqabıya olan bütün ehtiyacı Çin və İrandan idxal olunan ayaqqabıların hesabına ödənilir. Ölkənin ayaqqabı bazarı bu iki ölkənin himayəsi altındadır, desək səhv etmərik.

Ayaqqabı istehsalında əsas xammal Bakı dəri qalantereya zavodu və Yevlax rayonunda yerləşən "Gilan" dəri emalı zavodudur. "Gilan" dəri emalı zavodu 2006-cı ildə istismara buraxılmışdır. Gündəlik 27 ton dəri (5000 gön) və 3000 kiçik gön parçaları istehsal həcminə malikdir. Zavod İtaliyada istehsal olunan ən son avadanlıqlarla təchiz olunub. Bu zavodda istehsal olunan bütün məhsullar rəqabətqabiliyyətlidir, yüksək standartlara cavab verir və İtaliya, İspaniya, Türkiyə, Ukrayna və İran bazarlarına ixrac olunur. Amma müəssisənin indiki faktiki istehsal həcmi barədə hər hansı məlumat almaq imkanı yoxdur.

Azərbaycanda rayonlar üzrə dərilərin ət kəsimi sexlərindən və sallaqxanalardan toplanıb emala ötürülməsi ilə ayrı-ayrı fiziki şəxslər məşğul olurlar. Ancaq rayonlarda qəbul məntəqələri olmadığından, heyvan dərisinin böyük bir hissəsi, xüsusilə də, qoyun-quzunun dəriləri əksər hallarda tullantıya gedir.

**Cədvəl 4.1.2 Dəri üzrə istehsal və ixrac göstəriciləri. 2023-cü il**

| Göstəricilər | 2023-cü il |
|---|---|
| İstehsal: | |
| O cümlədən: | |
| Aşılanmış dəri. ton | 3936,5 |
| Hazır dəri. min kv.m. | 64,1 |
| İxrac: | |
| İribuynuzlu heyvan dəriləri. min əd. | 351,3 |
| Emal olunmamış qoyun və quzu dəriləri. min əd. | 912,1 |
| Ölkə üzrə kəsim: | |
| İribuynuzlu mal-qara. min baş | 1006,5 |
| Qoyun-quzu. min baş | 4049,8 |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın xarici ticarəti" 2024 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasında müəllif tərtibatı

Cədvəl 4.1.2-dən göründüyü kimi, 2023-cü il ərzində kəsilən iri və xırdabuynuzlu mal-qara ilə istehsal olunmuş və idxal olunmuş dəri sayında böyük fərq var. Bu da yuxarıdakı fikri bir daha təsdiq edir ki, kəsilən heyvanların dərilərinin müəyyən hissəsi emal olunur.

Rayonlarda dəri yığımı ilə məşğul olan iş adamları fəaliyyət göstərirlər. Onlar dəriləri alıb yığırlar və müəyyən vaxt ərzində

Yevlax dəri zavodu və Bakı dəri qalantereya zavodunun nümayəndələri rayonlardan bu dəriləri yığıb aparırlar.

Ölkədə mövcud olan heyvandarlıq bazası ayaqqabı sənayesini kifayət qədər dəri məmulatları ilə təmin edə bilmək iqtidarındadır. Bununla belə, bu dərilərin çox az hissəsi emala gedir və onun da əhəmiyyətli hissəsi ixrac olunur, nəticədə yerli istehsalçılar xaricdən gətirilən yarımfabrikatlar almalı olurlar ki, bu da hazır məhsulun maya dəyərini xeyli artırır.

Azərbaycanın yüngül sənaye məhsulları istehsalı üzrə 2023-cü ildə idxal-ixrac əməliyyatlarını nəzərdən keçirsək, ölkə üzrə bu sahənin mövcud durumu haqqında təsəvvür yaratmaq olar.

**Cədvəl 4.1.3 Yüngül sənaye məhsulları üzrə idxal-ixrac. 2023-cü il**

| Mal qrupları | İxrac min ABŞ dolları | İdxal min ABŞ dolları | Kənarlaşma + - |
|---|---|---|---|
| İpək | 1950,9 | 99,1 | +1851,8 |
| Yun, zərif və qaba heyvan tükü; at tükündən iplik və parça | 8,1 | 218,8 | -210,7 |
| Pambıq | 163960 | 7770 | +156180 |
| Digər bitki mənşəli toxuculuq lifləri; kağız iplik və kağız iplikdən parçalar | 1,48 | 6384,5 | -6383,02 |
| Kimyavi saplar, kimyavi toxuculuq materiallarından olan yastı və anoloji saplar | 815,8 | 57301,8 | -56486 |
| Kimyavi liflər | 12,1 | 26811,2 | -26799,1 |
| Pambıq, keçə və ya fetr və toxunmamış materiallar, xüsusi iplik, ciyə, kəndir, kanat və troslar və onlardan məmulatlar | 142,3 | 63425,5 | -63283,2 |
| Xalçalar və digər toxunma döşəmə örtükləri | 289,9 | 22822,9 | -22533 |
| Xüsusi parçalar; taftinqli toxuculuq materialları; krujevalar; qobelenlər; bəzək materialları; tikmələr | 488,4 | 11532,6 | -11044,2 |
| Hopdurulmuş, üzlüklü, təkrarlanmış toxuculuq | 39,6 | 10520,9 | -10481,3 |

| | | | |
|---|---|---|---|
| materialları; texniki təyinatlı toxuculuq materialları | | | |
| Maşınla və əllə toxunma trikotaj parçalar | 295,1 | 57877,4 | -57582,3 |
| Maşın və ya əl toxunuşlu trikotaj geyim əşyaları və geyim ləvazımatları | 857,3 | 237116,4 | -236259 |
| Paltar və geyim ləvazımatları, maşın və ya əllə toxunmuş trikotajdan başqa | 2122 | 177905 | -175782 |
| Digər hazır toxuculuq məmulatları; dəstlər; işlənmiş geyimlər və toxuculuq məmulatları; cır-cındır | 24472,3 | 50790,5 | -26318,2 |
| Ayaqqabılar, getrlər və anoloji məmulatlar; onların hissələri | 576,8 | 135930,6 | -135353,8 |
| Baş geyimləri və onların hissələri | 117,7 | 9727,9 | -9610,2 |
| Yekun | 196150 | 876235 | 680085 |

Mənbə: DGK "Gömrük statistikası" 2023 https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda məlumatlarına əsasən müəllif tərtibatı

Cədvəl 4.1.3-dən məlum olur ki, ölkənin bu sahə üzrə ixracında xammalın xüsusi çəkisi mütləq üstünlük təşkil edir. Belə ki, təkcə pambıq ixracı yüngül sənaye üzrə xammal və məhsulların ixracının 84%-ni təşkil edir. Yüngül sənaye xammalı və məhsulu üzrə ixracımız cəmi 196 mln. dollar təşkil edir ki, bunun da 164 mln. dolları xammal kimi pambıq ixracının üzərinə düşür. Pambıq xammalının ixracının müqabilində dəfələrlə artıq qiymətə yüngül sənayenin hazır məhsullarını alırıq. Bu sahə üzrə idxal və ixracı müqayisə etsək məlum olar ki, ölkə 196 mln. dollar dəyərində yüngül sənaye üzrə xammal və məhsul ixrac edir, 876 mln. dollar dəyərində isə bu sahənin xammal və məhsullarını idxal edir. İxracın tərkibində xammal, idxalın tərkibində isə hazır məhsullar mütləq üstünlük təşkil edir.[18]

Bu cədvəldən bir daha məlum olur ki, ölkədə yüngül sənayedə 1990-1995-ci illərdən sonra yaşanan böhran vəziyyəti

hələ də davam edir. Ölkə ümumilikdə yüngül sənaye məhsulları üzrə idxaldan asılı vəziyyətdədir.

Bu gün ölkədə yüngül sənaye üzrə istehsal müəssisələrinin sayının kifayət qədər olmaması bu sahənin böyük həcmdə investisiyaya ehtiyacı olduğunu deməyə əsas verir. Qeyd edək ki, "*Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı üzrə müəssisələrin sayının kifayət qədər olmaması və bəzilərinin müasir tələbatdan geri qalması mövcud məhsulların istehsalında artım səviyyəsinin aşağı düşməsinə, kənd təsərrüfatı məhsullarının müəyyən hissəsinin itirilməsinə səbəb olur və istehlakçıların müxtəlif yerli məhsullarla təmin edilməsinə mənfi təsir göstərir. Bu baxımdan, mövcud imkanların tam şəkildə həyata keçirilməsini, xüsusən də biznes və rəqabət mühitinin yaxşılaşdırılmasını, istehsal olunan məhsulların itkisinin qarşısının alınmasını, mövcud bioloji potensialdan maksimum istifadəni, yalnız kənd təsərrüfatı məhsullarının istehsalını, onların hazır istehlaka çevrilməsini təmin etmək lazımdır*" [103, s.164].

Yeyinti sənayesi Azərbaycanın milli iqtisadi strukturunda mühüm strateji mövqe tutur. Bu sektorun xüsusi əhəmiyyəti ondan irəli gəlir ki, onun məhsulları əhalinin gündəlik həyat fəaliyyəti üçün zəruri olan ərzaqla təminatın əsas mənbəyidir. Yeyinti sənayesinin istehsal etdiyi məhsulların sosial və iqtisadi baxımdan əvəzolunmaz xarakter daşıması onun milli təhlükəsizlik və ərzaq təhlükəsizliyi kontekstində əhəmiyyətini daha da artırır. Bu səbəbdən də sahənin inkişaf səviyyəsi, onun cari vəziyyəti, struktur meyilləri və gələcək inkişaf istiqamətləri dövlətin iqtisadi və sosial siyasətində prioritet məsələlərdən biri kimi nəzərdən keçirilir.

Mövcud mərhələdə Azərbaycan bazarında yeyinti məhsullarının təklif səviyyəsi istehlak tələbatını əsasən qarşılayır. Ərzaq məhsullarının çatışmazlığı müşahidə olunmur, bu da ölkədə ərzaq təminatının sabitliyindən xəbər verir. Ticarət və satış infrastrukturlarının genişlənməsi və diversifikasiyası nəticəsində əhalinin müxtəlif sosial təbəqələri üçün əlçatan və geniş çeşidli məhsullar mövcuddur. İstehlakçılar fərdi ehtiyac və maddi

imkanlarına uyğun şəkildə seçim edə bilirlər ki, bu da bazar mexanizmlərinin düzgün və funksional fəaliyyətini əks etdirir. Bu vəziyyət həm də yaşıl iqtisadiyyatla uyğunluq təşkil edərək yerli istehsalın gücləndirilməsi və ərzaq məhsullarının ekoloji baxımdan davamlı təchizatının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda yeyinti sənayesini təşkil edən əsas sahələr aşağıdakı kimidir.




**Şəkil 4.1.3 Yeyinti sənayesinin əsas sahələri**

Mənbə: müəllifin tərtibatı

Yeyinti sənayesinin struktur baxımından mühüm seqmentlərindən biri olan ət və ət məhsullarının emalı sektoru həm iqtisadi, həm də sosial əhəmiyyəti baxımından strateji sahələrdən

biri hesab olunur. Şəkil 4.1.3-də göstərilən ümumiləşdirilmiş təsnifat bu sənayenin müxtəlif alt sahələrini, o cümlədən, həm ənənəvi – ət, süd, balıqçılıq, unüyütmə və çörəkbişirmə sektorlarını, həm də müasir inkişaf tendensiyalarına uyğun olaraq formalaşan hazır yeməklərin istehsalı kimi yeni istiqamətləri əhatə edir. Bu sahələrin hər biri özü daxilində spesifik alt sahələrə və texnoloji ixtisaslaşmalara bölünür ki, bu da sektorun kompleks xarakterini göstərir.

Ət və ət məhsullarının istehsalı sahəsi yeyinti sənayesinin mərkəzi komponentlərindən biri olmaqla, əhalinin qida təhlükəsizliyinin təminində və onların sağlam qidalanma tələbatının ödənilməsində xüsusi yer tutur. Bu məhsulların adambaşına düşən istehlak səviyyəsi həm də ölkədə həyat keyfiyyətinin və sosial rifahın dolayısı göstəricilərindən biri kimi çıxış edir. Qlobal istehlak meyillərinin təhlili göstərir ki, pəhriz xüsusiyyətlərinə görə quş ətinə olan tələbatın artması ümumi ət istehlak strukturunda mühüm dəyişikliklərə səbəb olmuşdur.

İnkişaf etməkdə olan ölkələrin dünya üzrə ümumi ət istehsalında paylarının artması, əsasən kənd təsərrüfatı sahəsində, xüsusilə, yem bazasının inkişafı ilə bağlıdır. Bu baxımdan Asiya ölkələrinin son illərdə göstərdiyi dinamika, yeni texnologiyaların tətbiqi və yaşıl iqtisadiyyat çərçivəsində resursların daha səmərəli istifadəsi mühüm amillər sırasındadır.

Azərbaycan üzrə 2023-cü ildə adambaşına düşən ət və ət məhsullarının istehsalı 37,5 kq., istehlakı isə 44,1 kq. təşkil etmişdir. Bu fərq ölkənin istehlak ehtiyacının bir qisminin (15%) idxal hesabına qarşılandığını göstərir. Lakin idxal olunan diri mal-qaranın sonradan daxildə emalı və istehlakı bu statistikada tam əks olunmur. Bu səbəbdən real idxal payı daha yüksək ola bilər.

Eyni zamanda, Nazirlər Kabinetinin müəyyən etdiyi minimal ərzaq səbətində ət məhsullarının normativ istehlak səviyyəsi 31,5 kq. təşkil edir ki, bu da Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi 78 kq. tövsiyə göstəricisindən əhəmiyyətli dərəcədə aşağıdır. Bu fərq həm qida keyfiyyətinə, həm də əhalinin sağlamlığının uzunmüddətli qorunmasına dair müəyyən riskləri gündəmə gətirir.

Mövcud istehsal potensialı və əhalinin tələbatı arasındakı fərq, eyni zamanda yerli istehsalın gücləndirilməsi, heyvandarlığın məhsuldarlığının artırılması və yaşıl texnologiyaların tətbiqi yolu ilə ət emalı sahəsində effektivliyin artırılmasının vacibliyini bir daha təsdiq edir. Bu çərçivədə, 2023-cü ildə əhali tərəfindən ət və ət məhsullarına xərclənmiş 4,2 milyard manatlıq istehlak xərci bu sahənin iqtisadi çəkisini və inkişaf potensialını aydın şəkildə ortaya qoyur.

**Cədvəl 4.1.4 Azərbaycanın icmal ət və ət məhsullarının balansı 2023-cü il. ton.**

| | İlin əvvəlinə qalıq | İstehsal | idxal | Ehtiyatların cəmi | Sənaye ehtiyaclarına | Ərzaq məhsulu kimi (emal edilmədən) | İxrac | İtkilər | İlin sonuna qalıq |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mal-qara və quş əti və ət məhsulları cəmi | 11600 | 379726 | 66751 | 458077 | 33734 | 407724 | 1153 | 3325 | 12141 |
| Mal əti və ət məhsul | 3620 | 152787 | 20207 | 176614 | 31770 | 140066 | 100 | 648 | 4030 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| ları | | | | | | | | | |
| Qoyun və keçi əti və ət məhsulları | 1291 | 88946 | 4793 | 95030 | - | 93081 | - | 605 | 1344 |
| Donuz əti və donuz əti məhsulları | 252 | 492 | 10334 | 9993 | - | 10402 | - | 95 | 240 |
| Quş əti və ət məhsulları | 6437 | 137501 | 37758 | 175696 | 1964 | 164175 | 1053 | 1977 | 6527 |

Mənbə: DSK "Azərbaycanın ərzaq balansları" 2024 s.39. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 4.1.4-də təqdim olunan statistik göstəricilər Azərbaycan Respublikasında 2023-cü il üzrə ümumi ət və ət məhsulları balansının strukturuna dair əhatəli mənzərə təqdim edir. Əldə olunan məlumatlar göstərir ki, həmin dövrdə formalaşmış ümumi ət ehtiyatları 458,1 min ton təşkil etmişdir. Bu ehtiyatın əhəmiyyətli hissəsi, təxminən 407,7 min tonu və ya 89%-i emal olunmadan birbaşa ərzaq məhsulu kimi əhalinin istehlakına yönəldilmişdir. Bu, istehsal olunan ətin və ət məhsullarının emal sənayesindən çox, birbaşa pərakəndə istehlak kanalları ilə əhalinin gündəlik qida rasionuna daxil olduğunu göstərir.

Ət növləri üzrə təhlil göstərir ki, qoyun və keçi ətinin ümumi ehtiyatları tam şəkildə birbaşa istehlaka yönəldilmişdir, bu da onların əsasən emal olunmadan istifadəyə verildiyini təsdiqləyir. Quş ətinin də təxminən 99%-i eyni şəkildə birbaşa ərzaq məqsədilə istifadə olunmuşdur ki, bu da quş əti istehlakının operativliyini və emala olan minimal ehtiyacı əks etdirir.

Mal əti və məhsulları üzrə 2023-cü il balansında 13%-lik pay idxal hesabına formalaşmışdır ki, bu da 20,2 min ton həcmində xarici asılılıq anlamına gəlir. Donuz əti üzrə isə idxaldan asılılıq xüsusilə yüksək səviyyədədir: 10,3 min ton idxalın qarşılığında yerli istehsal cəmi 492 ton olmuş, bu da məhsulun 95%-ə qədərinin xarici mənbələr hesabına təmin edildiyini göstərir. Quş əti üzrə də idxalın xüsusi çəkisi diqqətəlayiqdir. 2023-cü ildə istehlak olunan 166,1 min ton quş ətinin 22%-i (37,7 min ton) idxal məhsullarının payına düşmüşdür.

Bununla yanaşı, müvafiq statistik sənədlərdə əks olunmayan, lakin idxal dinamikasına mühüm təsir göstərən bir məqam da qeyd olunmalıdır: ölkəyə diri halda gətirilən iribuynuzlu heyvanların əksəriyyəti ətlik məqsədi ilə istifadə olunur. Lakin bu növ idxal həcmi Dövlət Statistika Komitəsinin müvafiq balans cədvəllərində nəzərə alınmır. Nəticədə, real idxal göstəriciləri təqdim olunan rəqəmlərdən daha yüksək ola bilər ki, bu da ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətli strateji çağırışlar yaradır.

Qlobal qəbul olunmuş meyarlara əsasən, ərzaq təhlükəsizliyi səviyyəsinin optimal sayılması üçün hər hansı məhsul üzrə idxal payının 15%-dən yüksək olmaması tövsiyə edilir. Azərbaycanda 2023-cü il üçün ümumi ət və ət məhsullarının idxalının bu həddi nominal olaraq keçməsə də, diri heyvan idxalının statistik göstəricilərdən kənarda qalması bu rəsmi qiymətləndirmənin qeyri-dəqiqliyini ortaya qoyur. Beləliklə, mövcud vəziyyət ölkədə ət

təminatında müəyyən miqyasda idxaldan asılılıq olduğunu təsdiqləyir.

Əhalinin ət və ət məhsulları ilə fizioloji normalar səviyyəsində təmin olunması üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. Bu tədbirlər arasında heyvandarlıq üçün yem bazasının strukturunun modernləşdirilməsi, ətin kəsimi və ilkin emal infrastrukturlarının yenidən qurulması, eləcə də məhsul istehsalının ekoloji və yaşıl iqtisadiyyat prinsiplərinə uyğun şəkildə təşkil olunması xüsusi əhəmiyyət kəsb edir. Belə yanaşma həm daxili istehsalın artırılması, həm də ərzaq təhlükəsizliyinin dayanıqlı şəkildə təmin olunması baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkədə heyvandarlığın inkişafını prioritet məsələyə çevirmişdir.

Fərmanda deyilir: *son dövrlərdə istər regionlarda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir*[77].

Heyvandarlıq məhsullarının emalında "dəyər zənciri" prinsipinin tətbiq edilməsi, iri heyvandarlıq komplekslərinin və fermer təsərrüfatlarının yaradılması, güclü yem bazasının yaradılması, parsel formasında mədəni otlaqlar yaratma təcrübəsinin ölkədə tətbiq olunması zərurətə çevrilmişdir.




**Şəkil 4.1.4 Ət və ət məmulatları istehsalında dəyər zənciri**

Mənbə: müəllifin tərtibatı

Şəkil 4.1.4-də tərtib edilmiş dəyər zənciri ətlik istiqamətli heyvandarlıq təsərrüfatlarından başlayır və pərakəndə satışla başa çatır. Ətlik istiqamətli heyvandarlığın dəyər zənciri ətlik heyvandarlıq təsərrüfatları, diri heyvan satışı, ətin kəsimi, emalı və kolbasa məmulatlarının istehsalı, bazarlama və satış kimi həlqələrdən ibarətdir.

Ölkədə ət və ət məhsullarının daxili bazar qiymətlərini tənzimləmək üçün müəyyən güzəştlər tətbiq edilir. Vergi Məcəlləsindəki dəyişikliklərə əsasən 2020-ci ilin yanvarından etibarən Azərbaycanda heyvan ətinin satış dövriyyəsi 4 il müddətində ƏDV-dən azad olunub. Bu müddət emal edilmiş ət məhsullarına, o cümlədən, kolbasa və kolbasa məmulatlarına aid edilmir. 2017-ci il yanvarın 1-dən quş əti də 3 il müddətinə ƏDV-dən azad edilmişdir və Məcəlləyə edilən dəyişikliklə əlaqədar bu müddət daha 4 illiyə artırılıb. Paralel olaraq heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə olunan yem və yem əlavələrinin satışı ƏDV-dən azad edilib. Yemlərin də ƏDV-dən azad edilməsi müddəti 4 ildir.

Qidalanma xüsusiyyətlərinə görə süd ən mükəmməl qida növüdür. O, demək olar ki, mükəmməl bir qida balansına malikdir və ona görə də insan pəhrizinin əhəmiyyətli bir hissəsini təşkil edir. Tədqiqatçılar hesablayıblar ki, süd və süd məhsullarının illik istehlakı bütün qida növlərinin təxminən 16%-ni təşkil edir.

Azərbaycan süd və süd məhsulları bazarı yerli istehsal və idxal hesabına formalaşır.

Son illərdə Azərbaycanda süd və süd məhsullarının əksər növlərinin istehsalında əhəmiyyətli artım müşahidə olunsa da, bu məhsulların idxalında azalma baş vermir.

**Cədvəl 4.1.5 Süd və süd məhsullarının idxal və ixrac dinamikası. min tonla**

| | 2007 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|
| Süd və süd məhsulları: | | | | | |
| İdxal | 191,6 | 647,2 | 366,0 | 461,3 | 474,6 |
| İxrac | 4,6 | - | 6,3 | 27,0 | 40,0 |
| Yağlılığı 1-6% olan süd və qaymaq: | | | | | |
| İdxal | 9,3 | 13,0 | 8,7 | 8,9 | 9,3 |
| İxrac | 0,2 | 0,1 | 0,1 | 0,3 | 6,9 |
| Yağlılığı 6%-dən çox olan süd və qaymaq: | | | | | |
| İdxal | 0,3 | 0,6 | 0,2 | 0,8 | 3,4 |
| İxrac | - | - | - | - | - |
| Kərə yağı: | | | | | |
| İdxal | 4,4 | 20,9 | 10,9 | 15,0 | 16,0 |
| İxrac | - | - | 0,2 | 0,4 | 1,2 |
| Bütün növ pendirlər: | | | | | |
| İdxal | 3,6 | 7,2 | 9,1 | 9,3 | 9,2 |
| İxrac | 0,5 | - | - | 2,0 | 0,5 |
| Qatıq, qaymaq, yoqurt, və s. süd məhsulları: | | | | | |
| İdxal | 6,7 | 9,2 | 8,8 | 9,7 | 9,6 |
| İxrac | - | - | 0,4 | 0,6 | 0,03 |

Mənbə: DSK “Azərbaycanın xarici ticarəti” 2024 s.76, 85 https://www.stat.gov.az/source/trade/ əsasında müəllif tərtibatı

Cədvəl 4.1.5-in məlumatlarına əsaslanaraq son onilliklərdə Azərbaycanda süd və süd məhsullarının idxal və ixrac dinamikasında ciddi dəyişikliklər müşahidə olunur. Belə ki, 2007–2023-cü illər ərzində süd və süd məhsullarının ümumi idxalı təxminən 2,5 dəfə artmışdır. Bu artım xüsusilə yağlılığı 6%-dən çox olan süd və qaymaq kateqoriyasında daha qabarıqdır, bu məhsullar üzrə idxal həcmi 11 dəfə çoxalmışdır. Oxşar artım tendensiyası kərə yağı (3,6 dəfə), pendir məhsulları (2,5 dəfə), eləcə də qatıq,

yoqurt və digər fermentləşdirilmiş süd məhsulları (1,4 dəfə) üzrə də qeydə alınmışdır.

Bununla belə, son illərdə ixrac göstəricilərində də nisbi müsbət dinamika müşahidə olunmaqdadır. Süd və süd məhsullarının ixracı 2007-ci ildən etibarən 8,7 dəfə artaraq 2023-cü ildə 40 min tona çatmışdır. Xüsusilə yağlılığı 1–6% olan süd və qaymaq ixracı 35 dəfə artaraq 6,9 min ton təşkil etmişdir. Kərə yağı üzrə ixrac fəaliyyətinə yalnız 2015-ci ildən başlanmasına baxmayaraq, 2023-cü ildə bu məhsul üzrə ixrac həcmi 1,2 min tona yüksəlmişdir. Lakin bəzi alt-seqmentlərdə, məsələn pendir məhsullarının ixracında nəzərəçarpacaq irəliləyiş qeydə alınmamışdır.

Hazırda ölkə üzrə təxminən 50-yə yaxın süd emalı müəssisəsi fəaliyyət göstərir ki, bunların əksəriyyəti Bakı, Gəncə, Lənkəran, Şamaxı, Qəbələ və digər şəhərlərdə yerləşir. “Atena”, “Palsüd”, “Milla” kimi yerli brendlər bazarda müəyyən qədər tanınmış və istehsalat sahəsində müasir texnoloji avadanlıqlarla təmin edilmişdir. Bu müəssisələrdə istehsal olunan süd məhsulları daxili tələbatın əhəmiyyətli hissəsini ödəməklə yanaşı, yaşıl iqtisadiyyat çərçivəsində tullantısız emal prinsipləri və resurslardan səmərəli istifadə məsələlərinə də müəyyən qədər uyğunlaşır.

2023-cü il üzrə istehsal və idxal olunan südün 97,8%-i emal müəssisələrində istifadəyə yönəldilmişdir ki, bu göstərici 2010-cu ildə cəmi 65% təşkil edirdi. Bu artım emal sənayesinin infrastruktur baxımından gücləndirilməsini və xammalın daha səmərəli dəyərləndirilməsini əks etdirir.

Bununla belə, ölkə üzrə süd və süd məhsullarının adambaşına istehlakı Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi səviyyədən geri qalır. Belə ki, ÜST adambaşına süd istehlakını 360 kq., kərə yağı üzrə isə 7,2 kq. səviyyəsində müəyyən etsə də,

Azərbaycanda bu göstəricilər müvafiq olaraq 259,3 kq. və 3,8 kq. olmuşdur. Bu fərq əhalinin tam və balanslaşdırılmış qidalanmasında hələ də həllini gözləyən problemlərin olduğunu göstərir.

Əhalinin süd və süd məhsulları ilə təminat səviyyəsinin aşağı olması bir sıra institusional və texniki səbəblərlə bağlıdır. Əvvəla, süd emalı müəssisələri xammal çatışmazlığı problemi ilə üzləşirlər. Təchizatın qeyri-kafi olması və keyfiyyət baxımından zəifliyi müəssisələri alternativlərə – quru süd və sintetik komponentlərdən istifadə etməyə vadar edir ki, bu da həm məhsulun maya dəyərini artırır, həm də keyfiyyət göstəricilərinə mənfi təsir edir.

Problemin kökündə əsasən aşağı məhsuldarlığa malik yerli mal-qaranın üstünlük təşkil etməsi dayanır. Süd hasilatının artırılması üçün mal-qara sürüsünün cins tərkibinin təkmilləşdirilməsi, yəni məhsuldar inəklərlə əvəzlənməsi vacibdir. Hesablamalara görə, ÜST-nin tövsiyələrinə uyğun təminat səviyyəsinə nail olmaq üçün ölkədə ildə ən azı 3,6 milyon ton süd istehsal olunmalıdır. Azərbaycanda bu potensial mövcuddur və onu aktivləşdirmək üçün yaşıl iqtisadiyyat prinsiplərinə əsaslanan heyvandarlıq modellərinin genişləndirilməsi məqsədəuyğun olardı.

Şəkər sənayesi strateji sahədir. Şəkər qida məhsulu kimi çox əhəmiyyətlidir, eyni zamanda, qənnadı məmulatları, çörək-bulka, meyvə-tərəvəz konservləri, makaron, əczaçılıq və kimya sənayesi üçün xammal kimi istifadə olunur.

**Cədvəl 4.1.6 Şəkər və xammalının ehtiyatları və istifadəsi. min tonla**

| | 2007 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|
| **Şəkər istehsalı üçün xammal** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.İlin əvvəlinə qalıq | | 1,5 | 6,4 | - | 11,7 |
| 2.İstehsal | 8,9 | 8,8 | 17,3 | 23,1 | 200.7 |
| 3.İdxal | 317,2 | 353,6 | 290,9 | 146,4 | 264,3 |
| Ehtiyatların cəmi | 326,0 | 364,0 | 371,7 | 171,5 | 476,8 |
| 1.Emal edilmişdir | 315,4 | 339,4 | 334,6 | 171,5 | 470,7 |
| 2.İlin sonuna qalıq | 10,6 | 24,6 | 37,1 | - | 6,1 |
| İstifadələrin cəmi | 326,0 | 364,0 | 371,7 | 171,5 | 476,8 |
| **Şəkər** | | | | | |
| 1.İlin əvvəlinə qalıq | 136,9 | 49,5 | 56,8 | 394,6 | 651,5 |
| 2.İstehsal | 305,6 | 335,5 | 332,1 | 258,4 | 290,6 |
| 3.İdxal | 42,7 | 92,0 | 64,1 | 179,9 | 94,2 |
| Ehtiyatların cəmi | 485,2 | 477,0 | 453,1 | 832,9 | 1036,3 |
| 1.Ərzaq məhsulu kimi istifadə edilmişdir | 261,6 | 221,9 | 206,6 | 267,8 | 256,7 |
| 2.İxrac | 157,8 | 211,8 | 224,1 | 65,7 | 40,7 |
| 3.İtkilər | 0,7 | 0,8 | 0,8 | 1,4 | 1,7 |
| 4.İlin sonuna qalıq | 65,1 | 42,5 | 21,7 | 498,0 | 737,2 |
| İstifadələrin cəmi | 485,2 | 477,0 | 453,1 | 832,9 | 1036,3 |
| Şəkər emalında yerli xammalın payı %-lə | 3 | 3 | 5 | 13 | 43 |
| **Adambaşına şəkər istehlakı kq.-la** | 30,2 | 24,4 | 21,7 | 26,9 | 25,4 |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 3.19., 3.20. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

Cədvəl 4.1.6-ya əsaslanaraq deyə bilərik ki, son illərdə Azərbaycanda şəkər istehsalı və onun xammal bazasında baş verən dəyişikliklər maraqlı və qeyri-bərabər dinamikaya malik olmuşdur. Belə ki, şəkər istehsalı üçün istifadə olunan xammalın həcmi bəzi illərdə nəzərəçarpacaq artımla müşayiət olunsa da, bəzi illərdə

kəskin azalmalar qeydə alınmışdır. Bu dalğavari dinamika 2020-ci ildə xammal istehsalının 2007-ci ilə nisbətən 2,6 dəfə artması ilə nəticələnmiş, lakin növbəti il 26%-lik azalma müşahidə olunmuş, 2022-ci ildə isə kəskin artım baş verərək istehsal həcmi 12 dəfə yüksəlmişdir. Bu dövrdə şəkər xammalının idxalı da artım göstərmişdir – 2023-cü ildə idxal 2020-ci ilə nisbətən 2,2 dəfə çox olmuşdur.

Şəkər sənayesinin formalaşması Azərbaycanda nisbətən yeni iqtisadi fəaliyyət sahəsi hesab edilir. Bu sahənin inkişafı əsasən 2006-cı ildə İmişli şəkər zavodunun fəaliyyətə başlaması ilə əlaqələndirilir. İlk dövrlərdə istehsal səviyyəsində qeyri-sabitlik müşahidə edilsə də, son iki ildə bu sektorda nisbi bərpa meyilləri müşahidə olunmaqdadır. Belə ki, 2022–2023-cü illərdə şəkər istehsalında 48%-lik artım qeydə alınmış, bu isə daxili tələbatın ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. 2020-ci ildə istehsalın azalması, əsasən şəkər xammalının azlığı ilə izah olunur. Bu vəziyyət nəticəsində həmin il idxal olunan hazır şəkər məhsullarının həcmi 179,9 min tona çatmışdır – bu, 2007-ci illə müqayisədə təxminən 4,2 dəfə artım deməkdir.

Eyni zamanda şəkər ixracında da ciddi geriləmə müşahidə olunmuşdur. Əgər 2007-ci ildə ixrac həcmi 157,8 min ton idisə, 2023-cü ildə bu göstərici 40,7 min tona enmişdir. Bu 3,9 dəfəlik azalma ixrac bazarlarının daralması və daxili istehlakın artması ilə izah edilə bilər. Ölkədə adambaşına şəkər istehlakı da azalaraq 30,2 kq-dan 25,4 kq-a düşmüşdür. Bu isə əhalinin istehlak davranışında dəyişikliklərin və qidalanma strukturunun fərqlənməsinin göstəricisidir.

Əhəmiyyətli məqamlardan biri də şəkər istehsalında istifadə olunan yerli xammalın xüsusi çəkisinin dəyişməsidir. Belə ki, bu göstərici 2007 və 2010-cu illərdə cəmi 3%, 2015-ci ildə 5%, 2020-

ci ildə 13% təşkil edirdisə, 2023-cü ildə 43%-ə yüksəlmişdir. Bu artım yerli xammal bazasının tədricən formalaşdığını göstərsə də, əvvəlki dövrlərdə İmişli şəkər zavodunun fəaliyyətinin demək olar ki, tamamilə idxal xammalından asılı olması reallığı da ortadadır. İdxaldan bu dərəcədə asılılıq isə istehsalatın uzunmüddətli dayanıqlılığı baxımından ciddi risk yaradır.

Bu kontekstdə şəkər çuğunduru istehsalının inkişafı xüsusi aktuallıq kəsb edir. Çuğundurun kənd təsərrüfatında gəlirli sahə olmasına baxmayaraq, onun əkin sahəsi ölkədə arzuolunan səviyyədə genişlənməmişdir. Halbuki bu məhsulun əkin sahəsini 30–35 min hektara çatdırmaqla İmişli zavodunun illik tələbatını tam ödəmək mümkündür. Mövcud iqlim şəraiti və torpaq potensialı bu hədəfə çatmaq üçün əlverişli imkanlar yaradır.

Lakin bu sahənin inkişafında suvarma imkanlarının məhdudluğu və mexanizasiya səviyyəsinin aşağı olması ciddi maneələrdir. Şəkər çuğunduru yüksək su tələb edən bitki olduğundan, optimal suvarma təmin olunmadıqda məhsuldarlıq aşağı düşür. Digər tərəfdən, ölkədə çuğunduryığan kombaynların çatışmazlığı səbəbindən məhsul əl əməyi ilə toplanır ki, bu da maya dəyərini artırır və fermerlər üçün gəlir imkanlarını azaldır.

Bütün bu çətinliklərin aradan qaldırılması üçün dövlətin bu sahəyə dəstəyinin artırılması, xüsusən yaşıl iqtisadiyyat kontekstində su resurslarının səmərəli idarə olunması və müasir kənd təsərrüfatı texnologiyalarının tətbiqi zəruri sayılır.

Unüyütmə sənayesinin çörək-bulka və makaron məhsullarının istehsalı ilə funksional bağlılığı onun bu sahələrlə birgə təhlilini zəruri edir. Azərbaycanda bu sahənin dayanıqlılığı baxımından ən mühüm problem buğda idxalına olan yüksək asılılıqdır. 2023-cü il üzrə ümumilikdə 1,9 milyon ton buğda qida və qeyri-qida məqsədilə istifadə olunmuş, bunun 1,2 milyon tonu

idxal edilmişdir ki, bu da ümumi tələbatın təqribən 63%-ni təşkil edir. Lakin bu rəqəmlər Dövlət Statistika Komitəsinin məlumatlarında un və yarma üzrə ayrılıqda təqdim edilmədiyindən, un istehsalı üçün konkret olaraq nə qədər buğdanın istifadə olunduğunu dəqiqliklə demək çətindir. Mütəxəssislərin rəyinə görə, yerli buğdanın çörək bişirilməsində istifadəsi olduqca məhduddur – cəmi 10–15% civarında, çünki onun keyfiyyət göstəriciləri müvafiq texnoloji standartlara tam cavab vermir. Nəticədə yerli istehsalın böyük hissəsi əsasən mal-qara yemi üçün istifadə olunur.

Rəsmi statistikaya əsasən, 2023-cü ildə ölkədə adambaşına çörək istehlakı 116,6 kq olmuşdur ki, bu da Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi sağlam qidalanma üzrə normativlərlə uyğundur. Bununla belə, bu sahədə idxaldan asılılığı azaltmaq üçün yerli buğda sortlarının dəyişdirilməsi, çörəklik buğda növləri ilə əvəz olunması məqsədəuyğun sayılır. Bu strategiya çörək istehsalının dayanıqlılığını artırmaqla yanaşı, ərzaq təhlükəsizliyi baxımından da əhəmiyyətlidir.

Makaron məhsullarının istehsalında da ölkənin idxala yüksək dərəcədə bağlı olması müşahidə olunur. 2023-cü ildə istehlak olunan 33,6 min ton makaronun təxminən 45%-i, yəni 15 min tonu idxal yolu ilə təmin olunmuşdur. Bu məhsulların istehsalında əsas xammal olan bərk buğda növləri əsasən Qazaxıstandan gətirilir. Bununla belə, ölkədə bu növ buğdanın yetişdirilməsi üçün torpaq-iqlim şərtləri yetərlidir və dövlət tərəfindən veriləcək texniki və maliyyə dəstəyi bu sahədə müsbət dəyişikliklərə səbəb ola bilər.

Yem istehsalı isə ölkədə dinamik inkişaf mərhələsindədir. Heyvandarlığın intensiv inkişafı, o cümlədən, iri və xırda buynuzlu heyvanların, eləcə də quşların baş sayının artması ilə əlaqədar olaraq, yüksək enerjili, balanslaşdırılmış yem məhsullarına tələbat artmış və bu da yem sənayesinin sürətlə formalaşmasına şərait

yaratmışdır. Əgər 2005-ci ildə yem istehsalı cəmi 100 ton idisə, 2023-cü ildə bu rəqəm 130,6 min tona çatdırılmışdır. Bu sektorun xammal bazası isə əsasən yerli taxıl məhsullarından ibarətdir və bu fakt yaşıl iqtisadiyyat yanaşmaları baxımından müsbət qiymətləndirilə bilər.

Yağ-piy sənayesində isə tarixi və sənaye baxımından mühüm yer tutan Şirvan yağ emalı zavodu fəaliyyətini 1954-cü ildən bu günədək davam etdirir. Hazırda bu müəssisə “MKT İstehsalat Kommersiya” MMC-nin strukturunda fəaliyyət göstərir və texnoloji baxımdan müasir avadanlıqlarla təchiz olunmuşdur. Zavod pambıq çiyidindən yüksək keyfiyyətli rafinə olunmuş yağ, soapstock, jmıx və linter məhsulları istehsal edir və istehsal etdiyi məhsulların mühüm bir hissəsini Türkiyə, Qazaxıstan, Tacikistan və İrana ixrac edir.

Hazır yeməklərin istehsalı isə ölkədə nisbətən yeni formalaşan bir sahədir. Bu seqment xüsusilə COVID-19 pandemiyası dövründə karantin şəraiti səbəbilə geniş yayılmış, sifarişlə evə çatdırılma xidmətləri sayəsində sürətli inkişaf mərhələsinə daxil olmuşdur. Bu dövrdə “Food Tech” adlandırılan texnoloji qida xidmətləri həm qlobal səviyyədə, həm də Azərbaycanda artan dinamika ilə müşahidə olunmuşdur. Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə bu xidmətin sürətlə yayılması, yeni bir sənaye sahəsinin yarandığını göstərir. Lakin bu sahənin statistik göstəriciləri barədə DSK-nin hesabatlarında ayrıca məlumatın olmaması analitik təhlili çətinləşdirir.

Azərbaycanda qida və yüngül sənaye sahələri əhəmiyyətli inkişaf potensialına malik olsa da, bu sahələrin dayanıqlı inkişafı və xüsusilə də yaşıl iqtisadiyyata keçid prosesi bir sıra sistemli maneələrlə qarşılaşır. İlk növbədə, sənaye müəssisələrinin texnoloji təchizatının köhnəlməsi və innovativ istehsal təcrübələrinin tətbiq

olunmaması istehsalatın məhsuldarlığını və ekoloji effektivliyini aşağı səviyyədə saxlayır. Bununla yanaşı, dövlətin normativ nəzarət və təşviq mexanizmlərinin zəifliyi, maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu, bank faizlərinin yüksəkliyi və uzunmüddətli investisiyaların çatışmazlığı yaşıl texnologiyalara keçidi əngəlləyən əsas iqtisadi amillərdir.

Bundan əlavə, daxili bazarda ucuz və tez-tez keyfiyyətsiz xarici məhsulların üstünlük təşkil etməsi, yerli məhsulların maya dəyərinin yüksək olması və istehsalda hələ də əl əməyinin dominantlıq etməsi rəqabət qabiliyyətini zəiflədir. Bütün bu faktorlar yalnız ənənəvi sənaye strukturlarını tormozlamır, həm də resurs səmərəliliyinə, tullantıların azaldılmasına və karbon izinin minimumlaşdırılmasına əsaslanan yaşıl iqtisadiyyat modelinə keçidi ləngidir. Dolayısıyla, bu sahələrdə institusional və texnoloji islahatların aparılması yaşıl iqtisadiyyatın təşəkkülü baxımından prioritet xarakter daşıyır.

Hal-hazırda yüngül sənaye sektorunun dirçəlməsi və beynəlxalq rəqabətə davamlı formaya salınması yalnız texnoloji yenilənmə və innovasiya tətbiqləri ilə deyil, eyni zamanda yaşıl istehsal konsepsiyası əsasında aparılmalıdır. Bu konsepsiya özündə aşağıdakı elementləri ehtiva etməlidir:

xammalın lokal mənbələrdən əldə olunması və onun təkrar emalının təşviqi;

enerji effektivliyi və suya qənaət texnologiyalarının tətbiqi;

emal tullantılarının azaldılması və təkrar istifadəsi;

istehsal prosesində zərərsiz, bioloji parçalanan materialların istifadəsi.

Bu kontekstdə, dövlətin tənzimləyici və təşviqedici funksiyaları, xüsusilə də vergi güzəştləri, innovasiya fondlarının yaradılması və yaşıl texnologiyalara investisiya axınının artırılması,

yüngül sənayenin mövcud potensialını reallaşdırmaq üçün fundamental əhəmiyyət kəsb edir.

Azərbaycanın yüngül sənayesinin yaşıl iqtisadiyyat çərçivəsində transformasiyası yalnız daxili bazar tələbatının ödənilməsi baxımından deyil, həm də regionun ekoloji və iqtisadi sabitliyinə töhfə verəcək strateji addım kimi qiymətləndirilməlidir. Bu transformasiya kənd təsərrüfatı ilə sənaye arasında yeni sinerji modelinin qurulmasına, yerli resursların daha rasional istifadəsinə və ixrac yönümlü məhsul portfelinin genişlənməsinə zəmin yarada bilər.

Nəticə etibarilə, Azərbaycanın yüngül və qida sənayesinin funksional və iqtisadi dayanıqlılığını təmin etmək üçün yaşıl iqtisadiyyatın tələblərinə uyğun olaraq struktur islahatlarına, investisiya təşviqlərinə və texnoloji modernizasiyaya əsaslanan kompleks inkişaf strategiyasına ehtiyac duyulur.

## 4.2. Rəqəmsallaşma və klaster modelləri

Müasir iqtisadi inkişafda rəqəmsallaşma anlayışı məhsuldarlığın, koordinasiyanın və innovasiya imkanlarının yüksəldilməsində strateji vasitə kimi çıxış edir. Bu anlayış yalnız texnoloji proseslərin avtomatlaşdırılması ilə məhdudlaşmır, həm də istehsalın təşkili, resursların idarə olunması, bazar məlumatlarının toplanması və təhlili, qərarvermə proseslərinin optimallaşdırılması sahələrini əhatə edir. Rəqəmsallaşma eyni zamanda yeni təşkilati və institusional modellərin – o cümlədən klaster sistemlərinin – daha effektiv işləməsinə imkan yaradır. Bu mənada rəqəmsal texnologiyalar və klaster yanaşması bir-birini tamamlayan, sinerji yaradan konseptual çərçivələrdir.

Klaster modeli iqtisadi fəaliyyətlərin coğrafi və funksional yaxınlıq prinsipi əsasında təşkili ilə rəqabətqabiliyyətliliyi gücləndirməyə xidmət edir. Rəqəmsal texnologiyaların klasterlərdə tətbiqi isə bu modeli daha çevik, şəffaf və səmərəli edir. Xüsusilə kənd təsərrüfatı və aqroemal sektorunda rəqəmsallaşma məhsulların istehsal prosesinin izlənməsi, resursların (suyun, torpağın, gübrənin) monitorinqi, logistika zəncirinin idarə edilməsi və bazar konyunkturasının proqnozlaşdırılması baxımından yeni imkanlar açır. Bu səbəbdən klaster yanaşmasının aqrar sektora tətbiqi zamanı rəqəmsallaşma inteqral komponent kimi nəzərə alınmalıdır.

Aqrar sahədə klaster modeli – istehsalçılar, emalçılar, logistik xidmətlər, maliyyə institutları, təlim və tədqiqat qurumları arasında qarşılıqlı əlaqələrin təşkil edildiyi və resursların optimal bölüşdürüldüyü bir sistemdir. Bu strukturda rəqəmsal alətlərin, məsələn, coğrafi informasiya sistemləri (CİS), ERP sistemləri, big data təhlili, ağıllı təsərrüfat texnologiyaları və sairənin tətbiqi ilə məhsuldarlıq və çeviklik artır, koordinasiya güclənir, itkilər azalır və istehsal zəncirində şəffaflıq təmin olunur.

İqtisadiyyatın strukturlaşdırılmasında və rəqabətqabiliyyətinin artırılmasında klaster modellərinin rolu müasir iqtisadi düşüncədə önəmli yer tutur. Klaster anlayışı ilk dəfə olaraq iqtisadi ədəbiyyatda amerikalı iqtisadçı Maykl Porter tərəfindən sistemləşdirilmiş və onun “The Competitive Advantage of Nations” (1990) əsərində geniş şəkildə təqdim edilmişdir. Porter klasteri “bir-biri ilə əlaqəli olan və eyni zamanda rəqabət aparan firmalar, təchizatçılar, əlaqəli xidmət sahələri və institusional aktorların coğrafi cəhətdən yaxın yerləşdiyi bir sistem” kimi müəyyən etmişdir [137 s.207]. Bu sistemdə fəaliyyət göstərən müəssisələrin sinerji yaratmaq, resursları bölüşmək, innovasiya və bilik ötürməsi həyata keçirmək imkanları daha yüksək olur.

Ölkənin ASK-nin, eləcə də, aqroemal sahəsinin inkişafında klasterlərin tətbiqi böyük rol oynaya bilər. Nə üçün aqroemal sahəsinə ənənəvi idarəetmə sistemi ilə deyil, klasterlərin obyektivindən baxmalıyıq? Bu suala yenə də M.Porterin sözləri ilə cavab verək:

*Bu, ilk növbədə, klasterlərin rəqabətin mahiyyətinə və rəqabət üstünlüklərinin əldə edilməsi mənbələrinə daha uyğun olması ilə bağlıdır. Klasterlər mühüm əlaqələrə, sənayelər arasında bir-birini tamamlamalarına, texnologiyanın yayılmasına, bacarıqlara, məlumatlara, firmanın və sənayenin marketinq və müştəri tələblərinə dair məlumatlılıq baxımından sənayelərdən üstündür. Bu cür əlaqələr rəqabət, məhsuldarlıq və xüsusilə yeni biznesin və innovasiyanın istiqamətini və yerini müəyyən etmək üçün əsasdır* [137 s.213].

Dünyanın bir çox iqtisadçı alimləri klaster anlayışına müxtəlif yanaşmalar sərgiləmişlər. Professor T.Əliyevin yanaşması maraqlı və əhatəlidir: *“klaster – coğrafi əlamətinə görə uzlaşan və sıx kooperasiya əlaqəsində olan, istehsalın səmərəliliyinə və fasiləsizliyinə təminat yaradan innovativ inkişafına təkan verən, rəqabət qabiliyyətli məhsul istehsal etməyə (xidmət göstərməyə) hədəflənən, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan kiçik, orta və iri sahibkarlıq subyektlərinin (dövlət, özəl, qeyri-hökümət), elmi və təhsil təşkilatlarının, maliyyə qurumlarının, standartlaşdırma orqanlarının, loqistika sisteminə daxil olan şəbəkələrin, ticarət birliklərinin təmərküzləşməsi üzrə mütərəqqi idarəetmə forması və innovasiya infrastrukturudur”* [56, s.18].

Aqrar sahədə klaster modeli xüsusilə xammal istehsalı ilə emal, logistika və marketinq funksiyalarının vahid iqtisadi məkan daxilində birləşdirilməsi məqsədi daşıyır. Belə bir yanaşma, kənd təsərrüfatı məhsullarının əlavə dəyər zəncirində səmərəli

inteqrasiyasını təmin etməklə, emal müəssisələrinin sabit xammal təminatını, fermerlərin isə məhsul satışında dayanıqlılığı və daha yüksək gəlir əldə etməsini mümkün edir. Aqroklaster modeli — bir növ resurs, informasiya və kapital axınının intensivləşdirildiyi iqtisadi platforma kimi çıxış edir.

Klasterlər üçün innovativ xarakterli olması, aktorlar arasında əlaqə və qarşılıqlı təsirin olması, rəqabət və kooperasiyanın mövcudluğu xarakterik xüsusiyyətlərdəndir. Son məhsula görə məsuliyyət və öhdəlik onlar arasında kooperasiyanı formalaşdırır.

Beynəlxalq aləmdə klasterlər iqtisadiyyatda keçən əsrin 90-cı illərindən tətbiq edilərək geniş miqyas almağa başlamışdır. İnkişaf etmiş ölkələrdə klasterlər çox aktualdır və bu yanaşmaya çox önəm verilir. 2000-ci ildən başlayaraq AB-nin 26 ölkəsində klasterlərin inkişafı üzrə milli proqramlar işlənməyə başlanmışdır. Bəzi Avropa ölkələrində (Norveç, Danimarka) klaster menecerləri hazırlanması istiqamətində xüsusi proqramlar fəaliyyət göstərirlər. Avropa Klaster Observatoriyası [157], Avropa Klaster Siyasəti Forumu [158], Avropa Klaster Alyansı [159], Klasterlər üzrə İnnovasiya Platforması [167] kimi qurumlar yaranmış və bu təsisatlar informasiya, bilik və bacarıqların artırılması, regionlar üzrə klasterlərin xəritəsini, klasterlər arasında təcrübə mübadiləsini, məsləhət və s. xidmətləri həyata keçirirlər.

*"Artıq AB ölkələri üzrə məşğul əhalinin 38%-i klasterlərə daxil olan müəssisə və təşkilatlarda işləyirlər. Bu rəqəm bəzi regionlarda 50% həddini aşır. ABŞ-da iqtisadi fəal əhalinin 36%-i bu təşkilatda birləşmiş müəssisələrdə çalışırlar. İtaliyada sənaye klasteri sənaye məşğulluğunun 40%-ni, Böyük Britaniyada 154 regional klaster, regional məşğulluğun 40%-ni təşkil edir, Niderlandda 12 klaster sənaye üzrə ÜDM-in 30%-ni verir.*

*Dünyanın ən nəhəng klasteri İtaliyada fəaliyyət göstərir ki, bura 9000 müəssisə və təşkilat daxildir”* [156].

Beynəlxalq təcrübə aqroklasterlərin kənd yerlərində iqtisadi aktivliyi stimullaşdırdığını, kənd təsərrüfatında texnoloji səviyyəni yüksəltdiyini və ixrac potensialını artırdığını göstərir. Məsələn, Niderlandda “Greenport Holland” aqroklasteri yüksək texnoloji istixana təsərrüfatları, tədqiqat institutları və logistika mərkəzlərini bir məkanda birləşdirərək ölkəni dünyanın aparıcı aqrar məhsul ixracatçısına çevirmişdir. İtaliyanın Parma və Modena bölgələrində süd və pendir klasterləri, Kaliforniyada üzümçülük və şərabçılıq klasterləri, Türkiyənin Qars və Ərzurum bölgələrində südçülük və ət emalı klasterləri bu modelin səmərəliliyini praktik şəkildə təsdiq edir.

Azərbaycan kontekstində isə bu yanaşma xüsusilə aqroemal sənayesində faydalı ola bilər. Hal-hazırda ölkədə kənd təsərrüfatı istehsalı ilə emal sənayesi arasında yetərli koordinasiya yoxdur. Klaster yanaşması və rəqəmsal sistemlərin inteqrasiyası ilə bu boşluqlar doldurula, xammalın axını, qiymət formalaşması və istehsal planlaması daha optimal şəkildə həyata keçirilə bilər. Beləliklə, həm regional inkişaf, həm ərzaq təhlükəsizliyi, həm də yaşıl iqtisadiyyatın inkişafı üçün zəmin yaranar.

Qeyd etməliyik ki, ölkəmizdə klaster modeli aqroemal sahəsinin səmərəli təşkilində yeni mərhələ aça bilər. Ölkədə kənd təsərrüfatı istehsalı ilə emal sənayesi arasında koordinasiya və kooperasiya zəifliyi, emal müəssisələrinin xammal təchizatında qarşılaşdıqları fasilələr, satış zəncirindəki təşkilati boşluqlar bu sahədə klaster yanaşmasının tətbiqini zəruri edir. Bu model kənd təsərrüfatında istehsal, emal, logistika, təlim və texnoloji innovasiyaların vahid sistemə inteqrasiyası ilə regionlarda dayanıqlı inkişafı təşviq etməyə imkan verə bilər.

*“Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”-nın əsas vəzifələri içərisində prioritet sahələr üzrə ərazi-istehsal klasterlərinin yaradılması ümdə məsələlərdən biri kimi qarşıya qoyulmuşdur”* [20].

Ölkənin iqtisadi fəaliyyət sahələrində klasterlərin yaradılması və inkişafı “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”ndə əsas istiqamət kimi qeyd edilmişdir.

Azərbaycanda klaster modelinin tətbiqi üçün hüquqi və institusional əsaslar məhdud şəkildə mövcud olsa da, bu istiqamətdə sistemli və normativ yanaşmanın formalaşdırılması hələ də tamamlanmamışdır. Hal-hazırda ölkədə klasterlərin yaradılması ilə bağlı ayrıca bir qanun mövcud deyil.

İnstitusional baxımdan isə İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bu sahədə potensial koordinasiya orqanları kimi çıxış edə bilər. Lakin hazırda bu qurumlar arasında klasterlərin təşkili və idarə olunması üzrə vahid strateji mexanizm və ya hüquqi tənzimləyici baza formalaşmayıb. Nəticədə aqrar sahədə klasterlərin inkişafı epizodik və lokal təşəbbüslərlə məhdudlaşır, sistemli institusional dəstək olmadan davamlı nəticə vermir.

Beynəlxalq təcrübəyə əsaslanaraq demək olar ki, Azərbaycanda klasterlərin hüquqi statusunun, dəstək mexanizmlərinin və dövlət-sahibkar əməkdaşlığının normativ əsaslarının müəyyənləşdirilməsi bu modelin uğurla tətbiqini stimullaşdıra bilər.

Azərbaycanda aqroemal sənayesinin klaster əsaslı inkişafı ilk növbədə xammal bazasının gücləndirilməsi və onun mövsümi dalğalanmalarının idarə olunması baxımından əhəmiyyətlidir.

Hazırda emal müəssisələri ilə kənd təsərrüfatı istehsalçıları arasında birbaşa və sabit əməkdaşlıq əlaqələri mövcud deyil. Bu isə emal müəssisələrinin fasiləli fəaliyyətinə, məhsul itkisinə və yüksək istehsal xərclərinə səbəb olur. Klaster modeli isə bu əlaqələri vahid idarəetmə və planlama çərçivəsində koordinasiya edərək həm xammal axınını sabitləşdirir, həm də məhsulun keyfiyyətinə nəzarəti artırır.

Digər tərəfdən, klaster modelində elmi-tədqiqat institutları, logistika şirkətləri, bank və sığorta təşkilatları, eyni zamanda texnoparklar və innovasiya mərkəzləri də bu strukturun funksional elementləri kimi çıxış edir. Bu isə aqroemal sektorunda texnoloji yeniliklərin tətbiqini, maliyyə əlçatanlığını və ixrac yönümlü istehsalın təşkili imkanlarını genişləndirir. Rəqəmsallaşma ilə inteqrasiya olunan klasterlər real vaxt rejimində məlumat mübadiləsinə, resursların izlənməsinə və idarə edilməsinə şərait yaratmaqla məhsuldarlıq və şəffaflığı artırır.

Ölkədə aqroemal sahəsinin coğrafi strukturuna baxdıqda, bir sıra bölgələrdə klaster formalaşdırılması üçün əlverişli şərtlərin mövcud olduğu görünür. Məsələn, Quba-Xaçmaz zonası meyvə-tərəvəz emalı, Şəki-Zaqatala bölgəsi fındıq və çay emalı, Aran zonası isə pambıqçılıq və süd emalı, Dağlıq Şirvan zonasında üzümçülük və şərabçılıq sahələrində klasterləşmə üçün potensiala malikdir. Bu bölgələrdə emal müəssisələrinin kənd təsərrüfatı istehsalı ilə inteqrasiyası, logistika imkanlarının yaxşılaşdırılması və regional infrastrukturun inkişafı ilə aqroklasterlər yaradılarsa, həm məhsulun yerli dəyəri artır, həm də məşğulluq imkanları genişlənər.

Eyni zamanda, klaster əsaslı yanaşma ölkənin "yaşıl iqtisadiyyata" keçid strategiyası baxımından da əhəmiyyətlidir. Səmərəli resurs istifadəsi, tullantıların minimumlaşdırılması və

istehsal zəncirində enerji effektivliyinin artırılması klaster strukturunda daha sistemli şəkildə həyata keçirilə bilər. Bu isə həm ekoloji, həm də iqtisadi dayanıqlığın təmin olunmasına mühüm töhfə verir.

Hesab edirik ki, Azərbaycan şəraitində aqroemal sektorunda mövcud potensialdan daha dolğun istifadə etmək məqsədilə regionlarda istehsal sahələrinə uyğun olaraq müxtəlif sektorial klasterlər yaratmaq olar. Bu klasterlərdə "istehsal-saxlama-emal-satış" prosesi bir çətir altında birləşəcək və qarşılıqlı fəaliyyətləri nəticəsində maya dəyəri azalacaq, xammal təminatı və satış problemləri aradan qalxacaqdır. Burada aqroemal müəssisələri yuxarıda qeyd etdiyimiz klasterlərin mərkəzi aktoru rolunda olur və həm istehsala, həm loqistikaya və həm də istehlaka təsir göstərə bilirlər. Klasterlər həm sektorial və həm də çoğrafi ərazilər üzrə təşkil edilə bilərlər.

Aşağıdakı şəkildə "Şərab" klasterinin optimal hesab etdiyimiz struktur quruluşunu verməyə çalışmışıq.




**Şəkil 4.2.1 "Şərab" klasterinin struktur quruluşu**

Mənbə: müəllifin tərtibatı

Şəkil 4.2.1-də sektorial klaster modeli əsasında müəllif tərəfindən tərtib olunmuş və "Şərab" adlandırılmış klasterin struktur elementi vizual şəkildə əks etdirilmişdir. Bu klasterin mərkəzində emal müəssisəsi, yəni şərab zavodu yerləşir və o, klaster daxilində iqtisadi əlaqələrin əsas yönləndirici və koordinasiyaedici aktoru kimi çıxış edir. Məhz bu müəssisə üzvi şəkildə klasterə daxil olan digər subyektlərin – xammal istehsalçıları, aqrotexniki xidmət təminatçıları, logistika və qablaşdırma şirkətləri, tədqiqat institutları, marketinq və satış şəbəkələri, peşə təhsili mərkəzləri və sertifikatlaşdırma qurumları ilə qarşılıqlı əlaqələrin effektiv şəkildə qurulmasına şərait yaradır.

Bu strukturda klasterin dayanıqlılığı və inkişaf potensialı bir tərəfdən regionda üzümçülüyün mövcud ənənələrinə, təbii-iqlim şəraitinə və kadr potensialına əsaslanırsa, digər tərəfdən isə koordinasiyalı institusional və texnoloji inteqrasiyaya söykənir. Şərab zavodları xammal tədarükündən başlayaraq satışa qədər olan bütün dəyər zəncirini əhatə etməli, yerli üzümçülərlə uzunmüddətli müqavilələr əsasında əməkdaşlıq qurmalı və məhsulun keyfiyyətinə nəzarəti təmin etməlidirlər. Bu model həmçinin klaster daxilində innovasiyaların yayılması və biliklərin transferi üçün əlverişli mühit yaradır.

Müəllif olaraq hesab edirik ki, Azərbaycanın aqroemal potensialı nəzərə alınmaqla regionlarda sektorial klasterlərin yaradılması ölkə ərzaq təhlükəsizliyinin təmin olunmasında və qeyri-neft ixracının genişləndirilməsində həlledici rol oynaya bilər. Konkret olaraq, "Şərab" klasterindən başqa, "Taxıl", "Şəkər", "Bitki yağı", "Ət", "Süd", "Pambıq", "Tütün", "Meyvə" və "İpək" kimi sektorial klasterlərin formalaşdırılması məqsədəuyğun hesab edilir. Bu klasterlərin hər biri üzrə regionların təbii-iqlim üstünlükləri,

təsərrüfat ənənələri və mövcud infrastruktur imkanları əsasında spesifik struktur və fəaliyyət mexanizmləri işlənməlidir.

Bununla yanaşı, bu kimi klaster modellərinin tətbiqi, yaşıl iqtisadiyyat prinsiplərinə əsaslanaraq istehsal proseslərində resursların qənaətli istifadəsini, tullantıların minimallaşdırılmasını və ətraf mühitə təsirin azaldılmasını da təmin etməlidir. Məsələn, şərab istehsalı zamanı yaranan üzüm çəyirdəkləri və digər qalıqlar bioenerji və ya heyvan yemi istehsalı məqsədilə ikinci mərhələli emala cəlb edilə bilər. Bu yanaşma klasterin ekoloji və iqtisadi səmərəliliyini artırmaqla yanaşı, onun davamlı inkişaf modelinə keçidini də təmin etmiş olar.

Sektorial klaster modellərinin regionlarda tətbiqi təkcə iqtisadi səmərəliliyin artırılmasına deyil, həm də ölkənin aqrar siyasətində institusional koordinasiya, bazar nizamlanması və ekoloji dayanıqlılıq kimi strateji məqsədlərin reallaşdırılmasına xidmət edəcəkdir. Belə klasterlər, həmçinin, yerli istehsalçının qlobal dəyər zəncirlərinə inteqrasiyasını sürətləndirə, ixrac imkanlarını artıra və regionlarda məşğulluğun yüksəlməsinə təkan verə bilər. Bu baxımdan, "Şərab" klasteri yalnız bir sahə nümunəsi kimi deyil, ümumilikdə aqroemal sektorunun rəqabətqabiliyyətli və innovativ transformasiyası üçün model yanaşma kimi qiymətləndirilə bilər.

Aqroemal klasterlərinin təşkili ölkədə bu sektorun davamlı və sürətli inkişafına səbəb olacaqdır. Bir çətir altında iri istehsal birləşmələri yaranacaq ki, bu da kənd təsərrüfatı məhsullarının və xammalın dərindən emalı səviyyəsinin yüksəlməsinə, maya dəyərinin azalmasına və sonda səmərəliliyin yüksəldilməsinə səbəb olacaqdır. Ölkənin ixrac potensialı əhəmiyyətli dərəcədə artacaq, daxili ərzaq bazarında idxal məhsullarının mövqeyi zəifləyəcək, əsas məhsullar üzrə tələbat (çörək və çörək məhsulları, ət, süd,

şəkər, bitki yağı, trikotaj, ayaqqabı, geyim və s.) əsasən yerli istehsal hesabına təmin olunacaqdır.

*"Klasterlərin formalaşması və inkişafını təmin etmək üçün ona mane olan amilləri müəyyən edib aradan qaldırmaq lazımdır. Beynəlxalq təcrübələrin təhlili göstərir ki, ərazi klasterlərinin inkişafına mane olan bir sıra xarakterik amillər mövcuddur. Bu amillər respublikamıza da xasdır. Respublikamızda klasterlərin formalaşmasına mane olan əsas amil əlverişli biznes mühitinin zəif olmasıdır"* [91, s.109].

Azərbaycan iqtisadiyyatının, xüsusilə də qeyri-neft sektorunun dayanıqlı inkişafı baxımından klaster yanaşması xüsusi strateji əhəmiyyət kəsb edir. Xüsusilə aqroemal kompleksi (ASK) sahəsində klasterlərin formalaşdırılması, istehsal-emal-logistika-inovasiya zəncirinin inteqrasiyasına və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verə bilər. Qlobal təcrübə sübut edir ki, klaster modeli yalnız coğrafi yaxınlıq deyil, eyni zamanda institusional koordinasiya, innovasiya axını və əməkdaşlıq mədəniyyətinin inkişafı üçün effektiv platformadır. Lakin bu modelin Azərbaycanda uğurla tətbiqi üçün müvafiq strateji sənədlərin mövcudluğu vacib şərtlərdəndir.

Hazırkı mərhələdə ölkədə regionların klaster əsaslı inkişafını yönəldən vahid strateji çərçivənin və normativ xəritələrin olmaması, klaster təşəbbüslərinin sistemsiz və epizodik şəkildə həyata keçirilməsinə səbəb olur. Bununla yanaşı, klaster performansının qiymətləndirilməsi üçün metodoloji əsasların, meyar və göstərici sistemlərinin olmaması planlaşdırmanı və nəticələrin effektivliyini əngəlləyir. Belə bir şəraitdə klasterlərin iqtisadi səmərəliliyini və genişmiqyaslı tətbiqini gözləmək qeyri-mümkün görünür.

Bu səbəbdən də dövlət səviyyəsində klaster inkişafı strategiyası hazırlanmalı, ilk növbədə ölkənin müxtəlif iqtisadi-coğrafi regionlarında potensial klaster sahələri və mövcud resurs bazası üzrə dərin təhlillər aparılmalıdır. Bu təhlillər həm təbii-iqlim, həm də əmək resursları, infrastruktur, nəqliyyat əlçatanlığı və elm-təhsil imkanları kontekstində aparılmalı, klaster yaradılmasına ən münasib rayon və şəhərlər prioritet kimi müəyyənləşdirilməlidir. Sözügedən istiqamətdə elmi tədqiqat institutlarının, universitetlərin, müstəqil analitik mərkəzlərin və sahibkarlar assosiasiyalarının birgə fəaliyyətinə geniş meydan verilməlidir.

Əlavə olaraq, Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsinə əsaslanaraq, Azərbaycanda da klasterlər üzrə milli inkişaf proqramlarının işlənib hazırlanması, onların icra mexanizmlərinin və monitorinq sisteminin hüquqi əsaslarla təmin olunması zəruridir. Belə proqramlar həm də yaşıl iqtisadiyyat strategiyasına uyğunlaşdırılmalı, resursların dayanıqlı istifadəsini və ətraf mühitə yükün azaldılmasını təmin edən yanaşmaları əhatə etməlidir.

Eyni zamanda, aqroemal sektorunda dövlətin tənzimləyici rolunun effektivliyini artırmaq məqsədilə institusional və inzibati islahatların aparılması labüddür. Bu, bir tərəfdən investisiya mühitini yaxşılaşdıracaq, digər tərəfdən isə sosial məsuliyyət və ərzaq təhlükəsizliyi kimi mühüm sahələrdə dövlətin rolunu gücləndirəcəkdir. Klasterlərin təşəkkülü dövlətin iqtisadiyyatdakı funksional təsirini daha sistemli və hədəfli şəkildə reallaşdırmaq üçün mühüm alətə çevrilə bilər.

Azərbaycanda aqroemal sənayesinin klaster əsaslı təşkili yalnız sektorun iqtisadi effektivliyini artırmaqla kifayətlənməyəcək, həm də yaşıl iqtisadiyyat prinsiplərinə uyğun olan, resursların optimal istifadəsinə və regional inkişafın balanslaşdırılmasına xidmət edən yeni institutlaşma mərhələsinin başlanğıc nöqtəsi ola

bilər. Bu istiqamətdə vahid dövlət strategiyası və institusional mexanizmlərin formalaşdırılması, klasterlərin dayanıqlı və inklüziv iqtisadiyyatın əsas sütunlarından birinə çevrilməsinə zəmin yaradacaqdır.

## 4.3. Aqrar emal sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi və dövlət müdaxiləsinin institusional əsasları

Aqroemal müəssisələrinin məhsullarının bazarda satış dinamikası, ilk növbədə, həmin bazarda formalaşan rəqabət mühitindən və onun struktur xüsusiyyətlərindən asılıdır. Rəqabət mühiti yalnız istehsalçı ilə son istehlakçı arasında baş verən alış-satış aktları ilə məhdudlaşmır; bu münasibətləri müəyyən edən hüquqi-normativ çərçivə, logistik sistemlər, vasitəçilər, texnoloji vasitələr və istehlakçı davranışları kimi çoxsaylı təsiredici amilləri əhatə edən mürəkkəb marketinq konfiqurasiyasıdır. Lakin bu anlayış hər zaman marketinq mühiti ilə eyniləşdirilməməlidir. Marketinq mühiti daha çevik, dinamik və situativ xarakter daşıdığı halda, rəqabət mühiti struktur sabitliyə malik olan, müəssisənin mövcud bazar imkanlarını və strateji mövqeyini uzunmüddətli dövrdə formalaşdıran daha kompleks sistem kimi çıxış edir.

Rəqabət mühitinin spesifikası ondan ibarətdir ki, o, müəssisənin istehsal etdiyi məhsulun həcmini, qiymət siyasətini, satış strategiyalarını, məhsulun texniki və istehlak keyfiyyətlərini, qablaşdırma və daşınma xüsusiyyətlərini, xidmətin səviyyəsini və s. birbaşa müəyyənləşdirir. Yəni, müəssisənin bazarda hansı strategiyanı seçəcəyini, onun biznes modelini və institusional davranış mexanizmlərini bilavasitə rəqabət mühiti diktə edir. Bu baxımdan, bazar mühitində baş verən dəyişikliklər əsasən məhz rəqabət münasibətlərinin təbiətindən qaynaqlanır.

Aqroemal sektorunda rəqabət mühitinin formalaşmasına təsir edən mühüm amillərdən biri də müəssisələrdə çalışan insan resurslarının təhsil səviyyəsi və əmək vərdişləridir. Müasir dövrdə rəqabətqabiliyyətlilik yalnız məhsulun qiyməti və keyfiyyəti ilə deyil, həm də müəssisənin texnologiyalara adaptasiya qabiliyyəti, idarəetmə elastikliyi və əmək məhsuldarlığı ilə müəyyən olunur. Bu isə yüksək ixtisaslı kadrların mövcudluğu, mütərəqqi əməyin təşkili və innovativ davranış formalarının stimullaşdırılması ilə birbaşa bağlıdır. Beləliklə, insan kapitalı aqroemal müəssisələrinin müqayisəli üstünlüklərinin formalaşmasında əsas aparıcı faktora çevrilir.

Ən yeni texnologiyaların tətbiqi və rəqəmsal idarəetmə formalarının genişlənməsi də rəqabət mühitində üstünlük əldə etmək üçün vacibdir. Bu texnologiyalar yalnız istehsal effektivliyini artırmır, eyni zamanda müəssisənin bazar haqqında operativ qərar qəbul etməsinə, müştəri ehtiyaclarını daha dəqiq analiz etməsinə və logistikanı optimallaşdırmasına şərait yaradır. Bu proses, eyni zamanda, yaşıl iqtisadiyyat prinsiplərinə uyğun olaraq resursların daha qənaətli istifadəsini və ekoloji yükün azaldılmasını stimullaşdırır ki, bu da müasir dövrdə rəqabət strategiyalarının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bu amillərdən məharətlə istifadə təkcə müəssisələrin deyil, bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyətini təmin edir.

*"Bu aspekt Azərbaycanda kənd təsərrüfatında kadrların idarə edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsi çərçivəsində nəzərə alınmalıdır. Bu əmək məhsuldarlığının artıracaq və son nəticədə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda onun rəqabət qabiliyyətinin artırılmasını təmin edir. Özünü inkişaf etdirmək və özünü həyatda sübut etmək amili inkişafda kadr ehtiyacı ilə əlaqəli bu dəyərləri əks etdirir: yaradıcılığın inkişafı,*

*potensial, peşəkar bacarıqlar, ünsiyyət bacarıqları, müstəqillik və qətiyyət, intellektual inkişaf, özünü sübut etmək və karyera yüksəlişi. Müəssisəyə bu dəyərlərə nail olmaq üçün imkanların yaradılması əlavə motivasiya amilidir ki, bu da kadr dəyişikliyini azaldır və müəssisənin səmərəliliyini artırır"* [172, s.276].

*"Müəssisənin rəqabət mühiti müddət və fəaliyyət intensivliyi ilə xarakterizə olunan bir çox heterogen amillərin satış bazarına təsiri ilə formalaşır. Məhsul bazarına təsir edən amillər çoxdur və onları qruplaşdırsaq aşağıdakı altı qrup yaranar".*

*– "Bazar rəqabətinin tənzimlənməsi ilə əlaqədar dövlətin münasibəti və siyasəti;*

*- bazarda iştirak edən və daim rəqabəti gücləndirən əsas müəssisələr;*

*- aqroemal müəssisələrinin istehsalına təsir və təzyiq edən istehlakçılar;*

*– aqroemal sənayesi bazarına xammal, material və digər komponentlər təklif edən tədarükçülər;*

*- aqroemal bazarında müəyyən çəkiyə malik əvəzedici malların istehsalçıları;*

*– birbaşa müəssisələr-məhsul istehsalçıları (satıcılar)"* [133, s.110].

Aqroemal məhsulları bazarında rəqabət mühitinin inkişafı kənd təsərrüfatı istehsalının stimullaşdırılmasının, ayrı-ayrı təsərrüfat subyektlərinin bazara mənfi təsir imkanlarının məhdudlaşdırılmasının, vasitəçiliyin azaldılmasının əsas bazar üsullarından biridir.

Aqroemal müəssisələrinin rəqabət mühitində dayanıqlı mövqe tutması yalnız daxili resurslardan və idarəetmə səmərəliliyindən deyil, həm də bazarda ədalətli və şəffaf oyun

qaydalarının mövcudluğundan asılıdır. Bu isə birbaşa şəkildə dövlətin antiinhisar siyasətinin forması və tətbiqi ilə bağlıdır.

Azərbaycanda antiinhisar tənzimlənməsi problemi daim gündəmdədir və dövlət tərəfindən bir çox tənzimlənmə tədbirləri həyata keçirilmişdir.

Ölkə iqtisadiyyatının antiinhisar fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar Azərbaycan Respublikasının aşağıdakı Qanunları qəbul edilmişdir:

- 4 mart 1993-cü ildə "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu [7]

- 2 iyun 1995-ci ildə "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu [58]

- 15 dekabr 1998-ci ildə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu [110]

- 31 may 2016-cı il "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu [8]

- 02 iyul 2013-cü il "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu [88].

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti və Nazirlər Kabineti bir sıra Qaydaların təsdiq edilməsi ilə əlaqədar Fərman və Qərarlar vermişdir.

- 25 dekabr 2009-cu il "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı [9]

- 29 may 1998-ci il “Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında” AR Nazirlər Kabinetinin Qərarı [10]

- 25 dekabr 2001-ci il “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi haqqında” AR Nazirlər Kabinetinin Qərarı. [111]

Azərbaycanda müstəqilliyin bərpasından sonra bazar iqtisadiyyatına keçid mərhələsində iqtisadi münasibətlərin tənzimlənməsi və ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində ilk addımlardan biri antiinhisar tənzimləmələrinin hüquqi və institusional əsaslarının yaradılması olmuşdur. Bu məqsədlə 1992-ci ildə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi təsis edilmiş və bu qurum 2001-ci ilə qədər fəaliyyət göstərmişdir. Sonrakı mərhələdə bu struktur İqtisadi İnkişaf Nazirliyi nəzdində fəaliyyət göstərən Antiinhisar Siyasəti Departamenti ilə əvəz olunmuş, 2007-ci ildən isə qurumun statusu dəyişdirilərək Antiinhisar Dövlət Xidməti kimi təşkilatlanmışdır. 2009-cu ildə isə bu xidmətin səlahiyyətləri genişləndirilmiş və artıq İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti adı altında fəaliyyət göstərməyə başlamışdır. Bu dövrlərdə struktur və səlahiyyət dəyişiklikləri, antiinhisar siyasətinin təşkili və icra mexanizmlərində müəyyən mütərəqqi dəyişikliklərə səbəb olsa da, sistemli və effektiv nəticələrin əldə olunması üçün hüquqi-normativ bazanın daha da təkmilləşdirilməsi zərurəti gündəmdə qalmaqda idi.

Son illərdə ölkədə rəqabət mühitinin inkişaf etdirilməsi və iqtisadi münasibətlərdə inhisarçılıq meyllərinin məhdudlaşdırılması

məqsədilə antiinhisar tənzimləməsi sahəsində hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Qanun pozuntularının aşkar edilməsi və qarşısının alınması istiqamətində aparılan tədbirlər müəyyən nəticələr versə də, inzibati baryerlərin tam aradan qaldırılmaması, dövlət orqanlarının və ayrı-ayrı məmurların rəqabəti məhdudlaşdıran davranışlarının qarşısının alınması sahəsində çətinliklər qalmaqdadır. Antiinhisar tənzimlənməsi mexanizmlərinin daha da səmərəli və çevik olması üçün institusional və hüquqi baxımdan bəzi islahatların aparılması zəruridir.

Xüsusilə qeyd olunmalıdır ki, uzun müddət – 2006-cı ildən etibarən – Azərbaycan Respublikası Milli Məclisində Rəqabət Məcəlləsinin qəbulu məsələsi gündəmdə olsa da, yalnız 2023-cü ilin dekabr ayında bu mühüm sənəd qanunverici orqan tərəfindən təsdiqlənmiş və 2024-cü ilin iyul ayından qüvvəyə minmişdir. Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkədə rəqabət mühitinin normallaşdırılması və iqtisadi subyektlər arasında bərabərhüquqlu münasibətlərin təmin olunması baxımından əlamətdar hadisədir. Bu normativ sənəd yerli bazarda sağlam rəqabətin təşviqinə, inhisarçılığın qarşısının alınmasına və nəticə etibarilə sahibkarlıq fəaliyyətinin daha mütəşəkkil və şəffaf mühitdə inkişafına ciddi təkan verəcəkdir.

Yeni qəbul edilmiş Rəqabət Məcəlləsi, həmçinin dövlətin bu sahədə həyata keçirdiyi institusional islahatlar, iqtisadiyyatın ayrı-ayrı sahələrində, xüsusilə aqroemal sənayesində, rəqabətli mühitin formalaşması və inhisarçılığın məhdudlaşdırılması baxımından mühüm hüquqi-inzibati alət kimi çıxış etməlidir. Onun praktik tətbiqi, nəzarət mexanizmlərinin çevikliyi və cəza tədbirlərinin real təsir gücü bu sahədə aparılan siyasətin səmərəliliyini müəyyən edəcəkdir.

Antiinhisar tənzimlənməsi müasir dövlətlərin iqtisadi idarəetmə sistemində bazar münasibətlərinin rasional qurulması və ədalətli rəqabət mühitinin təşviqi baxımından strateji əhəmiyyət daşıyan alətlər toplusudur. Bu tənzimləmə forması inhisarçılıq meyllərinin qarşısının alınması, iqtisadi subyektlər arasında bərabər şərtlərlə fəaliyyət mühitinin yaradılması, istehlakçıların hüquqlarının qorunması və ümumilikdə bazar səmərəliliyinin yüksəldilməsi məqsədlərinə xidmət edir. Antiinhisar tənzimlənməsi yalnız hüquqi çərçivədə tətbiq olunan sanksiya və qadağalar toplusu deyil, həm də dövlətin məqsədyönlü müdaxilə mexanizmləri vasitəsilə rəqabət mühitini tənzimlədiyi və inkişaf etdirdiyi dinamik bir prosesdir. Bu baxımdan, antiinhisar siyasətinin mahiyyəti inhisarçı qurumların bazardakı mövqeyinin tənzimlənməsi və onların davranışlarının rəqabəti boğacaq həddə çatmamasının qarşısının alınması ilə xarakterizə olunur.

Xüsusilə, aqroemal sənayesində istehsal həcmi yüksək olan müəssisələrin bazarda daha əlverişli mövqeyə malik olması bu sahədə antiinhisar nəzarətinin aktuallığını artırır. Belə müəssisələr geniş istehsal imkanları sayəsində məhsulun maya dəyərini aşağı salmaqla qiymət üstünlüyü əldə edir, bu isə onların rəqabətdə üstünlük qazanmalarına səbəb olur. Əgər bu tip müəssisələrin bazarda hökmran mövqe tutmasının qarşısı alınmazsa, onlar kiçik və orta sahibkarlıq subyektlərinin bazara daxil olmasını əngəlləyir, iqtisadi şaxələnməni zəiflədir və nəticə etibarilə sağlam rəqabət mühitinin deqradasiyasına yol açır. Bu səbəbdən, dövlətin antiinhisar siyasəti yalnız inhisarların ləğvi ilə deyil, eyni zamanda bazarda müvazinətin qorunması, KOB subyektlərinin inkişafı üçün institusional və iqtisadi şəraitin yaradılması ilə uzlaşdırılmalıdır.

Dövlətin bu sahədəki əsas funksiyalarından biri də haqsız rəqabət formalarına qarşı effektiv mübarizənin təşkili və bu

davranışların hüquqi müstəvidə qarşısının alınmasıdır. Müasir dövrün bazar iqtisadiyyatında haqsız rəqabət çoxşaxəli və mürəkkəb təzahür formalarına malikdir. Bunlara rəqiblərin nüfuzdan salınması, ticarət markalarının və əqli mülkiyyətin mənimsənilməsi, rəqibləri resurslardan və satış kanallarından məhrum etməyə yönəlmiş təzyiqlər, inzibati səlahiyyətlərdən sui-istifadə hallarının olması, dempinq qiymət siyasəti və digər bu kimi qeyri-etik və hüquqa zidd fəaliyyətlər daxildir. Bu davranışlar iqtisadi mühitdə qeyri-bərabər şərtlər yaradır, inhisarçılıq meyllərini gücləndirir və sahibkarlığın davamlı inkişafına mane olur.

Beynəlxalq təcrübə göstərir ki, ənənəvi qadağa və məhdudiyyətlərə əsaslanan klassik antiinhisar yanaşması təkbaşına effektiv nəticə vermir. Bu gün rəqabət siyasətinin yeni mərhələsi daha çox liberal iqtisadi mexanizmlərlə, institusional koordinasiyanın gücləndirilməsi ilə və şəffaf bazar proseslərinin dəstəklənməsi ilə xarakterizə olunur. Azərbaycanda isə antiinhisar tənzimlənməsi yalnız bazar mexanizmlərinin pozulmasının qarşısını almağa deyil, həm də sistemli və institusional islahatlarla inhisarçılığın köklü şəkildə neytrallaşdırılmasına yönəlməlidir. Belə yanaşma yalnız qanunvericiliyin sərtləşdirilməsi deyil, eyni zamanda tətbiqetmə mexanizmlərinin çevikliyi və funksionallığının artırılması ilə mümkündür.

Azərbaycan iqtisadiyyatında inhisarçılıq meyllərinin təhlili göstərir ki, bəzi iri təsərrüfat subyektlərinin bazarda üstün mövqe tutmasının arxasında istehlakçı tələbini deyil, dövlət orqanları və yüksək vəzifəli şəxslərin açıq və ya gizli himayəsi dayanır. Bu hallar rəqabətin təməl prinsiplərinə zidd olmaqla yanaşı, həm də iqtisadi inkişafın inklüzivliyinə və ədalətliliyinə mane olur. Bu kontekstdə mövcud antiinhisar siyasətinin təkmilləşdirilməsi və

onun tətbiqində ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi zərurəti aydın görünür.

Əksər inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, inhisarçılıqla mübarizə yalnız hüquqi mexanizmlərlə deyil, eyni zamanda iqtisadi stimullar, innovativ təşviqetmə proqramları və şəffaf monitorinq sistemləri ilə də aparılmalıdır. Azərbaycan da öz milli xüsusiyyətlərini və iqtisadi strukturlarını nəzərə almaqla bu sahədə beynəlxalq təcrübədən öyrənmək və onu adaptasiya etmək yolu ilə inhisarçılığın qarşısını almaq üçün daha geniş və kompleks islahatlar həyata keçirməlidir. Bununla yanaşı, ölkənin spesifik kontekstini nəzərə alaraq, özünəməxsus idarəetmə modellərinin və yerli bazar şərtlərinə uyğun hüquqi çərçivələrin hazırlanması da vacibdir.

Antiinhisar tənzimlənməsi sadəcə inhisarların hüquqi yollarla məhdudlaşdırılması deyil, həm də iqtisadi münasibətlərin dərinləşdirilməsi, rəqabətədavamlı institutların formalaşdırılması və sahibkarlıq mühitinin davamlı inkişafı baxımından mühüm bir vasitədir. Azərbaycanda bu sahədə aparılan hüquqi və institusional islahatlar davam etdirilməli və yeni iqtisadi çağırışlara adekvat cavab verəcək kompleks yanaşmalarla dəstəklənməlidir.

Bazar iqtisadiyyatının səmərəli və inklüziv şəkildə inkişaf etdirilməsində dövlətin qarşısında duran əsas vəzifələrdən biri rəqabət mühitinin qorunması və inhisarlaşma meyllərinin neytrallaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün tətbiq olunan ən mühüm iqtisadi-sosial siyasət vasitələrindən biri də kiçik və orta sahibkarlığın (KOS) stimullaşdırılması və dəstəklənməsidir. KOS subyektləri bazarda iqtisadi plüralizmin təmin olunmasında, məşğulluğun artırılmasında, innovasiya və texnoloji tətbiqlərin yayılmasında mühüm rol oynayır. Eyni zamanda, onların varlığı iri inhisarların iqtisadi hökmranlığını balanslaşdırmaq baxımından da

əhəmiyyətlidir. Bu baxımdan, KOS-un davamlı və rəqabətədavamlı inkişafı həm iqtisadi, həm də institusional səviyyədə dövlət tərəfindən dəstəklənməlidir.

Sahibkarlıq fəaliyyəti, mahiyyət etibarilə, siyasi mühitin sabitliyi və dövlətin iqtisadi idarəetmə kursunun istiqamətləri ilə sıx surətdə bağlıdır. Siyasi sabitlik və dövlətin iqtisadiyyata münasibəti sahibkarlığın inkişafında mühüm təsirə malik olan amillərdir. Əgər dövlət strukturları özəl sektora etibarlı tərəfdaş kimi yanaşırsa, bu, sahibkarlıq mühitində pozitiv dinamika yaradır; əksinə, siyasi qeyri-müəyyənlik, qərar qəbuletmədə dəyişkənlik və institusional boşluqlar sahibkarlığın inkişafını əngəlləyə bilər. Bu mənada, kiçik və orta sahibkarlar siyasi qeyri-sabitlik şəraitində risk almağa daha az meyilli olur, çünki qeyri-müəyyənlik onların gəlir gözləntilərini azaldır və investisiya qərarlarını ertələməyə vadar edir.

Digər tərəfdən, sahibkarlıq fəaliyyətinin uğuru təkcə siyasi mühitlə deyil, həm də iqtisadi şəraitlə birbaşa bağlıdır. Əhalinin real gəlirlərinin səviyyəsi, yəni onların istehlak xərcləri üçün istifadə edə biləcəyi resursların miqdarı sahibkar üçün potensial bazarın həcmini müəyyən edir. Məhsul və xidmətlərə olan tələbin formalaşması əhalinin alıcılıq qabiliyyətindən asılı olduğu üçün bu göstəricinin yüksək olması sahibkarlığın genişlənməsi üçün münbit zəmin yaradır. Digər makroiqtisadi göstəricilər: - inflyasiya səviyyəsi, əmək bazarının vəziyyəti, fiskal və monetar güzəştlər, dövlət subsidiyaları, güzəştli kredit mexanizmləri və birbaşa maliyyə yardımları, sahibkarlıq mühitinə təsir edən əsas iqtisadi faktorlardandır.

Eyni zamanda, sahibkarlığın inkişafı üçün hüquqi-institusional çərçivənin formalaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Hüquqi təminatlar və normativ tənzimləmələr sahibkarın fəaliyyətinin hüquqi təhlükəsizliyini və mülkiyyət hüququnun

müdafiəsini təmin etməlidir. Qanunvericiliyin sabitliyi və onun tətbiqində şəffaflıq sahibkar üçün etibarlı fəaliyyət mühiti formalaşdırır. Bu baxımdan, bazar iqtisadiyyatına keçid etmiş bütün ölkələrdə sahibkarlıq fəaliyyəti üçün uyğun hüquqi-institusional mühitin yaradılması dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilir.

Azərbaycanda inhisarlaşma meyllərinin zəiflədilməsi və sağlam rəqabət mühitinin formalaşdırılması baxımından kiçik və orta sahibkarlığın təşviqi yalnız sosial-iqtisadi deyil, həm də institusional və siyasi əhəmiyyət daşıyan bir prosesdir. Dövlət bu sahədə koordinasiyalı və çevik siyasət yürütməklə iqtisadiyyatda inklüziv artımı təmin edə və rəqabət qabiliyyətli istehsal strukturunun formalaşmasına zəmin yarada bilər.

Azərbaycan müstəqillik qazanan gündən bazar iqtisadiyyatı yolunu tutmuş və sahibkarlığın inkişafı Azərbaycan Respublikasının Konstitusiyasına uyğun tənzimlənir. Konstitusiyanın 13 və 15–ci maddələrinə görə ölkəmizdə mülkiyyət toxunulmazdır və o dövlət tərəfindən müdafiə olunur. “*Mülkiyyət – dövlət, xüsusi və bələdiyyə mülkiyyəti növlərində ola bilər. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir”* [12, maddə13].

Hələ 1992-ci ilin dekabrın 15-də “Sahibkarlıq fəaliyyəti haqqında” qanun qüvvəyə minmişdir. Həmin qanunun 9-cu maddəsində də deyilir: *“Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir. Dövlət maddi-texniki, maliyyə, əmək, informasiya və təbii ehtiyatlardan istifadə sahəsində mülkiyyət və təşkilati-hüquqi imtiyazlara və qeyri-bərabərliyə yol vermir.*

*Sahibkarlığın sürətli inkişafını təmin etmək üçün dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətlərini və buna müvafiq olaraq güzəştlər sistemini müəyyənləşdirir”* [89].

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, orta və kiçik sahibkarlıq subyektləri (KOS) dövlət büdcəsinin gəlir bazasının formalaşmasında, məşğulluğun təmin olunmasında və iqtisadi inklüzivliyin gücləndirilməsində mühüm rol oynayır. Bu subyektlərin çoxşaxəli fəaliyyəti iqtisadiyyatın şaxələndirilməsi, sosial sabitliyin qorunması və innovasiya əsaslı istehsal münasibətlərinin inkişafı baxımından da əhəmiyyətlidir. Məhz bu səbəbdən, Azərbaycanda da KOS-un inkişaf etdirilməsi dövlətin sosial-iqtisadi strategiyalarının prioritet istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Bu istiqamətdə dövlət tərəfindən çoxsaylı təşviqedici tədbirlər həyata keçirilmiş, güzəştli maliyyələşdirmə mexanizmləri tətbiq olunmuş, institusional dəstək infrastrukturu formalaşdırılmışdır.

Azərbaycan Respublikasında sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına dəstək məqsədilə bir sıra ixtisaslaşmış qurumlar yaradılmışdır. Bunlara Sahibkarlığa Kömək Milli Fondu (SKMF), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), regionlarda fəaliyyət göstərən Biznes Tədris Mərkəzləri və digər əlaqədar təşkilatlar daxildir. Bu qurumlar sahibkarlığın hüquqi, maliyyə və təlim-tədris baxımından dəstəklənməsi istiqamətində mühüm fəaliyyət göstərməkdədir.

Azərbaycanda dövlət tərəfindən sahibkarlığın maliyyə dəstəyi ilə təmin olunması sahəsində ilk institusional mexanizm 1992-ci il 12 oktyabr tarixli Prezident Fərmanı ilə təsis edilən və dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditlər verən Sahibkarlığa Kömək Milli Fondunun yaradılması olmuşdur. Bu fondun fəaliyyət

məqsədləri sırasında innovativ texnologiyalara əsaslanan istehsal və emal müəssisələrinin təşkili, infrastrukturların inkişafı, idxalı əvəz edən və ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, həmçinin özəl sektorun iqtisadiyyatda payının artırılması əsas yer tutur.

2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 31 iyul tarixli Fərmanına əsasən, SKMF-in bazasında İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən yeni institut – Sahibkarlığın İnkişafı Fondu (SİF) publik hüquqi şəxs kimi yaradılmışdır. Bu strukturun yaradılması ilə dövlət dəstəyinin məqsədyönlü və səmərəli tətbiqi gücləndirilmiş, kredit mexanizmlərinin daha çevik və uyğunlaşdırılmış formaları tətbiq edilməyə başlanmışdır. Xüsusilə qeyd olunmalıdır ki, güzəştli kreditlərin illik faiz dərəcəsi 6%-dən 5%-ə endirilmiş, kredit hədləri isə orta sahibkarlıq subyektlərinin tələblərinə uyğun şəkildə 50 001 manatdan 10 milyon manata qədər artırılmışdır [13].

SİF-in vəsaitləri dövlətin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun istiqamətləndirilir. Güzəştli kreditlər sahibkarlığın müxtəlif sahələrinin inkişafına, xüsusilə də regionlarda KOS subyektlərinin təşviqinə və yeni iş yerlərinin yaradılmasına yönəldilir. Bu mexanizmlər təkcə sahibkarlığın genişlənməsinə deyil, həm də iqtisadiyyatın struktur cəhətdən sağlam və davamlı inkişafına xidmət edir. Son on üç ildə Fond tərəfindən verilmiş kreditlərin dinamikası və struktur tərkibi göstərir ki, dövlət dəstəyi sahibkarlığın inkişafı üçün mühüm dayaq mexanizmi olmuşdur.




**Şəkil 4.3.1 SIF tərəfindən verilmiş güzəştli kreditlərin dinamikası. mln.man.**

Mənbə: SIF https://edf.gov.az/az/kredit/guzestli əsasında müəllif tərtibatı

Şəkil 4.3.1-dən göründüyü kimi, 2014-cü ilədək verilən güzəştli kreditlərdə ilbəil artan dinamika müşahidə olunurdu. 2014-cü ildən sonra isə bu kreditlərin həcmi azalmağa başlamışdır. 2022-ci ildə verilmiş güzəştli kreditin həcmi 2014-cü ilə nisbətən 2 dəfə azalmış, ancaq 2023-cü ildə əvvəlki ildən 33% artmışdır. Nəzərə alsaq ki, 2015 ildə milli valyutanın iki dəfə devalvasiyası baş vermişdir, onda bu rəqəm daha da azalmış hesab edilir. Belə ki, 2014-cü ildə 1 dollar 0,79 manat, 2015-ci ildən sonra isə 1 dollar 1,70 manat olmuşdur. Xarici valyuta hesabı ilə müqayisə etsək 2020-ci ildə verilmiş güzəştli kredit 2014-cü ilə nisbətən 4,3 dəfə azalmışdır.

Buna baxmayaraq, son 13 ildə 2,6 mld. manata qədər güzəştli kredit verilmişdir. Ümumiyyətlə Fond fəaliyyət göstərdiyi bütün illər ərzində 51,7 min sahibkarların layihələrini maliyyələşdirmişdir. Həmin layihələrin ümumi dəyəri 6,7 mld. manatdır ki, onun da 45%-i, yəni 3,3 mld. manatı güzəştli kredit hesabına olmuşdur. [22]

Ölkədə kiçik və orta biznesin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyən, KOB subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir və İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Agentliyin Müşahidə Şurasının sədri Azərbaycanın Iqtisadiyyat naziridir [14].

KOBİA-nın missiyası kiçik və orta biznesin tənzimlənməsi sisteminin səmərəliliyinin artırılması, çoxsaylı dəstək mexanizmləri və onlara sahibkarların rahat çıxışının təmin edilməsi, KOB sektorunun davamlı inkişafına nail olmaq və onun ölkə iqtisadiyyatındakı rolunun artırılmasından ibarətdir. Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə kiçik və orta biznesin iqtisadi inkişafda rolunun, ÜDM-də və məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsi, KOB subyektlərinin maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, gündəlik istehlak malları ilə təminatın əsasən KOB subyektləri vasitəsilə həyata keçirilməsi, KOB-ların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi strateji hədəflərdir. [14]

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına əsasən ölkədə sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2023-cü ildə ümumi sahibkarlıq subyektlərinin sayı 1393204 olub. Onların 13%-i (178637) hüquqi şəxslərin, 87%-i (1214567) fərdi sahibkarların payına düşür. Əvvəlki il ilə müqayisədə ümumi sahibkarlıq subyektlərinin sayı 3%, o cümlədən, hüquqi şəxslər 1%, fərdi sahibkarlar isə 2% artmışlar. 2023-cü il ərzində 904 kiçik

sahibkarlıq, 20773 mikro sahibkarlıq subyektləri qeydiyyata alınmışdır [23].

Azərbaycan Respublikası Prezidentinin «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» 2004-cü il 23 oktyabr tarixli, 467 nömrəli Sərəncamına [36] əsasən aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini təmin edən icra hakimiyyəti orqanı - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi yaradılmışdır. Agentliyin əsas missiyası: *aqrar inkişaf layihələrinin kreditləşdirilməsini və idarə edilməsini həyata keçirmək; aqrar sahədə dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsində iştirak; aqrar sahədə innovativ metodları və qabaqcıl təcrübəni təşviq etmək, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi üçün müvəkkil banklar, bank olmayan kredit təşkilatları və lizinq təşkilatları vasitəsilə kreditlər vermək; aqrar sahədə dövlət-özəl tərəfdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin etməkdir* [15].

Bundan əlavə, 2003-cü ildə ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi öncül məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təsis edilmişdir. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir [37].

Ölkədə sahibkarlığın inkişafında Azərbaycan Prezidentinin “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamı da böyük əhəmiyyət kəsb edir [38].

Azərbaycanda sahibkarlığın iqtisadi sistemdə rolu və çəkisi son onilliklər ərzində nəzərəçarpacaq dərəcədə artmış və bu artım hazırda da davam etməkdədir. Dövlət tərəfindən qəbul edilən iqtisadi islahatlar, institusional yeniliklər və hüquqi-normativ bazanın təkmilləşdirilməsi nəticəsində sahibkarlığın inkişafı üçün əlverişli mühit formalaşmağa başlamışdır. Bu mühitin davamlı şəkildə təkmilləşdirilməsi prosesi müasir bazar iqtisadiyyatının tələblərinə və beynəlxalq çağırışlara uyğunlaşdırılmışdır.

Xüsusilə vurğulanmalıdır ki, 2003–2023-cü illər ərzində sahibkarlıq sahəsində müşahidə olunan dinamik artım bu istiqamətdə aparılan siyasətin nəticələrinin miqyasını və səmərəliliyini açıq şəkildə nümayiş etdirir. Belə ki, bu dövrdə sahibkarlıq subyektlərinin sayı təxminən beş dəfə artmışdır. Ölkə iqtisadiyyatında özəl sektorun çəkisi ümumi daxili məhsulun (ÜDM) strukturunda 86,5%-ə, məşğul əhalinin ümumi sayındakı payı isə 77%-ə çatmışdır. Bu göstəricilər həm makroiqtisadi baxımdan, həm də sosial rifah kontekstində sahibkarlığın rolunun artdığını və dayanıqlı iqtisadi artımın təmin edilməsində əvəzolunmaz bir qüvvəyə çevrildiyini təsdiqləyir.

*"Aydındır ki, nisbətən kiçik məbləğdə verilən kreditlərin bir neçə istiqamətlər üzrə bölüşdürülməsi əlverişli nəticələr verməyə bilər. Bununla yanaşı, kənd təsərrüfatına maliyyə yardımı sahəsində imkanların artırılması perspektivlərinin özlüyündə, həmin variantdan istifadə məsələsinin aktuallığını artıracağı da göz önünə alınmamıldır"* [63, s.191].

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən dövlət dəstəyi tədbirləri müəyyən müsbət nəticələr versə də, bu sahədə hələ də ciddi institusional və maliyyə çətinlikləri qalmaqdadır. Xüsusilə qeyd olunmalıdır ki, dövlət büdcəsi və müvafiq institutlar vasitəsilə ayrılan güzəştli

kreditlərin həcmi sahibkarlıq subyektlərinin real maliyyə ehtiyacları ilə adekvat səviyyədə uzlaşmır. Bu vəziyyət, xüsusilə regionlarda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların istehsal və innovasiya yönümlü layihələrini genişləndirməsini çətinləşdirir. Digər tərəfdən, kommersiya banklarının yüksək faizli, qısa müddətli və əsasən istehlak məqsədli kreditləşməyə üstünlük verməsi də real sektorun maliyyə resurslarına çıxışını məhdudlaşdıran əsas amillərdən biridir.

Sahibkarlıq mühitinin daha da təkmilləşdirilməsinə maneə yaradan digər ciddi faktor isə məmur sahibkarlığı fenomenidir. İnzibati resurslara çıxış imkanlarına malik olan bəzi dövlət vəzifəlilərinin birbaşa və ya dolayı yolla biznes fəaliyyətində iştirakı, azad və ədalətli rəqabət mühitini təhrif edir, bazar münasibətlərində disbalansa səbəb olur. Halbuki "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən dövlət qulluqçularının sahibkarlıq fəaliyyəti ilə məşğul olması qəti qadağan edilmişdir. Bu qadağa, sadəcə formal hüquqi tələbat deyil, həm də rəqabətli bazar münasibətlərinin qorunması və iqtisadi ədalətin təmin olunması baxımından zəruridir. Dövlət məmurunun sahibkarlıq fəaliyyəti ilə məşğul olması həm inzibati resurslardan sui-istifadə ehtimalını artırır, həm də digər sahibkarlıq subyektlərinin bazara daxilolma imkanlarını məhdudlaşdırır.

Bu baxımdan, məmur sahibkarlığı fenomeni ölkədə mövcud olan inhisarçılıq və haqsız rəqabət mühitinin əsas səbəblərindən biri kimi qiymətləndirilməlidir. Rəqabət mühitinin pozulması nəticəsində kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf imkanları azalır, iqtisadiyyatın diversifikasiyası prosesi zəifləyir, innovasiya təşəbbüslərinin reallaşdırılması ləngiyir.

Bütün bu çətinliklər fonunda, illərdir müzakirə olunan və nəhayət, 2023-cü ilin dekabr ayında qəbul edilən, 2024-cü ilin iyul ayında isə qüvvəyə minən “Rəqabət Məcəlləsi” mühüm bir mərhələ kimi qiymətləndirilməlidir. Sözügedən Məcəllə yalnız məmur sahibkarlığı və inhisarçılıqla mübarizə baxımından deyil, həm də ümumilikdə ölkədə azad rəqabət mühitinin formalaşdırılması və iqtisadi fəaliyyətin şəffaf qaydalar əsasında tənzimlənməsi baxımından strateji əhəmiyyətə malikdir. Onun effektiv tətbiqi nəticəsində haqsız rəqabətə qarşı inzibati-hüquqi müdaxilə imkanlarının artacağı və sahibkarlıq fəaliyyətinin daha səmərəli şəkildə təşviq ediləcəyi gözlənilir.

Qeyd etməliyik ki, iqtisadiyyatın elə sahələri var ki, rəqabəti saxlamaq məqsədəuyğun sayılmır. Bu cür sahələr təbii inhisarlar sayılırlar. “*Təbii inhisar məhsul bazarının elə vəziyyətidir ki, bu bazarda tələbatın ödənilməsi istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə daha səmərəli olur. Təbii inhisar subyektlərinin istehsal etdiyi mallar istehlakda başqa əmtəələrlə əvəz edilə bilməz”* [124, s.15].

Təbii inhisaçılığın tənzimlənməsi ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Bu məqsədlə də təbii inhisarçılığın tənzimlənməsi ilə əlaqədar müvafiq hüquqi bazalar yaradılmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 avqust 1996-cı il tarixli 109 saylı qərarı ilə “Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında” Əsasnamə təsdiq olunmuşdur. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi təbii inhisarların fəaliyyətlərini tənzimlənməsini həyata keçirən dövlət strukturlarıdır [40].

Aqroemal məhsullarının rəqabətqabiliyyətliyinin ilkin qiymətləndirilməsi üçün bir sıra əsas meyarların kompleks şəkildə

nəzərə alınması zəruridir. Bu meyarlar içərisində məhsulun funksional təyinatı, keyfiyyət səviyyəsi və bazarda formalaşmış qiyməti əsas göstəricilər kimi çıxış edir. Qeyd olunan bu parametrlər məhsulun bazarda hansı mövqedə dayandığını və rəqiblərlə müqayisədə hansı üstünlüklərə malik olduğunu ilkin səviyyədə müəyyən etməyə imkan verir.

Məhsulun funksional təyinatı onun hansı ehtiyacların ödənilməsinə xidmət etdiyini və hansı istehlakçı seqmentinə yönəldiyini aydınlaşdırır. Bu kontekstdə məhsulun hədəf auditoriyası, alıcıların davranış modelləri və onların konkret gözləntiləri strateji əhəmiyyət kəsb edir. Beləliklə, istehsal olunan məhsulun konkret ehtiyaclara uyğunluq dərəcəsi onun bazarda möhkəmlənmə imkanlarını müəyyənləşdirən ilkin faktordur.

Keyfiyyət məsələsi isə rəqabətqabiliyyətliliyin strukturunda həlledici rol oynayır. İSO-9000 standartına əsasən, məhsulun keyfiyyəti onun əvvəlcədən nəzərdə tutulmuş istehlak xüsusiyyətlərinə uyğunluq səviyyəsi ilə ölçülür. Müasir dövrdə məhsulun texniki göstəricilərindən əlavə olaraq onun təhlükəsizlik, davamlılıq, istifadə rahatlığı, dizayn və erqonomikası kimi qeyri-maddi komponentləri də keyfiyyət dəyərləndirməsinin əhatə dairəsinə daxildir. Bu baxımdan, məhsulun beynəlxalq standartlara uyğunluğu onun yalnız daxili bazarda deyil, ixrac bazarlarında da rəqabətə davam gətirməsinə şərait yaradır.

Qiymət faktoru isə məhsulun bazarda qəbul edilən dəyərinin pul ekvivalentində ifadəsi kimi çıxış edir. Bazar iqtisadiyyatı şəraitində qiymət təklif və tələbin qarşılıqlı təsiri ilə formalaşır və bu prosesin arxasında rəqabət mühərriki dayanır. Qiymət yalnız məhsulun əlçatanlığını deyil, həm də istehsalçının bazarda strateji mövqeyini müəyyənləşdirir. Aşağı maya dəyəri və səmərəli istehsal

prosesi ilə əldə edilən rəqabətcil qiymət siyasəti müəssisələr üçün mühüm üstünlük yaradır.

Bazarın tələblərinə uyğun məhsul buraxmaq yalnız texniki göstəricilərlə məhdudlaşmamalı, eyni zamanda satış və distribusiya kanallarının düzgün seçimi, effektiv reklam strategiyası və istehlakçının davranışına adaptasiya imkanlarını da əhatə etməlidir. Bu isə məhsulun rəqabət qabiliyyətinin formalaşdırılmasında kompleks və çevik yanaşmanın vacibliyini ortaya qoyur.

Aydın olur ki, rəqabətqabiliyyətlilik sadəcə məhsulun hazır vəziyyətinə deyil, onun yaradılması və bazara çıxarılması ilə bağlı bütün mərhələlərə təsir edən faktorların sistemli idarə edilməsini tələb edir. Bu çərçivədə innovasiyaların tətbiqi, texnoloji modernizasiya və istehsal proseslərinin təkmilləşdirilməsi rəqabət üstünlüklərinin qorunmasında mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda müasir bazar mexanizmlərinin formalaşma mərhələsində dövlətin iqtisadi siyasəti çərçivəsində rəqabət mühitinin təşviqi və qorunması xüsusi aktuallıq kəsb edir. Ədalətli və səmərəli rəqabət mühiti olmadan innovativ iqtisadi modelə keçid və beynəlxalq bazarlarda mövqelərin möhkəmləndirilməsi mümkün deyil.

Nəticə etibarilə, aqroemal məhsullarının rəqabətqabiliyyətliliyinin təmin olunması yalnız məhsulun fərdi xüsusiyyətlərinə deyil, eyni zamanda makroiqtisadi siyasətin düzgün istiqamətləndirilməsinə, dövlətin tənzimləyici funksiyalarının effektivliyinə və sahibkarlıq mühitinin liberallaşdırılmasına birbaşa bağlıdır.

## 4.4. Aqroemal sahəsində idarəetmənin səmərəliliyi və strateji modernləşmə

Müasir şəraitdə aqroemal sənayesi Azərbaycanın aqrar-sənaye kompleksində aparıcı mövqe tutmaqla, həm kənd təsərrüfatı məhsullarının dəyər zəncirinə daxil edilməsində, həm də emal olunmuş məhsulların istehlak bazarına yönləndirilməsində strateji əhəmiyyət daşıyır. Bu sahə eyni zamanda yüngül sənaye, tekstil, yeyinti və digər sahələrin xammalla təminatında mühüm rol oynamaqla yanaşı, əhalinin qida təhlükəsizliyinin təmin edilməsində də həlledici amillərdən biri kimi çıxış edir. Aqroemal sektorunun funksional rolu yalnız iqtisadi aspektlərlə məhdudlaşmır, həm də milli təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin təminatında və ölkənin siyasi-iqtisadi sabitliyinin qorunmasında da mühüm yer tutur.

Bu baxımdan, aqroemal müəssisələrinin səmərəli idarə olunması və inkişafının təmin edilməsi üçün müasir idarəetmə texnologiyalarına və strateji yanaşmalara ehtiyac vardır. Xüsusilə layihə və proses əsaslı idarəetmə mexanizmlərinin tətbiqi bu sahənin strukturlaşması və çevik fəaliyyət göstərə bilməsi üçün zəruri hesab olunur. Layihə yanaşması, məhdud zaman çərçivəsində konkret məqsəd və nəticələrə yönələn fəaliyyətlərin məcmusu kimi, aqroemal müəssisələrinin innovativ təşəbbüslərinin reallaşdırılmasında mühüm alətə çevrilə bilər. Digər tərəfdən, proses yanaşması müəssisənin davamlı fəaliyyətini və dövri nəticələrin əldə olunmasını təmin edən sistemli və ardıcıl idarəetmə modelidir.

Proses yanaşmasının əsas elementləri – planlaşdırma, təşkiletmə, icra, nəzarət və marketinq – aqroemal müəssisələrinin səmərəli işləməsi və istehlak bazarında rəqabət üstünlüyü əldə etməsi üçün mühüm çərçivə yaradır. Bu çərçivə daxilində idarəetmə funksiyalarının dəqiq bölüşdürülməsi, resurslardan optimal istifadə və nəticələrin qiymətləndirilməsi imkanları yaranır.

Azərbaycanın aqroemal sektorunda daxili bazarın tələblərinə cavab verə bilən məhsulların istehsal imkanları geniş olsa da, idxaldan asılılıq, texnoloji gerilik və regionlar üzrə qeyri-bərabər inkişaf kimi problemlər bu imkanlardan tam istifadəni məhdudlaşdırır. Bu səbəbdən, aqroemal sənayesinin dövlət səviyyəsində tənzimlənməsi və dəstəklənməsi strateji zərurət kimi qəbul edilməlidir. Təbii-iqlim şəraitinin və regionlar üzrə istehsal strukturunun müxtəlifliyi, xammal bazalarının mövcudluğu və müəssisələrin bazardakı mövqeləri nəzərə alınmaqla, differensiallaşdırılmış və hədəfə yönəlmiş idarəetmə strategiyalarının hazırlanması vacibdir.

Aqroemal sahəsində idarəetmə səmərəliliyinin artırılması yalnız texniki və maliyyə resurslarının optimallaşdırılması ilə deyil, həm də müasir layihə və proses yanaşmalarının tətbiqi vasitəsilə mümkün olacaqdır. Belə yanaşmaların reallaşdırılması bu sahənin modernləşdirilməsinə, daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyin yüksəldilməsinə, nəticə etibarilə isə ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edir.

Buna görə də aqroemal sahəsinin dövlət tənzimlənməsi metodlarının müxtəlifliyini aşağıdakı kimi qruplaşdırmaq, fikrimizcə, daha uyğundur.

Aqroemal sektorunun institusional təşkili və iqtisadi dayanıqlığının təmin olunması məqsədilə tətbiq olunan dövlət tənzimlənməsi alətləri bir neçə əsas istiqamətdə sistemləşdirilə bilər.




**Şəkil 4.3.1 Aqroemal sahəsində müəssisələrin tənzimlənmə metodları**

Mənbə: müəllifin tərtibatı

Şəkil 4.3.1-də əks olunan metodoloji yanaşmaya əsasən, tənzimləyici tədbirlər üç əsas funksional qrupa ayrılır: qoruyucu, dəstəkləyici və həvəsləndirici metodlar. Bu yanaşma aqroemal təsərrüfat subyektlərinin maraqlarının dövlət səviyyəsində balanslaşdırılmasını və sahənin kompleks inkişafını hədəfləyir.

Qoruyucu tənzimlənmə üsulları həm inzibati, həm də iqtisadi alətlərlə həyata keçirilir və üç əsas altqrupa bölünür: birincisi, birbaşa aqroemal müəssisələrinin maraqlarını müdafiə edən tədbirlər; ikincisi, xammal bazasının formalaşmasında həlledici rol oynayan, xüsusilə kənd təsərrüfatı kimi sahələrin müdafiəsinə

yönəlmiş yanaşmalar; üçüncüsü isə istehlakçıların maraqlarının qorunmasına yönəlmiş mexanizmlərdən ibarətdir. Bu yanaşma həm daxili istehsalın davamlılığını təmin etmək, həm də bazar münasibətlərində balans yaratmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Dəstəkləyici metodlar daha çox aqroemal müəssisələrinin mövcud bazar şəraitinə uyğunlaşdırılmasına, onların rəqabət mövqelərinin qorunmasına və fəaliyyətinin stabilləşdirilməsinə xidmət edir. Bu metodlar vasitəsilə müəssisələrin struktur sabitliyi və istehsal davamlılığı təmin olunmağa çalışılır.

Həvəsləndirici metodlar isə dövlət müdaxiləsinin ən çevik və dinamik forması olmaqla, həm bilavasitə (birbaşa), həm də dolayı vasitələrlə tətbiq olunur. Bu tədbirlər vasitəsilə aqroemal subyektlərinin iqtisadi təşəbbüskarlığı stimullaşdırılır, resurs potensialından daha effektiv istifadə təşviq edilir, korporativ formaların çevik seçimi və bazar iştirakçılarının inteqrasiyası dəstəklənir.

Tədqiqat nəticəsində aparılan təhlillər göstərir ki, Azərbaycanda aqroemal sektorunun dövlət tərəfindən tənzimlənməsində qoruyucu metodların tətbiqi kifayət qədər zəifdir. Bu səbəbdən daxili istehsal subyektləri, xüsusilə də ayaqqabı, xalça, geyim və trikotaj məhsulları, şəkər xammalı və ərzaqlıq buğda istehsalı sahələrində xarici rəqiblərin ciddi təzyiqi ilə üz-üzə qalırlar. Bu hallarda yerli istehsalçıların bazar mövqeləri ciddi şəkildə zəifləyir və onların müdafiəsinə yönəlmiş siyasət tədbirləri demək olar ki, yoxdur.

Hazırkı mərhələdə dövlətin əsas səyləri məhz qoruyucu tədbirlərin institusional gücləndirilməsinə və xarici təsirlərin neytrallaşdırılmasına yönəlməlidir. Əks təqdirdə, daxili bazarda yerli istehsalçıların ayaqda qalması daha da çətinləşəcəkdir. Digər

tərəfdən, mövcud dəstəkləyici və həvəsləndirici tədbirlərin qeyri-kafi olması nəticəsində, aqroemal müəssisələrinin əksəriyyəti uzunmüddətli inkişaf perspektivlərindən məhrum qalaraq bazar riskləri qarşısında tək buraxılmışdır.

Xüsusilə, ayaqqabı sənayesi kimi demək olar ki, tamamilə idxaldan asılı vəziyyətə düşmüş sahələrdə dövlətin stimullaşdırıcı və qoruyucu müdaxiləsinə təcili ehtiyac mövcuddur.

Aparılmış təhlillər göstərir ki, Azərbaycanda heyvandarlıq məhsullarının istehsalı ilə bağlı formalaşan resurs potensialından tam istifadə olunmur. Belə ki, 2023-cü ildə respublika üzrə ət və ət məhsullarının istehsalı və satışı məqsədilə 1006,5 min baş iribuynuzlu və 4,0 milyon baş xırdabuynuzlu heyvan kəsilmişdir. Bu göstəricilərdən çıxış etsək, müvafiq olaraq eyni sayda dəri istehsal potensialı formalaşmalı idi. Lakin faktiki mənzərə tamamilə fərqlidir. Belə ki, iribuynuzlu heyvan dərilərinin yalnız 35%-i, xırdabuynuzlu heyvan dərilərinin isə cəmi 16%-i emal müəssisələrinə təqdim edilərək texnoloji dövriyyəyə daxil olur. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, kəsilmiş qoyun və quzuların cəmi 54%-i rəsmi statistikada əks olunur. Bu isə o deməkdir ki, xırdabuynuzlu heyvan dərilərinin təxminən 46%-i (1,7 milyon ədəd) ya fərdi istifadəyə yönəlir, ya atılır, ya da ümumiyyətlə sənədləşdirilmir və qeyri-rəsmi dövriyyədə itirilir.

Digər tərəfdən, emala cəlb edilən dərilərin əksəriyyəti ölkədən ixrac olunur. Son beş ilin statistikası göstərir ki, gön-dəri ixracından illik orta hesabla 11 milyon ABŞ dolları həcmində valyuta daxil olur. Halbuki, eyni dövrdə ayaqqabı idxalına görə ölkədən orta hesabla 73 milyon dollar valyuta çıxışı baş verir. Bu disbalans yerli dəri emalının və ayaqqabı sənayesinin inkişaf etdirilməsi üçün ciddi potensialın olduğunu, lakin həmin

potensialdan kifayət qədər səmərəli istifadə edilmədiyini təsdiqləyir.

Bunun qarşısını almaq və yerli istehsalın inkişafını stimullaşdırmaq məqsədilə bir sıra institusional və iqtisadi mexanizmlərin tətbiqi zəruridir. İlk növbədə müasir texnologiyalarla təchiz olunmuş dəri emalı müəssisələrinin yaradılması və sayının artırılması təmin edilməlidir. Bu məqsədlə güzəştli kreditlər, vergi tətilləri, investisiya qrantları və digər həvəsləndirici alətlərin tətbiqi məqsədəuyğundur. Eyni zamanda, kəsilmiş heyvan dərilərinin emal müəssisələrinə təhvil verilməsi üçün subsidiyaların tətbiqi, itkilərin qarşısını almaqda və qeyri-rəsmi dövriyyənin leqallaşdırılmasında mühüm rol oynaya bilər.

Bununla yanaşı, ölkəyə idxal olunan keyfiyyətsiz və ucuz ayaqqabı məhsullarının bazarda dominantlığı gömrük tənzimləmələri vasitəsilə məhdudlaşdırılmalıdır. Məsələn, son illərdə İran İslam Respublikasından idxal olunan ayaqqabıların hər cütünə orta hesabla 0,60 ABŞ dolları (1,02 manat) ödənilmiş, bu ölkədən illik 10–11 milyon cüt ayaqqabı idxal olunmuşdur. Bu həcmlər daxili bazar tələbatının təxminən 35%-ni təşkil edir və həmin məhsulların bazarda üstünlük qazanmasına səbəb olur. Belə bir qiymət və həcmlə rəqabət aparmaq yerli istehsalçılar üçün ciddi çətinliklər yaradır. Bu baxımdan, hökumətin bazarın qorunmasına yönəlmiş tənzimləyici tədbirlər görməsi və yerli məhsullar üçün üstünlük şəraitinin yaradılması zəruridir.

Nəhayət, müasir innovativ texnologiyalara əsaslanan ayaqqabı fabriklərinin qurulması istiqamətində dövlət tərəfindən həyata keçiriləcək investisiya təşviqləri və institusional dəstək bu sahənin dirçəldilməsinə ciddi təkan verə bilər. Hökumət, xüsusilə böhran vəziyyətində olan ayaqqabı sənayesinin inkişaf etdirilməsi üçün kompleks tədbirlər həyata keçirməli, kəsilmiş heyvan

dərilərinin tam şəkildə emala cəlb olunması və yerli bazarda yerli məhsulların payının artırılması istiqamətində davamlı iqtisadi siyasət yürütməlidir.

Bu tənzimləmələrin reallaşması halında, ölkədən ayaqqabı idxalına yönələn valyutanın mühüm hissəsi ölkə daxilində qalmaqla yanaşı, yerli istehsalın ixrac potensialı da formalaşa bilər ki, bu da ölkənin ümumi iqtisadi təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda xalçaçılıq sənayesi milli mədəniyyətin və iqtisadi potensialın mühüm komponentlərindən biri olsa da, hazırda bu sahənin inkişafı arzuolunan səviyyədə deyil və dərin struktur böhranı ilə üz-üzədir. Son illərdə dövlətin təşəbbüsü ilə ölkənin müxtəlif regionlarında 21 yeni xalça fabriki istifadəyə verilsə də, yerli bazarda rəqabət üstünlüyü əsasən Çin, Türkiyə və İran kimi ölkələrdən gətirilən ucuz və fabrik üsulu ilə istehsal olunmuş məhsulların əlində cəmlənmişdir. Nəticə etibarilə, yerli istehsalçılar bazarda yetərincə pay qazana bilmirlər. Bu isə, bir tərəfdən, yerli məhsulun əl əməyinə əsaslanan yüksək maya dəyəri ilə, digər tərəfdən isə istehsal gücünün məhdudluğu ilə əlaqədardır.

2023-cü ilin sonuna olan məlumata əsasən, ölkədə 7,1 milyon baş qoyun-keçi mövcud olmuşdur ki, bu da xalçaçılıq üçün əsas xammal olan yunun mənbəyi baxımından əhəmiyyətli resurs bazası deməkdir. Həmin il üzrə 15,1 min ton yun istehsal olunmuşdur. Lakin təəssüflə qeyd edilməlidir ki, bu resursun xalçaçılıq sənayesində emalı və səmərəli istifadəsi olduqca məhdud xarakter daşıyır. Xüsusilə, mövcud potensialın istehsal zəncirinə daxil edilməməsi həm xammal itkisinə, həm də əlavə dəyər yaratmaq imkanlarının reallaşmamasına səbəb olur.

Xalçaçılıq sənayesinin bugünkü durğunluğunun başlıca səbəblərindən biri istehsalda müasir texnologiyaların geniş tətbiq

olunmamasıdır. Hazırda ölkədə fabrik üsulu ilə xalça istehsal edən müəssisələrin sayı son dərəcə məhduddur və yalnız bir müəssisə bu üsulla fəaliyyət göstərir. Əl əməyi ilə toxunan xalçaların isə yüksək əməyə əsaslanan strukturu onların maya dəyərini artırır və bu səbəbdən xarici, fabrik üsullu məhsullarla qiymət rəqabətinə davam gətirə bilmirlər.

Digər mühüm amil xammal strukturundakı problemlərlə bağlıdır. Ölkədə sürü tərkibində qaba yunlu qoyun cinslərinin üstünlük təşkil etməsi xalçaçılıq və tekstil sənayesinin tələblərinə cavab verən zərif yunlu (merinos və s.) cinslərin yayılmasını məhdudlaşdırır. Nəticədə, həm keyfiyyətli yun istehsalı, həm də bu xammal əsasında rəqabətqabiliyyətli məhsul istehsalı prosesi əngəllənir.

Bu çətinliklərin aradan qaldırılması üçün dövlətin müdaxilə mexanizmləri çərçivəsində stimullaşdırıcı və dəstəkləyici tədbirlərin həyata keçirilməsi zəruridir. Xüsusilə zərif yunlu qoyunçuluq təsərrüfatlarının yaradılması üçün güzəştli şərtlərlə subsidiyaların ayrılması, seleksiya proqramlarının təşviqi və istehsal olunan məhsulların satışında dövlət zəmanətlərinin təmin edilməsi bu sahədə dönüş nöqtəsi yarada bilər. Belə tənzimləyici müdaxilələr, həm milli xalçaçılıq ənənələrinin qorunub saxlanmasına, həm də rəqabətqabiliyyətli və ixracyönlü məhsul istehsalının genişlənməsinə xidmət edə bilər.

Azərbaycanda yüngül sənaye sektoru, xüsusilə də geyim və trikotaj sənayesi, 1990-cı illərin əvvəlindən etibarən davam edən dərin iqtisadi böhrandan hələ də tam qurtula bilməmişdir. Bu sektorun inkişaf perspektivləri baxımından mövcud potensial geniş olsa da, real göstəricilər ölkənin hələ də yüngül sənaye məhsulları üzrə ciddi şəkildə idxaldan asılı olduğunu ortaya qoyur. Belə ki, 2023-cü ildə ölkə 157 milyon ABŞ dolları dəyərində xam pambıq

ixrac etmiş, eyni zamanda isə geyim, tekstil və digər yüngül sənaye məhsullarının idxalına, təxminən, 500 milyon dollar sərf etmişdir. Bu disbalans struktur baxımından sektorun zəifliyini və yerli istehsal imkanlarının səmərəli istifadə olunmamasını təsdiqləyir.

Yerli istehsalın inkişafı üçün nəzərəçarpacaq xammal bazası mövcuddur. 2023-cü ildə 276 min ton pambıq və 15,1 min ton yun istehsal olunmuşdur. Yun sektorundakı problemlər yuxarıda geniş təhlil olunmuşdur. Pambıq isə əsasən emal olunmadan, xam şəkildə ixrac olunur. Halbuki bu resursların daxili istehsala yönəldilməsi, hazır məhsul istehsalını artırmaqla yanaşı, idxaldan asılılığı azaltmaq və əlavə dəyər zəncirini ölkə daxilində formalaşdırmaq üçün mühüm imkanlar açar. Bu isə həm yeni iş yerlərinin yaradılması, həm də ixracın strukturunun xammaldan hazır məhsula transformasiyası baxımından strateji əhəmiyyət kəsb edir.

Lakin bu imkanların reallaşması üçün dövlətin məqsədyönlü və koordinasiyalı siyasətinə ehtiyac vardır. Xüsusilə yerli və xarici investorlar üçün güzəştli kreditlər, vergi təşviqləri və risk paylaşımı modelləri çərçivəsində stimullaşdırıcı mexanizmlər tətbiq olunmalı, eyni zamanda gömrük siyasəti yerli istehsalın lehinə tənzimlənməlidir. Bu sahənin ixtisaslı kadrlarla təmin edilməsi də paralel olaraq nəzərdə tutulmalıdır.

Digər tərəfdən, Azərbaycanda şəkər sənayesi də xammal təminatı baxımından ciddi asılılıqla üz-üzədir. 2006-cı ildən fəaliyyət göstərən İmişli şəkər zavodunun əsas xammal mənbəyi hələ də idxal hesab olunur. Müvafiq olaraq, 2015-ci ildə şəkər xammalının 95%-i, 2020-ci ildə 87%-i, 2023-cü ildə isə 59%-i xarici mənbələrdən gətirilmişdir. Göründüyü kimi, bu asılılıq azalsa da, hələ də strateji əhəmiyyətə malik bir sektorda dayanıqlı daxili təminat sistemi formalaşmayıb.

Zavodun tam istehsal gücü ilə işləməsi üçün illik təxminən 300-350 min ton şəkər çuğunduru xammalı tələb olunur. Halbuki, son beş ilin göstəricilərinə əsasən, bu rəqəm cəmi 20 min ton civarındadır. 2023-cü ildə cəmi 4,5 min hektar sahədə şəkər çuğunduru əkilmişdir. Bu sahənin genişləndirilməsi üçün ölkədə torpaq ehtiyatları mövcuddur, lakin əsas maneə suvarma infrastrukturunun yetərsizliyidir. Şəkər çuğunduru suya yüksək tələbat göstərən bitki olduğu üçün meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi məhsuldarlığın artırılmasında həlledici rol oynayır.

Bundan başqa, texniki təminatın zəifliyi, xüsusilə çuğunduryığan kombaynların çatışmazlığı, əkin və yığım proseslərinin əl əməyinə əsaslanmasına səbəb olur ki, bu da həm maya dəyərini artırır, həm də fermerlərin iqtisadi maraqlarını azaldır.

Bu sahədə dönüş yaratmaq üçün dövlət tərəfindən kompleks dəstək proqramları hazırlanmalı və həyata keçirilməlidir. Əkin sahələrinin artırılması ilə yanaşı, məhsulun zavod tərəfindən alış qiymətinə yenidən baxılmalı, fermerlərə subsidiya mexanizmləri tətbiq edilməli və texnika ilə təminat gücləndirilməlidir. Əgər bu istiqamətdə təsirli tədbirlər görülərsə, hazırda şəkər xammalının idxalına sərf olunan illik 200 milyon dollara yaxın valyutanın əhəmiyyətli hissəsi ölkə daxilində qalacaq, daxili istehsalın artımı və ixracyönlü məhsulların istehsalı üçün münbit zəmin yaranacaqdır.

Azərbaycanda unüyütmə sənayesi də digər strateji sahələr kimi xammal təminatında ciddi idxal asılılığı ilə xarakterizə olunur. Belə ki, son illərin göstəricilərinə əsasən, ölkədə istehsal olunan unun təxminən 75–85 faizi xaricdən, əsasən Rusiya, Qazaxıstan və Ukraynadan idxal edilən ərzaqlıq buğda hesabına təmin olunur.

Halbuki ölkədə hər il orta hesabla 2 milyon ton buğda istehsal edilir. Lakin yerli buğda sortlarının çörəkbişirmə üçün zəruri texnoloji və keyfiyyət göstəricilərinə cavab verməməsi onun un istehsalında istifadə imkanlarını məhdudlaşdırır. Bu səbəbdən yerli istehsal olunan buğdanın əsas hissəsi heyvandarlıq və quşçuluq sahəsində yem məqsədilə istifadə olunur.

İstehsal strukturunun belə formalaşmasında digər mühüm amil də texnoloji məhdudiyyətlərlə bağlıdır. Belə ki, daxili istehsalda yetişdirilən bərk buğda sortları mövcud dəyirman avadanlıqları üçün uyğun hesab edilmir. Bu növ buğdaların üyüdülməsi zamanı avadanlıqlarda nasazlıqlar yarandığı üçün dəyirmanlar əsas etibarilə yumşaq buğda sortlarının idxalına üstünlük verirlər. Nəticədə, yerli buğda istehsalının miqdar baxımından qənaətbəxş olmasına baxmayaraq, ərzaqlıq məqsədlə istifadəsi məhdud qalır.

Mövcud vəziyyət həm də maliyyə baxımından ölkə üçün əhəmiyyətli yük yaradır. Belə ki, təkcə son 5 ildə (2017–2022-ci illər ərzində) ərzaq buğdasının idxalına təqribən 2,7 milyard manat vəsait xərclənmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, həmin dövrdə buğda istehsalının dəstəklənməsi məqsədilə fermerlərə 642,2 milyon manat subsidiya ayrılmışdır. Lakin subsidiyaların bu səviyyədə olması nə idxaldan asılılığı azalda bilmiş, nə də məhsuldarlığı nəzərəçarpacaq dərəcədə artıra bilmişdir. Son dövrdə müəyyən irəliləyişlər olsa da, məsələn, 2023-cü ildə məhsuldarlıq hər hektardan 33,8 sentnerə çatmışdır, ancaq bu göstərici hələ də inkişaf etmiş ölkələrin səviyyəsindən xeyli geri qalır.

Ərzaqlıq buğda ilə bağlı idxaldan asılılığın azaldılması üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, yüksək çörəklik keyfiyyət göstəricilərinə malik rayonlaşdırılmış buğda sortlarının əkin sahələrinin genişləndirilməsi və bu sahələrin

suvarma ilə təminatı məsələlərinin həlli önə çəkilməlidir. Eyni zamanda, ərzaq buğdasını istehsal edən fermerlərə əmtəəlik məhsula görə əlavə stimullaşdırıcı mexanizmlərin tətbiqi məqsədəuyğun olardı. Bu istiqamətdə dövlətin tənzimləyici və təşviqedici müdaxilələri un və çörək kimi strateji məhsullar üzrə idxaldan asılılığın azaldılmasına şərait yarada bilər.

Un sənayesində olduğu kimi, makaron məmulatlarının istehsalında da eyni məzmunlu problemlər müşahidə olunur. 2023-cü ildə ölkədə 33,6 min ton makaron istehlak olunmuş, bunun 15 min tonu və ya 45%-i idxal hesabına təmin edilmişdir. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə bu göstərici 57 faiz, 2020-ci ildə isə 77 faiz təşkil etmişdir. Bu dinamika makaron məhsullarında idxaldan asılılığın azalma meylində olduğunu göstərsə də, daxili istehsal hələ də tam tələbatı ödəyə bilmir.

Makaron istehsalı üçün tələb olunan əsas xammal, şüşəvari və bərk buğda sortları, hazırda əsasən Qazaxıstandan idxal olunur. Halbuki Azərbaycanın agro-ekoloji şəraiti bu növ buğda sortlarının yerli şəraitdə yetişdirilməsi üçün tam uyğundur. Bu imkanların reallaşdırılması üçün isə dövlət dəstəyi, seleksiya və toxumçuluq işlərinin gücləndirilməsi və fermerlər üçün iqtisadi təşviqlərin formalaşdırılması zəruridir.

Beləliklə, un və makaron istehsalında idxaldan asılılığı aradan qaldırmaq məqsədilə təklif olunan tədbirlər kompleks yanaşma tələb edir. Texniki, institusional və maliyyə mexanizmləri üzərində yenidən düşünülməli və ərzaq təhlükəsizliyi baxımından dayanıqlı model formalaşdırılmalıdır.

Azərbaycanın ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan üzümçülük və onunla sıx bağlı olan şərabçılıq sənayesi tarixən ölkə iqtisadiyyatının yüksək gəlirlilik potensialına malik istiqamətlərindən biri kimi çıxış etmişdir. Xüsusilə, sovet dövründə

bu sahənin miqyas və məhsuldarlıq baxımından əhəmiyyətli səviyyəyə çatdığı müşahidə olunur. Belə ki, 1985-ci ildə ölkədə 267,8 min hektara yaxın üzüm plantasiyası mövcud olmuş və hər il orta hesabla 2 milyon tona yaxın texniki üzüm emal müəssisələrinə təhvil verilmişdir.

Lakin qeyd etmək lazımdır ki, 1980-ci illərin ortalarından etibarən SSRİ rəhbərliyi tərəfindən həyata keçirilən "Alkoqolizmə və sərxoşluğa qarşı mübarizə proqramı" çərçivəsində üzümçülüyə qarşı sərt tədbirlər tətbiq olunmuşdur. Nəticədə, minlərlə hektar məhsuldar üzüm bağları sistemli şəkildə məhv edilmiş, şərab zavodları xammalsız qaldığı üçün fəaliyyətini dayandırmış və sahə üzrə formalaşmış infrastruktur ciddi şəkildə sıradan çıxmışdır. Beləliklə, illərlə formalaşmış istehsal zənciri bir neçə il ərzində dağıdılmışdır.

Eyni zamanda, 1990-cı illərin əvvəllərində müstəqillik qazanıldıqdan sonra baş vermiş geosiyasi dəyişikliklər, xüsusilə, Ermənistan tərəfindən torpaqlarımızın işğalı nəticəsində 40 min hektara yaxın üzüm bağlarının itirilməsi, ənənəvi ixrac bazarlarının, xüsusilə Rusiya və Ukraynanın itirilməsi, bu sahənin böhrana düşməsini daha da sürətləndirmişdir. Nəticədə, üzümçülük və şərabçılıq sektoru ciddi tənəzzül dövrünə daxil olmuşdur.

Azərbaycanda üzümçülük və şərabçılığın əvvəlki şöhrətini qaytarmaq məqsədilə 2000-ci illərdən sonra bir çox dövlət tədbirlərinin həyata keçirilməsi başlanmışdır. 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, eyni zamanda, üzümçülük və şərabçılığın da inkişafı üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" [33] və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi

inkişafı Dövlət Proqramı" [34], Azərbaycan Respublikası Prezidenti tərəfindən 25 avqust 2008-ci ildə təsdiq olunan "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" [116] və nəhayət 2016-cı ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi" [6] adlı fərman ölkəmizdə ən gəlirli sahələrdən olan üzümçülüyün və şərabçılığın yenidən inkişaf etdirilməsi üçün bir təkan oldu.

Hazırda mövcud resurslardan səmərəli istifadə edilməklə üzümçülük sahəsində istehsal miqyasını sovet dövründəki səviyyəyə, yəni, 220 min hektara qədər yüksəltmək mümkündür. Fikrimizcə, üzüm əkini sahəsinin genişləndirilməsi iqtisadi səmərəsi çox az olan taxıl əkini sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə üzüm plantasiyaları məhv edilib taxıl əkini ilə əvəz edilmişdir. Belə yanaşma həm iqtisadi səmərəliliyin artırılması, həm də aqrar ixtisaslaşmanın dərinləşdirilməsi baxımından əhəmiyyətlidir.

Qeyd olunmalıdır ki, dünya üzrə üzüm məhsulunun 90%-dən çoxu emal sənayesinə yönəldilir və bu məhsul əsasında 60-dan artıq qida və içki növü istehsal olunur. Üzümdən şərab və spirtli içkilər, üzüm şirəsi, mürəbbə, qurudulmuş üzüm, marinad və konsentrat məhsullar hazırlanır. Azərbaycanda isə üzüm məhsuluna tələbat mövsümi xarakter daşıdığından, ilin müəyyən dövrlərində ölkə bazarında idxal məhsullarının üstünlük təşkil etməsi müşahidə edilir. Statistik məlumatlara əsasən, hər il təxminən 20 min ton təzə üzüm, əsasən Türkiyə və İrandan idxal olunur.

Hal-hazırda ölkədə istehsal olunan üzümün 55 faizi süfrəlik sortlardır və əsasən birbaşa istehlaka yönəlir. Yerli istehsalın bazar tələblərinə cavab verməsi və idxaldan asılılığın azaldılması üçün ölkədə iri həcmli üzüm saxlama anbarlarının yaradılması və logistik

imkanların genişləndirilməsi zəruridir. Bu isə həm yerli bazarın fasiləsiz təminatını, həm də MDB məkanında ənənəvi bazarlara ilboyu təzə üzüm ixracını mümkün edə bilər.

Eyni zamanda, Azərbaycan şərabçılığının rəqabət qabiliyyətini artırmaq və ənənəvi Rusiya bazarındakı mövqelərini bərpa etmək üçün dövlət tərəfindən kompleks tənzimləmə mexanizmlərinin tətbiqinə ehtiyac vardır. Bu çərçivədə bazar iştirakçıları üçün bərabər şərtlərin yaradılması, inhisarçılıq və haqsız rəqabət hallarının aradan qaldırılması vacib şərtlərdir. Şərab istehsalçıları üçün maliyyə, fiskal və ixrac təşviqləri daxil olmaqla, çoxistiqamətli dəstək mexanizmləri formalaşdırılmalıdır.

Tədqiqatlar göstərir ki, bu istiqamətdə həyata keçirilən tədbirlər nəticə verərsə və Azərbaycan şərabçılığı öz əvvəlki mövqeyini bərpa edə bilsə, ölkəyə illik olaraq 2,5–3 milyard ABŞ dolları həcmində əlavə valyuta daxil ola bilər. Beləliklə, şərabçılıq sektoru iqtisadi gəlirlilik baxımından ölkənin neft sektoruna alternativ olaraq çıxış edə bilər. Bu səbəbdən, üzümçülük və şərabçılıq sahəsinin inkişafı kənd təsərrüfatı siyasətində prioritet istiqamətlərdən biri kimi qəbul edilməlidir [94, s.171].

Tütünçülük Azərbaycanda kənd təsərrüfatının ən yüksək rentabelli sahələrindən biri olmaqla, iqtisadi potensialına görə üzümçülüklə müqayisə oluna biləcək səviyyədədir. Lakin 1990-cı illərin əvvəllərində müşahidə olunan iqtisadi tənəzzül tütünçülük sektorunu da ciddi şəkildə sarsıtmış, bu sahədə istehsal həcmləri kəskin azalmışdır. 2023-cü ildə ölkədə cəmi 6,3 min ton tütün istehsal olunmuşdur ki, bu da 1990-cı illə müqayisədə 8,4 dəfə azalma deməkdir.

Tütünçülüyün yenidən dirçəldilməsi məqsədilə “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli Qanunu qəbul edilmişdir. Eyni zamanda, “Azərbaycan

Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" qəbul edilmiş və bu proqram ölkədə bu istiqamətdə aparılan işlərin daha da sürətlənməsinə təkan vermişdir. [113]

2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabriki açılmışdır. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edir. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrik tam gücü ilə işləyərsə, hər il 11 milyard ədəd 3 növdə filtrli siqaret istehsal ediləcəkdir [67].

Lakin tütünçülük sektorunda struktur problemlər hələ də qalmaqdadır. İlk növbədə, tütün xammalının alış qiymətləri ilə onun ixrac və satış qiymətləri arasında ciddi disbalans müşahidə olunur. Məsələn, 2023-cü ildə ixrac olunan hər ton tütün üçün orta qiymət 5032 manat təşkil etdiyi halda, fermerlərdən alınan yaş tütünün 1-ci növü üçün 250 manat, 2-ci növü üçün isə 150 manat ödənilmişdir. Bu qeyri-bərabər bölgü tütünçülükdə stimullaşdırıcı amillərin zəifləməsinə, nəticədə fermerlərin bu sahədən uzaqlaşmasına səbəb olur.

Digər tərəfdən, siqaret məmulatlarının daxili bazarda və ixracda satış qiymətləri də qeyri-mütənasibdir. Belə ki, 2023-cü ildə siqaretin daxili satış qiyməti ilə ixrac qiyməti arasında 2-3 dəfədən artıq fərq mövcud olmuşdur. 2023-cü ildə idxal olunan 1 qutu (20 əd.) siqaret orta hesabla 0,41 dollar və ya 0,70 manat səviyyəsində olmuşdur. Bu rəqəm hər il cüzi dəyişir. Təəccüblüsü odur ki, 2023-cü ildə yerli siqaret fabrikləri siqaretin bir qutusunu (20 əd.) 0,15 dollara ixrac etmişdir ki, manata çevirəndə 0,26 manat deməkdir. Ölkədə satılan siqaretin pərakəndə satış qiyməti isə bundan dəfələrlə çoxdur. Belə bir vəziyyət istehsal və satış zəncirində qiymətlərin bazar qanunlarına deyil, inzibati

mexanizmlərə əsaslandığını göstərir ki, bu da sektor daxilində rəqabət mühitini zəiflədir.

Sahənin inkişafı üçün toxumçuluğun zəif təşkili də ciddi maneədir. Hal-hazırda ölkədə cəmi bir toxumçuluq təsərrüfatı fəaliyyət göstərir ki, bu da bütün ölkə üzrə tütün əkini sahələrinin şitil tələbatını ödəmək iqtidarında deyil. Bu istiqamətdə istehsalçıların keyfiyyətli şitillərlə təminatı üçün toxumçuluq sahəsinin genişləndirilməsi vacibdir.

Bununla yanaşı, siqaret istehsalında istifadə olunan xammal bazası da tənzimlənməlidir. Hazırda istehsalda əsasən idxal olunmuş xammala və tütünün sənaye əvəzedicilərinə üstünlük verilir. Yerli tütünə marağın az olması nəticəsində minlərlə kənd sakini tütünçülükdən imtina etməyə məcbur qalır. Bu meylin qarşısını almaq üçün yerli xammalın istifadəsi stimullaşdırılmalı, idxal məhsullarına qarşı gömrük və fiskal vasitələrlə müdaxilə həyata keçirilməlidir.

Tütünün alış qiymətləri ən azı ikiqat artırılmalı, siqaret istehsalçılarının gəlirləri fermerlərlə daha ədalətli şəkildə bölüşdürülməlidir. Bu həm sektorun gəlirliliyini artırar, həm də onun davamlı inkişafına zəmin yaradar. Tütünçülüyün bu cür yanaşmalarla yenidən iqtisadi yüksəlişə çıxarılması mümkündür və bu istiqamətdə institusional və fiskal alətlərin effektiv tətbiqi mühüm əhəmiyyət kəsb edir.

*"Tütünçülüklə məşğul olan rayonlarda müasir tipli tütün qurutma qurğularının və talvarlarının, o cümlədən, fermentasiya zavodlarının bərpa edilib istifadəyə verilməsi məqsədəuyğun olardı"* [99, s. 62].

Çayçılıq Azərbaycanda tarixi ənənələrə malik olan və potensial baxımından strateji əhəmiyyət kəsb edən kənd təsərrüfatı sahələrindən biridir. Çay bitkisinin yüksək temperatur və rütubət

tələb etməsi səbəbindən ölkənin cənub regionu, xüsusilə Lənkəran-Astara zonası bu sahənin inkişafı üçün optimal təbii-coğrafi mühitə malikdir. Bu ərazilərdə yetişdirilən çay yarpaqları tərkibindəki biokimyəvi xüsusiyyətlərinə görə yalnız ən qabaqcıl çay istehsalçısı ölkələrin məhsulları ilə müqayisə edilə biləcək keyfiyyət göstəricilərinə sahibdir.

Lakin post-sovet keçid dövrü və onun yaratdığı iqtisadi çətinliklər çayçılıq sahəsindən də yan keçməmişdir. 1990-cı illərdən başlayaraq çay plantasiyalarının sahəsi və ümumi istehsal həcmi ilbəil azalmışdır. 1990-cı ildə mövcud olan 13,4 min hektarlıq çay plantasiyası 2023-cü ilə qədər cəmi 1000 hektara qədər azalmış, istehsal isə eyni dövrdə 30,7 min tondan 1120 tona enmişdir. Nəticə etibarilə, ölkədə illik 15 min ton təşkil edən çay istehlakı tələbatının yalnız 4%-i yerli istehsal hesabına ödənilə bilir. Bu da çayçılıq sektorunun idxaldan asılı vəziyyətə düşdüyünü göstərir.

Sahənin hüquqi tənzimlənməsi istiqamətində atılan mühüm addımlardan biri 2002-ci ildə qəbul edilmiş "Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu sənəd çayçılığın təşkili, istehsalın idarə olunması və məhsul keyfiyyətinin təmin olunması üçün hüquqi baza yaratmışdır. 2018-ci ildə isə "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuş və bu proqram çayçılığın dirçəldilməsi üçün institusional və iqtisadi mexanizmlərin formalaşdırılmasına yönəlmişdir.

Dövlət proqramı çərçivəsində əsas məqsəd çay istehsalının artırılması, daxili tələbatın yerli məhsul hesabına ödənilməsi, ixrac imkanlarının genişləndirilməsi və region əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Bununla yanaşı, proqram çayçılığa marağın artırılması və sektorun iqtisadi cəhətdən cəlbedici sahəyə

çevrilməsi üçün dövlət dəstəyinin gücləndirilməsini də nəzərdə tutur.

Azərbaycan çayının əvvəlki nüfuzunu bərpa etmək üçün müvafiq resurslar mövcuddur. Çay bitkisinin əkilməsindən məhsul verməyinə qədər olan 7-8 illik müddət ərzində fermerlərin maddi dayanıqlığını təmin etmək üçün dövlət tərəfindən kompensasiya mexanizmləri tətbiq olunmalıdır. Həmin dövr ərzində güzəştli kreditlərin verilməsi, subsidiyaların ayrılması və digər təşviqləndirici vasitələr bu sahəyə marağı artırmağa xidmət edə bilər.

Strateji baxımdan məqsədəuyğun olardı ki, ölkədə çay plantasiyalarının sahəsi minimum 6 min hektara çatdırılsın. Bu, bir tərəfdən daxili tələbatın ödənilməsində mühüm rol oynayacaq, digər tərəfdən isə ekoloji cəhətdən daha təmiz yerli çayın ixrac potensialını gücləndirəcəkdir. Plantasiyaların genişləndirilməsi üçün əsas resurslar taxılçılıq üçün iqtisadi baxımdan səmərəsiz olan torpaq sahələrinin transformasiyası hesabına əldə edilə bilər, necə ki, bir vaxtlar əks istiqamətdə bu proses baş vermişdir.

Bununla yanaşı, daxili bazarın yerli məhsul üçün qorunması siyasəti formalaşdırılmalıdır. Azərbaycan çayı yalnız ekoloji təmizlik baxımından deyil, həm də zövq və keyfiyyət göstəriciləri üzrə rəqabətqabiliyyətlidir və daxili istehlakda bu üstünlüklərdən tam istifadə olunmalıdır. Beləliklə, çayçılığın tənzimlənməsi və təşviqi üzrə sistemli və davamlı yanaşmaların tətbiqi sayəsində bu ənənəvi sahənin iqtisadi və sosial potensialını reallaşdırmaq mümkündür.

*"Ölkədə mövcud olan ənənəvi çay sortları yeni salınacaq çay plantasiyalarının tinglərlə təmin edilməsində etibarlı mənbə ola bilər. Çayçılıqla məşğul olan rayonlara uyğun əkin materialı üçün rayonlaşdırılmış sortların düzgün seçilməsi müasir tipli çay*

*plantasiyalarının salınmasında əsas şərtdir. Ona görə də dövlət hesabına bu sahəyə xidmət edən xüsusi tingçilik təsərrüfatı yaradılmalı və fermerləri rayonlaşdırılmış və keyfiyyətli çay tingləri ilə təmin etməlidir"* [95, s.50].

Nəzərə alsaq ki, hər il əhalinin tələbatının ödənilməsi üçün çayın idxalına, ortalama 50-52 mln. dollar vəsait ödənilir, onda yerli çay istehsalının artırılması istiqamətində ciddi işlər görülməlidir.

Meyvə və tərəvəzçilik Azərbaycanın kənd təsərrüfatında ənənəvi və ixtisaslaşmış sahələrdən biri kimi çıxış edir. Bu sahənin emal potensialı əsasən iki istiqamətdə – meyvə-tərəvəz konservləri və meyvə şirələri istehsalı üzrə formalaşır. Hər iki istiqamət ərzaq təhlükəsizliyi, kənd yerlərində məşğulluğun artırılması və ixrac imkanlarının genişləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir.

Meyvəçiliyin və meyvə emalının inkişafı üzrə dövlət siyasətinin əsas prioritetləri Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ndə [6] əks olunmuşdur. Sənəddə meyvəçilik sahəsində məhsuldarlığın artırılması və istehsal olunan məhsulların emala cəlb olunması istiqamətində rəqabətqabiliyyətli və ixrac yönümlü sənaye strukturunun formalaşdırılması əsas vəzifələrdən biri kimi göstərilir. Xüsusilə də quru meyvə məhsullarının və meyvə şirələrinin istehsalı üçün texnoloji imkanlara malik yeni emal müəssisələrinin yaradılması təşviq edilməlidir.

Lakin mövcud vəziyyət göstərir ki, meyvə şirələri və quru meyvə məhsulları üzrə xammal təminatında ölkə idxaldan ciddi şəkildə asılıdır. Şirə istehsalı sahəsində meyvə püresi əsas xammal kimi xaricdən gətirilir, yerli meyvələr isə (nar istisna olmaqla) emal

prosesində məhdud şəkildə istifadə olunur. Bu fonda meyvə şirələrinin adambaşına istehlak göstəriciləri qeyri-sabit dinamikaya malikdir: 2012-ci ildə bu göstərici 3,2 kq. olduğu halda, 2023-cü ildə əvvəlki dövrlə müqayisədə 25%-lik artımla 4,0 kq.-a çatmışdır. Digər tərəfdən, meyvə konservlərinin adambaşına istehlakı ardıcıl olaraq artaraq 19,2 kq-a yüksəlmişdir. Lakin ümumilikdə təbii şirə və emal məhsullarının istehlakı ölkə üzrə hələ də aşağı səviyyədə qalmaqda davam edir ki, bu da sahənin rentabellik göstəricilərinə mənfi təsir göstərir.

Eyni zamanda, Dövlət Statistika Komitəsinin rəsmi hesabatlarında meyvə və tərəvəz emalı sahəsinə dair konkret və əhatəli məlumatların olmaması bu sahənin dərin analitik qiymətləndirilməsini və inkişaf imkanlarının obyektiv şəkildə müəyyən edilməsini çətinləşdirir. Meyvənin hansı həcmdə emal sənayesinə yönəldiyi barədə statistik göstəricilərin təqdim olunmaması, emal potensialının real imkanlarını qeyri-şəffaf edir. Bu baxımdan, gələcəkdə rəsmi hesabatlarda emal səviyyəsi və xammal istifadəsi ilə bağlı daha dəqiq və sistemli məlumatların əks olunması zəruridir.

Xammal asılılığının aradan qaldırılması istiqamətində dövlətin bir sıra institusional və iqtisadi tədbirlər həyata keçirməsi vacibdir. İlk növbədə seleksiya və aqrotexniki təkmilləşdirmələr yolu ilə meyvə bağlarında məhsuldarlığın artırılması ön planda olmalıdır. Hazırda orta məhsuldarlıq 71 sentner təşkil edir ki, bu da dünya üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə geri qalır. Məhsuldarlığın artırılması həm də emal sənayesinə xammal təminatının dayanıqlığını artıracaqdır.

Meyvə və tərəvəz emalının idxaldan asılılığını azaltmaq üçün dövlətin tənzimləyici rolu ön plana çıxmalıdır. Xüsusilə sənaye tipli meyvəçiliyin inkişafına yönəlmiş vergi və gömrük güzəştləri,

güzəştli kreditlər, texniki dəstək proqramları və digər stimullaşdırıcı mexanizmlər tətbiq olunmalıdır. Bundan əlavə, emal müəssisələrinin regionlarda, xüsusilə də meyvəçilik üzrə ixtisaslaşmış rayonlarda yerləşdirilməsi məqsədəuyğundur. Kiçik ölçülü emal zavodlarının yaradılması kənd təsərrüfatı məhsullarının dəyər zəncirində əlavə dəyər yaratmaqla yanaşı, regionlarda kiçik sahibkarlığın inkişafına da təkan verə bilər.

Beləliklə, meyvə və tərəvəz emalının modernləşdirilməsi, xammal təminatının lokallaşdırılması və istehlak bazarının genişləndirilməsi bu sahənin davamlı inkişafını təmin edəcək əsas strateji istiqamətlər kimi çıxış edir.

Azərbaycanda ət və süd məhsullarının istehsalı əhalinin faktiki istehlak tələbatını tam təmin edə bilmir. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, il ərzində adambaşına düşən ət və ət məhsulları istehlakı 70,1 kq, süd və süd məhsulları 404 kq, kərə yağı üzrə isə 7,2 kq təşkil etməlidir. Halbuki, 2023-cü il üzrə statistik göstəricilərə əsasən, ölkədə bu məhsulların adambaşına düşən istehlakı müvafiq olaraq 43,5 kq, 258,8 kq və 3,9 kq olmuşdur. Beləliklə, ət istehlakı normadan 1,6 dəfə, süd məhsulları 36%, kərə yağı isə 1,8 dəfə az olmuşdur ki, bu da əhalinin əsas qida maddələri ilə yetərincə təmin olunmadığını göstərir.

Eyni zamanda, istehlakın mühüm hissəsi idxal hesabına ödənilir. 2023-cü ildə ət məhsullarının 15%-i (kəsim üçün gətirilən ətlik heyvanların idxalı istisna olmaqla), süd və süd məhsullarının 23%-i, kərə yağının isə 38%-i xaricdən gətirilmişdir. İdxaldan yüksək asılılıq həm ərzaq təhlükəsizliyi, həm də daxili istehsal potensialının tam realizə olunmaması baxımından ciddi problemlər yaradır. Ət məhsullarının nisbətən aşağı istehlak səviyyəsi bir

tərəfdən qiymətlərin yüksək olması, digər tərəfdən isə əhalinin gəlirlərinin aşağı səviyyəsi ilə əlaqələndirilə bilər.

Eyni zamanda, məhsuldarlığın aşağı olması da bu vəziyyəti şərtləndirən əsas amillərdəndir. Hazırda mal-qara sürülərinin tərkibində aşağı məhsuldarlığa malik yerli cinslər üstünlük təşkil edir. Daha məhsuldar cinslərin tətbiqi hesabına süd və ət istehsalının artırılması mümkündür. Bu məqsədlə intensiv texnologiyaların tətbiqi, müasir heyvandarlıq komplekslərinin yaradılması, yem bazasının gücləndirilməsi, otlaq sahələrinin bərpası, bazar qiymətlərinin sabitləşdirilməsi və genetik seleksiya tədbirlərinin stimullaşdırılması vacib şərtlər sırasındadır.

Balıqçılıq da əhalinin keyfiyyətli qida maddələrinə olan tələbatının təminində mühüm əhəmiyyət kəsb edir. 2023-cü ildə adambaşına balıq məhsulları istehlakı cəmi 8,0 kq təşkil etmiş, bu göstərici əvvəlki illərdə 7 kq ətrafında dəyişmişdir. Halbuki ÜST-nin tövsiyələrinə əsasən bu göstərici ildə adambaşına 21 kq səviyyəsində olmalıdır. Balıq məhsullarının qiymət səviyyəsi də əksər əhali qrupları üçün əlverişli deyil və bu da istehlakı məhdudlaşdırır.

Azərbaycanda balıqçılıq potensialı kifayət qədər genişdir. Xəzər dənizi sahilləri, Kür və Araz çayları, iri su anbarları və təbii-süni göllər bu sahənin inkişafı üçün əlverişli imkanlar yaradır. Lakin 2000–2023-cü illər ərzində dövlətin bu sahəyə münasibətində ciddi geriləmə müşahidə olunur. Məsələn, əgər 2000-ci ildə 531 milyon körpə balıq təbii sulara buraxılmışdısa, 2023-cü ildə bu göstərici 5 milyona enmişdir ki, bu da 106 dəfə azalma deməkdir.

Göstərilən problemlərin aradan qaldırılması üçün dövlətin balıqçılıq sektoruna müdaxiləsi gücləndirilməli, nəsilartırma fəaliyyəti bərpa olunmalı, daxili istehsal genişləndirilməli,

qiymətlərin əlçatan səviyyəyə salınması təmin edilməlidir. Bütün bu tədbirlər aqroemal sahəsində qida təhlükəsizliyinin və dayanıqlı ərzaq təminatının əsas komponentləri kimi qiymətləndirilməlidir.

Hazır yeməklərin istehsalı və satış sahəsi Azərbaycanda qida sənayesinə nisbətən yeni inteqrasiya olunmuş fəaliyyət istiqamətlərindən biridir. Bu sektorun inkişafı xüsusilə 2020-ci ildən etibarən – Covid-19 pandemiyası ilə əlaqədar tətbiq edilən karantin məhdudiyyətləri dövründə daha da intensiv xarakter almışdır. Halbuki pandemiyadan əvvəl də bu xidmət sahəsi Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə məhdud çərçivədə fəaliyyət göstərirdi. Restoran və digər iaşə obyektlərindən sifariş əsasında pizza və digər hazır yeməklərin evlərə çatdırılması təcrübəsi müəyyən səviyyədə mövcud idi. Lakin pandemiya nəticəsində yaranmış məcburi sosial izolasiya şəraiti, bu xidmətin miqyasının genişlənməsində və istehlakçı bazasının formalaşmasında həlledici rol oynamışdır.

Nəticədə, həm Azərbaycanda, həm də qlobal miqyasda "Food Tech" adlanan hazır yemək texnologiyaları seqmenti sürətlə inkişaf etməyə başlamış və dinamik artım tendensiyası nümayiş etdirmişdir. Hal-hazırda dünya üzrə bu bazarın illik investisiya həcmi 75–90 milyard ABŞ dolları arasında qiymətləndirilir, yalnız 2023-cü ildə bu sahəyə qoyulan sərmayənin ümumi məbləği isə 300 milyard ABŞ dollarını keçmişdir. Texnologiyanın inkişafı, rəqəmsal sifariş sistemləri və sürətli çatdırılma xidmətləri nəticəsində istehlakçılar artıq daha çox evdən çıxmadan və vaxt itirmədən qida tələbatlarını ödəməyə üstünlük verirlər.

Pandemiya bu texnoloji və sosial meyli daha da gücləndirmişdir. İnkişaf etmiş ölkələrdə evdə yemək bişirmək vərdişləri azalmaqdadır və hazır yemək istehlakı artan tendensiya göstərir. Zaman qənaəti, çağdaş dövrün əsas dəyər kateqoriyası

olaraq bu sektora olan tələbatın yüksəlməsinin əsas səbəblərindən biri olmuşdur. Bununla yanaşı, yeməklərin keyfiyyəti, çeşidi və xüsusi pəhrizlərə uyğunluğu üzrə gözləntilər də artmışdır. Hazırda yüksək gəlirli ölkələrin bazarlarında müxtəlif fəlsəfi baxışlara və həyat tərzinə uyğun minlərlə çeşiddə hazır yeməklər təqdim olunur.

ABŞ, Avropa və Çin kimi inkişaf etmiş regionlarda artıq genişmiqyaslı hazır yemək istehsal zavodları fəaliyyətə başlamış və bu sənaye seqmenti öz infrastrukturunu formalaşdırmağa başlamışdır. Bu tendensiyanın qlobal xarakter alması nəzərə alınmaqla, Azərbaycanın da bu prosesdən kənarda qalması mümkün deyil. İqtisadi və sosial baxımdan sürətlə urbanizasiyalaşan Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə hazır yeməklərin istehsalı üzrə kiçik və orta gücə malik müəssisələrin yaradılması aktual və məqsədəuyğun vəzifələrdən biri kimi nəzərdən keçirilməlidir. Hökumət səviyyəsində bu sahənin təşviqinə yönəlik institusional proqramların hazırlanması, yerli ərzaq təhlükəsizliyi, məşğulluq və innovativ sahibkarlığın inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.

Müasir iqtisadi inkişafın vacib istiqamətlərindən biri kimi çıxış edən aqroemal sektoru Azərbaycan iqtisadiyyatında strateji əhəmiyyət kəsb edir. Bu sahənin dövlət tərəfindən sistemli şəkildə tənzimlənməsi və dəstəklənməsi yalnız kənd təsərrüfatı və sənaye sinerjisinin gücləndirilməsi baxımından deyil, həm də milli iqtisadiyyatın davamlı inkişafında mühüm rola malikdir. Hesab edirik ki, yerli aqroemal sənayesinin inkişafının dövlət siyasəti çərçivəsində institusional və funksional baxımdan səmərəli şəkildə həyata keçirilməsi ölkənin ümumi iqtisadi strukturunda diversifikasiyanın gücləndirilməsinə, xam neft ixracatından asılılığın azaldılmasına və qeyri-neft sektorunun dərinləşməsinə bilavasitə şərait yarada bilər.




**Şəkil 4.3.2 Yerli aqroemal sahəsinin tənzimlənməsi və dəstəklənməsi konsepsiyasının ölkənin milli iqtisadiyyatına təsirinin sxemi**

Mənbə: Müəllifin tərtibatı

Şəkil 4.3.2-də təqdim olunan konseptual modelləşdirməyə əsasən, aqroemal sənayesinin dövlət tənzimlənməsi bu sektorun istehsal potensialının və məhsul keyfiyyətinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və daxili bazarın qorunması istiqamətində strateji təkmilləşdirmələri ehtiva edir. Xüsusilə də, ərzaq təhlükəsizliyi baxımından kritik sayılan qida məhsullarının həcminin və sanitar-epidemioloji göstəricilər üzrə keyfiyyətinin artırılması, mənşəyi məlum olmayan, qeyri-sertifikatlaşdırılmış məhsulların bazara daxilolma ehtimalını minimuma endirir. Bu isə öz növbəsində əhalinin sağlamlıq göstəricilərinə, o cümlədən, xroniki xəstəliklərin azaldılması, uzunömürlülük və məhsuldar insan kapitalının formalaşmasına bilavasitə müsbət təsir göstərir. Beləliklə, dövlətin müdaxilə və dəstək mexanizmləri nəticə

etibarilə makroiqtisadi göstəricilərin yaxşılaşmasına və iqtisadi artımın struktur dayanıqlılığına xidmət edir.

Aqroemal sektorunda dövlətin rolu təkcə iqtisadi stimullaşdırma ilə məhdudlaşmır, həm də strateji modernləşdirmə məqsədilə institusional və texnoloji transformasiyaların həyata keçirilməsini zəruri edir. Müasir bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadiyyata təsir alətləri daha da çoxşaxəli və kompleks xarakter daşıyır. Bu baxımdan, aqroemal sənayenin inkişafı üçün prioritet olan tənzimləyici vasitələrə güzəştli kreditləşmə, vergi güzəştləri, büdcə subsidiyaları, gömrük rüsumlarının tənzimlənməsi, yerli istehsalçılara dövlət proteksionizmi və hüquqi müdafiənin təmin edilməsi kimi instrumentlər daxildir.

Eyni zamanda, innovasiya əsaslı yanaşmaların təşviqi və onların risklərinin sığortalanması dövlət tənzimləməsinin strateji modernləşdirmə komponentlərindən biri kimi çıxış etməlidir. Texnoloji innovasiyaların tətbiqi, rəqəmsal transformasiya və ekoloji dayanıqlılıq kimi çağdaş çağırışlara uyğun reaksiya verən tənzimləmə mexanizmləri formalaşdırılmalıdır. Bütün bu tədbirlər, resurs bazalarının möhkəmləndirilməsi ilə yanaşı, lokal istehsal zəncirlərinin davamlılığını və beynəlxalq rəqabət qabiliyyətini artırmağa yönəlməlidir.

Nəticə etibarilə, aqroemal sənayesinin dövlət tənzimləmələrinin strateji yanaşmalarla uzlaşdırılması və modernləşdirilməsi yalnız sektoral inkişaf üçün deyil, bütövlükdə milli iqtisadi təhlükəsizliyin təmin edilməsi və sosial rifahın yüksəldilməsi baxımından da fundamental əhəmiyyətə malikdir.

# V FƏSİL. Azərbaycanın ÜTT-yə daxilolma perspektivləri və aqroemal sektora təsiri

## 5.1. ÜTT-yə üzvlüyün strateji baxımdan qiymətləndirilməsi və Azərbaycan iqtisadiyyatı üçün çağırışlar

Qloballaşmanın dərinləşməsi və beynəlxalq iqtisadi münasibətlərin sürətlə inkişaf etdiyi müasir mərhələdə dövlətlərin dünya iqtisadi sisteminə inteqrasiyası mühüm strateji prioritetlərdən birinə çevrilmişdir. Bu baxımdan Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması, ölkənin iqtisadi inkişafında, ticarət əlaqələrinin genişlənməsində, xarici investisiyaların cəlb edilməsində və rəqabətqabiliyyətli iqtisadi institutların formalaşmasında həlledici rol oynaya bilər.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaranması qlobal ticarət münasibətlərinin tənzimlənməsi və liberallaşdırılması sahəsində uzun bir tarixi inkişafın məntiqi nəticəsi olmuşdur. Onun əsası II Dünya müharibəsindən sonra iqtisadi sabitliyin və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə atılmış addımlardan biri kimi 1947-ci ildə imzalanmış "Tariflər və Ticarət üzrə Baş Saziş" (GATT) ilə qoyulmuşdur. GATT çərçivəsində müxtəlif danışıqlar raundları keçirilmiş və ticarətin azadlaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Lakin 1986–1994-cü illəri əhatə edən və beynəlxalq ticarətin daha geniş sahələrini əhatə edən Uruqvay Raundunun yekununda GATT-ın institusional çərçivəsinin yetərsizliyi üzə çıxmış və bu əsasda 1995-ci ilin yanvarında ÜTT rəsmi olaraq fəaliyyətə başlamışdır. Beləliklə, ÜTT yalnız tariflər və kvotalar üzrə deyil, həm də xidmət ticarəti, əqli mülkiyyət hüquqları, investisiyalar və mübahisələrin

həlli mexanizmləri sahəsində qlobal qaydaların formalaşdırılmasına cavabdeh olan əsas beynəlxalq təşkilata çevrilmişdir.

Əsasən, 1995-ci ildən fəaliyyət göstərən və hazırda dünya ticarətinin 98%-nin reallaşdığı və 164 ölkəsini birləşdirən ÜTT-nin əsas funksiyası beynəlxalq ticarətin liberallaşdırılması və bu ticarətin hüquqi-institusional çərçivədə tənzimlənməsini təmin etməkdir. Bu təşkilatın normativ hüquqi baza sisteminə daxil olan üzv dövlətlər öz aralarında tarif və qeyri-tarif maneələrinin aradan qaldırılmasına, ticarət mübahisələrinin həllində şəffaf və ədalətli mexanizmlərin tətbiqinə və institusional uyğunlaşmanın gücləndirilməsinə nail olurlar.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünya iqtisadi sisteminə inteqrasiya etmək istiqamətində müxtəlif iqtisadi və institusional islahatlar həyata keçirmişdir. Lakin ölkə bu günədək ÜTT-nin tamhüquqlu üzvü ola bilməmişdir. Qeyd edilməlidir ki, keçmiş SSRİ məkanında yerləşən Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olan ölkələrin böyük əksəriyyəti artıq ÜTT-yə qəbul edilmişdir. Bu baxımdan yalnız üç ölkə – Azərbaycan, Türkmənistan və Özbəkistan təşkilatın üzvü deyil. Lakin onlardan Özbəkistan son illərdə üzvlük prosesini sürətləndirmiş, Türkmənistan isə 2021-ci ildə müşahidəçi statusu alaraq bu istiqamətdə ilkin addımlar atmışdır. Bu fon qarşısında Azərbaycanın ÜTT-yə üzvlüyə dair uzun müddətli danışıqlar aparmasına baxmayaraq, hələ də yekun mərhələyə keçə bilməməsi həm daxili iqtisadi hazırlıqla, həm də müəyyən sahələrdə normativ uyğunlaşma və struktur islahatların ləngiməsi ilə əlaqələndirilir.

Azərbaycan üçün ÜTT-yə üzvlük təkcə beynəlxalq hüquqi öhdəliklərin yerinə yetirilməsi və xarici ticarət prosedurlarının sadələşdirilməsi demək deyil. Bu, eyni zamanda ölkədə bazar iqtisadiyyatı institutlarının inkişafı, iqtisadiyyatın şaxələndirilməsi

və qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Həmçinin, ÜTT-yə üzvlük perspektivindən irəli gələn öhdəliklər dövlətin tənzimləmə funksiyalarında şəffaflığın və hesabatlılığın artırılmasını, sahibkarlıq mühitinin yaxşılaşdırılmasını və rəqabət qabiliyyətli məhsulların istehsalını təşviq edir.

Bütün bu məqamlar fonunda Azərbaycanın ÜTT-yə daxil olması məsələsinin kompleks şəkildə araşdırılması, bu prosesin ölkə iqtisadiyyatına və xüsusilə strateji sahələrə – kənd təsərrüfatına, aqrar emal sənayesinə, KOB-lara, ixrac imkanlarına, texniki normativ uyğunlaşmaya təsirinin qiymətləndirilməsi xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə aparılacaq tədqiqatlar, həm mövcud problemləri obyektiv şəkildə üzə çıxarmaq, həm də qərarverici orqanlar üçün praktik nəticələr və siyasət təklifləri formalaşdırmaq baxımından əhəmiyyətlidir.

Təşkilatın fəaliyyət fəlsəfəsi beynəlxalq əmək bölgüsünün və ölkələrin nisbi üstünlüklərinə əsaslanan ixtisaslaşmanın təşviqinə əsaslanır. Bu yanaşma, bir tərəfdən, qlobal ticarət dövriyyəsinin artmasına, digər tərəfdən isə ölkələrin daxili iqtisadi strukturunda məhsuldarlığın yüksəlməsinə və rəqabətqabiliyyətli istehsalın təşəkkülünə şərait yaradır. Beləliklə, Azərbaycanın ÜTT-yə üzvlüyü ölkəyə dünya bazarlarına daha səmərəli çıxış, xarici investisiyaların axını, idxal və ixrac əməliyyatlarının hüquqi çərçivədə daha effektiv təşkili üçün əlverişli imkanlar aça bilər.

Bununla yanaşı, ÜTT-yə üzvlük təkcə iqtisadi faydalarla deyil, həm də geniş hüquqi və institusional öhdəliklərlə müşayiət olunur. Bu səbəbdən təşkilatın normativ-hüquqi bazasının öyrənilməsi və ona uyğunlaşma mexanizmlərinin inkişaf etdirilməsi müvafiq sahələr üzrə strateji modernləşmənin tərkib hissəsi kimi çıxış edir. ÜTT-nin hüquqi arxitekturası ölkələrin ticarət, gömrük,

subsidiyalar, texniki tənzimləmə və investisiya mühitini əhatə edən kompleks sənədlər toplusuna əsaslanır.

Aşağıdakı cədvəldə ÜTT-nin əsas normativ-hüquqi sənədləri və onların qısa xülasəsi sistemləşdirilmiş şəkildə təqdim olunur:

**Cədvəl 5.1.1. ÜTT-nin əsas normativ-hüquqi bazası**

| Sənədin adı | Qısa xülasə |
| --- | --- |
| Tariflər və Ticarət üzrə Baş Saziş 1947-ci il | Xidmətlərin, malların ticarətinin əsas rejimini və bu sahədə ÜTT üzvlərinin hüquq və vəzifələrini müəyyən edir. |
| Tariflər və Ticarət üzrə Baş Saziş 1994-cü il | Xidmətlərin, malların ticarətinin əsas rejimini və bu sahədə ÜTT üzvlərinin hüquq və vəzifələrini müəyyən edir. |
| Aqrar-sənaye kompleksi haqqında Saziş | kənd təsərrüfatı məhsullarının ticarətinin dövlət tənzimlənməsinin əsas xüsusiyyətlərini, habelə bu sahədə istehsala və ticarətə dövlət dəstəyi tədbirlərinin tətbiqi mexanizmlərini müəyyən edir. |
| Geyim və tekstil məhsulları üzrə Saziş | Geyim və toxuculuq ticarətinin dövlət tənzimlənməsinin əsas xüsusiyyətlərini müəyyən edir. |
| Sanitariya və fitosanitar standartlarının müəyyən edilməsi və tətbiqi haqqında Saziş | Dövlətin sanitar və fitosanitar nəzarəti tədbirlərinin tətbiqi üçün əsas şərtləri müəyyən edir. |
| Ticarətdə əsas texniki maneələr haqqında Saziş | Məhsul və xidmətlər üçün standartların, texniki reqlamentlərin, sertifikatlaşdırma prosedurlarının tətbiqi üçün əsas şərtləri müəyyən edir. |
| Ticarətlə bağlı investisiya tədbirləri haqqında Saziş | Bəzi ticarət siyasəti tədbirlərinin tətbiqini qadağan edir, hansı ki, bunlar xarici investisiyalara pis təsir göstərər, Tariflər və Ticarət üzrə Baş Sazişin (TTBS) “Milli rejim” maddəsinə zidd olaraq qiymətləndirilə bilər. |
| TTBS VII Maddəsinin Tətbiqi haqqında Saziş1994-cü il (Malların Gömrük Qiymətləndirilməsi) | Malların gömrük dəyərinin qiymətləndirilməsinin əsas qaydalarını müəyyən edir. |

| | |
|---|---|
| Göndərmə öncəsi yoxlama müqaviləsi | Göndərmə öncəsi yoxlamaların təşkili üçün əsas şərtləri müəyyən edir |
| Malların və xidmətlərin mənşəyi qaydaları haqqında müqavilə | Müəyyən edir ki, malların və xidmətlərin mənşəyi qaydaları dedikdə, bu malların və xidmətlərin mənşə ölkəsini müəyyən edən qanunlar, qaydalar və qaydalar məcmusu başa düşülür. |
| İdxal Lisenziyalaşdırma Prosedurları haqqında Saziş | İdxalın lisenziyalaşdırılması üçün əsas prosedurları, formaları və qaydaları müəyyən edir/ |
| Subsidiyalar və kompensasiya haqları haqqında müqavilə | Subsidiyaların təşkili və tətbiqi üçün əsas şərtləri və prosedurları və subsidiyalara qarşı mübarizəyə yönəlmiş tədbirləri müəyyən edir. |
| TTBS VI Maddəsinin Tətbiqi haqqında Saziş (antidempinq) 1994- il | Dempinqlə mübarizə tədbirlərinin tətbiqi üçün əsas şərtləri və prosedurları müəyyən edir. |
| Qoruyucu tədbirlər haqqında müqavilə | Artan idxala qarşı tədbirlərin tətbiqi üçün əsas şərtləri və prosedurları müəyyən edir. |

Mənbə: ÜTT [105]

Cədvəl 5.1.1-də Ümumdünya Ticarət Təşkilatının (ÜTT) fəaliyyətinin hüquqi və normativ əsaslarını təşkil edən əsas sənədlər sistemli şəkildə təqdim edilmişdir. Bu sənədlər ÜTT üzv dövlətlərinin ticarət əlaqələrinin və iqtisadi münasibətlərinin şəffaf, ədalətli və müəyyən qaydalar çərçivəsində aparılmasını təmin edir. Məsələn, "Tariflər və Ticarət üzrə Baş Saziş"lər (1947 və 1994-cü illər) dünya ticarətinin əsas prinsiplərini müəyyən edir, dövlətlərin malların və xidmətlərin sərbəst hərəkətinə şərait yaratmaq öhdəliklərini müəyyənləşdirir.

Eyni zamanda, aqrar-sənaye kompleksi, geyim və tekstil məhsulları kimi xüsusi sektorları tənzimləyən sazişlər, bu sahələrdə dövlət müdaxiləsinin əsas prinsiplərini və sərhədlərini göstərir. Bu, həm milli maraqların qorunmasını, həm də beynəlxalq ticarətin tələblərinə uyğunlaşmanı təmin edir. Sanitar və fitosanitar tədbirlər,

eləcə də texniki maneələrlə bağlı sazişlər məhsul və xidmətlərin keyfiyyət standartlarını qoruyur və idxal-ixrac proseslərində harmonizasiyanı təmin edir.

Cədvəldə eyni zamanda idxal lisenziyalaşdırılması, subsidiyalar, antidempinq tədbirləri və qoruyucu tədbirlər kimi ticarət siyasətinə dair mexanizmlər təsvir olunub ki, bu da bazarların rəqabət qabiliyyətinin pozulmaması və haqsız ticarət praktikalarının qarşısının alınması üçün vacibdir. Ümumilikdə, bu sənədlər üzv ölkələrin qarşılıqlı ticarət fəaliyyətində şəffaflıq, ədalətlilik və beynəlxalq ticarətin sabitliyini təmin etmək məqsədi daşıyır. Azərbaycanın da bu normativ-hüquqi bazanı mənimsəməsi və ona uyğunlaşması ölkənin qlobal ticarət sisteminə inteqrasiyasında əsas amillərdən biri olacaqdır.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) kənd təsərrüfatı sahəsində dövlət tənzimləmələrinə yanaşması qlobal ticarət sistemində balans yaratmağa xidmət edir. Belə ki, müxtəlif dövlətlərin kənd təsərrüfatına dövlət müdaxiləsi ilə bağlı fərqli praktikalara malik olması beynəlxalq səviyyədə vahid çərçivənin yaradılmasını zəruri etmişdir. ÜTT bu məqsədlə tənzimləmə tədbirlərini şəffaf və anlaşılır kateqoriyalara bölərək təsnif etmişdir. Bu təsnifat, mahiyyət etibarilə, bir "işıqfor modeli"nə əsaslanır və hər tədbir yaşıldan qırmızıya doğru icazə səviyyəsinə görə yerləşdirilmişdir. Bu yanaşma həm ticarət mühitində rəqabət şəraitini pozmamaq, həm də ərzaq təhlükəsizliyi və sosial rifah kimi strateji məqsədləri qorumaq üçün nəzərdə tutulmuşdur.

Qəbul edilmiş tənzimləmə üsulları işıqforun rənglərinə uyğun "səbətlər"lə işarələnir: yaşıl (icazə verilir), sarı (dövlət dəstəyinin azaldılması) və qırmızı (qadağandır).

### Cədvəl 5.1.2 ÜTT çərçivəsində tənzimlənmələr

| **“Yaşıl səbət”** | **“Sarı səbət”** | **“Qırmızı səbət”** |
| --- | --- | --- |
| Konsaltinq və informasiya təminatı | Dotasiya | ixrac subsidiyaları və digər ixrac dəstəyi |
| Kadr hazırlığı | xərclərin bir hissəsinin kompensasiyası | Ixrac kvotaları |
| sığorta | lizinq fondu xərcləri | marketinq və beynəlxalq nəqliyyat xərclərinin subsidiyalaşdırılması |
| ətraf mühitin mühafizəsi | kapital qoyuluşunun maliyyələşdirilməsi | |
| Fitosanitar və baytarlıq tədbirləri | bazar qiymətlərindən yüksək qiymətlərlə satınalma | |
| kənd təsərrüfatı məhsullarının satışına kömək | güzəştli kredit | |
| Infrastrukturun təkmilləşdirilməsi | | |

Mənbə: ÜTT-nin məlumatları əsasında müəllifin tərtibi

Cədvəl 5.1.2-də ÜTT çərçivəsində dövlətin kənd təsərrüfatına müdaxilə tədbirləri “yaşıl səbət”, “sarı səbət” və “qırmızı səbət” adı altında qruplaşdırılmışdır. “Yaşıl səbət”ə aid olan tədbirlər tamamilə icazə verilən, ticarəti pozmayan və ya minimum təsirə malik olan müdaxilələrdir. Bunlara konsaltinq, informasiya dəstəyi, infrastrukturun inkişafı, ətraf mühitin mühafizəsi və fitosanitar tədbirlər daxildir. Bu müdaxilələr kənd təsərrüfatının strukturunun güclənməsi və texniki imkanlarının inkişafı baxımından olduqca əhəmiyyətlidir və ÜTT tərəfindən təşviq olunur.

“Sarı səbət”ə isə şərti şəkildə icazə verilən, lakin miqdarı və müddəti ilə bağlı məhdudiyyətlər qoyulan tədbirlər daxildir. Burada söhbət əsasən kənd təsərrüfatı məhsullarının qiymətinin süni şəkildə yüksəldilməsindən, subsidiyaların verilməsindən və ya güzəştli kreditlərin ayrılmasından gedir. Bu tədbirlərə yalnız müəyyən həddə qədər icazə verilir və bu həddi aşmaq ÜTT öhdəliklərinin pozulması deməkdir. Belə bir çərçivə bazar münasibətlərini saxlamaq və qeyri-rəqabətli üstünlüklərin qarşısını almaq məqsədi daşıyır.

Axırıncı, “qırmızı səbət”ə daxil olan tədbirlər tamamilə qadağan edilmişdir və onların tətbiqi birbaşa olaraq beynəlxalq ticarətdə ciddi təhriflərə səbəb ola bilər. Bu səbətdə ixrac subsidiyaları, ixrac kvotaları və beynəlxalq daşınma və marketinq xərclərinin dövlət tərəfindən maliyyələşdirilməsi kimi alətlər yer alır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı sektoru üzrə bu səbətdə yer alan tədbirlər digər sahələrlə müqayisədə daha məhduddur, yəni qırmızı səbətdə daha az qadağa mövcuddur. Bunun əsas səbəbi isə ərzaq təhlükəsizliyi məsələsinin qlobal prioritet olaraq qəbul olunmasıdır [184].

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün ÜTT-nin bəzi qaydalarında çeviklik nəzərdə tutulur. Belə ölkələr daha geniş dövlət müdaxiləsinə ehtiyac duyduqları üçün, müəyyən istisnalar və keçid dövrləri ilə təmin edilirlər. Xüsusilə, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sosial dayanıqlığın qorunması üçün bu istisnalar böyük önəm daşıyır.

Nəticə etibarilə, ÜTT-nin bu səbət modeli ölkələrə hansı sahələrdə sərbəst hərəkət edə biləcəklərini, hansılarda isə ehtiyatlı davranmalı olduqlarını açıq şəkildə göstərir. Bu yanaşma həm milli maraqları, həm də beynəlxalq ticarət qaydalarını balanslaşdırmaq baxımından effektiv bir mexanizm rolunu oynayır.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaqla bağlı səyləri artıq 28 ildən çoxdur ki, davam edir. Belə ki, ölkəmiz 1997-ci ildə bu təşkilata rəsmi müraciət etmiş və həmin vaxtdan etibarən təşkilata üzvlüklə bağlı ikitərəfli və çoxtərəfli danışıqlar prosesinə başlamışdır. Lakin ötən illər ərzində bu proses tam yekunlaşmamış, tərəflər arasında razılaşdırılmamış sahələr qalmışdır. Bu günə qədər müvafiq struktur islahatları aparılsa da, bir sıra sahələr üzrə normativ uyğunlaşdırmaların tamamlanmaması və milli iqtisadi maraqlarla təşkilatın tələbləri arasında mövcud olan fərqlər bu prosesin uzanmasına səbəb olmuşdur.

Bu məsələ, həmçinin, ölkə daxilində müxtəlif mövqelərin formalaşmasına səbəb olub. Akademik dairələrdə və iqtisadi mütəxəssislər arasında ÜTT-yə daxilolmanın nəticələri ilə bağlı ciddi fikir ayrılıqları mövcuddur. Bəzi tədqiqatçılar hesab edirlər ki, Azərbaycanın ÜTT-yə üzv olması yerli istehsalçıların bazar imkanlarını azalda bilər. Onlar bildirirlər ki, xüsusilə aqrar sahə və kiçik sənaye müəssisələri beynəlxalq rəqabətə davam gətirə bilməyəcək və bu, yerli istehsalın geriləməsinə səbəb olacaq. Onların fikrincə, xüsusilə də ucuz və keyfiyyətli xarici məhsulların ölkəyə sərbəst axını daxili bazarın xarici təsirlərə açıq qalmasına gətirib çıxara bilər.

Lakin bu yanaşmanın birtərəfli olduğunu düşünürük. Beynəlxalq təcrübə göstərir ki, ÜTT-yə üzv olan ölkələrin əksəriyyəti orta və uzunmüddətli dövrdə bu inteqrasiyadan əhəmiyyətli şəkildə faydalanmışlar. Qısa müddətli adaptasiya çətinliklərinin olması təbiidir, lakin bu, uzunmüddətli iqtisadi sabitlik, institusional inkişaf, xarici investisiyaların artımı və ixrac imkanlarının genişlənməsi kimi ciddi üstünlüklərlə müqayisədə ikinci planda qalır. Üstəlik, ÜTT çərçivəsində mövcud olan inkişaf

etməkdə olan ölkələrə verilən güzəştli rejimlər Azərbaycan üçün çevik keçid imkanları yarada bilər.

ÜTT-yə daxil olmaq, həm də ölkənin xarici iqtisadi siyasətində struktur dəyişikliyə yol aça bilər. Bu baxımdan, ticarətin liberallaşdırılmasına qarşı çıxanlar üçün daha tutarlı və obyektiv cavab ölkənin real ixrac potensialıdır. İxracın tərkibinə baxdıqda aydın görünür ki, Azərbaycanın ixracatı əsasən xammal məhsullarına – neft, təbii qaz, neft-kimya məhsulları və digər təbii ehtiyatlara əsaslanır. Bu isə ölkə iqtisadiyyatını dünya enerji bazarındakı volatilliklərə qarşı həssas edir.




**Şəkil 5.1.1 Ölkə ixracının əmtəə quruluşu 2023-ci il**

Mənbə: DGK Statistik hesabatlar 2024 https://customs.gov.az/uploads/foreign/2022/2022_12.pdf?v=1674644815 əsasında müəllif tərtibatı

Şəkil 5.1.1-də təqdim olunan məlumatlardan görünür ki, 2023-cü ildə ölkənin ümumi ixracının təqribən 92%-i neft və qaz sektoru ilə əlaqəli məhsulların payına düşmüşdür. Yalnız 8%-lik hissə qeyri-neft məhsulları ilə bağlı olmuşdur ki, bu da ixracın diversifikasiyası baxımından zəifliklərin hələ də qalmaqda

olduğunu göstərir. Üstəlik, bu 8%-lik qeyri-neft sektoru ixracı da əsasən ilkin mərhələli məhsullardan – emal olunmamış xammaldan və aşağı əlavə dəyərli mallardan ibarətdir. Belə ki, pambıq lifi, xam tütün, aşılanmış dəri, ipək, eləcə də meyvə-tərəvəz məhsulları ixracın əsasını təşkil edir. Bu malların əksəriyyəti xammal formasında ixrac olunmaqda davam edir.

Daha detallı təhlil göstərir ki, bu qeyri-neft məhsullarının ixrac strukturunda meyvə-tərəvəz 23%, pambıq lifi 6%, pambıq iplik 1%, elektrik enerjisi 4% təşkil etmişdir. Yerdə qalan 66% isə müxtəlif digər xammal məhsullarının və ilkin istehsal mərhələsində olan malların payıdır. Belə struktur, ölkənin ixrac portfelində texnoloji inkişafın və yüksək əlavə dəyərin olmadığını, innovativ istehsal sahələrinin ixraca kifayət qədər inteqrasiya olunmadığını göstərir.

Bu mənzərə ÜTT-yə daxilolmanı zəruri edən əsas arqumentlərdən birinə çevrilə bilər. Çünki ÜTT çərçivəsində tətbiq edilən şəffaf və sabit qaydalar, yerli istehsalçılar üçün xarici bazarlara çıxışı asanlaşdırır və qeyri-neft sektoru məhsullarının emalı, qablaşdırılması, keyfiyyət sertifikatlaşdırılması və ixrac prosedurlarının təkmilləşdirilməsinə töhfə verir. ÜTT çərçivəsində xarici investisiyaların artımı isə xüsusilə kənd təsərrüfatı və yüngül sənaye sahələrində daha keyfiyyətli məhsulların istehsalına və ixrac yönümlü sektorların inkişafına səbəb ola bilər.

Beləliklə, ÜTT-yə üzvlük Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının reallaşmasına geniş imkanlar yarada, ticarətin coğrafi və məhsul strukturunu şaxələndirə və milli iqtisadiyyatın dayanıqlılığını artıra bilər.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması, ölkənin iqtisadi inkişafının yeni mərhələyə keçidi baxımından strateji əhəmiyyət daşıyır. İllərlə davam edən danışıqlar

prosesinə baxmayaraq, üzvlük məsələsinin hələ də yekunlaşdırılmaması bir tərəfdən mövcud institusional, hüquqi və struktur islahatların ləng getməsi ilə izah edilə bilərsə, digər tərəfdən bu prosesin başa çatdırılmasının əhəmiyyətini göstərən arqumentlərin ciddi şəkildə nəzərə alınması zəruridir.

İlk növbədə, Azərbaycanın ÜTT-yə üzv olması xarici ticarət əlaqələrinin daha da dərinləşməsi və liberallaşdırılması üçün mühüm zəmin yaradır. Təşkilatın əsas prinsipləri – qeyri-ayrıseçkilik, şəffaflıq, ticarət maneələrinin azaldılması və mübahisələrin effektiv həlli – Azərbaycanın beynəlxalq ticarət sisteminə daha dərin inteqrasiyasını təmin etməklə, ixrac yönümlü istehsal sahələrinin genişlənməsinə imkan yaradar. Bu isə qeyri-neft sektorunun inkişafı və iqtisadi şaxələndirmə baxımından önəmli töhfə vermiş olar.

Ticarət rejiminin liberallaşdırılması ÜTT-yə üzvlük kontekstində tez-tez narahatlıq doğuran məsələlərdən biri olsa da, bu proses avtomatik və radikal şəkildə həyata keçirilmir. Beynəlxalq təcrübə göstərir ki, ÜTT-yə qoşulmuş ölkələrdə ticarət rejimində baş verən dəyişikliklər bir çox hallarda tədricən və razılaşdırılmış qaydada baş verir və bu da daxili bazarda kəskin qiymət dəyişikliklərinin qarşısını alır. Qurumun əsas tələblərindən biri azad idxal rejiminin tətbiqi deyil, əksinə, ticarət sahəsində şəffaf və ayrı-seçkilikdən uzaq bir mühitin formalaşdırılmasıdır. Bu baxımdan, ÜTT-yə üzvlük zamanı hər bir ölkənin üzərinə götürdüyü öhdəliklər, qəbul etdiyi güzəştlər və danışıqlar masasında əldə etdiyi razılaşmalar idxal siyasətinin gələcək istiqamətini müəyyənləşdirir.

Ümumiyyətlə ÜTT-nin əsas prinsipi ölkələr üzrə ayrı-seçkilik olmadan ticarət olduğundan, onun bütün tələbləri ədalətli beynəlxalq ticarət mühiti üçün şərait yaratmağa yönəldilmişdir.

Bununla bərabər haqsız rəqabətə qarşı mübarizə və daxili bazarın və yerli istehsalçıların qorunması məqsədlərinə nail olmaq üçün ÜTT idxaldan yerli istehsalçılara zərər vurulduğu halda tətbiq edilə bilən antidempinq, kompensasiya və qoruyucu tədbirləri də nəzərdə tutur.

Digər bir vacib arqument ondan ibarətdir ki, ÜTT-yə üzvlük beynəlxalq sərmayədarlar üçün əlverişli investisiya mühiti formalaşdırır. Belə ki, ÜTT çərçivəsində götürülən öhdəliklər və hüquqi şəffaflıq, ölkədə hüquqi mühitin sabitliyinə və xarici investorların hüquqlarının qorunmasına zəmanət verir. Bu isə investisiya risklərinin azalmasına, uzunmüddətli kapital axınının artmasına və texnologiyaların transferinə şərait yaradır. Əlavə olaraq, xarici sərmayədarların daha etibarlı və sabit iqtisadi mühitdə fəaliyyət göstərməsi regionda rəqabətədavamlı istehsal və xidmət sahələrinin inkişafını stimullaşdıracaqdır.

Bundan əlavə, ÜTT-yə üzvlük Azərbaycanın iqtisadi və institusional islahatlara daha sistemli və məqsədyönlü şəkildə yanaşmasına təkan verəcəkdir. Təşkilata üzv olma prosesi özü-özlüyündə genişmiqyaslı islahatların aparılmasını şərtləndirir, xüsusilə, gömrük sistemində, texniki tənzimləmələrdə, kənd təsərrüfatının subsidiyalaşdırılması siyasətində və əqli mülkiyyət hüquqlarının qorunmasında. Bu sahələrdə beynəlxalq norma və standartların tətbiqi ölkənin ümumi idarəetmə keyfiyyətinin və institusional performansının yüksəlməsinə gətirib çıxaracaq. Bu isə yalnız ticarət deyil, bütövlükdə iqtisadi idarəetmənin səmərəliliyi və şəffaflığı üçün vacibdir.

Azərbaycanın ÜTT-yə daxil olması həmçinin milli məhsulların beynəlxalq bazarlarda tanıdılması və sertifikatlaşdırılması prosesini asanlaşdırır. Belə ki, təşkilat çərçivəsində texniki maneələrin aradan qaldırılması və sanitariya-

fitosanitariya standartlarının uyğunlaşdırılması ölkənin kənd təsərrüfatı və emal məhsullarının dünya bazarlarına çıxış imkanlarını artırır. Bu da xüsusilə aqrar sahənin ixrac potensialını genişləndirmək və regionlarda məşğulluğun artırılması baxımından əhəmiyyətlidir.

Nəhayət, ÜTT-yə üzvlük Azərbaycanın beynəlxalq mövqeyinin və reputasiyasının güclənməsinə dəstək verir. Bu üzvlük, ölkənin beynəlxalq ticarət sistemində etibarlı tərəfdaş kimi çıxış etməsinə, qlobal iqtisadi strukturlarla daha sıx əlaqələr qurmasına, eləcə də beynəlxalq maliyyə qurumları və donor təşkilatlarla əməkdaşlığın genişlənməsinə şərait yaradır. Bu isə Azərbaycanın iqtisadi təhlükəsizliyinin və uzunmüddətli inkişafının təmin olunması üçün mühüm əsaslardan biridir.

Beləliklə, Azərbaycanın ÜTT-yə daxil olması yalnız ticarət sahəsində deyil, həm də ümumi iqtisadi strukturun modernləşdirilməsi, institusional dayanıqlığın artırılması və sosial-iqtisadi inkişafa sistemli yanaşmanın tətbiqi baxımından çoxşaxəli və dərin nəticələr vəd edir. Bu baxımdan, üzvlüyün təmin olunması dövlətin iqtisadi strategiyasının mühüm komponenti kimi nəzərdən keçirilməli və bu istiqamətdə islahatlar intensivləşdirilməlidir.

## 5.2. Aqroemal sektorunda ÜTT-yə inteqrasiyanın gözlənilən təsirləri və adaptasiya prioritetləri

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) mümkün üzvlüyü ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə, xüsusilə də strateji əhəmiyyət daşıyan aqroemal sektoruna çoxşaxəli təsirlər göstərəcək. Bu təsirlər təkcə tarif və texniki maneələrin ləğvi ilə məhdudlaşmır, eyni zamanda, yerli istehsalçıların institusional davranışlarında, rəqabətə yanaşmalarında və beynəlxalq

standartlara uyğunlaşma bacarıqlarında ciddi dəyişiklikləri tələb edir. Məhz bu kontekstdə ÜTT-yə inteqrasiya yalnız bir ticarət-saziş məsələsi deyil, həm də struktur islahatlarının və milli istehsal sisteminin keyfiyyətcə transformasiyasının bir mərhələsi kimi çıxış edir.

Aqroemal sənaye, kənd təsərrüfatı ilə sənaye arasında körpü rolu oynamaqla, həm ərzaq təhlükəsizliyinin təmin olunmasında, həm də regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Lakin bu sahənin rəqabətqabiliyyətliliyinin ÜTT şərtlərinə uyğun səviyyəyə gətirilməsi, həm istehsal texnologiyalarında modernləşməni, həm də institusional mühitdə çevik uyğunlaşmanı tələb edir. Mövcud vəziyyətdə sektor həm texniki normativlər, həm də sanitar və fitosanitar tələblər baxımından beynəlxalq standartlardan xeyli geri qalır. Bu səbəbdən, ÜTT-yə daxilolma aqroemal sənayesi üçün bir sınaq meydanı olmaqla yanaşı, onun davamlı inkişafı üçün yeni fürsətlər və mexanizmlər aça bilər.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, təşkilata üzvlük, bir sıra güzəştlərin tədricən aradan qalxması ilə bərabər, daxili bazarın müdafiəsində dövlətin manevr imkanlarını məhdudlaşdıracaq. Bu, xüsusən yüksək subsidiyalara və inzibati dəstəyə alışmış emal müəssisələri üçün transformasiya zərurətini daha da aktuallaşdırır. Belə bir şəraitdə aqroemal müəssisələrinin texnoloji səviyyəsinin, məhsul keyfiyyətinin və ixrac yönümlülüyünün artırılması əsas adaptasiya prioritetlərindən biri kimi çıxış edir. Paralel olaraq, milli standartlaşdırma və sertifikatlaşdırma sistemlərinin beynəlxalq norma və qaydalara uyğunlaşdırılması, həm də bu sistemlərin özəl sektor üçün daha əlçatan və çevik hala gətirilməsi tələb olunur.

Nəticə etibarilə, bu bölmədə ÜTT-yə inteqrasiyanın aqroemal sektoru üçün yaratdığı risklər və imkanlar geniş təhlil ediləcək, habelə adaptasiya prosesinin effektiv idarə olunması üçün

konseptual və praktiki prioritetlər irəli sürüləcək. Burada həm siyasi-institusional çərçivənin, həm də mikroiqtisadi aktorların — yəni konkret emal müəssisələrinin — yeni tələblərə nə dərəcədə hazır olduqları da diqqətə alınacaq. Bu yanaşma həm strateji planlaşdırma, həm də real siyasət tövsiyələrinin formalaşdırılması baxımından aktual elmi-nəzəri əsaslar təmin edəcək.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyə can atması ölkənin iqtisadi sistemində institusional və funksional transformasiyaları şərtləndirən strateji hədəf kimi çıxış edir. Bu transformasiyalar xüsusilə aqrar sahə üçün və onun dəyər zəncirinin kritik halqası olan aqroemal sektoru üçün mühüm əhəmiyyət daşıyır. Çünki ÜTT-yə üzvlük sadəcə xarici ticarət rejiminin liberallaşdırılması ilə məhdudlaşmır, o, həm də milli istehsal və ticarət siyasətlərinin beynəlxalq öhdəliklərlə uzlaşdırılmasını tələb edir. Bu kontekstdə aqroemal sektorunun qarşılaşacağı institusional, texniki və bazar yönümlü çağırışlar daha mürəkkəb və çoxşaxəli xarakter daşıyır.

Aqroemal sektorunun spesifik xüsusiyyətləri – xammal təchizatında kənd təsərrüfatı istehsalçılarından asılılıq, aşağı texnoloji intensivlik, emal gücünün qeyri-bərabər yerləşməsi, daxili bazar yönümlü struktur – bunlar ÜTT-yə inteqrasiya şəraitində onun daha həssas vəziyyətə düşməsi ehtimalını artırır. Bu səbəbdən, inteqrasiya kontekstində yalnız ticarət rejimində dəyişikliklər deyil, həm də dövlət dəstək mexanizmlərinin transformasiyası xüsusi önəm kəsb edir. Xüsusilə, subsidiyaların və proteksionist siyasətlərin ÜTT normalarına uyğunlaşdırılması məsələsi, daxili istehsalın rəqabət qabiliyyətini birbaşa təsirə məruz qoyur. Bu baxımdan, adaptasiya strategiyaları təkcə inzibati deyil, həm də texniki və struktur islahatlar kontekstində dəyərləndirilməlidir.

Beynəlxalq təcrübə göstərir ki, ÜTT-yə inteqrasiyanın aqroemal sektoru üçün təsiri müxtəlif aspektlərdə təzahür edir: bir tərəfdən bazarlara çıxış imkanlarının genişlənməsi, ixrac şərtlərinin sabitləşməsi və texniki tənzimləmələrin standartlaşdırılması kimi müsbət effektlər müşahidə oluna bilər; digər tərəfdən isə daxili bazarın xarici rəqiblərə qarşı zəif müdafiəsi, dövlət subsidiyalarının məhdudlaşdırılması və qeyri-tarif baryerlərin azaldılması nəticəsində yerli istehsalçıların sıxışdırılması kimi mənfi risklər meydana çıxa bilər. Bu səbəbdən, adaptasiya prosesində institusional uyğunlaşma prioritetləri aşağıdakı istiqamətlər üzrə formalaşdırılmalıdır: məhsul təhlükəsizliyi və keyfiyyət sistemlərinin gücləndirilməsi, texniki baryerlərin və fitosanitar tədbirlərin ÜTT qaydalarına uyğunlaşdırılması, ixrac üçün logistika və sertifikatlaşdırma mexanizmlərinin modernləşdirilməsi, habelə bazar şaxələndirmə strategiyalarının təşviqi.

Yuxarıda qeyd olunan arqumentlər göstərir ki, aqroemal sektorunun ÜTT-yə inteqrasiya prosesindən itkilərlə deyil, transformativ üstünlüklərlə çıxması üçün yalnız normativ uyğunlaşma deyil, həm də sistemli və ardıcıl struktur islahatları zəruridir. Bu isə təkcə dövlət siyasəti ilə deyil, həm də özəl sektorun təşəbbüskarlığı və institusional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi ilə mümkün olacaqdır.

Mövzunun daha düzgün anlaşılması üçün məsələyə alternativ rakursdan yanaşmaq məqsədəuyğundur: bəs ÜTT-yə daxil olmamağın ölkəmizə qazandıracağı nədir? Təcrübə və müasir iqtisadi nəzəriyyələr göstərir ki, proteksionist siyasətə əsaslanan inkişaf modeli uzunmüddətli və dayanıqlı iqtisadi artım üçün optimal yol deyil. Beynəlxalq iqtisadi münasibətlər sistemində artıq belə qənaət formalaşıb ki, xarici ticarətə məhdudiyyətlər tətbiq edən, daxili bazarı süni şəkildə qoruyan və beynəlxalq rəqabətə

inteqrasiya olunmayan ölkələr nə texnoloji, nə də institusional baxımdan iqtisadi irəliləyişə nail ola bilmirlər. Bu baxımdan, Azərbaycanın ÜTT-yə daxil olmaması, iqtisadiyyatımızda bir sıra ciddi struktur problemlərin dərinləşməsi ilə nəticələnə bilər.

1. ÜTT-nin tələbləri, əslində, daha şəffaf və səmərəli bazar mexanizmlərinin tətbiqi üçün hüquqi-institusional çərçivə yaradır. Hazırda daxili bazarda mövcud olan qiymət disbalansları – yəni daxili qiymətlərin dünya qiymətləri ilə müqayisədə qeyri-real şəkildə yüksək olması – istehsalçıların ixrac stimullarını əhəmiyyətli dərəcədə zəiflədir. Məsələn, istehsalçı bazarda məhsulunu daha yüksək qiymətə sata biləcəksə, əlavə bazarlar axtarmağa və ixrac prosesinə inteqrasiya olmağa meyilli olmur. Bu isə həm ixrac portfelinin məhdudlaşmasına, həm də istehsal səmərəliliyinin azalmasına səbəb olur.

Statistik göstəricilər bu fikri aydın təsdiqləyir. 2021-ci ildə Azərbaycanın qeyri-neft sektorunda ixrac həcmi cəmi 2,6 milyard ABŞ dolları təşkil etmişdir. 2022-ci ildə bu rəqəm cüzi artaraq 2,8 milyard dollara çatmışdır. Müqayisə üçün qeyd edək ki, nefti olmayan, əhalisi və iqtisadi potensialı Azərbaycandan kiçik olan, lakin ÜTT üzvü olan Gürcüstanda ixrac 2022-ci ildə 5,6 milyard dollar, Ermənistanda 5,4 milyard dollar, Moldovada isə 4,3 milyard dollar olmuşdur. Azərbaycanda bu göstərici 2023-cü ildə yalnız 3 milyard dollara yaxınlaşmışdır. Bu faktlar ölkəmizdə qeyri-neft ixracının hələ də kifayət qədər zəif olduğunu və struktur baxımından xammal yönümlü qaldığını göstərir.

Bazarın real vəziyyətinə dair konkret misallar da bu arqumentləri gücləndirir. 2023-cü ildə ölkəmizdə istehsal olunan siqaretlərin ixrac qiyməti hər qutu üçün cəmi 0,25 ABŞ dolları və ya 0,43 manat təşkil etmişdir. Halbuki həmin məhsulun daxili bazardakı orta pərakəndə satış qiyməti 3 manatdan yüksəkdir. Bu,

yalnız vergi və rüsumların deyil, həm də bazar qorunması siyasətinin nəticəsidir. Eyni hal şəkər məhsullarında da müşahidə olunur – ixrac qiyməti 0,74 dollar (təxminən 1,25 manat) olduğu halda, daxili bazarda qiymət bunun əhəmiyyətli dərəcədə üzərindədir. Belə qiymət fərqləri istehsalçıları ixracdan çəkindirir, çünki daha asan və gəlirli yol daxili bazarda satış yolu ilə mənfəət əldə etməkdir. Lakin bu, uzunmüddətli inkişaf üçün risklidir – daxili bazarın kiçik ölçüsü, artan rəqabət və qeyri-effektivlik nəticə etibarilə sektorun daralmasına səbəb ola bilər.

2.ÜTT-yə üzv olmamağın ölkə iqtisadiyyatı üçün doğurduğu mühüm problemlərdən biri də nəzarətsiz və sənədsiz məhsul idxalının, başqa sözlə, qaçaqmalçılığın artmasıdır. Bu hal yalnız vergidən yayınma ilə nəticələnmir, eyni zamanda yerli istehsalçılar üçün qeyri-bərabər rəqabət mühiti yaradır, bazar şərtlərinin təhrifinə və iqtisadi idarəetmədə sistemli boşluqların dərinləşməsinə səbəb olur. Qaçaqmalçılıq geniş mənada yalnız sərhəddən rəsmi qeydiyyatsız mal keçirilməsi deyil, həm də idxal edilən malların real həcminin, qiymətinin və ya keyfiyyət xüsusiyyətlərinin sənədlərdə qəsdən az və ya yanlış göstərilməsi, nəticədə gömrük rüsumlarının və digər fiskal öhdəliklərin ödənilməsindən yayınmaq cəhdidir.

Təcrübədə bu halın çoxsaylı nümunələrinə rast gəlinir. 2023-cü ilin statistikasına nəzər salsaq, yalnız bir sektor – ayaqqabı idxalı üzrə vəziyyətin nə dərəcədə problemli olduğunu müşahidə edə bilərik. Həmin il ərzində İran İslam Respublikasından Azərbaycana idxal olunan ayaqqabının miqdarı 9,9 milyon cüt, Çin Xalq Respublikasından isə 23,4 milyon cüt təşkil etmişdir. Maraqlıdır ki, sənədlərdə İran mənşəli ayaqqabıların orta idxal dəyəri hər cüt üçün cəmi 0,81 ABŞ dolları (təxminən 1,38 manat), Çin mənşəli ayaqqabılar üçün isə 3,2 dollar (təqribən 5,44 manat) göstərilmişdir.

Halbuki Dövlət Statistika Komitəsinin 2023-cü ilə dair pərakəndə satış qiymətləri hesabatında yerli bazarda ayaqqabıların orta satış qiyməti hər cüt üçün 27,8 manat olaraq qeyd edilmişdir. Nəzərə almalıyıq ki, İran və Çindən idxal olunan ayaqqabı ümumi istehlakın əsas hissəsini təşkil edir. Belə böyük qiymət fərqləri, xüsusilə idxal qiymətləri ilə daxili satış qiymətləri arasında bu qədər ciddi uyğunsuzluq, ya idxal zamanı real qiymətlərin gizlədildiyini, ya da idxal mallarının ciddi şəkildə aşağı qiymətlə sənədləşdirilərək fiskal öhdəliklərdən yayınma hallarının sistematik xarakter aldığını göstərir.

Bu cür təcrübələr təkcə ayaqqabı sektoruna aid deyil. Eyni problemlər dərman vasitələrinin və tibbi avadanlıqların idxalında da müşahidə olunur. Dünya bazarlarında və region ölkələrində müşahidə olunan qiymətlərlə müqayisədə, Azərbaycanda eyni məhsulların satış qiymətləri əhəmiyyətli dərəcədə yüksəkdir. Bu isə onu deməyə əsas verir ki, həm qiymət təhrifləri mövcuddur, həm də bazarda süni qiymət şişirdilməsinə və qeyri-şəffaf dövriyyəyə yol açan mexanizmlər aktiv şəkildə işləkdir.

Digər tərəfdən, idxal statistikalarının uyğunsuzluğu da ciddi narahatlıq doğurur. Bəzi hallarda, Azərbaycan ərazisinə idxal olunan məhsulların həcmi, mənbə ölkələrin açıqladığı ixrac göstəriciləri ilə üst-üstə düşmür. Məsələn, Gürcüstan və ya Türkiyə kimi qonşu ölkələrin verdiyi ixrac məlumatları ilə Azərbaycanın gömrük statistikasında qeydə alınan idxal həcmləri arasında ciddi fərqlər ortaya çıxır. Bu fərqlər birbaşa olaraq qeyri-rəsmi dövriyyələrin mövcudluğundan, bəzi hallarda isə məqsədli şəkildə məlumatların təhrifindən qaynaqlana bilər.

Bu cür halların mövcudluğu təkcə dövlətin fiskal gəlirlərinə zərbə vurmaqla kifayətlənmir, eyni zamanda daxili bazarda ədalətli rəqabət mühitini pozur. Yerli istehsalçılar sənədsiz və ya ucuz

göstərilmiş idxal malları ilə rəqabətdə çətinlik çəkir, bu isə onların rentabelliyini azaldır, investisiya və genişlənmə imkanlarını məhdudlaşdırır. Bundan əlavə, keyfiyyətə nəzarət və sanitar-fitosanitar tələblərdən yayınan məhsulların ölkə bazarına daxil olması istehlakçıların sağlamlığı və təhlükəsizliyi baxımından da ciddi təhdid yaradır.

3.ÜTT-yə üzv olmamağın fəsadları yalnız fiskal şəffaflıq və xarici ticarət rejiminin natamamlığı ilə məhdudlaşmır. Bu, həm də daxili iqtisadi münasibətlər sistemində struktur problemlərin dərinləşməsinə, iqtisadi subyektlər arasında bərabərsizliklərin artmasına, rəqabət mühitinin pozulmasına və investisiya cəlbediciliyinin azalmasına səbəb olur. Bu baxımdan, ÜTT-yə daxil olmamaq yalnız beynəlxalq səviyyədə deyil, eyni zamanda milli iqtisadiyyatda da bir sıra fundamental əngəllər yaradır.

İlk olaraq qeyd etmək lazımdır ki, ÜTT-dən kənarda qalmaq xüsusilə kənd təsərrüfatı emalı ilə bağlı sektorların strukturlaşmasında qeyri-bərabər iqtisadi münasibətlərə səbəb olur. Azərbaycanda kənd təsərrüfatı məhsullarının əsas hissəsini təşkil edən pambıq, tütün, şəkər çuğunduru, texniki üzüm, fındıq, eləcə də meyvə-tərəvəz istehsalçıları əsasən bir və ya bir neçə iri emal müəssisəsindən asılı vəziyyətdədir. Bu müəssisələr daxili bazarda faktiki inhisarçılıq mövqeyinə sahib olduqları üçün xammal alış qiymətlərini öz maraqlarına uyğun olaraq müəyyənləşdirir, fermerlərin isə alternativ satış kanalları olmadığı üçün bu şərtləri qəbul etməkdən başqa çıxış yolları qalmır. Bu isə öz növbəsində regionlarda kənd təsərrüfatı ilə məşğul olan ailələrin gəlirlərinin ədalətsiz bölüşdürülməsi, sektora investisiya marağının azalması və kənd yerlərində sosial-iqtisadi sabitliyin zəifləməsi ilə nəticələnir.

Məsələn, pambıqçılıq sahəsində aparılmış empirik tədqiqatların nəticələri göstərir ki, 2023-cü ildə fermerlər bu sahəyə yatırdıqları

hər 100 manat vəsaitin əvəzində orta hesabla yalnız 112 manat gəlir əldə etmişlərsə, həmin məhsulu qəbul edən emal müəssisələri eyni həcmdə xammaldan 200 manatlıq gəlir götürmüşdür. Bu kimi ədalətsiz iqtisadi bölüşdürmə yalnız pambıqçılıq deyil, həmçinin tütünçülük, şəkər çuğunduru istehsalı, texniki üzümçülük və fındıqçılıq sahələrində də müşahidə olunur. ÜTT-yə üzvlük çərçivəsində tətbiq olunan şəffaflıq, rəqabət və bazar tənzimləmə prinsipləri bu cür inhisarçı təcrübələrin qarşısını müəyyən qədər alacaq, fermerlərin bazar imkanlarını genişləndirəcək və qiymət müəyyənləşdirməsində balanslı münasibətlərin formalaşmasına zəmin yaradacaqdır.

4.Növbəti əngəl isə idxal məhsulları üzərində formalaşan lobbiçilik və onun doğurduğu nəticələrlə bağlıdır. ÜTT-yə daxil olmama şəraitində, idxal siyasəti üzərində səmərəli institusional nəzarət mexanizmlərinin olmaması, idxalçı dairələrin, xüsusilə müəyyən məhsul və ya məhsul qrupları üzrə fəaliyyət göstərən iqtisadi aktorların təsir imkanlarını artırır. Bu cür vəziyyət ayrı-ayrı şəxslər və ya qrupların lobbiçilik vasitəsilə idxal prosedurlarına təsir göstərməsinə və bu sahədə faktiki inhisar mövqeyi qazanmasına gətirib çıxarır. Belə olan halda daxili bazarda idxal məhsullarının üstün mövqeyə çıxması, yerli istehsalın sıradan çıxması, keyfiyyət və rəqabət göstəricilərinin geriləməsi qaçılmaz olur. Bütün bunlar iqtisadi inkişafın dayanıqlılığına və vətəndaş rifahına birbaşa mənfi təsir göstərir.

Nəticə etibarilə, ÜTT çərçivəsində nəzərdə tutulan "milli rəftar" prinsipi, yəni daxili istehsalçıya necə rəftar edilirsə, xarici istehsalçıya da eyni münasibətin göstərilməsi, rəqabət mühitinin şəffaf şəkildə formalaşmasını təmin edir və inhisarçı meyilləri məhdudlaşdırır. Bu isə öz növbəsində lobbiçiliyə əsaslanan idxal

modellərinin qarşısını alır, iqtisadi səmərəliliyi artırır və bazar oyunçularının fəaliyyətini daha rasional çərçivəyə salır.

5. ÜTT-yə daxil olmamağın növbəti ciddi mənfi nəticəsi ölkəyə xarici investisiyaların cəlb edilməsindəki çətinliklərlə bağlıdır. İnvestorlar üçün investisiya mühiti yalnız resursların mövcudluğu ilə deyil, eyni zamanda iqtisadi sistemin sabitliyi, şəffaflığı və proqnozlaşdırıla bilmə səviyyəsi ilə qiymətləndirilir. ÜTT-yə üzv olan ölkələr bu baxımdan müəyyən beynəlxalq öhdəliklərə sahib olduqları üçün daha stabil və proqnozlaşdırıla bilən iqtisadi mühit təklif edir. Bu, investorun hüquqlarının qorunması, ticarət prosedurlarının sadələşdirilməsi, hüquqi mübahisələrin həlli mexanizmlərinin mövcudluğu kimi amillər vasitəsilə təmin edilir.

Azərbaycanın ÜTT-yə daxil olmaması, bu baxımdan, xarici investorlar üçün əlavə risk amili kimi dəyərləndirilir. Bu isə ölkəyə daxil olan birbaşa xarici investisiyaların həcminin məhdudlaşmasına, xüsusilə, kənd təsərrüfatı və emal sənayesinə yönələn investisiyaların azlığına səbəb olur. Halbuki bu sahələr dayanıqlı regional inkişaf və qeyri-neft sektorunun diversifikasiyası baxımından strateji əhəmiyyət daşıyır.

Ümumiləşdirsək, ÜTT-yə daxil olmama yalnız ticarət çərçivəsində deyil, həm də institusional, sosial və struktur baxımından milli iqtisadiyyat üçün sistemli problemlər doğurur. İnkişaf etməkdə olan ölkə kimi Azərbaycan üçün bu təşkilata inteqrasiya iqtisadi modernləşmənin sürətləndirilməsi, bazar institutlarının formalaşdırılması və sosial-iqtisadi bərabərliyin təşviqi baxımından əhəmiyyətli bir alət kimi dəyərləndirilməlidir.

Yuxarıda qeyd olunan təhlillər açıq şəkildə göstərir ki, Azərbaycanın ÜTT-yə inteqrasiyadan kənarda qalması iqtisadi sistemin bir sıra əsas sütunlarında disbalans və qeyri-sabitlik yaradır. Bu disbalans həm makroiqtisadi səviyyədə – ixrac

strukturunun zəifliyi, qeyri-neft sektorunun inkişaf potensialının reallaşmaması, həm də mikroiqtisadi səviyyədə, istehsalçıların bazar çıxışlarında məhdudiyyətlər, inhisarçılıq və qeyri-bərabər gəlir bölgüsü şəklində özünü göstərir. Digər tərəfdən, institusional zəifliklər, xüsusilə gömrük və vergi idarəçiliyində şəffaflığın tam təmin olunmaması, sənədsiz idxal və qaçaqmalçılıq hallarının stimullaşmasına şərait yaradır. Bu kimi hallar nəinki fiskal intizamı pozur, eyni zamanda daxili bazarda haqsız rəqabətə, qiymət təhriflərinə və istehlakçı hüquqlarının pozulmasına səbəb olur.

ÜTT-nin üzvlük tələbləri isə məhz bu cür sistemsizliyin qarşısını almağa yönəlmiş normativ və institusional çərçivələr təqdim edir. Xüsusilə "Ticarətdə Texniki Maneələr" və "Sanitar-Fitosanitar Sazişlər" kimi hüquqi sənədlər yalnız ticarət axınlarının sadələşdirilməsi ilə deyil, həm də keyfiyyət, təhlükəsizlik və şəffaflıq baxımından beynəlxalq standartların tətbiqi ilə əlaqədardır. Bu tənzimləmələr çərçivəsində idxal-ixrac əməliyyatlarının hüquqi əsaslarla həyata keçirilməsi təmin olunur, məhsul təhlükəsizliyi və bazar nizam-intizamı yüksəlir. Azərbaycan bu hüquqi çərçivələrdən kənarda qalmaqla, təkcə beynəlxalq ticarət imkanlarını deyil, həm də iqtisadi idarəetmənin institusional keyfiyyətini yaxşılaşdırmaq fürsətini itirir.

Sənədsiz məhsul idxalının artması, qiymət manipulyasiyaları, statistik uyğunsuzluqlar, idxal mallarının daxili bazarda real dəyərindən xeyli yüksək qiymətlərlə satılması kimi hallar, ÜTT-yə üzv olmamağın doğurduğu sistemli nəticələrdən yalnız bir neçəsidir. Belə halların davamlılığı hüquqi tənzimləmələrə və gömrük nəzarət mexanizmlərinə inamı sarsıdır, dövlət büdcəsinə daxilolmaları azaldır, rəqabət mühitini pozur və ümumilikdə milli iqtisadi təhlükəsizliyi təhdid edir.

Bundan başqa, ÜTT üzvü olan ölkələrdə investor hüquqlarının qorunması və institusional sabitliyin təmin olunması bu ölkələri daha cəlbedici investisiya məkanına çevirir. Azərbaycan isə bu qurumdan kənarda qalmaqla, beynəlxalq investisiya axınlarından daha az faydalanmaq riskini daşıyır. Həmçinin, yerli bazarda istehsalçıların azad rəqabət şəraitində fəaliyyət göstərə bilməməsi uzunmüddətli perspektivdə texnoloji inkişafı ləngidir, innovativ təşəbbüslərin yaranmasını əngəlləyir və iqtisadiyyatın ümumi dayanıqlığını zəiflədir.

Bütün bunlar onu deməyə əsas verir ki, ÜTT-yə üzv olmamaq məsələsi təkcə gömrük rüsumları və idxal prosedurlarına aid texniki məsələ deyil, bu, birbaşa olaraq iqtisadi siyasətin strateji mahiyyəti, iqtisadi idarəetmənin keyfiyyəti, sosial rifah və regional balansın qorunması ilə bağlı fundamental məsələdir. Əgər Azərbaycan beynəlxalq ticarət sisteminin fəal üzvü kimi çıxış etməyi, qeyri-neft sektorunun ixrac imkanlarını genişləndirməyi, daxili bazarda şəffaf rəqabət mühiti yaratmağı, investisiya cəlbediciliyini artırmağı və institusional inkişafı sürətləndirməyi qarşısına məqsəd qoyursa, bu məqsədlərə çatmağın ən səmərəli yollarından biri ÜTT-yə üzvlük prosesini fəallaşdırmaq və bu istiqamətdə real siyasi və iqtisadi iradə nümayiş etdirməkdir.

Beləliklə, ÜTT-yə inteqrasiya Azərbaycan üçün yalnız xarici ticarət mexanizmlərinin yenilənməsi anlamına gəlmir – bu, eyni zamanda iqtisadiyyatın struktur modernləşdirilməsi, hüquqi-institusional sabitliyin gücləndirilməsi və uzunmüddətli dayanıqlı inkişaf modelinin qurulması üçün strateji əhəmiyyətli platformadır.

*"Azərbaycanın ÜTT-yə daxil olması olduqca vacibdir, çünki daxili bazarda müəyyən stabillik yaranar, məhsul bolluğu yaranar, məmur inhisarçılığının və monopoliyanın müəyyən qədər qarşısı alınar. ÜTT-yə daxilolma ölkə ticarətini, iqtisadiyyatının tamamilə*

*liberallaşmasına gətirib çıxara bilər. ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır"* [105, s.223].

Yuxarıda sadalanan arqumentlərdən aydın görünür ki, Ümumdünya Ticarət Təşkilatına üzvlük yalnız xarici ticarət rejiminin yenidən qurulması və iqtisadiyyatın açılması deyil, eyni zamanda dərin struktur islahatlarının stimullaşdırılması baxımından da həlledici əhəmiyyət daşıyır. Bu baxımdan aqrar sektor və onun ayrılmaz hissəsi olan emal sənayesi bu inteqrasiya prosesindən ən çox faydalanacaq sahələr sırasındadır. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalında artım müşahidə edilsə də, emal infrastrukturunun inkişafı hələ də məhduddur və bazar mexanizmlərindən daha çox inzibati idarəetmə üsulları ilə tənzimlənir. Bu mövcud vəziyyət bazar iqtisadiyyatının prinsipləri ilə tam uyğun gəlmir və fermerlərin iqtisadi təşəbbüslərinə, habelə kommersiya maraqlarına müəyyən dərəcədə maneələr yaradır.

ÜTT-nin təqdim etdiyi institusional çərçivələr və normativ tələblər məhz bu nöqsanları aradan qaldırmağa yönəlib. Üzvlük ölkədə sərbəst rəqabət mühitinin təşviqinə, qiymət formalaşmasında şəffaf mexanizmlərin qurulmasına və aqroemal sahəsində inhisarçı praktikaların neytrallaşdırılmasına xidmət edir. Xüsusilə də gön-dəri, ayaqqabı, tekstil və digər kənd təsərrüfatı mənşəli emal sahələrinin yenidən qurulması və beynəlxalq rəqabətə hazır vəziyyətə gətirilməsi üçün vacib olan texnologiyaların və kapitalın ölkəyə cəlb edilməsi baxımından ÜTT çərçivəsində yaradılan hüquqi təminatlar həlledici əhəmiyyətə malikdir. Bu təşkilata üzv olan ölkələrdə birbaşa xarici investisiyaların həcminin

sürətlə artması da məhz bu hüquqi və institusional sabitliklə izah olunur.

Digər tərəfdən, ÜTT-nin subsidiya siyasəti ilə bağlı tələbləri kənd təsərrüfatı subyektlərinin daha rasional və effektiv fəaliyyətinə yol açır. Bu, dövlətin qeyri-səmərəli və ya inzibati yolla paylanan subsidiyalarla deyil, bazar yönümlü təşviqlərlə dəstək verməsini stimullaşdırır. Nəticə etibarilə, istehsalçılar daha yüksək məhsuldarlıq, daha keyfiyyətli məhsul və daha effektiv resurs idarəçiliyi üçün təşviq olunurlar. Bu, xüsusilə idxal əvəzləyici və ixrac yönümlü məhsullar üzrə yerli istehsalın artması baxımından strateji rol oynayır.

Bundan əlavə, ÜTT-yə üzvlük aqrar sahədə idxal siyasətinin daha şəffaf və ədalətli şəkildə tənzimlənməsinə imkan verir. Hal-hazırda idxalda müəyyən qədər mövcud olan inhisarçılıq və qiymət manipulyasiyaları yerli bazarda süni bahalaşma və istehlakçının alıcılıq qabiliyyətinin zəifləməsi ilə nəticələnir. ÜTT-nin ticarət sazişləri çərçivəsində isə idxal tariflərinin beynəlxalq normalara uyğunlaşdırılması, idxal imtiyazlarının yalnız üzv dövlətlərə şamil olunması və bu sahədə qeyri-rəsmi lobbiçiliyin qarşısının alınması nəzərdə tutulur. Bu da kənd təsərrüfatı məhsullarının həm idxal, həm də ixrac kanallarında rəqabət qabiliyyətinin artırılması ilə nəticələnəcək.

Eyni zamanda, ÜTT çərçivəsində aqrar sahəyə dair texniki, sanitar və fitosanitar standartların tətbiqi, Azərbaycanın kənd təsərrüfatı məhsullarının keyfiyyət və təhlükəsizlik baxımından beynəlxalq standartlara uyğunlaşdırılmasına imkan verəcək. Bu isə yalnız daxili bazar üçün deyil, ixrac üçün də vacib şərtdir. Xüsusilə Avropa və digər yüksək tələbli bazarlara çıxış üçün bu standartların tətbiqi zəruridir.

*"Kənd təsərrüfatı məhsullarının idxal tarifləri baxımından vəziyyəti yaxşılaşdırmaq üçün ölkənin ÜTT-yə daxil olması ən vacib məsələlərdən biridir. ÜTT-yə daxil olmaq həm də idxalda inhisarçılığı aradan qaldıracaq, idxal tarifləri beynəlxalq gömrük tariflərinə uyğunlaşdırılacaq. Eyni zamanda idxal imtiyazları ÜTT-yə üzv ölkələrə şamil edilir"* [144, s.75].

Son olaraq, qeyd etmək lazımdır ki, Azərbaycanın ÜTT-yə inteqrasiyası aqroemal sektorunun inhisarlardan azad olmasına, bazar iqtisadiyyatının sağlam prinsipləri əsasında yenidən təşkili prosesinə və investisiya mühitinin liberallaşmasına birbaşa təkan verəcəkdir. Bütün bu faktları nəzərə alaraq demək olar ki, ÜTT-yə daxil olma yalnız bir xarici siyasət və ya ticarət qərarı deyil, iqtisadi sistemin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edən, dərin institusional transformasiyalara yol açan strateji bir seçimdir. Aqrar sahədə uzunmüddətli davamlı inkişafın və rəqabət qabiliyyətli iqtisadi modelin qurulması üçün bu seçim artıq təxirəsalınmaz xarakter daşıyır.

# VI FƏSİL. Postmünaqişə ərazilərdə aqroemal sektorun yaradılması: çağırışlar və imkanlar

## 6.1. İşğaldan əvvəl və sonrası: torpaq ehtiyatları və infrastruktur reallıqları

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və işğaldan azad edilmiş torpaqlarda dövlət suverenliyinin tam bərqərar olunması yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. 30 ilə yaxın davam edən işğal nəticəsində iqtisadi fəaliyyətin bütün istiqamətləri – xüsusilə kənd təsərrüfatı və ona bağlı olan emal sənayesi tamamilə dayandırılmış, mövcud infrastrukturlar dağıdılmış, torpaq ehtiyatları baxımsız vəziyyətə düşmüş və insan potensialı regiondan məcburi köçürülmüşdür. Bu şəraitdə postmünaqişə dövrü təkcə sosial və siyasi baxımdan deyil, həm də iqtisadi inkişaf baxımından yeni çağırışlar və strateji qərarlar tələb edən mərhələ kimi çıxış edir.

Ölkənin ərazi bütövlüyünün bərpa olunması, təkcə siyasi və hüquqi baxımdan deyil, həm də iqtisadi-mənəvi cəhətdən milli dövlət quruculuğunun yeni mərhələyə keçidini şərtləndirmişdir. Xüsusilə kənd təsərrüfatı və onunla bağlı sahələrin, o cümlədən, aqroemal sənayesinin bu prosesdə oynadığı rol olduqca mühüm xarakter daşıyır. İşğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarda aqroemal sektorunun formalaşdırılması yalnız iqtisadi bir strategiya deyil, həm də məcburi köçkünlərin qayıdışı, yerli icmaların sosial adaptasiyası və davamlı inkişaf modelinin qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Tarixi retrospektivdə baxdıqda, bu ərazilərin işğaldan əvvəlki dövründə kənd təsərrüfatı sahəsində müəyyən strukturlar və məhsuldar torpaq ehtiyatları mövcud olmuş, əhalinin

məşğulluğunun əsas mənbələrindən biri kimi fəaliyyət göstərmişdir. Lakin 30 ilə yaxın davam edən işğal nəticəsində yalnız torpaq sahələrinin deqradasiyası deyil, həm də bütün infrastrukturun, meliorasiya sistemlərinin, texniki parkların, emal müəssisələrinin və logistik şəbəkələrin tamamilə dağıdılması müşahidə olunmuşdur. Bu vəziyyət hazırda bölgənin iqtisadi reabilitasiyası və aqrar istehsal zəncirinin bərpası üçün yeni və kompleks yanaşma tələb edir.

Postmünaqişə dövrünün ən vacib məsələlərindən biri, azad olunmuş ərazilərdə torpaq ehtiyatlarının real qiymətləndirilməsi və bu torpaqların kənd təsərrüfatı dövriyyəsinə qaytarılmasıdır. Bu zaman həm təbii-iqlim potensialı, həm də ekoloji risklər, minalanmış sahələr və mülkiyyət hüquqları ilə bağlı həll olunmamış problemlər nəzərə alınmalıdır. Eyni zamanda, aqroemal sektorunun inkişafı üçün lazım olan əsas və köməkçi infrastrukturlar — su təchizatı, yollar, elektrik enerjisi, emal və soyuducu sistemlər, eləcə də kadr potensialı — ilkin mərhələdə dövlət investisiyaları və institusional dəstək olmadan mümkün görünmür.

Bununla yanaşı, ölkənin milli strateji planlarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqrar potensialının reallaşdırılması üçün konkret hədəflər və prioritetlər müəyyən olunmuşdur. Bu regionların "yaşıl enerji zonası" elan olunması, burada rəqəmsal texnologiyalar əsasında aqrar istehsal modellərinin tətbiqi və aqroparkların təşkili ideyaları, aqroemal sənayesinin dayanıqlı əsaslar üzərində qurulmasına əlverişli zəmin yaradır. Lakin bu imkanlardan real iqtisadi nəticələr əldə etmək üçün ilkin olaraq torpaq-infrastruktur və sosial kapital amilləri detallı şəkildə təhlil olunmalıdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bu ərazilərin yenidən məskunlaşması, aqroemal müəssisələrinin

yenidən və müasir texnologiyalar əsasında bərpa edilməsi çox böyük rol oynayacaq.

Bu fəsildə məqsəd, postmünaqişə ərazilərində aqroemal sektorunun yaradılması üçün torpaq və infrastruktur mühitinin cari vəziyyətini dəyərləndirmək, işğaldan əvvəlki və sonrakı dövrləri müqayisəli şəkildə araşdırmaq və mövcud çağırışlar ilə potensial imkanları sistemli şəkildə ortaya qoymaqdan ibarətdir. Nəticədə, bu analiz əsasında aqroemal sənayesinin bərpası və inkişafı üçün elmi əsaslandırılmış yanaşmalar və təkliflər formalaşdırmaq mümkün olacaqdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün uzun illər pozulması yalnız siyasi və hərbi aspektlərdə deyil, iqtisadi və sosial sahələrdə də dərin və sistemli tənəzzülə səbəb olmuşdur. 1990–1993-cü illər ərzində Ermənistan tərəfindən həyata keçirilmiş hərbi təcavüz nəticəsində ölkə ərazisinin təxminən 20%-i – Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi inzibati rayon işğal edilmişdir. Bu ərazilərin itirilməsi yalnız geosiyasi və demoqrafik reallıqları dəyişməklə kifayətlənməmiş, eyni zamanda Azərbaycanın iqtisadi resurs bazasına, xüsusilə də, kənd təsərrüfatı və ona bağlı emal sənayesi sektorlarına çox ağır struktur zərbə vurmuşdur.

Sözügedən ərazilərdə uzun illər ərzində formalaşmış kənd təsərrüfatı infrastrukturunun və istehsalat strukturunun tamamilə dağıdılması, aqrar sektorda fəaliyyət göstərən müəssisələrin və kooperativlərin sıradan çıxarılması, torpaq resurslarının uzunmüddətli dövr üçün dövriyyədən kənarda qalması və məhsuldarlıq səviyyəsinin ciddi şəkildə aşağı düşməsi baş vermişdir. Statistik məlumatlara əsasən, 1990-cı ilədək işğal olunmuş ərazilərdə 6 mindən artıq sənaye və kənd təsərrüfatı müəssisəsi fəaliyyət göstərmişdir. Bununla yanaşı, həmin dövrdə

104,3 min hektar əkin sahəsi, 280 min hektar meşə fondu və ümumilikdə 1 milyon hektara yaxın məhsuldar torpaq işğal nəticəsində ya dağıdılmış, ya da istifadəsiz vəziyyətə düşmüşdür. İnfrastruktur baxımından isə 160 körpü, 1200 km-dən artıq irriqasiya sistemi və digər mühüm obyektlər tamamilə sıradan çıxmışdır.

Əldə olunan məlumatlar göstərir ki, 1990-cı il üzrə işğal altında qalmış rayonların kənd təsərrüfatı göstəriciləri ölkə üzrə ümumi təsərrüfat sistemində əhəmiyyətli yer tutmuşdur. Məsələn, Ağdam, Füzuli və Cəbrayıl rayonları bu sahədə həm əkin sahələrinin həcminə, həm də iribuynuzlu mal-qaranın və qoyun-keçinin baş sayına görə yüksək potensiala malik olmuşdur. Həmin rayonlarda fəaliyyət göstərən kolxoz və sovxozların, eləcə də kənd təsərrüfatı müəssisələrinin sayı ərazi üzrə intensiv təsərrüfat fəaliyyətinin geniş miqyasda olduğunu sübut edir.

Aşağıdakı cədvəldə 1990-cı il üzrə işğal olunmuş ərazilərin iqtisadi göstəriciləri bu mənzərəni daha aydın şəkildə təqdim edir:

**Cədvəl 6.1.1 İşğal altında olmuş rayonların 1990-cı il üzrə bəzi iqtisadi göstəriciləri**

| | Əkin sahələri, min ha. | Kolxoz və sovxozların sayı, vahid | K/t müəssisələrin sayı, vahid | İri buynuzlu mal-qaranın sayı. min baş | Qoyun və keçi, min baş | Məşğul əhalinin sayı, min nəfər | Həmin rayonların k/t məhsul üzrə xüsusi çəkisi, % |
|---|---|---|---|---|---|---|---|
| DQMV | 43,6 | 121 | 135 | 83,3 | 206,3 | 28,3 | x |
| Ağdam | 18,1 | 29 | 39 | 38,8 | 174,1 | 37,5 | 4,9 |
| Cəbrayıl | 11,3 | 35 | 41 | 24,9 | 115,5 | 17,4 | 4,6 |
| Fizuli | 17,2 | 41 | 47 | 33.5 | 128,8 | 27,3 | 4,6 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Kəlbəcər | 0,9 | 40 | 48 | 33,7 | 115,6 | 10,9 | 1,8 |
| Qubadlı | 6,4 | 39 | 45 | 18,0 | 24,6 | 12,3 | 1,6 |
| Laçın | 3,6 | 49 | 53 | 40,2 | 243,7 | 11,2 | x |
| Zəngilan | 3,4 | 18 | 24 | 16,3 | 34,4 | 11,4 | |
| Cəmi | 104,5 | 372 | 432 | 289,7 | 1043,0 | 156,3 | 3,5 |

Mənbə: DSK Statistik məcmuə 1995 müvafiq hesabatları əsasında müəllif tərtibatı

Cədvəl 6.1.1 onu göstərir ki, işğaldan əvvəl bu ərazilər Azərbaycanın ümumi kənd təsərrüfatı məhsul istehsalında əhəmiyyətli paya malik olmuşdur. Beləliklə, bu regionların itirilməsi sadəcə bir ərazi itkisi deyil, həm də iqtisadi baxımdan dayanıqlı kənd təsərrüfatı infrastrukturunun çökməsi demək olmuşdur.

Münaqişədən əvvəlki dövrə nəzər saldıqda, işğal altında qalmış rayonların kənd təsərrüfatı və aqroemal potensialının Azərbaycanın ümumi iqtisadi inkişafında mühüm rol oynadığını müşahidə etmək mümkündür. Bu ərazilərdə fəaliyyət göstərən kənd təsərrüfatı və aqrar sənaye müəssisələrinin miqyası və ixtisaslaşma səviyyəsi, onların respublika üzrə ixtisaslaşmış istehsal-coğrafi profillər formalaşdırdıqlarını göstərir. İşğal nəticəsində bu resurslardan istifadə imkanlarının tamamilə itirilməsi və ya uzun müddətə dondurulması, ölkənin kənd təsərrüfatı və emal sənayesi üzrə idxaldan asılılığını artıran əsas struktur amillərdən birinə çevrilmişdir.

Ağdam rayonu uzun illər boyu Azərbaycanın kənd təsərrüfatı xəritəsində aparıcı mövqe tutmuşdur. Rayonda təqribən 18 min hektara yaxın əkin sahəsi, 38,8 min baş iribuynuzlu mal-qara, 174

min baş qoyun və keçi mövcud olmuş, bu göstəricilər onu həm əkinçilik, həm də heyvandarlıq sahəsində ixtisaslaşmış bölgələrdən birinə çevirmişdir. 29 kolxoz və sovxozun, 39 kənd təsərrüfatı müəssisəsinin fəaliyyət göstərməsi, rayonun iqtisadi strukturu daxilində kooperativ və planlı istehsal modelinin formalaşdığını göstərir. Burada pambıqçılıq, taxılçılıq, baramaçılıq və üzümçülük kimi ənənəvi sahələr inkişaf etmiş, məhsulun ilkin və ikinci dərəcəli emalını təmin edən müəssisələr, ət kombinatı, yağ-pendir zavodu, konserv və şərab zavodları fəaliyyət göstərmişdir. Ağdam rayonu taxıl istehsalı baxımından ölkə üzrə ilk üçlükdə yer alırdı. Şərabçılıq sektoru da xüsusi diqqətəlayiq idi – "Ağdam" portveyni təkcə yerli bazarda deyil, eyni zamanda Sovet İttifaqının digər respublikalarında da tanınır və geniş yayılmışdı.

Füzuli rayonu da analoji şəkildə kənd təsərrüfatına əsaslanan, yüksək ixtisaslaşmış aqrar rayon idi. İşğaldan əvvəl rayonda 17,2 min hektar əkin sahəsi mövcud idi, heyvandarlıq təsərrüfatlarında isə 33,5 min baş iribuynuzlu mal-qara və 129 min baş qoyun-keçi saxlanılırdı. Burada 41 kolxoz və sovxozun, 47 kənd təsərrüfatı müəssisəsinin fəaliyyəti qeyd olunurdu ki, bu da rayonda kənd təsərrüfatı idarəçiliyinin kompleks və strukturlaşdırılmış səviyyəyə çatdığını göstərir. Füzuli rayonu yüksək suvarma potensialına malik olduğundan, taxılçılıq və heyvandarlıqla yanaşı, üzümçülük və baramaçılıq da geniş yayılmışdı. Bu sahələrin məhsuldarlığını təmin etmək məqsədilə rayon ərazisində pambıqtəmizləmə zavodları, yağ-pendir emalı müəssisələri, üzüm emalı və toxuculuq fabrikləri mövcud idi. Xüsusilə şərab istehsalı burada da ixrac yönümlü xarakter daşımış və məhsullar Sovet bazarlarına çıxarılmışdır.

Cəbrayıl və Zəngilan rayonları isə kənd təsərrüfatında daha çox bitkiçilik və heyvandarlıq istiqamətində ixtisaslaşmışdı.

Üzümçülük, tütünçülük, taxılçılıq və qoyunçuluq bu rayonların aparıcı sahələri olmuşdur. İşğaldan əvvəl burada mal-qara kökəltmə təsərrüfatları, baramaçılıq müəssisələri və quşçuluq kompleksləri fəaliyyət göstərirdi. Aqroemal sahəsində isə üzüm emalı zavodları, çörək və yağ-pendir müəssisələri, ət emalı sexləri rayonun emal infrastrukturu şəbəkəsini təşkil edirdi. Xüsusilə Cəbrayılın tütünçülüyü və Zəngilanın iqlimə uyğun üzüm sortları bölgənin kənd təsərrüfatı xəritəsində seçilən məqamlar idi.

Qubadlı, Laçın və Kəlbəcər rayonlarının dağlıq relyefi onların iqtisadi strukturunu fərqli şəkildə formalaşdırmışdır. Bu bölgələrdə əsas kənd təsərrüfatı sahələri taxılçılıq, heyvandarlıq, baramaçılıq və üzümçülük olmuşdur. Heyvandarlıq dağlıq zonalarda intensiv şəkildə inkişaf etdirilmiş, qışlaq və yaylaq sistemləri tətbiq olunmuşdur. İşğal öncəsi bu rayonlarda çörək kombinatları, üzüm emalı müəssisələri, yağ-süd zavodları, toxuculuq sexləri, inkubator fabrikləri və balıqyetişdirmə təsərrüfatları fəaliyyət göstərmişdir. Meşə ehtiyatlarının çoxluğu həm oduncaq, həm də meşə təsərrüfatı sahəsində iqtisadi potensial yaratmışdır.

Nəticə etibarilə, 1990-cı illərin əvvəlinə qədər bu rayonlarda mövcud olmuş kənd təsərrüfatı və emal müəssisələrinin struktur müxtəlifliyi, onların Azərbaycanın ərzaq təhlükəsizliyi və daxili bazarın təminatı baxımından necə mühüm funksiyalar yerinə yetirdiyini aydın şəkildə göstərir. İşğal nəticəsində bu imkanların itirilməsi təkcə regional iqtisadiyyatlara deyil, eyni zamanda milli ərzaq balansına, kənd yerlərində məşğulluğa və emal sənayesinin inkişaf trayektoriyasına ciddi təsir göstərmişdir.

Dağlıq Qarabağ vilayəti (DQMV) — Azərbaycanın inzibati ərazisində 1923-cü ildə Sovet hakimiyyəti dövründə yaradılmış muxtar vilayət idi. 1991-ci ildə Azərbaycan Respublikası tərəfindən

bu status ləğv olunmuşdur. Vilayət Azərbaycanın dağlıq hissəsində, əsasən Qarabağ silsiləsinin ətrafında yerləşirdi və uzun illər boyunca etnik və siyasi münaqişələrin mərkəzində olmuşdur.

Həmin vaxtlar vilayətin tərkibinə 5 rayon – Əskəran, Hadrut, Xocavənd, Ağdərə və Şuşa rayonları daxil idi. 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən aparılmış hərbi işğal nəticəsində bu ərazilər Azərbaycanın iqtisadi dövriyyəsindən faktiki olaraq çıxmışdır. Bu hal həm bölgənin iqtisadi potensialının reallaşdırılmasına, həm də ümumi milli iqtisadi sistemin vahidliyinə ciddi zərbə vurmuşdur.

İşğaldan öncə Dağlıq Qarabağ bölgəsinin iqtisadiyyatı əsasən kənd təsərrüfatına və qismən sənaye sahələrinə əsaslanırdı. Ərazi dağlıq və dağətəyi relyefə malik olduğundan burada heyvandarlıq, üzümçülük, taxılçılıq və meyvəçilik kimi sahələr inkişaf etmişdi. Eyni zamanda, bölgədə şərabçılıq, konserv istehsalı, xalçaçılıq, ayaqqabı və tikinti materiallarının istehsalı ilə məşğul olan müəssisələr fəaliyyət göstərirdi. Xüsusilə Şuşa şəhəri mədəni-mənəvi mərkəz olmaqla yanaşı, turizm və sənətkarlıq sahələrinin inkişafı baxımından mühüm mövqeyə sahib idi.

Əsgəran və Ağdərə rayonları kənd təsərrüfatı ilə yanaşı, faydalı qazıntılarla zəngin bölgələr hesab olunurdu. Bu rayonlarda meşə ehtiyatları, tikinti daşı, əhəngdaşı və mərmər yataqları mövcud idi. Xocalı və Xocavənd ərazilərində isə daha çox üzümçülük və maldarlıq sahələri ön plana çıxırdı. Ümumilikdə vilayətin iqtisadiyyatı regional struktur baxımından kənd təsərrüfatı yönümlü olmaqla, həm də yerli əhali üçün məşğulluğun əsas mənbələrindən birini təşkil edirdi.

İşğal nəticəsində isə bu iqtisadi sistem çökmüş, bölgənin istehsal və ticarət dövriyyəsi Azərbaycandan tamamilə təcrid olunmuşdur. Yaranmış qeyri-qanuni separatçı rejim mülki və

iqtisadi strukturları qeyri-legitim şəkildə öz nəzarətinə keçirmiş, Azərbaycan Respublikasının mülkiyyət hüququ pozulmuş, iqtisadi resursların istifadəsi qeyri-rəsmi aktorların idarəsinə verilmişdir. Bu müddət ərzində Azərbaycan dövləti bölgədə vergi və statistika məlumatlarının toplanması imkanından məhrum olmuş, nəticə etibarilə Qarabağın iqtisadiyyatı ölkə üzrə makroiqtisadi göstəricilərə daxil edilməmişdir.

2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın bir sıra rayonları üzərində suverenliyi bərpa olunsa da, Dağlıq Qarabağ bölgəsinin bir hissəsi yalnız 2023-cü ilin payızında nəzarətə götürülmüşdür. Bu səbəbdən bölgənin sosial-iqtisadi sisteminin bərpası və yenidən inteqrasiyası xüsusi proqramlar və çoxsahəli dövlət siyasəti tələb edir. Hazırda azad edilmiş ərazilərdə həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində regionun sosial infrastrukturu ilə yanaşı, kənd təsərrüfatı, sənaye və xidmət sahələrinin bərpası istiqamətində mühüm addımlar atılmaqdadır.

Münaqişələr, işğal və ya təbii fəlakətlər nəticəsində sosial infrastrukturun, məktəblərin, xəstəxanaların, yolların, su və enerji təchizatı sistemlərinin dağıdılması, cəmiyyətin uzunmüddətli inkişaf imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Sosial infrastruktur yalnız fiziki obyektlər toplusu deyil, həm də insan kapitalının formalaşmasında mühüm rol oynayan funksional sistemlərdir.

2020-ci ildə ərazilərin azad edilməsindən sonra dövlət tərəfindən bərpa işlərinə start verilmiş, lakin bu prosesin qarşısında duran ən ciddi maneələrdən biri minalanmış sahələrin genişliyi olmuşdur. 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən qəsdən minalanmış bu torpaqlarda mülki əhalinin və təsərrüfat subyektlərinin təhlükəsiz şəkildə fəaliyyət göstərməsi mümkün deyildi.

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) və digər aidiyyəti qurumların məlumatlarına əsasən, bu günədək azad olunmuş ərazilərdə 150.000 hektardan çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənmişdir. Yalnız 2024-cü il ərzində 48.500 hektardan çox ərazi təmizlənmiş, 23.000-dən artıq mina və hərbi sursat zərərsizləşdirilmişdir. Buna baxmayaraq, bu ərazilərdə hələ də 1 milyona yaxın mina və partlamamış sursatın qaldığı təxmin edilir. Minalar ilk növbədə əkinçiliyin, heyvandarlığın və ümumilikdə kənd təsərrüfatı fəaliyyətlərinin bərpasına əngəl törədir. Eyni zamanda, məcburi köçkünlərin geri dönüşünü ləngidir və regionun iqtisadi dövriyyəyə qoşulmasını əhəmiyyətli dərəcədə yavaşdırır.

İqtisadi dirçəlişin və sosial həyatın normallaşmasının ilkin şərtlərindən biri – torpaq sahələrinin təhlükəsizliyinin təmin edilməsi – hələ də strateji və həssas vəzifə olaraq qalır. Dövlətin apardığı bərpa və yenidənqurma strategiyasının əsas istiqamətlərindən biri də məhz bu təhlükənin aradan qaldırılmasına yönəlmişdir.

30 ilə yaxın davam etmiş Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalı ölkəmizin iqtisadi, sosial, mədəni və ekoloji strukturlarına ölçüyəgəlməz zərbə vurmuşdur. 2020-ci ildə Vətən müharibəsində qazanılmış qələbədən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dövlət səviyyəsində bərpa və yenidənqurma prosesi aparılır. Lakin bu proses təkcə infrastrukturun qurulması ilə deyil, həm də ölkəyə dəymiş zərərin kompleks şəkildə qiymətləndirilməsi ilə müşayiət olunur.

Ölkə Prezidentinin sərəncamı ilə təsis edilmiş və Maliyyə Nazirinin rəhbərliyi altında fəaliyyət göstərən Dövlət Komissiyası, işğal nəticəsində dəymiş zərərin real miqyasını müəyyən etmək

məqsədilə çoxşaxəli və elmi əsaslı bir qiymətləndirmə metodologiyası hazırlamışdır. Qiymətləndirmə prosesi sadəcə statistik göstəricilərə əsaslanmır, əksinə, iqtisadçılar, hüquqşünaslar, ekologiya və mədəni irs üzrə mütəxəssislərin iştirakı ilə kompleks və multidissiplinar yanaşma tətbiq edilir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun tədqiqatçıları və Baş Prokurorluğun hüquqşünasları tərəfindən aparılan qiymətləndirmədə aşağıdakı zərər kateqoriyaları araşdırılmışdır:

- Dövlət və şəxsi əmlakın məhv edilməsi və ya talanması
- Texnika, nəqliyyat və istehsal infrastrukturunun sıradan çıxarılması
- İnsan itkisi və əhalinin məcburi köçürülməsi ilə bağlı sosial zərər
- Mədəni irsin və tarixi abidələrin vandalizmi
- Təbii sərvətlərin istismarı və ekoloji fəsadlar
- İqtisadi itkilər və potensial gəlirlərin itirilməsi (dolayı zərər)

İşğal nəticəsində, təkcə kənd təsərrüfatı torpaqlarının və irriqasiya sistemlərinin məhv edilməsi, yüzlərlə aqroemal müəssisəsinin fəaliyyətini itirməsi ölkənin ərzaq təhlükəsizliyi və iqtisadi dövriyyəsi baxımından strateji itkilərə səbəb olmuşdur. Dağılmış sənaye infrastrukturu, minalanmış torpaqlar və itirilmiş insan kapitalı isə uzunmüddətli inkişaf üçün əhəmiyyətli maneələr yaratmışdır.

Nəticədə, 2024-cü ildə təqdim olunmuş və Azərbaycanın özünəməxsus metodologiyası ilə aparılmış qiymətləndirməyə əsasən, Ermənistanın hərbi təcavüzü və işğalı nəticəsində ölkəmizə, təxminən, 250 milyard manatlıq (təqribən 150 milyard ABŞ dolları) zərər dəydiyi müəyyən olunmuşdur. Bu rəqəm təkcə keçmiş itkiləri

deyil, həm də itirilmiş iqtisadi imkanları və alternativ inkişaf ssenarilərini nəzərə alır.

Bu qiymətləndirmə beynəlxalq hüquq və bərpa mexanizmləri kontekstində əhəmiyyətli sənəd olmaqla yanaşı, postmünaqişə dövründə planlaşdırma və strateji investisiya qərarları üçün də əsaslı baza rolunu oynayır. Azərbaycanın mövcudluğu və inkişafı üçün bu ərazilərin reabilitasiyası təkcə fiziki infrastrukturun bərpası deyil, həm də ədalətin və tarixi gerçəkliyin bərqərar olmasıdır.

İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı potensialının xəritələşdirilməsi, bu bölgələrin iqtisadi canlanmasında mühüm rol oynayır. Torpaq və su ehtiyatlarının real vəziyyəti, relyef və iqlim xüsusiyyətləri, eləcə də keçmiş istifadəyə dair məlumatlar nəzərə alınaraq, bu ərazilərin aqrar sahə üzrə inkişaf istiqamətləri elmi əsaslarla müəyyənləşdirilməlidir.

Proqnoz yanaşmalarda ilk olaraq peyk görüntüləri və coğrafi informasiya sistemləri (CİS) vasitəsilə torpaqların məhsuldarlıq potensialı müəyyən olunur. Torpağın aqro-kimyəvi tərkibi, eroziya dərəcəsi, suvarma imkanları və landşaft xüsusiyyətləri xəritələndirilərək, bitkiçilik və heyvandarlıq istiqamətləri üzrə prioritet zonalar ayrılır. Məsələn, Füzuli, Ağdam və Cəbrayıl rayonlarında taxılçılıq və pambıqçılıq üçün əlverişli düzənlik sahələr, Kəlbəcər və Laçında isə dağ-meşə landşaftı çərçivəsində maldarlıq və arıçılıq üçün imkanlar mövcuddur.

Eyni zamanda, keçmişdə kənd təsərrüfatı üçün istifadə edilmiş sahələrin dəqiq təhlili və onların yenidən istifadəyə yararlılığı qiymətləndirilir. Aqrar proqnoz modellərinə əsasən, regionlarda üzvi və texniki bitkilərin əkini, həmçinin intensiv meyvəçilik və tərəvəzçiliyin inkişafı üçün investisiya cəlbedici zonalar müəyyən edilə bilər.

Bu yanaşmalar, yalnız mövcud resursların reallaşdırılması ilə məhdudlaşmır, eyni zamanda ekoloji dayanıqlılığın təmin edilməsi və iqlim dəyişikliyinə qarşı adaptiv kənd təsərrüfatı texnologiyalarının tətbiqini də nəzərdə tutur. Beləliklə, işğaldan azad edilmiş ərazilərin aqrar xəritələşməsi onların optimal istifadəsi, ərzaq təhlükəsizliyinin təminatı və regionların bərpası üçün elmi əsaslı, dayanıqlı inkişaf strategiyalarının qurulmasına imkan verir.

İşğaldan əvvəlki və sonrakı dövrlərin müqayisəli təhlili göstərir ki, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı, torpaq ehtiyatları və infrastruktur sahəsində baş verən dəyişikliklər yalnız fiziki zərərin miqyası ilə deyil, eyni zamanda sosial və institusional amillərlə də səciyyələnir. İşğal dövründə təkcə maddi resurslar deyil, həmçinin sosial infrastruktur və insan kapitalı kimi yenidən bərpası uzunmüddətli strateji planlaşdırma tələb edən resurslar da ciddi şəkildə itirilmişdir. Əhalinin məcburi köçkünlüyü, kənd təsərrüfatının iflic olması, torpaqdan istifadənin məqsədyönlü şəkildə məhv edilməsi və mina təhlükəsi bölgənin iqtisadi-sosial potensialını dərinləşmiş şəkildə zəiflətmişdir.

Hazırda aparılan proqnoz xəritələşməsi və potensial dəyərləndirmələri göstərir ki, bu ərazilərdə kənd təsərrüfatı və coğrafi üstünlüklər baxımından kifayət qədər əlverişli imkanlar mövcuddur. Lakin bu potensialın gerçəkləşdirilməsi yalnız fiziki infrastrukturun yenidən qurulması ilə deyil, eyni zamanda institusional idarəetmənin səmərəliliyinin artırılması, dayanıqlı məskunlaşmanın təşviqi və insan kapitalının bərpası ilə mümkündür. Proqnoz yanaşmalar torpaqların kateqoriyaları, məhsuldarlıq səviyyəsi, su təminatı və yol infrastrukturu kimi amillərin qarşılıqlı təsirini nəzərə almaqla hazırlanmalı, bu

yanaşmalar həm də bərpa prosesində prioritetlərin düzgün müəyyənləşdirilməsinə töhfə verməlidir.

Torpaq ehtiyatları və kənd təsərrüfatı potensialı baxımından zəngin olan bu regionların iqtisadi dirçəlişi üçün çoxistiqamətli və mərhələli yanaşma tələb olunur. Tarazlı reabilitasiya strategiyası həm təbii resursların səmərəli istifadəsini, həm də sosial-iqtisadi həyatın canlandırılmasını təmin edəcək əsas şərtdir. Reallıq ondan ibarətdir ki, müharibədən sonrakı dövr yalnız infrastrukturun deyil, bütövlükdə sosial-iqtisadi sistemin yenidən qurulması dövrüdür və bu baxımdan, torpaq ehtiyatları ilə bağlı strategiyalar dayanıqlı inkişafa yönəlmiş kompleks yanaşma ilə uzlaşdırılmalıdır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində torpaq ehtiyatlarının bərpası və sosial-iqtisadi infrastrukturun yenidən qurulması prosesi həm tarixi ədalətin bərpası, həm də strateji milli resursların dövriyyəyə qaytarılması baxımından əhəmiyyətli mərhələ təşkil edir. İşğal illərində bu ərazilərdəki kənd təsərrüfatı torpaqları, su ehtiyatları, meşə fondları, hidrotexniki qurğular, nəqliyyat bağlantıları və yaşayış məntəqələri ciddi dağıntılara məruz qalmış, nəticədə regionun sosial və iqtisadi potensialı demək olar ki, iflic vəziyyətinə düşmüşdür. Lakin 2020-ci ildən sonra aparılan sistemli bərpa tədbirləri bu reallığı tədricən dəyişməkdədir.

İlk mərhələdə Ermənistan tərəfindən tamamilə dağıdılmış şəhər və kəndlərin, strateji avtomobil yollarının, dəmir yollarının, enerji xətləri və su təchizatı sistemlərinin müasir tələblər səviyyəsində yenidən qurulması dövlətin bərpa prosesinə yanaşmasının miqyasını göstərmişdir. Bu kontekstdə Zəngilanın Ağalı kəndinin “ağıllı kənd” modeli ilə bərpası, Laçın və Kəlbəcərdə yeni infrastruktur obyektlərinin tikintisi, Füzuli və Zəngilan, Laçın hava limanlarının istismara verilməsi, əhalinin geri köçürülməsi üçün salınmış yeni yaşayış massivləri, yollar,

məktəblər, xəstəxanalar, kənd təsərrüfatı texnoparkları və suvarma sistemləri prosesin kompleks xarakter daşıdığını nümayiş etdirir. Bütün bu tədbirlər yalnız şəhərsalma deyil, həm də kənd təsərrüfatı və istehsal infrastrukturlarının reabilitasiyası üçün önəmli zəmindir.

Rəqəmlərlə ifadə etsək, 2021-2024-cü illər ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların bərpa və yenidənqurma işlərinə 18 mld. manatdan artıq vəsait xərclənmişdir. Bu məbləğ birbaşa büdcə xərcləri, əlavə dövlət vəsaitləri, digər mexanizmlərlə cəlb olunan resursların cəmi nəticəsində formalaşmışdır. Bu vəsait hesabına min kilometrlərlə yeni yol çəkilmiş, enerji təminatı sistemləri qurulmuş, sosial infrastruktur obyektləri – məktəblər, uşaq bağçaları, xəstəxanalar və mədəniyyət ocaqları inşa olunmuşdur. Ən vacibi isə artıq yüzlərlə ailənin doğma yurdlarına qayıtması təmin edilmişdir ki, bu da regionun sosial reabilitasiyası baxımından dönüş nöqtəsidir.

Proqnozlara əsasən, yaxın illərdə işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının müxtəlif sahələri – taxılçılıq, üzümçülük, heyvandarlıq və bağçılıq üzrə məhsuldarlığın sürətli artımı, eyni zamanda logistik infrastrukturun inkişafı bu regionların Azərbaycan iqtisadiyyatına töhfəsini əhəmiyyətli dərəcədə artıracaq. Həmçinin, bu ərazilərdə iqtisadi azad zonaların və texnoloji klasterlərin yaradılması planlaşdırılır ki, bu da investorların cəlb olunması baxımından önəmli mexanizmdir.

Nəticə etibarilə, torpaq ehtiyatlarının müasir dövrün tələblərinə uyğun istifadəsi, sosial və istehsal infrastrukturunun bərpası və əhalinin mərhələli şəkildə köçürülməsi Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, sosial-iqtisadi suverenliyinin də tam təmin olunmasına xidmət edir. Əldə olunan uğurlar onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzur yalnız geosiyasi qələbənin rəmzi deyil, həm də dayanıqlı və inklüziv inkişafın yeni modelidir.

## 6.2. Qayıdış və yenidənqurma proseslərinin aqroemal sektoruna təsiri

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və yenidənqurma prosesi 2020-ci ilin sonundan etibarən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu ərazilərdə "Böyük Qayıdış" konsepsiyası çərçivəsində həyata keçirilən fəaliyyətlər yalnız infrastruktur və yaşayış sahələrinin bərpası ilə məhdudlaşmır, eyni zamanda iqtisadi fəaliyyətlərin dirçəldilməsi və dayanıqlı inkişafın təmin edilməsi məqsədilə strateji sektorların, xüsusilə, kənd təsərrüfatı və onun davamı olan aqroemal sənayesinin yenidən qurulması kimi kompleks tədbirləri əhatə edir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqrar imkanları – münbit torpaq fondu, bol su ehtiyatları, əlverişli iqlim və təbii-coğrafi şərait – aqroemal sektorunun burada sürətli inkişafı üçün ciddi potensial yaradır. Lakin bu ərazilərin uzunmüddətli işğalı nəticəsində kənd təsərrüfatı infrastrukturunun tamamilə dağılması, texnoloji və emal avadanlıqlarının sıradan çıxması, kadr potensialının zəifləməsi və istehsal-təchizat zəncirinin pozulması bu sahədə ciddi çağırışlar formalaşdırmışdır.

Yenidənqurma prosesinin ilkin mərhələsində əsas diqqət strateji infrastrukturun – avtomobil və dəmir yolları, enerji və su təchizatı sistemləri, kəndlərin salınması, eləcə də minalardan təmizləmə işlərinə yönəlmişdir. Lakin paralel olaraq kənd təsərrüfatının bərpası və onun emal mərhələsinə inteqrasiya olunması üçün hüquqi-normativ çərçivənin yenilənməsi, investorların stimullaşdırılması, texnoloji və innovativ yanaşmaların tətbiqi üzrə dövlət proqramları da tərtib edilmişdir.

Buraya kənd təsərrüfatı parklarının və aqroemal məntəqələrinin yaradılması, fermerlər üçün güzəştli kreditlərin ayrılması, logistik xidmətlərin təşkili, həmçinin yerli məhsulların bazara çıxış imkanlarının genişləndirilməsi kimi təşəbbüslər daxildir.

Bu baxımdan, qayıdış və yenidənqurma yalnız fiziki məkanların deyil, iqtisadi məzmunun da bərpası və transformasiyası prosesi kimi qiymətləndirilə bilər. Aqroemal sektoru isə bu transformasiyada əsas həlqələrdən biri olaraq çıxış edir. Çünki o, bir tərəfdən kənd təsərrüfatı məhsullarının dəyər zəncirini tamamlamaqla iqtisadi səmərəliliyi artırır, digər tərəfdən isə regionda məşğulluğun, xüsusilə kənd əhalisinin işlə təmin olunmasının mühüm vasitəsinə çevrilir.

İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" prosesi çərçivəsində mərhələli şəkildə əhalinin köçürülməsi həyata keçirilir. Bu prosesin təkcə sosial deyil, eyni zamanda iqtisadi təsirləri genişdir və aqrar sahə, xüsusilə də aqroemal sektoru üçün yeni imkanlar və çağırışlar formalaşdırır. Rəsmi mənbələrin (İqtisadiyyat Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi) məlumatlarına əsasən, 2021–2024-cü illər ərzində ümumilikdə 8500-dən çox ailə, yəni təxminən 35 min nəfər işğaldan azad olunmuş ərazilərə qayıdıb. Ancaq bu rəqəm, ümumilikdə 30 ildən artıq bir müddətdə ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış təxminən 700 min nəfərlik məcburi köçkün əhalinin təxminən 5%-ni təşkil edir. Əhalinin geri qayıtması prosesi artan dinamika ilə daha geniş vüsət alır.

Yenidən məskunlaşma aşağıdakı bölgələr üzrə aparılıb:

Zəngilan rayonu (Ağalı kəndi): Burada “ağıllı kənd” modeli tətbiq edilməklə 200-dən çox ailə yerləşdirilib və əhali əsasən kənd

təsərrüfatı ilə məşğuldur. Tərəvəzçilik, quşçuluq və süd emalı potensialı formalaşır.

"Ağıllı kənd" (Smart Village) konsepsiyası müasir informasiya-kommunikasiya texnologiyaları (İKT), innovasiyalar və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan kənd inkişafı modelidir. Bu model kənd təsərrüfatı, infrastruktur, təhsil, səhiyyə, ictimai xidmətlər və ekoloji idarəetmənin rəqəmsallaşdırılması və inteqrasiyasını hədəfləyir.

Azərbaycanda ilk dəfə Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" modeli tətbiq olunmağa başlanmışdır. Bu model çərçivəsində həyata keçirilən əsas komponentlərə aşağıdakılar daxildir:

"Ağıllı" evlər və infrastruktur (enerji səmərəliliyi, "yaşıl" texnologiyalar, su və elektrik idarəetməsi);

Rəqəmsal kənd təsərrüfatı sistemləri (dron nəzarəti, sensor əsaslı monitorinq, ağıllı suvarma sistemləri və s.);

Elektron təhsil və səhiyyə xidmətləri (e-təhsil, tele-tibb);

Rəqəmsal idarəetmə və təhlükəsizlik (kameralar, sensorlar, ağıllı nəqliyyat);

Ətraf mühitin qorunması və tullantıların idarə olunması (ekoloji monitorinq, bərpa olunan enerji istifadəçiləri).

Bu model, həm qayıdışın sürətləndirilməsi, həm də kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsi üçün strateji bir yanaşma olaraq qiymətləndirilir. Ağıllı kəndlər postmünaqişə dövründə regionun uzunmüddətli inkişafını təmin etmək üçün nümunəvi layihələrdən biridir.

Füzuli rayonu: 2022-ci ildən etibarən ilk yaşayış məntəqələrinə köçlər başlayıb; əhalinin məşğulluğu üçün torpaq sahələrinin istifadəsi və kiçik ailə təsərrüfatlarının təşkili prioritetdir.

Laçın rayonu: 2023-cü ildən Laçın şəhərinə və kəndlərinə mərhələli qayıdış həyata keçirilir. Burada maldarlıq və arıçılıq potensialı xüsusilə vurğulanır.

Tərtər (Talış kəndi) və Suqovuşan ərazisi: Suvarma sistemlərinin bərpası ilə kənd təsərrüfatının reaktivləşdirilməsi istiqamətində tədbirlər görülür.

Şuşa şəhəri: Burada əsas diqqət turizm və xidmət sektoru olsa da, yaxın kəndlərdə əhalinin bir qismi əkinçilik və kiçikmiqyaslı emal ilə məşğuldur.

Məskunlaşma səviyyəsinin hələ ki aşağı olması aqroemal sektorunun bərpasını gecikdirən amillərdən biridir. Eyni zamanda, regionlara qayıdan əhalinin müəyyən bir hissəsi kənd təsərrüfatı vərdişlərinə malik deyildir və bu da sektora adaptasiyanı çətinləşdirir. Digər tərəfdən, yeni texnologiyaların tətbiqi və dövlət tərəfindən aqrar sahəyə subsidiyaların verilməsi həmin insan kapitalının məhsuldar istiqamətə yönəldilməsinə şərait yaradır.

Beləliklə, məskunlaşmanın coğrafi və say göstəricilərinə əsaslanan analiz göstərir ki, qayıdış prosesi yalnız sosial deyil, həm də aqrar strukturun yenidən qurulmasında həlledici rola malikdir. Bu səbəbdən, gələcək illərdə aqroemal sektorunun planlaşdırılması və investisiya strategiyaları bu dinamikanı mütləq nəzərə almalıdır.

*“Təbii ki, Azərbaycan öz torpaqlarını sadəcə olaraq azad edib dayanmaq fikrində deyil, onları diriltmək, dövlətin siyasi, iqtisadi və mədəni həyatına yenidən qovuşdurmaq əzmindədir”* [174, s.699]

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı

tədbirlər həyata keçirilir və bununla əlaqədar ölkə başçısı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalamışdır [69].

İşğaldan azad edilmiş ərazilər kənd təsərrüfatını inkişaf etdirmək baxımından böyük potensiala malikdir.

*"Müəyyən edilmişdir ki, işğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar keyfiyyət xüsusiyyətlərinə və məhsuldarlıq qabiliyyətinə görə respublikanın digər regionları ilə müqayisədə yüksək xüsusi çəkiyə malikdir. Ərazinin torpaq-iqlim xüsusiyyətləri burada kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin yüksək və səmərəli inkişafına imkan verir"* [115. s.43].

Aqroemal sahəsinin inkişaf etdirilməsi baxımından işğaldan azad edilmiş ərazilərimizin əhəmiyyəti strateji səviyyədə dəyərləndirilməlidir. Bu bölgələr təkcə ölkənin ərazi bütövlüyünün təmin olunması baxımından deyil, həm də kənd təsərrüfatı və onun ayrılmaz tərkib hissəsi olan aqroemal sənayesinin genişlənməsi üçün mühüm resurs bazası kimi çıxış edir. İşğal dövründə bu ərazilərdə mövcud olmuş kənd təsərrüfatı və emal müəssisələri tamamilə dağıdılmış, infrastruktur sıradan çıxarılmış, əhali məcburən ölkənin digər regionlarında məskunlaşmışdır. Hazırda isə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri nəticəsində bu torpaqlar iqtisadi dövriyyəyə qaytarılır.

Məhz bu kontekstdə dağıdılmış və fəaliyyətsiz qalmış emal müəssisələrinin yenidən qurulması, eyni zamanda müasir texnologiyalara əsaslanan yeni müəssisələrin yaradılması aqroemal sektorunun dirçəlməsinə güclü təkan verə bilər. Bu, təkcə regional deyil, ümummilli iqtisadi artıma da töhfə verəcək. İşğaldan azad olunmuş ərazilərin münbit torpaq və təmiz su ehtiyatları, müxtəlif aqroekoloji zonalarda yerləşməsi kənd təsərrüfatının diversifikasiyası və məhsul çeşidinin genişləndirilməsi üçün geniş

imkanlar yaradır. Bütün bunlar isə emal sənayesinin xammal bazasını zənginləşdirəcək, mövsümi və daimi məşğulluğun artmasına səbəb olacaq.

İşğal dövründə bu ərazilərdə mövcud olmuş 300-dən çox kənd təsərrüfatı və aqroemal təyinatlı müəssisə ya tamamilə dağıdılmış, ya da fəaliyyətini dayandırmışdır. Məsələn, təkcə Ağdam və Füzuli rayonlarında 2020-ci ildən əvvəl mövcud olmuş emal müəssisələrinin 100%-i sıradan çıxmışdır. Bu müəssisələrin bir çoxu üzüm, meyvə-tərəvəz, süd və ət məhsullarının ilkin və dərin emalı ilə məşğul idi. Rəsmi mənbələrə əsasən, bu ərazilərdə hər il 80–100 min ton kənd təsərrüfatı məhsulu emal edilə bilərdi.

Azad edilmiş ərazilər torpaq ehtiyatlarının həcminə görə də olduqca zəngindir. Belə ki, bu ərazilərdə 900 mindən çox hektar kənd təsərrüfatı təyinatlı torpaq mövcuddur ki, bunun təxminən 300 min hektarı əkin üçün yararlı sayılır. Bu isə ölkənin ümumi əkin sahələrinin təxminən 12%-nə bərabərdir. Torpaq ehtiyatları ilə yanaşı, bu bölgələrdə iqlim şəraiti və su ehtiyatlarının mövcudluğu, habelə relyefin əlverişliliyi aqroemal sahəsinin inkişafı üçün əlavə üstünlüklər yaradır.

2021–2024-cü illər ərzində bu bölgələrdə kənd təsərrüfatı və emal sahələrinə yönəldilmiş dövlət vəsaiti 3 milyard manatdan çox olmuşdur. Bu investisiyalar əsasən infrastrukturun – suvarma sistemlərinin, avtomobil yollarının, elektrik enerjisi şəbəkələrinin və sənaye zonalarının bərpasına yönəldilmişdir. Təkcə Ağdam Sənaye Parkında 20-yə yaxın emal müəssisəsinin fəaliyyətə başlaması nəzərdə tutulur ki, bu da regionda minlərlə daimi iş yerinin yaradılması ilə nəticələnəcəkdir.

Aqroemal sahəsinin yenidən qurulması həm də ölkənin qeyri-neft ixracının artırılması baxımından strateji əhəmiyyət daşıyır. Hal-hazırda Azərbaycanın qeyri-neft ixracında kənd təsərrüfatı

məhsullarının payı 30%-ə yaxındır ki, bunun da əsasını xammal təşkil edir. Bu səbəbdən işğal olunmuş ərazilərin bərpası zamanı emal sahəsinin genişlənməsi əsas şərtlərdən biridir. İxrac potensialı yüksək olan meyvə-tərəvəz, quru meyvələr, şərab və üzüm məhsulları, süd məhsulları kimi sahələr üzrə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları xüsusi üstünlüyə malikdir.

Bütün bu faktlar göstərir ki, işğaldan azad edilmiş ərazilərin aqroemal sahəsinin inkişafında rolu təkcə regional deyil, ümumrespublika səviyyəsində iqtisadi inkişafın təmin olunmasına xidmət edir. Bu baxımdan həmin ərazilərin kənd təsərrüfatı və emal sahələri üzrə prioritet regional mərkəzlərə çevrilməsi Azərbaycanın iqtisadi şaxələnməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün açar rol oynayır.

*"Ölkənin iqtisadi inkişafı baxımından dövlətin ən mühüm vəzifələrindən biri işğaldan azad edilmiş ərazilərdə yeyinti məhsulları istehsalının iqtisadi vasitələrlə tənzimlənmə konsepsiyasının işlənib hazırlanması, xüsusən müvafiq maliyyə-kredit, qiymət, vergi, investisiya, sığorta və xarici iqtisadi siyasətin həyata keçirilməsini, yerli əmtəə istehsalçılarına dövlət yardımı sisteminin formalaşdırılmasını və tətbiqini tələb edir"* [65, s.128].

Dağlıq Qarabağ və ətraf rayonların işğalı 30 il əvvəl – 1990-cı illərin əvvəllərində baş vermişdir. Bu müddət ərzində Azərbaycanın işğaldan kənarda qalmış 80%-lik ərazisində sosial-iqtisadi inkişaf sürətlə aparılmış, infrastruktur sistemləri – yollar, enerji və su təchizatı, telekommunikasiya və nəqliyyat şəbəkələri – müasir tələblərə uyğun şəkildə yenidən qurulmuş və genişləndirilmişdir. Məsələn, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2003–2020-ci illər ərzində ölkədə asfalt yolların uzunluğu 2 dəfədən çox artmış, kənd yollarının çəkilməsi və regionların qazlaşdırılması üzrə göstəricilər 90%-ə

yaxınlaşmışdır. Bu inkişaf, regionlararası iqtisadi fərqlərin aradan qaldırılması, kənd təsərrüfatının və sənaye sahələrinin modernləşdirilməsi istiqamətində mühüm zəmin yaratmışdır.

Bu mənada, işğaldan azad edilmiş ərazilərdə əvvəllər mövcud olmuş infrastrukturun və aqroemal müəssisələrinin olduğu kimi – yəni 1980-ci illərin texnologiyası ilə – bərpası nə texnoloji, nə də iqtisadi baxımdan məqsədəuyğun hesab edilə bilməz. Məsələn, Sovet dövründə fəaliyyət göstərən sənaye obyektləri əsasən geniş əmək resurslarına və aşağı texnoloji səviyyəyə əsaslanırdı. Halbuki müasir dövrdə səmərəlilik, rəqəmsallaşma, enerji qənaəti və ekoloji dayanıqlılıq əsas meyarlardır. Dünya Bankının 2022-ci il hesabatında da vurğulanır ki, post-münaqişə bölgələrdə iqtisadi bərpa yalnız fiziki yenidənqurma ilə deyil, eyni zamanda yüksək texnologiyalı istehsal sahələrinin və innovativ idarəetmə modellərinin tətbiqi ilə mümkün olur.

Bundan əlavə, Azərbaycanın iqtisadi inkişaf strategiyasında regionların ixtisaslaşması və innovasiya əsaslı inkişaf modeli ön plandadır. Bu çərçivədə Qarabağ iqtisadi rayonu üçün "ağıllı kənd", "ağıllı infrastruktur" və "yaşıl enerji zonası" kimi çağdaş yanaşmalar daha çox aktualdır. Beləliklə, 30 il əvvəl mövcud olmuş, dövrün tələblərinə cavab verməyən texniki və texnoloji sistemlərin təkrar bərpası əvəzinə, həmin ərazilərdə müasir texnologiyalara əsaslanan və ixrac potensialı olan yeni istehsal və emal sahələrinin yaradılması daha rasional və dayanıqlı yanaşmadır.

"*Ona görə də konfliktsonrası reabilitasiyanın gedişində, qabaqlar mövcud olan obyektlərin bərpa edilib işə salınması ilə yeni inşaat optimal bir tərzdə uzlaşdırılmalıdır. Konfliktsonrası reabilitasiyanın bu iki forması arasındakı kəmiyyət nisbəti bir sıra amillərin təsiri altında müəyyənləşir*" [79, s.35].

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi həyatın bərpası təkcə torpaqların fiziki reabilitasiyası ilə məhdudlaşmamalı, hər bir rayonun iqtisadi-coğrafi mövqeyi, tarixi ixtisaslaşması və müasir çağırışlara uyğunluğu nəzərə alınaraq gələcək inkişaf modelləri qurulmalıdır. Bu yanaşma həm əhalinin dayanıqlı məskunlaşması, həm də ölkənin ümumi iqtisadi sisteminə dəyər qatan regional iqtisadi vahidlərin formalaşması üçün zəruridir. Belə bir yanaşma təkcə fiziki bərpa deyil, eyni zamanda strateji planlaşdırma, aqrar ixtisaslaşma, sənaye kooperasiyası və ixracyönlü istehsal hədəflərinə əsaslanmalıdır. Bu kontekstdə, Ağdam rayonunun gələcək inkişaf trayektoriyası xüsusi əhəmiyyət daşıyır.

Tamamilə dağıdılmış və 2020-ci ildə işğaldan azad olunmuş Ağdam rayonu hazırda Azərbaycanın ən genişmiqyaslı reabilitasiya və yenidənqurma proqramlarının həyata keçirildiyi ərazilərdən biridir. "Ağıllı şəhər" və "ağıllı kənd" modelləri, yol və enerji infrastrukturunun müasir tələblərə uyğun qurulması Ağdamın gələcəkdə Qarabağın iqtisadi, sənaye və mədəni mərkəzlərindən birinə çevriləcəyini göstərir. Bu potensialın əsas dayaqlarından biri isə rayonun tarixi ixtisaslaşması olan üzümçülük və şərabçılıq sahəsidir.

Ağdamın təbii-iqlim şəraiti texniki sort üzümçülüyü üçün son dərəcə əlverişli hesab olunur. Rayonun ərazisində olan çökəklik və alçaq dağətəyi zonalarda günəş radiasiyası və torpaq tərkibi şərabçılıq üçün tələb olunan üzüm əkini parametrlərinə cavab verir. Sovet dövründə məşhur "Ağdam" portfeyn şərabı məhz bu şəraitdə yetişdirilən texniki sort üzüm əsasında hazırlanırdı və keçmiş SSRİ-nin bazarlarında yüksək rəğbət qazanmışdı. Hazırkı mərhələdə bu ənənənin müasir bazar yanaşmaları ilə sintez edilməsi olduqca məqsədəuyğundur.

Bəzi ekspertlərin portfeyn kimi desert şərablarının artıq müasir bazarda tələbat görmədiyi barədə fikirləri olsa da, bu yanaşma bir qədər səthi görünür. Qlobal şərab bazarının strukturuna nəzər saldıqda məlum olur ki, düzgün mövqe və brend siyasəti ilə nostalji əsaslı məhsulların da müasir formatda təqdimatı mümkün və gəlirlidir. Bu baxımdan, "Ağdam" şərabının yenidən brendləşdirilməsi, onun keyfiyyət parametrlərinin saxlanılması ilə yanaşı, qablaşdırma, marketinq və hədəf auditoriya baxımından yenilənməsi mümkündür. Həmin məhsul ənənəvi istehlakçılarına əvvəlki dadı və müasir brend olaraq təqdim edilməlidir. Azərbaycan şərabçılığının tanıdılması üçün bu məhsul həm daxili turizm, həm də xarici bazarlarda simvolik rol oynaya bilər.

Şərabçılıqla yanaşı, Ağdamın tarixi kənd təsərrüfatı ixtisaslaşmalarına əsaslanan sənaye sahələrinin də bərpası və müasirləşdirilməsi vacibdir. Rayonun pambıqçılıq ənənələri, heyvandarlıq bazası və əkinçilik imkanları onun kənd təsərrüfatına əsaslanan sənaye komplekslərinin yaradılması üçün əlverişli zəmin yaradır. Burada müasir texnologiyalarla təchiz olunmuş pambıq emalı zavodları, iplik və tikiş fabrikləri, ət və süd emalı müəssisələri, yem dəyirmanları və dəri emalı sahələri açılarsa, Ağdam yalnız kənd təsərrüfatı rayonu deyil, eyni zamanda aqrosənaye mərkəzi statusu da qazana bilər.

Ayrıca, kənd təsərrüfatı ilə sənayenin inteqrasiyasını təmin edən aqropark modellərinin tətbiqi də rayonun iqtisadi strukturuna uyğun gəlir. 2024-cüilədək işğaldan azad edilmiş ərazilərdə 5 aqroparkın salınması planlaşdırılıb və Ağdam burada aparıcı rayonlardan biri kimi qeyd olunur. Bu aqroparklar yerli istehsalçıların müasir texnologiyalar və innovativ idarəetmə vasitələri ilə təchiz olunmuş strukturlara çıxışını təmin edəcək.

Beləliklə, Ağdam rayonunun iqtisadi inkişaf strategiyası onun təbii resurs potensialı, tarixi ixtisaslaşması və müasir texnoloji yanaşmaların vəhdəti əsasında qurulmalıdır. Yalnız bu halda rayon, keçmişdə olduğu kimi, Qarabağın əsas iqtisadi mərkəzlərindən birinə çevrilə bilər.

Füzuli rayonu Azərbaycanın cənub-qərbində yerləşir və Qarabağ iqtisadi rayonunun mühüm tərkib hissələrindən biridir. Rayonun ərazisi əsasən aran və dağətəyi relyefə malik olmaqla, burada kontinental iqlim xüsusiyyətləri üstünlük təşkil edir. İlin isti və quraq keçən yay mövsümü, eyni zamanda mülayim qış ayları, xüsusilə də illik günəşlənmə müddətinin uzunluğu və torpaq-iqlim amillərinin əlverişliliyi bu bölgəni kənd təsərrüfatı məhsullarının, xüsusilə də üzümçülük kimi xüsusi qulluq tələb edən sahələrin inkişafı baxımından əlverişli zonaya çevirir.

SSRİ dövründə Füzuli rayonu Azərbaycanın əsas üzümçülük rayonlarından biri hesab olunurdu. Burada həm texniki, həm də süfrə sortlarının becərilməsi geniş vüsət almış, eyni zamanda üzüm emalı müəssisələri fəaliyyət göstərmişdir. Rayonun Horadiz, Qazaxlar, Əhmədbəyli, Aşağı Yağlıvənd və Yuxarı Kürdmahmudlu kəndlərinin ərazilərində yerləşən üzüm plantasiyaları və orada formalaşan kooperativlər yerli iqtisadiyyatın əsas təkanverici qüvvələrindən olmuşdur. Lakin 1993-cü ildə Ermənistanın hərbi təcavüzü nəticəsində rayonun böyük hissəsi işğal olundu və mövcud infrastruktur, o cümlədən, üzümçülük təsərrüfatları, emal sexləri, şərab zavodları və logistik mərkəzlər tamamilə dağıdıldı.

2020-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin apardığı Vətən müharibəsi nəticəsində Füzuli rayonu işğaldan azad olundu və hazırda həmin ərazilərdə bərpa və yenidənqurma işləri geniş vüsət almışdır. Dövlət tərəfindən qəbul edilən "Ağıllı kənd", "Ağıllı şəhər" və "Yaşıl enerji zonası" kimi

inkişaf konsepsiyaları fonunda, Füzuli rayonunun aqrar sektorda da müasir texnologiyalar əsasında yenidən formalaşdırılması aktual məsələ kimi qarşıya qoyulmuşdur.

Rayonun iqlim şəraitinin Ağdam rayonu ilə yüksək səviyyədə oxşarlığı onun da üzümçülük istiqamətində ixtisaslaşdırılmış zona kimi inkişaf etdirilməsi ideyasını aktuallaşdırır. Lakin bu prosesdə keçmişdəki ənənəvi yanaşmaların təkrarından çəkinmək və yeni dövrün çağırışlarına cavab verən, innovativ texnologiyalara əsaslanan, yüksək əlavə dəyər yaradan bir modelin qurulması vacibdir.

Buna görə də, Füzuli rayonunda texniki sort üzüm plantasiyalarının müasir aqrotexniki qaydalar əsasında salınması və paralel olaraq smart kənd təsərrüfatı texnologiyalarına əsaslanan müasir şərab zavodlarının qurulması iqtisadi baxımdan daha məqsədəuyğun hesab olunur. Belə müəssisələr yalnız üzüm istehsalını deyil, həm də emal mərhələsində əlavə dəyər yaradaraq, ixrac yönümlü məhsulların istehsalını təmin edə bilər. Bu isə həm yerli məşğulluğun artırılmasına, həm də ölkənin qeyri-neft ixrac potensialının genişlənməsinə mühüm töhfə verəcəkdir.

Beləliklə, Füzuli rayonunun agroekoloji potensialı və strateji yerləşməsi nəzərə alındıqda, burada üzümçülüyün və şərabçılığın yeni mərhələdə və daha rasional əsaslarla inkişaf etdirilməsi regional iqtisadi dirçəlişin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

Cəbrayıl və Zəngilan rayonları Azərbaycanın Cənub-Qərb hissəsində yerləşir və coğrafi mövqeyi, torpaq-iqlim şəraiti baxımından ölkənin kənd təsərrüfatı və aqrar sənaye üçün mühüm potensiala malik bölgələrindən sayılır. Qarabağ münaqişəsi nəticəsində uzun illər işğal altında qalan bu rayonlar, 2020-ci ildə ərazi bütövlüyünün bərpasından sonra sürətli bərpa və

yenidənqurma mərhələsinə daxil olmuşdur. Bu mərhələdə rayonların təbii resursları və ənənəvi təsərrüfat sahələri nəzərə alınmaqla, dayanıqlı inkişaf modelinin formalaşdırılması zəruridir.

Tarixi ənənələr və iqlim xüsusiyyətləri göstərir ki, Cəbrayıl və Zəngilan rayonlarında texniki sort üzümçülüyünün inkişaf etdirilməsi xüsusi prioritet daşıyır. Bu ərazilər yüksək günəşlənmə dərəcəsinə, illik orta temperaturun sabitliyinə və münbit torpaqlara malikdir. Məhz bu amillər texniki sort üzüm bağlarının salınmasını və keyfiyyətli şərabçılıq məhsullarının istehsalını təşviq edir. Bu baxımdan, müasir texnologiyalarla təchiz olunmuş şərabçılıq müəssisələrinin inşası bu rayonlarda iqtisadi dirçəlişin lokomotivi ola bilər.

Digər tərəfdən, rayonların kənd təsərrüfatı strukturu yalnız üzümçülüklə məhdudlaşmır. Bu bölgələr uzun illər boyu heyvandarlığın inkişaf etdiyi ərazilər olmuşdur. Xüsusilə Cəbrayıl rayonu geniş yaylaq və örüş sahələrinə malikdir ki, bu da burada iribuynuzlu və xırdabuynuzlu heyvandarlığın, həmçinin südlük və ətlik istiqamətli təsərrüfatların bərpasını zəruri və səmərəli edir. Zəngilan rayonunda isə iqlim zonalarının müxtəlifliyi (subtropik və mülayim iqlimin kəsişməsi) heyvandarlığın diversifikasiyası üçün geniş imkanlar yaradır.

Heyvandarlığın bərpası ilə yanaşı, onun məhsullarının emalına yönəlik müəssisələrin – müasir ət və süd kombinatlarının yaradılması bu sahədə əlavə dəyər zəncirinin qurulmasına şərait yarada bilər. Bu cür kombinatlar təkcə daxili tələbatı ödəmək deyil, həm də ixracyönümlü məhsulların istehsalını təmin etmək baxımından strateji əhəmiyyət kəsb edir.

Əlavə olaraq, bu bölgələrdə kənd təsərrüfatı məhsullarının emalını tamamlamaq məqsədilə un dəyirmanlarının inşası da

nəzərdə tutulmalıdır. Bu, yerli taxılçılığın stimullaşdırılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmininə də xidmət edə bilər.

Ənənəvi sənət sahələrinin, xüsusilə xalçaçılığın və yunun ilkin emalı sahələrinin də bərpası iqtisadi və mədəni dəyərlərin inteqrasiyası baxımından əhəmiyyətlidir. Xalçaçılığın sənaye əsaslı inkişafı həm məşğulluq səviyyəsinin yüksəldilməsinə, həm də milli irsin qorunmasına xidmət edəcək. Dəri emalı müəssisələrinin yaradılması isə həm heyvandarlıq məhsullarının dəyərinin artırılmasına, həm də ayaqqabı, geyim və digər yüngül sənaye sahələrinin inkişafına töhfə verə bilər.

Nəticə etibarilə, Cəbrayıl və Zəngilan rayonlarında kənd təsərrüfatı və emal sənayesinin qarşılıqlı inteqrasiyasına əsaslanan kompleks iqtisadi inkişaf strategiyası bölgənin uzunmüddətli reabilitasiyası üçün ən rasional və dayanıqlı yanaşma hesab edilə bilər. Bu yanaşma həm yerli resursların səmərəli istifadəsini təmin edəcək, həm də regionda iqtisadi fəaliyyətin canlanması və əhalinin məskunlaşması üçün real zəmin yaradacaqdır.

Qubadlı, Laçın və Kəlbəcər rayonları Azərbaycanın dağlıq zonasında yerləşən və uzun illər ərzində coğrafi mövqeyi, zəngin təbii resursları, eləcə də kənd təsərrüfatı və sənaye potensialı ilə seçilən regionlardır. İşğaldan əvvəl bu rayonların iqtisadiyyatı əsasən heyvandarlıq, meşə və su ehtiyatlarının istifadəsi, eləcə də müxtəlif emal sahələri üzərində qurulmuşdur. Lakin 30 ilə yaxın davam edən işğal nəticəsində regionun iqtisadi infrastrukturu, yaşayış məntəqələri, istehsal müəssisələri və təbii ehtiyatların istismar mexanizmləri tamamilə dağıdılmışdır. 2020-ci ildə torpaqlarımızın azad edilməsindən sonra bu rayonlarda genişmiqyaslı reabilitasiya və yenidənqurma işlərinə start verilmiş və hazırda bölgənin sosial-iqtisadi dirçəlişi üçün strateji planlar həyata keçirilir.

Üç rayonun ümumi xüsusiyyəti onların dağlıq relyefə və sərt iqlimə malik olmasıdır. Bu coğrafi şərait burada intensiv əkinçilikdən daha çox ekstensiv heyvandarlığın, xüsusilə də zərif yunlu qoyunçuluğun inkişafı üçün əlverişli şərait yaradır. Zəngin yaylaq resursları, təmiz su hövzələri və təbii otlaqlar Laçın, Qubadlı və Kəlbəcər rayonlarını qoyunçuluq üçün ideal məkana çevirir. Nəzərə alsaq ki, Azərbaycan dünya bazarlarında yüksək keyfiyyətli yun məhsullarına malik ölkələrdən biri olmaq potensialına sahibdir, bu sahənin yenidən qurulması və ixrac yönümlü istehsal zəncirinə çevrilməsi olduqca məqsədəuyğundur.

Bu məqsədlə regionda müasir texnologiyalarla təchiz edilmiş ət və süd kombinatlarının, eləcə də yun emalı və iplik zavodlarının qurulması prioritet sahələrdən biri kimi qəbul edilməlidir. Bu, yalnız yerli istehsalı stimullaşdırmaqla kifayətlənməyəcək, həm də məşğulluq səviyyəsini artırmaqla sosial stabilliyə töhfə verəcəkdir. Yun məhsullarının sənaye əsaslı emalı isə xalçaçılıq sənayesinin bərpası və inkişafı üçün təməl rolunu oynayacaqdır. Bu isə həm də Azərbaycanın mədəni irsinin qorunmasına xidmət edəcək.

Qubadlı və Laçın rayonlarının cənub və cənub-qərb yamacları, eləcə də Kəlbəcərin nisbətən mülayim iqlimli hissələri üzümçülüyün inkişafı üçün əlverişli zonalar sayılır. Tarixən bu ərazilərdə texniki sortlu üzüm bağları salınmış və onlardan keyfiyyətli şərab məhsulları istehsal olunmuşdur. Hazırkı mərhələdə bu ənənələrin yenidən bərpası və müasir üzüm emalı zavodlarının yaradılması rayonların ixrac qabiliyyətli məhsullar istehsal etməsinə şərait yarada bilər.

Bununla yanaşı, Zəngəzur dağ silsiləsinin ətəklərində yerləşən bu ərazilər tarixən tütünçülük üçün də əlverişli olmuşdur. Bu baxımdan, tütün plantasiyalarının yenidən salınması və fermentasiya zavodlarının tikilməsi regionda aqrosənaye

kompleksinin daha da genişlənməsinə səbəb ola bilər. Eyni zamanda 2025-ci ildə Ağdam rayonunda yeni açılmış siqaret fabriki üçün əsas xammal mənbəyi olardı. İxrac yönümlü tütün məhsulları bazarının yenidən canlandırılması ölkə iqtisadiyyatına əlavə valyuta gətirəcək və bölgənin strateji əhəmiyyətini artıracaqdır.

Kəlbəcər rayonu təkcə kənd təsərrüfatı ilə deyil, həm də balneoloji və rekreativ ehtiyatlarla zəngin olması ilə seçilir. Xüsusilə "İstisu" mineral bulaqları, keçmiş SSRİ dövründə Azərbaycanın ən məşhur müalicəvi su mənbələri sırasında olmuş və həmin dövrdə burada fəaliyyət göstərən sanatoriya və butulka istehsalı zavodu həm ölkə daxilində, həm də xaricdə geniş tanınmışdır.

İşğaldan sonra buradakı bütün infrastruktur dağıdılsa da, 2021-ci ildən etibarən "İstisu" mineral su istehsalı bərpa olunmuş, ilkin mərhələdə qablaşdırma və ixrac prosesi artıq başlamışdır. Bu sahənin genişləndirilməsi, müalicəvi sanatoriyaların yenidən qurulması və müalicəvi turizmin inkişafı bölgənin iqtisadi inkişafında yeni mərhələnin əsasını qoya bilər. Eyni zamanda Kəlbəcər və Laçın rayonlarında ov, dağ və ekoturizm imkanları da yüksəkdir və bu resurslar dayanıqlı inkişaf konsepsiyası çərçivəsində istifadə olunmalıdır.

İşğaldan azad edilmiş Şuşa şəhəri Azərbaycanın mədəni paytaxtı elan edilmişdir və bu qərar təsadüfi deyildir. Tarixən Azərbaycanın siyasi, ədəbi və musiqi həyatında mühüm yer tutmuş Şuşa şəhəri XVIII əsrdən etibarən milli kimliyin və intellektual həyatın beşiyi olmuşdur. Bu şəhər təkcə zəngin memarlığı və təbiəti ilə deyil, həm də tarixi şəxsiyyətləri — Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan, Bülbül kimi görkəmli şəxsiyyətlərin vətəni olması ilə fərqlənir.

2020-ci ildə işğaldan azad olunmasından sonra Şuşada yenidənqurma və reabilitasiya işləri geniş miqyasda həyata keçirilməyə başlanmışdır. Bu prosesin mərkəzində şəhərin mədəni irsinin qorunması ilə yanaşı, onun turizm və kurort təsərrüfatı kimi inkişafı xüsusi yer tutur.

Şuşa öz relyefinə görə dağ turizmi və ekoturizm üçün geniş imkanlara malikdir. Şəhər dəniz səviyyəsindən 1400–1600 metr yüksəklikdə yerləşdiyi üçün iqlimi mülayim dağ iqlimidir. Bu isə onu istirahət və sağlamlıq turizmi üçün əlverişli məkana çevirir. Ənənəvi mədəni turizmlə yanaşı, gələcəkdə Şuşada aşağıdakı istiqamətlər üzrə turizm inkişaf etdirilə bilər:

Mədəni turizm: Xurşidbanu Natəvanın evi, Bülbülün ev-muzeyi, Cıdır düzü, Şuşa qalası, Yuxarı Gövhər Ağa məscidi və digər tarixi abidələrin bərpası və turizm marşrutlarına daxil edilməsi;

Musiqi turizmi: Beynəlxalq Muğam Festivalları, Vaqif poeziya günləri və digər klassik musiqi tədbirlərinin keçirilməsi üçün infrastrukturun qurulması;

Kurort və sağlamlıq turizmi: Şuşa ətrafında olan təbii bulaqlar, mineral sular və təmiz dağ havası sanatoriya tipli obyektlərin tikintisi üçün əlverişlidir;

Dağ turizmi və trekking: Şuşanın dağlıq relyefi ekstremal idman növləri və yürüş turları üçün əlverişli şərait yaradır.

Azərbaycan Turizm Bürosunun ilkin qiymətləndirmələrinə əsasən, Şuşa şəhərinə illik turistik axının 2030-cu ilə qədər 500 min nəfəri keçəcəyi proqnozlaşdırılır. Bu isə, turizm sektorunda minlərlə yeni iş yerinin açılması deməkdir. Dövlət Turizm Agentliyinin məlumatına görə, 2023–2025-ci illər ərzində Şuşada 3 və 4 ulduzlu otellərin, turizm informasiya mərkəzlərinin, yeni yolların və zənginləşdirilmiş müzey komplekslərinin inşası

planlaşdırılır. Hazırda "Karvansaray Şuşa", "Şuşa Boutique Hotel" və "Qarabağ Otel" kimi obyektlərdə turizm fəaliyyəti başlanmışdır.

Turizmin inkişafında yerli əhalinin sosial-iqtisadi reinteqrasiyası mühüm yer tutur. Bu baxımdan, Şuşa ətrafında yaşayan sakinlərin turizm xidmətləri sahəsində peşə hazırlığı kurslarına cəlb olunması və mikro-sahibkarlığın stimullaşdırılması vacibdir. Əl işləri, xalçaçılıq, milli suvenirlərin istehsalı kimi sahələr yerli icma üçün həm məşğulluq, həm də mədəni irsin yaşadılması baxımından strateji əhəmiyyət daşıyır.

Vaxtilə Azərbaycan SSR-in tərkibində muxtariyyət statusu ilə fəaliyyət göstərmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) öz inzibati strukturuna bir neçə şəhər və rayonu daxil edirdi. Bu bölgələr öz dövrü üçün sənaye, kənd təsərrüfatı və mədəni sahələrdə mühüm potensiala malik idilər. İşğal və münaqişə dövrlərində bu potensial ciddi zərbə alsa da, hazırda onların bərpası və reinteqrasiyası istiqamətində genişmiqyaslı fəaliyyətlər həyata keçirilir. Aşağıda bu ərazilər üzrə əsas tarixi, sosial və iqtisadi xüsusiyyətlər ümumiləşdirilir.

Xankəndi şəhəri DQMV-nin inzibati mərkəzi olmuşdur. SSRİ dövründə Xankəndi həm sənaye, həm də mədəni baxımdan sürətlə inkişaf etmişdi. Burada fəaliyyət göstərən əsas sənaye müəssisələri arasında:

Ayaqqabı fabriki – bölgədə həm hərbi, həm də mülki istifadə üçün məhsul istehsal edilirdi.

Ət və süd kombinatı – yerli fermer təsərrüfatlarından xammal toplanaraq şəhər və ətraf rayonların təminatında mühüm rol oynayırdı.

Mərmər istehsalı zavodu – bölgənin faydalı qazıntı potensialına əsaslanaraq, tikinti və bəzək materiallarının emalı həyata keçirilirdi.

Bundan əlavə, tikinti materialları zavodları, pambıq emalı sexləri və ərzaq sənayesi obyektləri mövcud idi.

Xankəndi həm də ali təhsil müəssisələri, texnikumlar və teatr kimi mədəni infrastruktura malik idi. Hal-hazırda şəhərdə reinteqrasiya siyasəti çərçivəsində sosial-iqtisadi dirçəliş proqramları hazırlanıb və həyata keçirilir.

Hadrut qəsəbəsi tarixi və arxeoloji baxımdan zəngin bir məkandır. Qədim Alban abidələri, mağara yaşayış yerləri və orta əsrlərə aid dini memarlıq nümunələri ilə tanınır. Kənd təsərrüfatı, xüsusən, üzümçülük, bağçılıq və heyvandarlıq burada əsas məşğulluq sahələri idi.

İşğaldan əvvəl və sonrakı dövrlərdə Hadrutun əhalisinin əksəriyyəti kənd yerlərində yaşayıb, ailə tipli təsərrüfatlarla məşğul olub. 2020-ci ildən sonra bərpa işləri həyata keçirilir və ərazi Azərbaycanın inzibati sisteminə inteqrasiya edilib.

Əskəran rayonu vaxtilə DQMV-nin mərkəzi hissəsində yerləşmişdir. Bu ərazidə yerləşən Əskəran qalası Qarabağın müdafiə sistemində mühüm rol oynamışdır. SSRİ dövründə Əskəranda üzümçülük sovxozları, heyvandarlıq təsərrüfatları, süd məhsullarının emalı müəssisələri fəaliyyət göstərirdi.

Əskəran həmçinin meşə ehtiyatları ilə də zəngin idi ki, bu da bölgədə mebel istehsalı və ağac emalı sənayesinin formalaşmasına səbəb olmuşdu.

Xocavənd rayonu daha çox kənd təsərrüfatına əsaslanan iqtisadiyyata malik idi. Burada:

Taxılçılıq və üzümçülük inkişaf etmişdi.

Heyvandarlıq və arıçılıq bölgənin dağlıq relyefinə uyğun olaraq təşkil olunmuşdu.

SSRİ dövründə bir sıra kollektiv təsərrüfatlar fəaliyyət göstərmiş və dövlət planlarına uyğun məhsul tədarükü həyata keçirilmişdir.

Xocavənddə həmçinin qədim qəbiristanlıqlar, xristian və alban məbədləri yerləşməkdədir. Bu ərazi həm kənd turizmi, həm də ekoturizm üçün potensiala malikdir.

Ağdərə rayonu dağlıq relyefə malik olub, əsasən meşəçilik və heyvandarlıqla tanınırdı. Ağdərə SSRİ dövründə sənaye baxımından nisbətən zəif inkişaf etmiş olsa da, faydalı qazıntı yataqları ilə, xüsusilə, mis-molibden filizləri ilə tanınırdı. Ərazidə meşə təsərrüfatı və balıqçılıq imkanları da vardı.

Xocalı həm strateji, həm də mədəni baxımdan mühüm əhəmiyyətə malik bir ərazidir. Burada müasir hava limanı (Xocalı Aeroportu), meşəliklər və dağ çayları
arxeoloji tapıntılar (o cümlədən qədim kurqanlar və daş abidələr) mövcud olmuşdur.

1992-ci il Xocalı faciəsi bu bölgənin yaxın tarixində faciəli dönüş nöqtəsi olmuşdur. Bu hadisə Azərbaycanın milli yaddaşında xüsusi yer tutur. Ərazi üzrə bərpa və rekonstruksiya planları həm yaşayış infrastrukturunun, həm də mədəni irsin qorunmasını əhatə edir.

Bu ərazilər Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə birlikdə yenidən dövlət idarəçiliyi və iqtisadi dövriyyəyə inteqrasiya olunub. Hər bir rayonun özünəməxsus resurs bazası, ixtisaslaşmış kənd təsərrüfatı və sənaye ənənələri mövcuddur. Postmünaqişə dövründə əsas hədəf bu potensialın səmərəli istifadəsi, köçkünlərin təhlükəsiz qayıdışı və dayanıqlı regional inkişafın təmin edilməsidir.

Azərbaycanın uzun illər işğal altında qalmış torpaqlarının azad olunması təkcə ərazi bütövlüyümüzün bərpası deyil, həm də

milli iqtisadi təhlükəsizlik arxitekturasının yenidən qurulması baxımından dönüş nöqtəsi olmuşdur. Bu regionların azad edilməsi ölkənin ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı dövriyyəsi və aqrar-sənaye potensialına fundamental təsir göstərməkdədir.

Ərzaq təhlükəsizliyi, yəni, ölkə əhalisinin əsas qida məhsulları ilə sabit və dayanıqlı şəkildə təmin olunması son illərdə dövlətin prioritet iqtisadi və sosial siyasət istiqamətlərindən biri kimi ön plana çıxmışdır. Lakin bu hədəflərə çatmaq üçün mövcud torpaq fondunun səmərəli istifadə olunması və aqroemal infrastrukturunun gücləndirilməsi həyati əhəmiyyət daşıyır. Məhz bu kontekstdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı və emal sektoru üzrə reaktivləşdirilməsi milli ərzaq təminatı mexanizmlərinin əsas dayaqlarından birinə çevrilə bilər.

Əldə olunan rəsmi məlumatlara əsasən, işğaldan əvvəl bu ərazilərdə təxminən 40 min hektar üzüm plantasiyaları mövcud olmuş, bu da keçmiş SSRİ məkanında Azərbaycanın aparıcı üzümçülük bölgələrindən biri kimi tanınmasına səbəb olmuşdur. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Kəlbəcər və digər rayonlarda fəaliyyət göstərmiş onlarla şərab zavodu, pambıqtəmizləmə müəssisələri, dəri emalı sexləri, yem dəyirmanları və süd-ət kombinatları regionun aqroemal profilli sənaye mərkəzinə çevrilməsində əsas rol oynamışdır.

Bütün bu müəssisələrin bərpası və müasir texnologiyalarla yenidən qurulması təkcə kənd təsərrüfatı istehsalını artırmaqla qalmayacaq, eyni zamanda yeni iş yerlərinin açılması, regionların iqtisadi cəlbediciliyinin yüksəlməsi və ixrac potensialının gücləndirilməsi ilə nəticələnəcəkdir.

Eyni zamanda, bu ərazilərin heyvandarlıq zonaları kimi yenidən təşkil olunması ölkənin ət və süd məhsulları ilə özünütəminetmə səviyyəsinə ciddi təsir göstərəcək. Xüsusilə dağlıq

relyefə malik rayonlarda zərif yunlu qoyunçuluq, maldarlıq, və arıçılıq kimi ixtisaslaşmış təsərrüfat formalarının təşviqi nəzərdə tutulur.

Bunlarla yanaşı, Qarabağ və ətraf ərazilərdə Azərbaycanın mineral su ehtiyatlarının 35–40%-nin yerləşməsi xüsusi strateji əhəmiyyət daşıyır. Kəlbəcər rayonunda yerləşən və artıq bərpa olunmuş “İstisu” mineral suyu istehsalı bu sahənin inkişafı üçün əlamətdar nümunədir. Uzunmüddətli perspektivdə bu və digər mineral bulaqların sənaye qablaşdırması ilə daxili bazara və ixrac istiqamətlərinə yönəldilməsi mümkündür. Paralel olaraq həmin bölgələrdə kurort-rekreasiya mərkəzlərinin təşkili və sanatoriya tipli müalicə-sağlamlıq komplekslərinin yaradılması həm iqtisadi, həm də sosial baxımdan məqsədəuyğundur.

Beləliklə, azad edilmiş ərazilər Azərbaycanın ərzaq təminatında və aqroemal sənayesinin yenidən təşkilində strateji zəncirin açar həlqəsinə çevrilməkdədir. Bu bölgələrin yalnız torpaq və resurs potensialı deyil, həm də coğrafi mövqeyi, nəqliyyat əlçatanlığı və turizm sinerjisi onları yaxın onillikdə ölkənin ərzaq təhlükəsizliyi, regionlararası balans və ixrac yönümlü istehsal strategiyalarında əsaslı aktora çevirəcəkdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin reabilitasiyası və reinteqrasiyası yalnız infrastrukturun yenidən qurulması ilə deyil, həm də bu ərazilərin iqtisadi və institusional dayanıqlığının bərpası ilə bağlıdır. Əhalinin geri qayıdışı və dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün bu torpaqlarda iqtisadi təşəbbüslərin, xüsusən də kənd təsərrüfatına əsaslanan özəl təşəbbüslərin təşviqi həyati əhəmiyyət kəsb edir. Bu isə birbaşa torpaq münasibətlərinin hüquqi və iqtisadi əsaslarla tənzimlənməsi, yəni torpaq islahatlarının aparılması ilə sıx bağlıdır.

Hazırda bu ərazilərə yönələn investisiyaların əsas mənbəyi dövlət büdcəsi olsa da, uzunmüddətli inkişaf üçün bu model kifayət etmir. İnkişaf etmiş iqtisadiyyatların təcrübəsi göstərir ki, davamlı və məhsuldar inkişaf üçün özəl sektorun cəlbi, sahibkarlıq təşəbbüslərinin təşviqi və özəl investisiyaların stimullaşdırılması vacibdir. Lakin praktiki baxımdan özəl kapital yalnız mülkiyyət hüquqlarının aydın və təminatlı olduğu, mülkiyyətə sahiblik və sərəncam hüquqlarının möhkəm hüquqi baza ilə qorunduğu sahələrə yönəlir. İşğaldan azad edilmiş ərazilər isə bu baxımdan spesifik və mürəkkəb xüsusiyyətlərə malikdir. Ona görə də torpaq islahatı burada təkcə hüquqi və iqtisadi tədbir deyil, həm də sosial ədalətin bərpası və məskunlaşma prosesinin təkanverici mexanizmi kimi çıxış etməlidir.

Torpaq islahatının bu regionlarda aparılması həm texniki, həm də hüquqi baxımdan fərqli yanaşma tələb edir. Belə ki, bir çox kəndlər uzun illərdir ki, tamamilə boş qalmış, infrastruktur dağıdılmış və əhalisi ya şəhid olmuş, ya da ölkənin müxtəlif guşələrinə dağılmışdır. Bu reallıqlar fonunda islahatın aparılması üçün ilk növbədə rayonlar üzrə xüsusi torpaq islahat komissiyalarının yaradılması vacibdir. Həmin komissiyalar təkcə torpağın bölgüsünü deyil, eyni zamanda torpaq fondunun dövlət, bələdiyyə və mümkün özəl kateqoriyalara görə bölgüsünü müəyyən etməlidirlər. Xüsusilə kəndlər üzrə əkinə yararlı sahələrin dəqiq həcminin ölçülməsi və kartoqrafik əsasda təsdiqlənməsi torpaq bölgüsü prosesində mübahisələri minimuma endirəcəkdir.

Torpaq bölgüsü zamanı daha əvvəl həmin kəndlərdə yaşamış əhalinin sayı əsas götürülməli, bir nəfərə düşən pay torpağı orta göstərici əsasında hesablanmalıdır. Bu torpaq sahələri ailələrə püşkatma yolu ilə verilməlidir. Bu üsul xüsusilə vacibdir, çünki torpaqların keyfiyyət və yerləşmə fərqləri gələcəkdə mülkiyyətçilər

arasında sosial narazılıqlara səbəb ola bilər. Püşkatma isə şəffaf və təsadüfi seçim metodu olmaqla yanaşı, hüquqi ədalətlilik prinsipini də təmin edir.

Əlbəttə, bu zaman əvvəlki ailə strukturlarında baş verən dəyişikliklər — yəni ailə üzvlərinin vəfatı, yeni doğulanlar və ya ayrılan ailə bölmələri kimi faktorlar da nəzərə alınmalıdır. Lakin bu sahədə dövlətin rolu daha çox inzibati tənzimləmə ilə məhdudlaşmalı, ailədaxili pay bölgüsü isə varislik hüququ əsasında ailələrin özlərinə həvalə edilməlidir. Bu, həm hüquqi təhlükəsizliyi qoruyar, həm də dövlətin prosesi çoxsaylı fərdi detallar səbəbilə ləngitmək ehtimalını azaldar.

İnvestor üçün isə əsas məqam torpağın hüquqi statusudur. Dövlət torpaqları üzərində uzunmüddətli icarə mexanizmləri tətbiq oluna bilər, lakin özəl investisiya daha çox xüsusi mülkiyyətə yönəlməyə meyillidir. Bu baxımdan əkinəyararlı sahələrin bir hissəsinin xüsusi mülkiyyətə verilməsi və investisiya müqabilində daha cəlbedici şəraitin yaradılması (vergi güzəştləri, subsidiyalar, infrastruktur təminatı və s.) regionun canlanmasına töhfə verərdi. Bununla yanaşı, bələdiyyə mülkiyyətinə keçən torpaqların da şəffaf auksionlarla sahibkarlara təqdim edilməsi təklif olunur.

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə torpaq islahatlarının aparılması, yalnız aqrar sektorun bərpasına deyil, həm də özəl kapitalın regiona cəlbinə, sosial rifahın yüksəldilməsinə, vətəndaşların torpaqla bağlarının möhkəmləndirilməsinə və uzunmüddətli sabit məskunlaşmanın təmin edilməsinə xidmət edəcəkdir. Bu prosesin effektivliyi, institusional çevikliyi, sosial ədalətə və iqtisadi səmərəyə söykənməsi isə Qarabağ və Şərqi Zəngəzurun sabahkı iqtisadi modelinin əsas sütunlarından birinə çevrilə bilər.

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə yanaşı, dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün torpaq islahatlarının həyata keçirilməsi kifayət etmir. Əhalinin doğma torpaqlarına qayıdışı yalnız hüquqi və inzibati tədbirlərlə deyil, həm də sosial-iqtisadi stimullaşdırma mexanizmləri ilə dəstəklənməlidir. Bu baxımdan, kənd sakinlərinə öz ata-baba yurdlarını yenidən inşa etməyə imkan verən dövlət siyasətinin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır.

İlk növbədə, yaşayış evlərinin tikintisinə icazə verilməsi məsələsi hüquqi baxımdan sadələşdirilməli, yerli özünüidarə orqanları və müvafiq dövlət strukturları tərəfindən müvafiq layihələndirmə və tikinti icazələri üzrə çevik və şəffaf prosedurlar təmin edilməlidir. Dövlət bu prosesi təkcə inzibati deyil, eyni zamanda maliyyə baxımından da dəstəkləməlidir. Belə ki, hər bir ailəyə ev tikintisi üçün birbaşa maliyyə yardımı şəklində 20–30 min manat həcmində güzəştli və ya qrant formasında vəsait ayrılması, bu ailələrin öz gücləri ilə evlərini bərpa etmələrinə imkan yaradar. Nəzərə almaq lazımdır ki, bu yardım yalnız tikinti xərclərinin qismən qarşılanmasına deyil, həm də psixoloji baxımdan məcburi köçkünlərin doğma torpaqlara bağlılığının möhkəmlənməsinə xidmət edəcəkdir.

Bütün kəndlərdə evlərin dövlət tərəfindən eyni formalı və standart layihə əsasında tikilməsi, ilk baxışdan funksional və təşkilati baxımdan sərfəli görünsə də, əslində həm maliyyə, həm də estetik baxımdan bir sıra çatışmazlıqlara səbəb ola bilər. Belə ki, bu cür yanaşma büdcə xərclərinin optimallaşdırılmasını əngəlləyir, çünki hər bir ailənin fərdi ehtiyacları və mövcud tikinti resursları nəzərə alınmadan vahid model tətbiq edilir. Digər tərəfdən, bir-birinin eynisi olan evlərlə dolu yaşayış məntəqələrinin formalaşması kənd mühitinə özünəməxsusluqdan uzaq, monoton və

süni görkəm qazandırır. Halbuki kəndlərin tarixi ruhunu və fərdiliyini qorumaq üçün daha çevik, sakinlərin iştirakı və estetik baxışlarını nəzərə alan yanaşmalara ehtiyac var. Bu, həm insanların mənəvi bağlılığını gücləndirər, həm də yaşayış mühitini daha cəlbedici və funksional hala gətirər.

Ev layihələrinin seçilməsi və tikintinin təşkili zamanı əhalinin estetik zövqləri, ailə tərkibi və maliyyə imkanları nəzərə alınmalıdır. Məcburi olaraq standartlaşdırılmış layihələrin tətbiqi və mərkəzləşdirilmiş tikinti mexanizmi, gələcəkdə həmin kəndlərin tarixi-mədəni kimliyinin itirilməsinə səbəb ola bilər. Bunun əvəzində dövlət tərəfindən müxtəlif planlaşdırma variantları təklif olunaraq, sakinlərə seçim imkanı yaradılmalı və layihələrin icrası üçün zəruri texniki və mühəndis dəstəyi təmin edilməlidir. Bu model əhalinin təşəbbüskarlığını stimullaşdırmaqla yanaşı, kənd icmalarında sosial-iqtisadi və mədəni reabilitasiyanı da sürətləndirə bilər.

Qeyd etmək lazımdır ki, bu cür yanaşma yalnız sosial məsələ deyil, həm də iqtisadi baxımdan səmərəli bir siyasətdir. Azərbaycan Dövlət Statistika Komitəsinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 2022 və 2023-cü illər üzrə məlumatlarına əsasən, yaşayış evlərinin orta tikinti dəyəri 1 kv.m üçün 450–600 manat arasında dəyişir. Bu halda, 20–30 min manatlıq bir yardım vasitəsilə ailələrin 40–60 kv.m sahəyə malik ilkin yaşayış şəraitini öz imkanları ilə qurması tamamilə realdır. Bundan əlavə, tikinti prosesinin sakinlər tərəfindən təşkili kənd yerlərində məşğulluğun artmasına və yerli inşaat materialları bazarının aktivləşməsinə səbəb olacaqdır.

Nəticə etibarilə, torpaq islahatlarının davamı olaraq, kənd sakinlərinə ev tikintisi hüququnun verilməsi və bu prosesin dövlət tərəfindən dəstəklənməsi işğaldan azad edilmiş ərazilərdə

məskunlaşmanın davamlı və dayanıqlı modelinin formalaşdırılmasına xidmət edəcək. Bu model həm də kəndlərdə sosial kapitalın bərpası, yerli identikliyin qorunması və regionun ümumi iqtisadi dirçəlişinin sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafını və regionun iqtisadi dinamizmini gücləndirmək məqsədilə hökumətin azad edilmiş ərazilərdə sahibkarlığı stimullaşdıran geniş və çoxşaxəli siyasət yürütməsi vacibdir. Bu siyasət çərçivəsində ilk növbədə həmin bölgədə fəaliyyət göstərən bütün iqtisadi subyektlər üçün müəyyən müddət ərzində vergi və gömrük rüsumlarından azadlıq təmin olunması mühüm addımdır. Belə bir güzəşt, bizneslərin ilkin fəaliyyət mərhələsində maliyyə yükünü əhəmiyyətli dərəcədə yüngülləşdirərək, onların daha sürətli inkişafına zəmin yaradar. Bundan əlavə, uzunmüddətli və böyük həcmli güzəştli kreditlərin verilməsi sahibkarların investisiya imkanlarını genişləndirir, modern texnologiyaların və istehsalat infrastrukturlarının yenilənməsinə şərait yaradır.

Digər tərəfdən, hökumət səviyyəsində biznes risklərinin, o cümlədən, siyasi, iqtisadi və bazar risklərinin sığortalanması mexanizminin tətbiqi sahibkarlara əlavə təhlükəsizlik hissi verəcək, uzunmüddətli investisiyalar üçün əhəmiyyətli motivasiya amili kimi çıxış edəcəkdir. Bu, risklərin paylaşılması ilə sahibkarların itki ehtimallarını azaldaraq, investisiya cəlbediciliyini artıracaq. Belə təşviqedici tədbirlər yalnız yerli əhali və region sakinləri arasında sahibkarlığın inkişafını stimullaşdırmaqla kifayətlənməməli, həmçinin respublikanın digər bölgələrindən olan sahibkarları da bu ərazilərə cəlb etməlidir. Xüsusilə, azad edilmiş ərazilərin tarixi-mədəni və iqtisadi potensiallarına bağlı olan iş adamları üçün

burada biznes qurmaq həm iqtisadi, həm də mənəvi baxımdan üstünlük hesab edilməlidir.

Bundan əlavə, xarici investisiyaların cəlb olunması prosesində də vergi, gömrük və digər inzibati güzəştlərin tətbiqi zəruridir. Qonşu ölkələr – İran, Türkiyə, Gürcüstan kimi regionda iqtisadi əlaqələrə və investisiyalara marağı olan dövlətlərin şirkətlərinin bu ərazilərə investisiya yatırması strateji əhəmiyyət kəsb edir. Bu cür xarici investisiyaların təşviqi təkcə iqtisadiyyatın şaxələnməsinə və möhkəmlənməsinə xidmət etməyəcək, həm də siyasi və təhlükəsizlik kontekstində regionda möhkəm mövqeyin formalaşmasına kömək edəcək. Beləliklə, iqtisadiyyatın bərpası və inkişafı ilə yanaşı, dövlətin suverenliyi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ciddi addımlar atılmış olacaq.

Yekun olaraq qeyd etmək lazımdır ki, geniş spektrli bu cür stimullaşdırıcı tədbirlər yalnız iqtisadiyyatın canlanmasını deyil, həm də sosial-siyasi sabitliyin möhkəmlənməsini təmin edəcək, azad edilmiş ərazilərin tezliklə regionun inkişaf etmiş və cazibədar iqtisadi zonalarına çevrilməsi üçün zəmin yaradacaqdır. Həm yerli, həm də xarici investorların aktiv iştirakı ilə sahibkarlığın yüksəlişi bölgədə davamlı rifahın əsas sütunlarından birinə çevriləcəkdir.

Qayıdış və yenidənqurma prosesləri azad edilmiş ərazilərin aqroemal sektorunun yenidən dirçəlişi üçün fundamental əsas yaratmışdır. Məskunlaşmanın təşviqi, kənd təsərrüfatı torpaqlarının islahatı və mülkiyyət hüquqlarının təmin edilməsi, eləcə də dövlət və özəl investisiyaların cəlb olunması bu sahənin dayanıqlı inkişafını şərtləndirir. Müasir texnologiyalarla təchiz olunmuş aqroemal müəssisələrin bərpası və yeni istehsal sahələrinin yaradılması həm daxili tələbatın ödənilməsində, həm də ixrac potensialının artırılmasında mühüm rol oynayacaq. Bununla yanaşı, yerli sahibkarların və xarici investorlardan gələcək dəstək, vergi və

kredit güzəştləri aqroemal sektorun inkişafı üçün əlavə təkan verəcək. Nəticədə, qayıdış prosesi yalnız sosial və humanitar aspektlərlə məhdudlaşmayaraq, Azərbaycanın kənd təsərrüfatı və emal sənayesinin strateji güclənməsinə zəmin yaradacaq, ölkənin ümumi iqtisadi sabitliyinə və davamlı inkişafına əhəmiyyətli töhfələr verəcəkdir.

## VII FƏSİL. Aqroemal sektorunun dövlət tənzimlənməsi üzrə nəticələr və strateji tövsiyələr

Bu fəsildə aparılmış tədqiqatın nəticələri əsasında aqroemal sektorunun inkişafını təmin etmək məqsədilə dövlət tənzimlənməsi və iqtisadi siyasət istiqamətində formalaşan əsas tövsiyələr təqdim olunur. Təkliflər ölkədə kənd təsərrüfatı məhsullarının emalı sahəsinin rəqabət qabiliyyətinin artırılması, istehsalın səmərəliliyinin yüksəldilməsi və ixrac potensialının genişləndirilməsi kimi strateji hədəfləri əhatə edir. Eyni zamanda, iqtisadi alətlərdən, subsidiya mexanizmlərindən, investisiya təşviqindən və regionların iqtisadi reinteqrasiyasından tutmuş institusional və struktur islahatlara qədər geniş spektrdə təkliflər verilir.

Tövsiyələr iki əsas qrup üzrə qruplaşdırılmışdır: dövlətin institusional və normativ müdaxiləsinə dair təkliflər və sahibkarlığın təşviqi və praktiki stimullaşdırma mexanizmləri üzrə təkliflər. Bu yanaşma dövlət siyasətində balanslı və effektiv müdaxilə mexanizminin qurulmasına, həmçinin aqroemal sektorunda davamlı inkişafın təmin edilməsinə imkan verəcəkdir.

Tədqiqat çərçivəsində irəli sürülən institusional, fiskal və texnoloji xarakterli təkliflərin ardıcıl və mərhələli şəkildə həyata keçirilməsi, mövcud resurs potensialının düzgün səfərbər olunması, habelə dövlətin tənzimləyici funksiyasının bu istiqamətdə sistemli və koordinasiyalı formada qurulması halında, 2030-cı ilədək Azərbaycanda aqroemal və yüngül sənaye sahələrində məhsul buraxılışı üzrə əhəmiyyətli nəticələrin əldə olunacağı proqnozlaşdırılır.

Bu baxımdan, 2023-cü il bazası əsasında aparılan müqayisəli qiymətləndirmələr göstərir ki, göstərilən təklif və tövsiyələrin icrası

nəticəsində 2030-cı ilə qədər emal məhsulları və yüngül sənaye məhsullarının istehsal həcmi ortalama 2,2 dəfə artaraq 13 milyard manat səviyyəsinə çata bilər. Beləliklə, sektor üzrə istehsalın dinamikası həm makroiqtisadi sabitliyin gücləndirilməsi, həm də qeyri-neft ixracının şaxələndirilməsi baxımından mühüm funksional əhəmiyyət daşıyacaqdır. Qeyd edilən proqnozlar optimal ssenaridə formalaşdırılıb və siyasətlərin effektiv icrasına birbaşa bağlıdır.

## 7.1. Dövlətin institusional və normativ müdaxiləsinə dair təkliflər

Aqroemal sektorunun davamlı inkişafı və rəqabətqabiliyyətli mühitin formalaşdırılması üçün dövlətin institusional və normativ səviyyədə müdaxiləsi zəruridir. Bu müdaxilə, bir tərəfdən hüquqi və təşkilati çərçivələrin müasirləşdirilməsini, digər tərəfdən isə idarəetmə strukturunun çevikləşdirilməsini tələb edir. Belə bir yanaşma, şəffaflığın artırılması, təşviq mexanizmlərinin təkmilləşdirilməsi və dövlət təşkilatlarının funksionallığının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Aşağıdakı təkliflər məhz bu istiqamətdə həyata keçirilə biləcək institusional və normativ tədbirləri əhatə edir:

1. Aparılmış tədqiqatlar və təhlillər əsasında belə qənaətə gəlmək olar ki, Aqrar Sənaye Kompleksində dövlətin tənzimləyici funksiyalarının aradan qaldırılması və ya zəiflədilməsi uzunmüddətli perspektivdə kənd təsərrüfatının dayanıqlılığına, ərzaq təhlükəsizliyinə və regional iqtisadi tarazlığa mənfi təsir göstərə bilər. Belə bir vəziyyət fermerlərin və emal müəssisələrinin sistemli dəstəkdən məhrum qalması, bazar mexanizmlərinin effektiv işləməməsi, qiymət volatilliyinin artması və sosial-iqtisadi

qeyri-bərabərliyin dərinləşməsi ilə nəticələnə bilər. Bu səbəbdən, Aqrar Sənaye Kompleksində dövlətin tənzimləyici rolu yalnız zəruri deyil, həm də strateji əhəmiyyət daşıyır. Bununla yanaşı, mövcud tənzimləmə mexanizmlərinin səmərəliliyinin artırılması, institusional çərçivənin yenilənməsi və innovativ yanaşmaların tətbiqi bu sahədə dövlət müdaxiləsinin daha effektiv şəkildə həyata keçirilməsini təmin edə bilər.

2. Aparılmış tədqiqatların nəticələri göstərir ki, aqroemal sektoruna yönəldilən investisiyalar nisbətən qısa müddətdə yüksək gəlirlilik nümayiş etdirir. Buna görə də, yerli istehsal məhsullarının rəqabət qabiliyyətini artırmaq məqsədilə aqroemal sahəsində innovasiya-investisiya yönümlü modelin tətbiqi daha məqsədəuyğundur. Yeyinti və yüngül sənayenin modernləşdirilməsi və bu sahələrə innovativ investisiyaların cəlb edilməsi üçün əlverişli və stabil investisiya mühitinin yaradılması əsas amillərdən biridir. Hesab edirik ki, investisiyaların qorunması və risklərin sığortalanması ilə yanaşı, sərmayə qoyuluşlarının effektiv istifadəsini təmin etmək üçün müəssisələrə müəyyən dövrdə vergi, gömrük və digər güzəştlərin tətbiqi zəruridir.

3. Hazırda ölkədə kənd təsərrüfatına ayrılan subsidiyalar əsasən əkilən sahənin həcminə əsaslanır, yəni hektar ölçüsünə görə verilir. Bu yanaşma xüsusilə taxıl, üzüm və meyvə istehsalında daha çox müşahidə olunur. Lakin belə bir subsidiya sistemi məhsuldarlığın yüksəlməsinə və məhsul keyfiyyətinin yaxşılaşdırılmasına kifayət qədər təşviqedici təsir göstərmir. Buna görə də, fikrimizcə, subsidiyalaşdırmanın mexanizmi yenidən qurulmalı, kəmiyyət göstəricilərindən daha çox, istehsal olunan əmtəəlik məhsulun həcmi və keyfiyyətinə görə formalaşdırılmalıdır. Bu dəyişiklik kənd təsərrüfatında məhsuldarlıq və məhsulun keyfiyyətinin yüksəlməsinə stimul

verəcək, yerli istehsalın güclənməsinə və idxal asılılığının azalmasına mühüm töhfə verə bilər.

4. Azərbaycanda aqroemal müəssisələri dövlətin birbaşa maliyyə dəstəyi və vergi güzəştləri proqramlarından faktiki olaraq kənarda qalır. Halbuki, bu sahə yalnız kənd təsərrüfatının effektivliyinin yüksəldilməsində deyil, həm də milli ərzaq təhlükəsizliyinin təminində strateji əhəmiyyət daşıyır. Müasir yanaşmalar göstərir ki, aqroemal sektoru kənd təsərrüfatı məhsullarının dəyər zəncirinə daxil olaraq, onların saxlanması, emalı və uzunmüddətli dövriyyəsi üçün vacib mexanizmlər yaradır.

Bu səbəbdən, hesab edirik ki, aqroemal sektorunda fəaliyyət göstərən müəssisələrin bəzi istiqamətlər üzrə çəkdikləri xərclərə dövlət tərəfindən birdəfəlik də olsa məqsədyönlü dəstək göstərilməlidir. Belə dəstəyə, ilk növbədə, istehsal proseslərinin yeni və müasir texnologiyalarla əvəzlənməsi, texnoloji avadanlıqların, xüsusilə də emal və təmizləmə qurğularının alınması aid edilə bilər. Bundan əlavə, yaşıl iqtisadiyyata keçid çərçivəsində ekoloji təmiz və davamlı istehsal prinsipləri ilə fəaliyyət göstərən müəssisələrin dəstəklənməsi və onların məhsullarının bazara çıxış imkanlarının genişləndirilməsi dövlətin müdaxilə sahəsinə daxil edilməlidir.

5. Aqroemal sahəsində fəaliyyət göstərən bir sıra müəssisələr struktur baxımından kiçik dövriyyə kapitalına malik olmaları səbəbilə aşağı rentabellik səviyyəsində işləyirlər. Belə müəssisələr üçün istehsalın genişləndirilməsi və texnoloji modernləşmə üçün zəruri maliyyə resurslarının təmin edilməsi son dərəcə çətindir. Hazırkı mərhələdə bank sektorunun təklif etdiyi kredit şərtləri, yəni, yüksək faizli və qısa müddətli borclanma imkanları bu tip müəssisələrin kredit resurslarına çıxışını demək olar ki, mümkünsüz edir. Kredit faizlərinin həmin müəssisələrin rentabellik

göstəricilərini üstələməsi, onların kommersiya banklarından maliyyə təminatı əldə etməsini faktiki olaraq bloklayır.

Bu reallıq fonunda, yüksək riskli və aşağı kapital dövriyyəsinə malik aqroemal müəssisələrinin maliyyə əlçatanlığını artırmaq üçün alternativ maliyyə alətlərinin tətbiqi zərurəti ortaya çıxır. Bu baxımdan, effektiv kredit mexanizmlərindən biri kimi faktorinq xidmətinin aqroemal sahəsinə inteqrasiyası daha məqsədəuyğun görünür. Faktorinq aləti vasitəsilə müəssisə satışdan əldə etməli olduğu gəlirləri əvvəlcədən nağd şəkildə təmin edə bilir ki, bu da xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün dövriyyə vəsaitinin əlçatanlığını artırır, istehsalın davamlılığını və genişlənməsini təmin edir.

Fikrimizcə, bu potensialın reallaşması üçün dövlətin təşəbbüsü ilə aqroemal sektoruna yönəlik xüsusi faktorinq proqramının formalaşdırılması məqsədəuyğun olardı. Belə proqram çərçivəsində regionlar üzrə ixtisaslaşmış kredit təşkilatları yaradılmalı və ya bu xidmət fəaliyyətdə olan bankların regional şəbəkələrinə həvalə edilməlidir. Bu, bir tərəfdən regionlarda iqtisadi aktivliyi artıracaq, digər tərəfdən isə aqroemal müəssisələrinin maliyyə dayanıqlığını təmin edəcək, onların uzunmüddətli inkişafını stimullaşdıracaqdır.

6. Aqroemal sənayenin dayanıqlı inkişafı üçün maliyyə resurslarının diversifikasiyası və qeyri-ənənəvi maliyyələşdirmə alətlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə vençur kapitalı, xüsusilə, aqroemal sahəsində yüksək texnoloji və innovativ təşəbbüslərin maliyyələşdirilməsi baxımından böyük potensiala malikdir. Vençur kapitalı, əsasən, yüksək riskli, lakin yüksək gəlirlilik potensialı olan layihələrin ilkin mərhələdə maliyyələşdirilməsini hədəfləyən investisiya formasıdır ki, bu da aqroemal sektorunda əlavə dəyərin formalaşması və istehsalın keyfiyyətcə transformasiyası üçün əvəzolunmaz alət sayıla bilər.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vençur investisiyalarının uğurla reallaşması ilk növbədə dövlətin tənzimləyici və dəstəkləyici rolundan çox asılıdır. Xüsusilə bu fəaliyyətin başlanğıc mərhələsində normativ-hüquqi bazanın yaradılması, risklərin müəyyən hissəsinin dövlət tərəfindən sığortalanması və institusional dəstək mexanizmlərinin tətbiqi zəruridir. Dövlət dəstəyi yalnız riskləri azaltmaqla kifayətlənmir, eyni zamanda vençur investisiyalarının real sektora istiqamətlənməsini təmin edərək onların iqtisadi səmərəsini artırır.

Fikrimizcə, Azərbaycanda vençur maliyyələşdirmə mexanizminin tətbiqi üçün ilkin addım kimi bu fəaliyyətin hüquqi əsaslarını formalaşdıracaq ayrıca qanunvericilik paketi hazırlanmalı, bu sahənin fiskal və institusional tənzimlənməsi təmin edilməlidir. Eyni zamanda, vençur kapitalının maliyyə mənbələri kimi Pensiya Fondu kimi sabit və böyük həcmli aktivlərə malik strukturlar, eləcə də Dövlət Neft Fondu və SOCAR kimi dövlətin nəzarətində olan iri investisiya institutları səfərbər edilə bilər. Xüsusilə Dövlət Neft Fondu, risk yönümlü innovativ layihələrin maliyyələşdirilməsində strateji investor rolunu oynaya bilər, çünki onun maliyyə dayanıqlığı və diversifikasiya imkanları belə fəaliyyətlərə giriş üçün yetərlidir. Vençur kapitalının aqroemal sahəsində tətbiqi yalnız innovasiyaların yayılmasını sürətləndirməz, eyni zamanda bu sahədə rəqabətqabiliyyətli və ixracyönümlü istehsalın inkişafına da ciddi töhfə verər.

7. 2020-ci ildə işğaldan azad olunmuş Qarabağ və ətraf rayonlar Azərbaycanın kənd təsərrüfatı və ümumilikdə aqrar sənaye kompleksi üçün strateji əhəmiyyət daşıyan resurs məkanına çevrilmək potensialına malikdir. Bu regionların iqtisadi reinteqrasiyası və məhsuldar istifadəsi yalnız kənd təsərrüfatı istehsal sahələrinin deyil, eyni zamanda bu məhsulların emalını

təmin edən aqroemal müəssisələrinin yaradılması ilə mümkün ola bilər. Belə müəssisələr kənd təsərrüfatı məhsullarının istehsalından tutmuş onların son istehlakçıya çatdırılmasına qədər olan dəyər zəncirində həlledici rol oynayır. Bu baxımdan, azad edilmiş ərazilərdə aqrar-sənaye strukturlarının bərpası və ya yenidən təşkili yerli resurs bazasına əsaslanaraq həyata keçirilməlidir.

Konkret olaraq, regionların aqroekoloji və təsərrüfat xüsusiyyətləri nəzərə alınmaqla pambıq emalı zavodları, iplik və tikiş fabrikləri, trikotaj sexləri, ət və süd məhsulları üçün emal kombinatları, şərab istehsalı müəssisələri, yun emalı və dəri sənayesi obyektləri, sənaye tipli xalçaçılıq fabrikləri, un dəyirmanları, yem istehsalı müəssisələri və mineral su zavodlarının qurulması iqtisadi səmərəlilik və yerli əmək ehtiyatlarının məşğulluğu baxımından böyük əhəmiyyət daşıyır. Xüsusilə, Xankəndi kimi şəhər tipli mərkəzlərdə sənaye infrastrukturlarının bərpası, o cümlədən, keçmişdə fəaliyyət göstərmiş ayaqqabı fabrikinin yenidən qurularaq istifadəyə verilməsi həm simvolik, həm də funksional baxımdan əlamətdar ola bilər.

Bununla yanaşı, bu prosesin yalnız dövlət büdcəsi hesabına həyata keçirilməsi rasional yanaşma sayılmamalıdır. Əksinə, özəl sektorun fəal iştirakı, xüsusilə də hazırda ölkənin müxtəlif şəhərlərində məskunlaşmış və işğaldan azad edilmiş rayonlardan olan iş adamlarının bu iqtisadi dirçəliş prosesinə cəlb olunması prioritet olmalıdır. Onların doğma torpaqlara qayıdaraq orada biznes təşəbbüsləri ilə çıxış etmələri üçün dövlət tərəfindən genişhəcmli stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi vacibdir. Buraya azad edilmiş ərazilərdə müəyyən müddət ərzində vergi və gömrük rüsumlarından azadolma, iri həcmli və uzunmüddətli güzəştli kreditlərin verilməsi, biznes fəaliyyətlərinin sığortalanması

və investisiyaların dövlət təminatı altına alınması kimi kompleks iqtisadi təşviq alətləri daxil edilməlidir.

8. Paralel olaraq ilk növbədə respublikanın bütün ərazilərində başa çatmış, işğal səbəbindən burada həyata keçirilə bilməmiş torpaq islahatı aparılmalı, digər bölgələrdə olduğu kimi burada da əkinə yararlı torpaqlar sakinlərə paylanmalıdır. İşğaldan azad edilmiş rayonların sakinlərinə paylanacaq torpaq sahələri təbii ki, boş qalmayacaq, sahibləri tərəfindən istifadə ediləcək, kənd təsərrüfatı məhsulları istehsal ediləcək və bu da həmin ərazilərin daha sürətlə məskunlaşmasına çox güclü təkan olacaqdır.

9. Klasterlərin təşkili və inkişafı müasir iqtisadiyyatların strukturlaşması və beynəlxalq bazarlarda dayanıqlı rəqabət mövqeyinin təmin edilməsi baxımından xüsusi aktuallıq kəsb edir. Azərbaycan kontekstində bu yanaşmanın tətbiqi, xüsusən də aqrar və aqroemal sektorlarında, milli iqtisadiyyatın dərinləşmiş ixtisaslaşması, regional resurs potensialının daha optimal səfərbəri və istehsal zəncirində effektivliyin artırılması baxımından mühüm strateji əhəmiyyətə malikdir. Tədqiqat nəticələri göstərir ki, ölkədə taxılçılıq, pambıqçılıq, şəkər istehsalı, bitki yağlarının istehsalı, tütünçülük, üzümçülük və şərabçılıq kimi sahələr üzrə həm sektorial, həm də coğrafi əsasda klasterlərin yaradılması aqroemal müəssisələrinin koordinasiya edici aktor kimi iştirak etdiyi kompleks sistemlərin qurulmasına imkan verərdi. Bu cür strukturlar istehsal, emal, saxlanma və satış mərhələlərini inteqrasiya etməklə, həm daxili bazarın təminatını, həm də ixrac potensialını əhəmiyyətli dərəcədə artırmaq gücünə malikdir.

Belə bir yanaşmanın uğurla reallaşdırılması üçün dövlət tərəfindən məqsədyönlü və strateji planlaşdırılmış müdaxilə vacibdir. Bu baxımdan, inkişaf etmiş ölkələrin təcrübəsindən faydalanaraq, regionların klaster əsaslı inkişafına dair

konsepsiyaların işlənib hazırlanması və aqrar-sənaye klasterlərinin formalaşdırılmasını təşviq edən xüsusi dövlət proqramlarının qəbul olunması zəruridir. Bu proqramlar institusional baza, maliyyə stimulları, infrastruktur təminatı və insan kapitalının inkişafı kimi prioritet sahələri əhatə etməlidir. Klaster yanaşmasının sistemli tətbiqi ölkədə aqroemal sahəsinin dayanıqlı inkişafını təmin etməklə yanaşı, ümumi iqtisadi artıma da töhfə verə bilər.

10. Azərbaycanda kənd təsərrüfatı sahəsində ipoteka kreditləşməsi üzrə spesifik mexanizmlər mövcud deyil. Bu isə o deməkdir ki, özəl mülkiyyətdə olan torpaq sahələri əsas istehsal vasitəsi kimi tam şəkildə bazar dövriyyəsinə daxil edilmir. Əksər hallarda Aqrar Sənaye Kompleksinin (ASK) təsərrüfat subyektləri torpaq resurslarına malik olsalar da, digər daşınmaz əmlak və ya kredit təminatı vasitələrinin olmaması səbəbindən ipoteka imkanlarından istifadə edə bilmirlər. Kənd ipoteka sisteminin, xüsusilə də əkinaltı torpaqların istehsal vasitəsi statusunda iqtisadi dövriyyəyə cəlb edilməməsinin başlıca səbəbi isə bu kateqoriyadan olan fermer təsərrüfatlarının iqtisadiyyatın digər sektorları ilə müqayisədə kifayət qədər rəqabətqabiliyyətli olmamasıdır.

Mövcud vəziyyət kontekstində hesab edirik ki, dövlətin institusional müdaxiləsi zəruridir. Belə ki, torpaqların ipoteka kreditləşməsi vasitəsilə maliyyə dövriyyəsinə daxil edilməsi üçün müvafiq mexanizm işlək hala gətirilməli, banklar qarşısında öhdəliklərin icrasına dövlət zəmanəti formasında təminat modeli tətbiq olunmalıdır.

11. Dövlətin iqtisadi tənzimləmə siyasətində mövcud olan sərt vergitutma yanaşması tədricən daha yumşaq və təşviqedici vergi mexanizmləri ilə əvəzlənməlidir. Bu keçid sadəcə tövsiyə deyil, zəruri bir islahatdır, çünki mövcud şəraitdə alternativ, daha səmərəli bir çıxış yolu görünmür. Xüsusilə yeyinti sənayesi kimi

strateji əhəmiyyət daşıyan sahələrdə bu addım daha da aktuallaşır. Əhalinin ərzaq təhlükəsizliyi ilə birbaşa əlaqəli olan bu sektorun inkişafı üçün vergi yükünün optimallaşdırılması vacibdir. Bu yanaşma təkcə sahibkarlığın təşviqinə deyil, həm də istehlakçıların rifahına və sosial sabitliyə xidmət edir.

12. Aqroemal sahəsində gömrük tənzimlənmələrinin təkmilləşdirilməsi həm iqtisadi, həm də institusional baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu sahədə gömrük siyasətinin effektiv şəkildə qurulması ölkənin ərzaq təhlükəsizliyi, yerli istehsalın stimullaşdırılması və ixrac potensialının artırılması kimi strateji məqsədlərə xidmət edir. Məhz bu baxımdan, gömrük tənzimləmələrinin təkmilləşdirilməsi məqsədəuyğun olmaqla yanaşı, eyni zamanda zərurət xarakteri daşıyır.

İlk növbədə, ölkənin daxili bazarının aqroemal məhsulları ilə dayanıqlı və davamlı təminatında yerli istehsalçıların rolu xüsusi qeyd olunmalıdır. Yerli istehsalçılar beynəlxalq rəqabətə məruz qaldıqları şəraitdə gömrük vasitəsilə dövlət tərəfindən qorunmalıdırlar. Bu müdafiə mexanizmi, xüsusilə də, daxili bazarın mühafizəsi məqsədilə bütün növ aqroemal məhsullarına tətbiq ediləcək rasional gömrük siyasəti vasitəsilə həyata keçirilməlidir. Belə müdafiə mexanizmi yalnız sənaye sahələri üçün deyil, həm də kənd təsərrüfatı və onun emalı ilə məşğul olan müəssisələr üçün iqtisadi dayanıqlılığın təminində mühüm alət ola bilər.

Bundan əlavə, istehsalçı ölkədən asılı olmayaraq müəyyən strateji əhəmiyyət daşıyan məhsulların, xüsusilə də ərzaq məhsullarının idxalına qarşı tarif kvotalarının tətbiqi səmərəli tənzimləmə vasitəsi kimi çıxış edə bilər. Bu kimi kvotalar həm idxalın həcminin optimal səviyyədə saxlanılmasına, həm də yerli istehsalçılar üçün bazar imkanlarının genişləndirilməsinə şərait yaradar. Eyni zamanda, bəzi məhsullara xüsusi tariflərin tətbiqi də

zəruri görünür. Bu tariflər diferensial xarakter daşımaqla, daxili bazarın invaziv idxal axınlarından qorunmasına, eləcə də yerli istehsalçının rəqabətqabiliyyətinin qorunmasına xidmət edir.

Gömrük tənzimləmələrinin bu istiqamətdə təkmilləşdirilməsi yalnız proteksionist tədbir kimi deyil, eyni zamanda yerli sənayenin strukturlaşması, aqroemal sahəsinin inkişaf etdirilməsi və milli iqtisadi təhlükəsizliyin təmin olunması baxımından da strateji əhəmiyyətə malikdir. Beləliklə, gömrük siyasətində aqroemal sektorunun xüsusiyyətlərini nəzərə alan diferensial yanaşma sisteminin tətbiqi elmi əsaslandırılmış və iqtisadi baxımdan rasional bir strategiya kimi dəyərləndirilməlidir.

13. Azərbaycanda şərabçılıq ənənələrinin yenidən dirçəldilməsi və bu sahənin iqtisadi potensialının reallaşdırılması üçün əsaslı islahatlara ehtiyac vardır. Xüsusilə, şərab sortlu üzüm plantasiyalarının 1985–1990-cı illərdəki səviyyəyə, yəni, təxminən 220 min hektara qədər genişləndirilməsi strateji baxımdan məqsədəuyğundur. Belə bir genişləndirmə üzümçülüyün iqtisadi səmərəsini artırmaqla yanaşı, ixrac potensialını da əhəmiyyətli dərəcədə yüksəldə bilər. Təxmini hesablamalara əsasən, Azərbaycanın şərab və üzüm məhsulları ixracından illik 2,5–3 milyard ABŞ dolları gəlir əldə etməsi mümkündür.

Plantasiyaların genişləndirilməsi üçün ilkin mərhələdə iqtisadi səmərəliliyi aşağı olan taxıl sahələrinin bir hissəsinin üzümçülüyə yönəldilməsi daha rasional seçim olardı. Belə bir yanaşma kənd təsərrüfatı torpaqlarının daha məqsədəuyğun istifadəsinə xidmət edər. Yaranacaq taxıl itkisi isə məhsuldarlığın yüksəldilməsi ilə kompensasiya edilə bilər.

Eyni zamanda, hazırda ölkədə müasir şərab zavodlarının sayı və texniki imkanları kifayət etmir. Bu sahədə texnoloji yenilənmə və yeni zavodların yaradılması zəruridir. Ənənəvi ixrac

bazarlarında, xüsusilə, Rusiya və Ukrayna kimi ölkələrdə Azərbaycanın şərab məhsullarının mövqeyini bərpa etmək üçün dövlət tərəfindən sistemli tənzimləmə tədbirləri görülməlidir. Haqsız rəqabət və inhisarçılığın qarşısı alınmalı, istehsalçıların təşəbbüskarlığı stimullaşdırılmalıdır. Bu, nəticə etibarilə istehsal-zavod-xammal zəncirini gücləndirəcək və yeni plantasiyaların salınmasını stimullaşdıracaq.

Əlavə olaraq, yüksək məhsuldar və ənənəvi texniki sortların becərilməsini təmin edən tingçilik təsərrüfatlarının yaradılması bu sahənin dayanıqlı inkişafı üçün həlledici amillərdəndir. Belə təsərrüfatların dövlət dəstəyi ilə formalaşdırılması üzümçülükdə məhsuldarlığın artmasına və keyfiyyətin yüksəldilməsinə imkan verəcəkdir.

Üzümçülük yalnız şərab istehsalı ilə məhdudlaşmamalıdır. Müəssisələr süfrə sortlu üzümün uzunmüddətli saxlanılması və digər üzüm məhsullarının (kişmiş, şirə, bəhməz, mürəbbə və s.) istehsalı sahəsində də fəaliyyətlərini genişləndirməlidirlər. Bu, həm daxili bazarın tələbatının ödənilməsinə, həm də ixrac imkanlarının artmasına xidmət edər. Hazırda daxili bazarda mövsümdənkənar dövrdə üzümə olan tələbatın əsasən xarici idxal hesabına qarşılandığı nəzərə alınarsa, bu istiqamətdə yerli istehsalın genişləndirilməsi xüsusilə vacibdir.

Beləliklə, şərabçılığın kompleks şəkildə inkişafı üçün institusional, texniki və iqtisadi səviyyədə sistemli tədbirlərin həyata keçirilməsi zəruridir.

14. Pambıqçılığın inkişaf potensialını nəzərə alaraq, mövcud əkin sahələrinin genişləndirilməsi zərurəti ortaya çıxır. Belə ki, pambıq əkin sahələrinin təqribən iki dəfə artırılması nəticəsində, bu göstəricini 1981–1985-ci illərdə müşahidə edilən səviyyəyə çatdırmaq mümkün olmasa da, ölkə üçün optimal hesab edilən 200

min hektarlıq bir hədəfə istiqamətlənmək mümkündür. Bu sahələrin genişləndirilməsi, əsasən, keçmişdə pambıq əkilmiş, lakin sonradan təyinatı dəyişdirilərək buğda və digər kənd təsərrüfatı bitkiləri ilə əvəz olunmuş torpaq sahələrinin yenidən pambıq əkin dövriyyəsinə qaytarılması hesabına həyata keçirilməlidir.

Hazırda bir çox fermerlərin və digər kənd təsərrüfatı istehsalçılarının taxıl və digər alternativ bitkilərə üstünlük verməsi təsadüfi deyil və bu tendensiyanın səbəbləri ilk növbədə pambığın alış qiymətlərinin qeyri-rentabelliyi və suvarma infrastrukturunun qeyri-effektivliyində axtarılmalıdır. Bu səbəbdən pambığın satınalma qiymətləri iqtisadi əsaslarla azı iki dəfə artırılmalı, eyni zamanda, pambıq emalı müəssisələri istehsalçılarla gəlirin bölüşdürülməsi məsələsində daha ədalətli mexanizmlər tətbiq etməlidir. İstehsal zəncirində iştirak edən əsas iştirakçılar olan fermerlərin maraqları təmin edilmədiyi təqdirdə pambıqçılığın davamlı inkişafından söhbət gedə bilməz.

Pambıq əkinlərinin su təminatı məsələsinə gəldikdə isə, bu sahədə islahatların aparılması zəruridir. Ənənəvi "selləmə" üsulu ilə aparılan suvarma nəticəsində su resurslarının ciddi itkisi ilə yanaşı, torpaq örtüyünün duzlaşması və münbitliyinin azalması kimi fəsadlar müşahidə olunur. Buna görə də müasir, səmərəli və qənaətcil suvarma texnologiyalarının pambıqçılıqda geniş tətbiqi vacib hesab edilməlidir. Bundan əlavə, pambıq yığımında yüksək dərəcədə əl əməyindən asılılığın aradan qaldırılması məqsədilə pambıqyığan kombaynların sayı artırılmalı, texnikanın mövcud fondunun yenilənməsi və genişləndirilməsi istiqamətində dövlət dəstəyi gücləndirilməlidir.

Maraqlı paradokslardan biri ondan ibarətdir ki, Azərbaycanda pambıq xammal kimi istehsal edilsə də, bu xammaldan istifadə olunmaqla hazırlanan hazır məhsullar, geyim və digər yüngül

sənaye məhsulları üzrə ölkə hələ də idxaldan asılı vəziyyətdədir. Bu asılılığı azaltmaq və yüngül sənaye, xüsusilə də geyim və trikotaj sahələrinin inkişafını təmin etmək üçün dövlətin məqsədyönlü və ardıcıl dəstəyinə ehtiyac vardır. Geyim sənayesinin dirçəldilməsi üçün ölkə daxilində investisiya mühitinin yaxşılaşdırılması, bu sektora investorların cəlb edilməsi üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, gömrük və bazar tənzimlənməsi vasitəsilə yerli sahibkarların rəqabətqabiliyyətliliyinin gücləndirilməsi zəruridir. Həmçinin bu sahənin davamlı inkişafı üçün ixtisaslı kadrların hazırlanması və istehsalat zəncirində bilikli mütəxəssislərin iştirakı təmin olunmalıdır.

15. Azərbaycanda çayçılıq sahəsinin dayanıqlı inkişafı baxımından ilkin və strateji addımlardan biri çay plantasiyalarının ümumi sahəsinin artırılması olmalıdır. Mövcud agroekoloji potensialı nəzərə alaraq, hesab edirik ki, ölkə üzrə çay plantasiyalarının ümumi əkin sahəsini mərhələli şəkildə 6 min hektara qədər artırmaq mümkündür. Bu istiqamətdə, xüsusilə, Azərbaycanın cənub bölgələri torpaq-iqlim parametrlərinə görə çay bitkisinin bioloji xüsusiyyətlərinə və aqrotexniki tələblərinə tam uyğun gələn ərazilərdir və həlledici əhəmiyyət daşıyır. Göstərilən zonalarda yeni çay plantasiyalarının salınması həm yerli kənd təsərrüfatı istehsalının strukturunda diversifikasiyanı genişləndirə, həm də ixrac yönümlü məhsul istehsalının inkişafına töhfə verə bilər.

Çay bitkisinin məhsuldarlığa keçid dövrünün, yəni, əkildikdən sonra orta hesabla 7–8 il ərzində məhsul verməyə başlaması kifayət qədər uzun zamandır və bu da bu sahədə fəaliyyətə başlamaq istəyən fermerlər üçün ciddi maliyyə və sosial risklər yaradır. Bu səbəbdən də, dövlət tərəfindən həmin keçid dövründə fermerlərin sosial-iqtisadi davamlılığını təmin etmək məqsədilə yaşayış

minimumu həcmində kompensasiya ödənişləri həyata keçirilməli, əlavə olaraq güzəştli kreditlər, subsidiyalar və digər stimullaşdırıcı və təşviqləndirici mexanizmlər tətbiq olunmalıdır. Belə dəstək tədbirləri, yalnız çayçılıq sektorunun inkişafına deyil, eyni zamanda regionlarda məşğulluğun və sosial rifahın yüksəldilməsinə də xidmət etmiş olacaq.

Azərbaycanda istehsal edilən çay yüksək ekoloji keyfiyyət göstəricilərinə malik olmaqla, təbii təmizliyi və faydalılığı baxımından fərqlənir. Lakin yerli istehsalın daxili bazarda rəqabət qabiliyyətinin təmin olunması üçün gömrük-tarif tənzimlənməsi, daxili bazarın qorunması və anti-dempinq siyasətləri ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməlidir. Bu, yerli istehsalçının bazarda öz məhsulunu satmaq imkanlarını artırmaqla yanaşı, idxal məhsullarının qeyri-sağlam rəqabətini də məhdudlaşdıracaq.

Eyni zamanda, müasir tipli intensiv çay plantasiyalarının salınması üçün uyğun və sınaqdan keçmiş əkin materiallarının, yəni rayonlaşdırılmış, keyfiyyətli tinglərin seçimi mühüm şərtdir. Bu məqsədlə dövlət vəsaiti hesabına ixtisaslaşmış tingçilik təsərrüfatlarının yaradılması zəruridir. Belə təsərrüfatlar fermerlərin keyfiyyətli, məhsuldar və yerli şəraitə uyğunlaşdırılmış tinglərlə təmin olunmasında mühüm rol oynaya bilər. Bu yanaşma həm də çayçılıqda innovativ texnologiyaların tətbiqini təşviq etməklə, məhsuldarlıq və rentabellik göstəricilərinin yüksəldilməsinə xidmət edəcəkdir.

16. Azərbaycanda unüyütmə sənayesi üzrə yerli istehsalın idxaldan asılılığı kifayət qədər yüksək səviyyədədir və bu asılılıq milli ərzaq təhlükəsizliyi baxımından mühüm strateji risklər doğurur. Bu vəziyyətin əsas səbəblərindən biri ondan ibarətdir ki, ölkə daxilində istehsal olunan buğdanın keyfiyyət göstəriciləri çörək istehsalına dair müasir texnoloji tələblərə tam cavab vermir.

Bu səbəbdən də, yerli buğda istehsalının yalnız məhdud bir hissəsi ərzaq təyinatlı məhsullar üçün istifadə edilir, əsas hissəsi isə mal-qara və quş yeminə yönəldilir. Beləliklə, strateji məhsul hesab edilən ərzaq buğdası üzrə yüksək keyfiyyətli və dayanıqlı daxili təchizat zəncirinin formalaşmaması nəticəsində ölkə, xüsusilə də un və çörək istehsalında xarici bazarlardan asılı vəziyyətə düşür.

Problemin aradan qaldırılması üçün ilk növbədə yerli şəraitə uyğunlaşdırılmış, yüksək keyfiyyətli ərzaq buğdası toxumlarının istehsalı üzrə ixtisaslaşmış toxumçuluq təsərrüfatlarının yaradılması zəruridir. Bu təsərrüfatlar regionların aqroekoloji xüsusiyyətləri nəzərə alınmaqla rayonlaşdırılmalı, onların fəaliyyəti elmi-tədqiqat və sınaq nəticələrinə əsaslanmalı, toxum istehsalı sahəsində innovativ yanaşmalar tətbiq edilməlidir. Belə bir yanaşma, həm məhsulun keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına, həm də ərzaq buğdasının çörəkbişirmə sənayesində istifadəyə yararlılıq səviyyəsinin artırılmasına zəmin yaradacaqdır.

Bununla yanaşı, ərzaq buğdasının məhsuldarlığının artırılması və əkin sahələrinin aqrotexniki baxımdan səmərəli şəkildə idarə olunması üçün su təminatı məsələsinin sistemli şəkildə həlli vacibdir. Suvarma infrastrukturunun müasirləşdirilməsi, su itkisini minimuma endirən texnologiyaların tətbiqi və su resurslarının bölgələr üzrə optimal bölgüsü ərzaq buğdası istehsalında sabitlik və məhsuldarlığın təminində əsas şərtlərdəndir. Əkin sahələrinin suvarma ilə təminatında müşahidə edilən mövcud çatışmazlıqlar aradan qaldırılmadığı təqdirdə, nə məhsulun miqdarı, nə də keyfiyyəti üzrə hədəflərə nail olunması mümkün olacaqdır.

17. Meyvə-tərəvəz sektorunun inkişaf imkanlarını təhlil edərkən aydın olur ki, bu sahədə qarşıya çıxan əsas problemlərdən biri geniş daxili və xarici bazar potensialına malik olan qurudulmuş

meyvə məhsulları ilə yanaşı, həmin emal sənayesinin əsas xammal bazasını təşkil edən meyvə püresi və konsentratlarının idxaldan asılı vəziyyətdə qalmasıdır. Belə bir vəziyyət həm daxili istehsalın rentabelliyinə mənfi təsir göstərir, həm də məhsul zəncirinin tamamlanmasında institusional və texnoloji boşluqlar yaradır. Sözügedən asılılığın azaldılması və yerli istehsalın gücləndirilməsi məqsədilə bir sıra kompleks tədbirlərin həyata keçirilməsi zəruridir:

-İlk növbədə, ölkədə mövcud meyvə bağlarının genişləndirilməsi istiqamətində kompleks tədbirlər görülməli, xüsusilə də sənaye tipli (intensiv) meyvəçiliyin inkişafına yönəlmiş həvəsləndirici və təşviqləndirici mexanizmlər formalaşdırılmalıdır. Bu, həm də keyfiyyətli xammal bazasının formalaşmasına, həm də ixracyönümlü məhsulların istehsalına zəmin yaradacaqdır.

-Meyvə emalı müəssisələrinə satılan əmtəəlik məhsullara görə fermerlərə birbaşa subsidiya verilməsi praktikasının tətbiqi məqsədəuyğundur. Bu mexanizm, emal sənayesinin ehtiyaclarına uyğun məhsul axınının təmin edilməsində stimullaşdırıcı rol oynayacaqdır.

-Sənaye meyvəçiliyinin yaradılması və genişləndirilməsi məqsədilə fermerlər və kənd təsərrüfatı istehsalçıları üçün güzəştli kreditlərin ayrılması vacib şərtlərdəndir. Bu, kapital çatışmazlığı problemini aradan qaldıraraq investisiya qoyuluşlarını təşviq edə bilər.

-Meyvəçiliklə məşğul olan bölgələrdə kiçikhəcmli meyvə emalı müəssisələrinin yaradılması daha məqsədəuyğun hesab olunmalıdır. Bu cür müəssisələrin yaradılması üçün dövlətin güzəştli kreditləri və digər iqtisadi təşviqetmə alətləri səfərbər edilməli, yerli təşəbbüslər dəstəklənməlidir. Belə yanaşma həm də bölgələrdə əlavə dəyər zəncirinin təşkili və yerli məşğulluğun artırılması baxımından önəmlidir.

-Qeyd edilməlidir ki, hazırda meyvə emalı məhsulları üzrə minimum qida normaları ölkədə qəbul olunmuş minimum istehlak səbətinə daxil edilməmişdir. Halbuki, bu məhsulların qidalanma baxımından əhəmiyyətini və insan sağlamlığına verdiyi töhfəni nəzərə alaraq onların istehlak səbətinə daxil edilməsi daha məqsədəuyğun olardı. Bu, eyni zamanda əhalinin sağlam qidalanma səviyyəsinin yüksəldilməsinə dəstək vermiş olar.

Eyni zamanda, mövcud rəsmi statistik hesabatlarda ölkədə istehsal olunan meyvə və tərəvəzin növlər üzrə emala yönəldilən hissəsi haqqında ətraflı məlumatların olmaması sektor üzrə elmi tədqiqatlar və strateji planlaşdırma üçün ciddi məlumat boşluğu yaradır. Bu baxımdan, meyvə-tərəvəz istehsalının məhsul növləri üzrə birbaşa istehlak və emal üçün ayrılan hissələrinin, eləcə də emal məhsullarının daxili bazarda istehlak səviyyəsinin statistik təhlilinə dair detallı məlumat bazasının formalaşdırılması xüsusi əhəmiyyət daşıyır.

18. Balıq və balıq məhsulları insan orqanizmi üçün vacib qida komponentlərindən biri olmaqla, həm də əhalinin sağlam və balanslaşdırılmış qidalanmasında mühüm rol oynayır. Zülal, omega-3 yağ turşuları və digər faydalı mikroelementlərin zəngin mənbəyi olan balıq məhsullarının istehsalı və istehlakı sosial rifahın artırılması baxımından da strateji əhəmiyyətə malikdir. Bu baxımdan, Azərbaycanda balıqçılıq sahəsinin mövcud vəziyyəti yenidən nəzərdən keçirilməli və dövlət siyasəti bu sahənin inkişafı üçün daha məqsədyönlü şəkildə qurulmalıdır.

İlk növbədə, ölkədə körpə balıqların yetişdirilərək təbii su hövzələrinə buraxılması istiqamətində həyata keçirilən tədbirlər əhəmiyyətli dərəcədə gücləndirilməlidir. Bu prosesin miqyasını minimum 2000-ci ilin səviyyəsinə çatdırmaq məqsədəuyğun olardı. Belə ki, qeyd olunan tarixədək ölkədə hər il orta hesabla 530

milyon ədəd körpə balıq yetişdirilərək müxtəlif təbii və süni su hövzələrinə, o cümlədən su anbarlarına buraxılırdı. Bu praktika su bioresurslarının tənzimlənməsi və davamlı balıq ehtiyatlarının formalaşdırılması baxımından müstəsna əhəmiyyət daşıyır.

Digər mühüm istiqamət isə sovet dövründə mövcud olmuş və bu gün fəaliyyətini dayandırmış balıqçılıq təsərrüfatlarının, xüsusilə Neftçala və digər regionlarda yerləşən balıqyetişdirmə zavodlarının bərpası ilə bağlıdır. Bu müəssisələrin fəaliyyətinin yenidən təşkil olunması həm istehsal həcmlərinin artırılmasına, həm də bu sahədə məşğulluğun genişlənməsinə şərait yaradacaqdır. Paralel olaraq, balıqçılıq sektorunda sağlam və şəffaf rəqabət mühitinin yaradılması zəruridir. Mövcud monopolistik meyillərin aradan qaldırılması, fərdi sahibkarların və kiçik müəssisələrin bu sahəyə cəlb olunmasına dəstək verilməsi bu istiqamətdə əsas vəzifələrdən biri olmalıdır.

Beləliklə, balıqçılıq sektorunda kompleks yanaşmaların tətbiqi və institusional islahatların həyata keçirilməsi bu sahənin potensialının reallaşdırılmasına, yerli resursların səmərəli istifadəsinə və ərzaq təhlükəsizliyinin təmininə əhəmiyyətli töhfə verə bilər.

19. Azərbaycanda gön-dəri və ayaqqabı sənayesi üzrə müşahidə olunan mövcud vəziyyət ümumilikdə qənaətbəxş hesab oluna bilməz. Halbuki, ölkənin malik olduğu xammal resursları və əmək ehtiyatları, habelə coğrafi və logistik imkanlar bu sahənin canlandırılması və daxili bazarın tələbatını ödəyəcək səviyyədə inkişaf etdirilməsi üçün kifayət qədər zəmin yaradır. Xüsusilə, ayaqqabı sənayesində müşahidə olunan idxaldan asılılıq mövcud potensiala uyğun deyil və bunun aradan qaldırılması istiqamətində aşağıdakı sistemli tədbirlərin görülməsi məqsədəuyğun hesab edilir:

-İlk növbədə, ölkənin bütün iqtisadi-coğrafi bölgələrini əhatə edəcək şəkildə, müasir texnoloji avadanlıqla təchiz olunmuş və çevik istehsal imkanlarına malik olan kiçik həcmli dəri emalı müəssisələrinin, “mini zavodların” yaradılması vacibdir. Bu zavodlar regionlarda kəsilmiş iri və xırdabuynuzlu heyvan dərilərinin ilkin emalı və istifadəyə yararlı hala gətirilməsi baxımından funksional rol oynayacaqdır. Eyni zamanda, bu cür lokal müəssisələrin mövcudluğu sahədəki itkilərin minimuma endirilməsinə və xammalın mərkəzləşdirilmədən istifadəsinə şərait yaradacaqdır. Belə təşəbbüslərin genişlənməsi üçün dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, müəyyən dövr üçün vergi yükünün azaldılması və digər iqtisadi təşviqlərin tətbiqi vacibdir.

-Paralel olaraq, müasir texnoloji həllərə əsaslanan və innovativ istehsal proseslərini tətbiq edən ayaqqabı fabriklərinin yaradılması və fəaliyyətə başlaması bu sahədə transformasiyanın əsas hərəkətverici qüvvəsi ola bilər. Dövlət tərəfindən bu tip müəssisələrin qurulmasına dəstək verilməsi, o cümlədən, texniki, maliyyə və institusional səviyyədə həvəsləndirici tədbirlərin tətbiqi, uzun müddətdir böhran vəziyyətində olan ayaqqabı sənayesinin dirçəldilməsinə ciddi təkan verə bilər. Bu baxımdan, işğaldan azad olunmuş Xankəndi şəhərində müasir tipli ayaqqabı istehsalı müəssisəsinin yenidən qurulması həm strateji, həm də simvolik əhəmiyyət daşıyacaqdır.

-Nəhayət, ölkəyə ayaqqabı idxalı zamanı daxili bazarın qorunması məqsədilə gömrük rüsumları və digər tənzimləyici mexanizmlər vasitəsilə yerli istehsalçının maraqları müdafiə olunmalıdır. Bu, yerli sənayenin rəqabətqabiliyyətli şəkildə inkişafı və bazar payının artırılması üçün mühüm institut kimi çıxış edəcəkdir.

Bu cür yanaşmaların həyata keçirilməsi nəticə etibarilə ölkədə həm dəri emalı, həm də ayaqqabı istehsalı sahəsində yerli istehsalın stimullaşdırılmasına, idxaldan asılılığın azaldılmasına və istehsal-zəncirinin milli miqyasda formalaşdırılmasına zəmin yarada bilər.

20. Azərbaycanda yüngül sənayenin, xüsusilə də geyim və trikotaj məhsullarının istehsalı sahəsində mövcud imkanlardan yetərincə istifadə olunmaması, bu sektorun iqtisadi inkişaf potensialının tam reallaşmasına mane olan başlıca amillərdən biridir. Halbuki, ölkədə pambıqçılığın yenidən dirçəldilməsi və bu xammalın emal zəncirində ardıcıl şəkildə istifadəsi fonunda, yerli istehsal bazasının formalaşdırılması və daxili tələbatın ödənilməsi üçün ciddi əsaslar mövcuddur. Daha da önəmlisi, bu resurslardan səmərəli istifadə etməklə Azərbaycan sadəcə xammal ixrac edən ölkə yox, hazır tekstil məhsullarını xarici bazarlara çıxaran istehsalçı ölkəyə çevrilə bilər.

Yüngül sənaye sahəsinin inkişafı üçün ölkədə həm əmək ehtiyatları, həm də xammal bazası baxımından zəruri infrastruktur potensialı vardır. Bununla belə, bu imkanların iqtisadi nəticəyə çevrilməsi üçün dövlətin təşəbbüskar və sistemli dəstəyi olduqca vacibdir. İlk növbədə, effektiv tənzimlənmə mexanizmlərinin tətbiqinə başlanılmalı, investorların bu sahəyə marağını artıracaq stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Buraya vergi güzəştləri, sərmayə risklərinin azaldılması və uzunmüddətli investisiya təminatları daxildir.

Eyni zamanda, idxal məhsullarının bazara çıxışında qeyri-formal təsir mexanizmlərinin, o cümlədən, məmur lobbiçiliyinin aradan qaldırılması bu sahənin inkişafı üçün mühüm şərtdir. Yerli istehsalçıların mənafeyinin qorunması istiqamətində gömrük-tarif siyasəti təkmilləşdirilməli, ölkə daxilində istehsal olunan

məhsulların rəqabətqabiliyyətliliyinin artırılması üçün institusional dəstək verilməlidir.

Yüngül sənaye sahəsində inkişafın davamlı xarakter alması üçün digər bir vacib komponent isə insan resurslarının keyfiyyətidir. Bu sahə müasir tələblərə cavab verən, texnologiyanı mənimsəyə bilən, innovasiyaya açıq olan ixtisaslı mütəxəssislərlə təmin edilməlidir. Bu məqsədlə həm peşə təhsili sistemində, həm də ali texniki təhsil müəssisələrində uyğun kadr hazırlığı proqramları genişləndirilməlidir.

Beləliklə, ölkənin daxili potensialına əsaslanan və strukturlaşdırılmış dövlət müdaxiləsi ilə yönləndirilən kompleks yanaşma sayəsində, yüngül sənaye yalnız sosial-iqtisadi əhəmiyyətli sahə kimi deyil, həm də qeyri-neft ixracının əsas dayaqlarından biri kimi formalaşa bilər.

## 7.2. Sahibkarlığın təşviqi və praktiki stimullaşdırma mexanizmləri üzrə təkliflər

Sahibkarlığın inkişafı yalnız hüquqi və institusional mühitin yaxşılaşdırılması ilə məhdudlaşmır. Onların real bazar münasibətlərində uğurla fəaliyyət göstərə bilməsi üçün praktiki səviyyədə hədəfli təşviq və stimullaşdırma tədbirləri olduqca vacibdir. Bu təşviqlər bir tərəfdən biznes mühitində rəqabət qabiliyyətini artırmaq, digər tərəfdən isə yerli istehsalı, innovasiyaları və ixrac yönlü fəaliyyətləri dəstəkləmək məqsədi daşıyır. Aşağıdakı təkliflər bu istiqamətdə konkret alətlərin tətbiqinə yönəlib:

1. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü məsələsi yalnız ticarət münasibətləri müstəvisində deyil, bütövlükdə ölkənin iqtisadi inkişaf strategiyasının mühüm tərkib

hissəsi kimi qiymətləndirilməlidir. Beynəlxalq iqtisadi inteqrasiyanın dərinləşdiyi, proteksionizmin azalmaqda olduğu və qlobal ticarət qaydalarının vahid mexanizmlə tənzimləndiyi bir şəraitdə, Azərbaycanın ÜTT-yə qoşulması həm iqtisadi strukturun çevikliyinin artırılması, həm də xarici investorların marağının yüksəldilməsi baxımından əhəmiyyətlidir. Bu addım yalnız makroiqtisadi göstəricilərə deyil, eyni zamanda ölkənin emal və kənd təsərrüfatı sektorunun inkişafına da ciddi stimul ola bilər.

Fikrimizcə, ÜTT-yə üzvlük aşağıdakı mühüm istiqamətlər üzrə iqtisadi transformasiya və institusional düzəlişlərə səbəb olacaqdır:

-İlk növbədə, daxili bazarlarda formalaşan qiymətlərin xarici bazar qiymətlərindən kəskin fərqlənməsi tendensiyası zəifləyəcək, nəticə etibarilə qiymət sabitliyi və istehlakçı rifahı təmin olunacaq.

-Qaçaqmalçılıq və gömrükdə qeyri-rəsmi əməliyyatlarla bağlı mövcud neqativ halların (gömrük rüsumlarından yayınma, sənədləşdirilməmiş idxal, mal həcmlərinin təhrif olunması və s.) aradan qaldırılması daha mümkün olacaq. Bu da gömrükdə şəffaflığın və etibarlılığın artırılmasına xidmət edəcəkdir.

-Yerli kənd təsərrüfatı məhsullarının, xüsusilə emal sənayesinə yönəldilən xammalın qiymətində mövcud olan süni aşağılaşma halları ÜTT-nin vahid ticarət normaları çərçivəsində tənzimlənərək, bu sahədə daha ədalətli bölüşdürmə mexanizmlərinin formalaşmasına şərait yaradacaq.

-İdxal mallarının qiymət və həcminin süni şəkildə manipulyasiyası, xüsusilə inhisarçılıq və lobbiçilik təsiri altında formalaşan bazar strukturları müəyyən qədər neytrallaşdırılacaq, rəqabətə dayanıqlı iqtisadi mühit yaradılacaq.

-ÜTT üzvlüyü beynəlxalq hüquqi mexanizmlərə çıxışı təmin etməklə, ölkəyə birbaşa xarici investisiyaların həcmini artıracaq,

investorların hüquqi təminatlarla əhatə olunmuş bazara marağını yüksəldəcəkdir.

Bütün bu faktorlar həm də qeyri-neft sektorunun inkişafı, xüsusilə aqroemal sənayesinin texnologiya, keyfiyyət və rəqabət baxımından yüksəldilməsinə real imkanlar yaradacaqdır. Beləliklə, ÜTT-yə üzvlük Azərbaycanın iqtisadi təhlükəsizliyinə, bazarların liberallaşdırılmasına və qlobal iqtisadi sistemlə daha səmərəli inteqrasiyasına xidmət edən strateji mərhələ kimi qiymətləndirilməlidir.

2. Aqroemal sənayesinin dayanıqlı inkişafı və texnoloji modernləşməsi, həmçinin bu sahədə innovativ həllərin geniş tətbiqi üçün dövlətin stimullaşdırıcı vergi siyasətinin həyata keçirilməsi zəruridir. Xüsusilə, istehsal potensialının artırılması, müasir avadanlıqlarla təchizat və insan resurslarının qorunması istiqamətində vergi mexanizmləri iqtisadi tənzimləmə vasitəsi kimi mühüm rol oynaya bilər. Bu baxımdan, aqroemal müəssisələrinə aşağıdakı hallarda diferensial yanaşma əsasında vergi güzəştlərinin tətbiqi məqsədəuyğun hesab edilməlidir:

-İlk növbədə, müəssisələrin əldə etdiyi gəlirin innovasiyaların tətbiqi və texnoloji yenilənmələrə yönəldilmiş hissəsi tam şəkildə vergitutma bazasından çıxarılmalıdır. Məsələn, əgər hər hansı bir aqroemal müəssisəsinin illik gəliri 1 milyon manat təşkil edirsə və bu vəsaitin 500 min manatı yeni texnoloji avadanlıqların alınması və ya innovativ proseslərin tətbiqi üçün sərf olunursa, bu zaman vergitutma bazasının 1 milyon manat deyil, məhz 500 min manat kimi müəyyən edilməsi daha məqsədəuyğun və stimullaşdırıcı bir yanaşma olar. Belə bir vergi siyasəti sahibkarları həm texniki modernləşməyə sövq edər, həm də uzunmüddətli məhsuldarlıq artımına zəmin yaradardı.

-İkinci, müəssisədə istehsalın azalması və ya bazar tələbatının müvəqqəti enməsi hallarında, iqtisadi fəsadların dərinləşməsinin qarşısını almaq üçün istehsalat subyektlərinə müəyyən müddətə tam və ya qismən vergi azadolmaları tətbiq olunmalıdır. Bu tədbir həm mövcud iş yerlərinin qorunmasına, həm də istehsal prosesinin fasiləsiz davam etdirilməsinə şərait yaradacaqdır. Əlavə olaraq, belə yanaşma sosial-iqtisadi sabitliyin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunan stimullaşdırıcı mexanizmlər aqroemal sektorunda sahibkarlığın təşviqi, istehsal güclərinin yenilənməsi və regional iqtisadi fəallığın artmasına səbəb ola bilər. Beləliklə, fərdiləşdirilmiş və məqsədyönlü vergi siyasəti yalnız iqtisadi artımı deyil, həm də struktur modernləşməni təmin edən əsas alətə çevrilə bilər.

3. Aparılmış tədqiqatlar göstərir ki, tütünçülük sahəsinin potensialı yetərincə böyük olsa da, mövcud problemlər və qeyri-effektiv idarəetmə mexanizmləri bu sahənin dayanıqlı inkişafına mane olur. Tütünçülüyün iqtisadi və sosial əhəmiyyətini nəzərə alaraq, onun dirçəldilməsi üçün aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

-İlk növbədə, ölkədə fəaliyyət göstərən siqaret fabriklərinin xammal siyasəti elə tənzimlənməlidir ki, yerli tütün xammalına prioritet verilsin. Hazırda bu fabriklərin idxaldan asılılığı kifayət qədər yüksəkdir və daha ucuz başa gələn xarici xammala, eləcə də tütünün sənaye əvəzedicilərinə üstünlük verilməsi yerli istehsalçıların maraqlarına zərbə vurur. Nəticədə, tütünçülüklə məşğul olan fermerlər və kənd təsərrüfatı istehsalçıları ciddi iqtisadi itkilərə məruz qalır və minlərlə ailə bu sahəni tərk etmək məcburiyyətində qalır.

-İkinci mühüm addım olaraq, xaricdən gətirilən tütün və tütün məmulatlarının keyfiyyətinə nəzarəti təmin edən xüsusi qurum və müasir laboratoriyanın yaradılması məqsədəuyğun olardı. Keyfiyyətsiz və ucuz tütün xammallarının idxalına məhdudiyyətlərin qoyulması yerli istehsalın rəqabət imkanlarını artıracaq, həm də daxili bazarın keyfiyyət standartlarının yüksəldilməsinə səbəb olacaqdır.

-Tütünün satınalma qiymətləri mövcud bazar şərtləri nəzərə alınaraq ən azı iki dəfə artırılmalı, siqaret fabrikləri gəlirlərin bölüşdürülməsində daha ədalətli mexanizmlər tətbiq edərək kəndli və fermer təsərrüfatlarının maraqlarını qorumalıdırlar. Bu yanaşma tütün istehsalçılarının maliyyə dayanıqlığını təmin etməklə yanaşı, onları istehsal prosesini genişləndirməyə həvəsləndirəcəkdir.

- Nəhayət, tütünçülüklə məşğul olan rayonlarda müasir tipli tütün qurutma qurğularının, talvarların və fermentasiya zavodlarının bərpası və istifadəyə verilməsi sektorun infrastruktur baxımından dirçəldilməsinə ciddi töhfə verə bilər. Bu cür istehsal infrastrukturunun yenilənməsi məhsul keyfiyyətinin yüksəldilməsi, itkilərin azaldılması və ixrac potensialının artırılması baxımından strateji əhəmiyyət kəsb edir.

4. Azərbaycanda makaron məmulatlarının istehsalı sahəsində idxaldan asılılığın azaldılması tamamilə mümkün və strateji baxımdan məqsədəuyğun bir hədəfdir. Bu istiqamətdə ölkənin həm aqroekoloji, həm də sənaye potensialı nəzərəçarpacaq dərəcədə genişdir və düzgün istiqamətləndirilmiş dövlət siyasəti ilə mövcud imkanlar reallaşdırıla bilər. Xüsusilə qeyd olunmalıdır ki, makaron istehsalı üçün əsas xammal hesab edilən yüksək keyfiyyətli bərk buğda (şüşəvari buğda) sortlarının yetişdirilməsi ölkə daxilində mümkün olan və stimullaşdırılması vacib olan bir sahədir. Azərbaycanın bir sıra bölgələri, xüsusilə, Aran zonası və quraqlığa

davamlı ərazilər bu cür buğda növlərinin becərilməsi üçün əlverişli torpaq-iqlim şəraitinə malikdir.

Şüşəvari buğdanın lokal səviyyədə istehsalı, bir tərəfdən, daxili emal sənayesinin (makaron, un, yarma və s.) xammalla təmin olunmasını sabitləşdirərsə, digər tərəfdən, strateji ərzaq təhlükəsizliyinin gücləndirilməsinə də əhəmiyyətli töhfə verə bilər. Bu kontekstdə aqrar tədqiqat institutlarının iştirakı ilə yerli torpaq-iqlim şəraitinə uyğunlaşdırılmış bərk buğda sortlarının seleksiyası və toxumçuluğu üzrə fəaliyyətlərin genişləndirilməsi zəruridir.

Bundan əlavə, un istehsalında idxaldan asılılığın aradan qaldırılması istiqamətində hazırlanmış tövsiyələr, prinsip etibarilə, makaron sənayesi üçün də keçərlidir. Buraya aqroemal sahəsində texnoloji yeniliklərin tətbiqi, fermerlərin ixtisaslaşdırılması, logistik zəncirin təkmilləşdirilməsi və ixrac yönümlü istehsal strukturlarının təşviqi daxildir. Yəni bu iki sahə – un və makaron istehsalı – qarşılıqlı əlaqəli olduğundan, hər iki istiqamətdə paralel şəkildə aparılan islahatlar sinerji effekti yaradaraq ümumi ərzaq sənayesinin dayanıqlığını və rəqabətqabiliyyətini artırmış olar.

Eyni zamanda qeyd edilməlidir ki, makaron məmulatlarının daxili bazarda artan tələbatı nəzərə alınaraq, bu məhsulun lokal istehsalının artırılması həm idxalın əvəzlənməsi, həm də regional iqtisadi inkişaf baxımından xüsusi aktuallıq kəsb edir. Bu çərçivədə sənaye və aqrar sektor arasında institusional əlaqələrin gücləndirilməsi, o cümlədən aqroparkların və ixtisaslaşmış emal müəssisələrinin yaradılması hədəflənməlidir.

5. Azərbaycanda şəkər sənayesinin əsas xammalı olan şəkər çuğundurunun təminatında idxaldan asılılıq problemi hələ də aktuallığını saxlayır. Bu asılılıq həm ərzaq təhlükəsizliyinin təmin olunması baxımından, həm də yerli istehsal potensialının tam reallaşmaması baxımından ciddi institusional və iqtisadi çağırışlar

yaradır. Hazırkı şəraitdə bu problemin həlli, ilk növbədə, şəkər çuğunduru əkin sahələrinin genişləndirilməsi və sahənin dövlət tərəfindən düzgün tənzimlənməsi ilə bağlıdır.

Əldə olan təbii-iqlim resursları, torpaq fondları və regionlarda formalaşmış istehsal vərdişləri göstərir ki, şəkər çuğundurunun əkin sahəsinin 35 min hektara çatdırılması mümkün və məqsədəuyğundur. Lakin bu artım inzibati deyil, iqtisadi stimullaşdırma prinsiplərinə əsaslanmalı, fermerlərdə maraq yaratmaq üçün alış qiymətləri yenidən nəzərdən keçirilməli və iqtisadi cəhətdən cəlbedici səviyyəyə qaldırılmalıdır.

Bununla yanaşı, şəkər çuğunduru istehsalının ən ciddi maneələrindən biri olan suvarma problemi də kompleks yanaşma tələb edir. Suvarma infrastrukturunun yenidən qurulması və dövlət investisiyaları hesabına bu problemin mərhələli şəkildə həlli vacib şərt kimi çıxış edir.

Digər mühüm məsələ isə çuğundur yığımında əl əməyinin üstünlük təşkil etməsi və bu səbəbdən məhsulun maya dəyərinin yüksək olmasıdır. Bu problemi aradan qaldırmaq məqsədilə çuğunduryığan kombaynların sayının artırılması, texnikanın subsidiya mexanizmləri vasitəsilə fermerlər üçün əlçatan edilməsinə ehtiyac vardır. Bu həm əməyin məhsuldarlığını artıracaq, həm də maya dəyərinin optimallaşdırılmasına xidmət edəcəkdir.

Nəticə etibarilə, şəkər çuğunduru istehsalının genişləndirilməsi və şəkər xammalında idxaldan asılılığın aradan qaldırılması yalnız kompleks dövlət siyasəti və koordinasiyalı institusional tədbirlər nəticəsində mümkün ola bilər.

6. Azərbaycanda əhalinin ət və süd məhsulları ilə təminatı qida təhlükəsizliyi və ictimai sağlamlıq baxımından strateji əhəmiyyət kəsb edən məsələlərdən biridir. Lakin araşdırmalar

göstərir ki, ölkədə adambaşına düşən ət və süd məhsullarının illik istehlakı Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi rasion normalarından əhəmiyyətli dərəcədə geri qalır. Bu da öz növbəsində əhalinin sağlam və balanslaşdırılmış qida ilə təmin olunmasında ciddi çatışmazlıqların mövcudluğuna dəlalət edir.

Qeyd olunan problemin əsas səbəblərindən biri, ölkədə formalaşmış heyvandarlıq strukturunun aşağı məhsuldarlıqla xarakterizə olunmasıdır. Məlumdur ki, mövcud mal-qara sürüsünün əksəriyyətini az məhsuldar, adaptiv lakin iqtisadi səmərəliliyi zəif olan yerli heyvan cinsləri təşkil edir. Bu isə həm ət və süd məhsullarının istehsal həcmini məhdudlaşdırır, həm də istehsal olunan məhsulun maya dəyərinin yüksək olmasına gətirib çıxarır.

Müasir aqrar islahatlar kontekstində və ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə, mal-qaranın sürü tərkibində keyfiyyətcə dəyişikliklərin aparılması vacib strateji addım kimi dəyərləndirilməlidir. Konkret olaraq, az məhsuldar yerli heyvanların tədricən daha məhsuldar südlük və ətlik cinslərlə əvəzlənməsi ölkə üzrə istehsal göstəricilərinin radikal şəkildə yüksəldilməsinə imkan verə bilər. Araşdırmalar və empirik təcrübələr sübut edir ki, mövcud sürünün baş sayını azaltmaqla belə, yalnız məhsuldar cins heyvanların hesabına ət və süd istehsalını 2–2,5 dəfə artırmaq mümkündür.

Bu proses, həmçinin yem bazasının optimallaşdırılması, süni mayalanma texnologiyalarının geniş tətbiqi, reproduktiv və seleksiya sistemlərinin təkmilləşdirilməsi ilə müşayiət olunmalıdır. Dövlətin bu istiqamətdə tənzimləyici və təşviqedici mexanizmlər yaratması – güzəştli kreditlər, subsidiyalar, texniki dəstək və ixtisaslı kadr hazırlığı kimi sahələrdə kompleks tədbirlər görməsi vacibdir.

Əgər maldarlığın bu cür keyfiyyət dəyişiklikləri davamlı şəkildə həyata keçirilərsə, ölkədə həm daxili tələbat daha yüksək səviyyədə ödənilər, həm də idxaldan asılılıq azalar və gələcəkdə yerli ət-süd məhsullarının ixrac potensialı da formalaşmış olar.

7. Yun istehsalı və xalçaçılıq sahəsi Azərbaycanın aqroemal sənayesində strateji əhəmiyyət daşıyan sahələrdən biri olsa da, bu sektorun hazırkı vəziyyəti ciddi struktur problemlərlə qarşı-qarşıyadır. Baxmayaraq ki, ölkədə hər il, təqribən 16 min ton həcmində yun istehsal olunur, bu həcmin emalı və istifadəsi üzrə effektiv sistem formalaşmayıb. Yerli istehsalın zəifliyi və rəqabətədavamlı məhsul buraxmaq imkanlarının məhdudluğu nəticəsində daxili bazarda əsasən idxal məhsulları üstünlük təşkil edir. Bu isə həm ölkə resurslarının səmərəsiz istifadəsinə, həm də potensialın boşa çıxmasına səbəb olur.

Xalçaçılıq sənayesində dərinləşən böhran təkcə mədəni irs və sənətkarlıq baxımından deyil, həm də iqtisadi potensial baxımından ciddi itkilərlə müşayiət olunur. Lakin bu sahənin inkişafı üçün zəruri olan texniki və təbii resurslar ölkədə mövcuddur və onların düzgün tənzimlənməsi bu sektorun dirçəlməsinə şərait yarada bilər. Bu məqsədlə aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi vacib hesab edilir:

-Xalça istehsalında texnoloji modernizasiya: Hazırda xalçaların əksəriyyəti əl əməyinə əsaslanaraq istehsal olunur ki, bu da maya dəyərinin yüksəlməsinə və nəticə etibarilə məhsulun bazar rəqabətliliyinin azalmasına gətirib çıxarır. İdxal məhsulları ilə müqayisədə yerli xalçalar qiymət baxımından uduzur. Buna görə də ölkədə xalçaçılıqda fabrik-konveyer üsuluna keçid zərurət kəsb edir. Xüsusilə konveyer əsaslı, avtomatlaşdırılmış xalça istehsal texnologiyalarının tətbiqi genişləndirilməli, artıq mövcud olan xalça fabrikləri bu istiqamətdə yenidən texniki və texnoloji

baxımdan qurulmalıdır. Bu sahəyə güzəştli kreditlər, vergi imtiyazları və avadanlıq alınması üçün dövlət subsidiyaları kimi stimullaşdırıcı tədbirlərin tətbiqi vacibdir.

-Yun istehsalının təşkili və emal zəncirinin qurulması: Xalçaçılıq və yun əsaslı tekstil sənayesinin zəif inkişaf etməsi nəticəsində qoyunçuluq təsərrüfatlarında əldə olunan yun ya satılmır, ya da tamamilə itkiyə gedir. Bu isə kənd təsərrüfatı sahəsində çalışan fermerlər üçün maddi itkilərlə nəticələnir. Yun alışının və ilkin emalının təşkili məsələsi dövlətin nəzarətində mərkəzləşdirilmiş şəkildə həyata keçirilməlidir. Yun tədarükü üzrə sabit sistemin qurulması, onun keyfiyyətə görə qiymətləndirilməsi və bazara çıxarılması fermerlərin motivasiyasını artırmaqla yanaşı, yun sənayesinin də canlanmasına səbəb olar.

-Zərif yunlu qoyunçuluğun inkişaf etdirilməsi: Hazırda mövcud qoyun sürülərinin əsas hissəsini qaba yunlu, aşağı iqtisadi dəyərə malik cinslər təşkil edir. Halbuki zərif yunlu qoyun cinsləri – merinos və analoji genetik xəttə malik cinslər – xalçaçılıq və trikotaj sənayesində yüksək keyfiyyətli və rəqabətədavamlı məhsul istehsalı üçün ideal xammal mənbəyidir. Bu baxımdan, dövlətin birbaşa dəstəyi ilə zərif yunlu qoyun cinslərinin sayının artırılması, bu istiqamətdə ixtisaslaşmış təsərrüfatların yaradılması və seleksiya proqramlarının tətbiqi məqsədəuyğun hesab olunur.

-Zərif yun üçün dövlət subsidiyaları: Zərif yun istehsalının genişlənməsi üçün bazar və qiymət təşviqi zəruridir. Belə ki, əmtəəlik zərif yuna görə fermer və sahibkarlara subsidiya verilməsi bu sahəyə marağı artırmaqla, həm də məhsulun bazara çıxışını təmin edər və xammal bazasının dayanıqlığını möhkəmləndirər.

Bütün bu tədbirlərin sistemli şəkildə tətbiqi yun istehsalı və xalçaçılıq sənayesini canlandırmaqla yanaşı, həm də kənd təsərrüfatı sektorunda məşğulluğu artırar, bölgələrdə iqtisadi

fəallığı yüksəldər və ölkənin idxaldan asılılığını azaldaraq yerli məhsul istehsalını stimullaşdırar.

8. Hazır yeməklərin istehsalı ilə bağlı mövcud qlobal tendensiyalar göstərir ki, bu sahə son illərdə qeyri-adi sürətlə inkişaf edir və qida sənayesində texnoloji transformasiyanın ən bariz nümunələrindən biri hesab olunur. "Food Tech" adlandırılan bu yeni istiqamət, əhalinin sürətlə urbanizasiyası, həyat ritminin intensivləşməsi və gündəlik zaman resurslarının məhdudluğu fonunda, xüsusilə, inkişaf etmiş ölkələrdə geniş yayılmışdır. Artıq ABŞ, Çin və Avropa İttifaqına üzv olan ölkələrin böyük şəhərlərində qabaqcıl texnologiyalar əsasında fəaliyyət göstərən, müxtəlif çeşidli hazır yeməklərin (həm gündəlik, həm də dietik və sağlam qidalanma əsaslı) istehsalına yönəlmiş zavodlar fəaliyyətə başlamışdır. Bu zavodlar bir tərəfdən bazarda geniş çeşidli və əlçatan məhsullar təklif edir, digər tərəfdən isə ərzaq təhlükəsizliyi və keyfiyyət standartlarının qorunmasına da mühüm töhfə verir.

Qeyd olunan kontekstdə belə qənaətə gəlmək olar ki, qlobal iqtisadi sistemin ayrılmaz bir hissəsi olan Azərbaycan da bu meyillərdən kənarda qala bilməz. Əhalinin şəhərlərdə cəmlənməsi, həyat ritminin dinamikləşməsi, işgüzar aktivliyin artması və xüsusilə gənc nəsil arasında istehlak vərdişlərinin dəyişməsi, ölkəmizdə də hazır yemək məhsullarına olan tələbatın perspektivdə əhəmiyyətli dərəcədə artacağını göstərir. Bu baxımdan, hazır yeməklərin sənaye üsulu ilə istehsalı məsələsi artıq təkcə texnoloji deyil, həm də sosial-iqtisadi əhəmiyyət daşıyan bir prioritetə çevrilməkdədir.

Məhz bu reallıqları nəzərə alaraq, düşünürük ki, Azərbaycanın əsas sənaye və inzibati mərkəzləri olan Bakı, Gəncə və Sumqayıt şəhərlərində müasir tipli, kiçik həcmli, lakin texnoloji cəhətdən təchiz edilmiş hazır yemək istehsalı zavodlarının yaradılması

strateji baxımdan məqsədəuyğun olardı. Bu zavodlar həm daxili bazarın tələbatını ödəyə bilər, həm də gələcəkdə regional ixrac imkanlarının formalaşmasına zəmin yarada bilər. Eyni zamanda, belə bir təşəbbüs kənd təsərrüfatı məhsullarının dəyər zəncirinə daha yüksək dərəcədə inteqrasiyasını təmin etməklə, yerli fermerlər üçün əlavə satış platforması formalaşdırar və aqrar sektorun diversifikasiyasına dəstək verə bilər.

Bütün bunlarla yanaşı, hökumətin bu sahədə tənzimləyici funksiyasının gücləndirilməsi, strateji proqramların hazırlanması və dövlət-özəl tərəfdaşlığına əsaslanan modelin tətbiqi də zəruri görünür. Belə proqramlar həm investisiya təşviqi mexanizmlərini, həm qida təhlükəsizliyi üzrə normativ çərçivələrin formalaşdırılmasını, həm də istehlakçı mədəniyyətinin yüksəldilməsini nəzərdə tutmalıdır. Nəticə etibarilə, hazır yeməklər istehsalı sahəsinin Azərbaycanda inkişafı yalnız texnoloji yenilənmə deyil, həm də ərzaq siyasətinin bir hissəsi kimi qiymətləndirilməli, dövlətin iqtisadi inkişaf strategiyasında ayrıca mövqe qazanmalıdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri / İ.Alıyev. – Bakı: "Elm", – 2008. - s.400.

2. Allahverdiyev, H. B. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik / H.B.Allahverdiyev K.S.Qafarov, Ə.M.Əhmədov - Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, – 2012 – s. 508

3. Azərbaycan rəqəmlərdə 1995 AR DSK – Bakı: "Səda" nəşriyyatı, - 1996. – s.259.

4. Azərbaycanın statistik göstəriciləri" AR DSK – Bakı: "Səda" nəşriyyatı, – 2001. – s.561.

5. Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının qanunu. / [Elektron resurs] // 18 fevral 1995-ci il. № 976. / Bakı: URL: http://www.e-qanun.az/framework/9164

6. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. / [Elektron resurs] // Bakı: 2016. - 177s. URL: https://president.az/az/articles/view/22110

7. Antiinhisar fəaliyyəti haqqında: / Azərbaycan Respublikasinin qanunu / [Elektron resurs] // Bakı: - 1993, № 526. - URL: https://e-qanun.az/framework/8249

8. Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında // Azərbaycan Respublikasinin Qanunu: / [Elektron resurs] // Bakı şəhəri, - 31 may 2016-cı il: - №261-VQ. - URL: https://e-qanun.az/framework/33306

9. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının

Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında / Azərbaycan Respublikasi Prezidentinin fərmanı. / [Elektron resurs] // Bakı şəhəri: - 25 dekabr 2009-cu il №203. - URL: https://e-qanun.az/framework/18936

10. Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında. Azərbaycan Respublikasinin Qanunu. / [Elektron resurs] // Bakı şəhəri, - 29 may 1998-ci il - №120. - URL: https://e-qanun.az/framework/3730

11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin strukturu / [Elektron resurs] // URL: https://competition.gov.az/az/page/haqqimizda/struktur

12. Azərbaycan Respublikasının Konstitusiyası // 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir (2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklər, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklər). – Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, – 2016, – 85 s.

13. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu. Güzəştli kreditlərin şərtləri. / [Elektron resurs] // URL: https://edf.gov.az/uploads/daxili%20qaydalar/Minimal_telebler.pdf

14. Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. Haqqımızda. / [Elektron resurs] // URL: https://smb.gov.az/az/nav/haqqimizda

15. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi. Haqqımızda. / [Elektron resurs] // URL:

http://akia.gov.az/az/content/136.html,
http://akia.gov.az/az/content/9-37.html

16. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) İnnovasiya yönümlü aqrar sahənin inkişafı yolları. / B.Ataşov. – Bakı: “Kooperasiya” nəşriyyatı, – 2017. - s. 478

17. Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. / [Elektron resurs] // – Bakı şəhəri: 11 oktyabr 2021-ci il. URL: https://president.az/az/articles/view/53407

18. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. Hesabat dövrü 2020-ci il. / [Elektron resurs} // Dövlət Gömrük komitəsi. - URL: https://customs.gov.az/uploads/foreign/2020/2020_12.pdf?v=1640608671

19. “Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 nömrəli qərarında dəyişiklik edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. / [Elektron resurs] // Bakı: - 6 iyun 2014-cü il №182. URL: https://e-qanun.az/framework/27834

20. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / [Elektron resurs] // 26 dekabr 2014-cü il. URL: https://president.az/az/articles/view/13900

21. Azərbaycanın kənd təsərrüfatı: / [Elektron resurs] // Azərbaycan Respublikası DSK. Bakı: 2022. – 8,35MB. – URL: https://www.stat.gov.az/source/agriculture/

22. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu. Hesabatlar. / [Elektron resurs] // URL: https://edf.gov.az/az/content/22

23. Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. Hesabatlar. / [Elektron resurs] // URL: https://smb.gov.az/az/nav/hesabatlar

24. Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət proqramı. Azərbaycan Respublikası Prezidentinin

2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. / [Elektron resurs] // URL: https://president.az/az/articles/view/26017

25. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimlənmənin aktual problemləri Dərslik / V.H.Abbasov. – Bakı: MBM -2012. - 424 s.

26. Abbasov, V. H. Qida sənayesi sahələrinin inkişaf prioritetləri / V.Abbasov, T.Qorçiyeva // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı - 2020, № 1 (31) – s.122-131.

27. Azərbaycanın xarici ticarəti AR DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: - 2022. URL: https://www.stat.gov.az/source/trade/

28. Azərbaycanda sənaye AR DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/source/industry

29. Azərbaycanın ərzaq balansları AR.DSK. Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/source/food_balances/

30. Azərşəkər Haqqımızda / [Elektron resurs] // Bakı: 2022. - URL:
https://azsf.az/page/about-us

31. Azərbaycan rəqəmlərdə AR DSK Statistik məcmuə / [Elektron resurs] // Bakı: 2022. – URL: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

32. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikasi Prezidentinin fərmanı /[Elektron resurs] // Bakı: 25 dekabr 2019-cu il № 902. – URL: https://e-qanun.az/framework/44018

33. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 11 fevral 2004-cü il № 24 – URL: https://e-qanun.az/framework/4797

34. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 14 aprel 2009-cu il.№ 80 – URL: https://e-qanun.az/framework/16721

35. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 4 may 2009-cu il № 255. – URL: https://e-qanun.az/framework/17199

36. “Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikasi Prezidentinin sərəncami / [Elektron resurs] // Bakı şəhəri: - 23 oktyabr 2004-cü il №467. – URL: https://e-qanun.az/framework/5801

37. Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və “İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 23 iyul 2021-ci il № 1411. – URL: https://e-qanun.az/framework/47918

38. Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 23 oktyabr 2004-cü il № 468. –URL: https://e-qanun.az/framework/5802

39. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üçün yaradılmış Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 27 avqust 2018-ci il № 431. URL: https://www.e-qanun.az/framework/39902

40. Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı / [Elektron resurs] // Bakı şəhər: - 15 avqust 1996-cı il № 109. URL: https://e-qanun.az/framework/13997

41. Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında. Azərbaycan Respublikasi

Prezidentinin Sərəncamı / [Elektron resurs] // Bakı: - 10 yanvar 2019-cu il № 881. URL: https://e-qanun.az/framework/41201

42. Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı / [Elektron resurs] // Bakı şəhəri: 27 iyun 2019-cu il № 759. – URL: https://e-qanun.az/framework/42750

43. Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / [Elektron resurs] // Bakı şəhəri, 15 iyul 2021-ci il. – URL: https://president.az/az/articles/view/52463

44. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri Azərbaycan Respublikası Prezidentinin Sərəncamı \\[Elektron resurs]\\ Bakı şəhəri 02 fevral 2021-ci il. - https://president.az/az/articles/view/50474

45. Balayev, R. Ə. Aqrar sahədə rəqəmsal mühitin formalaşmasinin əsas amilləri və təcrübi aspektləri // - Bakı: - Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 1 (31). – s.93-100.

46. Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: 28 dekabr 2011-ci il. № 1947. – URL: https://e-qanun.az/framework/22839

47. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq Qərb”Nəşriyyat evi, – c.4. - 2012. - 592 s.

48. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.1. - 2012. - 612 s.

49. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.2. - 2012. - 632 s.

50. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.3. - 2012. - 608 s.

51. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Şərq-Qərb” nəşriyyat evi, – c.5. - 2012. - 632 s.

52. Böyük İqtisadi Ensiklopediya / Red. hey. sədri Z.Ə.Səmədzadə. - Bakı: ”Letterpress” nəşriyyat evi, – c.6. - 2015. - 716s.

53. Çayçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 17 dekabr 2002-ci il № 402-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/5525

54. Davudova, R. İ. Azərbaycan Respublikası nümunəsində ev təsərrüfatlarının istehlakı, ÜDM və dövlət gəlirləri arasında qarşılıqlı əlaqələrin vec modeli vasitəsi ilə qiymətləndirilməsi\ R. Davudova\ Bakı: AMEA-nın xəbərləri İqtisadiyyat seriyası yurnalı\ - 2019. №4. s.18-30 / [Elektron resurs] // URL: https://economics.org.az/images/fotos/xeberler_pdf/2019_4/3.Revane.pdf

55. Əhmədov, M. A. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. / M.A.Əhmədov, A.C.Hüseyn - Bakı: “İqtisad Universiteti”, – 2011. - 120 s.

56. Əliyev, T. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf / T.Əliyev. – Bakı: “Elm və Bilik” – 2019. - 535 s.

57. Harrington Emerson “Səmərəliliyin 12 prinsipi” 1911. / [Elektron resurs] // tərt. edən. Industrial Engineering Knowledge Center, Нараяна Рао KVSS. – 2021. 11 avqust - URL:

http://nraoiekc.blogspot.com/2016/07/the-twelve-principles-of-efficiency.html

58. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasinin Qanunu. [Elektron resurs] // Bakı: - 2 iyun 1995-ci il. № 1049. URL: https://e-qanun.az/framework/9475

59. Hüseynov, T. H. Azərbaycanin milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.Hüseynov. – Bakı: “Elm” – 2015. – 466 s.

60. Hüseyn, R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları / R.Z.Hüseyn. - Bakı: Avropa, - 2018, - 408 s.

61. Hüseynov, T. H. Mövcud reallıq kənd təsərrüfatı kooperativlərinə yeni yanaşma tələb edir. // Azərbaycan qəzeti, - 2022, 02 sentyabr, - s.9

62. Xəlilov, H. A. Kənd təsərrüfatinda enerji istehlaki: səmərəlilik və dayaniqliliq kontekstlərində baxiş // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktiki jurnal – 2020.№4(34). – s.64-68.

63. Xəlilov, H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti / H.A. Xəlilov. - Bakı: “Mütərcim”, - 2005. - 228 s.

64. İbrahimov, İ. H. Aqrar sahənin iqtisadiyyatı / İ.H.İbrahimov. – Bakı: “Printing” Company MMC mətbəəsi, - 2016. – s. 655

65. İbrahimov, İ. H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. / İ.H.İbrahimov. – Bakı: “Kooperasiya” nəşriyyatı, - 2022. - s.239

66. “İlham Əliyev Lənkəranda “Astaraçay” MMC-nin çay plantasiyalarına baxıb” / [Elektron resurs] // Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev Bakı: 2017-ci il 02 sentyabr. URL: https://president.az/az/articles/view/25101

67. İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib / [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev/ Bakı: 16 noyabr 2018. – URL: https://president.az/az/articles/view/30736

68. "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs. Struktur. / [Elektron resurs] // Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin veb-saytı. - URL: https://mincom.gov.az/az/view/organization/35/

69. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: 10 dekabr 2021. URL: https://e-qanun.az/framework/48628

70. Quliyev, E. A. Aqrar iqtisadiyyat / E.A.Quliyev. Bakı: "Kooperasiya" nəşriyyatı, - 2015. – s. 320.

71. Quliyev, E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri / E.A.Quliyev. Bakı: "Elm", - 2013. - s.151.

72. Qlobal rəqabətqabiliyyətlilik indeksi-2020: Azərbaycanın mövqeyinin yaxşılaşdırılması: / tərt. ed. AMEA İqtisadiyyat institutu G.Yüzbaşıyeva və başqaları - Bakı: "Elm və bilik". – 2021. - s.204.

73. Qasımlı, V. Ə. İqtisadi modernizasiya / V.Ə.Qasımlı – Bakı: - SAM – 2014. – 312 s.

74. Qafqaz konserv zavodu. Tariximiz / [Elektron resurs] // veb-sayt. - URL:
https://www.qafqazkonserv.az/haqqimizda

75. Qəbələ konserv zavodu. Gilan holdinq / [Elektron resurs] // veb-sayt. – URL: https://gilanholding.com/industries/Qebele+Konserv+Zavodu+100

76. Qiymət indeksi AR DSK. Statistik məcmuə / [Elektron resurs] // URL: https://www.stat.gov.az/source/price_tarif/

77. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - 06 dekabr 2016-cı il. - URL: https://president.az/az/articles/view/21953

78. Meybullayev, M. X. İqtisadi təhlükəsizlik nəzəruyyəsi / X. Meybullayev, S. Mikayılova – Bakı: "İqtisad universiteti", - 2015 – 373s.

79. Müzəffərli, (Imanov) N. Azərbaycanin post-konflikt ərazilərinin bərpasi: konseptual əsaslar / N.Müzəffərli (İmanov), E.İsmayılov – Bakı: Qafqaz, - 2010. – 270s.

80. Məmmədli, O. Milli İqtisadiyyatın tənzimlənməsi. Dərslik. - O.Məmmədli, M.İsmayılov, F.İsmayılov – Bakı: "MBM", - 2008. - 560 s.

81. Məmmədov, E. Y. İstehlak bazarinin idarə edilməsi. Dərslik / E.Məmmədov. – Bakı: - "İqtisad Universiteti" Nəşriyyatı. – 2019. - 204 səh.

82. Mingəçevir Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 26 fevral 2015-ci il № 1077. – URL: https://e-qanun.az/framework/29430

83. Nuriyev, Ə. X. Davamlı və tarazlı regional inkişaf / Ə.X.Nuriyev. - Bakı: Avropa. – 2017. – 242 s.

84. Narın tarixi. Aznar / [Elektron resurs] // AZNAR QSC. URL: https://aznar.az/az/factory/history_aznar/

85. Pambıqçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 11 may 2010-cu il № 1012-IIIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/19873

86. Ramazanov, S. Çayçılıq, Dərslik. / S.Ramazanov, İ.Kərimov – / [Elektron resurs] // Bakı: 2019. - 64 s.
URL: https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/cayciliq.pdf

87. Salahov, S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. / S.Salahov - Bakı: - Nurlar" - 2004. - 504 s.

88. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasinin Qanunu. / [Elektron resurs] // Bakı: - 2 iyul 2013-cü il № 714-IVQ. URL: https://e-qanun.az/framework/26449

89. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasinin Qanunu. / [Elektron resurs] // Bakı: - 15 dekabr 1992-ci il URL: https://e-qanun.az/framework/7920

90. "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiqi barədə

Azərbaycan Respublikasi Prezidentinin Fərmani / [Elektron resurs] // Bakı: - 24 aprel 2013-cü il. № 865. - URL: https://e-qanun.az/framework/25657

91. Sadıqov, Ş. Sənayenin rəqabətqabiliyyətliliyi indeksi-2018: Azərbaycan sənayesində klasterlərin yaradılması və inkişafı istiqamətləri / Ş.Sadıqov. - Bakı: "Elm və Bilik" – 2021. – 130s.

92. Sadıqov, Y.M. Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri / Y.M.Sadıqov. - Bakı: Avropa. – 2018. – 86s.

93. Sadıqov, Y. M. Azərbaycanda pambıqçılıq və emalı // - Bakı: AMEA İqtisadiyyat institutu "İqtisadi artım və ictimai rifah" elmi publisistik jurnalı, - 2021. №2. - s. 81- 91

94. Sadıqov, Y. M. Üzümçülük və şərabçılığın inkişaf perspektivləri // - Bakı: Kooperasiya universiteti "Kooperasiya" yurnalı, - 2021. №1. - s. 171-179.

95. Sadıqov, Y. M. Azərbaycanda çay sənayesi: dünəni bu günü sabahı // - Gəncə: ADAU "Elmi əsərlər", - 2021. №2. - s.44-51

96. Sadıqov, Y. M. Azərbaycanda ət və ət məhsulları istehsalı: mövcud durum və inkişaf istiqamətləri // - Bakı: AMEA İqtisadiyyat institutu "İqtisadi artım və ictimai rifah" yurnalı, - 2021.№ 3. - s.19-30

97. Sadıqov, Y. M. Azərbaycanda süd istehsalı və emalı: mövcud vəziyyət və inkişaf perspektivləri // - Bakı: BBU "Audit" elmi-praktik jurnalı, - 2021.№2 – s.89-99.

98. Sadıqov, Y. M. Azərbaycanda taxıl və çörək-bişirmə sənayesi: Mövcud durum və perspektivlər" // - Bakı: AMEA Iqtisadiyyat institutu AMEA-nın xəbərləri Iqtisadiyyat seriyası, - 2021 №1. - s. 97-104.

99. Sadıqov, Y. M. Azərbaycanda tütün istehsalı və emalının inkişaf istiqamətləri // - Bakı: Aqrar Tədqiqatlar Mərkəzi "Kənd Təsərrüfatının İqtisadiyyatı" yurnalı, - 2021. № 2(36) - s.57-63.

100. Sadıqov, Y. M. Azərbaycanda yunçuluq və xalçaçılıq // - Bakı "Azərbaycan xalçaları" elmi-publisistlik yurnalı, - 2018. Cild 8. №-27. - s.50-58.

101. Sadıqov, Y. M. Aqrar-emal sahəsi. Mövcud durum və dayanıqlı inkişaf // - Bakı: AMEA İqtisadiyyat institutunun "Elmi əsərlər" jurnalı, - 2017. №2. - s.186-193.

102. Sadıqov, Y. M. Ərzaq təhlükəsizliyi və aqrar sahə. İnkişaf perspektivləri // "Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda elmi-praktik konfransın materialları, - Bakı: Kooperasiya universitetinin mətbəəsi - 1-2 iyun, -` 2018. - s.271-275.

103. Sadıqov, Y. M. Emal sahəsinin mövcud durumu və inkişaf istiqamətləri // "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" Respublika elmi konfransının materialları, - Naxçıvan: Naxçıvan Dövlət Universitetinin mətbəəsi. - 29 fevral-01mart, - 2021. - s.163-168.

104. Sadıqov, Y.M. Qlobal Ərzaq təhlükəsizliyi indeksində (əlçatanlıq subindeksi üzrə) Azərbaycanın mövqeyinin qiymətləndirilməsi və yaxşılaşdırılması yolları // - Bakı: AMEA İqtisadiyyat institutunun "Elmi əsərlər" elmi jurnalı, - 2019. № 6. - s.268-278.

105. Sadıqov, Y. M. Aqrar sahədə dövlət – özəl əməkdaşlığının inkişafında dövlətin yeri və rolu // - Bakı: AMEA İqtisadiyyat institutunun "Elmi əsərlər" jurnalı, - 2019. №5. - s. 222-230.

106. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin fərmanı / [Elektron resurs] // Bakı şəhəri: - 21 dekabr 2011-ci il. № 548. URL: https://e-qanun.az/framework/22726

107. Sovxoz və kolxozların islahatı haqqında Azərbaycan Respublikasinin Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 18 fevral 1995-ci il.№ 978. URL: https://e-qanun.az/framework/9207

108. "Torpaq islahatı" haqqında Azərbaycan Respublikasının Qanunu. / [Elektron resurs] // Bakı şəhəri: - 16 iyul 1996-cı il. № 155-IQ. - URL: http://www.e-qanun.az/framework/4207

109. “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikasının Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 30 may 2003-cü il. - URL: https://e-qanun.az/framework/2335

110. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasinin Qanunu / [Elektron resurs] // Bakı şəhəri: - 15 dekabr 1998-ci il № 590-IQ. - URL: https://e-qanun.az/framework/5038

111. “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi haqqında” AR Nazirlər Kabinetinin Qərarı. /Elektron resurs] // Bakı şəhəri: - 25 dekabr 2001-ci il.№20. URL: https://e-qanun.az/framework/2931

112. Taxıl haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 16 iyun 2000-ci il № 898-IQ qəbul edilmişdir. / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/631

113. Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 8 iyun 2001-ci il № 138-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/2697

114. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasinin Qanunu / Bakı şəhəri: - 19 oktyabr 2001-ci il № 208-IIQ / [Elektron resurs] // URL: https://e-qanun.az/framework/1021

115. Vəliyev, A.H. İşğaldan azad olmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı elmi-praktik jurnal – 2020. №4 (34), - s.38-44.

116. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı / [Elektron resurs] // Bakı şəhəri: - 25

avqust 2008-ci il № 3004. – URL: https://e-qanun.az/framework/15320

**Türk dilində**

117. YAVUZ, F. TE Tarım Politikası Ders Notları / Fahri Yavuz Atatürk Üniversitesi Ziraat Fakültesi Yayınları No: 252 Tarım Ekonomisi Bölümü 2021. – s.401.

**Rus dilində**

118. Абалкин, Л. И. Стратегический ответ России на вызовы нового
века / Л.И.Абалкин, И. А. Погосов, Н. Г. Гловацкая. - Москва: Экзамен, - 2004. – 606 с.

119. Агибалов А.В. Состояние финансового обеспечения государственной поддержки АПК //А.В. Агибалов, О.С. Капцова// Финансовый вестник. – Moskva: - 2016. - № 1 (32). - с. 72-80.

120. Александрова, О. А. Господдержка аграрной экономики США // Финансы.- Москва: - 2012. №3. - с. 67-71.

121. Блауг М. Экономическая мысль в ретроспективе. / М.Блауг. - Москва: - Дело, - 1994. - 34 с.

122. Богданов, Д. Д. Институциональные аспекты регулирования ценового поведения доминирующей фирмы / [Электронный ресурс] // Таврический научный обозреватель. — 2015. — № 1. — с. 15-16. URL: file:///C:/Users/User/Downloads/institutsionalnye-aspekty-regulirovaniya-tsenovogo-povedeniya-dominiruyuschey-firmy.pdf

123. Баутин, В. М. Инновационная экономика: содержание, место и роль инноваций // Москва: Известия ТСХА, - 2014. № 2, - с. 102-117. URL: file:///C:/Users/User/Downloads/innovatsionnaya-ekonomika-soderzhanie-mesto-i-rol-innovatsiy.pdf

124. Воронов, Д. С. Оценка конкурентоспособности множества предприятий / [Электронный ресурс] // Д. С. Воронов // г. Екатеринбург: Вестник УрФУ. Серия: Экономика и управление. — 2015. — № 2. — С. 24-40. URL: https://elar.urfu.ru/bitstream/10995/55158/1/vestnik_2015_2_002.pdf

125. Гринберг, Р.С. Мифы о свободном рынке должны уйти в прошлое // Экономика для человека: социально-ориентированное развитие на основе прогресса реального сектора: Материалы Московского экономического форума. - Москва: - Культурная революция,- 27-mart-06 aprel. -2014. - с. 15-18.

126. Годовой отчет Всемирной Организации Здравоохранения о деятельности за 2019 г. / [Электронный ресурс] // Рим: 29 июня — 3 июля 2020 года URL: https://executiveboard.wfp.org/document_download/WFP-0000116971

127. Дагаев, А. Государственные гарантии для малого инновационного бизнеса / А. Дагаев // Проблемы теории и практики управления, - Moskva: – 2016. № 2. – с. 81-88.

128. Давлетгареев, Н. Р. Давлетгареева, Т. Б. Пути повышения конкурентоспособности предприятий / [Электронный ресурс] // Проблемы управления рыночной экономикой: межрегиональный сборник научных трудов. (Материалы конференций) — Томск: - Изд-во ТПУ, - 2015.— с. 76-81. URL: https://core.ac.uk/download/pdf/53083032.pdf

129. Евдошенко В.В. Государственное регулирование и поддержка агропромышленного комплекса в условиях реализации политики импортозамещения / В.В. Евдошенко,

А.Д. Котенев // Kant.- Ставропол: - 2016. - № 1 (18). - с. 102-106.

130. Епанчинцева С.Э. Развитие легкой промышленности: опыт зарубежных стран / С.Э.Епанчинцева // Вестник КазЭУ. - Алматы – 2012. – No 3. – с. 107–114. https://articlekz.com/article/13924

131. Кондратьев В.Б. Обрабатывающая промышленность секреты и тенденции, прямые инвестиции / [Электронный ресурс] // ИМЭМО РАН 8(136), - 2013, - с. 38-44 URL: https://www.imemo.ru/publications/info/obrabativayushtaya-promishlennosty-sekreti-i-tendentsii-tekst-vb-kondratyev-pryamie-investitsii-2013-8-s-41-45

132. Маршалл, А. Принципы экономической науки: [Электронный ресурс] / создатель https://www.library.ru/ Moskва: - 594 с. URL: https://web.archive.org/web/20220401083810id_/http://www.library.fa.ru/files/Marshall.pdf

133. Моламусов З.Х., Мисаков А.В. “Формирование конкурентной среды и конкурентных отношений” / [Электронный ресурс] // Экономические вестник Ростовского государственного университета 2018 Том 6-3 URL: https://cyberleninka.ru/article/n/formirovanie-konkurentnoy-sredy-i-konkurentnyh-otnosheniy/viewer

134. Международный Стандарт ISO 9000 Системы менеджмента качества основные положения и словарь / [Электронный ресурс] // CERT Akademy Москва: 2015. – URL: https://iso-management.com/wpcontent/uploads/2018/09/ISO-9000-2015.pdf

135. Об усилении борьбы с пьянством. Указ Президиум Верховного Совета СССР / [Электронный ресурс] // Москва: -

16 мая 1985 года N 2458-XI URL: https://docs.cntd.ru/document/9007335

136. Оукен В. Основные принципы экономической политики. — Moskva:
Прогресс, - 1995. — с.496.

137. Портер М. Конкуренция: [учебн. пособие,пер. с англ.] – Mosква: Издательский дом «Вильямс»,- 2001. – 495 с.

138. Радионова, И. А. Современные тенденции развития промышленности мира / И.А.Радионова, Т.В. Кокуйцева – Москва: - Изд-во РУДН, - 2014. – с.222.

139. Райзберг, Б.А. “Современный экономический словарь” / Б.А.
Райзберг, Л.Ш. Лозовский, Е.Б. Стародубцева; 6-е изд., перераб. и доп. –
Москва: ИНФРА-М. - 2011. - 157 с.

140. Сельское хозяйство в странах СНГ 2015-2020 Статистический сборник / [Электронный ресурс] // Москва: 2021, - с.326. URL: http://www.cisstat.info/0base/frame-rus.htm

141. Смит, А. Исследование о природе и причинах богатства народов /
Адам Смит; отв. ред. Л. И. Абалкин ; пер. с англ., ввод.ст., коммент. Е. М.
Майбурда. - Москва: - Наука,- 1993. - 569 с.

142. Садыгов, Ю. М. Аграрно-перерабатывающая промышленность в Азербайджане и направления ее устойчивого развития / [Электронный ресурс] // Science and Global Studies: тезисы докладов VIII Международной научной конференции Прага, Чехия: 17 мая 2021. URL: https://www.inter-nauka.com/issues/conf-2021/may/7258

143. Садыгов, Ю. М. “Место и роль государства в развитии государственно-частного партнерства в Азербайджане” / [Электронный ресурс] / Science an d Global Studies: тезисы докладов VII Международной научной конференции (Прага, Чехия, «15» апреля 2021 года)

URL: https://www.inter-nauka.com/issues/conf-2021/april/7089

144. Садыгов, Ю. М. Азербайджан и Глобальная Продовольственная Безопасность: Позиции и Перспективы. / Ю.Садыгов, Ф.Рустамов, Л.Исаева // Научный журнал “Фундаментальные исследования” Экономические науки. Москва: - 2021.№ 5. – с.75-80.

URL: https://fundamental-research.ru/ru/article/view?id=43041

145. Скидельски Р. Джон Мейнард Кейнс. 1883-1946. Экономист,

философ, государственный деятель / Р. Скидельски; Пер. с англ. Демида Васильева. – Москва: Московская школа политических исследований, - 2005. - Т. 1. -784 с. https://biblio.school/wp-content/uploads/2021/12/Skidelski-R._Dzhon-Mejnard-Kejns-1883-1946_ekonomist-filosof-gosudarstvennyj-deyatel-Tom-1.pdf

146. Rубилин, А. И. Ценовая политика в аграрном секторе экономики / А.И. Rубилин, В.В. Сидоренко, А.Б. Мельников, [и др.] // [Электронный ресурс] // Международный сельскохозяйственный журнал 2019 -№ 1 (367) – с. 8-11 URL: https://cyberleninka.ru/article/n/tsenovaya-politika-v-agrarnom-sektore-ekonomiki

147. Фридман, М. Капитализм и свобода / [Электронный ресурс] // M.Fridman Пер. с англ. Москва : Новое издательство, - 2006. - 240 с.
URL: https://gtmarket.ru/files/book/milton-friedman-capitalism-and-freedom.pdf

148. Фридман, М. Свобода выбирать: наша позиция /[Электронный ресурс] // М. Фридман, Р.Фридман. - Moskva: - Новое издательство, - 2007. – с.356. URL: https://nonews.co/wp-content/uploads/2016/02/Fridmen_-_Svoboda_vybirat.pdf

149. Фролова, О.А. Система государственной поддержки сельского хозяйства в современных условиях / О.А. Фролова, Е.А. Бессонова, С.Ю. Петрова // Вестник Курской государственной сельскохозяйственной академии. - 2013. - № 8. - С. 28-31.

150. Фархутдинов, Р. А. Сущность конкурентоспособности” / [Электронный ресурс] www. Cyberleninka.ru / Москва: - 2020. - с.99-129.
URL: https://cyberleninka.ru/article/n/suschnost-konkurentosposobnosti/viewer

151. Харченко, Е.В. Государственное регулирование национальной экономики. Учебное пособие для студентов высших учебных заведений / Е.В. Харченко, Ю.В. Вертакова. – Москва: Кнорус, - 2019. - 326 с.

152. Черчилл, У. Собрник произведений. / У. Черчилл, - Москва,полит.изд., - 1948. – с.560.

### İngilis dilində

153. About Us. The National Venture Capital Association (NVCA) website / [Electronic resource] // Washington: - URL: https://nvca.org/about-us/

154. Agriculture improvement act of 2018. Public law 115–334—dec. 20, 2018 / [Electronic resource] // Congress: - URL: https://www.congress.gov/115/plaws/publ334/PLAW-115publ334.pdf

155. Byukenen C. “Public Finance in Democratic Process: Fiscal Institutions and Individual Choice” / [Electronic resource] // Liberty Fund 1999 p.336 / URL: https://www.econlib.org/library/Buchanan/buchCv4.html, URL: https://storage.googleapis.com/catalog.libertyfund.org/PDFPreview/Buchanan_PublicFinance_1724_preview.pdf

156. European Clusters alliance The common voice for european clusters / [Electronic resource] / URL: https://clustersalliance.eu/

157. European Cluster Observatory. Home. website. / [Electronic resource] // URL: https://clustercollaboration.eu/tags/european-cluster-observatory

158. European Cluster Policy Forum. / [Electronic resource] // European Union: - 2018. - URL:https://www.nca.cz/media/ai2jiqmk/1stecpf_input_paper.pdf

159. European Clusters Alliance. website. / [Electronic resource] // Brussels: 2022 – URL: https://clustersalliance.eu/

160. Food and Agriculture Organization of the United Nations (FAO) / [Electronic resource] / URL: https://www.fao.org/documents/card/ru/c/cb4477en/

161. French Economy Dashboard / [Electronic resource] // INCEE URL: https://www.insee.fr/en/outil-interactif/5543645/details/70_SAC/71_AGR/71A_Figure1

162. FAO statistics. Statistical yearbook 2022 / [Electronic resource] // URL: https://www.fao.org/3/cc2211en/cc2211en.pdf

163. Farmers Credit System Insurance Corporation, FCSIC, General information / [Electronic resource] // - URL: https://www.fcsic.gov/about/general-information#

164. Gilder, George Wealth and poverty Toronto; New York : Bantam
Books. – 1981. – 392 P. URL:
https://archive.org/details/wealthpoverty00gild/page/n387/mode/2up

165. "Global Innovation Index 2022" World Intellektual Property Organization / [Electronic resource] / URL:
https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-2000-2022-en-main-report-global-innovation-index-2022-15th-edition.pdf

166. Global Innovation Index 2020 INSEAD / [Electronic resource] // The Business School for the World. URL:
https://www.insead.edu/sites/default/files/assets/dept/globalindices/docs/GII-2020-report.pdf

167. Innovation platform./ [Electronic resource]// European Cluster Collaboration Platform. European Union, 2023. URL: https://clustercollaboration.eu/tags/innovation-platform

168. Monetary Policy, Taxation, and International Investment Strategy,
Canto, Victor A; Laffer, Arthur B., Quorum Books, Connecticut. 1990. - 386 P.

169. Porter M. E. Development strategies for the 21st century social progress and competitive growth //Social Progress Imperative, Asuncion, Paraguay.[online] Retrieved from: URL: https://www.slideshare.net/slideshow/20130905-spi-paraguay-comp-presentation-final-for-web-26062594/26062594

170. Perroux F.A. New concept of development: Basic tenets / F.A. Perroux.
-London, Canberra, 1983. – 212 p. (Yaxud) URL: https://books.google.az/books?id=4hKsAgAAQBAJ&printsec=frontcover&redir_esc=y#v=onepage&q&f=false

171. Ralph E. Flanders. Federal Reserve History / [Electronic resource] // URL: https://www.federalreservehistory.org/people/ralph-e-flanders

172. Sadigov, Y. M. Person-centered approach effectiveness in human resource management in the agriculture of Azerbaijan / [Electronic resource] // Y.Sadigov, Sh.Guliyeva, N.Guliyeva, (and ets.) // Journal of eastern european and central asian research. Minneapolis, USA: - 2021. Vol.8. No.2. - s.267-279.
URL: https://ieeca.org/journal/index.php/JEECAR/article/view/713/324

173. Sadigov, Y. M., Gurbanov, A. A. Aspects of development of agricultural cooperation in Azerbaijan // [Electronic resource] / VIII International Scientific and Practical Conference "İnternational scientific innovations in human life", - Manchester, UK. - February 16-18, 2022. - art.520 URL: https://sci-conf.com.ua/wp-content/uploads/2022/02/INTERNATIONAL-SCIENTIFIC-INNOVATIONS-IN-HUMAN-LIFE-16-18.02.22.pdf

174. Sadigov, Y. M., Gurbanov, A. A. The main directions of economic rehabilitation of the regions of Azerbaijan liberated in the post-conflict period // [Electronic resource] / VII International Scientific and Practical Conference "Modern directions of scientific research development", - Chicago, USA: - December 22-24, - 2021. - art.699. URL: https://sci-conf.com.ua/wp-

content/uploads/2021/12/MODERN-DIRECTIONS-OF-SCIENTIFIC-RESEARCH-DEVELOPMENT-22-24.12.21.pdf

175. Sun Tea International. Sun Tea Azərbaycan / [Elektron resurs] // URL: https://azersun.com/en/activity-fields/qida/sun-tea-cay-fabriki

176. Sustainability in German Viticulture. Wines of Germany / [Electronic resource] // Deutsches Weininstitut GmbH URL: https://www.germanwines.de/knowledge/viticulture-winemaking/sustainability-in-german-viticulture/

177. Taxation and Customs Union / [Electronic resource] // European Comission. Brussels: - URL: https://taxation-customs.ec.europa.eu/customs-4/calculation-customs-duties/customs-tariff/eu-customs-tariff-taric_en

178. The sveriges riksbank prize in economic sciences in memory of Alfred
Nobel 1994. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economic-sciences/1994/summary/

179. The sveriges riksbank prize in economic sciences in memory of Alfred
Nobel 1996. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economic-sciences/1996/summary/

180. The sveriges riksbank prize in economic sciences in memory of Alfred
Nobel 2001. / [Electronic resource] // The Nobel Prize, URL: https://www.nobelprize.org/prizes/economicsciences/2001/summary//

181. UN DP Human Development Reports / [Electronic resource] // URL: https://hdr.undp.org/data-center/country-insights#/ranks 2020

182. UN Food and Agriculture Organization (FAO) report [Electronic resource] URL: https://www.fao.org/3/k5986r/k5986r.pdf

183. World Economic Forum https://www.weforum.org/ Global competitiveness index 2019 [Electronic resource] URL: https://www.weforum.org/reports/global-competitiveness-report-2019/

184. What is the WTO? World Trade Organization / [Electronic resource] //
URL: https://www.wto.org/english/thewto_e/whatis_e/whatis_e.htm

# ƏLAVƏLƏR

## Əlavə 1. Elmi təqdimatlar və nəşrlər

Bu monoqrafiyada əksini tapan elmi nəticələr və əsas müddəalar uzun illər ərzində aparılmış sistemli tədqiqatların nəticəsidir. Müvafiq məsələlər həm Azərbaycan Respublikasında, həm də xarici ölkələrdə keçirilmiş elmi konfranslarda dinlənilmiş, elmi ictimaiyyət tərəfindən müzakirəyə çıxarılmış və materiallar toplusunda dərc edilmişdir.

Aşağıda təqdim olunan beynəlxalq və respublika səviyyəli elmi tədbirlərdə aparılan tədqiqatın müxtəlif mərhələləri üzrə elmi müddəalar, nəticələr və təkliflər təqdim olunmuşdur:

- “Azərbaycanda torpaq islahatı – 20: Nailiyyətlər və perspektivlər” mövzusunda ümumrespublika elmi-praktik konfrans (Bakı, 2016);
- “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans” – “Müstəqil Azərbaycanın ərzaq təhlükəsizliyi və aqrar sahənin rəqabət qabiliyyəti” (Bakı, 2018);
- “Azərbaycan iqtisadiyyatı qlobal dünya iqtisadiyyatında dəyişikliklər dövründə” adlı elmi konfrans (Bakı, 2019);
- “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” adlı respublika elmi konfransı (Naxçıvan, 2020);
- “Science and Global Studies” VII və VIII Beynəlxalq elmi konfranslar (Praqa, Çexiya, 2020 və 2021);
- “Modern directions of scientific research development” VII Beynəlxalq elmi-praktik konfrans (Çikaqo, ABŞ, 2021);
- “International scientific innovations in human life” adlı beynəlxalq konfrans (Mançester, Böyük Britaniya, 2022);

- “Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri” Beynəlxalq Elmi Konfransı (Gəncə, 2022);
- “İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər” Respublika elmi-praktik konfransı (Bakı, Qərbi Kaspi Universiteti, 2022);
- “Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi” Beynəlxalq elmi-praktik konfrans (Bakı Biznes Universiteti, 2022).

Tədqiqatın nəticələri həmçinin aşağıdakı elmi nəşrlərdə əks olunmuşdur:

Mövzu üzrə 16 elmi məqalə dərc olunmuşdur. Bunlardan:

- 1 məqalə Scopus beynəlxalq elmi bazasında indeksləşən jurnalda,
- 1 məqalə Web of Science / RINC bazalarında indeksləşən elmi nəşrdə,

- 1 fərdi və 1 kollektiv monoqrafiya nəşr olunmuşdur.
- Eləcə də 10 elmi konfrans çıxışı və tezisi müvafiq tədbirlərin materiallarında dərc olunmuşdur.

Bu elmi təqdimatların əhatə dairəsi, həm yerli, həm də beynəlxalq səviyyədə aparılmış tədqiqatın elmi və praktiki dəyərini göstərir, aqroemal sahəsinin dövlət tənzimlənməsi ilə bağlı məsələlərin elmi cəhətdən əsaslandırılmasına və bu sahədə dövlət siyasətinin formalaşdırılmasına dəstək verir.

## Əlavə 2. Azərbaycanda əsas aqroemal məhsullarının istehsalı müstəqilliyin ilk illərində

| | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 |
|---|---|---|---|---|---|---|
| Ət (o cümlədən I kateqoriya köməkçi ət məhsulları) min ton | 61,1 | 48,1 | 28,2 | 17,8 | 10,2 | 5,5 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Kolbasa məmulatı min ton | 17,3 | 13,9 | 77 | 9,5 | 3,9 | 1,9 |
| Ət yarımfabrikatları min ton | 8,4 | 3,7 | 3,0 | 1,7 | 0,4 | 0,4 |
| Balıq ovu və digər dəniz məhsulları hasilatı min ton | 41,7 | 39,7 | 31,2 | 22,2 | 19,2 | 9,8 |
| Yeməli balıq məhsulları, balıq konservləri daxil olmaqla min ton | 25,1 | 23,8 | 14,5 | 5,9 | 5,0 | 4,1 |
| Mal-qara yağı min ton | 3,0 | 3,1 | 2,9 | 2,3 | 1,4 | 1,5 |
| Üzlü pendir min ton | 17,0 | 16,1 | 9,5 | 7,6 | 4,6 | 2,3 |
| Üzlü süd məhsulları (süd hesabı ilə) min ton | 202,7 | 175,4 | 81,1 | 49,8 | 40,3 | 10,2 |
| Marqarin məhsulları min ton | 19,1 | 18,3 | 10,2 | 6,0 | 3,6 | 1,0 |
| Bitki yağı min ton | 40,7 | 36,2 | 22,5 | 14,2 | 9,6 | 11,7 |
| Konservlər mln.şərti banka | 653,5 | 628,1 | 508,4 | 333,1 | 186,1 | 82,0 |
| Makaron məmulatı min ton | 23,1 | 22,8 | 16,9 | 14,3 | 10,0 | 4,9 |
| Mineral sular mln.yarımlitr | 161,0 | 97,6 | 13,7 | 6,5 | 1,5 | 1,0 |
| Duz min ton | 99,3 | 84,7 | 21,9 | 3,8 | 6,8 | 4,0 |
| Xalça və xalçaçılıq məmulatı min kv. m. | 2243 | 2446 | 1417 | 539 | 241 | 77 |
| Alkoqollu içkilər mln.dekalitr | 4,8 | 3,6 | 2.3 | 1,2 | 0,6 | 0,2 |
| Papiros və siqaretlər mld.əd. | 6,5 | 7,3 | 4,9 | 5,3 | 3,2 | 2.0 |

Mənbə: AR DSK "Azərbaycanın sənayesi" 1990-1995-ci illərin məlumatları əsasında müəllif tərtibatı [3]

**Əlavə 3. 1995-1999 cu illər bəzi aqroemal məhsullarının istehsal dinamikası**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Ət (o cümlədən köməkçi ət məhsulları) min ton | 5,5 | 15,0 | 12,5 | 13,7 | 13,5 |
| Balıq, balıq konservləri daxil olmaqla min ton | 4,1 | 3,5 | 4,1 | 3,1 | 5,1 |
| Kərə yağı min ton | 0,8 | 4,4 | 4,3 | 4,8 | 4,9 |
| Üzlü süd məhsulları (süd hesabı ilə) min ton | 10,2 | 195,5 | 199,0 | 219,0 | 223,2 |

Mənbə: AR DSK "Azərbaycanın sənayesi" 1995-2000-ci illər məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 4. Kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin dinamikası min ha.**

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi əkin sahələri | 1462,5 | 1207,9 | 1041,5 | 1327,9 | 1541,3 | 1585,4 | 1630,9 | 1535,0 |
| Dənlilər və dənli paxlalı bitkilər | 583,4 | 609,4 | 648,2 | 802,3 | 968,0 | 952,1 | 989,1 | 948,3 |
| O cümlədən: Buğda | 368,6 | 418,7 | 495,4 | 591,5 | 657,7 | 539,7 | 588,4 | 542,8 |
| Texniki bitkilər | 282,1 | 227,0 | 118,2 | 132,0 | 52,6 | 38,7 | 122 | 112,8 |
| O cümlədən: Pambıq | 263,9 | 210,4 | 101,2 | 112,4 | 30,2 | 18,7 | 100,3 | 93,7 |
| Tütün | 14,8 | 8,0 | 8,1 | 2,8 | 1,4 | 1,4 | 3,1 | 2,7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Şəkər çuğunduru | | | | | | 4,9 | 5,0 | 4,5 |
| Üzüm | 181,4 | 97,7 | 14,2 | 9,6 | 15,4 | 16,1 | 16,1 | 15,0 |
| Çay | 13,3 | 11,4 | 5,4 | 2,9 | 0,6 | 1,0 | 1,1 | 1,0 |
| Kartof, bostan və tərəvəz bitkiləri | 74,7 | 49,4 | 136,1 | 179,7 | 178,8 | 166,0 | 143,6 | 127,9 |
| Yemlik bitkilər | 522,3 | 322,1 | 139,0 | 213,9 | 384,5 | 428,6 | 376,2 | 346,0 |

Mənbə: AR DSK "Azərbaycanın kənd təsərrüfatı" 1990, 1995, 2000, 2005, 2010, 2015, 2020, 2022-ci illər məlumatları əsasında müəllif tərtibat

**Əlavə 5. Azərbaycanda əsas kənd təsərrüfatı məhsullarının istehsal dinamikası.**

| Göstəricilərin adı | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2023 | 2023-cü il 1990 müqayisə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin orta illik sayı mln.nəfər | 7,1 | 7,6 | 8,0 | 8,6 | 9,1 | 9,7 | 9,9 | 10,0 | 10,1 | 10,1 | 10,1 | 142 % |
| Taxıl istehsalı min.t. | 1413,6 | 921,4 | 540,2 | 126,7 | 2000,5 | 2999,4 | 2808,6 | 3309,2 | 3538,5 | 3257,1 | 3248,6 | 130 % |
| Adambaşına düşən taxıl kq. | 199,1 | 121.2 | 192,5 | 247,3 | 219,8 | 309,2 | 283,7 | 330,9 | 350,3 | 322,5 | 321,6 | 61% |
| Buğda min t. | 911,9 | 625,6 | 1174,7 | 565,8 | 1308,9 | 1687,7 | 1818,7 | 2014,9 | 2171,5 | 1867,3 | 1827,3 | 100 % |
| Adambaşına düşən buğda kq. | 128,4 | 82,3 | 146,8 | 182,1 | 143,8 | 174,0 | 183,7 | 201,5 | 215,0 | 184,9 | 180,9 | 41% |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kartof min t. | 185,2 | 155,5 | 469,0 | 1083,1 | 953,7 | 839,8 | 913,9 | 898,9 | 1004,2 | 1037,6 | 1010,5 | 446% |
| Adambaşına düşən kartof kq. | 26,1 | 20,5 | 58,6 | 125,9 | 104,8 | 86,6 | 92,3 | 89,9 | 99,4 | 102,7 | 100,0 | 283% |
| Şəkər çuğunduru min.t. | - | - | - | 36,6 | 251,9 | 184,3 | 410,1 | 277,2 | 218,5 | 233,8 | 206,1 | - |
| Meyvə-giləmeyvə min t. | 367,4 | 324,4 | 477,0 | 625,7 | 729,5 | 888,4 | 954,8 | 1010,8 | 1099,7 | 1133,1 | 1261,3 | 243% |
| Adambaşına düşən meyvə giləmeyvə kq. | 51,7 | 42,7 | 59,6 | 72,8 | 80,2 | 91,6 | 96,4 | 101,1 | 108,9 | 112,2 | 124,8 | 141% |
| Bostan məhsulları min t. | 74,0 | 73,0 | 98,0 | 363,8 | 433,6 | 484,5 | 438,1 | 401,9 | 447,6 | 448,1 | 438,2 | 492% |
| Adambaşına düşən bostan məhsulları kq. | 10,4 | 9,6 | 12,3 | 42,3 | 47,6 | 49,9 | 44,3 | 40,2 | 44,3 | 44,4 | 43,4 | 317% |
| Ət istehsalı min.t. | 175,5 | 82,0 | 108,7 | 149,6 | 244,9 | 298,6 | 316,8 | 326,0 | 335,7 | 346,0 | 379,7 | 116% |
| Adambaşına düşən ət istehsalı kq. | 24,7 | 10,8 | 13,6 | 17,4 | 26,9 | 30,8 | 32,0 | 32,6 | 33,2 | 34,3 | 37,5 | 52% |
| Süd istehsalı min t. | 970,4 | 826,5 | 1031,1 | 1251,9 | 1535,7 | 1924,5 | 2024,1 | 2080,4 | 2150,8 | 2192,5 | 2284,0 | 135% |
| Adambaşına düşən | 136,7 | 108,7 | 128,9 | 145,6 | 168,8 | 198,4 | 204,5 | 208,0 | 212,9 | 217,1 | 226,1 | 65% |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| süd istehsalı kq. | | | | | | | | | | | | |
| Yumurta istehsalı mln.əd. | 985,3 | 471,2 | 542,6 | 874,6 | 1178,6 | 1552,9 | 1714,0 | 1676,2 | 1827,1 | 1906,2 | 2188,2 | 122% |
| Adambaşına yumurta ist. əd. | 139 | 62 | 68 | 102 | 130 | 160 | 173 | 168 | 181 | 189 | 216,6 | 56% |
| Yun (fiziki çəki) min tonla | 11,2 | 9,0 | 10,9 | 13,1 | 15,6 | 17,0 | 16,0 | 15,8 | 16,1 | 16,1 | 15,1 | 35% |
| Pambıq istehsalı min t. | 542,9 | 274,1 | 91,5 | 196,6 | 38,2 | 35,2 | 207,5 | 233,6 | 295,3 | 336,8 | 276,3 | 2 dəfə azalıb |
| Üzüm istehsalı min t. | 1196,4 | 308,7 | 76,9 | 79,7 | 129,5 | 157,1 | 152,8 | 167,6 | 201,8 | 208,0 | 224,5 | 5,3 dəfə azalıb |
| Tütün istehsalı min t. | 52,9 | 11,7 | 17,3 | 7,1 | 3,2 | 3,5 | 5,3 | 6,3 | 6,0 | 6,9 | 6,3 | 8,4 dəfə azalıb |
| Çay istehsalı min t. | 30,7 | 9,4 | 1,1 | 0,74 | 0,54 | 0,58 | 0,78 | 0,87 | 0,93 | 0,93 | 1,1 | 28 dəfə azalıb |

Mənbə: AR DSK-nın "Azərbaycanın kənd təsərrüfatı", "Azərbaycanın ərzaq balansları" 1990, 1995, 2000, 2005, 2010, 2015, 2020, 2022-ci il məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 6 Suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatlarının əsas göstəriciləri. tonla**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023-cü ilin 2010 ilə nisbət |
|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4399 | 5386 | 10515 | 12771 | 14219 | 22089 | 5 dəfə |
| İdxal | 17188 | 10808 | 17412 | 21328 | 23143 | 26492 | 54% |
| Əhalinin istehlakı | 22164 | 14206 | 24301 | 28494 | 31644 | 39411 | 78% |
| Ixrac | 820 | 252 | 1210 | 1487 | 2009 | 2229 | 2,7 dəfə |

Mənbə: DSK "Ərzaq balansları" 2024 3.5. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 7 Tort və şirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları. tonla**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|
| İstehsal | 34497 | 40980 | 46018 | 56707 | 52993 | 56647 | 64% |
| İdxal | 14703 | 20723 | 14231 | 17202 | 18351 | 18904 | 29% |
| Əhalinin istehlakı | 48797 | 61362 | 59362 | 71662 | 69491 | 73127 | 50% |
| İxrac | 325 | 189 | 326 | 356 | 1142 | 1235 | 3,8 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 3.6. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

## Əlavə 8 Kakao, şokolad, şəkərli-unlu qənnadı məmulatları. tonla

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2022 il 2010 nisbət |
|---|---|---|---|---|---|---|---|
| İstehsal | 4615 | 3633 | 11275 | 14361 | 10747 | 10460 | 2,3 dəfə |
| İdxal | 17317 | 19484 | 27264 | 30311 | 28987 | 31520 | 82% |
| Əhali istehlakı | 20642 | 22755 | 33794 | 38005 | 35157 | 37189 | 80% |
| İxrac | 1735 | 2685 | 1835 | 2647 | 4591 | 3523 | 2 |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 3.7. https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

## Əlavə 9. Meyvə-tərəvəz konservlərinin və şirələrinin əsas göstəricilərinin dinamikası

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2000 nisbət |
|---|---|---|---|---|---|---|---|---|---|
| Meyvə-tərəvəz konservləri min t. | | | | | | | | | |
| İstehsal | x | 23,2 | 137,1 | 134,8 | 161,0 | 175,8 | 183,9 | 186,1 | x |
| İdxal | 2,4 | 8,3 | 15,1 | 22,2 | 23,6 | 28,5 | 33,3 | 35,0 | 14,6 dəfə |
| İxrac | 3,2 | 5,1 | 4,7 | 3,1 | 7,4 | 9,1 | 10,2 | 11,6 | 3,6dəfə |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Meyvə-tərəvəz şirələri min t.<br>İstehsal<br>İdxal<br>İxrac | x<br>1,5<br>1,9 | x<br>19,2<br>26,9 | x<br>10,3<br>18,7 | 20,8<br>4,2<br>6,7 | 39,5<br>2,6<br>11,9 | 44,0<br>3,1<br>12,7 | 53,9<br>2,7<br>11,2 | 48,2<br>2,7<br>16,1 | x<br>1,8d<br>8,5dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 17. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

*x-DSK-nın hesabatlarında bu məlumatlar yoxdur.*

**Əlavə 10. Adambaşına meyvə-tərəvəz konservləri və şirələrinin istehlakı. kq-la**




Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2024 s.84 https://www.stat.gov.az/source/food_balances/ əsasında müəllif tərtibatı

**Əlavə 11. Bitki yağlarının əsas göstəricilərinin dinamikası**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2023 il 2000 nisbə |
|---|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | ti |
| İstehsal m. t. | 11,2 | 64,1 | 88,7 | 106,7 | 75,1 | 72,9 | 68,0 | 56,4 | 5 dəfə |
| İdxal min t. | 14,7 | 68,5 | 101,2 | 115,2 | 139,6 | 130,1 | 142,5 | 121,2 | 8,2dəfə |
| İxrac min t. | 5,3 | 18,1 | 27,9 | 23,5 | 14,0 | 15,1 | 12,1 | 9,3 | 1,8 dəfə |

Mənbə: DSK İqtisadi statistika "Ərzaq balansları" 2024 3.10. https://www.stat.gov.az/source/food_balances/ məlumatları əsasında müəllif tərtibatı

## Əlavə 12. Adambaşına bitki yağları istehlakı. kq-la




Mənbə: DSK "Azərbaycanın ərzaq balansı" 2024 s.84. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərtibatı

## Əlavə 13. Alkoqollu içkilər istehsalı. min dkl.

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Üzüm şərabı: Istehsal İdxal İxrac | 623,2 2,8 213,9 | 400,5 253,9 49,4 | 1169,7 201,5 223,9 | 1035,0 23,1 194,5 | 895,0 37,8 227,3 | 1011,6 47,0 263,4 | 1080,0 55,8 300,6 | 1282,1 76,6 317,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Pivə:<br>İstehsal<br>İdxal<br>İxrac | 711,0<br>845,2<br>x | 2490,0<br>118,3<br>x | 3771,0<br>182,8<br>x | 4196,5<br>203,1<br>x | 5466,5<br>547,3<br>x | 4707,3<br>373,7<br>x | 4683,5<br>358,3<br>x | 5263,3<br>385,5<br>x |
| Araq:<br>İstehsal<br>İdxal<br>İxrac | 450,4<br>24,7<br>x | 484,3<br>97,7<br>x | 884,9<br>26,7<br>x | 770,7<br>86,5<br>x | 1718,7<br>58,6<br>160,1 | 1783,8<br>74,5<br>259,4 | 1609,1<br>85,4<br>289,2 | 1438,8<br>87,9<br>475,3 |
| Viski, konyak:<br>İstehsal<br>İdxal<br>İxrac | 386,1<br>x<br>x | 17,5<br>x<br>x | 81,4<br>x<br>x | 3,8<br>x<br>x | 50,8<br>x<br>x | 33,5<br>x<br>x | 95,9<br>x<br>x | 331,9<br>X<br>x |
| Şampan şərabı:<br>İstehsal<br>İdxal<br>İxrac | 150,4<br>x<br>x | 61,8<br>x<br>x | 27,9<br>x<br>x | 4,5<br>x<br>x | 0,4<br>x<br>x | 0,4<br>x<br>x | 0,5<br>x<br>x | 0,4<br>X<br>x |
| Spirt:<br>İstehsal<br>İdxal<br>İxrac | -<br>217,5<br>x | -<br>151,7<br>x | -<br>135,6<br>x | -<br>70,1<br>x | 726,1<br>182,9<br>x | 980,9<br>176,3<br>x | 824,2<br>188,9<br>x | 965,0<br>226,3<br>x |

Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın xarici ticarəti" 2024 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərtibatı

x - *ayrılıqda viski, araq, konyak və şampan şərabları mal qruplarının idxal-ixrac məlumatları DSK və DGK-nin məlumatlarında əks olunmamışdır.*

**Əlavə 14. Adambaşına alkoqollu içkilərin istehlak dinamikası. litrlə**




Mənbə: DSK "Azərbaycanın sənayesi" və "Azərbaycanın demoqrafik göstəriciləri" 2024

https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ məlumatları əsasında müəllif tərəfindən hesablanaraq tərtib edilib

**Əlavə 15. Alkoqolsuz ickilərin, mineral və qazlı suların istehsal dinamikası. mln.dkl.**




Mənbə: DSK İqtisadi statistika "Sənaye" 2024 17.

https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

## Əlavə 16. Gön-dəri və ayaqqabı istehsalının əsas göstəriciləri

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Aşılanmamış dəri istehsalı ton. | x | x | x | x | 716,2 | 3301,4 | 4344,7 | 3936,5 |
| Hazır dəri istehsalı min kv. m. | 405,6 | 22,4 | 28,1 | 841,9 | 65,2 | 60,2 | 55,4 | 64,1 |
| İxrac: İribuynuzlu heyvanın dərisi min əd. | x | 444,9 | 862,5 | 850,3 | 295,3 | 496,7 | 531,0 | 351,3 |
| Emal olunmamış qoyun və quzu dəriləri min əd. | 1067,2 | 1225,6 | 1355,9 | 1447,3 | 532,8 | 584,0 | 1426,5 | 912,1 |
| Ayaqqabı istehsalı min cüt | 114,3 | 260,5 | 260,7 | 100 | 544,2 | 1214,0 | 1405,0 | 749,7 |
| Ayaqqabı idxalı min cüt | 8019 | 29417 | 4978 | 4650 | 31502 | 33390 | 32948 | 40399 |

Mənbə: DSK İqtisadi statistika "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Sənaye", "Ticarət" 2024. https://www.stat.gov.az/source/agriculture/, https://www.stat.gov.az/source/industry/, https://www.stat.gov.az/source/trade/ məlumatları əsasında müəllif tərtibatı

### Əlavə 17. Qida məhsullarının tövsiyə olunan istehlakı, kq/il/adam

| Ərzaq qrupları | ÜST normativləri | Rusiyanın normativləri | Belarusiyanın normativləri |
|---|---|---|---|
| Çörək və makaron məmulatları una çevrilməklə | 120,5 | 95-105 | 94,3 |
| Kartof | 96,7 | 95-100 | 122,6 |
| Tərəvəz və bostan məhsulları | 140,3 | 120-140 | 136,5 |
| Meyvə və giləmeyvələr | 80,3 | 90-100 | 81,2 |
| Ət və ət məhsulları cəmi | 70,1 | 70-75 | 68,9 |
| Süd və süd məhsulları ( südə çevrilməklə) | 404 | 320-340 | 350,9 |
| Yumurta | 243 əd. | 260əd. | 256əd. |
| Balıq və balıq məhsulları | 18,4 | 18-22 | 21,3 |
| Şəkər | 36,5 | 24-28 | 30,6 |
| Bitki yağları | 13,1 | 10-12 | 11,4 |

Mənbə: http://www.gnicpm.ru/UserFiles/norma_2010_diet.pdf, http://www.belstat.gov.by/uploads/bgd_files/1400846577126327.zip, https://www.who.int/ru/news-room/fact-sheets/detail/healthy-diet əsasında müəllif tərtibatı

### Əlavə 18. Pambıq məhsulu üzrə fermer və emal müəssisələrinin gəlirlərinin hesablanması 2022-ci il

2,5 ton xam pambıq = 1 ton pambıq lifi +1,2 ton çiyid
2,5 ton xam pambıq = 1500-1600 manat fermerə çatır.
Dünya bazarında pambıq lifinin hər tonu 1360 $, yəni,2320 manat.
Hər ton çiyidin qiyməti 400 manat civarında müəyyənləşir.
Xam pambığın ilkin emal xərci (2,5 ton üçün) – 170-180 manat

Pambıq emalı zavoduna 2,5 ton xam pambıqdan 2720 m.-1600m.-180m.=920m

Deməli 2,5 ton pambıqdan fermerin ümumi gəliri 1500-1600 manat olur. Bura pambığın başa gəlməsinə çəkilən xərclər də daxildir. (şumlama, suvarma, yığım, daşınma, toxum və s. xərclər.)

Mənbə: müəllifin tərtibatı

**Əlavə 19. Ölkəyə idxal olunan iribuynuzlu diri mal-qaranın statistikası. baş.**

| İllər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Baş sayı | 119044 | 104847 | 74809 | 51574 | 49878 | 92301 |

Mənbə: DSK "Azərbaycanın xarici ticarəti" məlumatları əsasında müəllif tərtibatı

**Əlavə 20. Aqroemal məhsullarının istehsal həcmi və ona təsir edən amillər. mln.man.**

| | Aqroemal sahəsində məhsul istehsalının həcmi | Aqroemal sektoruna əsas kapitala yönəldilən investisiyaların miqdarı | Aqroemal sahəsində yaranmış əlavə dəyərin həcmi | k\t məhsullarının istehsal həcmi | k\t-na qoyulan investisiyaların miqdarı | k\t əsas fondların həcmi | Əhalinin pul gəlirlərinin həcmi |
|---|---|---|---|---|---|---|---|
| | y | X1 | X2 | X3 | X4 | X5 | X6 |
| 2008 | 1544,9 | 77,3 | 281,9 | 3505,9 | 336,5 | 4521,9 | 20734,4 |
| 2009 | 1695,2 | 69,2 | 510,0 | 3805,5 | 266,6 | 4868,1 | 22601,1 |
| 2010 | 2117,1 | 71,7 | 548,3 | 3877,7 | 431,0 | 5039,8 | 25607,0 |
| 20 | 2299,4 | 88,0 | 596,6 | 4524,2 | 437,3 | 5271, | 30524, |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 11 | | | | | | 4 | 6 |
| 20 12 | 2769.9 | 162,9 | 674,0 | 4844,6 | 648,8 | 5611, 9 | 34769, 5 |
| 20 13 | 2518,1 | 177,6 | 674,0 | 5244,6 | 574,3 | 5852, 3 | 37562, 0 |
| 20 14 | 2666,8 | 107,0 | 707,9 | 5225,8 | 363,9 | 6106, 4 | 39472, 2 |
| 20 15 | 2532,5 | 111,6 | 681,1 | 5635,3 | 355,4 | 6355, 2 | 41744, 8 |
| 20 16 | 3230,1 | 68,5 | 738,7 | 5632,4 | 325,1 | 6891, 2 | 45395, 1 |
| 20 17 | 3302,4 | 152,8 | 819,2 | 6580,0 | 617,8 | 7141, 2 | 49187, 9 |
| 20 18 | 3401,9 | 296,6 | 818,9 | 7010,0 | 764,4 | 7441, 1 | 53103, 7 |
| 20 19 | 4266,8 | 196,8 | 1066,0 | 7836,7 | 769,5 | 8379, 9 | 56769, 0 |
| 20 20 | 4747,9 | 268,8 | 1450,2 | 8428,9 | 520,6 | 8524, 0 | 55754, 1 |
| 20 21 | 5664,4 | 239,1 | 1531,3 | 9163,4 | 341,9 | 9230, 3 | 57206, 8 |
| 20 22 | 6222,8 | 253,0 | 1707,8 | 10984,2 | 408,0 | 10118 ,4 | 69163, 0 |

Mənbə: DSK-nin hesabatları əsasında müəllif tərtibatı

## İXTİSARLAR VƏ ŞƏRTİ İŞARƏLƏRİN SİYAHISI

AAK – Ali Attestasiya Komissiyası
Aİ – Avropa İttifaqı
AB – Avropa Birliyi
ABŞ– Amerika Birləşmiş Ştatları
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
ASK – Aqrar Sənaye Kompleksi
AR – Azərbaycan Respublikası
AKIA – Aqrar Kredit və İnkişaf Agentliyi
BMT –Birləşmiş Millətlər Təşkilatı
DSK – Dövlət Statistika Komitəsi
DKK – Dövlət Kömrük Komitəsi
ETTKİ – Elmi Tədqiqat və Təcrübə-Konstruktor İşləmələri
ƏDV – Əlavə Dəyər VergiSİ
İİİ – İnsan İnkişafı İndeksi
İN - İqtisadiyyat Nazirliyi
KOBİA – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
KOB – Kiçik və Orta Biznes
Qİİ – Qlobal İnnovasiya İndeksi
MDB – Müstəqil Dövlətlər Birliyi
NK – Nazirlər Kabineti
NVKA (NVCA) – Milli Vençur Kapitalı Assosiasiyası
SİF – Sahibkarlığın İnkişaf Fondu
ÜƏMT – Ümumdünya Əqli Mülkiyyət Təşkilatı
ÜDM - Ümumi Daxili Məhsul
ÜİF - Ümumdünya İqtisadi Forumu
ÜST – Ümumdünya Səhiyyə Təşkilatı
ÜTT – Ümumdünya Ticarət Təşkilatı
YTM – Yüksək Texnoloji Məhsullar
ANAMA - Azerbaijan National Agency for Mine Action. (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik)



**Yunus Musa oğlu Sadıqov** 1959-cu ildə İsmayıllı rayonunda anadan olmuşdur. 1976-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və 1980-ci ildə həmin institutun əmtəəşünaslıq ixtisası üzrə ali təhsilini tamamlamışdır. 1980–1982-ci illərdə Əfqanıstanda hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətdən sonra əmək fəaliyyətinə İsmayıllı rayonunun Mollaisaqlı və Diyallı kəndlərində fəaliyyət göstərən üzümçülük sovxozlarında baş iqtisadçı kimi başlamış, 1987–1990-cı illərdə İsmayıllı rayon Aqrar-Sənaye Birliyində sədr müavini, 1990-cı ildən isə İsmayıllı rayon Ət-süd kombinatının direktoru vəzifəsində çalışmışdır. Dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesindən sonra 2014-cü ilədək sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur.

2014-cü ildən etibarən elmi fəaliyyətə başlamış və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda işə qəbul olunmuşdur. Hazırda institutun baş elmi işçisi kimi fəaliyyət göstərir. Paralel olaraq Bakı Biznes Universitetində pedaqoji fəaliyyətlə də məşğuldur.

Elmi fəaliyyətinə istehsalat sahəsində işlədiyi dövrlərdə başlayan Yunus Sadıqov 1986-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda "Bazara keçid şəraitində istehsalın və əməyin təşkilinin yeni formalarının tətbiqi" mövzusunda dissertasiya üzərində işə başlamış və 1993-cü ildə müdafiəsini uğurla başa vuraraq iqtisad elmləri namizədi elmi

dərəcəsini almışdır. 2019-cu ildə dosent elmi adını, 2025-ci ildə isə "Aqroemal sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsini qazanmışdır.

Yunus Sadıqov elmi fəaliyyəti dövründə 40-dan artıq məqalə və tezislərin müəllifidir. Onun əsərləri ölkə daxilində və xaricdə, o cümlədən nüfuzlu beynəlxalq elmi bazalarda – Scopus və Web of Science indeksli jurnallarda dərc edilmişdir. O, həmçinin bir fərdi və bir kollektiv monoqrafiyanın müəllifidir. Hazırkı əsər müəllifin ikinci fərdi monoqrafiyasıdır.

Müəllifin elmi fəaliyyətinin əsas istiqamətləri Azərbaycan iqtisadiyyatında dövlət tənzimlənməsi, aqrar-sənaye kompleksinin inkişafı və sahibkarlığın stimullaşdırılması məsələlərinə həsr olunmuşdur.

Ailəlidir, iki övladı var.